ABUZƏR XƏLƏFOV

AZƏRBAYCANDA KİTABXANA İŞİNİN TARİXİ

Dərslik
II hissə

Z73
X-48

ABUZƏR XƏLƏFOV

AZƏRBAYCANDA KİTABXANA İŞİNİN TARİXİ

Dərslik
(üç hissədə)

247902

II HİSSƏ
XX ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCANDA KİTABXANA İŞİNİN TARİXİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və kitabxana işi» bölməsinin 10.10.2007-ci il tarixli 4 nömrəli iclas protokolu ali məktəb tələbələri üçün dərslik kimi təsdiq edilmişdir.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – 2007

UOT: 021 (09)
KBT 78-30
X-49

Elmi redaktor: *pedaqoji elmlər namizədi, dosent*
K.Aslan

Rəyçilər: *tarix elmləri namizədi, dosent*
R.Kazımov

pedaqoji elmlər namizədi, dosent
E.Əhmədov

Xələfov Abuzər Alı oğlu
Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. II hissə. - Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2007.- 552 s.

«Azərbaycanda kitabxana işinin tarixi» dərsliyinin II hissəsi XX əsrin birinci yarısında respublikamizda kitabxanaların yaranması, inkişafı və formalaşması məsələlərinin tədqiqinə və təhlilinə həsr olunmuşdur.

Müəllif müxtəlif tipli və növlü kitabxanaların inkişaf xüsusiyyətlərini ölkənin ictimai-siyasi, elmi-mədəni və sosial-iqtisadi həyatı ilə vəhdətdə şərh etmiş, kitab nəşri, mətbuat və mədəniyyətin digər sahələri ilə sıx əlaqələndirmişdir.

Dərslikdə ilk dəfə olaraq Azərbaycan Demokratik Cümhuriyyəti dövründə kitabxana quruculuğu məsələləri konkret faktlar və rəqəmlər əsasında təhlil edilmiş, indiyədək qaranlıq qalan bir çox məsələlərə aydınlıq gətirilmişdir.

Dərslikdə mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin tarixinin cəmiyyətimizin tarixi ilə əlaqədar şərh edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Dərslikdə kitabxana işinə dair sovet tarixşünaslığında formalaşmış ehkamlar yeni baxımdan təhlil edilmiş, kitabxananın sosial funksiyalarına dair müddəalar kommunist ideologiyasından azad edilərək ümumbəşəri və milli dəyərlər müstəvisində yenidən işlənmişdir.

Dərslik kitabxanaşünaslıq-informasiya fakültəsinin tələbləri üçün nəzərdə tutulmasına baxmayaraq, ondan müəllimlər, mütəxəssislər və mədəniyyət tarixinin tədqiqatçıları da faydalana bilərlər.

$X\frac{4405000000-33}{658(07)-058}-058-2007$

© «Bakı Universiteti» nəşriyyatı, 2007

I FƏSİL
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA KİTABXANA İŞİ (1901-1920-ci illər)

§1.1. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və iqtisadi hərəkatın kitabxana işinə təsiri

XX əsrin əvvəllərində Azərbaycan müstəmləkə ölkəsi olaraq qalır, Azərbaycan kəndində feodal münasibətləri hökm sürürdü. Yalnız Bakıda neft sənayesinin inkişafı onun kapitalist inkişaf yoluna düşməsində mühüm rol oynayırdı. Bu da xarici kapitalın Bakıya axıb gəlməsinə şərait yaradırdı.

XX yüzilliyin əvvəllərində Azərbaycan neft sənayesinin inkişaf sürətinə və məhsul istehsalına görə dünyada öncül mövqeyə çıxması Bakının böyük sənaye şəhərinə çevrilməsinə şərait yaratmışdı. Rusiyadan, Azərbaycanın kənd rayonlarından, həmçinin yaxın xarici ölkələrdən Bakıya fəhlə axını başlamışdı. Azərbaycanın əyalət şəhərlərində də kapitalizm tədricən inkişaf edir, kapitalist tipli müəssisələr yaranırdı. Bütövlükdə götürdükdə isə ölkənin sosial-iqtisadi strukturunda kapitalist istehsal üsulu hakim mövqeyə malik idi. Azərbaycanda Bakı ilə yanaşı, digər şəhər və qəzalarda da ticarət-sənaye burjuaziyasının mövqeləri möhkəmlənirdi. Ölkədə kapitalizmin inkişafı cəmiyyətin sosial-siyasi strukturunda əsaslı dəyişikliklərin baş verməsinə səbəb olmuşdu.

XX əsrin əvvəllərində Azərbaycan əhalisinin say artımı kapitalizmin inkişafı ilə bağlı idi. Şəhər əhalisi sürətlə artırdı. Şəhərlərdə yeni zavodların, fabriklərin, digər sənaye müəssisələrinin yaranması, işçi qüvvəsinə böyük tələbatın əmələ gəlməsi, Rusiyadan, Qafqaz regionundan və qonşu xarici dövlətlərdən fəhlələrin Bakıya axını üçün şərait yaratmışdı. Onların sayı 500 min nəfəri keçmişdi və ölkə əhalisinin 23,8 faizini təşkil edirdi. Bakıda kapitalizmin sürətli

inkişafı, yeni müəssisələrin işə düşməsi, fabrik və zavodlarda işləyə biləcək mütəxəssislərə, savadlı adamlara böyük ehtiyac yaratmışdı. Belə bir şəraitdə burjuaziya texniki tərəqqi ilə ayaqlaşa bilən insanların hazırlanmasında, təhsilin və mədəniyyətin inkişafında maraqlı idi.

Digər tərəfdən, Rusiyanı bürümüş inqilab dalğası Bakı burjuaziyasını da möhkəm silkələmiş, lərzəyə salmışdı. Hökumət inqilabın təzyiqi altında bir sıra demokratik islahatlar keçirməyə, maarif və mədəniyyətin inkişafı sayəsində ciddi güzəştlərə getməyə məcbur olmuşdu. Ölkənin ictimai həyatında böyük canlanma baş vermiş, demokratik ab-hava hiss edilməyə başlamışdı. Yerli dövlət orqanları yeni tipli məktəblərin, mədəniyyət müəssisələrinin yaradılmasına icazə verməyə, az da olsa vəsait ayırmağa da başlamışdı. Ölkədə gedən liberallaşma prosesi nəticəsində yeni-yeni cəmiyyətlər, qeyri-hökumət təşkilatları, birliklər yaranmağa başlamış, yerli xalqların mədəni inkişafına diqqət artırılmış, milli məsələnin qoyuluşunda və həllində dövlət siyasəti xeyli yumşalmışdı. Dövlətin milli dillərdə məktəblərin açılmasına, kitab nəşrinə, mədəni-maarif müəssisələrinin yaranmasına və kütləvi informasiya vasitələrinin inkişafına müqaviməti xeyli zəifləmişdi.

XX əsrin əvvəllərində Azərbaycanda milli müstəmləkəçilik zülmü hökm sürməkdə idi. Çar hökuməti azərbaycanlıların inkişafına, milli məktəblərin açılmasına, milli mədəniyyətin inkişaf etməsinə, milli mətbuatın yaranmasına cidd-cəhdlə mane olmağa çalışırdı. Yalnız 1905-1907-ci illər inqilabı ərəfəsində və inqilab illərində Azərbaycanın ictimai həyatında yeni bir dövr başladı. Bir çox maarif cəmiyyətləri, siyasi qruplar və partiyalar yarandı. Yeni məktəblər, mədəni-maarif müəssisələri, mətbəələr, nəşriyyatlar açıldı. Dövri mətbuat və digər dövri nəşrlər təsis olundu. Ədəbiyyat, musiqi və teatr geniş inkişaf yoluna qədəm qoydu. Ədəbiyyat, incəsənət və mədəniyyətin digər sahələrində görkəmli şəxsiyyətlər yetişməyə başladı. Bütün bunlar o dövrdə demokratik

hərəkata qoşulan görkəmli Azərbaycan ziyalılarının cidd-cəhdi, təzyiqi və böyük vətənpərvərliyi sayəsində baş verirdi. Getdikcə genişlənən, daha böyük milli ziyalı qruplarını əhatə edən bu demokratik hərəkat öz xarakteri etibarilə milli forma və mahiyyət daşımağa başlayırdı.

§1.2. XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi, mətbuat və kitab nəşri

§1.2.1. Xalq maarifi

1905-1907-ci illər inqilabı ərəfəsində və inqilab illərində çar hökumətinin xalq təhsili siyasətində bir liberallaşma baş vermiş, yerli xalqların dillərində məktəblər açmağa icazə verilmişdi. Doğrudur, milli dillərdə məktəblər açmaq üçün mütləq müvafiq hökumət idarələrindən icazə almaq lazım gəlirdi. İcazə almaq işi olduqca çətin, böyük bürokratik əngəllərlə müşayiət edilməsinə baxmayaraq, millətin maariflənməsi uğrunda ardıcıl mübarizə aparan xalqımızın qabaqcıl, vətənpərvər ziyalıları böyük çətinliklə də olsa bu işin öhdəsindən gəlirdilər. Çar mütləqiyyəti tərəfindən həyata keçirilən milli müstəmləkə zülmü maarif sisteminə daha pis təsir göstərirdi. Müstəmləkələrdə məktəblərin açılmasına, xüsusilə milli dillərdə məktəblərin yaradılması işinə dövlət tərəfindən demək olar ki, vəsait ayrılmırdı. Ayrılan cüzi miqdarda vəsait isə bəzən öz təyinatı üzrə xərclənmirdi. 1902-ci ildə hökumət Azərbaycanda xalq maarifinin ehtiyacları üçün 1,7 milyon manat pul ayırmışdı. Bu vəsaitdən isə Bakı quberniyasında hər adama düşən pay 79,3 qəpik, Yelizavetpol (Gəncə) quberniyasında 97 qəpik təşkil edirdi.[1]

Bütün bunlara baxmayaraq, XX əsrin əvvəllərində Azərbaycanda sosial-iqtisadi dirçəliş, xalq azadlıq hərəkatının yüksəlişi xalq təhsilinin inkişafına təkan verdi. Azərbaycanda ibtidai, ümumi orta, peşə-texniki məktəblərin, həmçinin qadınlar üçün məktəblərin şəbəkəsi genişlənməyə başlamış, təhsil işinə dövlət təşkilatları ilə yanaşı xeyriyyə cə-

miyyətləri, mədəni-maarif və s. cəmiyyətlər də qoşulmuşdu.

1902-ci ildə Bakı və Yelizavetpol quberniyalarının ərazisində 230 ibtidai məktəb fəaliyyət göstərirdi. Bu məktəblərdə 15 min nəfər şagird təhsil alırdı ki, bunun da 6,7 min nəfərini qızlar təşkil edirdi. Şagirdlərin az bir hissəsi – cəmi 3,6 min nəfəri azərbaycanlılar idi. Bu dövrdə Azərbaycanın şəhərlərində ibtidai sənət məktəblərinə böyük tələbat olmasına baxmayaraq, Bakı və Yelizavetpol quberniyalarında cəmi 472 nəfər şagirdin təhsil aldığı 4 sənət məktəbi yaradılmışdı. Sənət məktəblərində cəmi 91 nəfər azərbaycanlının[2] təhsil alması hökumət siyasətinin mürtəce mahiyyətini açıb göstərirdi. Halbuki XX əsrin əvvəllərində Azərbaycanın şəhərlərində yaşayan əhalinin böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi.

Bakıda və Azərbaycanın digər şəhərlərində orta təhsilli insanlara sənayenin inkişafı ilə əlaqədar böyük ehtiyac olduğu halda hökumət bu ehtiyacı ödəmək üçün heç bir ciddi tədbir görmürdü. 1902-ci ildə Azərbaycanda cəmi 8 orta və natamam orta məktəb fəaliyyət göstərirdi. Bunlardan altısı gimnaziya, ikisi isə natamam orta məktəb idi. Orta məktəblər Bakıda, Gəncədə və Şuşada yerləşirdi. İlk dəfə idi ki, Bakıda qadınlara məxsus iki orta məktəb açılmışdı. Orta və natamam orta məktəblərdə 4,2 mindən artıq şagird təhsil alırdı ki, bunların da 235 nəfəri, yəni 5,6%-i azərbaycanlı idi. Əhalinin sayına görə götürüldükdə vəziyyətin daha acınacaqlı şəkildə olduğu ortaya çıxır. Belə ki, Bakı quberniyasında əhalinin hər on min nəfərinə 1,46 məktəb, 140 şagird, Yelizavetpol quberniyasında isə 1,64 məktəb, 132 şagird düşürdü.[3] Bu rəqəmlər çar Rusiyasının ucqarlarda apardığı milli müstəmləkə zülmünün əsas göstəricisi idi.

1905-1907-ci illər inqilabı dövründə qorxuya düşmüş mütləqiyyət rejimi maarif şöbəsinə az da olsa güzəştlərə getməyə məcbur olmuş, ibtidai və orta məktəblərin sayını artırmağa, məktəblərdə yerli xalqların dillərində tədris aparmağa icazə vermişdi. Hökumətin təhsil sahəsində apardığı

siyasətin liberallaşması xalq maarifinin inkişafına, məktəblərin və şagirdlərin sayının çoxalmasına səbəb olmuşdu. Həmçinin Azərbaycan dilində məktəblərin miqdarı və məktəblərdə təhsil alan azərbaycanlı şagirdlərin sayı xeyli çoxalmışdı. 1908-ci ilin statistikasına görə, Bakı və Yelizavetpol quberniyalarında şagirdlərin sayı 1902-ci ilə nisbətən 20,6 min nəfər, yəni 37 faiz artmışdı. Şagirdlərin 5 min nəfərdən çoxu azərbaycanlı uşaqlar olmuşdur ki, bu da 1902-ci ildəkindən 39 faiz çox idi.[4]

İnqilab illərində də ibtidai məktəblərə nisbətən orta məktəblərin və qızlar üçün məktəblərin sayı demək olar ki, artmamışdı. Orta məktəb şagirdlərinin sayı 1908-ci ildə 5519 nəfərə çatmışdı ki, bunun da ancaq 13 faizə qədərini azərbaycanlılar təşkil edirdi. Xalq maarifinin ən ləng inkişaf edən məsələlərindən biri azərbaycanlı qızların təhsili idi. Qızlar məktəbinin təşkilində dövlətin marağının olmaması, həmçinin bu dövr Azərbaycan mühitində mövcud olan dini fanatizm, ruhanilər də qızların təhsil almasına hər vəchlə mane olmağa çalışırdılar. Ancaq XX əsrin əvvəllərində Azərbaycanda genişlənən böyük maarifçilik hərəkatı və bu hərəkatın təşkilatçıları olan H.B.Zərdabi, M.Ə.Sabir, M.Hadi, H.Cavid, N.Nərimanov, C.Məmmədquluzadə, Ə.Hüseynzadə, A.Talıbzadə (şair), A.Səhhət, Ü.Hacıbəyov, H.Mahmudbəyli, R.Əfəndiyev və digərləri təhsil sisteminin genişlənməsi, azərbaycanlı uşaqların təhsil sisteminə cəlb edilməsi, orta məktəblərin genişləndirilməsi və qızlar üçün məktəblərin açılması uğrunda ciddi mübarizə aparırdılar. Onlar təhsil sisteminin milli dildə təşkilini tələb edirdilər. Azərbaycanın görkəmli milli ziyalılarının cidd-cəhdinə baxmayaraq, qızların təhsili acınacaqlı vəziyyətdə qalmaqda davam edirdi. 1908-ci ildə qadın gimnaziyası şagirdlərinin sayı orta təhsil müəssisələrindəki şagirdlərin ümumi sayının 31,5 faizini təşkil edirdi. Bunların içərisində azərbaycanlı qızların sayı 1,5 faizdən də az idi. Bu dövrdə ölkədə fəaliyyət göstərən dörd natamam orta məktəbdə cəmi 1038 şagird təhsil alırdı ki,

bunların da cəmi 2,8 faizi azərbaycanlılar idi, qızlar isə 0,5 faiz təşkil edirdi.[5]

Çar üsul-idarəsinin təhsil siyasəti elə qurulmuşdur ki, burada fəhlə və kəndli uşaqlarının təhsil alması üçün böyük maneələr var idi. Ona görə də orta ümumi məktəblərdə və gimnaziyalarda oxuyan şagirdlərin böyük hissəsi kapitalistlərin, hökumət məmurlarının, ruhanilərin və ziyalıların uşaqları idi.

1905-1907-ci illər inqilabı məğlubiyyətə uğradıqdan sonra çar mütləqiyyəti tərəfindən maarif və mədəniyyət sahəsində edilmiş kiçik güzəştlər də ləğv edilmiş, təhsil sahəsində mürtəce qanunlar tətbiq edilməyə başlamışdı. Milli dillərdə təhsil almaq yenidən məhdudlaşdırıldı. Yeni milli məktəblər açmaq işinə böyük bürokratik əngəllər ciddi maneçilik törədirdi. İrtica illərində məktəblərdə hər cür tələbə təşkilatları bağlanır, açıq fikirli, milli ruhlu müəllimlər təqib edilirdi. İrtica illərində milli dillərə, milli mədəniyyətə qarşı yeni yürüş başlanmışdı. Hökumət bu yürüşə qarşı dayanan bütün maneələri amansızcasına süpürüb atırdı. Məhz bu dövrdə bir çox vətənpərvər ruhlu maarif xadimlərimiz güclü təzyiqlərə məruz qalmışdılar.

Bu vəziyyət uzun sürmədi. 1910-1914-cü illərdə Rusiyada inqilabi yüksəliş çar mütləqiyyətini geri çəkilməyə məcbur etdi. Yenidən maarif sahəsində, xüsusilə milli ucqarlarda güzəştlər edilməyə başlandı. Milli ziyalıların ciddi səyi nəticəsində milli dillərdə məktəblərin açılması, onların şəbəkəsinin genişlənməsi sürətləndi. Dövlət orqanları ilə yanaşı, XX əsrin əvvəllərində Bakıda və Azərbaycanın regionlarında yaranmış xeyriyyə cəmiyyətləri və digər cəmiyyətlər də əhalinin maariflənməsində, yeni milli məktəblərin yaradılmasında, savad kurslarının təşkilində, dərsliklərin, dərs vəsaitlərinin nəşrində yaxından iştirak edirdilər. Bu cəmiyyətlər içərisində «Səfa», «Nicat», «Nəşri-maarif», «Səadət» cəmiyyətləri xüsusilə fərqlənirdilər. Bu cəmiyyətlərin təşkil etdiyi məktəblər və kurslarla yanaşı, «Neft sənayeçiləri qurultayı»nın da məktəblər şəbəkəsi fəaliyyət göstərirdi.

İnqilabi yüksəliş illərində yeni açılan məktəblərin sayı çoxalmaqla şagirdlərin sayı da 1902-ci illə müqayisədə üç dəfə artmışdı. 1915-ci ilin məlumatına görə, Bakı və Yelizavetpol quberniyalarında və Zaqatala mahalında Maarif Nazirliyinin ibtidai məktəblərində şagirdlərin sayı 45 min nəfərə, o cümlədən qızların sayı 13,4 min nəfərə çatmışdı.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifinin vəziyyətinə ötəri də olsa nəzər saldıqda, bu dövrdə təhsil sahəsində baş verən prosesləri təhlil etdikdə, belə bir mənzərənin şahidi oluruq ki, çar hökuməti özünün indiyə qədər ucqarlarda apardığı təhsil siyasətinə sadiq qalmış, 1905-1907-ci illər inqilabı zamanı yeritməyə məcbur olduğu liberallaşma siyasətini irtica illərində yeni mürtəce siyasətlə əvəz etmişdi. Dediklərimizi təsdiq edən aşağıdakı statistik məlumata müraciət edək.

O dövr Qafqaz Tədris Dairəsinin rəsmi məlumatına əsasən, 1915-ci ildə Azərbaycanda məktəbə olan tələbatı ödəmək üçün 1745 məktəb lazım idi. Halbuki cəmi 380 məktəb fəaliyyət göstərirdi ki, bu da ehtiyac olandan 4,5 dəfə az idi.[6]

XX əsrin əvvəllərində fəaliyyət göstərən görkəmli maarif xadimləri milli dillərdə məktəb açılması, məktəb yaşlı bütün azərbaycanlı uşaqların məktəblərə cəlb edilməsi, milli dillərdə dərs deyə biləcək kadrların hazırlanması, dərsliklərin, dərs vəsaitlərinin yaradılması uğrunda fəal mübarizə apardıqlarından ciddi təzyiqlərə məruz qalırdılar. Xalqımızın görkəmli, fədakar maarif xadimlərinin ardıcıl mübarizəsinə baxmayaraq, 1917-ci il oktyabr çevrilişi ərəfəsində cəmi 23 orta məktəbin olması dediklərimizi bir daha təsdiq edir. Azərbaycandilli ümumtəhsil məktəblərini bitirən şagirdlərə təhsillərini davam etdirmək üçün şərait yox idi. Peşə-texniki məktəblərin təşkili tamamilə diqqətdən kənarda qalmışdı. Bakı şəhərinin neft sənayesində ixtisaslı fəhlələrə böyük ehtiyacı olduğu halda Azərbaycan dilində tədris aparan peşə-

texniki məktəblərinin açılmasına şərait yaradılmırdı. Azərbaycanda bircə ali məktəb belə yox idi. Hökumət isə ali məktəblərin təşkili haqqında ümumiyyətlə fikirləşmirdi.

§ 1.3. Mətbuat

XX əsrin əvvəlləri Azərbaycan mətbuatının tarixində mühüm mərhələ təşkil edir. Bu mərhələ Azərbaycan mətbuatının, xüsusilə Azərbaycan milli mətbuatının inkişaf mərhələsi kimi xarakterizə olunur. 1905-1907-ci illər inqilabından qorxuya düşən çar hökuməti yerlərdə yeni mətbuat orqanlarının, xüsusilə milli dillərdə qəzet və jurnalların yaradılması sahəsində ciddi güzəştlərə getməyə məcbur olmuşdu.

İnqilab cəmiyyətin bütün ictimai-siyasi həyatına təsir etmiş, yerli əhali içərisində mədəniyyətin, maarifin, mətbuatın inkişafına can atan, mütləqiyyət qarşısında demokratik, mütərəqqi tələblər irəli sürən, milli mədəniyyətin, xalq maarifinin ana dilində mətbuatın inkişafı uğrunda mübarizə aparan qüvvələrin meydana çıxmasına şərait yaratmışdı. Belə qüvvələrə xalqımızın mütərəqqi ziyalıları, görkəmli maarif, mədəniyyət, ədəbiyyat, elm, təhsil və ictimai xadimləri rəhbərlik edirdilər. Xalqımızın istiqlal mübarizəsi tarixində müstəsna rolu olmuş bu mütərəqqi insanlar Azərbaycan milli hərəkatının, milli ideologiyasının, azərbaycançılıq ideyalarının yaranması və formalaşmasında böyük xidmətlər göstərmişlər. Belə görkəmli ziyalılardan H.Zərdabini, C.Məmmədquluzadəni, N.Nərimanovu, Ü.Hacıbəyovu, M.Ə.Sabiri, M.Rəsulzadəni, Ə.Hüseynzadəni, Ə.Ağayevi, A.Talıbzadəni, H.Cavidi, Ə.Topçubaşovu, M.F.Axundovu, Ə.Haqverdiyevi və digərlərini misal göstərmək olar. XX əsrin əvvəllərində dövri nəşrlərin yaradılmasında və onların ideya istiqamətinin müəyyənləşdirilməsində Azərbaycan ziyalılarının rolu əvəzsizdir. Əgər XIX əsrin sonlarında Azərbaycan dövri mətbuatın nəşri sahəsində axırıncı yerlərdən birini tuturdusa, yəni cəmi beş adda dövri mətbuat nəşr edilirdisə,

bu rəqəm XX əsrin əvvəllərində xeyli çoxalmışdı. 1903-cü ildə Tiflisdə Qafqazda yeganə qəzet – «Şərqi-Rus» qəzeti çıxmağa başlamışdı. Bu qəzetin təsisçisi Məmmədağa Şahtaxtlı öz dövrünün təhsilli ziyalılarından biri olmaqla tezliklə qəzetin ətrafında böyük ziyalılar qrupunu toplamağa müvəffəq olmuşdu.[7] «Şərqi -Rus» qəzetində C.Məmmədquluzadə, H.Zərdabi, M.Ə.Sabir, A.Səhhət, M.S.Ordubadi, F.Köçərli, Ömər Faiq Nemanzadə və s. kimi bir çox məşhur ədib və şairlər iştirak edirdilər.

«Şərqi-Rus» qəzeti mədəniyyət, ədəbiyyat və dil məsələlərinə böyük diqqət yetirirdi.

1905-1907-ci illər inqilabı dövründə Azərbaycanda böyük inkişaf baş verdi. On bir yeni mətbuat orqanı meydana gəldi. 1906-cı ildə bütün Şərqdə və qonşu dövlətlərdə böyük əks-səda doğuran satirik «Molla Nəsrəddin» jurnalının nəşri Azərbaycan mətbuatı tarixində böyük hadisə oldu. Öz ideya istiqamətini milli azərbaycançılıq ideologiyasının təbliğinə yönəltmiş «Molla Nəsrəddin» jurnalı o dövrdə Şərq ölkələrində və Rusiyada bütün türkdilli xalqlar tərəfindən ən çox oxunan jurnal idi. Azərbaycan mətbuatı tarixində çox mühüm yer tutan bu jurnal XX əsrin əvvəllərindəki milli mətbuatımızın demokratik, sivil yolla inkişafı üçün təməl daşı olmaqla, milli azərbaycançılıq ideyalarının, maarifçilik ideyalarının yayılmasında, Azərbaycan ədəbiyyatının, elminin, incəsənətinin təbliğində mühüm rol oynamışdır. Bu jurnalın Azərbaycan mətbuatı tarixində ən böyük xidmətlərindən biri «Molla Nəsrəddin»çilər ədəbi publisist məktəbinin yaradılması olmuşdur. Bu məktəbin formalaşmasında iştirak edən görkəmli Azərbaycan ziyalıları milli mətbuatın gələcək inkişafında olduqca böyük xidmətlər göstərmişlər. «Molla Nəsrəddin» jurnalının bilavasitə təsiri altında 1905-1917-ci illər arasında Azərbaycanda «Bəhlul», «Tuti», «Zənbur», «Məzəli», «Babayi-Əmir» adlı satirik jurnallar nəşr edilməyə başladı.[8] Doğrudur, bu jurnallar «Molla Nəsrəddin» səviyyəsinə yüksəlməsələr də xalqımızın həyatında ol-

duqca mühüm rol oynamaqla öz ətraflarında xeyli oxucu kütləsi toplaya bilmişdilər. Həmçinin ölkəmizin maarif xadimlərinin bilavasitə rəhbərliyi və köməyi ilə uşaqlar və valideynlər üçün «Dəbistan», «Rəhbər», «Məktəb» adlı jurnalların nəşrə başlaması təqdirəlayiq idi. Belə jurnallar təhsil sisteminin formalaşması, tədris prosesinin təkmilləşməsi üçün böyük elmi-metodik əhəmiyyətə malik idi.

XX əsrin əvvəlləri Azərbaycanda xüsusilə qəzetçiliyin inkişafı, bu sahədə böyük şəbəkənin yaranması ilə fərqlənir. 1905-1907-ci illərdə mətbuat orqanlarının sayı 12-yə çatmışdı. Çar mütləqiyyəti tərəfindən həyata keçirilən hər cür təqiblərə, bürokratik əngəllərə baxmayaraq, 1917-ci ilə qədər Azərbaycanda 227 dövri mətbuat orqanı nəşr edilmişdir. 1917-ci ilə qədər nəşr edilən qəzet və jurnalların 60 faizi 1905-1907-ci illərin payına düşür.[9] Bu mətbuat orqanlarından 66 adda, yəni 30 faizinin Azərbaycan dilində nəşr edilməsi qısa zaman kəsiyində Azərbaycan ziyalılarının böyük qələbəsi idi.

Bu dövrdə Azərbaycan dilində həmçinin «Şərqi-Rus», «Həyat», «Tərcüman», «Füyuzat», «İrşad», «Təkamül», «Dəvət-Qoç», «Yoldaş», «Bakı həyatı», «Tazə həyat», «Tərəqqi», «İttifaq», «Həqiqət», «İqbal», «Yeni iqbal», «Açıq söz», «Hümmət», «Yeni Füyuzat» və s. mətbuat orqanları nəşr edilmişdir.

XX əsrin əvvəlləri Azərbaycan mətbuat orqanlarının həyatında həm də mətbuat təşkilatçılarının, peşəkar jurnalistlər nəslinin yetişməsi ilə fərqlənmişdir. Azərbaycanın qabaqcıl ziyalıları içərisindən onlarla qəzet və jurnal redaktorlarının yetişməsi dediklərimizi təsdiq edir. Məhz belə ziyalıların böyük peşəkarlığı sayəsində Azərbaycan mətbuatı böyük inkişaf yolu keçmiş, milli şüurun formalaşmasında, azərbaycançılıq ideyalarının təbliğində, ölkədə demokratiyanın inkişafında, çar Rusiyasının milli müstəmləkə zülmünə qarşı mübarizə aparılmasında böyük rol oynamışdır.

Belə redaktorlara misal olaraq M.A Şahtaxtlını («Şərqi-Rus»), Ə.Ağayevi («Həyat», «İrşad», «Tərəqqi»), Ə.Hüseynzadəni («Həyat», «Tərəqqi»), C.Məmmədquluzadəni («Molla Nəsrəddin»), H.Vəzirovu («İrşad», «Tazə həyat», «İttifaq», «Səda», «Sədayi-Vətən», «Sədayi-Haqq», «Sədayi-Qafqaz»), M.Ə.Rəsulzadəni («İrşad», «İqbal», «Yeni iqbal», «Açıq söz»), Ü.Hacıbəyovu («Tərəqqi», «Həqiqət», «Yeni iqbal», «Azərbaycan») və s. göstərmək olar.

XX əsrin əvvəllərində Bakıda rus dilində 119 adda qəzet və jurnal nəşr edilmişdir ki, bu da çap edilən dövri mətbuat orqanlarının 50 faizini təşkil edirdi.[10] Rus dilində isə «Kaspi», «Baku», «Bakinskie izvestiya», «Bakinskiy raboçiy» və s. qəzetlər nəşr edilirdi. Rusdilli mətbuatda Azərbaycanın iqtisadi, siyasi, mədəni və sosial durumu haqqında məsələlər qaldırılır, ölkədə bütün sahələrdə olan gerilik tənqid edilir, Azərbaycan xalqının tarixi, mədəniyyəti, mənəvi ənənələri haqqında məqalələr dərc edilirdi. Azərbaycanda və Rusiyanın digər şəhərlərində dərc edilən rusdilli mətbuat orqanlarında milli mətbuat xadimlərimizdən H.Zərdabinin, Ə.Ağayevin, Ə.Hüseynzadənin, E.Sultanovun, M.Şahtaxtlının, Ü.Hacıbəyovun çıxış etməsi xalqımızın elm, mədəniyyət və mənəvi ənənələrinin təbliğində böyük rol oynayırdı.

XX əsrin əvvəllərində ölkəmizdə nəşr edilən iri mətbuat orqanlarını azərbaycanlı sahibkarlar maliyyələşdirirdilər. Bu sahədə xalqımızın görkəmli xeyriyyəçi oğlu H.Z.Tağıyevin xüsusi rolu təqdirəlayiq olmuşdur. «Kaspi», «Həyat», «Açıq söz» qəzetləri və «Füyuzat» jurnalı onun vəsaiti hesabına nəşr edilirdi.

Beləliklə, milli mətbuat tarixində xüsusi mərhələ təşkil edən XX əsrin əvvəllərində hər cür çətinliklərə, təqiblərə baxmayaraq, 1917-ci ilin fevralına qədər Azərbaycanda 227 dövri mətbuat orqanı nəşr edilmişdir ki, onlardan 30 faizi, yəni 66 adda Azərbaycan dilində, 50 faizi, yəni 119 adda isə rus dilində olmuşdur.[11]

Məhz bu illərdə görkəmli Azərbaycan ziyalılarının milli mətbuatın yaranmasında, təşkilində və formalaşma-

sında iştirakı onun məzmunca inkişaf edib təkmilləşməsinə, cəmiyyət həyatının bütün sahələrində həlledici mövqe tutmasına, milli şüurun formalaşmasında mühüm rol oynamasına səbəb olmuşdur.

§ 1.4. Kitab nəşri

XIX əsrin axırlarından başlayaraq Azərbaycanın Bakı, Gəncə, Şamaxı və s. kimi böyük şəhərlərində kiçik mətbəələr və litoqrafiyalar təşkil edilməyə başlanmışdı. 1989-cu ilin məlumatına görə, Bakı şəhərində beş mətbəə və bir litoqrafiya olduğu halda, onların sayı əsrin axırında 16-ya çatmışdı. Ancaq bu mətbəələrin maddi-texniki bazası o qədər zəif idi ki, dövrün tələblərinə cavab vermirdi. Kitab çapı olduqca baha başa gəldiyindən Azərbaycan müəllifləri öz əsərlərini çap etmək üçün böyük çətinliklərlə üzləşirdilər.

XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifinin inkişafı, yeni mətbuat orqanlarının yaranması, əhalinin savadlılıq dərəcəsinin artması kitab nəşrinə böyük tələbat əmələ gətirmişdi.

1905-1907-ci illər inqilabından qorxuya düşən çar hökuməti mədəniyyət sahəsində, xüsusilə yeni nəşriyyatların, mətbəələrin yaradılması sahəsində öz siyasətini liberallaşdırmış, yeni mətbəələr açılmasına qoyulmuş maneələri qismən də olsa aradan qaldırmışdı. Yerli burjuaziya da fəhlələrin irəli sürdüyü mədəni tələbləri ödəməyə, o cümlədən kitab nəşrinin genişlənməsinə maraq göstərirdi. Ölkədə baş verən və getdikcə genişlənən inqilabi proses cəmiyyətin bütün üzvlərini, o cümlədən milli ziyalıları da hərəkətə gətirmişdi. Milli ədəbiyyatın nəşri uğrunda mübarizə qabaqcıl Azərbaycan ziyalılarının əsas vəzifələrindən birinə çevrilmişdi. Azərbaycan dilində kitab nəşr etmək, nəşriyyatlar, mətbəələr yaratmaq üçün böyük hərəkat başlamışdı.

Bu dövrdə böyük çətinliklə də olsa, görkəmli ziyalıların yaxından köməyi ilə Bakıda, Tiflisdə və digər böyük şə-

hərlərdə kitab və dövri mətbuatı nəşr etmək üçün mətbəələr açılmağa başladı. XX əsrin əvvəllərində Bakı Rusiyada inqilabi mübarizənin ön cərgəsində gedən şəhərlərdən biri kimi fəhlə hərəkatının mərkəzlərindən birinə çevrilmişdi. RSDFP Qafqaz Komitəsi Bakıda inqilabi təbliğatı gücləndirmək məqsədi ilə inqilabi ədəbiyyatın nəşrinə, qəzet və jurnalların buraxılmasına böyük diqqət yetirirdi. Bu məqsədlə bolşeviklər 1901-ci ildə Bakıda gizli "Nina" mətbəəsini təşkil etdilər.[12] O dövrdə "İskra" qəzetini və bir çox təbliğat xarakterli ədəbiyyatı çap edən bu mətbəə xeyli məşhurlaşmışdı. Birinci rus inqilabı ərəfəsində yaranmış sosial -demokrat "Hümmət" təşkilatı da öz mətbu orqanı olan "Hümmət" qəzetini nəşr etmək üçün gizli mətbəə yaratmışdı.[13] Əsasən sosialist ideyalarının təbliğinə xidmət edən bu mətbəələr, demokratik ruhlu ədəbiyyatın nəşrində, zəhmətkeşlərin mənafeyinin qorunmasında yaxından iştirak edirdilər. Azərbaycan sosial-demokratları azərbaycanlı fəhlələrin maariflənməsi uğrunda mübarizə işinə ciddi diqqət yetirirdilər.

Bu dövrdə fəaliyyətə başlayan belə mətbəələrdən biri Azərbaycan kitabının nəşri tarixində mühüm rol oynayan «Qeyrət» mətbəəsi olmuşdur. Məlum olduğu kimi, 1904-cü ildə o dövrdə Azərbaycanda yeganə mətbuat orqanı olan «Şərqi-Rus» qəzeti bağlanmışdı. 1905-ci ilin əvvəllərində M.A.Şahtaxtlı qəzetin mətbəəsini satmaq istədiyini bildirdi. C.Məmmədquluzadə çoxdan mətbəə almaq, burada qəzet, jurnal və kitablar nəşr etmək arzusunda idi. O öz yaxın dostu Ö.F.Nemanzadəyə müraciət edərək onunla birlikdə mətbəəni alıb ona «Qeyrət» adı verdilər.[14] Milli mətbuatımızın və onlarla elmi, kütləvi, bədii, siyasi, publisist əsərlərin, dərsliklərin və tərcümə kitablarının çap edilməsində, Azərbaycan kitab mədəniyyətinin inkişafında mühüm rolu olan bu mətbəə 1906-cı ilin aprelindən başlayaraq xalqımızın milli oyanışı tarixində böyük xidmətləri olan «Molla Nəsrəddin» jurnalını nəşr etməyə başladı. Bu jurnalın ətrafında toplanan xalqımızın görkəmli ziyalıları, şair və yazıçıları M.Ə.Sa-

bir, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ə.Nəzmi, Ə.Q.Qəmküsar, Ö.F.Nemanzadə və başqaları «Qeyrət» mətbəəsinin nəşriyyat fəaliyyətində də yaxından iştirak edirdilər. «Qeyrət» mətbəəsi bir neçə dildə – Azərbaycan, rus, fars və fransız dillərində əsərlər çap etmək iqtidarında olmuşdur.

Bu mətbəə qısa müddət ərzində çar senzurasının müqavimətini qıraraq C.Məmmədquluzadənin «Poçt qutusu», «Qurbanəli bəy» hekayələrini, Ə.Haqverdiyevin «Millət dostları» pyesini, Əhməd bəy Cavanşirin «Şerlər məcmuəsi»ni, A.O.Çernyayevskinin «Vətən dili» dərsliyini və s. əsərlərini çap etməyə müvəffəq olmuşdu.[15]

Tərcümə kitablarının çap edilməsinə mühüm diqqət yetirən mətbəə 1907-ci ildə Mirzə Mülküm xanın «Məbdəitərəqqi», «Şeyx və vəzir», Ağa Mirzə Ələkbərin «Tərcümeyi-istifta», Namiq Kamalın «Röya», Rəşid bəy Əfəndiyevin tərcüməsində Firdovsinin «Şahnamə»sindən «Rüstəm və Söhrab» hekayəsini çap etmişdi.

«Qeyrət» mətbəəsi həmçinin çar mütləqiyyətinə qarşı çevrilmiş siyasi, elmi, kütləvi kitabçaların nəşrinə də xüsusi diqqət yetirirdi. Bu cür kitabçaların çoxu rus, türk, fransız və s. dillərdən tərcümə edilirdi.

«Qeyrət» mətbəəsinin nəşr etdiyi kitabların repertuarı ilə tanışlıq bir daha göstərir ki, öz fəaliyyətini bilavasitə çar hökumətinin milli müstəmləkə siyasətinə qarşı çevirmiş bu mədəniyyət ocağı xalqın milli şüurunun formalaşmasında, demokratik, maarifçi ideyaların təbliğində mühüm rol oynamışdır.

XX əsrin əvvəllərində Bakı şəhərində fəaliyyət göstərən mətbəələr içərisində hələ XIX əsrin axırlarından fəaliyyətə başlayan H.Z.Tağıyev tərəfindən maliyyələşdirilən və idarə edilən «Kaspi» mətbəəsinin mühüm rolu olmuşdur.[16] Azərbaycan xalqının maariflənməsi uğrunda mübarizə aparan böyük xeyriyyəçi H.Z.Tağıyev bu mətbəədə xalqımızın adət-ənənələrinə, tariximizə, dinimizə aid kitablar çap etdirirdi. Mətbəə islam dinini təbliğ etmək məqsədilə 1904-cü

ildə H.Z.Tağıyevin maddi yardımı ilə Bakı qazisi Axund Mir Kərim ağanın rəhbərliyi altında «Kitabi-Kəşfül-Həqayiq-Təfsiri-Qurani-Şərif» adlı üçcildlik əsəri Azərbaycan və ərəb dillərində «Kaspi» mətbəəsində buraxmışdı.[17] Həmin əsərə görə II Sultan Əbdülhəmid H.Z.Tağıyevi «Məcidiyyə» ordeni ilə mükafatlandırmışdı. Dinimizin təbliğində böyük rolu olan bu kitabın nəşri dindarlara böyük hədiyyə idi. Bu mətbəə həmçinin 1905-ci ildə «Hamiyi-millət», 1907-ci ildə «İslam tarixi» kitablarını çap etmişdi.

«Kaspi» mətbəəsi ancaq dini kitablar deyil, həmçinin bədii, ictimai-siyasi və s. kitablar da nəşr edirdi. Xüsusilə I rus inqilabı və ondan sonra öz fəaliyyətini xeyli genişləndirən mətbəə 1908-1911-ci illərdə M.P.Vaqifin «Şerlər» kitabını, S.Qənizadə və Ə.Cəfərzadənin «Kilidi-ədəbiyyat», M.Mahmudbəyov və A.Səhhətin «Yeni məktəb», A.Şaiqin «Yaxşı arxa», «Tıq-tıq xanım», «Tülkü həccə gedir» əsərlərini və başqa kitabları da çap etmişdi. Öz dövrünün görkəmli ziyalılarından olan, kitab nəşrinə xüsusi əhəmiyyət verən İsa bəy Aşurbəyov 1912-ci ildə «Kaspi» mətbəəsini H.Z.Tağıyevdən 6 il müddətinə icarəyə götürmüşdü.[18] Bu müddətdə mətbəənin fəaliyyətində canlanma baş vermiş, mətbəə qəzet və jurnallar çap etməklə yanaşı xüsusilə Azərbaycan müəlliflərinin əsərlərinin nəşrinə geniş yer ayırmışdı. 1920-ci ilə qədər fəaliyyətini davam etdirən bu mətbəə sonrakı illərdə də müxtəlif məzmunda qiymətli kitablar nəşr etməyə müvəffəq olmuşdu.

Azərbaycan kitab nəşri tarixində XX əsrin əvvəlləri xüsusilə diqqəti cəlb edir. Məhz bu illərdə Azərbaycanda onlarla dövri mətbuat orqanı, qəzet və jurnallar nəşr edildiyi kimi, çoxlu miqdarda mətbəələr yaranmış, onların maddi-texniki bazası möhkəmlənmiş, yüksək çap texnikası ilə təchiz edilmişdi. 1920-ci ilə qədər Bakıda, Gəncədə, Naxçıvanda, Lənkəranda, Şəkidə, Tiflisdə, İrəvanda və s. 120-dən çox qəzet və jurnal nəşr edilmişdir ki, bunlardan 53 qəzet və 54 jurnal Azərbaycan dilində, 38 qəzet və 44 jurnal rus di-

24902

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

lində idi. Bu dövrdə fəaliyyət göstərən mətbəələrin sayı isə 30-dan çox olmuşdur.

XX əsrin əvvəllərində nəşriyyat işini xalqımızın maarif və mədəniyyətinin yüksəldilməsində əsas amillərdən biri hesab edən görkəmli ziyalılardan Orucov qardaşları, H.B.Zərdabi, İ.B.Aşurbəyli, Ə.Müznib, M.Mikayılov, M.Mirbağırov və başqaları nəşriyyat işi sahəsində böyük fəallıq göstərir, kitab çapı üçün mətbəələr təşkil edirdilər.

Bu mətbəələr içərisində öz nəşriyyatçılıq fəaliyyətinin hərtərəfliliyi, maddi-texniki bazası, poliqrafiya baxımından daha keyfiyyətli kitablar nəşr etməsi ilə fərqlənən mətbəə Orucov qardaşlarının elektrik mətbəəsi olmuşdur. 1905-1917-ci illərdə «Günəş», «Həqiqət», «Məlumat», «Kəliniyyət» və s. kimi müxtəlif ideyalı qəzet və jurnalları nəşr edən Orucov qardaşlarının elektrik mətbəəsi Azərbaycan kitab mədəniyyəti və nəşriyyat işi tarixində olduqca mühüm rol oynamış, milli Azərbaycan kitabının formalaşmasında faydalı işlər görmüşdür. Orucov qardaşları mətbəəsinin yaranması 1905-ci il inqilabı dövrünə təsadüf edir. Orucov qardaşları - Oruc, Qənbər və Abuzər öz dövrünün təhsilli ziyalılarından olmuş, 1905-ci ildə Bərdə şəhərindən Bakıya gəlmişlər. Kitab mədəniyyətinə, cəmiyyətdə kitabın roluna yüksək qiymət verən bu qardaşlar dünyagörüşü baxımından bir-birindən fərqlənsələr də onları kitaba, kitab çapına yüksək münasibət birləşdirirdi. Məhz buna görədir ki, onlar atababalarından qalma mülk və əmlakı satıb əldə etdikləri vəsait hesabına Bakıda bina kirayə götürmüş, mətbəə avadanlığı, çap maşınları alıb nəşriyyatçılıq işinə başlamışlar.

Mətbəə keçmiş Nikolayevski küçəsində milyonçu H.Z.Tağıyevin binasında yerləşirdi. Orucov qardaşları mətbəəsi öz dövrünün ən müasir çap maşınları, çap işinin son nailiyyətləri olan mətbəə avadanlığı ilə təmin edildiyindən poliqrafiya baxımından ən keyfiyyətli kitablar nəşr etmək imkanına malik idi. Həmçinin bu mətbəə o dövrün ən müasir mətbəələri kimi elektriklə işlədiyindən «Orucov qardaşlarının elektrik mətbəəsi» kimi tanınırdı.[19] Mətbəənin bu böyük üstünlükləri və imkanları onlara daha çox sifarişlər qəbul etmək, kitab repertuarını tədricən genişləndirmək imkanı vermişdi. Orucov qardaşları öz nəşriyyatçılıq fəaliyyətində kitab çap etməklə yanaşı, onun təbliğinə, daha çox tələbat olan kitabları çap etməyə üstünlük verirdilər. Bu mətbə ilk dəfə olaraq kitab biznesini təşkil etmək üçün Bakıda və Azərbaycanın ayrı-ayrı regionlarında kitab mağazaları və müvəkkillər şəbəkəsi yaratmışdı. Orucov qardaşları, həmçinin nəşr etdikləri hər bir kitabı satmaq, onları oxucuların diqqətinə çatdırmaq üçün nəşriyyat kataloqları nəşr edirdilər. Mətbəənin 1912-ci ildə nəşr etdiyi «Bəradərani Orucov kütübxanəsinin əsamulkütübü» adlı ticarət kataloqu böyük maraq doğurur. Bu kataloq mətbəənin kitab mağazalarında olan kitablarını alıcılar arasında təbliğ etməklə yanaşı, biblioqrafik mənbə kimi böyük mədəni əhəmiyyət kəsb edir.

Orucov qardaşlarının mətbəəsində Azərbaycan, rus, gürcü və fransız dillərində şriftlərin olması bir neçə dildə kitab çap etmək imkanı verirdi ki, bu da nəşriyyatın başqa mətbəələrə nisbətən daha məhsuldar işləməsi üçün şərait yaradırdı. Digər tərəfdən, mətbəədə müasir çap texnikasının tətbiq edilməsi mətbəənin məhsuldarlığını artırmış, yüksək keyfiyyətli, böyük tirajlarla kitablar çap etməyə, kitab çapı sahəsində inhisarçıya çevrilməsinə səbəb olmuşdu. Mətbəənin maliyyə vəziyyətinin yaxşılaşması kitab nəşrinin repertuarının genişlənməsinə, ideya istiqamətinin müxtəlifliyinə gətirib çıxarmışdı. Orucov qardaşlarının mətbəəsi müxtəlif elm sahələrinə dair kitablar nəşr edirdi. Nəşr edilən ədəbiyyatın məzmunu çox geniş idi. Burada bədii, elmi, kütləvi, siyasi, inqilabi, dini ədəbiyyat geniş yer tuturdu.

Orucov qardaşlarının 1913-1914-cü illərdə təkrar nəşr etdiyi «Bəradarani Orucov kütübxanasının əsamülkütübü» adlı ticarət kataloqları ilə tanışlıq bu nəşriyyatın Azərbaycan kitab nəşri tarixində çox böyük xidmətlərindən xəbər verir. Bu kataloqdan məlum olur ki, Orucov qardaşları

Azərbaycanın görkəmli şair və yazıçılarının, elm, mədəniyyət və incəsənət xadimlərinin, maarifçilərinin əsərlərini çap etməklə öz doğma xalqı qarşısında böyük xidmətlər göstərmişlər. Nəşriyyatın çap etdiyi kitablar içərisində H.Zərdabinin, C.Məmmədquluzadənin, N.Nərimanovun, M.Ə.Sabirin, S.Ə. Şirvaninin, M.Hadinin, A.Ş.Talıbzadənin, Ə.B. Haqverdiyevin, Ü.Hacıbəyovun, A.Səhhətin, M.S.Ordubadinin, Y.V.Çəmənzəminlinin və s. əsərləri mühüm yer tuturdu. Mətbəədə, həmçinin rus və xarici ölkə klassiklərindən tərcümələr, məlumat kitabları, lüğətlər və s. nəşr edilmişdir.

Orucov qardaşları nəşriyyatının fəaliyyətində milli dərsliklərin, dərs vəsaitlərinin, müxtəlif qiraət kitablarının nəşri Azərbaycan maarifi qarşısında böyük xidmət kimi qiymətləndirilməlidir. Heç də təsadüfi deyil ki, 1905-ci il rus inqilabından sonra keçirilən Azərbaycan müəllimlərinin birinci qurultayı ana dilində təlimi həyata keçirmək üçün maarif xadimləri qarşısında milli dildə dərsliklər və dərs vəsaitləri yaratmaq vəzifəsini qoymuşdu. Bu sahədə Azərbaycanın görkəmli maarif xadimlərindən A.Şaiq, R.Əfəndiyev, S.M.Qənizadə, A.Səhhət, M.Mahmudbəyov, S.S.Axundov, Ü.Hacıbəyov, F.Ağazadə böyük xidmətlər göstərmişlər. XX əsrin əvvəllərində Orucov qardaşları nəşriyyatı A.Şaiqin «Gülşəni ədəbiyyat», «Uşaq gözlüyü», «Gülzar», R.Əfəndiyevin «Uşaq bağçası», M.Mahmudbəyov, S.S.Axundov, F.Ağazadə, A.Talıbzadə, Ə.Əfəndizadənin tərtib etdikləri «İkinci dil», M.Mahmudbəyov və A.Səhhətin «Yeni məktəb» və «Üçüncü el», Q.R.Mirzəzadənin «Qafqaz coğrafiyası» dərsliklərini çap milli məktəblərimizin dərsliyə olan tələbatını ödəməkdə onlara böyük fayda vermişdi.

Orucov qardaşları nəşriyyatının xalqımızın böyük oğlu, bəstəkar, yazıçı, publisist, Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəyovun əsərlərini nəşr etmək sahəsində xidmətləri təqdirəlayiqdir. Nəşriyyat 1907-ci ildə Ü.Hacıbəyovun tərtib etdiyi «Türk-rus və rus-türk» lüğətini və «Hesab məsələləri» kitabını nəşr etmişdi. O dövrdə bu kitabların nəşri

böyük mədəni əhəmiyyətə malik idi. «Türk-rus və rus-türk» izahlı lüğəti uzun müddət oxucuların stolüstü kitabı olmuşdur. Nəşriyyat 1914-1915-ci illərdə Ü.Hacıbəyovun «Arşın mal alan», «Harun və Leyla» əsərlərini, həmçinin «Əsli və Kərəm», «O olmasın, bu olsun» əsərlərini nəşr etməklə Azərbaycan musiqisinə böyük xidmət göstərmiş oldu.[20]

XX əsrin əvvəllərində Bakı ilə yanaşı, Azərbaycanın əyalət şəhərlərində: Gəncə, Şuşa, Şamaxı, Lənkəran və Şəkidə fəaliyyət göstərən mətbəələr də Azərbaycan dilində kitablar çap edirdilər.

XX əsrin əvvəllərində kitab çapına yaranmış böyük ehtiyacı ödəmək üçün nəşriyyat və mətbəələrlə yanaşı, bir çox xeyriyyə cəmiyyətləri, idarə və müəssisələr, ayrı-ayrı ziyalılar da bu işə xüsusi diqqət yetirirdilər. Belə cəmiyyətlərə «Nəşri-maarif», «Nicat», «Səfa», «Səadət» və s. misal göstərmək olar. Bu xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyətində kitab nəşri mühüm yer tuturdu. Xalq arasında maarifin yayılmasına, ana dilində məktəblər açılmasına, əhalinin savadsızlığının ləğv edilməsinə çalışan bu cəmiyyətlər öz nəşriyyatçılıq fəaliyyətində ana dilində dərsliklər, dərs vəsaitləri çap etməyə üstünlük verirdilər. Doğrudur, bu cəmiyyətlərin maliyyə vəziyyətlərinin ağırlığı onlara bu mühüm işi geniş miqyasda həyata keçirməyə imkan verməsə də, onlar kitab nəşri sahəsində xeyli iş görməyə müvəffəq olmuşdular.

Beləliklə, yekun olaraq demək olar ki, XX əsrin əvvəllərində Azərbaycanda nəşriyyat işi sahəsində böyük inkişaf baş vermiş, 30-dan artıq mətbəə fəaliyyət göstərmiş, mətbəələrin poliqrafiya bazası xeyli möhkəmlənmiş, ən qiymətli elektrik çap maşınları ölkəmizə gətirilmiş, çapçılıq peşəsi əsas peşələrdən biri kimi təşəkkül tapıb inkişaf etmiş, peşəkar, öz işini yaxşı bilən çapçı mütəxəssislər yetişmişdir. Bütün bunlar kitab çapı işinin inkişafına böyük şərait yaratmış, kitab çapı işi öz məzmun və forması cəhətdən təşəkkül tapıb təkmilləşmişdir. Ölkəmizdə kitab çapını yüksək səviyyəyə qaldıra bilən, elm, bilik, mədəniyyət və siyasətin

bütün sahələrini əhatə edən əsərlər buraxan, çap texnikasının müasir tələblərinə cavab verən kitablar nəşr edən Orucov qardaşları nəşriyyatı kimi nəşriyyatlar meydana gəlib formalaşmışdı. Orucov qardaşları nəşriyyatının və digər nəşriyyatların və mətbəələrin cidd-cəhdi nəticəsində XX əsrin əvvəllərində 500 adda kitab çap edilmişdir.[21] Əlbəttə, o dövrün çətinliklərini nəzərə alsaq, bu olduqca qənaətləndiricidir. Ancaq bu rəqəm mübahisəlidir. Bu baxımdan Azərbaycan kitabının keçdiyi yolu işıqlandıran, Azərbaycan çap kitabı haqqında dəqiq elmi məlumat verən 1963-cü ildə çap edilmiş «Azərbaycan kitabı» (biblioqrafiya; 3 cilddə, I cild (1760-1920), 219 səhifə), olduqca qiymətli bir mənbədir. Bu kitabın I cildi görkəmli biblioqraf, bibliofil, kitabşünas, zəhmətkeş ziyalı Ə.Z.Əliyev tərəfindən tərtib edilmişdir. Biblioqrafiyada aparılan təsvir xronoloji qaydada-kitabların nəşr edildiyi ardıcıllıqla verildiyindən illər üzrə nəşr edilən kitabları müəyyənləşdirmək olduqca asandır.

Bu kitabda verilən məlumata görə, 1901-1920-ci illərdə Azərbaycan dilində 1075 kitab və kitabça nəşr edilmişdir. Əlbəttə, bu kitabların bir çoxunun respublikamızdan kənarda çap edilməsinə baxmayaraq, o dövr üçün çox böyük göstəricidir.

Bütün bunlar XX əsrin əvvəllərində Azərbaycanda nəşriyyat işinin böyük inkişaf yolu keçdiyini, təşəkkül tapıb formalaşdığını bir daha təsdiqləyir.

§ 1.5. 1901-1918-ci illərdə Azərbaycanda kitabxana işi

Kitabxanalar cəmiyyətin sosial strukturunda mühüm yer tutduğundan tarixən onların yaranması və inkişafı həmişə cəmiyyətdə baş verən proseslərlə bağlı olmuşdur. Bir qayda olaraq bütün ictimai-siyasi quruluşlarda cəmiyyət kitabxananın hamisi kimi çıxış etmiş, kitabxanalar yaratmış, onların inkişaf istiqamətlərini, vəzifələrini müəyyənləşdirmişdir. Beləliklə də kitabxana həmişə onu yaradan cəmiyyə-

tə xidmət etmiş, cəmiyyət üzvlərinin informasiya tələbatının ödənilməsinə, maariflənməsinə, təhsilinə, tərbiyəsinə və mədəni səviyyəsinin yüksəldilməsinə köməklik etmişdir.

Digər tərəfdən, kitabxana sivilizasiyanın əsas atributlarından biri kimi, həmişə mədəniyyətin mühüm tərkib hissəsi, kommunikasiya sisteminin əsas naqillərindən biri kimi fəaliyyət göstərmiş, bəşər mədəniyyətinin hərtərəfli inkişafına xidmət etmişdir. Məhz buna görədir ki, cəmiyyətin inkişafında baş verən hər cür ictimai-siyasi, sosial, inqilabi proseslər bilavasitə kitabxana işinə mühüm təsir göstərmişdir. Böyük Fransa inqilabı (1789-1794) orta əsr kitabxanalarının inkişafına, kitabxana işinin demokratik prinsiplər üzərində qurulmasına, kitabxana haqqında təsəvvür, düşüncə və baxışların kökündən dəyişməsinə böyük təsir göstərdiyi kimi, 1905-1907-ci illər Birinci rus inqilabı da Rusiyada kitabxana işinə müsbət təsir göstərmiş, kitabxana işi haqqında çar mütləqiyyətinin mürtəce siyasəti xeyli liberallaşmış, kitabxanaların təşkili asanlaşmışdı. Birinci rus inqilabına qədər Rusiyada kitabxana işinin hüquqi vəziyyətinə dair hələ XIX əsrin axırlarında qəbul edilmiş qaydalar fəaliyyət göstərirdi. Bu qaydalara görə, kitabxanalar Daxili İşlər Nazirliyinin, Xalq Maarif Nazirliyinin və dini idarələrin nəzarətində idi. Daxili İşlər Nazirliyi istədiyi kitabxananı lazım gəldiyi halda bağlayıb yoxlamaq, fondunun təmizlənməsi haqqında sərəncam vermək və fəaliyyətini dayandırmaq hüququna malik idi. Yeni kitabxanaların açılmasına qubernatorlar icazə verirdilər. Qubernatorlar bu hüquqlarından istifadə edərək onlara şübhəli görünən kitabxanaları vaxtaşırı olaraq bağlayırdılar.

Çar senzurası tərəfindən xalq kitabxanalarında saxlanıla biləcək kitabların kataloqları nəşr edilirdi. Kataloqda olmayan kitabları saxlayan kitabxanalar dərhal bağlanır, kitab fondu müsadirə edilirdi. Bu kataloqlar xırda xalqlara məxsus kitabxanalara daha mənfi təsir göstərirdi. Kataloqa görə, xalq kitabxanalarında milli dillərdə kitablar saxlanıl-

masına icazə verilmirdi. Rus dilini bilməyən qeyri-rus oxucular kitab oxumaqdan məhrum edilmişdilər. Hökumətin bu siyasəti kitabxana işi sahəsində milli müstəmləkə siyasətinin təzahürü idi.

XX əsrin əvvəllərində kitabxana işi sahəsində baş verən xarakterik cəhətlərdən biri kitabxanaların ideologiyalaşması idi. Cəmiyyətdə baş verən ideoloji qarşıdurma kitabxanaların siyasiləşməsinə gətirib çıxarırdı. Öz ideyalarını təbliğ etməyə çalışan siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və digər qurumların kitabxanalardan təbliğat-təşviqat işində yaxından istifadə etməyə çalışmaları onları öz əsas vəzifələri olan ümumbəşəri nailiyyətlərin, elmi, mədəni-maarif dəyərlərinin təbliğindən uzaqlaşdırır, kitabxana işinin siyasiləşməsinə gətirib çıxarırdı. Məhz buna görə də mütləqiyyət qətiyyətlə kitabxana işinin demokratikləşməsinin qarşısını almağa, kitabxana işinə nəzarəti gücləndirməyə çalışırdı. Beləliklə də kitabxana işi haqqında dövlət siyasəti ümumi kitabxanaların, xalq kitabxanalarının, xalq qiraətxanalarının inkişafına mane olmaqla onların fəaliyyətini məhdudlaşdırırdı. Rusiyanın ucqarlarında bu siyasət, həmçinin milli xalqların mədəniyyətinə, ədəbiyyatına, incəsənətinə daha ciddi zərbə vurmaqla, milli məktəblərin, mədəni-maarif müəssisələrinin inkişafına maneçilik törədirdi. Məhz 1905-1907-ci illər Birinci rus inqilabı ərəfəsində Azərbaycan bu acınacaqlı vəziyyəti yaşayırdı. 1905-1907-ci illər inqilabından qorxuya düşən çar hökuməti öz siyasətində dəyişiklik etmiş, senzura qaydalarını yumşaltmış, ciddi güzəştlərə getməyə məcbur olmuşdu. Bütün ideologiya sahəsində olduğu kimi, mədəniyyət və xalq maarifi, yeni mədəniyyət və maarif ocaqlarının yaradılması sahəsində də ciddi liberallaşma prosesi başlanmışdı. XX əsrin əvvəllərində hökumətin həyata keçirdiyi liberallaşma siyasəti ölkədə xalq maarifinin, mətbuatın, mədəniyyətin, həmçinin nəşriyyat işinin inkişafı üçün böyük zəmin hazırlamışdı. Azərbaycanda mədəniyyətin, elmin, ədəbiyyatın, mətbuatın, mədəni-maarif müəssisə-

lərinin inkişafı sahəsində böyük canlanma baş vermiş, inqilabi hərəkatın, xalq kütlələrinin təzyiqi altında Azərbaycan milli mədəniyyəti xeyli inkişaf edib təkmilləşmişdi. Bu dövrdə ölkədə baş verən böyük təbəddülatlar dövründə xalqımızın milli sərvəti olan qabaqcıl, demokratik, maarifçi vətənpərvər ziyalılar ordusu yetişmişdi ki, məhz bu insanlar cəmiyyətin inkişaf istiqamətinə, demokratikləşmə, milliləşmə prosesinə ciddi təsir göstərməyə başlamışdı.

Beləliklə, XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifinin, mədəniyyətin, mətbuatın, kitab nəşrinin inkişafı, əhalinin savad dərəcəsinin yüksəlməsi kitabxana işinin inkişafı üçün əlverişli şərait yaratmışdı. Bakıda və Azərbaycanın digər şəhərlərində genişlənən inqilabi hərəkat fəhlələrin getdikcə artan mədəni tələblərində məktəblərlə və digər mədəniyyət müəssisələri ilə yanaşı, kitabxanalar və qiraətxanalar açılması zərurətini də irəli sürürdü. Bu işdə savadlı fəhlələrə ehtiyacı olan burjuaziya və ümumiyyətlə, sahibkarlar da maraqlı idi. İnqilabi hərəkatdan qorxuya düşən çar hökuməti də ölkədə baş verən bu prosesi müdafiə etmək məcburiyyətində qalmışdı.

Çar hökumətinin bu dövrdə ölkədə apardığı siyasətdə ayrı-seçkilik hökm sürürdü. XX əsrin əvvəllərində hökumət Mərkəzi Rusiyada ümumi və xalq kitabxanalarının təşkil edilməsi üçün dövlət büdcəsindən vəsait ayırırdısa, ucqarlarda, demək olar ki, dövlət tərəfindən maliyyələşdirilən kitabxanalar yox idi. Belə ki, hökumət Rusiyanın tarixində ilk dəfə olaraq məktəbdənkənar təhsil üçün 1910-cu ildə 74 min, 1914-cü ildə 253,4 min, 1916-cı ildə 424 min, 1916-cı ildə 1 milyon manat vəsait ayırmışdı.[22] Bu dövrdə Azərbaycanda bu iş üçün maliyyə vəsaiti ayrılmışdı. Bu səbəbdən də Mərkəzi Rusiyada ümumi və xalq kitabxanalarının şəbəkəsi xeyli genişlənmiş, onların kitabla təchizi işi yaxşılaşmışdı. Rusiyada dövlət orqanları ilə yanaşı, digər şəhər təşkilatları da kitabxana işinə köməklik edir, az da olsa maliyyə vəsaiti ayırırdılar.

Bütün bu çətinliklərə baxmayaraq, XX əsrin əvvəllərində Birinci rus inqilabı Azərbaycanda mədəniyyət və maarifin inkişafına müsbət təsir göstərmiş, yerli təşkilatların, cəmiyyətlərin xalq ziyalılarının təsiri və köməyi ilə xeyli mədəni-maarif ocaqlarının yaranması mümkün olmuşdu.

Birinci rus inqilabının təsiri nəticəsində yaranmış siyasi vəziyyət, xalq maarifinin inkişafı, milli məktəblərin yaranması, milli mətbuatın inkişafı, kitab nəşrinin genişlənməsi, ölkədə savadlı əhalinin miqdarının tədricən çoxalmasına, mədəni-maarif müəssisələrinin təşkilinə böyük tələbat yaranmışdı.

İnqilab çar hökumətini qorxuya salmış, ölkədə maarif, mədəniyyət, mətbuat, nəşriyyat işi sahəsində ciddi güzəştlərə getməyə məcbur etmişdi. Məhz buna görədir ki, 1905-ci il oktyabrın 17-də çar hökuməti manifest verərək, söz, mətbuat, yığıncaq, ittifaq azadlıqlarının həyata keçirilməsini elan etdi. Rusiyada çarizmə qarşı inqilabi mübarizənin genişlənməsində Bakı ön cərgədə gedirdi. Bakıda tez-tez baş verən tətillərin daha böyük miqyas alması mütləqiyyəti qorxuya salmışdı. Bakı inqilabi mərkəzlərdən birinə çevrilmişdi.

Həmçinin 1905-1907-ci illər inqilabı ərəfəsində və inqilab illərində Azərbaycanda milli şüurun oyanması sahəsində xüsusi dirçəliş baş vermiş, qabaqcıl Azərbaycan ziyalılarının bilavasitə rəhbərliyi ilə milli şüurun təşəkkülü, formalaşması və inkişafı sahəsində mühüm işlər görülmüş, milli məktəblərin sayı artmış, milli mətbuat təşəkkül tapıb inkişaf etmiş, kitab nəşri və yayılması böyük vüsət almış, mədəni-maarif müəssisələri, kitabxanalar və qiraətxanalar şəbəkəsi xeyli genişlənmişdi.

XX əsrin əvvəllərindən başlayaraq qabaqcıl Azərbaycan ziyalıları milli mətbuatın səhifələrində ardıcıl olaraq xalq maarifində və mədəni tərəqqi işində kitabxanaların böyük rolu və vəzifələri haqqında, xalqa xidmət edən ümumi kitabxanaların yaranmasının zəruriliyi haqqında məqalələr

dərc etdirirdilər. Dövrün ab-havasını, cəmiyyətin qarşıya qoyduğu vəzifələri əks etdirən belə məqalələrdən bəzilərinə diqqət yetirək. 1906-cı ildə «İrşad» qəzetində «Ümumi kitabxanalar» başlığı ilə dərc edilmiş məqalədə o dövr üçün çox xarakterik olan məsələlər qaldırılmışdı.[23] Məqalənin müəllifi ümumi kitabxanaların əhəmiyyətindən danışaraq qeyd edirdi ki, Avropanın və Rusiyanın bütün mədəni şəhərlərində zəhmətkeşlərə xidmət etmək üçün ümumi kitabxanalar təşkil edilmişdir. Ümumi kitabxanalar xalqın mədəni inkişafına xidmət etməklə bütün ədəbiyyatı öz fondunda toplayır ki, bu da xalqın mədəniyyət, elm və ədəbiyyat tarixinin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Müəllif qeyd edir ki, heç uzaqlara getmək lazım deyil; qonşumuz olan gürcülər 1885-ci ildə ümumi kitabxana təşkil etmişlər. Bu kitabxana şəhər əhalisinə xidmət etməklə bərabər, səyyarlar vasitəsilə kəndlərə də xidmət edir. Belə kitabxanaların Azərbaycanda da təşkil edilməsinin vaxtı gəlib çatmamışdırmı?

Maarifin və mədəniyyətin yayılması işində kitabxanaların böyük əhəmiyyətini qeyd edən müəllif yazır: «Kitabxana hər vaxt hər kəsə lazımdır. Məktəblərdə tələbələr təlim görürlər, kitabxanalarda isə müəllimlər tövsiyə, məlumat edirlər. Çocuqlarımız məktəblərdən heysiyyat, böyüklərimiz kitabxanalardan mostafid olurlar».

Daha sonra müəllif məktəblərin yanında kitabxanalar təşkil edilməsini, kitabxanaların fondunun məzmunca köhnəlmiş kitablardan təmizlənməsini və fondun dövrə müvafiq mütərəqqi ruhlu kitablarla təkmilləşdirilməsini və kitabxanalara ianələr toplanmasını lazım bilir. Sevindirici haldır ki, XX əsrin əvvəllərində milli mətbuatımızda bu cür məqalələrin dərc edilməsi daimi hal almışdır. 1903-cü ildə «Kaspi» qəzetində Bakı ziyalılarının Bakı şəhərində zəhmətkeşlərə xidmət edəcək Bakı şəhər ümumi kitabxanasının yaradılması haqqında məqalə dərc edilmişdi.[24] Bu məzmunda məqaləni «Kaspi» qəzeti sonralar da dərc etmişdi. 1911-ci ildə dərc edilən məqalədə göstərilirdi ki, Bakıda geniş oxucu

kütləsinə xidmət edəcək heç bir kitabxana yoxdur. Halbuki belə kitabxanalar bütün böyük mərkəzi şəhərlərdə vardır. Bakıda belə bir kitabxananın təşkilinə böyük ehtiyac duyulur. Qabaqcıl ziyalıların hər cür cidd-cəhdinə baxmayaraq, zəhmətkeşlərin maariflənməsinə buxov olmağa çalışan mütləqiyyət ümumi kitabxananın təşkilinə hər cür mane olmağa çalışırdı. Xalqımızın maariflənməsi uğrunda mübarizə aparan Azərbaycan ziyalıları milli məktəblərin yaranması ilə yanaşı olaraq milli dillərdə kitablar toplayıb saxlayan və onu xalqın istifadəsinə verən milli kitabxanaların yaradılması uğrunda da mübarizə aparırdılar. 1905-ci il inqilabı illərində ölkənin ziyalıları və qabaqcıl ictimaiyyət kitabxana işinə böyük əhəmiyyət verir, onu maarifi, mədəniyyəti yayan, ölkənin mədəni inkişafına xidmət edən bir mədəniyyət mərkəzi kimi qiymətləndirir və xalq kitabxanalarının fondundan məzmunca köhnəlmiş, ideoloji cəhətdən zərərli kitabların çıxarılmasını lazım bilir, kitabxanaların yeni mütərəqqi ruhlu ədəbiyyatla təkmilləşməsini tələb edirdilər. Bu cəhətdən 1909-cu ildə «Tərəqqi» qəzetində «Nida» imzası ilə dərc edilmiş məqalə olduqca səciyyəvidir. Məqalədə göstərilir: «Tərəqqi və təkamül üçün əvvəlcə maarifdən başlamalıyıq, maarif üçün də əvvəlcə kitabxanalar ilə məktəblərimizi islah və tənzim etməliyik.

Kitabxana dedikdə insanları rəzalət və xürafata, səfalət və əxlaqsızlığa saldıran o yalan, yalan iki təbirnamə, falnamə, ulduznamə və cəhilnamə, qırx snal... bilməm nə namə kimi cəfəngiyat kitabları kitabxanalarımızdan qaldırıb atmalıyıq.

Kitabxanalarımızı hürriyyət, ədalət, müsavat, əxvə, tərəqqi, təkamül aləmlərini qaldıran, dünyanın hal övzindan, zamanın icvatından, sənayedən və ziraətdən, iqtisaddan bəhs edən kitablarla doldurmalıyıq.»[25]

XX əsrin əvvəllərində nəşr edilən Azərbaycan mətbuatını, xüsusilə Azərbaycan milli mətbuatını nəzərdən keçirdikdə məlum olur ki, ayrı-ayrı qəzetlərin və jurnalların

səhifələrində maarif və mədəniyyətin mühüm problemləri ilə yanaşı olaraq kitabxana və qiraətxanaların fəaliyyətinə, onların təşkilinin zəruriliyinə, kitabxana işinin cəmiyyətin inkişafında, xüsusilə xalqın maariflənməsində, mədəni səviyyəsinin yüksəldilməsində, milli şüurun formalaşmasındakı roluna və vəzifələrinə xüsusi diqqət yetirilmişdir. Kitabxana işinin təşkili, onların fəaliyyəti haqqında mətbuat səhifələrində çıxış edən görkəmli ziyalılarımızın bu işi nə qədər yüksək qiymətləndirmələri, kitabxana işini maarif işinin və mədəniyyətin əsas vasitəsi, sütunu kimi qiymətləndirmələri, kitabxana quruculuğunun əsas problemləri haqqında elmi nəzəri və praktiki əhəmiyyətə malik fikirlər söyləmələri göz önünə gəlir. Məhz görkəmli ziyalılarımız tərəfindən söylənilən böyük nəzəri və təcrübi əhəmiyyətə malik bu müddəalar Azərbaycan kitabxanaçılıq fikrinin inkişafının məhəng daşı olmuş, kitabxanaşünaslığın bir elm kimi formalaşması üçün əlverişli şərait və elmi mühit yaratmışdır.

§ 1.5.1. Bakı və onun rayonlarında kitabxana işi

XX əsrin əvvəllərində Azərbaycanın digər yaşayış məntəqələrindən fərqli olaraq Bakı şəhəri xüsusi əhəmiyyət kəsb etməyə başladı. Bu da Azərbaycanda neft sənayesinin inkişafı ilə əlaqədar idi. Məhz bu illərdə Bakı şəhəri sürətlə böyümüş, ölkənin ən böyük şəhərlərindən birinə çevrilmişdi. Bakının əhalisi mədən-zavod rayonları nəzərə alınmadan 1897-ci ildən 1915-ci ilədək 112,2 min nəfərdən 262,4 min nəfərə çatmışdı.[26] Bakı Şəhər Dumasının yaranması və bu dumada azərbaycanlı deputatların fəaliyyəti şəhərin mədəni həyatının canlanmasına müsbət təsir göstərirdi. Belə deputatlara H.B.Məlikovu (Zərdabini), İsmayıl bəy və İbrahim bəy Səfərəliyevləri, H.Z.Tağıyevi, Ş.Əsədullayevi və digərlərini misal göstərmək olar. Azərbaycan millətindən olan deputatlar xüsusilə milli mədəniyyətin, milli məktəblərin, milli mətbuatın, milli kitabxanaların və qiraətxanaların yaranmasına ciddi səy göstərirdilər. Birinci rus inqilabı ərəfəsində və

inqilab illərində Azərbaycanda xüsusi ilə Bakı şəhərində məktəb kitabxanaları şəbəkəsinin genişlənməsində xeyli irəliləyiş baş vermişdi. Doğrudur, çar hökuməti tərəfindən aparılan statistikada məktəb kitabxanaları haqqında ayrıca qrafa olmadığından bu kitabxanaların fəaliyyəti haqqında geniş məlumat vermək, ümumiləşmələr aparmaq imkanlarımız olduqca azdır. Ancaq məktəblər haqqında olan statistik məlumatlara əsasən məktəb kitabxanalarının miqdarı və az da olsa onların fəaliyyəti haqqında fikir söyləmək olar. XIX əsrin axırları və XX əsrin əvvəllərində hökumət tərəfindən məktəblərin yaranması və fəaliyyəti haqqında təsdiq edilmiş əsasnamələrdə məktəblərin yanında kitabxanaların təşkili, zəruri faktlardan biri kimi göstərilmişdir. Məhz buna görədir ki, bir qayda olaraq yeni yaranan və daimi fəaliyyət göstərən məktəblərin yanında məktəbin imkanlarından asılı olaraq kiçik də olsa kitabxanalar təşkil edilirdi. Başqa sözlə, kitabxanalar məktəbin əsas atributlarından biri idi. Məktəb kitabxanalarına rəhbərlik məktəb müəllimlərindən birinə həvalə edilirdi. Nisbətən böyük məktəb kitabxanalarına kitabxanaçı ştatı da verilirdi. Beləliklə, XX əsrin əvvəllərində Bakı şəhərində yeni məktəblərin açılması və mövcud məktəblərin maddi texniki bazasının möhkəmlənməsi ilə əlaqədar geniş məktəb kitabxana şəbəkəsi meydana gəlmişdi. 1914-cü ildə Bakı quberniyasında 448 ibtidai məktəb fəaliyyət göstərirdi. Bunlardan 16-sı Bakı şəhərində yerləşirdi. İbtidai məktəblərdən əlavə, Bakı və onun rayonlarında, orta ümumtəhsil məktəbləri, sənət məktəbləri, qızlar məktəbi, tibb məktəbləri və s. var idi. Statistik məlumatlardan dəqiq faktlar əldə edə bilməsək də, o dövrün ümumi mənzərəsinin və dövri mətbuatda vaxtaşırı dərc edilmiş məqalələrə əsaslanaraq demək olar ki, Bakı və Bakı quberniyasında yerləşən orta məktəblərdə, xüsusi məktəblərdə və çoxsinifli ibtidai məktəblərdə bir qayda olaraq kitabxanalar təşkil edilmiş və təhsil prosesinin tərkib hissəsi kimi onların fəaliyyətindən istifadə edilmişdir. Bu məktəblərlə yanaşı, Bakıda və Bakı

quberniyasında dini məktəblər də fəaliyyət göstərirdi. Dini məktəblərin bir çoxu uzun müddət fəaliyyət göstərdiklərindən onların bəzilərində şagirdlərə və müəllimlərə xidmət etmək üçün kiçik kitabxanalar da var idi. Ruhanilər belə kitabxanaları daim nəzarətdə saxlayır, dünyəvi ədəbiyyatın kitabxanaya toplanmasının qarşısını almağa çalışırdılar. Çox sevindirici haldır ki, XX əsrin əvvəllərində Azərbaycanda təhsil sahəsində yetişmiş görkəmli maarif xadimlərindən: H.Məlikov, T.Bayraməlibəyov, R.Əfəndiyev, H.Mahmudbəyov, Ü.Hacıbəyov, S.S.Axundov, Ə.İ.Cəfərzadə, A.Talıbzadə və s. əsərlərində təhsil sistemində, kitab və kitabxana işinə böyük qiymət verilməklə, məktəb kitabxanalarının təşkilinin zəruriliyi və rolu haqqında çox qiymətli fikirlərə rast gəlmək olar.

Məktəb kitabxanalarının maliyyə imkanları zəif olduğundan onların fondu olduqca kasıb idi. Məktəb kitabxana fondlarında dərsliklərin, dərs vəsaitlərinin, oxu materiallarının, metodiki əsərlərin əldə edilməsinə xüsusi diqqət yetirilirdi. Məktəb kitabxanalarının ədəbiyyatla təmin edilməsində müəllimlər və valideynlər də yaxından köməklik göstərirdilər. Əlbəttə, tədris və pedaqoji ədəbiyyatın az olduğu bir dövrdə məktəb kitabxanalarının rolu və əhəmiyyəti olduqca artırdı. Çünki məktəb kitabxanaları bu çətinliyin qismən də olsa aradan qaldırılmasına kömək edir, müəllimlərin və şagirdlərin tələbatını öz fondlarında topladıqdarı kitablarla ödəyirdilər. İbtidai məktəb kitabxanalarına nisbətən orta təhsil müəssisələri kitabxanaları yeni kitablar almaq, ardıcıl olaraq öz fondlarını komplektləşdirmək imkanlarına malik idilər. Məhz buna görədir ki, o dövrdə orta təhsil müəssisələrinin kitabxanaları daha zəngin ədəbiyyat fonduna malik idilər. 1914-cü ildə Bakı və Yelizavetpol quberniyalarının üç realnı məktəbində, beş kişi gimnaziyasında və yeddi qadın orta məktəbindəki əsaslı kitabxanalarında 24,337 adda, 61,389 nüsxə kitab var idi. Tələbə kitabxanalarında isə bu rəqəm müvafiq olaraq, 34,049 və 52,063 idi.[27]

1913-cü ildə Bakı orta texniki məktəbinin əsaslı kitabxanasında 945 adda 14244 cild, tələbə kitabxanasında isə 756 adda 1081 nüsxə kitab var idi.[28]

Kitab fondunun və oxucuların tərkibində də əhəmiyyətli dəyişiklik hiss edilməkdə idi. Məktəblərdə azərbaycanlı şagirdlərin və müəllimlərin artması nəticəsində kitab fondlarında Azərbaycan dilində kitabların toplanması meyli xeyli genişlənmiş, milli ədəbiyyat fondunun yaranmasına səbəb olmuşdu.

Beləliklə, Bakı və onun rayonlarında (quberniyasında) 1917-ci il oktyabr inqilabı ərəfəsində 500-ə yaxın məktəb olmuşdur. Bu məktəblərdən böyük əksəriyyəti xüsusi ilə möhkəm maddi-texniki bazaya, ayrıca binaya malik olan məktəblərdə kiçik də olsa kitabxanalar fəaliyyət göstərmişlər.

Tarixi araşdırmalar belə bir fikri söyləməyə imkan verir ki, XX əsrin axırlarından başlayaraq Azərbaycanda kitabxanaların böyük əksəriyyəti dövlət idarələri ilə yanaşı olaraq xeyriyyə cəmiyyətləri, görkəmli şəxsiyyətlər, maarif və mədəniyyət xadimləri, qeyri-dövlət təşkilatları tərəfindən təşkil edilmişdir.

XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən belə cəmiyyətlərdən biri Rus Texniki Cəmiyyətinin Bakı şöbəsi olmuşdur. Bu cəmiyyətin əsası XIX əsrin axırlarında (1880) qoyulsa da, o öz fəaliyyətini XX əsrin əvvəllərindən başlayaraq daha da genişləndirmişdir. Bakıda neft sənayesinin sürətli inkişafı neft mədənlərində, neftayırma və neft emalı zavodlarında texniki tərəqqiyə, texniki biliklərin artırılmasına böyük tələbat əmələ gətirmişdi.

Həm neft sənayeçiləri, həm də dövlət bu işdə çox maraqlı olduğundan Rus Texniki Cəmiyyətinin Bakı şöbəsinin fəaliyyətinə xüsusi diqqət yetirirdilər. Bu cəmiyyətin fəaliyyəti, elmi ictimaiyyətin diqqət mərkəzində idi. Cəmiyyət texniki elmlərin inkişafında müsbət rol oynamaqla neft sənayesinin elmi-texniki təchizatında da yaxından iştirak edirdi. Cəmiyyətin üzvləri arasında azərbaycanlı mühəndislərdən

A.Mirzəyevin, C.Rzayevin, F.Rüstəmbəyovun və başqalarının iştirakı milli kadrların yetişməsinə müsbət təsir göstərirdi.[29] Texniki Cəmiyyətin Bakı şöbəsi kimya laboratoriiyaları, texniki kitabxana və qiraətxana təşkil etmişdi. Cəmiyyət öz elmi əsərlərini də nəşr etməyə başlamışdı. Cəmiyyətin üzvləri neft mədənlərində, zavodlarda, kitabxana və qiraətxanada yeni texnikadan istifadə edilməsi haqqında məruzələr oxuyurdular.

Cəmiyyətin fəaliyyətində ən mühüm yeri texniki kitabxana tuturdu. Bu kitabxana cəmiyyət tərəfindən hələ 1895-ci ildə təşkil edilmişdi. Kitabxananın təşkilində cəmiyyətin üzvlərindən Fərrux bəy Vəzirov, İ.Qoslavski, L.Krasin, D.Landan və başqaları yaxından iştirak etmişdilər. O dövrdə təşkil edilən kitabxanalardan ən uzunömürlüsü olan bu kitabxana böyük çətinliklərlə də olsa öz fəaliyyətini 1916-cı ilə qədər davam etdirmiş, Azərbaycan elmi-texniki fikrinin və texniki biliklər üzrə ziyalıların formalaşmasına xidmət etmişdir. Kitabxananın təsisçiləri o dövrdə Bakı şəhərində çalışmış, Rus Texniki Cəmiyyətinin işində yaxından iştirak etmiş, xalqın maariflənməsində, texniki biliyin təbliğində yaxından iştirak etmiş dağ mühəndisi A.S.Doroşenkonun xatirəsini əbədiləşdirmək üçün kitabxanaya onun adını vermişdilər. Kitabxana açılarkən lazımi şəraiti olan bina tapılmadığından 1898-ci ilə kimi Qaraşəhərdə Nobel qardaşlarının icarəyə götürdüyü zavodun binasında yerləşirdi. Zavodun binasında kitabxanaya ayrılan otaqların darısqallığı fəaliyyəti genişləndirmək imkanı vermirdi. 1988-ci ildə Nobel qardaşlarının zavodla bağladığı icarə müqaviləsinin vaxtı bitdikdən sonra kitabxanaya yeni bina axtarmaq lazım gəldi. Bina tapmaq çətin olduğundan kitabxana şurası Neft Sənayeçiləri Qurultayının şurasına müraciət etdi. Şura böyük axtarışdan sonra kitabxana şurasına Qaraşəhərdə bina tapmağın mümkün olmadığını bildirdi. Şura kitabxanaya Birinci Qaraşəhər küçəsində yerləşən məktəbin həyətində üçotaqlı bir bina verdi. Otağın birindən kitabsaxlayıcı və abo-

nement, ikinci otaqdan isə qiraət zalı kimi istifadə edilirdi. Üçüncü otaqda isə kitabxananın müdiri A.B.Lazorova yaşayırdı. Kitabxananın məktəbin həyətinə köçməsi onun işində böyük canlanma yaratmışdı. Məktəbin müəllimləri və şagirdləri kitabxanadan geniş istifadə etməyə başlamışlar. İnqilab ərəfəsində və inqilab illərində kitabxana üçün də ayrıca qiraətxana açmağa nail olunmuşdu. Beləliklə, texniki kitabxana həm də xalq kitabxana-qiraətxanası kimi fəaliyyət göstərirdi. XX əsrin əvvəllərində kitabxana Qaraşəhər xalq evinə köçürüldü. Burada kitabxananın bina şəraiti xeyli yaxşılaşmış, həm də fəhlə oxuculara yaxınlaşmışdı.

Kitabxananın yeni ədəbiyyatla təmin edilməsi işində böyük çətinlik yaranmışdı. Bir tərəfdən kitabxananın maliyyə çətinlikləri, digər tərəfdən isə çar senzurasının qoyduğu qadağalar kitabxananı oxucuların müasir tələbatını ödəyə biləcək kitablar almaqdan məhrum etmişdi. Kitabxana ancaq neft sahibkarlarının mənafeyini müdafiə edən, çar senzurasının icazəsi olan kitabları almağa icazə verilmişdi. Neft sənayeçiləri əsasən texniki və dini kitabların alınmasında maraqlı idilər. Kitabxananın işini çətinləşdirən cəhətlərdən biri də rus dilindən başqa, yerli xalqların dilində kitab almağa icazə verilməməsi idi. Bu da ondan irəli gəlirdi ki, pulsuz xidmət göstərən kitabxana-qiraətxanaların hökumət tərəfindən icazə verilən kataloquna yalnız rus dilində olan kitablar daxil edilmişdi. Buna görə də başqa dillərdə kitabları almaq üçün Maarif Nazirliyinin xüsusi icazəsi lazım idi. Kitabxana bu barədə Xalq Maarif Nazirliyi Departamentinə müraciət etsə də, müsbət cavab ala bilməmişdi.

Bütün bu çətinliklərə baxmayaraq, kitabxana şurasının və Qaraşəhər məktəblərində işləyən müəllimlərin köməyi ilə kitabxana fəaliyyətini davam etdirməyə müvəffəq olmuş, kitab fondunu müntəzəm olaraq zənginləşdirmişdi. Kitabxananın fondunda 1910-cu ildə 4.465 kitab olduğu halda, onların sayı 1916-cı ildə 6.576 nüsxəyə çatmışdı.[30] Belə bir cəhət diqqəti cəlb edir ki, Birinci rus inqilabı ərəfəsində və

inqilab illərində Bakı şəhərində məktəb və xalq qiraətxana-kitabxanalarının inkişafında Bakı fəhlə sinfinin rolu olduqca artmışdı. Bir tərəfdən xalq qiraətxana və kitabxanalarının və digər mədəniyyət müəssisələrinin təşkilini hökumət qarşısında əsas inqilabi tələblərdən biri kimi irəli sürən fəhlələr, həmçinin yeri gəldikcə kitabxanalar-qiraətxanalar açmaq, onları yeni ədəbiyyatla təchiz etmək üçün vəsait toplayır, kitabxanaların maddi-texniki bazasını möhkəmləndirməyə çalışırdılar. Kitabxananın oxucuları olan fəhlələr öz hesablarına nazirliyin təsdiq etdiyi kataloqda olmayan bir çox mütərəqqi müəlliflərin qadağan edilmiş əsərlərini alıb kitabxana-qiraətxananın fonduna daxil etməyə müvəffəq olmuşdular. Fəhlə oxucuların vəsaiti hesabına alınan ədəbiyyata misal olaraq L.N.Tolstoyun, İ.S.Turgenevin, Dostoyevskinin, N.N.Qoqolun, İ.A.Qonçarovun, A.S. Puşkinin, Mark Tvenin, Valter Skotun, Jül Vernin, Mayn Ridin, Dikkensin əsərlərini göstərə bilərik. Kitabxananın illik hesabatlarında inqilabi ədəbiyyata böyük tələbatın olması qeyd edilsə də məlum səbəblərdən onların haqqında məlumat verilmirdi.

Rus Texniki Cəmiyyətinin Doroşenko adına kitabxanasının keçdiyi yola nəzər salarkən məlum olur ki, bu kitabxana maliyyə və siyasi çətinliyə baxmayaraq, həmişə öz nizamnaməsinin tələblərinə sadiq qalmış, geniş xalq kütlələrinə: fəhlələrə, mühəndislərə və digər ziyalılara xidmət etməyə çalışmışdır. Bu kitabxanada çalışan insanlar böyük fədakarlıqla oxuculara xidmət işini ön plana çəkmişlər. Odur ki, yarandığı gündən Bakının digər kitabxanalarına nisbətən onun oxucularının sayı ilbəil artmağa başlamışdı. Əgər kitabxananın 1900-cü ildə 304 nəfər oxucusu olmuşdursa, onların sayı 1910-cu ildə 533 nəfərə, 1916-cı ildə isə 1284 nəfərə çatmışdı. Oxuculara 1910-cu ildə 13.158 kitab verilmişdirsə, bu rəqəm 1916-cı ildə 43.070 olmuşdur. Təəssüflə qeyd etmək lazımdır ki, 1900-cü ilin məlumatına görə, kitabxananın oxucularının 80 faizini ruslar, 20 faizini isə digər millətlər

təşkil etmişdi.[31]

A.S.Doroşenko adına kitabxananın şurası son zamanlar Bakının neft rayonlarında kiçik qiraətxanalar açmaq kimi xeyirxah işlə də məşğul olurdu. Bu məqsədlə kitabxana xüsusi günlər, gecələr keçirir, yeni qiraətxanalar açmaq üçün ianə toplayırdı.

«Kaspi» qəzeti 1902-ci ildə yazırdı: «26 dekabr 1902-ci ildə dağ-mədən mühəndisi A.S.Doroşenko adına pulsuz xalq kitabxana-qiraətxanası vəsait toplamaq məqsədilə gecə keçirdi... Birinci gecədə toplanmış vəsait hesabına Qaraşəhərdə, növbəti gecədə toplanmış vəsait hesabına Ağşəhərdə, sonra Bayılda, nəhayət, bu il o üç qiraətxananı saxlamaq və Balaxanıda geniş qiraətxana açmaq məqsədi ilə gecələr təşkil etmişdi».[32] Bu dövrdə neft sənayesi rayonlarında fəhlələrə xidmət edən bir dənə də olsun kitabxana-qiraətxananın olmamasını nəzərə alsaq, həmçinin kitabxananın təşəbbüsü yüksək qiymətləndirilməlidir. Doğrudur, birinci rus inqilabından ruhlanan fəhlələr kapitalistlər, neft sahibkarları qarşısında kitabxanalar açılması haqqında ciddi tələblər qoysalar da, müsbət nəticə əldə edə bilməmişdilər. Doroşenko adına kitabxananın təklifi ilə neft sənayeçiləri Ağşəhərdə, Bayılda və Balaxanıda öz filiallarını açmaq üçün kitabxanaya 2500-3000 manat məbləğində vəsait ayırmışdı. Bundan sonra filialların açılması üçün yerli inzibati orqanlardan icazə alınmış, bina tapılmışdı. Neft sənayeçiləri kitab almaqdan əlavə filialların saxlanmasına ildə 1500 manat vəsait ayırırdı. İnqilab illərində Doroşenko adına kitabxana Bibiheybətdəki məktəbin yanında kitabxana təşkil etməyə müvəffəq oldu. Sonrakı illərdə A.S.Doroşenko adına kitabxanaya ilbəil Neft Sənayeçiləri Qurultayı Şurasının vəsait ayırmasını və bu vəsaitin kitabxananın yeganə fəaliyyət mənbəyi olduğunu nəzərə alaraq kitabxananın Texniki Cəmiyyətin Bakı şöbəsindən alınıb Neft Sənayeçiləri Qurultayı Şurasına verilməsi məsləhət bilinmişdir.

Beləliklə, kitabxananın 20 illik tarixinə nəzər saldıqda aydın olur ki, A.S.Doroşenko adına texniki kitabxana-qiraətxana böyük çətinliklə də olsa öz fəaliyyətini davam etdirmiş, dövrünün görkəmli ziyalılarının, müəllimlərin, mühəndislərin, texniklərin və digər peşə sahiblərinin köməyi ilə öz fondunu zənginləşdirmiş, eyni zamanda fəhlələrə də kitabxana xidməti təşkil etmiş, xalqın mədəni və peşə səviyyəsinin yüksəlməsində yaxından iştirak etmiş, təhsil sisteminin fəal köməkçilərindən biri kimi şagirdlərin kitabdan istifadə etməsinin təşkilinə yaxından kömək göstərmişdir. Kitabxananın fondunda milli dildə kitabların saxlanmasına icazə verilməməsinə baxmayaraq, kitabxana şurası milli dillərdə ədəbiyyat toplayıb, saxlamağa və oxuculara tövsiyə etməyə səy göstərmişdir. Kitabxananın oxucuları sırasında azərbaycanlı oxucuların sayı az olsa da, kitabxana öz fəaliyyəti boyu oxucular arasında ayrıseçkilik salmamış, kitabxanaya gələn bütün millətlərdən olan oxuculara xidməti özünün əsas vəzifəsi hesab etmişdir.

1905-1907-ci illər rus inqilabı ərəfəsində və inqilab illərində mütləqiyyətin ucqarlarda yeritdiyi maarif və mədəniyyət siyasəti xeyli liberallaşmışdı. Dövlət ucqarlarda xalqın tələbatını qismən də olsa ödəməklə məktəblərlə yanaşı olaraq yeni kitabxana və qiraətxanaların açılmasına, onların fəaliyyətinə şərait yaradılmasına çalışırdı. Məhz buna görədir ki, çar hökuməti dövlət müəssisələrinin maliyyə vəsaiti hesabına kitabxanaların təşkil edilməsinə icazə vermirdi. İnqilab illərində baş verən bu hadisələr Bakı şəhərində kitabxanaların açılması üçün şərait yaratmışdı. 1905-1907-ci illər inqilabı dövründə Bakıda bir neçə kitabxana təşkil edilmişdi. Bakı şəhər Dumasının kitabxanası, İctimai Yığıncağın kitabxanası, Yerli Torpaqşünaslıq İdarəsinin Kitabxanası, Şəhər İdarəsinin Kitabxanası, Bakı Bələdiyyə İdarəsinin Kitabxanası, Balaxanı Qiraətxanası, V.Q.Belinski adına Bakı şəhər kitabxanası və s. məhz bu barədə fəaliyyətə başlamışdır. Onlar xüsusi kitabxanaların ilk rüşeymləri idi. Bunlar ayrı-ayrı idarə və təşkilatlar tərəfindən yaradılmasına bax-

mayaraq, bütün oxuculara xidmət etdiklərindən ümumi-ictimai kitabxanalar kimi fəaliyyət göstərirdilər. Bu kitabxanaların fəaliyyətinin olduqca məhdud xarakter daşımasına, kiçik oxucu qrupuna xidmət etməsinə baxmayaraq, o dövr kitabxana işi tarixinin mənzərəsini yaratmaq, dövrün kitabxana siyasətini öyrənmək üçün onların tarixinin araşdırılmasına böyük ehtiyac duyulmaqda idi.

§ 1.5.2. Bakı Bələdiyyə İdarəsinin Kitabxanası

Bakı Bələdiyyə İdarəsinin Kitabxanası öz statusuna görə şəhər kitabxanası hesab edilirdi. Kitabxana 1903-cü ildən fəaliyyətə başlamış[33], təxmini məlumata görə, 1917-ci ilə qədər fəaliyyət göstərmişdi. Bələdiyyə İdarəsinin vəsaiti hesabına maliyyələşdirilən bu kitabxana şəhər Bələdiyyə İdarəsinin binasında yerləşirdi. Kitabxana, binasının darısqal olmasına baxmayaraq, xeyli kitab toplamağa nail olmuşdu. Artıq 1907-ci ildə kitabxananın fondunda 12000-dən artıq kitab var idi. Kitabxana ancaq şəhər Bələdiyyə İdarəsinin işçilərinə xidmət etmək üçün yaradılmasına baxmayaraq, şəhərdə böyük kitabxana olmadığından icazə ilə digər oxuculara da xidmət edirdi. İdarə kitabxanaya kitab almaq və digər xərclər üçün ildə 1500 manat vəsait ayırırdı.[34] Kitabxanaya şəhərin məktəblər komissiyası tərəfindən seçilmiş komissiya rəhbərlik edirdi. Tezliklə kitabxananın fondu xeyli zənginləşmiş, oxucularının sayı Bakının digər kitabxanaları ilə müqayisədə əhəmiyyətli dərəcədə çoxalmışdı. Oxuculara xidmət işini yaxşılaşdırmaq və kitabxananın daxili işlərini qaydaya salmaq üçün kitabxana kataloqunun təşkilinə böyük ehtiyac duyulurdu. Tezliklə kitabxanaya toplanmış 700 kitaba kataloq tərtib edildi. Kataloqun tərtibi oxuculara xidmət işini asanlaşdırmaqla, onların çoxalmasına səbəb oldu. 1904-cü ildən başlayaraq kitabxana dövri mətbuata abunə yazılmağa başladı. 1905-ci ildə kitabxananı idarə edən komissiya kitab fondunun sürətlə artmasını, oxucuların çoxalmasını nəzərə alaraq şəhər başçısına (qlavasına) müraciət

edərək şəhər kitabxanasının ümumi kitabxanaya çevrilməsini xahiş etmişdi. Şəhər İdarəsinin rəhbərliyi ümumi kitabxanaya çevirmək üçün o zaman onun fəaliyyətini dayandırmış, erməni-xeyriyyə cəmiyyətinin kitabxanasını alıb şəhər kitabxanası ilə birləşdirərək ümumi kitabxanaya çevirmək qərarına gəlmişdi. Sonralar erməni xeyriyyə cəmiyyəti öz fikrini dəyişdi və bu iş baş tutmadı.

Beləliklə, o dövrdə şəhər rəhbərliyinin bir neçə dəfə uğursuz cəhdlərinə baxmayaraq, şəhər ümumi kitabxanası yaratmaq mümkün olmadı. İdarənin kitabxanaya ayırdığı maliyyə vəsaitinin azlığı onun fondunu oxucuların tələblərini ödəyəcək dərəcədə komplektləşdirməyə imkan vermirdi. 10 ildə kitabxananın fondunda 12000 nüsxə kitab toplanmışdı ki, bu da Bakı kimi böyük kapitalist şəhərinin kitabxanası üçün məqbul hesab edilə bilməzdi. Həmçinin çar senzurası kitabxanaya mütərəqqi ideyalı, inqilabi ruhlu kitabların alınmasına qadağa qoymuşdu. Mütərəqqi ideyalı kitabların və inqilabi kitabların kitabxanada saxlanması qadağan edildiyindən çar senzurası vaxtaşırı olaraq kitabxana fondunda yoxlamalar aparır, «qadağan» olunmuş kitabları fonddan çıxardırdılar. Kitabxanada Azərbaycan dilində də ədəbiyyat yox dərəcəsində idi. Şəhər İdarəsi kitabxanaya Azərbaycan dilində kitablar alınmasının qeydinə qalmırdı. Hökumətin milli müstəmləkə siyasəti burada DA özünü göstərirdi. Oxuculara xidmət işində böyük məhdudiyyətlər var idi. Kitabxana gündə iki saat oxuculara xidmət edirdi ki, bunu da kifayət qədər hesab etmək olmazdı. Həmçinin Şəhər İdarəsində işləməyən oxucular kitabxanadan istifadə etmək üçün kitabxana komissiyasından icazə almalı və kitab götürmək üçün girov qoymalı idilər. Bu da oxucuların kitabxanadan istifadə işini xeyli çətinləşdirirdi.

1906-cı ildə Bakı Şəhər Bələdiyyə İdarəsinin Kitabxanası ilə yanaşı, Bakı Şəhər Dumasının kitabxanası da yaranmışdı. Kitabxana Dumanın binasında yerləşmiş və bir nəfər kitabxanaçı ştatı ayrılmışdı. Kitabxana əsasən Duma-

nın üzvlərinə və işçilərinə xidmət etdiyindən demək olar ki, qapalı xarakter daşıyırdı. Kitabxananın fondu ancaq rəsmi sənədlər və qanunçuluğa aid kitablarla komplektləşdirilirdi.

1905-ci ildə Bakı şəhərində təşkil edilən xüsusi kitabxanalardan biri də İctimai Yığıncağın Kitabxanası idi. İctimai Yığıncaq dövlət tərəfindən müdafiə edildiyindən Azərbaycanın rayonlarında da bölmələri var idi. Yığıncağın qarşısında qoyduğu vəzifələrdən biri xalq maarifinin və mədəniyyətin inkişafına kömək etmək idi. Məhz buna görədir ki, yığıncaq məktəblərin açılmasında iştirak edir, xalqın mədəni inkişafına kömək məqsədi ilə mədəni-maarif müəssisələri, o cümlədən kitabxanalar açırdı.

1905-ci ildən fəaliyyətə başlayan İctimai Yığıncağın Kitabxanası Bakının böyük kitabxanalarından biri idi. Kitabxana yığıncağın üzvlərinə xidmət etmək üçün yaradılmasına baxmayaraq, yığıncağın mütərəqqi fikirli üzvlərinin təkidi ilə geniş xalq kütlələrinə də xidmət edirdi. Kitabxananın çox zəngin kitab fondu var idi. 13000 cilddən artıq kitab toplanmış bu fondda çox qiymətli elmi, siyasi, iqtisadi və bədii ədəbiyyat saxlanılırdı. Xüsusi kitabxana olmasına baxmayaraq, o, bütün oxuculara xidmət etməyə çalışırdı. İctimai Yığıncağın idarələrində və bölmələrində işləməyən oxucular kitabxanadan istifadə etmək üçün icazə alırdılar. Kitabxananın oxucuları xeyli çoxalmışdı. Kitabxana 400-dən artıq oxucuya xidmət edirdi.[35]

1905-1907-ci illər inqilabının təsiri ilə təşkil edilən idarə kitabxanalarından biri də Yerli Torpaqşünaslıq İdarəsinin Kitabxanası olmuşdur. 1908-ci ildə təşkil edilən bu kitabxana idarənin inzibati binasında – Kolunbinski küçəsində, Qarayevin evində yerləşmişdi.[36] Bu kitabxananın təşkilində həmin idarədə rəis vəzifəsində çalışan A.L.Briminskinin xüsusi xidməti olmuşdur. Kənd təsərrüfatı sahəsində mütəxəssis olan rəis demək olar ki, kitabxanaya kənd təsərrüfatının bütün sahələrinə və meşəçiliyə aid çox qiymətli kitablar və jurnallar toplamağa müvəffəq olmuşdu. Torpaqşünaslıq idarəsi kitab almaq üçün olduqca az vəsait ayırdığından kitabxana pulsuz nüsxələr, bəxşişlər və ianələr hesabına təkmilləşirdi. Bu işdə idarənin mütəxəssisləri yaxından iştirak edirdilər. Yaxın müddət ərzində kitabxananın fondunda 3200 kitab toplanmışdı. Kitabxanada kitabları düzmək üçün xüsusi təsnifat hazırlanmışdı. Bu təsnifata müvafiq kitablar 16 şöbəyə bölünüb, kitab fondunda yerləşdirilmişdi.[37]

Kitabxananın dövrün tələbinə müvafiq kitab fondunda kənd təsərrüfatına aid ədəbiyyatla yanaşı, bədii və ictimai-siyasi ədəbiyyat da toplanmışdı. Kitabxana oxuculara pulsuz xidmət etdiyindən çoxlu oxucu gəlirdi. Oxuculara xidmət işini yaxşılaşdırmaq məqsədi ilə kitabxanada kataloqun təşkilinə başlanmışdı. Bu kataloqu o zaman çap etmək mümkün olmasa da, oxucular ondan əlyazması halında istifadə edirdilər. Torpaqşünaslıq İdarəsində işləyənlərin əksəriyyətini yüksək ixtisaslı mütəxəssislər, elmi işçilər təşkil etdiyindən kitabxanada elmi ədəbiyyatın toplanmasına və istifadəsinə xüsusi diqqət yetirilirdi.

İrtica illərində Bakı kitabxanaları çox böyük çətinliklərə məruz qaldılar. Hökumət maarif və mədəniyyət müəssisələrinə ayrılan vəsaiti olduqca azaltmış, maarif və mədəniyyət müəssisələrinə, o cümlədən kitabxanalara nəzarəti olduqca gücləndirmişdi. Kitabxanalar tez-tez senzura tərəfindən yoxlanılır, fondlarda saxlanılan mütərəqqi ədəbiyyat, inqilabi ruhlu kitablar çıxarılıb məhv edilirdi. Çar senzurası tərəfindən qadağan olanmuş kitabları saxlayan kitabxanalar təqiblərə məruz qalır, qeyri-şərtsiz bağlanırdı. Məhz buna görədir ki, qabaqcıl ziyalılar irtica illərində mövcud kitabxanaların qorunub saxlanması uğrunda mübarizə aparırdılar. Lakin irtica illəri uzun sürmədi, inqilabi mübarizə yenidən alovlanmağa başladı. İnqilabi yüksəlişdən qorxuya düşən hökumət kitabxana işi sahəsində öz siyasətini liberallaşdırmağa, dövlət idarələrinə, həmçinin ayrı-ayrı təşkilatlara kitabxanalar açmağa icazə verməyə başladı.

§ 1.5.3. Bakı Şəhər İdarəsinin Kitabxanası

1910-cu ildə hökumət Bakı Şəhər İdarəsinə kitabxana açmağa icazə verdi. V.Q.Belinskinin adını daşıyan bu kitabxananı saxlamaq üçün idarə ona vəsait və bina ayırdı. Kitabxana keçmiş Sadovı (indiki Çkalov 10) küçəsində yerləşirdi. O öz statusuna görə şəhər kitabxanası olsa da, ilk növbədə yalnız yüksək rütbəli məmurlara, şəhər idarəsinin qulluqçularına, texniki işçilərinə və onların uşaqlarına xidmət edirdi. Sonralar kitabxana şəhər zəhmətkeşlərinə, Müqəddəs Nina məktəbinin, Realnı məktəbin və 3-cü kişi gimnaziyasının müəllimlərinə və şagirdlərinə xidmət etməyə başladı. O zaman Şəhər İdarəsində işləyən M.Əzizbəyov kitabxananın işinə kömək edir, ona ayrılan vəsaitin artırılmasını və pulsuz olaraq bütün oxuculara xidmət göstərməsini tələb edirdi. M.Əzizbəyovun köməyi ilə Bakı Realnı məktəbi kitabxanasının fondunun bir hissəsi şəhər kitabxanasına verilmişdi. Həmin kitablar içərisində bir çox qiymətli kitablar və jurnallar da var idi. Kitabxanaya ayrılan maliyyə vəsaitinin artırılması onun maddi-texniki bazasının möhkəmləndirilməsinə və fondunun artmasına səbəb oldu. Əgər kitabxana açılarkən onun fondunda 400 nüsxə kitab var idisə, onların sayı 1917-ci ildə 1400 nüsxəyə çatmışdı.[38] Kitabxana öz fəaliyyətini Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinə qədər davam etdirmiş, 1920-ci ildən Bakı şəhər Soveti kitabxanalarının şəbəkəsinə daxil edilmiş və rus oxucularına xidmət edən «Sovet kitabxanası» adlandırılmışdı.

§ 1.5.4. XX əsrin əvvəllərində Bakı kəndlərində kitabxana işi

XX əsrin əvvəllərində Bakıda neft sənayesinin inkişafı Bakı kəndlərinin ictimai mühitinə və mədəni inkişafına müsbət təsir etmişdi. Bakı ilə yanaşı, ətraf kəndlərdə də məktəblər, mədrəsələr açılır, mədəni-maarif müəssisələrinin yaranmasına təşəbbüs göstərilirdi. Bakı kəndlərinin bir çoxu neft mədənlərində, yeni yaradılan fabrik və zavodlarda fəhlə

işləyirdilər. Kəndlərdə savadlı adamların sayı artmağa başlamışdı. Bakı mühiti kəndlərə ciddi təsir göstərirdi. Kəndlərdə ab-hava tamamilə dəyişmişdi. 1905-1907-ci illər inqilabı dövründə Bakı kəndlərində inqilab ərəfəsində gedən oyanış daha da genişlənmişdi. Kəndlilər iqtisadi tələblərlə yanaşı, maarif və mədəniyyət sahəsində də tələblər irəli sürür, kəndlərdə məktəblər və mədəni-maarif müəssisələri yaratmaq istəyi ilə çıxış edirdilər. İnqilab ərəfəsində və inqilab illərində Bakı kəndlərində böyük ziyalılar ordusu yetişmişdi. Məhz bu ziyalılar Bakı kəndlərində maarif və mədəniyyətin inkişafına böyük təkan verməyə, yeni məktəblər, kitabxanalar və qiraətxanalar təşkil etməyə ciddi səy göstərmişlər.

Bakı kəndlərində kitabxana və qiraətxanalar əsasən məktəblərin yanında yaradılırdı. Bakı ətrafı böyük kənd və qəsəbələrdən Mərdəkanda, Maştağada, Balaxanıda, Əhmədlidə, Sabunçuda və s. məktəblərin yanında kiçik kitabxanalar fəaliyyət göstərirdi.

Belə kitabxana və qiraətxanaların yaranmasına kənd ziyalıları da maddi köməklik göstərirdilər. Həmçinin o dövrdə Bakı və onun kəndlərində fəaliyyət göstərən cəmiyyətlər və ayrı-ayrı qabaqcıl ziyalılar kənd əhalisinə xidmət etmək üçün öz vəsaitləri hesabına ictimai kitabxana-qiraətxanalar təşkil edirdilər.

Belə qiraətxanalardan biri 1906-cı il iyul ayının 21-də Maştağa kəndində (qəsəbəsində) açılmışdı.[39] O dövrdə bu qiraətxananın açılması haqqında «İrşad» və «Bakı» qəzetlərində məlumat dərc edilmişdi. Qəzetlər qiraətxananın öz dövrünün görkəmli ziyalılarından biri olan Əhməd bəy Dövlətov tərəfindən təşkil edilməsini, onun maarifpərvər şəxsiyyətlərdən biri olduğunu, maarifin və mədəniyyətin inkişafında kitaba, kitabxanaya böyük əhəmiyyət verdiyini yazırdılar. Əhməd bəy Dövlətov hələ inqilabın başlamasından əvvəl öz həmyerlilərinə xidmət etmək üçün qiraətxana açmaq xahişi ilə Bakı general qubernatoruna müraciət etmişdi, ancaq icazə ala bilməmişdi. Nəhayət, o, böyük çətinliklə

1906-cı ildə Maştağada müsəlman qiraətxanası açmağa icazə almağa müvəffəq oldu. İcazə alındıqdan sonra iyul ayının 11-dən 21-nə qədər qiraətxananın rəsmi açılışı üçün hazırlıq işləri görüldü. Bina ayrıldı, avadanlıq, kitab, qəzet və jurnallar alındı. Qiraətxana oxucuların tam istifadəsinə hazır olduqdan sonra rəsmi açılış oldu.[40] Açılışa kəndin bütün ziyalıları, qabaqcıl, savadlı adamları toplaşmışdı. Açılışda Axund Mirqənin və kəndin ağsaqqallarından Əbdul Əzimin iştirakı onu daha təmtəraqlı etmişdi. Açılışa Bakıdan və başqa kəndlərdən bir çox adamlar da gəlmişdi.[41]

Açılışda çıxış edənlər kitabın, kitabxananın, qiraətxananın əhəmiyyətindən, xalqın mədəni inkişafındakı rolundan danışmaqla bütün insanları kitabxanaya kömək etməyə çağırdılar. Çıxış edənlər Əhməd bəy Dövlətova bu nəcib işinə görə yüksək qiymət vermiş və bütün ziyalıların onun kimi hərəkət etməsini zəruri hesab etmişdilər.

Yığıncaqda çıxış edən Axund Mirqəni qiraətxananın xalqın savadlanmasında, inkişafında, doğru yola gəlməsində böyük əhəmiyyətini, kitab, qəzet, jurnal oxumağın faydasını göstərmiş və camaatı mütaliə etməyə çağırmışdı. O, müsəlmanları sünni və şiəyə ayıran avam üləmaları tənqid edərək demişdir: «Hal-hazırda bizim bu qədər geridə qalmağımıza səbəb bunlardır. Buna da səbəb bizim xudpəsənd və avam mollalarımızdır ki, hər kəs öz məxsusi mənfəətindən ötrü, özü üçün camaatdan bir dəstə ayırıb özünə məxsus ad qoyubdur».[42]

Açılışda Maştağa kəndinin maarifpərvər gəncləri və ziyalıları çıxış edərək söz vermişdilər ki, qiraətxananın öz fəaliyyətini davam etdirməsi üçün əllərindən gələn maddi yardımı edəcəklər. Maarifpərvər ziyalı Əbdüləzim də öz çıxışında əhalini qiraətxanaya kömək etməyə çağırırdı.

Qiraətxanada kitab, qəzet və jurnalları toplayıb, mühafizə edib saxlamaq və oxucuların istifadəsinə vermək üçün bir nəzarətçi təyin edilmişdi. Qiraətxana səhər saat 8-dən axşam saat 8-ə qədər açıq olurdu.

Maştağa qiraətxanasını təbrik edən «İrşad» qəzeti yazırdı: «Maştağa kəndində açılan qiraətxananın xəbərini eşidib, ürəkdən şad olub cümlə kəndlərimizi təbrik edib, arzu edirik ki, qeyri kəndlərimiz də bu kəndlilərdən ibrət götürüb belə bir müqəddəs fikri intişar etməyə qədəm qoysunlar».[43]

Maştağa qəsəbəsində kitabxana-qiraətxananın açılması, açılışın milli mətbuatımızda geniş işıqlandırılması və yüksək qiymətləndirilməsi Bakının digər kəndlərində də böyük rəğbətlə qarşılanmış və bunun təsiri ilə Bakı kəndlərindən bir neçəsində də kitabxana-qiraətxanalar açılmışdır.

1906-cı ildə Mərdəkan bağçılar birliyi bir kitabxana-qiraətxana açmağa nail olmuşdu. Mərdəkan kitabxana-qiraətxanası şəxsi evdə yerləşirdi. Mərdəkan ziyalıları kitabxana-qiraətxanaya xeyli kitab, qəzet, jurnal bağışlamışdılar.

Yenə 1906-cı ildə Türkan kəndinin qabaqcıl ziyalılarından biri – maarifpərvər Kərbəlayi Abuzər Bayramov bir kitabxana-qiraətxana açmağa nail olmuşdu. Bu işdə ona Azərbaycan Respublikasının xalq artisti Mirzə Ağa Əliyev yaxından kömək etmiş, Bakı general qubernatorundan kitabxana-qiraətxananın açılmasına icazə almışdı. Həmçinin Mirzə Ağa Əliyev kitabxana-qiraətxana üçün vəsait, kitab və jurnal toplanmasında da yaxından iştirak etmişdi.

1910-cu ildə Bakının qədim kəndlərindən biri olan Pirşağı qəsəbəsində də kitabxana-qiraətxana açılmışdı. Bu kitabxana-qiraətxana əslən Pirşağıdan olan və Bakı şəhərində yaşayan görkəmli ziyalı İsmayıl bəy Səfərəliyevin köməyi sayəsində təşkil edilmişdi. İsmayıl bəy o zaman kitabxana-qiraətxana açmaq üçün Bakı general qubernatoruna ərizə ilə müraciət etmişdi. İsmayıl bəy ərizəsində göstərirdi: «Bakı şəhər rəisliyindəki Pirşağı kəndinin maarif işinə qüvvəm çatan qədər kömək etməyi arzu edərək, sizdən xahiş edirəm həmin kənddə mənim məsulliyyətim altında qiraətxana açmağa icazə verəsiniz. Qiraətxanada həm Pirşağı əhalisinin, həm də yay zamanı buraya yaylağa gələnlərin istifadəsi üçün

mənim tərəfimdən abunə yazılmış yerli və mərkəzi qəzetlər olacaqdır».[44] Şəhər rəisi İsmayıl bəy Səfərəliyevin ərizəsinə müsbət cavab vermiş və iyul ayında qiraətxana açılmışdır.

İnqilabi yüksəliş illərində Bakı kəndlərində təşkil edilən kitabxana-qiraətxanalardan biri də Balaxanı kəndində təşkil edilən «Nur» qiraətxanası olmuşdur. Bu kitabxana-qiraətxana digər kənd qiraətxanalarına nisbətən həm maddi bazası, həm də fondunun zənginliyi ilə ən mükəmməli idi. Kitabxana-qiraətxananın təşkilində Balaxanının görkəmli ziyalılarından Hacı Sultan Əlinin və Axund Molla Abdullanın böyük rolu olmuşdur. Kitabxana-qiraətxananın açılışında fəal iştirak edən Baxış Əhmədov o dövrdə nəşr edilən «Səda» qəzetində yazırdı: «Bir neçə ildən bəri arzusunda olduğumuz qiraətxananın bu gün açılışına müvəffəq olduğumuzu görüb, bu yolda sərf hümmət edənlərə təşəkkürümüzü izah ilə bu uğurda canı dildən çalışacağımızı vəd edirəm. Zira arada intişar maarif üçün, yaxud məhəbbət, üxvət bərpa etməyə bir vasitə var isə, o da bu növ təsislərin hüsula gəlməsidir. Bu münasibətdə həmin qiraətxananı «Nur» adlandırdıq».[45]

Qiraətxana 1911-ci ilin fevralında təşkil edilmiş və qiraətxananı idarə etmək üçün fəal oxuculardan ibarət idarə heyəti seçilmişdi. Kitabxana üçün abad bir otaq ayrılmış, stol və stullarla təmin edilmişdi. Kitabxana-qiraətxana bir neçə qəzet və jurnala abunə yazılmış, əhali kitabxanaya xeyli kitab bağışlamışdı. Yerli nəşrlərlə yanaşı olaraq qiraətxanaya Qafqazda, Türkiyədə, İranda, Rusiyada nəşr edilən qəzetlərə də abunə yazılırdı.

O zaman Balaxanıda digər kitabxanaların da fəaliyyət göstərməsinə baxmayaraq, «Nur» kitabxanası ilk milli kitabxana-qiraətxana kimi böyük əhəmiyyət kəsb edirdi.

XX əsrin əvvəllərində Bakı şəhərində və onun kəndlərində fəaliyyət göstərən kitabxana və qiraətxanaların fəaliyyəti ilə tanışlıqdan məlum olur ki, bu kitabxana və qiraətxanaların maddi-texniki bazası çox zəif olmaqla yanaşı, həm

də lap az oxucu kontingentinə malik idilər. O dövrdə burjua ideoloqları bunun əsas səbəbini yerli xalqların maarifə və mədəniyyətə can atmaması kimi qiymətləndirir, mütləqiyyətin milli müstəmləkə siyasətini ört-basdır edirdilər. Halbuki bu prosesin obyektiv səbəbini çar hökumətinin milli kitabxana-qiraətxanalara mənfi münasibətində, vəsait ayırmamasında, yerli əhalinin dilində kitab, qəzet, jurnal olmamasında və qeyri-rus millətlərin başdan-başa savadsız olmasında axtarmaq lazım gəlir.

Fikrimizi təsdiq etmək üçün o zaman «Sovqat» qəzetində (1916-cı il, № 37) dərc edilmiş bir yazıya diqqət yetirək. Qəzet yazır: «Qafqazın bəzi şəhərlərində nə qədər kitabxana və qiraətxanalarımız varsa da əlverişli deyillər. Zira qiraətxanada dörd-beş qəzet və kitabxanada on-on beş kitab olmaqla, ona qiraətxana və ya kitabxana adı verilməz.

Qiraətxanalarımızda hər cür qəzet və kitabxanalarımızda aləmdə meydana çıxan kitabların cümləsi gərək olsun ki, istifadə edilsin. Yoxsa indi mövcud olan qiraətxana və kitabxanalarımızın səmərəsi olmaz. Olsa da tələblərimizi ödəməz. Buna görə də lazımdır ki, müsəlman şəhərlərində olan cəmiyyətlər bunları düşünüb kitabxana və qiraətxana olmayan yerlərdə dediyimiz kimi təsisinə qeyrət etsinlər. Qiraətxana və kitabxanaları olan şəhərlərdə bu işin tərəqqisinə çalışıb onu müntəzəm bir şəkilə salsınlar».

Qəzetin bu fikirləri o dövrdəki vəziyyəti olduqca düzgün xarakterizə etdiyindən onun şərhinə ehtiyac qalmır.

§ 1.5.5. XX əsrin əvvəllərində Bakı və onun rayonlarında fəaliyyət göstərən qeyri-dövlət təşkilatlarının və cəmiyyətlərin kitabxanaları

XX əsrin əvvəllərində Bakı Rusiyanın ən böyük sənaye mərkəzlərindən biri olsa da, xalq maarifinin, mədəniyyətin inkişafı baxımından çox geridə qalan şəhərlərdən biri idi. Bakıda Rusiyanın mərkəzlərindən fərqli olaraq həyata keçirilən milli müstəmləkə siyasəti xalq maarifinin və mədə-

niyyətin inkişafına ciddi buxov idi.

Ölkədə mədəniyyətin mühüm sahələrindən biri olan kitabxana işinin vəziyyəti çox acınacaqlı idi. Çar hökuməti yeni kitabxanalar açılmasına icazə verilməsini və mövcud kitabxanaların fəaliyyətini ciddi nəzarət altına almışdı. Çar senzurasının icazə vermədiyi kitabları saxlayan kitabxanalar bağlanmaq təhlükəsinə məruz qalırdı. Ucqarlarda isə bu siyasət milli kitabxanaların yaranmasına, milli dillərdə kitabların oxunmasına olduqca mənfi təsir göstərirdi. Rusiyanın mərkəzlərindən fərqli olaraq ucqarlarda xalq kitabxanalarının açılmasına və onların saxlanmasına dövlət vəsait ayırmırdı.

Hökumətin bu siyasəti Bakıda da kitabxana işinin inkişafına olduqca mənfi təsir göstərmişdi. Dövlət tərəfindən maliyyələşdirilən bir neçə kitabxanadan başqa əhaliyə xidmət edən dövlət kitabxanası demək olar ki, yox idi. Əhaliyə kitabxana xidməti əsasən qeyri - dövlət təşkilatları və xeyriyyə cəmiyyətləri tərəfindən həyata keçirilirdi. Belə təşkilatların və cəmiyyətlərin maliyyə imkanları əhaliyə ardıcıl, səmərəli kitabxana xidmətinin təşkilinə imkan vermirdi.

XX əsrin əvvəllərində Bakıda neft sənayesinin inkişafı çoxlu savadlı fəhlələr tələb edirdi. Rusiyanın hər yerindən Bakıya böyük fəhlə axını başlamışdı. Bakı proletariatı formalaşmış, böyük siyasi qüvvəyə çevrilmişdi. Bakı şəhərinin əhalisi iki dəfəyə qədər artmışdı. Bakı şəhərinin əhalisi savad səviyyəsinə görə də fərqlənirdi. 1901-ci ildə Bakı fəhlələrinin 32,4 faizi savadlı idi.[46] Ancaq onların mütaliəsini təşkil etmək üçün heç bir müəssisə yox idi. Mütləqiyyətin yeritdiyi böyük dövlətçilik siyasəti azlıqda qalan millətlərin hüquqlarının daim pozulması, ardıcıl olaraq aparılan ruslaşdırma siyasəti milli məsələnin ədalətli həllini tələb edirdi.

İnqilab ərəfəsində Bakıda bir-birinin ardınca baş verən tətillər və bu tətillərdə iqtisadi tələblərlə yanaşı, siyasi və mədəni tələblərin irəli sürülməsi çar hökumətini qorxuya salmışdı. Fəhlə tətillərində irəli sürülən mədəni tələblər içərisində azərbaycanlılar üçün milli məktəblərin açılması, milli mətbuatın yaradılması, kitab nəşrinə şərait yaradılması, fəhlələrin və onların uşaqlarına xidmət etmək üçün mədəni-maarif müəssisələri: kitabxanalar, qiraətxanalar, klublar və s. təşkil edilməsi tələb edilirdi.

Mütəşəkkil fəhlə hərəkatının başlanmasından qorxuya düşən hökumət fəhlə tətillərində irəli sürülən tələbləri yerinə yetirmək üçün yollar axtarmağa başlamış, sahibkarlara öz müəssisələrində mədəni-maarif müəssisələrinin açılmasını məsləhət görmüşdü. Bu proses inqilab illərində, xüsusilə 1905-ci il Oktyabr manifestindən sonra xeyli güclənmişdi.

§ 1.5.6. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanaları

İnqilab ərəfəsində və inqilab illərində Bakıda fəhlələrə xidmət üçün kitabxana və qiraətxanaların təşkilində Bakı Neft Sənayeçiləri Qurultayı Şurası xeyli iş görmüşdü. Bu şura XIX əsrin axırlarından başlayaraq Bakı və onun rayonlarında əhalinin mədəni tələbatını ödəmək üçün mühüm tədbirlər həyata keçirmiş, məktəblər, savad kursları, mədəni-maarif müəssisələri: klublar, kitabxanalar, qiraətxanalar, xalq evləri və s. açmış, Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının hesabına onu maliyyələşdirmişdi. Rus burjuaziyasının ilk sahibkar təşkilatlarından biri olan bu şura Bakı kapitalistlərinin xüsusi təşkilatı idi. Neft Sənayeçiləri Qurultayı Şurasının əsas vəzifəsi neft sənayeçilərinin mənafeyini hökumət qarşısında müdafiə etməkdən, neft maqnatlarının yüksək gəlirini təmin etməkdən və maqnatların işini əlaqələndirməkdən ibarət idi. Şura seçkili orqan idi.

Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının daimi rəhbər orqanı 1884-cü ildə Bakı neft sənayeçilərinin birinci qurultayında seçilmişdi. Şura qurultayların qərarlarını həyata keçirir, gələcək növbəti qurultayın proqramını tərtib edir və onu hökumətin təsdiqinə verirdi. O, həmçinin öz fəaliyyəti

haqqında qurultaylara hesabat hazırlayırdı. 1890-cı ilin sonlarından şuranın Peterburqda daimi nümayəndəliyi açılmışdı. 1899-cu ildən şuranın mətbuat orqanı olan "Neftyanoye delo" jurnalı nəşrə başlamışdı.

Şura öz fəaliyyətini 1920-ci ilə qədər davam etdirmiş, 1920-ci ilin mayında ləğv edilmişdir.

Bakı Neft Sənayeçiləri Qurultayı Şurası Birinci rus inqilabı ərəfəsində Bakıda baş verən fəhlə tətillərində irəli sürülən mədəni tələbləri yerinə yetirmək, fəhlələrin maariflənməsi və mədəniyyətin inkişafında iştirak etmək məqsədi ilə bir sıra mədəni tədbirlər həyata keçirməyə məcbur olmuşdu. Şura Bakı və onun rayonlarında məktəblər açmaq, mədəni-marif müəssisələri yaratmaq üçün vəsait ayrılması və bu vəsaitin tədricən artırılması haqqında qərar qəbul etmişdi.

XX əsrin əvvəllərindən başlayaraq şura məktəblər və mədəni-maarif müəssisələri açmağa başlamışdı. Şuranın on illik fəaliyyəti nəticəsində artıq 1912-ci il ərəfəsində Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının 9 məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 2328 şagird təhsil alırdı.[47] Şura mədəni-maarif müəssisələrinin təşkili işində kitabxana və qiraətxanaların yaradılmasına üstünlük verirdi.

Artıq 1905-1907-ci illər inqilabı ərəfəsində Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Bakı və onun rayonlarında 7 kitabxana-qiraətxanası fəaliyyət göstərirdi. Bu kitabxana və qiraətxanalar əsasən neft rayonlarında təşkil edilmişdi. Əsrin əvvəllərində Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Balaxanıda, Qaraşəhərdə, Ağşəhərdə, Bayılda, Sabunçuda və Şəhər kontorunda olan kitabxanaları oxuculara xidmət edirdi. Göstərilən kitabxanalar şura tərəfindən maliyyələşdirildiyindən, digər cəmiyyət kitabxanalarından fərqli olaraq XX əsrin 20-ci illərinə qədər daimi olaraq oxucuları kitabxana xidmətini təşkil edən stasionar kitabxanalar kimi fəaliyyət göstərmişlər.

Cəmiyyət kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək, avadanlıqla təmin etmək, kitabxana işçilərinin əmək haqqını ödəmək üçün ilin əvvəlindən hər bir kitabxanaya büdcədən vəsait ayırırdı. Beləliklə, hər bir kitabxana ilin əvvəlindən öz büdcəsində olan vəsaitin məbləğini böldüyündən, büdcədə nəzərdə tutulan vəsaiti öz təyinatı ilə xərcləməli idi. Cəmiyyət hər bir kitabxanaya ildə 700 manat, Balaxanı kitabxanasına isə 900 manat vəsait ayırırdı. Bu vəsaitdən ayda 100 manata qədəri təsərrüfat xərclərinə, yerdə qalanı isə kitabxana fondunun komplektləşdirilməsinə xərclənirdi. Kitabxana fondlarının komplektləşdirilməsi ciddi nəzarət altında idi. Kitabxanalar ancaq Xalq Maarif Komissarlığının təsdiq etdiyi siyahılar əsasında komplektləşirdi. Bu siyahıda göstərilməyən kitabların alınmasına qadağa qoyulmuşdu.

Bundan başqa, kitabxanalar ayrı-ayrı şəxslər tərəfindən verilən bəxşişlər, ianələr yolu ilə də komplektləşirdi. Kitabxanaların komplektləşdirilməsinə qoyulan ciddi nəzarətə və onların fondlarının tez-tez yoxlanılmasına baxmayaraq, cəmiyyətin kitabxanalarına nazirliyin siyahısında olmayan mütərəqqi ruhlu kitablar, hətta bəzi hallarda inqilabi kitablar da yol tapa bilirdi. Kitabxanalara ayrılan vəsaitin azlığı üzündən bəzən kitablar almağa ayrılan vəsait başqa işlərə xərclənirdi. Kitabxanaların hesabatlarından məlum olurdu ki, bəzi hallarda yeni kitabları cildləmək üçün vəsaitin çatışmazlığı üzündən yeni kitablar almaq üçün ayrılan vəsaitdən istifadə etməyə məcbur olmuşlar. Cəmiyyət kitabxanaların struktur quruluşunun və kitabxana işi texnologiyasının vahid qaydada, ümumi prinsiplərə müvafiq aparılması haqqında təlimat tərtib etmişdi. Bu təlimat cəmiyyətin bütün kitabxanalarında tətbiq edilirdi. Kitab fonda daxil edildikdən sonra kitabxananın ştampı vurulur, sonra kitabxana qaydası ilə işlənilirdi. Kitablar kitabxana qaydası ilə işləndikdən sonra uçota alınırdı. Cəmiyyət kitabxanalarında yeni alınan kitabların uçota alınmasının ciddi qaydası tətbiq edilirdi. Bu qaydalara görə, kitabxanaya daxil olan kitablar üçün üç növ kitab düzəldilmişdi.

1. İnventar kitabı. Bütün kitabları kitabxanaya daxil olduğu tarixə görə fərdi qaydada uçota alan, hər bir kitaba ayrıca inventar nömrəsi verən, onun müəllifini, adını və qiymətini əks etdirən bu kitab həm də fondun maliyyə hesabatı üçün əsas sənəd hesab olunurdu.

2. Formulyar kitabı. Bu kitaba kitablar daxil olduğu qaydada formulyar şəklində yazılır və hər bir formulyarın qarşısında kitabı istifadə üçün götürən oxucunun nömrəsi yazılırdı.

3. Kitab kataloqu. O dövrdə kataloqlar kartoçka şəklində deyil, kitab şəklində düzəldildiyi üçün bunlara kitab kataloqu deyirdilər. Kitab kataloqunda kitablar kitabxana təsnifatına və müəllifin familiyalarına görə düzülürdü.

Kitablar fondda (şkaflarda) inventar nömrələrinə, kataloqda isə elm sahələrinə, şöbələrə görə düzülürdü. Oxucu kitabı inventar nömrəsinə görə axtarırdı.

Şuranın kitabxanalarında əsasən inventar düzülüşündən istifadə edilirdi. Ancaq son dövrlərdə bəzi daha böyük fondu olan kitabxanalarda (Qaraşəhər, Balaxanı) sistemli düzülüşdən də istifadə edilməyə başlanmışdı. Bütün kitabxanalarda uşaq kitabları ayrıca şöbədə saxlanılırdı. Həmçinin dillərə görə düzülüş qaydasından da istifadə edilirdi.

Doğrudur, kitabxana işinin təşkilində istifadə edilən bu qaydalar olduqca primitiv (sadə) görünsə də öz dövrü üçün mühüm əhəmiyyət kəsb edirdi.

Məlum olduğu kimi, kitabxana işinin ən mühüm amillərindən biri kitabxanaların yeni kitablarla təmin edilməsi, yəni onun komplektləşdirilməsidir. Məhz buna görədir ki, Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanaları bu işə olduqca böyük əhəmiyyət verir, bu işdə yeri gəldikcə görkəmli mütəxəssislərin məsləhətlərindən, nəşriyyat kataloqlarından, nəşriyyat planlarından, dövri mətbuat məlumatlarından istifadə edirdilər. Kitabxanalar öz fondlarını əsasən yeni ədəbiyyata illik abunə yazılmaq yolu ilə komplektləşdirirdilər. Həmçinin son zamanlar illik abunə siyahılarından əlavə kitabxana müdirlərinə maliyyə imkanları daxilində yeni nəşrlərə, qəzet və jurnallara abunə yazılmaq icazəsi verilirdi. Kitabxana müdirlərinin kitab mağazalarından kitab almaq imkanları da var idi.

Şura son illərdə komplektləşdirmə işini əlaqələndirmək üçün bütün kitabxanaların mərkəzləşdirilmiş qaydada komplektləşdirilməsini həyata keçirməyə başlamışdı. Bütün kitabxanaların iştirakı ilə abunə siyahısı tərtib edilir, alınan kitablar qurultay şurasının ofisinə verilirdi. Sonra ofis vasitəsi ilə kitabxanalar arasında bölünürdü.

Şuranın kitabxanalarında dövri mətbuata abunə ayrıca aparılır, alınan qəzet və jurnallardan oxucular qiraətxanalarda istifadə edirdilər. Bir il keçdikdən sonra jurnallar cildlənib kitab fonduna daxil edilirdi.

Şuranın kitabxanaları oxuculara xidmət işinə ciddi əhəmiyyət verirdi. Kitabxanada oxucuların kitabxanaya üzv olması, kitabdan istifadə etməsi və qiraətxanadan istifadə qaydaları asılmışdı. Bundan əlavə, kitabxanaçılar gələn oxucularla söhbət aparır, kitabxanadan, qiraətxanadan istifadə qaydalarını izah edirdilər.

Qaydalara görə, yaşlı oxucu kitabxanadan istifadə etmək üçün ya işlədiyi yerdən arayış gətirməli və yaxud bir manat girov qoymalı idi. Müəssisələrdən arayış gətirənlər kitabxanadan pulsuz istifadə edirdilər. Kitab oxucuya 15 gün müddətinə verilirdi. Kitabı vaxtında qaytarmayanlar cərimə verməli idilər.

Şura kitabxana fondlarının ictimai əmlak kimi qorunub saxlanmasına, mühafizə edilməsinə dair xüsusi təlimatlar təsdiq etmiş və bu əsasnamənin yerinə yetirilməsini ciddi nəzarətdə saxlayırdı. Hər ilin axırında kitabxananın fondu fərdi uçot kitabı, inventar kitabı ilə yoxlanılırdı. İl ərzində kitabxanadan müxtəlif səbəblər üzündən çıxarılan kitabların siyahısı tərtib edilib aktlaşdırılır, onun çıxarılması haqqında inventar kitabında qeydlər aparılırdı. Fonddan çıxarılan kitabların sırası əsasən yeni kitabların alınması ilə müəyyənləşdirilirdi.

Şura kitabxanalarının hamısında qiraətxanalar fəa-

liyyət göstərirdi. Qiraətxana üçün ayrıca otaqlar ayrılmış, oxuculara xidmət üçün qiraətxanaların məlumat-biblioqrafiya fondu təşkil edilirdi. Burada məlumat kitabları ilə yanaşı, oxucuların böyük tələbatı olan kitablar da saxlanılırdı. Qiraətxanalar əsasən oxuculara dövri mətbuatla xidmət etdiyindən aylıq jurnallar və qəzetlər qiraətxana fondlarının əsasını təşkil edirdi. Qiraətxanalar axşam saatlarında oxucu ilə dolu olurdu. Orta hesabla qiraətxanalara gün ərzində 20-30 oxucu gəlirdi. Oxucular bəzi hallarda abonementdən kitab alıb oxuyurdular. Belə hallar az olsa da kitabxananın işçiləri onların arzusunu sözsüz yerinə yetirirdilər. Qiraətxanalar gündüzlər uşaqlara xidmət etdiklərindən uşaq jurnalları da alırdılar. Qiraətxanadan istifadə edən uşaq oxucuların tələbatını nəzərə alaraq qiraətxanalarda uşaq ədəbiyyatının saxlanmasına da diqqət yetirilirdi. Bəzi hallarda az da olsa, uşaqlar üçün kütləvi tədbirlər də keçirilirdi. İnqilab illərində azərbaycanlı fəhlələrin tələbi ilə qiraətxanalar milli dillərdə çıxan qəzetlərə və jurnallara da abunə yazılmağa başlamışdılar. Bu da tədricən azərbaycanlı oxucuların sayının çoxalmasına səbəb olurdu.

Qiraətxanalar qışda səhər saat 10-dan gündüz saat 2-dək və gündüz 4-dən axşam 8-ə qədər açıq olurdu. Bazar günlərində saat 12-dən 6-dək, adi günlərdə isə saat 10-dan 1-dək və 4-dən 7-dək açıq olurdu.[48]

Beləliklə, biz Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanalarının ümumi mənzərəsi, strukturu, maddi-texniki bazası, kitabxana fondlarının yaradılması, qorunub saxlanması, uçotu, kitabxana texnologiyası, oxuculara xidmət işinin təşkili və s. haqqında ümumi mənzərəni yaratdıq. İndi də şuranın ayrı-ayrı kitabxanalarının tarixinə nəzər salaq.

§ 1.5.7. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Ağşəhər Kitabxanası

Tarixi mənbələrdə bu kitabxananın Bakı fəhlələrinin tələbi ilə 1903-cü ildə yaradılması göstərilir. XX əsrin əvvəl-

lərində getdikcə geniş miqyas alan Bakı fəhlə tətillərindən qorxuya düşən neft sənayeçiləri Bakıda məktəblər və mədəni-maarif müəssisələri açmağa məcbur oldular. Ağşəhər kitabxana-qiraətxanası Ağşəhərdə beş otaqlı, geniş, işıqlı binada yerləşirdi. Cəmiyyət kitabxananın saxlanması üçün ev sahibinə ildə 550 manat icarə haqqı verirdi. Bu binanın ikinci mərtəbəsində kitabxana-qiraətxana üçün ikiotaqlı yer ayrılmışdı. Çöldən ikinci mərtəbəyə qalxmağa ayrıca yol var idi. Bu da kitabxana-qiraətxanaya gəliş-gedişi asanlaşdırırdı. Otağın birində kitabxana, böyük otaqda isə qiraətxana yerləşirdi. Qiraətxananın bir hissəsində yaşlı oxucular, digər hissəsində isə uşaqlar məşğul olurdular. Kitablar, jurnal və qəzetlər otaqlara divar boyu düzülmüş kitab şkaflarında yerləşdirilmişdi. Kitabxanada fondda olan və oxuculara tövsiyə edilən kitabların elm sahələri üzrə siyahısı asılmışdı. Belə siyahılar oxuculara kitabxanadan istifadə etmək və özlərinə lazım olan kitabları axtarıb tapmaq işində böyük kömək göstərirdi.

Ağşəhər kitabxana-qiraətxanasının maliyyə vəziyyəti ağır idi. 1903-cü ildə şura bütün kitabxanalar üçün cəmi 15000 manat vəsait ayırmışdı. Orta hesabla cəmiyyətin hər bir kitabxanasına 4000 manat düşürdü. 1905-1907-ci illər inqilabı dövründə neft sənayeçiləri kitabxana-qiraətxanalara ayrılan vəsaiti xeyli artırmağa məcbur olmuşdular.1905-ci ildə cəmiyyətin kitabxanalarına 26000 manat vəsait ayrılmışdı ki, bundan da hər bir kitabxanaya 6000 manat vəsait düşürdü. İnqilabi yüksəliş dövründə bu vəsait ilbəil artırılmışdı. 1905-1907-ci illər inqilabının məğlubiyyətindən sonra ölkədə irtica hökm sürməyə başlamış, demokratik azadlıqlar ləğv edilmiş, fəhlələr üçün təşkil edilmiş mədəni müəssisələrin maliyyələşdirilməsi tamamilə yaddan çıxmışdı. Neft sənayeçiləri də öz kitabxana-qiraətxanalarına ayrılan vəsaiti xeyli azaltmış, kitabxana fondlarında olan demokratik əhval-ruhiyyəli kitabların kitabxanalardan çıxarılması haqqında göstəriş vermişdi. Məhz buna görə də kitabxana-

qiraətxananın fondu çox zəif inkişaf edirdi. Əldə edə bildiyimiz bir neçə rəqəmə diqqət yetirək.

Kitabxananın fondunda 1907-ci ildə 1714 kitab, 1912-ci ildə 3276 kitab, 1913-cü ildə 4462 kitab, 1914-cü ildə 4972 kitab, 1915-ci ildə 5801 kitab olmuşdur. Bu rəqəmlərdən məlum olur ki, kitabxananın fondu 1907-ci ildən 1915-ci ilə qədər - 8 il müddətində 4087 nüsxə artmışdı. Bu rəqəmlər bir daha sübut edir ki, neft sənayeçiləri kitabxanaların inkişafı üçün ciddi tədbirlər görmür, kitabxana-qiraətxananın saxlanmasına olduqca az vəsait buraxırdılar. Bakıda getdikcə təhsilli fəhlələrin sayının artmasına, kitab nəşrinin genişlənməsinə, milli dillərdə nəşr edilən kitabların miqdarının çoxalmasına baxmayaraq, oxucuların sayı çox zəif artır, dövrün tələblərinə cavab vermirdi. Kitabxananın 1907-ci ildə 134 nəfər oxucusu var idisə, onların sayı 1912-ci ildə 479-a, 1914-cü ildə 483-ə çatmışdı. 7 ildə cəmisi 349 nəfər artmışdı. Kitab verilişində də elə bir ciddi dəyişiklik baş verməmişdi. Oxuculara 1907-ci ildə 1645 kitab, 1912-ci ildə isə 14801 nüsxə kitab verilmişdi. Kitabxananın fondundakı kitabların əksəriyyəti rus dilində olduğundan kitabxana oxucularının çoxu rusdilli adamlar idi. Rus dilini bilməyən azərbaycanlı fəhlələr kitabxanaya getmirdilər. Cəmiyyətin rəhbərliyi bunu bilə-bilə bu işin qaydaya düşməsinə, kitabxanaya milli dillərdə kitab almağın qayğısına qalmırdı.

İnqilabi yüksəliş illərində kitabxananın fəaliyyətində kiçik miqyaslı canlanma baş versə də, onun işini dövrün tələbləri səviyyəsinə qaldırmaq mümkün olmamışdı.

§ 1.5.8. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Bayıl (Bibiheybət) kitabxanası

Bayıl Bakının ən böyük fəhlə rayonlarından biri di. Bayıl neft mədənlərində 10 mindən artıq fəhlə işləyirdi. Bayılda heç bir mədəni-maarif müəssisəsi yox idi. Bakı fəhlələrinin ən qabaqcıl dəstələrindən biri olan Bayıl fəhlələri tətillərdə fəal iştirak etməklə neft sənayeçiləri qarşısında siyasi,

iqtisadi tələblərlə yanaşı, mədəni tələblər də irəli sürürdülər. Bakı Neft Sənayeçiləri qurultayı Şurası hələ 1900-cü ilin əvvəllərində burada Qaraşəhər kitabxanasının filialını açmağa məcbur olmuşdu. Bu filial 1903-cü ilə qədər fəaliyyət göstərmiş, 1903-cü ildə cəmiyyətin müstəqil kitabxana-qiraətxanasına çevrilmişdi. Bakı fəhlələrinin mədəni həyatında mühüm rol oynayan bu kitabxana-qiraətxana 1916-cı ilə qədər fasiləsiz fəaliyyət göstərmişdir.

Kitabxana Bayılda Rijanskinin evində «Elektrik qüvvəsi» binasının qarşısındakı binanın 4-cü mərtəbəsində 6 otaqda yerləşirdi. Bu otaqların üçü kitabxana üçün ayrılmışdı. Ən böyük otaq qiraətxanaya verilmiş, kitabxana avadanlığı ilə təchiz edilmişdi. Bir otaq kitabsaxlayıcı, üçüncü otaq isə abonement şöbəsi idi. Həmçinin kiçik bir otaqda da kitabxananın uşaq şöbəsi yerləşmişdi. Kitabxana-qiraətxana yaşlı oxucularla yanaşı olaraq uşaqlara da xidmət göstərirdi. Uşaq şöbəsi şuranın Bayılda olan məktəbi və məktəb kitabxanası ilə əlaqə saxlayırdı. Az da olsa uşaqlar üçün birlikdə kütləvi tədbirlər keçirir, kitab mübadiləsi edirdilər.

Şura tərəfindən kitabxanaya ayrılan maliyyə vəsaiti azlıq edirdi. Bu vəsaitin bir hissəsi, yəni ildə 720 manat binaya icarə haqqı verildiyindən kitab, qəzet, jurnal almaq üçün olduqca az vəsait qalırdı. Kitabxananın fondu zəngin olmasa da olduqca işlək idi. Kitabxanaya alınan kitablar bilavasitə dövrün tələbləri ilə ayaqlaşırdı.

Kitabxananın ilk illərdəki fəaliyyəti haqqında materiallar və statistik sənədlər olmadığından biz kitabxananın son dövr fəaliyyətini təhlil etmək məcburiyyətində qaldıq.

1907-ci ildə kitabxananın fondunda 2350 kitab, 637 nəfər oxucu olmuşdur.[49] Kitabların əksəriyyəti rus dilində idi. Azərbaycan dilində və digər dillərdə olduqca az ədəbiyyat var idi. Kitabxana-qiraətxananın fondu daimi senzura nəzarətində olduğundan burada milli dillərdə və mütərəqqi ruhlu kitablara, inqilabi ədəbiyyata az rast gəlmək olardı. Oxucular içərisində də azərbaycanlılar azlıq təşkil edirdi.

637 nəfər oxucudan cəmi 37 nəfəri azərbaycanlı olmuşdur. Kitabxana Bayıl neft sənaye fəhlələrinin ancaq 4-5 faizinə xidmət edirdi. Aşağıdakı rəqəmlərə diqqət yetirək: 1907-ci ildə Bayılda neft sənayesində 11 mindən artıq fəhlə işləyirdi. 1907-ci ildə isə kitabxananın 637 nəfər oxucusu olmuşdur. Deməli, kitabxana fəhlələrin ancaq 4,4 faizini oxucular sırasına cəlb edə bilmişdi. Bu da o dövrdə əhaliyə kitabxana xidmətinin acınacaqlı vəziyyətdə olduğunu aşkara çıxarır.

Həmçinin o dövrdə kitabxana-qiraətxananın oxucuları xidmət zamanı verdiyi kitabların məzmunca tərkibi də böyük maraq doğurur. Statistik məlumata görə, 1912-ci ildə oxuculara 14225 nüsxə kitab verilmişdi. Bu kitabların 44,9 faizini belletristika, 39 faizini uşaq ədəbiyyatı, 3 faizini coğrafiya, 3,1 faizini təbiətşünaslıq, 2,5 faizini tarix, 1,6 faizini iqtisadiyyat, 1 faizini dini ədəbiyyat, 4 faizini qəzet və jurnallar, 0,9 faizini digər ədəbiyyatlar təşkil etmişdilər. Bu rəqəmlər göstərir ki, kitabxana oxucularının xeyli hissəsi uşaqlardan və müəllimlərdən ibarət idi. Fəhlələr isə iqtisadiyyata və texnikaya aid çox az miqdarda kitab oxumuşdular.

Kitabxananın fəaliyyətində inqilabi yüksəliş illərində xeyli canlanma baş vermiş, kitab fondu və oxucuların sayı çoxalmışdı.

Aşağıdakı rəqəmlərə diqqət yetirək:

1913-cü ildə kitabxananın fondunda 5045 nüsxə kitab, 1914-cü ildə 5911 nüsxə kitab, 1915-ci ildə 6371 nüsxə kitab olmuş, müvafiq olaraq 1913-cü ildə oxuculara 24204 nüsxə, 1914-cü ildə 33364 nüsxə, 1915-ci ildə isə 38854 nüsxə kitab verilmişdi. Bu rəqəmlərdən göründüyü kimi, göstərilən illərdə kitabxana fondu əhəmiyyətli dərəcədə artmasa da, kitab verilişində ciddi dönüş baş vermişdir. Həmçinin statistik materiallar oxucuların kitabxanaya davamiyyətinin yüksək olmasını göstərir. 1914-cü ildə kitabxana 1247 oxucuya xidmət etmiş, onlara 33953 nüsxə kitab vermişdi. Bu da kitabxana fondunun il ərzində 6 dəfə dövr etməsi, hər bir oxucu-

nun 25 kitab oxuması deməkdir. Bu rəqəm o dövr üçün çox böyük göstərici idi.

Beləliklə, Bayıl kitabxanasının tarixinə qısaca da olsa nəzər saldıqda onun neft sənayesi fəhlələrinin müraciət etdikləri yeganə mədəni-maarif ocağı, fəhlələrə təhsil, tərbiyə və mədəni xidmət işində yaxından kömək edən bir müəssisə olması aşkara çıxır.

§ 1.5.9. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Balaxanı kitabxana-qiraətxanası

Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanaları içərisində Balaxanı kitabxanasının fəaliyyəti daha diqqətəlayiq olmuşdur. Zəngin və maraqlı tarixi keçmişə malik olan bu kitabxana 1904-ci ilin payızında Bakıda inqilabi hərəkatın getdikcə alovlandığı bir dövrdə təşkil edilmişdi.[50]

Balaxanı kitabxanası ilk dəfə "Avropa neft kompaniyasının" 19-cu sahəsində çox da böyük olmayan ikimərtəbəli binada yerləşmişdi. Sonralar kitabxana başqa binaya köçürülmüşdü. Kitabxananın kiçik qiraət salonu və kitabsaxlayıcısı var idi. Kitabxananın gələcək inkişafında, oxucular arasında böyük rəğbət qazanmasında 1904-cü ildən burada işləyən L.N.Barxatovanın xüsusi rolu olmuşdur. Əslən Peterburqdan olan L.N.Barxatova 1896-cı ildə Putilov zavodunda feldşer işləyirdi. Sonralar o, inqilaba qoşulmuş, RSDFP-nin təbliğatçısı olmuşdur. 1903-cü ildə inqilabi fəaliyyətinə görə həbs edilmiş, həbsxanadan azad edildikdən sonra 1904-cü ilin yayında Maykopa, oktyabrda isə Bakıya gəlmişdi. Bakıya gəldikdən sonra şuranın Balaxanı kitabxanasında işə düzəlmişdi. Əhali ilə işləmək sahəsində zəngin təcrübəsi olan L.N.Barxatova kitabxanada işə başladıqdan sonra az bir zamanda kitabxananın ətrafında geniş oxucu kütləsinin toplanmasına nail olmuşdu.

Neft Sənayeçiləri Qurultayı Şurası Balaxanı kitabxanasına xüsusi diqqət yetirir, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni kitab, jurnal, qəzet alınması üçün

nisbətən çox vəsait ayırırdı. Balaxanı kitabxanasına kitab, jurnal, qəzet almaq üçün ildə 800 manat vəsait ayırılırdı ki, bu da cəmiyyətin digər kitabxanalarına ayrılan vəsaitdən 200 manat çox idi. Kitabxana fondun daim kitabla komplektləşdirilməsinin qeydinə qalırdı. Kitabxana bunun üçün abunə yazılmağa və kitab mağazalarından kitab almağa üstünlük verirdi. Həmçinin ianələr və bağışlamalar yolu ilə də xeyli kitab əldə edilirdi. Şuranın başqa kitabxanalarından fərqli olaraq burada rus dilində kitablarla yanaşı, başqa dillərdə, o cümlədən Azərbaycan dilində də kitablar var idi. Ona görə də bütün millətlərdən olan fəhlələr kitabxanaya çox həvəslə gəlirdilər. Lidiya Nikolayevnanın böyük zəhməti sayəsində kitabxana öz fondunu xeyli genişləndirməyə nail olmuşdu. Əldə etdiyimiz statistik məlumata görə, əgər kitabxana təşkil edilərkən 200 kitab var idisə, 1908-ci ildə kitabların sayı 3500-ə çatmışdı. 1909-cu ildə kitabxanada 4792 kitab olmuşdur ki, bunun da 3792-si rus (77,3%), 497-si ermənicə (10,3 %), 451-i azərbaycanca (9,4%), 140-ı gürcücə (3%) idi.

Kitabxananın fondu ilə yanaşı, onun oxucularının miqdarı da günbəgün artırdı. Bunun əsas səbəbi fəhlələrin siyasi fəallığının və milli şüurunun artması idisə, digər səbəbi kitabxanada oxuculara təşkil edilən yaxşı xidmətlə əlaqədar idi. Kitabxana oxuculara xidmət işini nümunəvi təşkil etmək üçün daxili imkanlardan bacarıqla istifadə edirdi. Kitabxana öz binasını xeyli genişləndirmiş, işıqlı bir qiraətxana açmağa müvəffəq olmuşdu. Qiraətxanaya xeyli qəzet və jurnal alınır, onlar səliqə ilə qorunub saxlanılır, oxucuların istifadəsinə verilirdi. Kitabxana oxucuların diqqətini fonddakı kitablara cəlb etmək üçün çox məzmunlu kataloq tərtib etmiş və onu oxucuların istifadəsinə vermişdir. Həmçinin kitabxanada təşkil edilən kütləvi işlər də oxucuların fəallaşmasına səbəb olurdu.

Kitabxananın 1905-ci ildə 746 oxucusu olduğu halda, onların sayı 1908-ci ildə 1141-ə yüksəlmişdi. Oxucuların

742 nəfəri rus, 107 nəfəri azərbaycanlı, 145 nəfəri erməni, yerdə qalanları başqa millətlərin nümayəndələri olmuşdur. Oxuculara 1908-ci ildə 16733 kitab, 1909-cu ildə isə 19833 kitab verilmişdir.

Kitabxananın oxucularla apardığı işin məzmununun ilbəil yaxşılaşması onun fəaliyyətinin canlanmasına, geniş oxucu qrupunun formalaşmasına səbəb olurdu. 1911-ci ildə kitabxananın fondunda 4000-dən artıq kitabın toplanması və 1200 oxucusu olması fikirlərimizi bir daha təsdiqləyir. Bu rəqəm o dövr cəmiyyət kitabxanaları içərisində ən yüksək rəqəm olmuşdur. Kitabxana azərbaycanlı fəhlələrə xidmət işinə xüsusi diqqət yetirirdi. Kitabxananın fondunda Azərbaycan dilində kitabların az olmasına baxmayaraq, azərbaycanlı oxucuların sayı az da olsa artmış, Azərbaycan dilində kitabların dövriyyəsi çoxalmışdı. Əgər 1906-cı ildə kitabxanada 17 nəfər azərbaycanlı oxucu vardısa və onlara 40 kitab verilmişdirsə, 1909-cu ildə oxucularının sayı 107 nəfərə, kitab verilişi isə 2130-a çatmışdır. Bu rəqəmlərdən məlum olur ki, 3 il müddətində azərbaycanlı oxucuların sayı 6 dəfə, kitab verilişi isə 53 dəfə artmışdır. Bu rəqəmlər o dövrdə azərbaycanlı fəhlələr arasında kitab oxumaq işinə, maarifə böyük maraq əmələ gəldiyini, milli şüurun yüksəldiyini göstərir. Kitabxananın oxucu fəalları içərisində azərbaycanlı fəhlələr çoxluq təşkil edir, kitabxananın kütləvi işlərində yaxından iştirak edirdilər.

Kitabxananın o dövrdəki fəaliyyəti Bakıda alovlanmaqda olan inqilabla əlaqədar olmuş, o, gizli yolla inqilabi təbliğat mərkəzlərindən birinə çevrilmişdi. L.Nikolayevna Peterburqun bolşevik təşkilatları ilə əlaqə saxlayır, gizli yolla kitablar alırdı. Kitabxananın fondunda çar senzurasının icazə vermədiyi çoxlu inqilabi kitablar: M.Qorkinin hekayələri, «Ana» romanı, E.Voyniçin «Ovod», Cavonolinin «Spartak», Stepanyak-Kravçinskovun «Andrey Kotixov» əsərləri və s. var idi. Belə kitablar oxucuların yüksək ideallar uğrunda tərbiyəsinə, öz hüquqlarını və azadlıqlarını başa

düşməsinə yaxından kömək edirdi. Bundan başqa kitabxanada gizli yerdə K.Marksın, F.Engelsin, V.İ.Leninin əsərləri də saxlanılırdı. Gizli ədəbiyyatı ancaq inqilabçı fəhlələrə verirdilər. İrtica illərində inqilabi ədəbiyyatı saxlamaq olduqca çətin idi. Çar hökumətinin bir neçə dəfə inqilabi ruhlu kitabların çıxarılması haqqında sərəncam verməsinə baxmayaraq, Lidiya Nikolayevna müxtəlif üsullardan istifadə edərək, özünün təhlükə qarşısında qalmasına baxmayaraq, onları saxlayırdı. L.Barxatova qadağan edilmiş kitabları çar senzurasının icazə verdiyi kitablar içərisində gizlədirdi. Məsələn, o dövrdə M.Qorkinin fəhlələr tərəfindən sevilə-sevilə oxunan «Ana» romanı bu üsulla saxlanmışdı.

Azərbaycan bolşeviklərindən Qulu Məmməd, İvan Fioletov, Müqtədir Aydınbəyov, Bünyad Sərdarov, Mixail Barinov, Məmməd Məmmədyarov bu kitabxananın daimi oxucuları olmuş, kitabxananın keçirdiyi tədbirlərdə fəal iştirak etmişlər. L.N.Barxotovanın şəxsində kitabxana Balaxanı rayon Partiya Komitəsinin təbliğat mərkəzinə çevrilmişdi.

Balaxanı kitabxanasının inqilabi fəaliyyəti çar polisinin gözündən qaçmamışdı. Kitabxananın fəaliyyətindən şübhələnən polis tez-tez kitabxanaya gəlir və axtarış aparırdı. Polis Lidiya Nikolayevnadan soruşurdu ki, nə üçün kitabxanada ikonalar və çarın portretləri yoxdur. Kitabxanaçı onların olmamasını kitabxanaya buraxılan vəsaitin azlığı ilə izah edirdi. Bir gün kitabxanaya gələn polis nəfəri divarda K.Marksın portretini görüb soruşmuşdu: «Bu qoca kimdir ki, buraya qoymuşsunuz?» Kitabxanaçı onu elə indi götürəcəyi cavabını vermişdi.

Kitabxanada polis tərəfindən bir neçə dəfə axtarış aparılmasına baxmayaraq, L.N.Barxotovanın bacarığı nəticəsində heç bir «şübhəli» kitab tapılmamışdı. Bu barədə 1907-ci ildə «Bakı» qəzeti yazırdı: «24 yanvar 1907-ci ildə səhər saat 8-də polis Neft Sənayeçiləri Qurultayı Şurasının Balaxanı kitabxanasına gəlmişdi. Kitabxananın mənzilində və qiraətxanada çox diqqətlə axtarış aparmış, ancaq şübhəli

bir şey tapmamışdır. Axtarış səhər saat 8-dən gündüz saat ikiyə qədər davam etmişdir».[51]

Balaxanı Partiya Komitəsinin gizli müşavirələri, yığıncaqları və konfransları tez-tez kitabxananın binasında keçirilirdi. Kitabxana binasının zirzəmisində Balaxanı rayon Partiya Komitəsinin kiçik bir gizli mətbəəsi təşkil edilmişdi. Bu mətbəədə plakatlar və s. çap edilirdi. Lidiya Nikolayevna bu mətbəədə korrektor kimi də fəaliyyət göstərirdi.

1905-ci ilin sentyabrında Bayıldakı elektrik stansiyasının binasında rayonlararası konfrans keçirilirdi. Yığıncaqda Bakı Partiya Komitəsinin görkəmli nümayəndələri iştirak edirdi. Bundan xəbər tutan Bakı polisi hücum etmiş, yığıncağın ən fəal iştirakçılarından 67 nəfərini həbs etmişdi. Həbs olunanların içərisində L.N.Barxatova da var idi. L.Nikolayevna Qars həbsxanasına göndərilmiş, 1905-ci ilin oktyabr hadisələrindən sonra azad edilmişdi. Azad edildikdən sonra Bakıya gələn L.Barxatova yenidən kitabxanada öz işini davam etdirmişdi. 1907-ci ilin dekabrında da polis L.Barxatovanı gizli vərəqələr yaymaqda təqsirli bilmişdi.

Böyük çətinliklə də olsa, 1904-1914-cü illər ərzində –10 il Balaxanı kitabxanasına başçılıq etmiş L.N.Baxtarova Bakı Neft Sənayeçiləri Qurultayı kitabxanalarının işinin təşkilində, maddi-texniki bazasının möhkəmləndirilməsində, yeni kitablarla komplektləşdirilməsində, oxucularla işin təşkilində, kitab təbliğində yeni forma və üsulların formalaşmasında yaxından iştirak etmişdir. L.Nikolayevna oxucuların dostu və məsləhətçisi olmuş, onların tələb və sorğularının ödənilməsinə kömək etməklə onların mütaliə prosesini istiqamətləndirmişdir. On illik fəaliyyəti dövründə kitabxana işini təbliğat-təşviqat işi ilə çox məharətlə əlaqələndirən Lidiya Nikolayevna oxucuların əsl müəlliminə və pedaqoquna çevrilmişdi.

L.N.Barxatova 1905-1907-ci illər inqilabı dövründə və inqilabın məğlubiyyətindən sonra irtica illərində Bakı bolşeviklərinin ən yaxın köməkçilərindən biri olmuş, kitab-

xana işini inqilâbi işlə əlaqələndirməyə, irticaya, hər cür zülmə qarşı mübarizəyə can atmışdı.

1914-cü ilin yanvarında Moskvaya gedən L.Nikolayevna N.V.Qoqol adına Moskva kitabxanasında işləmiş, inqilabi təbliğatçılıq fəaliyyətini davam etdirmişdir.[52] Öz şüurlu həyatını inqilabi işə sərf edən bu cəfakeş qadın kitabxana işini cəmiyyətin mədəni inkişafının əsas amillərindən biri hesab etmiş, kitabxana işinə böyük hörmət və ehtiram göstərmişdir.

§ 1.5.10. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Sabunçu kitabxanası

1904-cü ildə Bakı fəhlələrinin məşhur oktyabr tətillərindən sonra fəhlələrin tələbi ilə neft sənayeçiləri Qurultayı Şurası Bakı şəhər Sabunçu xəstəxanasının yanında kitabxana-qiraətxana açmağa məcbur oldu. Kitabxana-qiraətxananın açılması Sabunçu fəhlələrinin böyük qələbəsi idi. Kitabxananın 1904-cü ildə rəsmi açılışı oldu.[53] Kitabxana xəstəxananın ikinci mərtəbəsində yerləşirdi. Elə həmin vaxtdan kitabxananın yanında qiraətxana da fəaliyyət göstərməyə başladı. Lakin ayrıca ştat ayrılmadığından kitabxanaçı kimi həkimlərdən birinin həyat yoldaşı R.M.Okinşeviç işləyirdi. Kitabxana işini sevən bu qadın uzun müddət buraya rəhbərlik etmişdir. Kitabxana həftədə 3 dəfə, gündüz saat 4-dən axşam saat 7-dək, qiraətxana isə hər gün gündüz saat 2-dən axşam saat 10-nun yarısına qədər açıq olurdu. Kitabxanadan istifadə pulsuz olduğundan, az bir müddətdə oxucuların sayı xeyli çoxalmışdı.

Sabunçu Bakının ən böyük fəhlə rayonlarından olmasına baxmayaraq, burada əhaliyə xidmət etmək üçün heç bir mədəni-maarif müəssisəsi yox idi. Ona görə də xəstəxananın ətraf məhəllələrində yaşayan əhali bu kitabxanaya müraciət etməyə başlamışdı. Şərait onun ictimai kitabxanaya çevrilməsini, bütün Sabunçu əhalisinə xidmət etməsini tələb edirdi. Tezliklə xəstəxananın rəhbərliyi Neft Sənayeçiləri Qurultayı Şurasının razılığı ilə onu ictimai kitabxana kimi bütün Sabunçu əhalisinin üzünə açdı. 1907-ci ildə kitabxana fəhlələrin tələbi ilə xəstəxananın birinci mərtəbəsində iki geniş və abad otağa köçürüldü. Bu otaqlardan birində kitabxana, digərində isə qiraətxana yerləşdirildi.

Beləliklə, kitabxanaya giriş də xəstəxanadan ayrıldı. Neft Sənayeçiləri Qurultayı Şurası kitabxanadan neft fəhlələrinin geniş surətdə istifadə etməsindən, fondda inqilabi ruhlu, qabaqcıl fikirli ədəbiyyatın toplanmasından ehtiyat edərək kitabxanaya olduqca az vəsait ayırır, həmçinin kitabxanaçı ştatı vermirdi. Fəhlələrlə aparılan uzunmüddətli danışıqlardan sonra kitabxanaçı ştatı ayrıldı. Kitabxananı yeni kitablarla təmin etmək üçün vəsaitin az ayrılmasına baxmayaraq, fond toplanılan ianələrin və oxucuların hesabına zənginləşirdi. Odur ki, kitabxana qısa müddət içərisində Sabunçu neft fəhlələrinin ən çox sevdiyi mədəni müəssisələrdən birinə çevrilmişdi. Kitabxanaya gələn, onun daimi oxucuları olan inqilabçı fəhlələr onun işini öz əllərinə almış, buradan mədəni tədbirlər üçün istifadə etməyə başlamışdılar. Kitabxanaya başçılıq edən Raisa Okinşeviç Şapiro bolşevik olduğundan kitabxanada gizli inqilabi iş aparmağa başlamışdı. Bakı bolşevik təşkilatının rəhbərləri də kitabxananın tədbirlərində iştirak etməklə buradan istifadə edirdilər.

1905-1907-ci illər inqilabı dövründə kitabxana öz işini genişləndirməyə müvəffəq olmuş, oxucuların sorğularına müvafiq ədəbiyyat fondu yaratmışdı. Kitabxana fondunda çar senzurasının icazə vermədiyi kitablar, inqilabi ədəbiyyat da saxlanılırdı. Kitabxananın gizli inqilabi fəaliyyəti haqqında məlumatı olan polis kitabxananın işini nəzarətdə saxlayır, tez-tez yoxlamalar aparırdı. İnqilabın məğlubiyyətindən sonra kitabxananın işi xeyli çətinləşmişdi. Neft Sənayeçiləri Qurultayı Şurası kitabxanaya ayrılan vəsaiti yarıbayarı azaltmışdı. Belə ağır bir şəraitdə kitabxana öz fəaliyyətini neft sənayesi fəhlələrinin maddi və mənəvi köməyi ilə davam

etdirməyə müvəffəq olurdu. Kitabxana kitabların saxlanılmasında və oxuculara verilişində ənənəvi üsullarla yanaşı, qeyri-ənənəvi üsullardan da istifadə edirdi. Kitabxana fondunda ancaq oxunmasına icazə olan kitablar rəflərdə düzülüb bütün oxuculara verilirdi. İnqilabi kitablar isə gizli yerlərdə saxlanılırdı. Gizli saxlanılan kitablar isə müxtəlif işarələrlə xüsusi oxuculara verilirdi. Kitabxana Bakı İnqilab Komitəsinin inqilabi vərəqələrini, plakatlarını və s. gizli yolla yayırdı. Kitabxananın bu fəaliyyəti çar xəfiyyələrinin gözündən qaçmırdı. Onlar kitabxanaya gəlib-gedənləri həmişə nəzarət altında saxlayır, kitabxanada keçirilən kütləvi tədbirlərə göz qoyur, kitabxananın oxucu formulyarlarını və fondu vaxtaşırı təftiş edirdi.

1908-ci ilin payızında kitabxanada fəal oxucuların yığıncağı keçirilərkən polis kitabxanaya basqın etmişdi. Bu basqından xilas olmaq üçün yeganə yol kitabxananın pəncərələrindən düşüb qaçmaq idi. Oxucular bu yolla birtəhər xilas ola bilirdilər. 1905-1907-ci illər inqilabının məğlubiyyəti, irticanın başlanması kitabxananın işini olduqca çətinləşdirmişdi. Kitabxananın inqilabi fəaliyyətindən qorxuya düşən xəstəxananın rəhbərliyi də kitabxananın fəaliyyətinə müxtəlif yollarla mane olmağa çalışır, maddi cəhətdən heç bir köməklik göstərmirdi.

Lakin irtica dövrü uzun sürmədi. 1910-cu ildən, xüsusilə Lena hadisələrindən sonra inqilabi hərəkat yenidən yüksəlməyə başladı. Kitabxananın fəaliyyətində canlanma baş verdi.

Hər cür çətinliyə baxmayaraq, Neft Sənayeçiləri Qurultayı Şurasının Sabunçu xəstəxanası kitabxanası XX əsrin əvvəllərində ölkəmizdə əhaliyə kitabxana xidmətinin təşkili sahəsində mühüm işlər görməyə müvəffəq olmuşdu. Kitabxana müntəzəm olaraq öz fondunu inkişaf etdirmiş, geniş oxucu kütləsinə xidmət etməyə, əhali arasında maarifi, mədəniyyəti yaymağa çalışmışdı. Əldə edə bildiyimiz statistik məlumatlar da dediklərimizi bir daha təsdiq edir.

Aşağıdakı cədvələ diqqət yetirək:

1912-1915-ci illərdə Sabunçu kitabxanasının fondu, oxucuları və kitab verilişi

№	İllər	kitabların sayı, cəmi	oxucular	kitab verilişi	O cümlədən azərbaycanca	
					kitab	kitab verilişi
1	1912	4593	565	12792	70	158
2	1913	5365	359	16741	70	6
3	1914	5927	475	23306	50	63
4	1915	6151	məlumat yoxdur	məlumat yoxdur	27	məlumat yoxdur

Bu rəqəmlərdən göründüyü kimi, göstərilən illərdə kitabxananın fondu 1915-ci ildə 1912-ci ilə nisbətən 1558 nüsxə artmasına baxmayaraq oxucuların sayı 90 nəfər azalmışdır. Oxuculara verilən kitabların sayı isə 10514 nüsxə çoxalmışdı. Kitabxananın fondunda Azərbaycan dilində kitablar yox dərəcəsində olduğundan azərbaycanlı oxucular da lap az olmuşdur. Halbuki, Sabunçu böyük fəhlə rayonu idi və buradakı fəhlələrin əksəriyyəti azərbaycanlı fəhlələr idi. Göstərdiyimiz rəqəmlər bir tərəfdən neft sənayeçilərinin kitabxana işinə lazımi diqqət yetirməməsi, vəsait ayırmaması ilə əlaqədar idisə, digər əsas səbəb çar hökumətinin milli müstəmləkə siyasəti idi. Hökumət yerli xalqların mədəni inkişafı üçün heç bir qayğı göstərmir, milli dillərdə kitab nəşrinə, kitabxanaların fondunda milli dillərdə kitabların saxlanmasına ögey münasibət göstərirdi. Neft sənayeçilərinin kitabxananın saxlanmasına cəmi 600 manat vəsait ayırması dediklərimizi bir daha təsdiq edir.

1918-ci ilin əvvəllərində kitabxananın vəziyyəti pisləşir, bağlanmağa məcbur olur. Lakin bu, uzun çəkmir, fəhlələrin köməyi və tələbi ilə iyun ayından öz işini bərpa edir. Kitabxana böyük çətinliklə də olsa öz işini yenidən 1920-ci ilə qədər davam etdirə bilmişdir.

Sabunçu xəstəxanasının kitabxanasından başqa, xəs-

təxananın yanında həkimlərə xidmət etmək üçün xüsusi tibb kitabxanası – elmi kitabxana da təşkil edilmişdi. Mövcud mənbələrdə bu kitabxananın yaranmasının dəqiq tarixi göstərilməsə də, onun 1905-ci ldən sonra təşkili təxmin edilir. Həkimlər üçün təşkil edilən bu kitabxanada tibbə aid elmi və elmi kütləvi ədəbiyyat toplanmışdı. Kitabxananın təşkilinə və inkişafına xəstəxananın rəhbərliyi qayğı ilə yanaşdığından fondda müasir tibb elminə dair xeyli ədəbiyyat toplanmışdı. Neft sənayeçiləri kitabxanaya yeni kitab almaq üçün olduqca az vəsait – ildə cəmi 1200 manat ayırdıqlarından kitabxananın komplektləşdirilməsində xəstəxananın həkimləri yaxından iştirak edir, öz şəxsi kitablarından xeyli kitab bağışlayırdılar. Kitabxana xüsusi olduğundan buradan ancaq xəstəxananın həkimləri və tibb işçiləri istifadə edirdilər. Kitabxananın fəaliyyəti haqqında Neft Sənayeçiləri Qurultayı Şurasının hesabatlarında elmi kitabxana haqqında məlumat verilmədiyindən geniş fikir söyləmək çətindir. Təqribi məlumata görə, bu elmi kitabxananın fondunda 1920-ci ildə 951 elmi kitab olmuşdur.[54]

1919-cu ildə Bakı Dövlət Universiteti təşkil edilərkən universitetin rektorluğu Bakı Neft Sənayeçiləri Qurultayı Şurasına müraciət edərək Sabunçu xəstəxanası kitabxanasını yeni yaradılan universitet kitabxanasına verilməsini xahiş etmişdi. Belə ki, universitetin tibb fakültəsinin tələbə və müəllimlərinin istifadəsi üçün ədəbiyyat olduqca az idi. Lakin universitetin Bakıda yaradılmasını istəməyən neft sənayeçiləri kitabxananın universitetə verilməsinə razılıq vermədi. Universitetin rəhbərliyi böyük çətinlikdən sonra bu kitabxananı 1920-ci ildə almağa müvəffəq oldu. Həmin kitabxananın kitabları universitet kitabxanasının tibb şöbəsinin əsasını təşkil edən kolleksiyalardan biri olmuşdur.

§ 1.5.11. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Şəhər İdarəsi xüsusi kitabxanası

Neft Sənayeçiləri Qurultayı Şurasının neft rayonlarındakı kitabxanalarından başqa şuranın şəhər idarəsinin yanında xüsusi bir kitabxanası var idi. Bu kitabxana idarə-

nin qulluqçularına xidmət etmək üçün təşkil edilmişdi. Kitabxana idarədə işləyən ən yaxşı mütəxəssislərin köməyi ilə biblioqrafik mənbələrdən, informasiya vasitələrindən istifadə edərək və oxucuların marağını öyrənərək yeni alınacaq kitabların siyahısını tərtib edib Neft Sənayeçiləri Qurultayı Şurasının təsdiqinə verirdi. Siyahı təsdiq edildikdən sonra kitablar alınırdı. Kitabxanaya jurnal və qəzetlərin alınması göstərilən qaydada aparılırdı. Kitabxana əsasən neft sənayeçilərinə aid elmi və təcrübi əhəmiyyətə malik olan kitablarla komplektləşdirilirdi. Kitabxana yeni ədəbiyyatla təchiz edilərkən idarə qulluqçularının soraq və tələbləri nəzərə alınırdı. Şuranın digər kitabxanaları ancaq Xalq Maarif Nazirliyi tərəfindən təsdiq edilmiş kataloqa müvafiq komplektləşdirilirdisə, bu kitabxanaya özünün tərtib etdiyi siyahı əsasında komplektləşməyə icazə verilirdi. Sənədlərdə kitabxananın açılma tarixi göstərilmədiyindən onun dəqiq vaxtını söyləmək çətindir. Ancaq bəzi statistik hesabatlardan kitabxananın təxminən 1905-1906-cı illərdə açılmasını ehtimal etmək olar.[55] Bu da kitabxanaya yeni nəşr edilmiş ən yaxşı kitabları almağa imkan yaradırdı.

Qabaqcıl iş üsullarından istifadə edən, kitabxana işini dövrün tələbləri səviyyəsində təşkil etməyə çalışan bir müəssisə kimi şəhər ziyalıları içərisində yaxşı nüfuz qazanmışdı. Kitabxananın qapalı, xüsusi xarakter daşımasına baxmayaraq, şəhər ziyalılarına xidmət etməsi onun oxucu kontingentini xeyli çoxaltmışdı. Kitabxanada kitabların kitabxana texnologiyasına müvafiq işlənməsi, uçot və inventar kitabı tətbiq edilməsi, kitabxana kataloqunun tərtib edilməsi, bu kataloqların çap edilib oxucuların istifadəsinə verilməsi oxucuya xidmət işinin kəmiyyət və keyfiyyətini xeyli yüksəltmişdir.

Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün şura olduqca az vəsait ayırdığından onun binası çox darısqal idi ki, bu da fondun artmasına mane olurdu. Kitabxanaya ayrıca kitabxanaçı ştatı verilməmişdi. Ki-

tabxananı idarə etmək qurultay şurası dəftərxanasının katibinə tapşırılmış, bu vəzifəni aparmaq üçün onun maaşına ildə 300 manat əlavə edilmişdi.

Ayrıca kitabxanaçı ştatı olmadığından kitabxana həftədə üç dəfə, gündə 2-3 saat açıq olurdu. Bu da kitabxananın oxuculara xidmət işini xeyli məhdudlaşdırırdı.

Hər cür maliyyə və digər çətinliklərə baxmayaraq, bu kitabxana xüsusi elmi ədəbiyyat fonduna malik və əsasən mütəxəssis oxuculara və qulluqçulara xidmət edən ən yaxşı kitabxanalardan biri olmuşdur. Buna görə də kitabxananın fəaliyyəti həmişə ziyalıların və qulluqçuların diqqət mərkəzində olmuş, onun işinin təşkili ilə maraqlanmış, onun təkmilləşdirilməsinin qeydinə qalmışlar.

Kitabxananın fəaliyyəti haqqında olduqca az məlumat vardır. Bunun da əsas səbəbi kitabxananın hesabatının Neft Sənayeçiləri Qurultayı Şurasının illik statistik hesabatında əks etdirilməməsidir.

1915-ci ilə aid əldə olan məlumata görə, kitabxananın 4710 nüsxə kitabı və 132 nəfər oxucusu olmuşdur. Bir ildə oxuculara 4186 kitab verilmişdir.[56] Kitabxanada qiymətli elmi jurnalların saxlanması oxucuların böyük marağına səbəb olmuşdur. Oxucular kitablarla yanaşı, jurnallardan da geniş istifadə edirdilər.

Kitabxana öz fəaliyyətini 1918-ci ilə qədər davam etdirmiş, 1918-ci ilin iyulunda Bakı Xalq Maarif Komissarlığına verilmişdir.

Kitabxananın işi çox diqqətəlayiq olmasa da ilk xüsusi kitabxana kimi onun fəaliyyəti maraq doğurmaya bilməz.

Beləliklə, Neft Sənayeçiləri Qurultayı Şurasının 4 ümumi açıq, 2 müəyyən qrup oxuculara xidmət edən və 1 xüsusi kitabxanası – cəmi 7 kitabxanası var idi. İldə fəhlələrin izafi əməyindən milyonlarla gəlir əldə edən neft sənayeçiləri bu kitabxanalara vur-tut 12-13 min manat vəsait ayırırdı.[57] Bu vəsaitdən 10000 manatı ümumi açıq kitabxanalara, yerdə qalanı isə xüsusi kitabxanalara xərclənirdi. Kitabxa-

nalarda cəmisi 8 nəfər kitabxanaçı çalışırdı. Kitabxanaçıların maddi durumu olduqca ağır idi. Onların bir illik zəhmət haqqı 720 manat təşkil edirdi ki, bu zəhmət haqqı ilə ailəsi olmayan 1 adam güclə dolana bilərdi.

Neft sənayeçiləri tərəfindən kitabxanalara buraxılan vəsait yarıbayarı azaldılmış, kitabxanaları təkmilləşdirmək üçün edilən güzəştlər ləğv edilmişdir. Çar polis idarəsi müəyyən bəhanələrlə tez-tez kitabxanalarda axtarış aparır, mütərəqqi ideyalı kitabları fonddan çıxarır və onları səbəbsiz yerə bağlayırdı. Müxtəlif vaxtlarda kitabxanadan çıxarılmış ədəbiyyat içərisində dünya, rus və Azərbaycan klassiklərinin əsərləri, milli dillərdə olan kitablar da var idi. Kitabxanalar polis tərəfindən bağlandıqda neft sənayeçiləri onların tezliklə açılmasına çalışmır, polisin dediklərini təsdiq edirdilər.

Hər cür çətinliyə baxmayaraq, Bakı fəhlələrinin tələbi və təzyiqi ilə çətin də olsa Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanaları öz fəaliyyətini davam etdirirdilər. Kitabxanalara yeni ədəbiyyat alınması azalmışdısa da dayanmamışdı. Oxucuların sayı da az da olsa artırdı. İrtica illərində fəaliyyətini öyrənmək üçün onların 1907-1915-ci il vəziyyətini nəzərdən keçirək.

1907-ci ildə neft sənayeçiləri qurultayı şurasının ümumi açıq kitabxanalarından: Balaxanı kitabxanasında 3182 kitab, Qaraşəhər kitabxanasında 1539 kitab, Bayıl kitabxanasında 2350 kitab, Ağşəhər kitabxanasında 1715 kitab – cəmiyyətin bütün kitabxanalarında cəmi 8777 kitab olmuşdur.[58]

Kitabxanaların kitabları 1903-1906-cı illərə nisbətən xeyli azalmışdı. Kitabxanada saxlanılan kitablar məzmunca aşağıdakı kimi idi: 510 nüsxə dinə aid, 3546 nüsxə bədii ədəbiyyat, yerdə qalanları isə başqa elm və bilik sahələrini əhatə edirdi.[59] Bu rəqəmlərdən göründüyü kimi, kitabxanaların fondlarının əksəriyyətini bədii və dinə aid ədəbiyyat təşkil edirdi. Çar senzurasının fəaliyyəti bu rəqəmlərdə çox gözəl ifadə olunurdu.

1907-ci ildə Neft Sənayeçiləri Qurultayının kitabxanalarında cəmi 1978 oxucu var idi. Kitabxanalar üzrə oxucuların miqdarı və milli tərkibi aşağıdakı kimi olmuşdu.

Kitabxanalar	Oxucular	Bundan			
		rus	azərbaycanlı	erməni	başqa millətlər
Balaxanı	977	637	105	95	140
Qaraşəhər	230	124	6	52	48
Bayıl	637	353	35	177	71
Ağşəhər	134	83	2	23	26
Cəmi	1978	1198	148	347	285

Göstərdiyimiz rəqəmlər o dövrdə Rusiyanın ən böyük sənaye mərkəzlərindən biri olan Bakı şəhərində əhaliyə kitabxana xidmətinin mənzərəsini aşkarlamaq imkanı verir. Belə ki, Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanaları demək olar ki, o dövrdə əhaliyə kitabxana xidmətinin təşkili sahəsində ən böyük kitabxanalar hesab edilirdi. Bu dövrdə Bakı şəhərində fəaliyyət göstərən kitabxanalar şuranın kitabxanalarından çox-çox zəif kitabxanalar hesab edilirdi.

Cəmiyyətin kitabxanalarında cəmi 8777 kitabın və 1978 oxucunun olması o dövrdə Rusiyanın digər böyük şəhərləri ilə müqayisədə Bakıda kitab və kitabxana mədəniyyətinin nə dərəcədə acınacaqlı vəziyyətdə olmasını bir daha təsdiq edir.

1907-ci ilin məlumatına görə, buranın kitabxanalarının xidmət etdiyi Bakı neft mədəni rayonlarında aşağıda göstərilən qədər fəhlə olmuşdur.

Balaxanı, Sabunçu, Zabrat ..... 28075 nəfər
Qaraşəhər (Balaxanı şosesi ilə birlikdə) ... 4622 nəfər
Bibiheybət ..... 11298 nəfər
Ağşəhər ..... 2842 nəfər
Cəmi: 46837 nəfər

Göstərilən rəqəmləri kitabxanaların fəaliyyətini əks etdirən rəqəmlərlə müqayisə etdikdə məlum olur ki, neft mədəni rayonlarında işləyən 46837 nəfər fəhlənin ancaq cüzi bir hissəsi, yəni 1978 nəfəri, təqribən 2-3 faizi kitabxanalardan istifadə etmişdir.

Ayrı-ayrı rayonlar üzrə bu göstərici aşağıdakı kimi olmuşdur: Balaxanı - 2 faiz, Qaraşəhər - 3 faiz, Ağşəhər - 3,3 faiz, Bayıl - 4,4 faiz[60]

Göstərdiyimiz rəqəmləri ciddi təhlil etmədən də XX əsrin əvvəllərində Azərbaycanda, o cümlədən Bakı şəhərində əhaliyə kitabxana xidmətinin acınacaqlı vəziyyətdə olması, neft sahibkarlarının əhalinin mədəni inkişafına münasibəti meydana çıxır.

Bu rəqəmlər, həmçinin çar hökumətinin ucqarlarda apardığı milli müstəmləkə siyasəti, yerli xalqların mədəni inkişafına mane olmasını, milli mədəni müəssisələr təşkil etməməsini aşkara çıxarır.

1910-cu ildən başlayaraq irtica zəifləməyə, inqilabi yüksəliş güclənməyə başlamışdı. Rusiyanın böyük şəhərlərində olduğu kimi Bakıda da fəhlə tətilləri genişlənmişdi. İnqilabi hərəkatın geniş vüsət alması hökuməti, o cümlədən neft sənayeçilərini qorxuya salmış, onlar fəhlələrin iqtisadi, siyasi və mədəni tələblərini də ödəməyə məcbur olmuşdular. Məhz inqilabi yüksəliş illərində Bakıda da yeni ab-hava yaranmış, mədəni quruculuq sahəsində xırda da olsa bəzi dəyişikliklər baş vermişdi.

Bakı Neft Sənayeçiləri Qurultayının Şurası inqilabi yüksəliş illərində az da olsa kitabxanaların maliyyələşdirilməsi üçün vəsait ayırmış, kitabxanaların fəaliyyətinə yersiz müdaxilələri azaltmışdı. Bu da özünü kitabxanaların fəaliyyətində göstərirdi.

Əlimizdə olan materiallara isnad edərək şura kitabxanalarının 1910-1915-ci illərdə fəaliyyətini nəzərdən keçirmək üçün aşağıdakı cədvələ nəzər salaq.

1910-1915-ci illərdə neft sənayeçiləri qurultayı kitabxanalarının kitab fondu. [61]

№	Kitabxanalar	İllər					
		1910	1911	1912	1913	1914	1915
1	Balaxanı	5393	6141	7198	7706	8159	8947
2	Qaraşəhər	4429	4881	5115	5479	5929	6325
3	Bayıl	2704	4436	4140	5045	5911	6371
4	Ağşəhər	3247	3957	4042	4462	492	5801
5	Cəmi	15773	19415	20493	22695	24971	27444

İndi də kitabxanaların həmin illərdəki oxucularının miqdarını və kitab verilişini nəzərdən keçirək.

1910-1914-cü illərdə şura kitabxanalarının oxucuları:

№	Kitabxanalar	İllər				
		1910	1911	1912	1913	1914
1	Balaxanı	1069	1096	1216	-	1267
2	Qaraşəhər	553	645	795	-	1023
3	Bayıl	398	529	583	-	1297
4	Ağşəhər	353	377	497	-	483
5	Cəmi	2370	2647	3091	-	4100[62]

Şuranın kitabxanalarında 1913-1915-ci illərdə kitab verilişi

№	Kitabxanalar	İllər		
		1913	1914	1915
1	Balaxanı	31215	28399	26984
2	Qaraşəhər	32121	33893	38941
3	Bayıl	24204	33364	33854
4	Ağşəhər	20068	20817	25005
5	Cəmi	107608	116473	124784[63]

Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanalarının 1910-1915-ci illərdəki fəaliyyətinin göstərilən cədvəllər əsasında təhlili göstərir ki, inqilabi yüksəliş illərində kitabxanalar öz fəaliyyətini fasiləsiz olaraq davam etdirmiş, kitab fondunun artımı, oxucuların miqdarı və kitab verilişi sahəsində az da olsa irəliləyiş əldə etmişlər. Göstərilən illərdə kitab fondu 11677 nüsxə, oxucular isə 1727 nəfər, kitab verilişi isə 17176 nüsxə çoxalmışdır.

Neft Sənayeçiləri Qurultayı Şurasının bəhs etdiyimiz kitabxanalarından başqa məktəb kitabxanaları da var idi.[64] Məktəb kitabxanaları əsasən şuranın məktəblərinin yanında şagirdlərə xidmət etmək üçün təşkil edildi. Şura məktəb kitabxanaları üçün vəsait ayırmadığından kitabxanalar məktəblərə ayrılan vəsait hesabına məktəb rəhbərliyinin təşəbbüsü ilə yaradılırdı. Şuranın məktəb kitabxanalarının təşkilində və fəaliyyətində qabaqcıl fikirli xalq müəllimlərinin xüsusi rolu var idi. Dövrün qabaqcıl ziyalıları, maarifçiləri olan belə müəllimlər şagirdlərlə aparılan sinifdənkənar işlərə böyük əhəmiyyət verir və mütərəqqi ideyalı kitabların oxunmasını təşkil etməyə səy göstərirdilər. Qabaqcıl müəllimlərin maddi köməyi ilə kitabxanalar ən yaxşı ədəbiyyatla təkmilləşdirilir, bəzi hallarda kitabxanalarda nazirliyin icazə vermədiyi kitablar da saxlanılırdı. Məktəb kitabxanalarının içərisində yaşlı oxuculara xidmət edən kitabxanalar da var idi.

1903-cü ildə şura kitabxanalarının ümumi iclası məktəb kitabxana komissiyasını seçdi. Bu komissiyanın əsas vəzifəsi kitabxanaları saxlamaq, onların fəaliyyətini genişləndirmək üçün vəsait əldə etmək və onların işinə metodik kömək etmək idi. Kitabxana komissiyaları kitabxanaların fəaliyyəti haqqında pedaqoji şuralar üçün məsələ hazırlayır, komplektləşmə üçün siyahı tərtib edirdi. Məktəb kitabxanalarında kitabxanaçı ştatı olmadığından kitabxanaların idarə edilməsində, kitabxana xidmətinin təşkilində, kütləvi işlər aparılmasında şagirdlər yaxından iştirak edirdilər.

Şuranın məktəblərindən bəzilərində şagirdlər üçün kitabxanalardan başqa müəllimlər üçün də kitabxanalar təşkil edilmişdi. Bunlar məktəblərdə təşkil edilən ilk elmi-pedaqoji kitabxanaların rüşeymləri idi. Təəssüf ki, belə kitabxanaların sayı çox az idi. Şura məktəb kollektivlərinin təzyiqi altında məktəb kitabxanalarının açılmasına imkan versə də onların maddi-texniki bazalarının möhkəmləndirilməsinin qeydinə qalmırdı. Kitabxanaların saxlanması üçün ol-

duqca az vəsait ayırırdı. 1915-ci ildə şura məktəb kitabxanalarına cəmi 23235 manat vəsait ayırmışdı ki, bu da kitabxanaların minimum ehtiyacını ödəmirdi.[65] Sonralar bu məbləğ də yarıbayarı azalmışdı. Qurultayın hesabatlarında da məktəb kitabxanalarının azlığı, kitab fondunun kasıblığı və maddi cəhətdən lazımi dərəcədə təmin edilmədiyi etiraf edilirdi. Ancaq çox təəssüf ki, şura bu vəziyyəti düzəltmək üçün heç bir tədbir görmürdü. Məktəb kitabxanalarında kitab fondunun az, lazımi tədris, metodiki kitabların, dərslik və dərs vəsaitlərinin azlığı kitabxanaların oxucularla apardığı işə də mənfi təsir göstərir, kitab verilişi və oxunuşu azalırdı.

Aşağıdakı rəqəmlərə diqqət yetirək: məktəb kitabxanaları 1909-cu ildə şagirdlərə 6339 kitab, 1910-cu ildə 8938 kitab, 1911-ci ildə 21492 kitab vermişdir.[66] Bu rəqəmi o dövrdə təhsil alan şagirdlərin miqdarı ilə müqayisə etsək, çox cüzi bir rəqəm ortaya çıxır.

Söylədiklərimizi yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, XX əsrin əvvəllərində Bakı şəhərində Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxana şəbəkəsi ən geniş və mütəşəkkil şəbəkə olmuş, bu şəbəkə öz fəaliyyətini ardıcıl olaraq 1990-cı ilə qədər davam etdirmişdir.

Doğrudur, Bakı neftindən milyonlarla qazanc götürən neft sənayeçiləri əldə etdikləri gəlirin 1 faizini belə onu qazanan, fəhlələrin mədəni təminatına, maarifinə xərcləmirdilər. Əldə etdikləri milyonların kiçik bir hissəsini onu qazanan, milyonları yaradan fəhlələrin maariflənməsinə və mədəniyyətinə sərf etsə idilər, Bakı əhalisinə kitabxana xidmətinin təşkili işində geniş kitabxana şəbəkələri yaradılması sahəsində daha böyük nailiyyətlərə müvəffəq olmaq olardı.

Çox təəssüf ki, bu böyük həqiqəti cənab kapitalistlər dərk etmədilər və dərk etmək istəmirdilər.

Beləliklə, Bakı Neft Sənayeçiləri Qurultayı Şurası XX əsrin əvvəllərində fəhlələrə kitabxana xidmətini təşkil etmək üçün hələ XIX əsrin axırlarından başlamış fəaliyyətini davam etdirmiş, kitabxana işinə xeyli vəsait ayırmış, neft

mədən rayonlarında 4 ümumi kitabxana və 3 xüsusi kitabxana təşkil etmiş, məktəblər açmış və məktəblərin yanında şagirdlər üçün kitabxanaları təşkil etmişdir. Doğrudur, neft sənayeçiləri bu mədəni missiyanı könüllü surətdə həyata keçirməmiş, alovlanmaqda olan I rus inqilabının təsiri altında ölkədə yaranmış inqilabi şərait milli şüurun oyanması, xalq hərəkatının başlanması bu işə mühüm təsir göstərmişdir. Getdikcə artan fəhlə tətilləri, belə tətillərdə fəhlələrin irəli sürdüyü siyasi, iqtisadi və mədəni tələblər neft sənayeçilərini qorxuya salmış və bu tələbləri qismən də olsa ödəməyə başlamışlar.

Çox təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanda yaşayan, onun havasından, bu torpaqdan milyonlarla gəlir götürən neft sənayeçiləri bu torpağın sahibi olan Azərbaycan xalqının maariflənməsi və mədəni işıqlaşmasının qayğısına qalmır, milli dildə məktəblər, kitabxanalar açmırdı. Belə bir faktı söyləmək yerinə düşər ki, Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanalarında 1907-ci ildə Azərbaycan dilində cəmi 1000 kitab və 148 nəfər azərbaycanlı oxucu olmuşdur. Bu da çar mütləqiyyətinin milli müstəmləkə siyasətinin nəticəsi kimi qiymətləndirilə bilir.

§ 1.5.12. XX əsrin əvvəllərində Bakı və onun rayonlarında yaranmış xeyriyyə cəmiyyətlərinin kitabxanaçılıq fəaliyyəti

XX əsrin əvvəllərində, 1905-1907-ci illər inqilabı ərəfəsində ölkədə milli müstəmləkə siyasəti davam edir, hökumət milli xalqlara qarşı, milli ziyalılara, müəllimlərə qarşı ayrıseçkilik siyasəti həyata keçirirdi. Hökumət dəfələrlə müsəlman müəllimlərinin hüquq məhdudiyyətlərinin ləğvi və ona yenidən baxılması haqqında vəd verməsinə baxmayaraq, onu yerinə yetirməyə tələsmirdi. Bütün bu narazılıqlar 1905-ci il Oktyabr manifestindən sonra xalq təhsilinə, mədəniyyətinə ümumxalq ictimai yardım hərəkatının meydana çıxmasına, milli ziyalıların və yerli sahibkarların, cəmiyyətin bütün qabaqcıl qüvvələrinin birləşməsinə səbəb oldu. Milli dirçəliş,

milli maarif və mədəniyyətin inkişaf etdirilməsi uğrunda başlamış bu mütərəqqi hərəkat ilk milli xeyriyyəçi – maarifçi cəmiyyətlərin yaranmasına gətirib çıxardı.

Xeyriyyə cəmiyyətləri əhali arasında maarif, təhsil, mədəni-maarif işləri aparan, xalqın mədəni səviyyəsinin yüksəldilməsinə çalışan müxtəlif istiqamətli qeyri -hökumət təşkilatları idi. Dözülməz müstəmləkəçilik siyasəti yeridən çar Rusiyası yerli xalqların, xüsusi ilə də müsəlmanların milli xeyriyyə cəmiyyətləri yaratmasına hər vasitə ilə mane olurdu. Belə ki, Bakıda rusların xeyriyyə cəmiyyəti 1875-ci ildə, ermənilərin xeyriyyə cəmiyyəti 1899-cu ildə, azərbaycanlıların ilk xeyriyyə cəmiyyəti isə yalnız 1905-ci ildə Birinci rus inqilabının təsiri ilə yaranmışdır.

Xeyriyyə cəmiyyətlərinin əsas məqsədi azərbaycanlılar arasında milli oyanışa nail olmaq, milli şüuru formalaşdırmaq üçün maarifin, mədəniyyətin inkişafına, yeni məktəblər, mədəni-maarif müəssisələri açmaq işinə kömək etmək idi. Bu cəmiyyətlər həmçinin, Azərbaycan dili və ədəbiyyatının öyrədilməsində, milli teatr sənətinin, mətbuatın və kitab nəşrinin inkişafında yaxından iştirak edirdilər.

XX əsrin əvvəllərindən Azərbaycanda yaranan belə cəmiyyətlər milli oyanış, milli dirçəliş və milli şüurun formalaşmasında mühüm rol oynamışlar. Xeyriyyə cəmiyyətlərinin yaranması, formalaşması və inkişafında bilavasitə Azərbaycanın mütərəqqi fikirli görkəmli ziyalılarından H.B.Zərdabinin, N.Nərimanovun, C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun, Ə.B.Haqverdiyevin, Ə.Ağayevin, H.Ağayevin, M.Mahmudbəyovun, Ə.Topçubaşovun, A.İ.Cəfərzadənin, A.Ş.Talıbzadənin, M.H.Əfəndiyevin, M.Ə.Rəsulzadənin iştirakı onların ictimai siyasi və mədəni əhəmiyyətini daha da artırmış, milli maarifimizin, mədəniyyətimizin milli mərkəzlərindən birinə çevirmişdir.

Azərbaycan milli burjuaziyasının nümayəndələrindən: H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Muxtarov, M.Nağıyev və digərləri müsəlman xeyriyyə cəmiyyətlərinin yaranmasında

yaxından iştirak etmiş, onlara maliyyə yardımı göstərmişlər. İlk müsəlman xeyriyyə cəmiyyəti 1905-ci ildə H.Z.Tağıyev, H.B.Zərdabi, Ə.Topçubaşov və tərəfindən yaradılmışdır. Bu cəmiyyətin nizamnaməsi təsisçilərin xahişi ilə 1905-ci il oktyabrın 10-da Qafqaz canişini qraf İ.İ.Voronsov-Daşkov tərəfindən təsdiq edilmişdir. Cəmiyyətin əsas məqsədi imkansız müsəlmanlara, xəstələrə, tələbələrə kömək etmək idi. Cəmiyyət, həmçinin müsəlmanların təhsili üçün məktəblərə, mədəniyyət ocaqlarına yardım etmək üçün də vəsait ayırırdı. Bu cəmiyyətin fəaliyyəti uzun sürməsə də, yeni müsəlman xeyriyyə maarif cəmiyyətlərinin yaranmasına müsbət təsir göstərdi.

Göstərdiyimiz kimi, XX əsrin əvvəllərində Bakıda və Azərbaycanın rayonlarında xalqın maarif və mədəniyyətinin inkişafına kömək etmək, xeyriyyə tədbirləri həyata keçirmək məqsədi ilə bir çox xeyriyyə cəmiyyətləri yaranmışdır. Biz öz qarşımıza XX əsrin əvvəllərində yaranıb fəaliyyət göstərən kitabxana və qiraətxanaların tarixini öyrənməyi məqsəd qoyduğumuzdan xeyriyyə cəmiyyətlərinin bütövlükdə fəaliyyətini yox, ancaq mədəni-maarif işləri sahəsindəki fəaliyyətini öyrənməyə diqqət yetirmişik.

Azərbaycanda yaranan ilk xeyriyyə cəmiyyətlərinin fəaliyyəti ilə tanışlıqdan məlum olur ki, onların fəaliyyətində xalq üçün kitabxanalar, qiraətxanalar açmaq mühüm yer tutmuşdur. Müsəlman xeyriyyə cəmiyyətləri milli xarakter daşıdıqlarından, onların təşkilində millətini sevən vətənpərvər azərbaycanlılar, qabaqcıl ziyalılar və azərbaycanlı sahibkarlar yaxından iştirak etmişlər.

İlk müsəlman xeyriyyə cəmiyyətlərinin yaranmasında xalqımızın görkəmli oğlu, milyonçu, xeyriyyəçi H.Z.Tağıyevin iştirakı dediklərimizi bir daha təsdiq edir.

Azərbaycanda ilk dəfə təşkil edilən xeyriyyə cəmiyyətlərindən biri «Nəşri-maarif» xeyriyyə cəmiyyəti olmuşdur. 1906-cı ildə H.Z.Tağıyev başda olmaqla bir qrup ziyalı Bakı qubernatoruna müraciət edərək xeyriyyə cəmiyyəti

təşkil etmək üçün icazə istədi. Qubernator uzun süründürmədən sonra 1906-cı ildə icazə verdi: 1906-cı ilin avqustunda nizamnaməsi təsdiq edildikdən sonra H.Z.Tağıyevin başçılığı altında Bakı quberniyasının müsəlman əhalisi arasında təhsili yayan cəmiyyət – «Nəşri-maarif» fəaliyyətə başladı.[67] Cəmiyyətin təsisçiləri – H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Muxtarov, M. Nağıyev onun fəxri üzvləri seçildilər.

Cəmiyyətin nizamnaməsində onun vəzifələri belə izah edilirdi: «Cəmiyyətin ümdə məqsədi Bakı şəhərində və tamam quberniyasında sakin müsəlman camaatının arasında elm və maarifi və xüsusən ibtidai savadı, ana dilimiz olan Azərbaycan lisanında və rusca nəşr etməkdir və hər qisim maarifin inkişafına köməklik etməkdir»[68]

Azərbaycanın qabaqcıl maarifçi ziyalıları bu cəmiyyətin işinə xüsusi qiymət verir və onun gələcək işlərinə böyük ümidlər bəsləyirdilər. Bu cəhətdən 1907-ci ilin 29 noyabrında «Kaspi» qəzetində çap edilmiş bir məqaləyə diqqət yetirək. Məqalədə görkəmli maarifçi Həsən bəy Məlikov Zərdabinin bu cəmiyyətin işinə böyük ümid bəslədiyi öz əksini tapmışdır. Məqalədə göstərilir: «... Həsən bəy ölərkən dedi: Sizdən xahiş edirəm mənim üçün təntənəli dəfn mərasimi düzəltməyin, məni ən adi qayda ilə sadəcə dəfn edin. Dəfn mərasimi üçün nəzərdə tutulan bütün məxarici müsəlmanlar arasında savadlanmağı yayan cəmiyyətin ixtiyarına verin. Bu, daha faydalı olar»[69].

Görkəmli maarifçi Həsən bəy Zərdabinin bu sözləri XX əsrin əvvəllərində yaranmış xeyriyyə cəmiyyətlərinin xalqın milli ruhda tərbiyəsində, təhsilində və mədəni inkişafında böyük rolu olduğunu bir daha təsdiq edir.

1906-cı ilin avqustunda bu cəmiyyətin adı dəyişdirilib Bakı müsəlman nəşri-maarif «Nicat» cəmiyyəti qoyuldu. Bu cəmiyyət öz işinin davamlılığı, ardıcıllığı və milliliyi etibarilə həmişə fərqlənmiş və öz işini 1920-ci ilə qədər davam etdirmişdir. «Nicat» cəmiyyətinə müxtəlif illərdə H.Ağayev, İsa bəy Aşurbəyli, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov və s. rəhbərlik etmişlər. Cəmiyyətin tərkibində xalqımızın görkəmli ziyalıları, maarifçiləri, mədəniyyət xadimləri ilə yanaşı, milli burjuaziyanın nümayəndələri də var idi. H.Z.Tağıyevlə yanaşı, milli burjuaziyanın digər nümayəndələri də cəmiyyətə maddi cəhətdən köməklik edirdilər. «Nicat» cəmiyyətinin fəaliyyətində müxtəlif illərdə görkəmli ictimai xadimlər və müəllimlər – H.B.Zərdabi, N.Nərimanov, M.B.Axundov, Ə.Ağayev, Ə.İ.Cəfərov, F.Ağayev, Ə.X.Axundov, İ.Aşurbəyov, M.H.Hacınski, H.Mahmudbəyov, M.H.Əfəndiyev və s. yaxından iştirak etmiş, onun işini istiqamətləndirmişlər. «Nicat» cəmiyyətinin təşəbbüsü ilə Gəncə, Şamaxı, Şuşa, Lənkəran və Ağdamda müxtəlif adda xeyriyyə cəmiyyətləri və məktəbləri yaradılmışdır. 1914-cü ildə cəmiyyət 13 məktəb açmışdır, bu məktəblərdə də 936 şagird, o cümlədən 72 qız təhsil alırdı.[70] «Nicat»ın təşəbbüsü ilə 1906-cı ildə Qafqaz müsəlman müəllimlərinin birinci, 1907-ci ildə isə ikinci qurultayı keçirilmişdir. Bütün bunlardan aydın olur ki, «Nicat» cəmiyyəti özünün uzunmüddətli fəaliyyəti dövründə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında çox böyük rol oynamış, xalqımızın milli şüurunun formalaşmasında mühüm tədbirlər həyata keçirmişdir.

«Nicat» xeyriyyə cəmiyyətinin fəaliyyətində xalqın maariflənməsində və təhsilində mühüm rolu olan xalq kitabxana-qiraətxanalarının yaradılması, onların yeni kitablarla, qəzet və jurnallarla təkmilləşməsi və oxuculara xidmət işinin təşkili əhəmiyyətli yer tutmuşdur.

Bu baxımdan «Nicat» cəmiyyətinin «Nicat» kitabxana-qiraətxanasının fəaliyyəti xüsusilə diqqətəlayiq olmuşdur. Bu qiraətxananın əsası 1905-ci ildə qoyulmuşdur. Həmin ilin əvvəllərində bir qrup ziyalı Bakı general qubernatoruna müraciət edib qiraətxananın açılmasına böyük çətinliklə də olsa icazə ala bilmişdi. Qiraətxana indiki Fəvvarələr bağının yerində olan binanın birinci mərtəbəsində yerləşirdi. Olduqca az miqdarda kitabı, qəzet və jurnalı var idi. İanələr hesabına yaşayan qiraətxana maddi çətinlik üzündən öz işini

genişləndirə bilmirdi.

Bu qiraətxana 1906-cı ilin mart ayında Əjdər bəy Aşurbəyovun Quberniski (indiki Füzuli) küçəsindəki evinə köçürüldü və Bakı «Nicat» cəmiyyətənin sərəncamına verildi. 1906-cı ilin mart ayında «Nicat» qiraətxanasının rəsmi açılış mərasimi keçirildi.

O dövrdə qiraətxananın açılışı haqqında «İrşad» qəzetində belə bir məlumat verilmişdi: «Novruz bayramı günü Bakıda Quberniski küçəsində Aşurbəyovun evində «Nicat» qiraətxanasının rəsmi açılışı var idi. Bu məclisdə ... demək olar ki, müsəlman «intiligentsiyası», əhli maariflərinin cümləsi hazır idi. Məclisin rəisinin müxtəsər nitqindən sonra həmin qiraətxananın nəfinə ianə qutusu açıldı. Bütün toplanan ianə 5049 manat oldu».[71]

«Nicat» xeyriyyə cəmiyyəti kitabxana-qiraətxananın işinə olduqca böyük qayğı göstərirdi. Cəmiyyət xüsusi şəxslərdən, nəşriyyatlardan, kitab mağazalarından kitablar almaqla kitab fondunun zənginləşməsinə diqqət yetirirdi. Cəmiyyət, həmçinin Rusiyanın Moskva, Peterburq şəhərlərinin nəşriyyatlarından kitab almaq üçün abunə yazılır, İran və Türkiyəyə kitablar sifariş edirdi.

Kitabxanaya «Nicat» xeyriyyə cəmiyyəti rəhbərlərindən biri, «Dəbistan» jurnalının redaktoru, hələ 1894-cü ildə görkəmli maarifçi, dövlət xadimi N.Nərimanovun təşkil etdiyi kitabxananın kitabxanaçısı olmuş Əlisgəndər Cəfərov yaxından köməklik edirdi. Kitabxananın müdiri vəzifəsi isə M.B.Axundova tapşırılmışdı. M.B.Axundov kitabxananın komplektləşdirilməsi, kütləvi tədbirlərin təşkili, oxuculara kitabxana xidməti sahəsində xeyli iş görmüş, kitabxananın ətrafında geniş oxucu fəalları dairəsi formalaşdıra bilmişdi.

1906-1907-ci illərdə Bakıda II dərəcəli «Səadət» məktəbi açılır. Məktəbdə müəllim hazırlamaq üçün axşam kursu da təşkil edilmişdi. Fəal ziyalılardan Fərhad Ağazadə və Əlicabbar Orucəliyev bu məktəbdə dərs deyirdilər. Məktəbin kitabxanası olmadığından yeni kitabxana açmağa böyük

ehtiyac duyulurdu. Əjdər bəy Aşurbəyovun evində yerləşən «Nicat» kitabxanasının binası isə namünasib olduğuna görə oxucuların gəlib-getməsi üçün lazımi şərait yox idi. Bunları nəzərə alaraq «Səadət» məktəbinin müəllimləri F.Əlizadə və Ə.Orucəliyevin təklifi ilə «Nicat» kitabxanası «Səadət» məktəbinin binasına köçürüldü. Burada kitabxana üçün münasib otaqlar ayrıldı. Məktəb kollektivinin köməyi ilə kitabxananın işində böyük canlanma baş verdi, kitab fondu zənginləşdi, oxucuların sayı çoxaldı. Məktəbdə müəllimlərdən və valideynlərdən ibarət kitabxana şurası təşkil edildi. Şura kitabxana fondunu yeni ədəbiyyatla təkmilləşdirmək üçün kütləvi işlər, görüşlər, tamaşalar təşkil edir, əldə edilmiş vəsait və ianələr hesabına kitabxana üçün qiymətli kitablar alırdı. Kitabxananın fondunda əsasən ərəb və fars dillərində kitablar var idi. Şura Azərbaycan dilində kitabların toplanmasına və Türkiyədən kitablar alınmasına xüsusi diqqət yetirirdi. Orucov qardaşlarının nəşrləri kitabxana fondunda geniş yer tuturdu.

«Nicat» cəmiyyətinin kitabxanasına çevrildikdən sonra onun fondu bir neçə dəfə artmış, oxucu kütləsinə xidmət etməyə başlamış, Bakı şəhərinin ən böyük müsəlman kitabxanasına çevrilmişdi. «Nicat» kitabxanası Bakı ziyalılarının ən çox qayğı göstərdiyi və istifadə etdiyi bir kitabxana idi. Məhz buna görədir ki, Bakı qəzetləri kitabxananın fəaliyyətini tez-tez işıqlandırır, onun işinə yüksək qiymət verirdilər.

«Tərəqqi» qəzeti 5 noyabr 1908-cı ildə kitabxanaya həsr etdiyi məqalədə kitabxana-qiraətxananı Azərbaycanın ən böyük kitabxanalarından biri kimi qiymətləndirir və onu Qafqazda ən böyük müsəlman kitabxana-qiraətxanası adlandırırdı. Qəzet yazırdı: «Kitabxana yekşənbə günlərində ancaq səhər saat 9-dan 11-ə kimi, qalan günlər 8-dən 1-ə kimi və axşam saat 6-dan 8-ə kimi işləyir».[72] Qəzet göstərilən məlumatı verməklə kitabxananı reklam edirdi.

Kitabxananın fəaliyyətini geniş işıqlandıran qəzetlərdən biri də «İqbal» qəzeti olmuşdur. 1914-cü ilin fevral

ayında dövrünün qabaqcıl ziyalılarından biri olan Yusif bəy Vəzirov «İqbal» qəzetində kitabxananın fəaliyyətini əks etdirən bir məqalə dərc etdirmişdir. Müəllif yazır: ««Nicat» qiraətxanası Qafqazda ən qədim və ən gözəgələn müsəlman qiraətxanalarından olsun gərəkdir, zarafat deyil, xeyriyyə cəmiyyəti cəm səy və qüvvəsini bunun saxlanmasına sərf edir».[73]

Kitabxana-qiraətxana Qafqazda çıxan bütün türk (Azərbaycan) qəzetlərini, eyni zamanda İrandan, Türkiyədən və Rusiyadan bir çox qəzetlər alırdı. Ancaq kitabxana qəzetlərin keçmiş illərə və aylara aid komplektlərini saxlamırdı. Yusif bəy Vəzirov göstərilən məqalədə çox mühüm bir məsələ – «Nicat» qiraətxanasında qəzetlərin keçmiş nömrələrinin saxlanması məsələsini də qaldırırdı.

Müəllif yazırdı: «Qiraətxanaya gedib iki ay bundan irəliki qəzetləri tapıb oxuya bilmirsən. Halbuki qiraətxana bundan ibarət deyil ki, gündə gedib təzə qəzetləri oxuyub gələsən. Bunu hər yerdə tapıb oxumaq olar. Amma qəzet və jurnalların keçmiş nömrələrini hər yerdə tapmaq mümkün deyil. Bunları ancaq kitabxana və qiraətxanalarda ələ gətirmək olar. Qəzet və məcmuələr camaatın, onun qabaqda gedənlərinin fikri, zikri və felidir desək səhv etmərik. Millət addım atdıqca ayağının izi mətbuatda qalır. Belə qiymətli bir şeyi bu gün oxuyub, sabah tullamaq böyük qəbahətdir».[74]

Bütün bu göstərdiklərinə əsasən müəllif «Nicat»ın yeni idarəsindən keçmiş qəzet və jurnalların saxlanmasını təklif etməyi xahiş edir.

Bu dövrdə çarın milli müstəmləkə zülmünə qarşı mübarizə aparan «Hümmət»çilər də «Nicat» kitabxanasının işinə qayğı göstərir, onun kütləvi işlərində yaxından iştirak edir, kitabxananın qiraətxanasında müxtəlif mövzularda mühazirələr oxuyurdular. «Hümmət» Partiyasının üzvlərinin bir çoxu «Nicat» mədəni-maarif cəmiyyətində işə düzəlmişdilər. Onlar cəmiyyətin və kitabxananın idarə olunmasında fəal iştirak edirdilər. Bu cəmiyyətin sədr müavini M.Əzizbəyov 1909-cu ildə hesabat məruzəsində çıxış edərək göstərirdi ki, «Nicat» cəmiyyəti L.N.Tolstoyun və gürcü şairi Akaki Seretelinin yubileylərini keçirmiş, fəhlə klublarında tamaşalar təşkil etmiş, Azərbaycan qəzalarında məktəblər, mədəni-maarif müəssisələri açmışdır. Kitabxana və qiraətxana əhali arasında kitab və dövri mətbuatın təbliğində yaxından iştirak etmişdir. «Hümmət» Partiyası üzvlərinin cəmiyyətin və kitabxana-qiraətxananın işində iştirakı onun fondunda inqilabi ruhlu, qabaqcıl ideyalı ədəbiyyatın saxlanmasına səbəb olmuş, milli ədəbiyyatın təbliği üçün şərait yaratmışdır. «Nicat» kitabxanası şəhərdə olan digər kitabxanalardan fərqli olaraq ən çox milli ədəbiyyatın, Azərbaycan dilində ədəbiyyatın saxlandığı bir kitabxana olmuşdur. Həmçinin «Nicat» kitabxanasının oxucularının əksəriyyətinin azərbaycanlılar olması onun milli şüurun inkişafında böyük rol oynamasından xəbər verirdi.

Cəmiyyətdə bu kitabxananın nüfuzunun artması, kütləvi kitabxanaya çevrilməsi ona diqqətin artmasına səbəb olmuşdur. Məhz buna görədir ki, 1914-1915-ci illərdə kitabxananı «Səadət» məktəbindən şəhər mərkəzinə – şəhərin ən böyük binalarından olan «İsmailiyyə» (indiki MEA Rəyasət Heyətinin binası) binasına köçürdülər. Bu zaman kitabxananın fondunda 10 mindən artıq kitab var idi. Bu, o dövr üçün çox böyük rəqəm idi. Bu fondu kiçik binada yerləşdirmək olmazdı. «İsmailiyyə» binasında kitabxanaya geniş otaqlar ayrılmışdı. Kitabxananın «İsmailiyyə» binasına köçürülməsi şəhərdə onun şöhrətinin daha da artmasına səbəb oldu, onun fondunun genişlənməsi üçün şərait yaratdı. Artıq kitabxana dünyanın başqa ölkələrindən də kitablar almağa üstünlük verirdi. Bu işdə kitabxanaya ziyalılar yaxından kömək edirdilər. Kitabxana bu məqsədlə mətbuat orqanlarında elanlar da verirdi.

1915-ci ildə «Yeni iqbal» qəzetində bir elan dərc edilmişdi. Bu elanda deyilirdi: «Müsəlman cəmiyyəti xeyriyyəsi Bakıda böyük bir kitabxana yaratmaq məqsədində-

dir. Bu məqsədlə cəmiyyəti xeyriyyə Ufa, Kazan və Orenburq müsəlmanlarına təvəqqe etmişdir ki, harada və kimin böyük kitabxanası varsa, cəmiyyətə xəbər versin».[75]

Kitabxananın apardığı işlər nəticəsiz qalmamış və o, Qafqazda ən böyük müsəlman kitabxanasına çevrilmişdi. Belə bir fikir söyləmək yerinə düşər ki, «Nicat» kitabxanası görkəmli maarifçi, dövlət xadimi Nəriman Nərimanovun 1994-cü ildə Bakıda təşkil etdiyi ilk ümumaçıq kitabxanadan sonra ikinci böyük müsəlman kitabxanası olmuşdur. Kitabxana Azərbaycanın kitabxana işi tarixində görkəmli yerlərdən birini tutmuş, xalqımızın təhsil və tərbiyəsində, maarifin yayılmasında, mədəniyyətin yüksəldilməsində, milli ədəbiyyatımızın, tariximizin təbliğində, beləliklə də milli şüurun oyanmasında mühüm və şərəfli bir yer tutmuşdur.

Kitabxana 1918-ci ilin martında Bakıda gedən vətəndaş müharibəsi zamanı erməni daşnakları tərəfindən «İsmailiyyə» binası yandırılarkən məhv olmuşdur.

«Nəşri-maarif» və «Nicat» cəmiyyətlərindən başqa 1905-1907-ci illər inqilabının təsiri ilə Azərbaycanda bir çox xeyriyyə cəmiyyətləri də yaranmışdı. Bunlardan «Gəncə müsəlman xeyriyyə cəmiyyəti» (1906), «Səadət» xeyriyyə cəmiyyəti (1907), «Şəfa» xeyriyyə cəmiyyəti (1912), «Bakı müsəlman qadın cəmiyyəti» (1914) və başqalarının fəaliyyəti daha diqqətəlayiq olmuşdur. Bu cəmiyyətlər əhali arasında mədəni-maarif işləri aparan, təhsilə, maarifə, insanların mədəni səviyyəsinin yüksəlməsinə xidmət edən müxtəlif istiqamətli təşkilatlar olmuşlar. Çarın milli müstəmləkə siyasətinə qarşı çıxan bu cəmiyyətlər ana dilində məktəblər açılmasına, savadın yayılmasına, mədəni-maarif müəssisələrinin təşkilinə, milli mətbuatın inkişafına kömək etmişlər. Xalqın maariflənməsini öz qarşısında məqsəd qoyan Ə.X.Axundovun, N.Vəzirovun və başqalarının təşəbbüsü ilə 1907-ci ildə yaradılan «Səadət» Müsəlman Ruhani Cəmiyyəti elə həmin il mükəmməl orta təhsil verən «Səadət» məktəbini açmışdı. Bu məktəbdə görkəmli ziyalılardan Ü.Hacıbəyov, C.Hacıbəyov,

Ə.D.İsmayılov, N.Terequlov və başqaları müəllimlik edirdilər. Məktəbin müdiri Azərbaycan (türk) dili və ədəbiyyatı müəllimi Əli bəy Hüseynzadə olmuşdur. Bu cəmiyyət «Səadət» məktəbinin yanında və başqa yerlərdə əhaliyə xidmət etmək üçün kitabxana-qiraətxanalar da yaratmışdı. 1912-ci ildən fəaliyyətə başlayan «Şəfa» cəmiyyəti də məktəblər və mədəni-maarif müəssisələri açmışdı.

«Gəncə» müsəlman xeyriyyə cəmiyyəti 1906-cı ildə Ələkbər bəy Rəfibəylinin təşəbbüsü ilə yaradılmışdı. Cəmiyyətin nizamnaməsi 1906-cı il iyunun 30-da Gəncə qubernatoru tərəfindən təsdiq edilmişdi. Nizamnaməyə görə, cəmiyyət kasıb müsəlman uşaqlarının təhsil almasına, xəstəxanada müalicə olunanlara yardım etmək, mədəni tədbirlər həyata keçirmək, mədəni-maarif müəssisələri təşkil etmək və s. işlər üçün yaradılmışdı. Bu dövrdə cəmiyyətin həyata keçirdiyi tədbirlər içərisində daşnaklar tərəfindən soyqırıma məruz qalmış Qarabağ və Zəngəzur əhalisinə yardım xüsusi əhəmiyyət kəsb edirdi. Cəmiyyət Gəncədə bir neçə kiçik kitabxana-qiraətxana təşkil etmişdi.

Beləliklə, 1905-1907-ci illər inqilabının təsiri ilə Azərbaycanda yaranan xeyriyyə cəmiyyətləri bilavasitə çarın yeritdiyi milli müstəmləkə siyasətinin əleyhinə mübarizə aparmaqla, milli dillərdə məktəblər açılmasına, milli mətbuatın yaranmasına, yerli əhali üçün mədəni-maarif müəssisələrinin təşkilinə kömək etmiş, Azərbaycan dilinin, Azərbaycan ədəbiyyatının, Azərbaycan tarixinin öyrədilməsinin qeydinə qalmışdır. Xalqımızın görkəmli ziyalılarının, ictimai xadimlərinin xeyriyyəçi sahibkarlarının bu cəmiyyətlərin yaranmasında, idarə edilməsində və fəaliyyətində iştirakı onları xalqımızın mədəni inkişafında, milli şüurunun oyanmasında da əsas vasitələrdən birinə çevirmişdir. Xeyriyyə cəmiyyətləri Azərbaycançılıq, türkçülük ideyalarının təbliğinə səy göstərərək, onun əsasını qoyan təşkilatlar olmuşdur. Əhalinin mədəni inkişafında kitabxana və qiraətxanaların böyük rolunu qeyd edən bu cəmiyyətlərin hər biri ayrılıqda öz kitab-

xana-qiraətxanalarını da təşkil etmişdilər. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, cəmiyyətlərin kitabxana və qiraətxanalarının fəaliyyəti haqqında material olmadığından geniş məlumat vermək imkanımız olmadı.

1.5.13. Azərbaycanın qəza şəhərlərində və kənd rayonlarında kitabxana işi

XX əsrin əvvəllərində qəzalarda kapitalist istehsal münasibətlərinin inkişafı qəza şəhərlərinin sürətlə böyüməsinə səbəb olmuşdu. Qəza şəhərlərində kapitalist istehsal münasibətlərinin üstün mövqe tutması şəhər əhalisinin artmasına gətirib çıxarmışdı. 1900-1915-ci illərdə qəza şəhərlərindən Gəncənin, Şəkinin (Nuxa), Şuşanın, Qubanın, Şamaxının, Lənkəranın, Naxçıvanın, Ordubadın əhalisi orta hesabla iki dəfəyə qədər artmışdı. Şəhərlərin əhalisi 1913-cü ildə 1902-ci ildəki 305 min nəfərdən 556 min nəfərə çatmışdı.[76] Qəza şəhərlərinin sürətlə böyüməsi, əhalinin artması maarifçi, mədəniyyətin inkişafı üçün şərait yaratmışdı. Yeni məktəblər açılmış, əhalinin savad dərəcəsi yüksəlmiş, mədəni-maarif müəssisələri yaranmağa başlamışdı. 1905-1907-ci illər inqilabı öz növbəsində əhalinin siyasi fəallığının artmasına, milli şüurun yüksəlməsinə gətirib çıxarmış, qəza şəhərlərində çarın milli müstəmləkə siyasətinə qarşı mübarizə aparan inqilabi ruhlu qabaqcıl ziyalı mühiti formalaşmışdı. Əhalidə maarifə, mədəniyyətə, savad almağa böyük maraq əmələ gəlmişdi. Yerli ziyalılar xalqın bu marağını ödəmək üçün məktəblər açmağa, mədəni-maarif müəssisələri təşkil etməyə başlamışdılar. İnqilabi hərəkatın yüksəlməsindən qorxuya düşən çar hökuməti Bakı şəhərində olduğu kimi, qəzalarda da öz siyasətini xeyli liberallaşdırmış, yeni milli məktəblərin və mədəniyyət müəssisələrinin açılmasına icazə vermişdi.

§ 1.5.14. Gəncədə kitabxana-qiraətxanalar

Azərbaycanın ən qədim şəhərlərindən biri olan Gəncə şəhəri özünün zəngin mədəniyyəti ilə həmişə fərqlənmiş-

dir. XX əsrin əvvəllərində ölkədə çar hökumətinin milli müstəmləkə zülmünün hökm sürməsinə baxmayaraq, Gəncənin mədəni həyatında canlanma baş verirdi. Gəncə ziyalılarının köməyi ilə yeni tipli milli məktəblər açılır, mədəni-maarif müəssisələri yaradılırdı. 1905-1907-ci illər inqilabının təsiri altında Gəncə ziyalıları bir kitabxana açmaq məqsədi ilə Gəncə qubernatoruna müraciət edirlər. Qubernatordan icazə aldıqdan sonra 1905-ci ilin axırlarında kitabxananı açmaq mümkün olur. Kitabxanaya «İslam kitabxanası» adı verilir. Gəncə ziyalıları kitabxananı açmaq üçün xeyli vəsait toplamış, bu vəsaitə kitablar, qəzetlər, jurnallar və avadanlıq almışdılar. Kitabxananın açılışında o zaman şəhər məktəblərindən birində müəllim işləyən Cəfər Axundov yaxından iştirak etmiş və onun ilk müdiri olmuşdur.

«İslam kitabxanası» haqqında 1907-ci ildə «İrşad» qəzetinin 2 mart tarixli 37-ci nömrəsində məqalə dərc edilmişdi. Məqalədə deyilir: «Bir il altı ay bundan əvvəl Cəfər Axundov Gəncə şəhərində qiraətxana açmaq fikrinə düşür. O, camaatdan iki yüz manatdan artıq pul toplayıb, həmin məbləğ ilə açdığı müəssisəni «İslam kitabxanası» adlandırır».[77] Bu kitabxananın fəaliyyəti uzun sürmədi. Kitabxanaya Cəfər Axundovun qardaşı Hüseyn Axundov müdirlik etməyə başladıqdan sonra öz vəzifəsinə qeyri-ciddi münasibət bəsləyən Hüseyn Axundov kitabxananı vaxtı-vaxtında açmır, oxucuların tələbatını ödəməkdən imtina edir. Həmçinin kitabxananın fondu Hüseyn Axundov tərəfindən dağıdılır. Kitabxananın oxuculara xidmət etmədiyini görən Gəncə ziyalıları və oxucular yeni kitabxana açmaq fikrinə düşürlər.

1906-cı ildə Gəncədə yeni bir qiraətxana açıldı. Qiraətxananın açılması haqqında «Həyat» qəzeti 1906-cı ildə Gəncədə müsəlman qiraətxanasının açılması haqqında xəbər vermişdi.[78]

Bu qiraətxana Rusiyada çıxan müsəlman qəzetlərini, o cümlədən Şərq ölkələrindən bir sıra qəzetlər alırdı. Qiraətxanada rus dilində də qəzetlər var idi.

Bakı qiraətxanalarından fərqli olaraq Gəncə qiraətxanasından istifadə etmək pullu idi. Oxucular qiraətxanaya daxil olarkən iki qəpik verirdilər. Bu qiraətxanaya Misirdən və digər Şərq ölkələrindən də kitablar hədiyyə edilirdi. Bu barədə «Həyat» qəzetində belə bir məlumata rast gəlirik: «Misirdən Əbdüllahi Cövdət Əfəndi Gəncə qiraətxanasına səy etməkdədir. Daha sonra «Gəncə qiraətxanası»na Rəfidil Əzim bəy cənablarından bir neçə kitab hədiyyə edildi».[79]

Bu qiraətxana əhali arasında maarifin yayılması işində yaxından iştirak edirdi. Qiraətxanada qəzetlər oxunur, izah edilir və digər kütləvi tədbirlər həyata keçirilirdi.

1906-cı ildə Gəncədə bir müsəlman qiraətxanasının açılacağı haqqında məlumat dərc edilmişdi. Məlumatda deyilir: «Bu yavuq zamanda Gəncədə bir böyük kitabxananın gușadına səy ediləcəkdi. Misir müsəlmanlarının vəd etmələrinə görə kitabxana Misirdə, Osmanlıda, Hindistanda olan kitabxanaların bir şöbəsi olacaq».[80] Təəssüf ki, bu kitabxananın açılıb-açılmaması haqqında məlumat əldə edə bilmədik.

Bütün bunlardan aydın olur ki, bu dövrdə Gəncə ziyalıları Şərq ölkələri ilə əlaqələr saxlayır, Şərqin, ərəb, fars və türkdilli mətbuatından bəhrələnirdi.

Həmin kitabxana-qiraətxanalardan başqa Gəncədə yeni bir kitabxananın yaranması haqqında məlumat vardır. Gəncə ziyalılarından bir qrupu şəhərdə mədəni-maarif müəssisələri yaratmaq və əhalini mədəni işə cəlb etmək üçün bir dram dərnəyi yaradırlar. Dərnək üzvləri əhali arasında göstərdiyi tamaşalardan əldə etdiyi vəsait hesabına yeni bir qiraətxana açırlar. Qabaqcıl ziyalıların yeni təsis etdiyi qiraətxana 1909-cu ildən əhaliyə xidmət etməyə başlamışdır.

Göstərdiyimiz kitabxana-qiraətxanalardan başqa şəhərdə hələ 1904-cü ildən başlayaraq gizli partiya kitabxanaları da yaranmağa başlamışdı. 1904-cü ilin ortalarından Gəncədə təşkil edilmiş, RSDFP-nin sosial-demokrat qrupu şəhərdə geniş təbliğat-təşviqat işi aparmaq üçün gizli kitabxanalar təşkil edir, inqilabi vərəqlər nəşr edib yayırdı.[81] Bolşeviklərin Gəncə qrupu tərəfindən təşkil edilmiş «qeyri-leqal kitabxana fəhlələri, habelə Gəncə rayonunda yerləşən hərbi hissələrin əsgərlərini marksist ədəbiyyatı ilə təchiz edirdi. Bu kitabxana 1904-cü ilin əvvəllərindən Gəncəyə gətirilməyə başlayan gizli inqilabi ədəbiyyat ilə təkmilləşirdi. Hümmətçi bolşeviklər Gəncə sosial-demokratlara kömək edir, onlara Azərbaycan dilində inqlabi ədəbiyyat göndərirdilər».

Gəncə bolşevikləri həm də xaricdən çoxlu miqdarda inqilabi ədəbiyyat alırdılar. Göndərilən ədəbiyyat içərisində Gəncə ziyalılarının diqqətini cəlb edən qabaqcıl ideyalı çoxlu elmi-kütləvi və bədii ədəbiyyatın olması əhalinin inqilabi kitabxanalara marağını artırırdı. İnqilabi kitabxanaların təkmilləşdirilməsinə partiya təşkilatlarının qayğısını əks etdirən belə bir məlumata diqqət yetirək. Zaqafqaziya Dəmir Yolları Jandarm İdarəsi Gəncə şöbəsinin rəisi 1906-cı ildə mayın əvvəllərində yuxarı orqanlara xəbər vermişdi ki, Gəncə stansiyasının yük kontorunda 5 pud 15 girvənkə iki yeşik tapılmışdır. Yeşikləri açdıqda məlum oldu ki, bunların hər ikisi ağzınadək cinayətkar ədəbiyyatla doludur... Bundan başqa, bir yığın vaxtaşırı mətbuat məsələn, «Proletari», «Vperyod» və s kimi çoxlu kitabça və kitablar, ümumiyyətlə, 2500 nüsxədən çox ədəbiyyat tapıldı».[82] Əlbəttə, gizli yolla Gəncəyə göndərilən bu kitablar partiya kitabxanaları üçün nəzərdə tutulmuşdu.

Gəncədə fəaliyyət göstərən gizli partiya kitabxanaları partiya üzvləri ilə yanaşı şəhər əhalisinin müəyyən təbəqəsinə də xidmət edirdilər. Kommunistlər bu kitabxanalardan çar üsul idarəsinə qarşı təbliğat-təşviqat işində istifadə edirdilər.

§ 1.5.15. Ordubad qiraətxanası

XX əsrin əvvəllərində Azərbaycanın mədəni mərkəzlərindən biri olan Ordubad ölkənin ipək sənayesi mərkəzlərindən biri olaraq qalırdı. Şəhərin sənaye müəssisələrinin məhsuldarlığı və ticarət dövriyyəsi bir milyon rubla çatırdı.[83]

Şəhərdə sənayenin inkişafı əhalinin artmasına səbəb olmuşdu. 1915-ci ildə Ordubadda 6,5 min nəfər əhali yaşayırdı.[84] Şəhər həyatında baş verən dəyişikliklər, yeni məktəblərin, mədəni-maarif müəssisələrinin yaradılması üçün şərait yaratmışdı. Bu işdə şəhərin qabaqcıl ziyalıları yaxından iştirak edirdilər.

Şəhər ziyalıları 1905-1907-ci illər inqilabının təsiri ilə 1906-cı ildə Ordubadda bir qiraətxana təşkil etməyə müvəffəq oldular.[85] Bu qiraətxana M.S.Ordubadi, M.T.Sidqi və Mirzə Adilin təşəbbüsü ilə o zaman Ordubadda mövcud olan «Cəmiyyət» tərəfindən yaradılmışdı. Bu cəmiyyətin üzvləri içərisində M.S.Ordubadi, Mirzə Adil, Mirzə Sadiq, Mirzə Salman, Mirzə Ələsgər oğlu Məmməd, Məşədi Əsgər Həsənzadə, Mirzə Cəlil Salehzadə və başqaları kimi qabaqcıl fikirli milli ziyalılar var idi.

Cəmiyyət şəhər əhalisi arasında maarif və mədəniyyəti yaymaq üçün bir qiraətxana açmaq qərarına gəldi. Qiraətxananı təşkil etmək üçün ilk növbədə vəsait toplandı. Sonra şəhər polis idarəsinə müraciət etdilər. Pristav Terpalevski ziyalıların müraciətinə müsbət cavab verdi. Qiraətxana Mirzə Adilin evində yerləşdirildi.

Qiraətxananın açılmasını sevinclə qarşılayan şəhər ziyalıları qiraətxana üçün xeyli kitab, jurnal və qəzetlər toplamışdılar. Qiraətxana fəaliyyətə başladıqdan sonra Azərbaycan və rus dillərində «Hümmət», «Yoldaş», «Təkamül», «İrşad», «Nur», «Həblul-mətin», «Naşa jizn» və s. qəzetləri almağa başladı.

Qiraətxananın yanında bir qiraət dərnəyi təşkil olunmuşdu. Dərnək üzvləri üçün qəzetlər oxunurdu. Qəzet oxumaq işinə yerlilərin həddindən artıq rəğbəti var idi. Poçta gələn vaxt bütün idarə işçiləri, ziyalılar, hətta bağbanlar da qiraətxanaya toplaşırdılar. Qəzetlər ucadan oxunurdu. Sonradan bu iş polisin diqqətini cəlb etdi. Bir yerə toplaşıb qəzet oxumağa icazə verilmədi. Şəhərin mollaları da polisdən geri qalmırdı. Qəzet oxumağın əleyhinə çıxış edirdilər.

M.S.Ordubadi xatirələrində yazırdı: «Hələ 1906-cı ildə mən İsgəndər bəyin qızını dəfn etmək üçün İsgəndər bəyin evində oturduğum vaxt, yavaşca cibimdən qəzeti çıxarıb baxdım. Bunu Mir Yusif Ağa gördü. «Xalqın ölüsünü bihörmət etmə», - deyə məni məzəmmət etdi».

Cəmiyyətin üzvlərindən Məşədi Ələsgər Həsənzadənin Təbriz ilə əlaqəsi olduğundan qiraətxanaya Təbriz vasitəsi ilə də xarici qəzetlər gətirilirdi. Qiraətxanada müxtəlif dillərdə və müxtəlif istiqamətli qəzetlərin olması oxucuların getdikcə artmasına şərait yaradırdı. Qiraətxananın oxucuları içərisində ziyalılarla yanaşı, fəhlələrə, kəndlilərə və qulluqçulara da rast gəlmək olurdu. Qiraətxanada «Naşa jizn», «Hümmət» kimi inqilabi ruhlu qəzetlərə böyük tələbat əmələ gəlmişdi. Qiraətxana böyük çətinliklə də olsa əhali arasında təbliğat işləri aparır, demokratik ideyaları yaymağa çalışırdı. Qiraətxananın müxtəlif iş forma və üsullarından istifadə edilərək yerli əhali arasında qəzetlər oxunub müzakirə edilir, son hadisələr, cəmiyyətdə gedən inqilabi proseslər izah edilirdi.

Qiraətxananın açılmasına kömək edən pristav Terpalevski sosialist olduğundan cəmiyyət üzvləri arasında həftədə bir dəfə inqilabi məzmunda söhbət aparırdı.

M.S.Ordubadi öz xatirələrində yazır: «Biz «Naşa jizn» və s. inqilabi qəzetlər alıb oxuyurduq. Terpalevski bizə 1905-ci il inqilabının gedişi haqqında həftədə bir kərə söhbət edirdi. Hökumətin inqilabı boğmaq haqqında gizli qərarı və polis idarələrinə verilən təlimat haqqında bizə danışırdı. O, bizə sosial-demokratların çap etdirdiyi əsərləri də verirdi... Cəmiyyət üzvlərinin heç birisi sosialist deyildi. Biz doğrudan da Marks tərəfindən aralığa atılmış, bu geniş fikri əhatə edə bilmişdik. İçərimizdə sosialist bircə Terpalevski idi».[86]

Qiraətxana qısa bir zamanda əhalinin ən çox gəldiyi, onun kitab və qəzetlərindən bəhrələndiyi bir müəssisəyə çevrilmişdi. Qiraətxananın işçiləri də oxucuların tələbatını ödəmək, oxuculara informasiya vermək uçun əllərindən gələni

edirdilər. Qiraətxanada gizli yolla inqilabi iş aparılır, piktoqrafiya usülü ilə gizli vərəqlər nəşr edilir, erməni-müsəlman qırğını əleyhinə mübarizə aparılırdı. Qiraətxananın fəaliyyəti, xüsusilə əhali arasında apardığı təbliğat işləri yavaş-yavaş polis idarəsinin diqqətini cəlb etmiş, ciddi nəzarətə götürülmüşdü. M.S.Ordubadinin yazdığına görə, böyük çətinliklə 9 il müddətində fəaliyyət göstərən bu qiraətxana 1914-cü ildə hökumət tərəfindən bağlanmışdır.

Hər cür çətinliyə baxmayaraq, Ordubadın qabaqcıl ziyalıları tərəfindən idarə edilən bu qiraətxana, çar hökumətinin milli müstəmləkə siyasətinə qarşı mübarizə aparmış, yerli əhalinin maariflənməsində, mədəni və siyasi inkişafında yaxından iştirak etmiş, milli şüurun oyanmasına və formalaşmasına xidmət etmişdir.

§ 1.5.16. Şamaxı kitabxanası

XX əsrin əvvəllərində qədim Şamaxı şəhəri ölkənin mühüm kənd təsərrüfatı məhsulları və kustar mallarının istehsalı sahəsində mühüm yer tuturdu. Şəhərin əhalisi xeyli artmışdı. 1915-ci ildə Şamaxıda 28 min nəfərə yaxın əhali məskunlaşmışdı.[87] Qədim Şamaxı öz mədəniyyəti ilə fərqlənirdi. Şamaxıda çoxlu məktəblər, mədrəsələr, mollaxanalar fəaliyyət göstərirdi. Əhalinin savad dərəcəsi Azərbaycanın başqa regionları ilə müqayisədə yüksək idi. Bu dövrdə Şamaxıda olduqca böyük milli ziyalılar mühiti formalaşmışdı. Bir çox görkəmli yaradıcı ziyalıların Şamaxıda yaşayıb-yaratması bu şəhərin mədəni əhəmiyyətini xeyli artırmışdı. Şəhərdə kitaba, kitabxanaya böyük ehtiyac hiss edilməkdə idi. Bunu hiss edən Şamaxı ziyalıları bir ümumi kitabxana açmaq qərarına gəldilər. Kitabxananın təşkilində xalqımızın görkəmli yaradıcı ziyalıları, böyük satirik şair M.Ə.Sabir, şair Abbas Səhhət, Naseh, gənclərdən müəllim Abbas Minasarov, Əli İsmayılov, Cəmo Cəbrayılbəyli və s. yaxından iştirak etmişlər. 1906-cı ilin axırlarından başlayaraq qabaqcıl ziyalılar şəhərin bu və ya digər yerlərində, məktəblərdə,

yığıncaqlarda, əhalinin gur toplandığı məclislərdə və s. kitab və kitabxananın əhəmiyyətindən, maarif işində, təhsil işində rolundan, mütaliənin, kitab oxumağın zəruriliyindən danışır, əhalini kitabxana açmağa köməyə çağırırdılar. Aparılan təbliğat nəticəsiz qalmadı, əhali arasında kitabxana açmağın tərəfdarları xeyli çoxaldı.

Kitabxananın açılmasına mane olan bir çox çətinliklər var idi.

Birinci, çar hökuməti inqilabın yüksəlişindən ehtiyat etdiyindən öz yerli nümayəndələrinin, polis idarəsinin vasitəsi ilə kitabxanaların açılmasına icazə vermirdi. İcazə üçün yuxarı dövlət idarələrinə müraciət etmək lazım idi.

İkinci, şəhərdə kitabın az olması, kitab satan mağazaların olmaması kitabxana üçün kitab toplamağa ciddi mane olurdu. Həmçinin burjuaziya və ruhanilər kitabxanalar açılmasına ciddi maneçilik törədirdilər.

Bütün bu çətinliklərə baxmayaraq, kitabxananın təşkilinə başlandı. Hər şeydən əvvəl kitabxananın açılmasına icazə almaq lazım idi. Bu işi M.Ə.Sabirin, Abbas Səhhətin, Ağaəli Naseh Əfəndiyevin və başqalarının xahişi ilə şəhər idarəsinin rəisi Teymur ağa Xudaverdiyev öz üzərinə götürdü. İcazə almaq işi uzun çəkmədi. 1905-ci il hadisələrindən qorxuya düşən hökumət kitabxananın açılmasına icazə verdi.[88] İcazə alındıqdan sonra kitabxananı təşkil edən ziyalılar qrupu vəsait toplamaq üçün Nəcəf bəy Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» və Əbdürrəhim bəy Haqverdiyevin «Dağılan tifaq» əsərlərini tamaşaya qoymağı qərara aldılar. Tamaşaların təşkili olduqca çətin idi. Bir tərəfdən ayrı-ayrı rolları oynaya biləcək adamların olmaması, o biri tərəfdən isə qeyri-mədəni adamların: qoçuların, tacirlərin, ruhanilərin bu mədəni tədbirə qarşı çıxmaları, ziyalıları təqib etmələri, lağa qoymaları tamaşaların keçirilməsinə mane olurdu. Bütün bu çətinliklərə baxmayaraq tədbirlər baş tutdu. Şəhərin qabaqcıl ziyalıları kitabxananın açılmasına maddi və mənəvi cəhətdən kömək etməyə başladılar.

Qocaman müəllim Camo Cəbrayılbəyli öz xatirələrində yazır ki, kitabxanaya vəsait toplamaq işinə birinci səs verən Hacı İsmayıl Vəzirov və o dövrün yaradıcı ziyalıları, şairlər, jurnalistlər, müəllimlər oldu. Qısa müddətdə 300 manatdan artıq pul toplandı. Pul toplandıqdan sonra şəhərin mərkəzi hissəsində «Cümə» məscidindən bir az yuxarı ən yaxşı bina icarəyə götürüldü və qəzet və jurnallara abunə yazılışı müəyyənləşdirildi. Ziyalılar kitabxananın təntənəli açılışına hazırlaşmağa başladılar. Təntənəli açılışa qədər kitabxanaya bəxşiş etmək yolu ilə kitab toplamaq kampaniyası başlandı. Xeyli kitab toplamaq mümkün oldu.

Kitabxanaya əhalidən kitab toplamaq üçün hədiyyə dəftəri açılmışdı. Bu dəftərdə kitabxanaya kitab verən şəxslərin adları və verdiyi kitablar qeyd olunurdu. Çox kitab hədiyyə edən şəxslər haqqında mətbuatda məlumat verilir, ictimai yerlərdə tərifləlnirdi.

Bütün hazırlıq işi başa çatdıqdan sonra 1907-ci ilin yayında kitabxananın təntənəli açılışı oldu.

Bu kitabxana haqqında onun təşkilatçılarından biri olan əməkdar müəllim Cəmo Cəbrayılbəyli yazır: «Apardığımız təbliğat nəticəsiz qalmamışdı. Açılışda 150-dən artıq adam iştirak edirdi. Hətta «rəğbətkar» sifəti ilə komissiya nümayəndələri kimi qəza naçalniki Fyodorov öz köməkçiləri ilə gəlib çıxdı. Məclisi şəhər idarəsi rəisi Xudaverdiyev açıb, məqsədi qısa olaraq anlatdı. Sonra bir neçə adam bu işin tamamilə yeni bir iş olduğunu və xeyirli olacağını söylədi. Abbas Səhhət ətraflı çıxışında mədəni ölkələri misal gətirərək Şamaxıda kitabxana-qiraətxana açılışının tarixi əhəmiyyətə malik olduğunu və təşəbbüsün inkişaf etdirilməsinin lazım gəldiyini arzu etdi. Nəhayət, M.Ə.Sabir «Elm» adlı mənzuməsini oxudu. Mənzumə o qədər təsirli oldu ki, o zamana qədər Şamaxıda görünməyən gurultulu bir alqış qopdu. Təəssüf ki, o şeirdən heç bir əsər-əlamət qalmamışdır. Məzmunu elmin əhəmiyyətinə və müvəffəqiyyətlərinə dair idi, təsiri də çox böyük oldu. M.Ə.Sabiri bir dəst kostyum

ilə mükafatlandırmaq qərara alındı və bunu da maarifpərvər Hacı İsmayıl öz öhdəsinə götürüb yerinə yetirdi. İclas qurtardıqdan sonra açılışa qədər gətirilmiş qəzet və məcmuələr stolun üstünə düzülüb yığılanların nəzərinə çatdırıldı. İanə yolu ilə yığılmış 3 minə qədər kitab dəxi səliqə ilə şkaflara düzülmüşdü».[89]

Kitabxananın açılışında o zamanın qabaqcıl fikirli gənclərindən Cəmo Cəbrayılbəyli və Abbas Minasarov da çıxış edərək kitab və kitabxananın əhəmiyyətindən danışmış, xalqı maariflənməyə və mədəniyyətə çağırmışlar.

Şamaxının ictimai-siyasi və mədəni həyatında, xalqın maariflənməsində, mədəni inkişafında mühüm yeri olan bu kitabxana uzun illər əhaliyə xidmət etmiş, qabaqcıl ruhlu kitabların yayılmasında, milli ədəbiyyatın təbliğində, milli ruhun yüksəlməsində yaxından iştirak etmişdir.

Öz dövrünə görə kitabxananın zəngin fondu var idi. Kitabxananın fondunda rus, ərəb, fars və türk (Azərbaycan) dillərində xeyli qiymətli nadir ədəbiyyat toplanmışdı. Kitab fondunun zənginləşməsi işində Şamaxı mədəni mühiti, Şamaxı ziyalıları yaxından iştirak edirdilər. Kitabxanada Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatı, türk xalqlarının ədəbiyyatı ilə yanaşı, klassik rus ədəbiyyatına dair qiymətli kitablar toplanmışdı. Kitabxananın fondunda inqilabi ədəbiyyat da var idi. Kitabxananın təşkilatçılarının Şamaxıda olan inqilabi ruhlu adamlarla əlaqə saxlaması inqilabi ideyaların təbliğinə də şərait yaradırdı.

Cəmo Cəbrayılbəyli öz xatirələrində yazır ki, inqilabi ideyaların yayılmasında Şamaxıda fəaliyyət göstərən aptekin işçisi Mamaladrenin böyük rolu olmuşdur. Şamaxı gənclərinin Mamaladre ilə yaxınlaşması onların birgə fəaliyyətinə gətirib çıxardı. Onlar Mamaladre ilə birlikdə aptekdə olan stekloqrafda inqilabnamələr çap edib şəhərdə yaymağa başladılar. İnqilabnamələrin yayılmasında kitabxana da yaxından iştirak edirdi.

Kitabxanada kitab təbliğ etmək, əhalini kitab oxu-

maq işinə cəlb etmək və hərtərəfli təbliğat işi aparmaq üçün ziyalılardan növbətçilər təyin edilirdi. Kitabxananın həyata keçirdiyi kütləvi tədbirlər kitabxana işinin məzmununu yaxşılaşdırmış, kitabxananı oxucuların hər cür müxtəlif suallarına cavab verən, əhalinin ən çox müraciət etdiyi bir müəssisəyə çevirmişdi. Məhz buna görədir ki, günbəgün, ilbəil oxucuların sayı artırdı. Kitabxana öz fəaliyyətini genişləndirdikcə onun apardığı işlərin məzmunu dəyişir, keyfiyyətcə yüksəlir, inqilabi xarakter alırdı. Kitabxanada aparılan işin siyasi xarakter almasını göstərən amillərdən biri kitabxananı təşkil edən ziyalılar tərəfindən tərtib edilmiş, məzmunu hökumətin, mövcud quruluşun əleyhinə olan inqilabnamələrin buraxılması idi. İnqilabnamələrin tərtibində 1906-cı ildə Bakıdan Şamaxıya sürgün edilmiş müəllim Abbas Minasarovun böyük rolu var idi. Kitabxana çap edilmiş 200-dən artıq inqilabnaməni şəhərdə yaymışdı.

Polis uzun axtarışdan sonra inqilabnamələrin çapı və yayılması ilə aparılan işin izinə düşdü. Elə bu vaxtdan, yəni 1910-cu ildən başlayaraq kitabxananın fəaliyyəti nəzarət altına alındı və işi xeyli məhdudlaşmağa başladı. 1905-1907-ci illər inqilabının məğlubiyyətə uğraması ölkədə irticanın kəskinləşməsinə səbəb olmuşdu. İnqilab illərində verilmiş siyasi azadlıqlar sıxışdırılıb, aradan çıxarılır, əhaliyə xidmət edən mədəni-maarif müəssisələri təqib edilib bağlanılırdı. Çar xəfiyyələrinin ən çox şübhələndiyi, cəmiyyət arasında nüfuzu olan mədəniyyət müəssisələri, kitabxanalar ilk növbədə bağlanmaq təhlükəsi qarşısında qalmışdı. Belə bir şəraitdə Şamaxı əhalisinin ən sevimli yerlərindən biri olan Şamaxı şəhər kitabxanasının vəziyyəti ağırlaşmış, kitabxananın təşkilatçıları və təəssübkeşləri təqib edilməyə başlanmışdı. 1912-ci ildə Fyodorovun yerinə təyin edilmiş qəza rəisi Jupranski qəzada olan qabaqcıl fikirli adamları təqib edir, mədəniyyət, maarif və milli dirçəliş əleyhinə kəskin mübarizə aparırdı. Kitabxanaya bilavasitə nəzarət edən Jupranski hər vəchlə onun işinə mane olur, kitabxanada tez-tez axtarışlar təşkil

edir, kitabxanaya ayrılan maliyyə vəsaitini ilbəil azaldırdı. Şamaxı kitabxanası böyük çətinliklə də olsa öz işini 1918-ci ilin əvvəllərinə qədər davam etdirmiş və fəaliyyətini dayandırmağa məcbur olmuşdur. Böyük Sabirin, Abbas Səhhətin yadigarı olan Şamaxı kitabxanası bağlansa da onun mədəniyyətin və maarifin yayılmasında, Azərbaycan kitabının təbliğində, xalqımızın milli şüurunun oyanmasındakı böyük xidməti qədirbilən xalqımız tərəfindən hörmətlə yad edilməkdədir.

§ 1.5.17. Şəki (Nuxa) kitabxana-qiraətxanası

XX əsrin əvvəllərində Azərbaycanda inkişaf etmiş şəhərlərdən biri də Şəki şəhəri olmuşdur. Şəki ipək istehsalına və emalına görə təkcə Azərbaycanda deyil, bütün Qafqazda əhəmiyyətli rol oynayırdı. O, həm də böyük ticarət mərkəzi kimi məşhur idi. 1913-cü ildə Şəkidə 962 ticarət sənaye müəssisəsi fəaliyyət göstərirdi. Kapitalist təsərrüfatının inkişafı şəhərin əhalisinin artmasına böyük təkan vermişdi. 1915-ci ildə Şəkidə 52 mindn artıq əhali yaşayırdı.[90]

Şəhərin belə sürətlə inkişafı mədəniyyətin inkişafına da yüksək təsir göstərir, yeni məktəblər açılır, digər mədəni-maarif müəssisələri yaranırdı. XX əsrin əvvəllərində Şəkidə Şirəlibəy Əmircanovun rəhbərliyi ilə «Nuxa Təhsil Cəmiyyəti» yaradılmışdı. Bu cəmiyyət şəhərdə maarifin, mədəniyyətin inkişafına kömək etməklə, yeni məktəblərin və mədəni-maarif müəssisələrinin təşkilində yaxından iştirak edirdi. Şəkidə gimnaziya və 1915-ci ildə «Müqəddəs Nina» qız məktəbi fəaliyyət göstərirdi.

Məhz bu dövrdə Şəkidə qiraətxanaların təşkilinə də başlanılmışdı. Xalqın təhsilində, maariflənməsində və mədəni inkişafında qiraətxanaların fəaliyyətini yüksək qiymətləndirən Şəki ziyalıları 1906-cı ilin əvvəllərində şəhərin ətrafında bir «Qiraətxaneyi-islamiyyə»nin təşkilinə nail oldular.[91] O zaman bu qiraətxananın açılması haqqında «İrşad» və «Tərəqqi» qəzetləri də məlumat vermişdi.

Şəki qiraətxanasının təşkili görkəmli xalq müəllimi Rəşid bəy Əfəndizadənin və Ağaməhəmmədkərim Məmmədağa oğlunun adı ilə bağlıdır.

Öz dövrünün qabaqcıl maarif xadimlərindən biri olan Rəşid bəy Əfəndizadə bu qiraətxananın təşkili üçün çox böyük əmək sərf etmişdir. O, yığıncaqlarda, camaat arasında qiraətxananın əhəmiyyəti, xalq maarifi işində rolu haqqında çıxış edir, geniş təbliğat işi aparırdı. Əhalini təhsilə, mütaliəyə, məktəblərin və mədəni-maarif müəssisələrinin təşkilinə kömək etməyə çağırırdı. Rəşid bəyin mütərəqqi fəaliyyəti cahil mollalar tərəfindən hiddətlə qarşılanırdı. Onlar Rəşid bəyi kafir adlandırırdılar. Rəşid bəy qiraətxananın əhəmiyyəti haqqında Şəkidə olan «Cümə» məscidinin həyətində çıxış edərkən əfəndilər onun üstünə hücum etmişdilər.

Mövcud çətinliklərə baxmayaraq, Rəşid bəy Əfəndizadə qiraətxananın açılmasına icazə almağa müvəffəq oldu. Şəki ziyalıları və şəhərin maarifpərvər adamları qiraətxananı açmaq üçün ianə toplamağa başladılar. Ağaməhəmmədkərim Məmmədağa oğlu qiraətxanaya maddi cəhətdən böyük köməklik etdi. Xeyli vəsait toplanmışdı. Toplanmış vəsait hesabına qiraətxanaya kitab, qəzet, jurnal, avadanlıq alındı. Ayrı-ayrı maarifpərvər insanlar da qiraətxanaya xeyli kitab bağışladılar. Beləliklə, qiraətxana Şəki camaatının sevdiyi və çox istifadə etdiyi bir müəssisəyə çevrildi. Qiraətxana əvvəllər şəhərin kənarında yerləşirdi, 1906-cı ilin may ayında əhalinin tələbi ilə isə şəhərin mərkəzinə köçürüldü. Qiraətxanadan istifadə etmək pulsuz idi. Ancaq qiraətxananın girəcəyində ianə qutusu asılmışdı. Oxucular bacardığı qədər qiraətxanaya köməklik göstərirdilər. Qiraətxanada əsasən Azərbaycan, rus, ərəb, fars dillərində kitablar toplanmışdı. Qiraətxana Rusiyada çıxan müsəlman qəzetlərini, həmçinin rus dilində buraxılan qəzet və jurnalları alırdı. Buraya xarici ölkələrdən də qəzet və jurnallar gəlirdi. Məsələn, İstanbuldan «İqdam» və «Sərvəti fiqunə», Misirdən «Türk», Hindistandan «Həbulmətin», İrandan «Əl-hədid» və s.[92] Bu qira-

ətxananın qiymətli kitab fonduna malik olması onun oxucular üçün əlverişli şərait yaratmışdı. Qiraətxananın ətrafında toplaşmış ziyalılar maarifin və mədəniyyətin yayılmasında yaxından iştirak edir, əhalinin gözünü açmağa, cəmiyyətdə hökm sürən ədalətsizlikləri izah etməyə çalışır, Rusiyanın mərkəzlərində və Bakıda baş verən inqilabi hadisələr və onların səbəbləri haqqında obyektiv məlumat verirdilər.

Şəki ziyalıları və xalq müəllimləri şəhərdə ancaq bir qiraətxananın olmasını kifayət hesab etmirdilər. Əhalini savadlandırmaq, maarifləndirmək üçün daha geniş ədəbiyyat fonduna malik olan kitabxanalar açılmasını lazım bilirdilər. 1909-cu ildə Şəkidə daha geniş ədəbiyyat fonduna malik olan başqa bir kitabxana da təşkil edildi.[93] Kitabxana Şəkidəki birinci rus-müsəlman (azərbaycanlı) məktəbinin müəllimi Həsən Tahirzadə tərəfindən açılmışdı. Kitabxanada rus və Azərbaycan dillərində məktəbdə keçirilən fənlərə dair dərsliklər, dərs vəsaitləri, elmi və bədii əsərlər var idi. Kitabxana Rusiyanın bir çox kitabxanaları ilə əlaqə saxlayır, müxtəlif elm sahələrinə dair kitablar alırdı. Azərbaycanlı oxucular üçün Bakıdan və başqa şəhərlərdən kitablar gətirilirdi. Məktəbin müəllimləri kitab fondunu yeni ədəbiyyatla təmin etmək, oxucuların sorğusunu ödəmək məqsədi ilə öz şəxsi kitabxanalarından kitablar bağışlayırdılar. Kitabxana həm də «Molla Nəsrəddin» jurnalının və «Tərəqqi» qəzetlərinin redaksiyası ilə əlaqə saxlayırdı. Kitabxananın Rusiyanın və Bakının bir çox kitabxanaları ilə əlaqə saxlaması kitab fondunun zənginləşməsi ilə yanaşı, fondun mütərəqqi ideyalı kitablar, qəzetlər və jurnallarla təkmilləşməsinə, kitabxananın ətrafında geniş oxucu kütləsinin toplaşmasına səbəb olmuşdu. «Molla Nəsrəddin» kimi qabaqcıl fikirli jurnalın fonda malik olması, kitabxananın jurnalın redaksiyası ilə əlaqə saxlaması bir daha göstərir ki, kitabxana o dövrdə Şəkidə mütərəqqi ideyaları yayan mədəni mərkəzlərdən biri olmuşdur.

XX əsrin əvvəllərində ölkənin həyatında baş vermiş

mədəni dirçəliş Şəki-Zaqatala zonasının digər böyük şəhərlərində də hiss edilməyə başlanmışdı. Qaxda, Zaqatalada və digər böyük yaşayış məntəqələrində qiraətxanalar açılmışdı. Yerli ziyalılar, xüsusi ilə müəllimlər məktəblərlə yanaşı olaraq kitabxana-qiraətxanalar açmağın zəruriliyini geniş təbliğ edir, əhalini mədəni-maarif müəssisələrinin yaradılmasına kömək etməyə çağırırdılar. «İrşad» qəzeti 1906-cı ilin sentyabr ayında Zaqatalada bir müsəlman qiraətxanasının açılması haqqında xəbər dərc etmişdir. O dövrdə Zaqatala ziyalıları, xalqın maariflənməsi işində məktəblər, qiraətxanalar, kitabxanalar açılmasına xüsusi fikir verirdilər. Onlar qiraətxana açmaq məqsədi ilə bir neçə dəfə çar hökumətinə müraciət etsələr də icazə ala bilməmişdilər. Ancaq bu iş 1905-1907-ci illər inqilabının təsiri altında mümkün oldu. Bu barədə «İrşad» qəzeti yazırdı: «Zaqatala okruqunun idareyi mərkəzi olan Zaqatala şəhəri bina olandan sonra o şəhərdə müsəlman camaatı zamana tağarasına müvafiq bir məktəb, mədrəsə və bir qiraətxana təsis etməyə nə qədər səyi təlaş eyləyirdilərsə də ancaq onların səyi təlaşı həsrət qalasında əsir olub məqsədlərinə nail olmuşdular... Oktyabrın 17-də sadir olmuş, manifest (17 oktyabr 1905-ci il çar manifesti nəzərdə tutulur-Red.) o camaatın səy və tədbirlərinin əsirlikdən azad edib o tədbirləri qüvvədən felə gətirməyə meydan açdı».[94]

Qiraətxana Zaqatala şəhərinin mütərəqqi ideyalı maarifpərvər ziyalılarının və müəllimlərin təşəbbüsü ilə təşkil edilmişdir. 1906-cı ilin sentyabrında qiraətxananın təntənəli açılışında Fərhad bəy Qucarlinski xalqı cəhalətdən, avamlıqdan xilas etməkdə məktəblərin, kitabxanaların, qiraətxanaların rolundan danışmış və bütün toplantı iştirakçılarını ilk mədəniyyət ocağı olan bu qiraətxanaya kömək etməyə çağırmışdır.

Qiraətxanada Azərbaycan, rus və s. dillərdə xeyli kitab toplanmışdı. Həmçinin o dövrdə rus və Azərbaycan dillərində nəşr edilən qəzet və jurnallar da qiraətxana üçün əldə

edilmiş, zəngin kitab, qəzet və jurnal fondu yaradılmışdı. Qiraətxananın ətrafında böyük oxucu qrupu yaranmışdı. Kitabxana oxuculara yeni informasiyanın verilməsində yaxından köməklik göstərir, kitaba, qəzetə, jurnala olan tələbatı ödəyirdi. Uzun illər Zaqatala camaatına xidmət edən bu kitabxana-qiraətxana əhalinin təhsil və tərbiyəsində, mədəni səviyyəsinin yüksəlməsində, informasiya tələbatının ödənilməsində yeganə müəssisə kimi xidmət etmişdir. Zaqatala kitabxanası ilə yanaşı olaraq Qax rayonunda da 1906-cı ildə bir qiraətxana təşkil edilmişdi. Qax camaatının hörmətini qazanan bu qiraətxana 1918-ci ilə qədər fəaliyyət göstərmişdir.

§ 1.5.18. Salyan kitabxanası

XX əsrin əvvəllərində Bakı və Azərbaycanın digər böyük şəhərlərinə nisbətən kiçik əyalət şəhəri olan Salyanda kitabxana açmaq olduqca çətin idi. Bu çətinliyə baxmayaraq Salyanın görkəmli xalq müəllimləri Mirzə Yaqub Əlizadə və Mirzə Əziz Babazadə başda olmaqla Salyan ziyalıları bir kitabxana-qiraətxana açmaq fikrinə düşürlər. Onlar öz məqsədlərinə çatmaq və kitabxana açmaq işinə tərəfdarlar toplamaq üçün əhali arasında geniş təbliğat işinə başlayırlar. Onların apardığı təbliğat nəticəsiz qalmamışdı. Salyan camaatı arasında bu işin xeyli tərəfdarları meydana çıxdı. Lazımi hazırlıq işləri gördükdən, münasib bina tapdıqdan sonra ziyalılar kitabxana açmağa icazə almaq üçün hökumətə müraciət etdilər. Uzun sürən yazışmalardan sonra kitabxananın açılmasına icazə verildi. Kitabxana 1903-cü ildə keçmiş «Muğan» mehmanxanasının yanında köhnə dükanlardan birində açıldı. İanə yolu ilə toplanan vəsaitdən kitab, qəzet və jurnallar alınıb kitabxanada yerləşdirilmişdi. Yerli əhali də kitabxanaya xeyli kitab bağışlamışdılar ki, bu da kitab fondunu xeyli zənginləşdirmişdi. 1905-1907-ci illər inqilabı kitabxananın işinə də müsbət təsir göstərmiş, inqilabi əhval-ruhiyyəli gənclər kitabxananın işində yaxından iştirak

etməyə, onu çoxlu sayda mütərəqqi ruhlu kitablarla, qəzet və jurnallarla təkmilləşdirməyə başlamışdılar.

Kitabxananın işində baş verən canlanma, oxucuların sayının artması, təbliğat-təşviqat və kütləvi işlərin çoxalması çar polis idarəsinin diqqətini cəlb etmişdi. Kitabxananın fəaliyyətinə nəzarət artırılmış, tez-tez yoxlamalar başlamışdı. Polis bəzi hallarda mütərəqqi kitabları kitabxanadan çıxarır, onun işində yaxından iştirak edən fəalları «şübhəli» adamlar siyahısına salırdı.

O dövrdə kitabxananın mütərəqqi fəaliyyəti mətbuat orqanlarının da diqqətini cəlb etmişdi. 1906-cı il aprelin 27-də «Həyat» qəzetinin 91-ci nömrəsində Seyid ağa Ağalarov adlı bir jurnalist bu kitabxana haqqında yazırdı: «Salyanın maarifpərvər cavanlarının hümmətləri ilə bir kitabxana-qiraətxana açılıbdır və o gündən müntəzəm hala düşüb millətimizə maarif cəbhəsində böyük xidmət etməkdədir».[95]

Kitabxananın fondunu genişləndirmək üçün ziyalılar yeni iş üsullarından, o cümlədən «Kitab toplamaq həftəsi» üsulundan istifadə etməklə xeyli qiymətli elmi və bədii ədəbiyyat toplamağa müvəffəq olmuşdular. Onlar Bakıda fəaliyyət göstərən «Nicat» cəmiyyətinə müraciət edərək çoxlu sayda ədəbiyyat almışdılar. Kitabxananın fondu zənginləşdikcə onun oxucularının sayı da artmış, kitabxana Salyan camaatının ən çox sevdiyi bir müəssisəyə çevrilmiş, əhali arasında nüfuzu artmışdı.

Sözün əsl mənasında böyük çətinliklərə baxmayaraq Salyan kitabxanası qabaqcıl ziyalıların fədakarlığı sayəsində uzun illər yaşamış, xalqın maariflənməsində, mədəni səviyyəsinin və milli şüurunun yüksəlməsində yaxından iştirak etmiş əhalinin ən çox sevdiyi, bir müəssisə imicini qazanmışdır.

Böyük çətinliklə də olsa bu kitabxana 1920-ci ilə qədər – 17 il fəaliyyət göstərmişdir. 1920-ci ildə kitabxananın fondunda 521 nüsxə ədəbiyyat var idi. Kitabxana 158 nəfər oxucuya xidmət edirdi.[96]

§ 1.5.19. Şuşa qiraətxanası

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın qədim mədəni mərkəzlərindən biri olan Şuşa şəhərində də mədəniyyət və xalq maarifinin inkişafı sahəsində mühüm işlər görülmüşdü. Şuşada yeni məktəblər açılmış, təhsil inkişaf etdirilmiş, mədəni-maarif müəssisələri təşkil edilmiş, qəzetlər nəşrə başlamış, kitab çap edən mətbəələr yaradılmışdı.

Azərbaycanın yaradıcı ziyalılarının yetişdiyi Şuşa şəhərində elə bir mədəni mühit formalaşmışdı ki, məhz bu mühitdə təhsil və tərbiyə alan bir çox görkəmli ziyalılar xalqın fəxrinə çevrilmişdilər.

Belə bir şəraitdə Şuşada yaşayıb-yaradan Azərbaycan mədəniyyətinin görkəmli xadimlərindən biri Mirmöhsün Ağamirzadə Nəvvab Qarabağı elm, ədəbiyyat, incəsənət və başqa sahələrlə yanaşı, kitab nəşri və kitabxana-qiraətxanaların təşkili sahəsində də mühüm xidmətlər göstərmişdir. Nəvvab XX əsrin əvvəllərində ilk dəfə Şuşa şəhərində litoqrafiya (çapxana) açmış, kitab çapına başlamışdır. O, bu nəşriyyatda öz kitabları ilə yanaşı olaraq Azərbaycan müəlliflərinin əsərlərini də nəşr edib yayırdı. Kitabı sevən, onun böyük mədəni və tərbiyəvi əhəmiyyətini yüksək qiymətləndirən M.Nəvvab təkcə kitab çap etməklə kifayətlənmədi, onu yaymaq üçün 1903-cü ildə Şüşada ilk Azərbaycan kitabxanasını da təşkil etdi.[97]

Kitabxana Şuşanın mərkəzindəki məscidin yaxınlığında iki geniş otaqdan ibarət binada yerləşdirilmişdi. O, kitabxanaya müdirlik etməyi oğlu Miribrahimə (Miriş ağaya) tapşırmışdı. Yaxşı təhsil görmüş, kitaba, kitabxanaya böyük hörmətlə yanaşan Miribrahim tezliklə Şuşa ziyalılarının köməyi ilə müxtəlif dillərdə və müxtəlif elm sahələrini əhatə edən bir kitabxana yaratmağa müvəffəq oldu. Şuşa ziyalıları yeni açılmış kitabxanaya kitablar bağışlamaqla onun fondunu daha da zənginləşdirdilər. Kitabxana öz fondunu zənginləşdirmək üçün ölkədə nəşr edilən qəzet və jurnallara abunə yazılmış, Bakıdan, Tiflisdən, Moskvadan, Hindistan-

dan, Türkiyədən, İrandan və s. şəhərlərdən qəzet və jurnallar almağa müvəffəq olmuşdu.

Görkəmli ziyalılardan Mirzə Cəlal Yusifzadə, Haşım bəy Vəzirov, Fərhad Ağazadə və başqaları bu kitabxananın oxucuları idilər. Kitabxananın fondu öz zənginliyi ilə o dövrün kitabxana-qiraətxanalarından fərqlənirdi. Burada fəlsəfəyə, incəsənətə, tarixə, coğrafiyaya, riyaziyyata və bədii ədəbiyyata və s. elm sahələrinə dair oxucuların diqqətini cəlb edən çox qiymətli kitablar və əlyazmalar saxlanılırdı.

Azərbaycan mədəniyyətinin görkəmli xadimlərindən biri olan M.Nəvvabın yaratdığı kitabxana-qiraətxana Şuşanın mədəniyyət tarixində çox mühüm rol oynamış, Azərbaycan kitabının toplanıb saxlanılmasında və təbliğində geniş fəaliyyət göstərmişdir.

XX əsrin əvvəllərində Şuşa ilə yanaşı olaraq Qarabağın digər böyük yaşayış məntəqələrində də kitabxana-qiraətxanalar açılmışdı.

«Yeni həyat» qəzeti 1907-ci il 30 oktyabr tarixli nömrəsində xəbər verirdi ki, 1907-ci il oktyabr ayının 19-da Ağdam şəhərində geniş bir qiraətxana açılmışdır.[98] Qəzet ağdamlıları təbrik edir və qiraətxananın təşkilində yaxından iştirak edən ziyalıları bu xeyirxah işinə görə alqışlayırdı.

Ağdam ziyalıları qiraətxananın açılışına icazə almağa müvəffəq olsalar da ilk dörd ay hazırlıq işləri apardıqdan sonra 1907-ci ilin oktyabrın 19-da onun təntənəli açılışını təşkil etmişdilər. Qiraətxananın təntənəli açılışına hazırlıq müddətində ianə yolu ilə 700 manat pul toplamış, qiraətxana üçün bina tapmış, kitab, qəzet, jurnal almış, yeni qəzetlərə abunə yazılmış, binanı avadanlıqla təmin etmişdilər. Bu işdə şəhərin maarifpərvər ziyalıları, müəllimləri, mötəbər şəxsləri yaxından iştirak etmişdilər.

Qəzet yazır ki, qiraətxananın açılışı böyük bayram təntənəsini xatırladırdı. Çoxlu insanlar toplaşmışdı. Hamı bu işin xeyirli iş olmasından, təhsilin, maarifin, mədəniyyətin inkişafında, xalqın gözünün açılmasındakı rolundan danı-

şırdılar. Qiraətxana avadanlıq cəhətdən yoxsul olsa da burada həmişə oxucu olurdu. Qiraətxanada rus və Azərbaycan dillərində bir çox qəzet və jurnallar, həmçinin az da olsa kitab var idi. Oxucular qəzet və jurnalları qiraətxanada oxuyur, kitabları alıb evə aparırdılar. Qiraətxana oxumaq üçün evə kitab verməklə həm də kitabxana kimi fəaliyyət göstərirdi.

Əbdürrəhim bəy Haqverdiyev kimi görkəmli şəxsiyyətin qiraətxananın işində iştirakı onun məqsədyönlü fəaliyyətinin məzmununu daha da zənginləşdirmiş, əhalinin maarifləndirməsində və mədəni inkişafında mühüm müəssisəyə çevrilməsinə səbəb olmuşdu. Böyük ədibin təvsiyəsi ilə qiraətxananın ətrafında böyük fəallar toplusu formalaşmışdı.

Qiraətxanaya vəsait çatışmazlığından ştatlı işçi vermək mümkün olmadığından, bu işi qabaqcıl ziyalılardan biri öz öhdəsinə götürüb həyata keçirirdi. O, kitabxana fondunu qaydaya salır, yeni alınan və hədiyyə edilən kitabların qeydini aparır, oxucuları kitab, qəzet və jurnallarla təmin edirdi. Qiraətxananın fəal oxucularının köməyi ilə kütləvi tədbirlər həyata keçirilirdi. Qiraətxana cümə və bayram günlərindən başqa hər gün səhər saat 9-dan 12-yə qədər və gündüz saat 3-dən axşam saat 8-dək açıq olurdu.

Hər cür maddi çətinliyə, polis nəzarətinə baxmayaraq, qiraətxana şəhərin mədəni həyatına daxil olmuş, əhalinin milli ruhda tərbiyə edilməsi, milli mədəniyyətin yayılması, maarifin inkişafı işində mühüm tədbirlər həyata keçirməyə müvəffəq olmuşdu.

Qiraətxananın bağlanması haqqında dəqiq məlumat verilməsə də, 1916-1917-ci illərdə bağlanması təxmin olunur.

§ 1.5.20. Azərbaycanda 1910-1918-ci illərdə fəaliyyət göstərən digər qiraətxana və kitabxanalar

XX əsrin əvvəllərində Azərbaycan digər şəhər və qəsəbələrində də kitabxana-qiraətxanalar açılmışdı. Naxçıvanda, Göyçayda, Ağdaşda, Qazaxda, Qubada, Bərdədə, Ağca-

bədidə və s. böyük yaşayış məntəqələrində yeni məktəblərlə yanaşı olaraq kiçik kitabxana-qiraətxanalar da təşkil edilmişdi.

1917-ci il oktyabr çevrilişi ərəfəsində Azərbaycanda inqilabi mübarizə geniş vüsət almışdı. Bakıda, digər böyük şəhərlərdə və yaşayış məntəqələrində öz fəaliyyətini genişləndirən RSDFR bütün ölkədə çar hökumətinə qarşı açıq mübarizəyə başlamışdı. Bolşeviklər öz mübarizələrində mədəni-maarif müəssisələrindən geniş istifadə edirdilər. Əgər onlar 1905-1907-ci illər inqilabı ərəfəsində və inqilab illərində mövcud mədəni-maarif müəssisələrindən təbliğat üçün gizli yolla istifadə edirdilərsə, inqilabi yüksəliş illərində artıq özləri mədəni-maarif müəssisələri təşkil edirdilər. Bolşeviklər müxtəlif qeyri-hökumət və leqal fəhlə təşkilatlarının mədəni-maarif müəssisələrindən – klublardan, kitabxanalardan, xalq evlərindən geniş surətdə istifadə etməklə dövlətdən yeni mədəniyyət ocaqlarının yaradılmasını, bu işə vəsait ayrılmasını tələb edirdilər.

Bakı bolşevikləri 1915-ci ildən şəhərdə geniş şəbəkəsi yaranan kooperativ təşkilatlarından istifadə etməyə başlamışdılar. Kooperativ təşkilatları 1916-cı ildən başlayaraq şəhərdə bir sıra kitabxana-qiraətxanalar təşkil etmiş, əhali arasında mədəni-maarif işi aparmağa başlamışdı. Kooperativ təşkilatlarının idarə heyətinə daxil olan bolşeviklər kooperativlərin idarə heyətlərinin binalarından çox zaman gizli ədəbiyyatı yaymaq üçün istifadə edirdilər.

1915-1916-cı illərdə Bakı şəhərində xalq evlərinin təşkilinə başlanmışdı. 1916-cı il ərzində xalq evləri təsis etmək üçün bir sıra fəhlə yığıncaqları keçirildi. Həmin yığıncaqlardan öz mənafelərinə uyğun bacarıqla istifadə edən bolşeviklər xalq evlərinin əhəmiyyət və vəzifələrini izah etməklə böyük təbliğat işi aparırdılar. Bakıda yeni təşkil edilmiş xalq evində 1916-cı il dekabrın 4-də birinci yığıncaq keçirildi. Yığıncaqda xalq evinin İdarə Heyəti seçildi. İdarə Heyətinə bolşeviklərdən N.Nərimanov, A.M.Stopani, R.M.Okinşeviç

və B.Basin daxil oldular. Xalq evinin yanında zəngin bir kitabxana təşkil edilmişdi. Bolşeviklər bu kitabxananın idarə edilməsini öz əllərinə almaqla, onun yeni ədəbiyyatla təkmilləşməsinin qayğısına qalır, oxuculara kitab təbliğ etməyə, onların tələbatını ödəməyə çalışırdılar.

1917-ci il Fevral burjua demokratik inqilabından sonra açıq fəaliyyətə başlayan RSDFR Bakı Komitəsi əhali arasında təbliğat-təşviqat işində mövcud mədəni-maarif müəssisələrindən istifadə etməklə yanaşı, partiya komitələri yanında mədəni-maarif müəssisələri – fəhlə klubları, xalq evləri, kitabxana və qiraətxanalar yaratmağa başladı. Partiya komitələri tərəfindən yaradılan bu kitabxanalar partiya kitabxanalarının ilk rüşeymləri idi. Sonralar bu kitabxanalar müstəqil partiya kitabxanası şəbəkələrinə çevrildi. 1917-ci ildə RSDFR Bakı Komitəsi yanında mərkəzi qiraətxana və rayon komitələrinin yanında kiçik qiraətxanalar təşkil edilmişdi. Bu kitabxanalarda partiya xadimlərinin əsərləri, rus klassik ədəbiyyatı, az miqdarda isə Azərbaycana aid ədəbiyyat toplanmışdı.

«Бакинский рабочий» qəzetində 1917-ci ilin iyun ayında dərc edilmiş «RSDFR Ramana rayon Komitəsinin həyatından» adlı məqalədə göstərilirdi ki, Ramana rayonunda təşkilat işi yaxşı qurulmuşdur. İclaslarda günün ən zəruri məsələlərinə dair məruzələr müzakirə edilir, xüsusi söhbətlər aparılır. Partiya bürosunun yanında kitabxana təşkil edilmişdir. Buradan görkəmli siyasi xadimlərə oxumaq üçün kitablar verilir və həftədə bir dəfə çərşənbə günü oxunmuş kitablar haqqında məruzə edilirdi.[99]

Partiya kitabxanaları 1917-ci ildə Balaxanıda, Sabunçuda, Bayılda Bakının digər rayonlarında da təşkil edilmişdi. Partiya komitələri bu kitabxanaları təbliğat-təşviqat işində özlərinin dayaq bazaları hesab etdiklərindən onların bina, avadanlıq və kitabla təmin edilməsi işini öz öhdələrinə götürmüşdü. Bir çox hallarda partiya komitələrinin büroları və yığıncaqları bu kitabxanalarda keçirilirdi.

Kitabxana-qiraətxanalardan başqa partiya komitələrinin yanında fəhlə klubları da təşkil edilirdi. Klublarda kütləvi işlərlə yanaşı kitabxana-qiraətxana işi də aparılırdı. Bütün klubların yanında qiraətxanalar təşkil edilir, ədəbiyyat təbliğ edilirdi. «Bakinskiy raboçiy» qəzeti 1917-ci ildə RSDFR Balaxanı podrayon komitəsinin yanında təşkil edilən fəhlə klubu haqqında yazırdı: «4 iyul bazar günü RSDFR Balaxanı podrayonu fəhlə klubunun açılışı oldu. Bu, mədən rayonunda birinci partiya klubudur. Klub təşkil edilərkən çox az üzvü var idi və demək olar ki, vəsaiti yox idi. Bir neçə həftə müddətində fəhlələr klub üçün 400 manat pul toplamışlar. Gündə kluba yüzlərlə fəhlə gəlir. Klubda kitab, jurnal və qəzetlər toplanmışdır».[100]

1917-ci ildən başlayaraq ölkədə yaranmış yeni şərait həmkarlar və kooperativ təşkilatlarının öz işini genişləndirməsinə imkan yaratmışdı. Bu qeyri-dövlət təşkilatları öz işçilərinə mədəni xidmət göstərmək üçün mədəni-maarif müəssisələri təşkil etməyə səy göstərirdilər. 1917-ci ilin noyabrında toplanmış Qafqaz həmkarlar təşkilatının birinci konfransı fəhlələrin mədəni ehtiyaclarını ödəmək üçün fəhlə klubları, qiraətxanalar, kitabxanalar açmağı məsləhət görmüşdü.[101] 1917-ci ildə Bakı həmkarlar ittifaqı həmkarlar ittifaqının mədəni-maarif fəaliyyətini genişləndirmək məqsədilə Mərkəzi mədəni-maarif Komissiyası təşkil etdi.[102] Bu komissiya birinci növbədə həmkarlar ittifaqının təbliğat və təşviqat işinin genişləndirilməsini, fəhlə klublarının mərkəzi həmkarlar ittifaqı kitabxanasının təşkil edilməsini və ayrı-ayrı müəssisələrdə kitabxana komissiyalarının yaradılmasını lazım bilmişdi. Həm də komissiya müəssisələrdə kitabxana xidməti məsələsinin yaxşılaşdırılmasını tələb etmişdi.

1917-ci ildə Bakıda fəaliyyət göstərən həmkarlar ittifaqı kitabxanalarından biri litoqrafiya və cildçi fəhlələr ittifaqının kitabxanası idi. Burada 11 nəfərdən ibarət kitabxana komissiyası seçilmişdi. Kitabxanadan oxuculara 5 ay müddətində 1215 kitab verilmişdi. Buradan fəhlələrlə yanaşı, tələbələr də istifadə edirdilər.[103]

Bu dövrdə «Kooperativ» təşkilatları da öz üzvləri üçün bir sıra mədəni-maarif müəssisələri təşkil etmişdilər. Belə kitabxanalardan biri 1918-ci ildə «Kooperativ cəmiyyəti yanında Xəzər sahili istehlak cəmiyyəti»nin təşkil etdiyi kitabxana-qiraətxana idi. Bu kitabxana-qiraətxananın məqsədi istehlak cəmiyyəti üzvlərinə pulsuz xidmət etmək olmuşdur. Cəmiyyət kitabxananı yeni ədəbiyyatla təkmilləşdirmək üçün lazımi vəsait ayırmış, kitabxananın yanında uşaq şöbəsinin açılmasını məsləhət bilmişdi. Kitabxanada predmet kataloqunun, tövsiyə siyahılarının, şəxsi təhsil proqramlarının tərtibinə başlanılmışdı. Kitabxana oxucular üçün gündə altı saat açıq olurdu. 1918-ci ildə «Kooperasiya» cəmiyyətinin orqanı olan «Вестник прикаспийской кооперации» kitabxana işinin əhəmiyyəti və vəzifələri, yeni kitabxanalar açılması, kiçik cəmiyyətlərin kitabxanalarının birləşdirilməsi və s. haqqında məqalələr dərc edilmişdi. Bu məqalələrdə kitabxanaların əhəmiyyət və vəzifələri göstərilmiş, onlara cəmiyyətdə böyük tələbat əmələ gəldiyi qeyd edilmişdi.[104]

XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və mədəniyyətin inkişafında mühüm nailiyyətlər əldə edilmiş, böyük çətinliklə də olsa yeni məktəblər açılmış, xalqın savad səviyyəsi yüksəlmiş, mədəni-maarif müəssisələrinin – qiraətxanaların, kitabxanaların, klubların təşkili kütləvi hal almışdı. Məhz bu dövrdə Azərbaycan milli burjuaziyası meydana gəlib formalaşmış, ölkənin iqtisadi, siyasi və mədəni həyatına müsbət təsir göstərməyə başlamışdı. Məhz həmin dövrdə xalqımızın əldə etdiyi ən böyük nailiyyət, qazandığı ən zəngin sərvət yüksək intellektə, milli mentalitetə, milli ruha malik, qabaqcıl, vətənpərvər Azərbaycan ziyalısının yetişməsi olmuşdur. Bu yüksək səviyyəli insanlar Azərbaycan xalqının milli mənafeyinə xidmət edən mühitin yaranmasına səbəb olmuşdular. İşıqlı insanların yaratdığı bu sağlam abhava xalqın milli şüurunun formalaşmasına səbəb olmuş,

rüşeym halında olan, yeni formalaşan türkçülük, Azərbaycançılıq ideyalarının inkişafına təkan vermişdir. Azərbaycanda yeni milli mətbuat yaranıb formalaşmış, ədəbiyyat, incəsənət və elmin inkişafı sahəsində mühüm tərəqqi əldə edilmişdir. Azərbaycan çap kitabı mühüm inkişaf yolu keçmiş, milli kitabımız xalqın mənəvi sərvəti kimi maarif və mədəniyyətin inkişafının əsas məhək daşına çevrilmişdir.

Ölkədə kitab nəşrinin genişlənməsi, milli kitab repertuarının zənginləşməsi mədəni-maarif müəssisələri – qiraətxanalar və kitabxanalar açmaq üçün zəmin hazırlamışdı.

Məhz bu dövrdə 1905-1907-ci illər inqilabının təsiri, Azərbaycan ziyalılarının səyi nəticəsində Bakıda və Azərbaycanın qəza şəhərlərində mədəni-maarif müəssisələri yaratmaq hərəkatı başlamışdı. Respublikanın bütün yaradıcı ziyalıları, müəllimlər, həkimlər, mühəndislər, milli Azərbaycan burjuaziyasının nümayəndələri bu hərəkatın aparıcı qüvvəsi idi. Əgər biz bu dövrü XIX əsrin ikinci yarısı ilə müqayisə etsək, nə qədər böyük irəliləyiş baş verdiyi göz önünə gələr. XIX əsrin ikinci yarısında yaranan kitabxana və qiraətxanaları barmaqla saymaq mümkün idisə, XX əsrin əvvəllərində onlarla kitabxana və qiraətxananın yaranması aşkarlanır.

Kitabxana və qiraətxanaların açılmasında dövlət təşkilatları ilə yanaşı olaraq geniş ictimaiyyətin, məktəb və mədrəsələrin, qeyri-dövlət təşkilatlarının, xeyriyyə cəmiyyətlərinin, ayrı-ayrı ictimai təşkilatların, partiyaların, görkəmli şəxsiyyətlərin iştirakı onun kütləviliyinə gətirib çıxarmışdı.

XX əsrin əvvəllərində kitabxana işi sahəsində əldə edilmiş bu müvəffəqiyyətlərə baxmayaraq, yaradılmış kitabxanalar əhalinin ancaq kiçik bir hissəsinin tələbatını ödəməyə qadir idi. Hələ də bütün əhaliyə xidmət edəcək, onların tələbatını ödəyəcək ümumi açıq xalq kitabxanaları yox idi. Belə kitabxanalar ancaq dövlət tərəfindən təşkil edilə bilərdi. Dövlət isə milli ucqarlarda xalqa xidmət edəcək heç bir müəssisə açmaq fikrində deyildi. Azərbaycanda XX əsrin

əvvəllərindəki kitabxana tariximiz hərtərəfli tədqiqat obyekti olmadığından bu dövr tarixinin tam mənzərəsini yaratmaq olduqca çətindir. Bunun əsas səbəblərindən biri budur ki, o dövrdə yaranmış, böyük çətinliklərlə üzləşmiş kitabxana və qiraətxanaların fəaliyyəti haqqında heç bir sənədləşdirmə aparılmamış, hesabatlar tərtib edilməmişdir, arxiv materialları yoxdur. Ona görə də müəllif əsasən dövri mətbuatda verilən epizodik məlumatlardan, ziyalılarımızın xatirələrindən istifadə etmiş, onları ümumiləşdirmişdir.

XX əsrin əvvəllərində kitabxana tariximiz özündən əvvəlki dövrlərə nisbətən çox məhsuldar dövr olmuşdur. Müəllif böyük çətinliklə də olsa bu dövrün mənzərəsini yaratmağa çalışmışdır. Sovet dövrü mənbələrində də bu dövrün statistikası tamamilə təhrif edilmiş, saxtalaşdırılmışdır.

Sovetoloqların əsas məqsədi milli xalqların inqilabdan əvvəlki mədəni nailiyyətlərini kiçiltmək, bütün müvəffəqiyyətlərin sovet dövründə baş verdiyini sübut etmək idi.

Bütün rəsmi sənədlərdə, sovet rəhbərlərinin rəsmi məruzələrində inqilabaqədərki Azərbaycan başdan-başa savadsızlar ölkəsi, feodal münasibətlərin, cəhalətin hökm sürdüyü bir ölkə kimi təsvir edilirdi.

Çar Rusiyası dövründə tərtib edilmiş məlumat kitablarında da rus şovinizminin əlamətləri özünü göstərirdi. Belə ki, milli dillərdə işləyən məktəblər, mədəni-maarif müəssisələri rəsmi statistikada bəzi hallarda nəzərə alınmırdı. Məsələn, 1911-ci ildə D.V.Valdenberq tərəfindən Peterburqda "Справочная книга о печати всей России. Часть Ы-ЫЫ С.Петербург. 1911" adlı bir məlumat kitabı nəşr edilmişdir. Bu məlumat kitabında göstərilir ki, Azərbaycanda cəmi 21 kitabxana və qiraətxana olmuşdur. Halbuki bu dövrdə Azərbaycanda yüzlərlə məktəb kitabxanası, onlarla xalq kitabxana-qiraətxanası fəaliyyət göstərirdi. Belə nəticə çıxarmaq olar ki, 1911-ci ildə çap edilmiş məlumat kitabının müəllifinin bu kitabxanalardan xəbəri yoxdur, yaxud məlumat vermək fikri olmamışdır. O dövrün nə statistik məlumat

külliyyatlarında, nə də digər məlumat kitablarında məktəb kitabxanaları haqqında məlumat yoxdur.

Halbuki rəsmi statistikaya görə, 1920-ci ildə Azərbaycanda 965 məktəb fəaliyyət göstərmişdir ki, onların da 212-i şəhərlərdə, 753-ü kəndlərdə idi. Bu məktəblərdən 28-i orta məktəb olmuşdur. Məktəb tarixinə həsr edilmiş əsərlərdən və məktəblərin arxivlərdə saxlanılan hesablarından, həmçinin o dövrdə fəaliyyət göstərən məktəblərin əsasnamələrindən məlum olur ki, o dövrdə məktəblərin əksəriyyətinin kitabxanası olmuşdur. Rəsmi statistikanın bu tarixi həqiqəti qeydə almaması təəssüf doğurur.

Sovet hakimiyyətinin ilk illərində elan edilən rəsmi statistikada göstərilirdi ki, 1913-cü ildə Azərbaycanda 18 min kitab fonduna malik olan 25 kitabxana olmuşdur. Bu dövrdə aparılmış tədqiqatlardan məlum olur ki, bu məlumat o dövr bolşevik təbliğatına əsaslanan düzgün olmayan məlumatdır. Mənim apardığım tədqiqatlardan məlum olmuşdur ki, bu dövrdə Azərbaycanda dövlət idarələrinin, qeyri-dövlət təşkilatlarının və xeyriyyə cəmiyyətlərinin təxminən 50-dən artıq kitabxanası olmuşdur. Hər kitabxanada orta hesabla 1000-1500 kitabın olmasını, böyük kitabxanalarda 10000-ə qədər kitabın saxlanılmasını nəzərə alsaq, kitabxanalarda 100000-ə qədər kitabın olduğu aşkara çıxır.

Beləliklə, 1919-cu ilin əvvəllərində Azərbaycanda 23 orta ixtisas və 637 ibtidai məktəb fəaliyyət göstərirdi ki, bunların da böyük əksəriyyətinin kitabxanası var idi. Həmçinin 50-dən artıq xalq kitabxana-qiraətxanası fəaliyyət göstərirdi.

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində Azərbaycanda dini müəssisələr, məscidlər, mədrəsələr və bəzi kiçik dini məktəblər də fəaliyyət göstərmişlər. Tarixi qaynaqlardan məlumdur ki, dini müəssisələrin, xüsusilə böyük məscidlərin və mədrəsələrin yanında da kitabxanalar olmuşdur. Belə kitabxanalarda dini ədəbiyyatla yanaşı, dünyəvi ədəbiyyat da saxlanılırdı. Rusiya statistikasında dini müəssisələr və onların kitabxanaları haqqında məlumat verildiyi halda, əyalətlərdə, xüsusilə müsəlman ölkələrində belə statistika aparılmırdı. Ona görə də biz XX əsrin əvvəllərində ölkəmizdə mövcud olan dini müəssisələr və onların fəaliyyəti haqqında dəqiq məlumat verməyə çətinlik çəkirik.

Beləliklə, dini müəssisələri nəzərə almasaq, 1919-cu ildə Azərbaycanda fəaliyyət göstərən 23 orta və 637 ibtidai məktəbin yarısının kitabxanası olmasını ehtimal etsək, 330 məktəb və 50 xalq kitabxanası, cəmi 400-ə yaxın kitabxana olmuşdur.

Göstərdiyim təxmini rəqəmlər müəllifin tədqiqatları nəticəsində aşkar edilib dövriyyəyə daxil edilmişdir.

1917-ci il fevralın 27-də Fevral burjua demokratik inqilabı qələbə çaldı və çarizm süqut etdi. Müvəqqəti Hökumət yarandı. Bakıda digər partiyalarla yanaşı, bolşevik, menşevik eser partiyaları da özlərinin leqal fəaliyyətlərini bərpa etdilər. Bakı şəhərində də hər iki qüvvəni təmsil edən orqanlar: Bakı ictimai təşkilatlar soveti Müvəqqəti Hökumətin nümayəndəliyi və Bakı Fəhlə və Hərbçi Deputatları Soveti solçu inqilabi qüvvələrin orqanı var idi. 1917-ci il Oktyabr çevrilişindən sonra Bakıda bolşeviklər daha da fəallaşdı və 1917-ci ilin noyabrında Bakıda Sovet hakimiyyətini elan etdilər. Beləliklə, 1917-ci ilin sonları – 1918-ci ilin əvvəlləri Bakı bolşevik-daşnak qrupunun isti yuvasına çevrildi. Bolşevik-daşnak hakimiyyəti Azərbaycan xalqının başına böyük bəlalar gətirdi. Ölkənin iqtisadiyyatı, dövlət quruculuğu, idarə üsulu tamamilə dağıldı, ölkədə hərc-mərcilik – anarxiya hökm sürməyə başladı.

Bolşevik-daşnak hökuməti tərəfindən həyata keçirilən qanlı hadisənin şahidi olan Azərbaycan ziyalıları, Azərbaycan milli partiya və təşkilatları ölkəni bu bəladan xilas etməyin yeganə yolunu Azərbaycan xalqının düşməninə çevrilmiş, millətçi bolşevik-daşnak hökuməti olan Bakı Xalq Komissarları Sovetinin məhvində və müstəqil Azərbaycan Cümhuriyyətinin yaranmasında gördülər və böyük çətinliklə də olsa, fədakar insanlar bu işin öhdəsindən müvəffəqiyyətlə gəldilər.

§ 1.5.21. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması

1918-ci ilin yarısında Zaqafqaziyada ictimai-siyasi vəziyyət olduqca gərginləşmiş, siyasi böhrana gətirib çıxarmışdı. Ölkəni idarə etməli olan Zaqafqaziya Seyminin və hökumətin daxilində ziddiyyətlər daha da güclənmişdi.

May ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi. Gürcüstanın federasiyadan çıxmaq haqqında bəyanatından sonra Zaqafqaziya Seymi buraxıldı. 1918-ci il mayın 27-də Seymin Azərbaycan fraksiyası özünün iclasını keçirdi və Milli Şuranın yaradılması haqqında qərar qəbul etdi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri, Həsən bəy Ağayev və Mirhidayət Seyidov müavinləri seçildilər. 1918-ci il mayın 28-də Milli Şura Azərbaycanın dövlət müstəqilliyini elan etdi, «İstiqlal Bəyannaməsi» qəbul edildi.

İstiqlal Bəyannaməsində deyilirdi:

1. «Azərbaycan tam hüquqlu müstəqil dövlətdir. Cənubi Qafqazın cənub və qərb hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.

2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.

4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.

5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.

6. Məclisi-Müəssisənin çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan müvəqqəti hökumət sayılır».[105]

Həmin gün Milli Şura F.Xoyskinin başçılığı ilə Müvəqqəti Hökumətin tərkibini təsdiq etdi. May ayının 30-da Müvəqqəti Hökumətin başçısı F.Xoyski müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında məlumatı radioteleqrafla xarici ölkələrin başçılarına çatdırdı.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında xəbər bütün Azərbaycan xalqı tərəfindən böyük sevinclə qarşılandı. Əsrlərdən bəri arzusunda olduğu müstəqilliyini qazanan xalq bu dövlətin ətrafında sıx birləşdi və onun müdafiəsinə qalxdı.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını xalqımızın istiqlal mübarizəsi tarixində çox mühüm hadisə hesab edən ümummilli liderimiz Heydər Əliyev yazır: «Həmin dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi».[106]

1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və hökuməti doğma vətənə – Gəncəyə köçürüldü. Azərbaycan hökuməti 1918-ci il iyun ayının 19-da ölkədə yaranmış gərginliyi nəzərə alaraq Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. Azərbaycan dövlətinin qarşısında ölkənin ərazi bütövlüyünü bərpa etmək və Bakını erməni-bolşevik xainlərdən azad etmək kimi çox mühüm vəzifə dururdu.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Azərbaycan xalqının qəddar düşməni olan erməni millətçilərinin başçılıq etdiyi Bakı XKS nəinki milli Azərbaycan hökumətini tanımadı, əksinə, ona qarşı müharibə elan etməyi qərara aldı. Bakı XKS iyunun 6-da Gəncə üzərinə hücumə başladı. Türk qoşunlarının bilavasitə köməyi ilə yaradılmış islam ordusunun döyüşçüləri iyunun 27-də Göyçay istiqamətində gedən ağır döyüşlərdə həlledici qələbə çaldılar. Bakı

Sovetinin məğlubiyyətə uğramış qoşunları sürətlə geri çəkilməyə başladılar. Bu mühüm qələbə Azərbaycan-Türk qoşunlarına iyulun 20-də Şamaxı şəhərinə hücum etməyə imkan verdi. Uzunmüddətli, ciddi hərbi hazırlıqdan sonra Azərbaycan-Türk hərbi qüvvələri sentyabrın 15-də həlledici hücumla Bakını erməni bolşevik xainlərindən azad etdilər. Azərbaycan əhalisi onları böyük xilaskar kimi, hörmətlə qarşıladılar. Döğma türk qardaşlarının Azərbaycan xalqının olduqca ağır, həlledici günündə köməyə gəlməsi, Bakını erməni daşnaqlarından xilas etməsi Azərbaycan dövlətçiliyinin müqəddəratını, onun müstəqilliyinin bərqərar olmasını təmin etdi. Türk qoşunlarının bu xilaskarlıq missiyası heç zaman qədirbilən xalqımızın qəlbindən silinməyəcək. Bakı azad edildikdən sonra 1918-ci il sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli hökuməti Gəncədən Bakıya köçdü. Bakının azad edilməsi Azərbaycanın həyatında böyük siyasi hadisə idi. Məhz Bakının azad edilməsi Azərbaycanın ərazi bütövlüyünü təmin etdi, müstəqil Azərbaycan hökumətinin gələcək inkişafı və bütün dünyada müstəqil bir dövlət kimi tanınmasına şərait yaratdı, həm də onun hərbi qüdrətini nümayiş etdirdi.

Azərbaycan hökuməti hələ Gəncədə ikən dövlət quruculuğu işinə başlamış, dövlət idarələrinin ixtisaslı kadrlarla təmin edilməsi üçün xüsusi tədbirlər planı hazırlamışdı. Azərbaycan Nazirlər Şurası 1918-ci il iyulun 27-də Azərbaycan (türk) dilinin dövlət dili elan edilməsi haqqında fərman verdi. Bu fərman Azərbaycan xalqı tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı. Həmçinin dövlətin həyata keçirdiyi tədbirlər nəticəsində müstəqil Azərbaycan dövlətinin atributları olan dövlət gerbi, bayrağı və himni qəbul edildi. Respublikanın bayrağı haqqında danışan M.Ə.Rəsulzadə deyirdi: «Bu bayraq türk milli mədəniyyətini, Avropa demokratiyasını və islam sivilizasiyasını özündə təcəssüm etdirir».

Azərbaycan hökumətinin 1918-ci il iyun-iyul aylarındakı fəaliyyəti xüsusilə diqqətəlayiq olmuşdur. Azər-

baycanda hərbi vəziyyət elan olunmuş, milli ordunun yaradılması üçün fərman imzalanmışdı. Azərbaycan milli hökuməti məhz bu dövrdə respublikanı iqtisadi, ictimai-siyasi böhrandan çıxarmaq, ölkədə baş alıb getməkdə olan iqtisadi tənəzzülün qarşısını almaq, neft sənayesində və kənd təsərrüfatında baş verən tənəzzülü aradan qaldırmaq üçün əməli tədbirlər həyata keçirməyə başladı.

Azərbaycan hökuməti 1918-ci il 5 oktyabr tarixli qərarı ilə Bakı XKS-nin neft sənayesinin, ticarət donanmasının və neft sənayesi ilə bağlı digər sənaye sahələrinin milliləşdirilməsi haqqında bütün dekret və sərəncamlarını ləğv etdi. Həmin müəssisələr qeyri-şərtsiz öz əvvəlki sahiblərinə qaytarıldı. Hökumət neft sənayesindən əldə edilən gəlirin hesabına əhalinin vətəndaş müharibəsi illərində olduqca zəifləmiş maddi-rifah halını yaxşılaşdırmağa çalışır, dağılmış sənayeni, zavod və fabrikləri bərpa edirdi. 1919-cu ildə Ələt-Culfa dəmiryolunun tikintisinə başlanmışdı və suvarma işlərini yaxşılaşdırmaq üçün tədbirlər görülürdü. 1918-1919-cu illərdə dövlətin daxili siyasətində aqrar məsələ mühüm yer tuturdu. Dövlət Azərbaycanın aqrar ölkəsi olduğunu nəzərə alaraq öz fəaliyyəti dövründə aqrar islahatın keçirilməsinə xüsusi diqqət yetirmiş, parlament qanun qəbul etmişdi. Kəndlilər dövlətin aqrar siyasətini və aparılan islahatları bəyənirdi.

Müstəqil Azərbaycan dövlətinin 1918-1920-ci illərdəki fəaliyyətində ordu quruculuğu mühüm yer tutmuşdu. 1918-1920-ci illərdə Azərbaycanın ətrafında baş verən siyasi proseslər bir daha göstərirdi ki, güclü nizami ordu olmadan dövlətin müstəqilliyini qoruyub saxlamaq mümkün deyildir. Məhz buna görədir ki, Azərbaycan dövləti yarandığı ilk gündən güclü ordu yaratmağı öz qarşısına məqsəd qoymuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinın yarandığı ilk günlərdə onun ordusu 600 nəfər könüllü xalq dəstələrindən ibarət idi. Zaman gözləmirdi, tezliklə ordu quruculuğuna başlamaq zərurəti qarşıya çıxdı. Odur ki, hökumət 1918-ci il

iyun ayının 19-da respublika ərazisində hərbi vəziyyət elan etdi. İyulun 11-də hökumət fərmanı ilə hərbi səfərbərlik elan edildi. Noyabr ayının 1-də hərbi nazirlik yaradıldı. 1918-ci ilin dekabrında general Səməd bəy Mehmandarov hərbi nazir, general- leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildilər. Xalqımızın bu əfsanəvi qəhrəman oğlanlarının ordu quruculuğuna cəlb edilməsi milli Azərbaycan ordusunun gələcək uğurlarından xəbər verirdi. Hökumət öz qarşısında 25 min nəfərlik ordu yaratmaq vəzifəsi qoyduğundan büdcənin 24 faizi bu məqsəd üçün istifadə edilirdi. Hökumət Azərbaycanın dəniz sərhədlərini qorumaq üçün hərbi donanmanın yaradılmasını da unutmamışdı. Donanmanı yaratmaq üçün xaricdən hərbi gəmilər, texnika və qurğular alınırdı. Artıq 1918-ci ilin yayında hərbi donanmanın yaradılması başa çatdırıldı. Hökumət hərbi kadrları hazırlamaq üçün hərbi məktəblər açmağın da qayğısına qalmışdı. İlk hərbi məktəb Gəncədə yaradılmışdı. 1918-ci ildə Bakıda üç hərbi məktəb açmaq üçün 50 min manat vəsait ayrılmışdı.

Beləliklə, artıq 1920-ci ilin əvvəllərində müstəqil dövlətimizin 40 min nəfərlik nizami ordusu var idi ki, onun da 30 min nəfərini piyadalar, 10 min nəfərini süvari qoşunlar təşkil edirdi.

Milli ordunun belə tezliklə yaradılmasında qardaş türk xalqının, türk dövlətinin, onun böyük təcrübəyə malik ordusunun qardaşlıq köməyini böyük minnətdarlıq hissi ilə qeyd etməliyik. Azərbaycan milli hökumətinin 1918-1920-ci illərdə əldə etmiş olduğu ən böyük nailiyyətlərdən biri müstəqil Azərbaycan dövlətinin uğurlu xarici siyasəti, respublikanın beynəlxalq aləmdə tanınması olmuşdur. 1920-ci il yanvar ayının 11-də müttəfiq dövlətlərin Ali Şurası Azərbaycan Xalq Cümhuriyyətini defakto tanıdı. Bu illərdən bəri gərgin mübarizə aparan Azərbaycan diplomatiyasının qələbəsi idi. Bu qələbə Azərbaycanı beynəlxalq hüququn subyektinə və beynəlxalq münasibətlərin iştirakçısına çevirdi.

Azərbaycan milli hökuməti öz fəaliyyəti dövründə hər cür çətinliyə baxmayaraq, dövlət quruculuğu, iqtisadiyyat sahəsində əhəmiyyətli işlər görməklə yanaşı, mədəni quruculuq sahəsində də mühüm nailiyyətlər əldə etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti xalqın milli özünü dərketməsində, milli şüurunun oyanmasında mühüm rolu olan milli mədəniyyətin, təhsilin, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsinə xüsusi diqqət yetirmişdir. Ona görə də cümhuriyyətin təşkil etdiyi ilk hökumətin tərkibində Xalq Maarif Nazirliyi öncül yerlərdən birini tuturdu. Maarif və mədəniyyət işləri haqqında danışarkən hökumətin başçısı Fətəli Xan Xoyski deyirdi: «Bu cəmiyyətin elə bir hissəsidir ki, dövlətin bazisi, ictimai həyatı bunsuz qurula bilməz».[107] Bu fikirləri Azərbaycan Xalq Cümhuriyyətinin proqramı kimi də qəbul etmək olar.

Məhz buna görədir ki, hökumət bu vəzifəyə ən görkəmli dövlət xadimlərindən, Xalq Cümhuriyyətinin yaradıcılarından biri Nəsib bəy Yusifbəylini təyin etmişdir. Mədəniyyət və maarif sahəsində keçmiş hökumətlərdən cümhuriyyətə olduqca pis miras qalmışdı. Təhsil sistemi olduqca bərbad vəziyyətdə idi. Çar Rusiyası dövründə yaranmış təhsil sistemi 1917-ci il Fevral burjua demokratik inqilabından sonrakı illərdə tamamilə dağılmış, xüsusilə regionlarda bir çox məktəblər bağlanmağa məruz qalmış, maddi-texniki bazası zəifləmiş, böyük maddi çətinlik üzündən müəllimlər öz vəzifələrindən uzaqlaşmışdılar. Əgər 1914-cü ildə Azərbaycanda 73,1 min şagirdi olan 976 məktəb var idisə, 1919-cu ildə onların sayı 666-ya enmişdi ki, bunlardan da cəmi 23-ü orta məktəb idi. İbtidai məktəblərdə 48078, orta məktəblərdə isə 9611 şagird oxuyurdu.[108] Deməli, 3 il müddətində 310 məktəb azalmışdı. Gənc respublika öz qarşısında ilk növbədə ləğv olunan, yaxud fəaliyyətini dayandıran məktəblərin bərpa edilməsi və həmçinin yeri gəldikcə çox zəruri ehtiyac duyulan yerlərdə yeni məktəblər açmaq vəzifəsini qoymuşdu. Bu məqsədlə hökumət 1918-ci ilin avqust ayının 28-də

xalq maarifinin – məktəblərin millileşdirilməsi haqqında sərəncam verdi. Sərəncamın yerinə yetirilməsi böyük çətinliklərlə qarşılaşsa da, xalq maarifi tarixində çox mühüm sənəd kimi, təhsil sisteminin millileşdirilməsinin əsas amili, siyasəti kimi çox böyük milli əhəmiyyətə malik oldu. Bu sərəncama görə, bütün ibtidai məktəblərdə təhsil ana dilində – Azərbaycan dilində aparılmalı, rus dilində tədris aparan məktəblərdə isə bütün siniflərdə ana dili məcburi fənn kimi həftədə 3-4 saat keçirilməli idi.

Hökumət ölkənin ixtisaslı pedaqoji və xalq təsərrüfatının müxtəlif sahələrində çalışa biləcək, dövlət idarələrində işləyəcək kadrların hazırlanmasını həmişə diqqət mərkəzində saxlayırdı. Pedaqoji kadrlar hazırlamaq üçün Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə, Qazaxda, Şamaxıda, Şuşada qısamüddətli kurslar təşkil edilmişdi. Bu kurslarda dərs demək üçün Türkiyədən 50 nəfər müəllim dəvət olunmuşdu. Parlamentin 19 iyul 1919-cu il tarixli xüsusi qərarı ilə bu kursların maliyyələşdirilməsi üçün 2 milyon 390 min manat vəsait ayrılmışdı.[109] Respublikada 7-dən artıq kişi gimnaziyası açılmışdı. «Nina» qızlar məktəbinin adı dəyişdirilərək qız gimnaziyası adlandırılmışdı. Hökumət dövlət büdcəsində böyük gərginlik olmasına baxmayaraq, maarifə ayrılan xərcləri durmadan artırırdı. Əsas diqqət yeni məktəblər açılması ilə yanaşı olaraq məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsinə, avadanlıqla təmin edilməsinə, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdi.

1919-cu ilin sentyabrında parlament Azərbaycan Cümhuriyyəti qulluqçularının zəhmət haqqının artırılması haqqında qanun qəbul etmişdi. Bu qanunda müəllimlərin maaşı artırılmaqla, onlara xeyli imtiyazlar verilməsi nəzərdə tutulmuşdu.

Hökumət qadınların təhsilinə xüsusi diqqət yetirir, qızlar üçün məktəblər açır, orta təhsil müəssisələrinə qızların qəbul edilməsini zəruri hesab edirdi. Hökumətin tədbirləri nəticəsiz qalmadı, tezliklə bu sahədə ciddi dönüş yarandı.

Məsələn, əgər 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı. Hökumətin həyata keçirdiyi tədbirlər içərisində Azərbaycanda uzun illərdən bəri davam edən çar milli müstəmləkə siyasətinin aradan qaldırılması işinə yönəldilən tədbirlər mühüm yer tuturdu. Xalq Maarif Nazirliyi orta məktəb direktorlarına 1919-cu il sentyabrın 7-də göndərdiyi sərəncamda azərbaycanlı şagirdlərin ancaq millileşdirilmiş əlifba, həmçinin hazırlıq və birinci siniflərə qəbul edilməsi göstərişini vermişdi. Həmçinin azərbaycanlı uşaqların ancaq tədrisin azərbaycanca aparıldığı siniflərə qəbul edilməsi zəruri sayılırdı. Görülən tədbirlər öz nəticəsini vermiş, şagirdlərin ümumi sayı içərisində azərbaycanlıların xüsusi çəkisi artmışdı. Əgər 1914-1915-ci tədris ilində 9643 nəfər orta məktəb şagirdlərindən (müəllimlər seminariyaları çıxılmaqla) ancaq 1137 nəfəri azərbaycanlı idisə 1919-1920-ci tədris ilində 9611 şagirddən 3115 nəfəri azərbaycanlı idi.[110]

Məktəblərin şəbəkəsinin artması, yeni məktəblər yaradılması, mövcud məktəblərin fəaliyyətinin genişlənməsi məktəb islahatlarının aparılmasını, məktəblər üçün yeni dərsliklərin, dərs proqramlarının yaradılmasını tələb edirdi. Bu məqsədlə hökumət Azərbaycan dilində dərsliklərin, dərs proqramlarının hazırlanması və nəşr edilməsi üzrə görkəmli maarif xadimlərindən və yaradıcı ziyalılardan ibarət komissiya yaratdı. Bu komissiyaya Hüseyn Cavid, Mahmudbəy Mahmudbəyov, Abdulla Şaiq, Cəmo Cəbrayılbəyli və başqaları çox böyük iş gördülər. Tezliklə Azərbaycan məktəbləri üçün xeyli dərsliklər və əlifba kitabları nəşr edildi. Hökumət 1919-cu ilin iyun ayında bu komissiyanı maliyyələşdirmək üçün Xalq Maarif Komissarlığının 20 milyonluq fondundan 152 min manat vəsait ayrılması haqqında qərar qəbul etmişdi.[111] Hökumət dərslik nəşrinin olduqca çətin olduğunu və tezliklə onlara tələbatın ödənilməsinin mümkün olmamasını nəzərə alaraq qardaş Türkiyədən xeyli kitab, o

cümlədən məktəb dərslikləri gətirilməsi haqqında qərar qəbul etmişdi. Qərarda göstərilirdi ki, ölkədə təhsil müəssisələrini milliləşdirmək üçün Türkiyədən dərsliklər, dərs vəsaitləri və müəllim kadrları dəvət etmək məqsədəmüvafiq hesab edilsin.[112] Bu da ilk illərdə yeni dərsliklərin yaranmasına qədər tədrisin təşkilinə xeyli kömək göstərdi.

Hökumətin həyata keçirdiyi bu tədbirlər bilavasitə maarifin milliləşdirilməsi prosesinə xidmət edən milli məktəb islahatı idi. Bu islahatın əsas mahiyyəti Azərbaycan dövlətçiliyinə, Azərbaycan ideologiyasına yiyələnmiş milli ruhlu yeni nəsil yetişdirməkdən ibarət idi. Bu məqsədlə orta məktəb proqramlarını hazırlamaq üçün komissiyalar yaradıldı. Bu komissiyalar tarix, Azərbaycan dili və ədəbiyyatı, coğrafiya, riyaziyyat, ilahiyyat və s. fənlər üzrə proqramlar hazırlamağa müvəffəq oldu ki, bu da təhsilin keyfiyyətinə mühüm təsir göstərdi. Tədris müəssisələrinin proqramına türk xalqları tarixinin öyrədilməsinin daxil edilməsi təhsilin milliləşdirilməsi prosesi ilə əlaqədar idi.

Azərbaycan hökumətinin təhsil sahəsində həyata keçirdiyi tədbirlər içərisində yüksək ixtisaslı milli kadrların yetişdirilməsi xüsusilə diqqətəlayiq olmuşdur. Ölkənin böyük maliyyə çətinliyinə baxmayaraq, parlament 1919-cu ilin sentyabrında 100 nəfər azərbaycanlı gənci dövlət hesabına Avropanın ali məktəblərində – Fransada, Almaniyada, İtaliyada, Türkiyədə, Rusiyada, İngiltərədə təhsil almağa göndərmək haqqında qərar qəbul etdi. Qərara görə, bu məqsəd üçün Xalq Maarif Komissarlığına 1919-1920-ci dərs ilində 7 milyon manat vəsait ayrılmışdı. Tələbələrin xarici ölkələrə getməsi və orada yaşaması xərcini dövlət öz üzərinə götürürdü.[113] Bu mühüm işdə dövlətin siyasətini müdafiə edən görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev bu tələbələrin 20 nəfərdən hər birinə 7500 manat təqaüd ayırmışdı.

Azərbaycan hökuməti yaşlı əhalinin savadlanmasını təhsil sisteminin tərkib hissəsi hesab edirdi. Ona görə də o, ölkədə kütləvi şəkildə savadsızlığı ləğv kursları və dövlət dili

olan Azərbaycan dilinin öyrədilməsi üçün kurslar təşkil edilməsi haqqında qərar qəbul etmişdi.

1919-cu il sentyabrın 27-də qəbul edilmiş qərarda göstərilirdi ki, Xalq Maarif Komissarlığının sərəncamında olan 20 milyonluq fonddan yaşlı əhali arasında axşam kurslarında türk dili öyrədən kurslara 351 min manat vəsait ayrılsın.

Hər cür maliyyə və kadr çətinliyinə baxmayaraq, hökumət dövlət dili haqqında qərarın ardıcıl olaraq yerinə yetirilməsinə xüsusi diqqət yetirirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti olduqca düşünülmüş, xalqın milli mənafeyinə, azərbaycançılığa xidmət edən, ölkəmizin təhsil və elmi potensialını daim inkişaf etdirməyə yönələn kompleks bir siyasət idi. Bu siyasətin əsasında Azərbaycan dilinin hərtərəfli öyrənilməsi, bütün dövlət idarələrində Azərbaycan dilinin tətbiq edilməsi, diplomatik yazışmalarda Azərbaycan dilindən istifadə edilməsi dururdu.

Azərbaycan Xalq Cümhuriyyətinin siyasətində ibtidai, orta, orta ixtisas məktəblərinin təşkili ilə yanaşı, ali məktəblərin açılmasına da xüsusi diqqət yetirilirdi. Ali məktəblərin təşkili dəfələrlə parlamentin və hökumətin müzakirə obyekti olmuşdu.

Bakıda Pedaqoji İnstitutun açılması haqqında Maarif Nazirliyi tərəfindən qanun layihəsi işlənib hazırlanmışdı. Həmçinin hökumətdə Bakı Musiqi Məktəbinin bazasında Konservatoriyanın yaradılması barədə fikirlər gündəliyə gətirilmişdi. Lakin iqtisadi və maliyyə çətinlikləri ancaq Bakı Dövlət Universitetinin açılmasına imkan verdi. Bakı şəhərində Azərbaycanın ilk ali məktəbi olan Bakı Dövlət Universitetinin yaranması haqqında fikrin parlament müzakirələrində birmənalı qarşılanmamasına, universitetin təşkili əleyhinə mühafizəkar səslər ucalmasına baxmayaraq, hökumət öz qərarında israrlı idi.

Uzun müzakirələrdən sonra parlament 1919-cu il sentyabrın 1-də Bakı şəhərində Dövlət Universitetinin təsis

edilməsi haqqında qanun qəbul etdi.[114] Bu qərarı səbirsizliklə gözləyən universitetin ilk rektoru V.İ.Razumovski yazırdı: «Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xoşbəxt hiss edirik».

Bu xeyirxah rus aliminin dediklərində böyük həqiqət və uzaqgörənlik var idi. Universitetin yaranması bütün Şərqdə mühüm hadisə olmaqla Azərbaycan xalqının mədəni həyatında parlaq səhifənin başlanğıcı, onun gələcək inkişafının əsas amili idi. Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin xalqımıza böyük yadigarıdır.

Məhz buna görədir ki, «Bakı Dövlət Universitetini Azərbaycan xalqının milli sərvəti» hesab edən xalqımızın ümummilli lideri Heydər Əliyev bu məsələdən danışarkən yazır: «Azərbaycan xalqının XX əsrin əvvəllərindən başlamış kütləvi şəkildə maariflənməsi, savadlanması prosesində Bakı Dövlət Universitetinin açılması əlamətdar tarixi bir hadisə olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təşəbbüsü ilə Azərbaycanda ilk ali təhsil ocağının yaranması o dövrdə gedən tarixi proseslərdən doğan bir zərurət idi... Bakı Dövlət Universitetinin əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların əməyini daim yüksək qiymətləndirərək onların xatirəsini böyük minnətdarlıq və ehtiram hissi ilə yad edirəm».[115]

Parlamentin qəbul etdiyi qanunda universitetin 4 fakültədən: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olduğu göstərilmişdi. Qanunda həmçinin 1 sentyabr 1919-cu ildən başlayaraq təqdim edilən birillik ştat və smeta təsdiq edilmiş, universitet komissiyasına isə 3 il müddətinə rektor və dekanları dəvət edib təsdiq etmək icazəsi verilmişdi. Həmçinin universitetin tədris və digər təsərrüfat xərcləri üçün 1919-1920-ci illər dərs ilində 1085750 manat pul buraxılması məsləhət görülürdü. Bundan əlavə, qanunda universitetə avadanlıq almaq üçün əlavə 5

milyon manat vəsait ayrılırdı. Bütün fakültələrdə türk (Azərbaycan) dilinin icbari fənn kimi tədris edilməsi xüsusi göstərilirdi.[116]

1919-cu il sentyabrın 15-də 7 universitet komissiyasının son iclası oldu. İclasda Müvəqqəti Şura və Universitet İdarə Heyəti yaradıldı. 1919-cu il noyabrın 15-i universitetdə birinci dərs günü elan edildi.

Bakı Dövlət Universitetinin ilk rektoru professor V.İ.Razumovski, tibb fakültəsinin dekanı professor Levin, tarix-filologiya fakültəsinin dekanı isə N.A.Dubrovski təyin olundular.

Universitetdə dərs demək üçün yüksək ixtisaslı kadrlar çatışmadığından Moskvadan və Rusiyanın digər böyük şəhərlərindən görkəmli alim və professorlar dəvət edildilər. İlk tədris ilində universitetdə cəmi 877 nəfər tələbə təhsil alırdı. Tələbələr içərisində azərbaycanlı tələbələrin sayı olduqca az idi. Tarix-filologiya fakültəsinin 509 nəfər tələbəsindən yalnız 12-si azərbaycanlı idi. Tibb fakültəsinə 10 nəfər azərbaycanlı qızın qəbul edilməsi böyük hadisə idi.

Yenicə fəaliyyətə başlayan universitetin tarixi taleyinə 20-ci illərin getdikcə gərginləşməkdə olan ab-havası təsir göstərməyə bilməzdi. 23 ay fəaliyyət göstərən Azərbaycan Milli Hökuməti 1920-ci il aprelin 27-də XI ordu süngülərinin təzyiqi altında süqut etdi və hakimiyyəti Azərbaycan Sovet hökumətinə verdi. Azərbaycan Xalq Cümhuriyyəti öz yaratmış olduğu elm və təhsil məbədgahının bəhrəsini görməsə də möhtəşəm elm ocağı Azərbaycan xalqının taleyində çox mühüm hadisə oldu. Xalqımızın gələcək inkişafında, gələcək nəsillərin yetişməsində böyük mayak rolunu oynadı.

1920-ci ilin aprelində Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra Bakı Dövlət Universiteti öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirməyə başladı.

Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyəti dövründə mətbuatın və kitab nəşrinin inkişafına da xüsusi diqqət yetirmişdir. Hökumət milli mətbuatı milli oyanışın, milli

ideologiyanın əsas amillərindən biri kimi qiymətləndirir, onun inkişafını təmin edən tədbirlər həyata keçirirdi. 1919-cu ilin oktyabrında parlament mətbuat haqqında qanun qəbul etdi. Bu qanunda mətbuat azadlığı, söz azadlığı kimi demokratik prinsiplər öz əksini tapmışdı.

Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə Bakıda, Tiflisdə, Gəncədə və respublikanın digər böyük şəhərlərində 80-dən çox qəzet və jurnal nəşr edilirdi. Bunlardan 39-u Azərbaycan dilində, 44-ü isə rus və başqa dillərdə çıxırdı.

XX əsrin əvvəllərində xalqımızın görkəmli maarifpərvər ziyalıları tərəfindən istiqamətləndirilən milli mətbuatımızın ənənələrinə söykənən hökumət Azərbaycan dövlətçiliyini, milli ideologiyanı yaymaqla milli mədəniyyətin təbliği və tədqiqinə, tarixi və milli irsin öyrənilməsinə xüsusi diqqət yetirirdi.

1919-1920-ci illərdə nəşr edilən qəzetlər içərisində «Azərbaycan», «İqbal», «Dirilik», «Açıq söz», «İstiqlal» və s. qəzetlər xüsusi yer tuturdu. Hökumət 25 iyul 1918-ci ildə hökumət qəzetlərinin yaradılması və onların maliyyələşdirilməsi haqqında qərar qəbul etmiş və bu işin icrasını Maarif Nazirinə tapşırmışdı.[117] Bu qərar hökumət qəzetlərinin işini xeyli yaxşılaşdırdı, onların ardıcıl olaraq çıxmasını təmin etdi.

Hökumət qəzetləri içərisində «Azərbaycan» (1918-1920) qəzetinin xüsusi yeri var idi. Xalqın milli şüurunun formalaşmasında, azərbaycançılıq ideyalarının, milli hökumətin qərar və sərəncamlarının təbliğində «Azərbaycan» qəzeti misilsiz rol oynayırdı. Qəzet təkcə 1919-cu ildə özünün 46 nömrəsində parlamentin 25 iclasının bütün gedişini tam əks etdirmişdi.[118] «Azərbaycan» qəzeti Azərbaycan və rus dillərində hər gün çıxırdı. Azərbaycan redaksiyasına ayrı-ayrı vaxtlarda C.Hacıbəyli, Ü.Hacıbəyli, Xəlil İbrahim, rus bölməsinə isə C.Hacıbəyli və S.Rüstəmbəyli rəhbərlik etmişlər.

Qəzetin səhifələrində Azərbaycan hökumətinin üzvləri, görkəmli elm, ədəbiyyat və incəsənət xadimləri, yazıçılar, şairlər, görkəmli jurnalistlər müntəzəm olaraq çıxış edir,

dəyərli ədəbi-bədii, siyasi, publisistik, tənqidi yazıları ilə dövlət siyasətinin, milli ideologiyanın formalaşmasına istiqamət verirdilər. Qəzetin işində bilavasitə iştirak edən görkəmli ziyalılarımızdan M.Ə.Rəsulzadənin, Ə.M.Topçubaşovun, N.Yusifbəylinin, C.Hacıbəylinin, M.Hadinin, Ə.Müznibin, S.Hüseynin, H.Cavidin, Ə.Cavadın, Y.V.Çəmənzəminlinin, N.Vəzirovun, A.Şaiqin, C.Cabbarlının, F.Ağazadənin, M.S.Axundovun iştirakı təqdirəlayiq olmuş, cəmiyyətdə qəzetin rolunun və əhəmiyyətinin qat-qat artırılmasına, cəmiyyət hadisələrinin salnaməsinə çevrilməsinə səbəb olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyətinin ilk günlərindən xalqın maarif və mədəniyyətində mühüm rol oynayan kitab nəşrinə xüsusi qayğı və diqqətlə yanaşırdı. Kitab nəşri sahəsində keçmiş dövrdən çox pis bir miras qalmışdı. Ölkədə Azərbaycan dilində kitab çap edən heç bir nəşriyyat və mətbəə yox idi. 1906-cı ildən 1918-ci ilə qədər fəaliyyət göstərən, Bakıda Azərbaycan dilində kitablar çap edən yeganə nəşriyyat olan Orucov qardaşlarının nəşriyyatı daşnak-bolşevik hökuməti olan Bakı Xalq Komissarları Soveti tərəfindən millilləşdirmə adı ilə ləğv edilmişdi. Yerdə qalan kiçikhəcmli mətbəələr isə böyük tirajlarla kitab çap etmək iqtidarında deyildi.

Böyük maarif və mədəniyyət tədbirləri həyata keçirən, yeni məktəblər və mədəni-maarif müəssisələri açan, təhsil islahatları aparan hökumətin milli dillərdə dərsliklərə, dərs vəsaitlərinə, elmi və publisistik kitablara böyük ehtiyacı var idi. Ona görə də hökumət cəmiyyətin kitaba olan tələbatını ödəmək üçün nəşriyyatlar açmağı, mövcud mətbəələrin işini qaydaya salmağı ön plana çəkdi. Heç də təsadüfi deyil ki, hökumət 1918-1920-ci illərdə mətbəələrin təşkili, onların işini yaxşılaşdırmaq, mətbəələrin maddi-texniki bazasını möhkəmləndirmək, mütəxəssis kadrlarla təmin etmək üçün dörd dəfə qərar qəbul etmişdi. 1919-cu il sentyabr ayının 18-də hökumət respublikada fəaliyyət göstərən bütün dövlət və

ictimai mətbəələrin bütün avadanlıqları ilə birlikdə Xalq Maarif Komissarlığının sərəncamına verilməsi haqqında qərar qəbul etdi.[119] Bu qərar bütün mətbəələrin vahid rəhbərlikdə birləşməsi, onların uçotunun aparılması üçün şərait yaratdı. Həmçinin hökumət başqa qərarı ilə Bakıda olan bütün kağız ehtiyatlarının Maarif Komissarlığına verilməsi haqqında sərəncam vermişdi.[120]

Hökumət Azərbaycan dilində kitab çap etmək üçün mətbəə avadanlığının alınmasını, Azərbaycan dilində kitab çap edə biləcək mətbəələr yaradılmasını Xalq Maarif Komissarlığına bir vəzifə olaraq tapşırmışdı. Bu məqsədlə hökumət 1919-cu il mart ayının 20-də Orucov qardaşlarının bolşeviklər tərəfindən müsadirə edilmiş, sonralardan hökumətin sərəncamına keçmiş mətbəəsinin pulunu ödəmək üçün Xalq Maarif Komissarlığına 468380 manat pul ayrılması haqqında qanun qəbul etmişdi.[121] Hökumət həmçinin mətbəələrin fəhlə və mütəxəssis kadrlarla təmin edilməsini diqqət mərkəzində saxlayır, onların kadrlarla komplektləşməsi qeydinə qalır, böyük maliyyə çətinliyinə baxmayaraq onların maddi-texniki bazasını möhkəmləndirmək üçün vəsaiti əsirgəmirdi. Hökumət 3 avqust 1919-cu ildə hökumət mətbəələrində işləyən mütəxəssislərin, çapçıların, sinkoqrafların və başqalarının orduya çağırışdan azad edilməsi haqqında qanun qəbul etmişdi ki, bu da mətbəələrin gələcək işlərinə olduqca müsbət təsir etmiş, mətbəə kollektivlərinin sabitləşməsinə səbəb olmuşdu.

Nəşriyyat işinə rəhbərlik Xalq Maarif Nazirliyinə tapşırılmışdı. Maarif Nazirliyi nəşriyyat işinə rəhbərlik etmək üçün nazirliyin yanında «Tərtif-tərcümə Əncümani» adlı komitə yaratmışdı. Bu dövrdə Azərbaycanda kitab nəşri sahəsində olduqca çətin vəziyyət yaranmışdı. Mətbəələrin çoxu bağlanmış, ağır şərait üzündən mətbəə mütəxəssislərinin çoxu öz işindən uzaqlaşmışdı. Mətbəələrdə poliqrafiya avadanlığı yox dərəcəsində idi. Belə bir ağır şəraitdə komitə xeyli iş görməyə müvəffəq oldu. Bu komitə yaxın müddət

ərzində mətbəələrin uçotunu aparmış, vəziyyətini öyrənmiş, onlara kömək etməyə başlamışdı. Həmçinin kitabların tərtibi və çapı ilə məşğul olan komitə 10 kitab tərtib edib çap üçün nazirliyə təqdim etmişdi.

1918-1919-cu illərdə bu kitablardan 7-si çap edilmişdi. Nəşr edilənlər içərisində hesab, cəbr, heyvanat, türk dili və ibtidai təhsilə dair kitablar da var idi. Bu kitablar 60 min nüsxə tirajla çap edilmişdi. Azərbaycan Cümhuriyyəti dövründə kitab nəşri məsələləri ayrıca tədqiq edilmədiyindən bu barədə elmi məlumat vermək, o dövrün kitab repertuarını açmaq hələlik çətindir.

1918-1919-cu illərdə kitab çapının mənzərəsini yaradan, nəşr edilən kitabların tam olmasa da biblioqrafik siyahısını tərtib edən yeganə mənbə 1963-cü ildə nəşr edilən «Azərbaycan kitabı» biblioqrafiyasıdır.[122] Bu biblioqrafiyada göstərilən dövrdə nəşr edilən 65 kitabın tam biblioqrafik təsviri verilmiş, nəşr ili, yeri və nəşr edən mətbəə göstərilmişdir ki, bu da böyük elmi əhəmiyyət kəsb edir.

1918-1919-cu illərdə çap edilmiş kitablardan bir neçəsinə diqqət yetirək. Vəzirov Yusif bəy «Azərbaycan ədəbiyyatına bir nəzər» (1918), Qənizadə Sultanməcid «Tülkü və Caq-caq bəy» (1918), Əfəndizadə Rəcəb «Türk qiraəti» (1918), Əfəndizadə Rəşid bəy «Pul dəlisi» (1918), Mahmudbəyov M. «Birinci il» (1918), Hadi Məhəmməd Əbdulsəlimzadə «İnsanların tarixi faciələri» (1918), Hacıbəyov Zülfüqar bəy «Aşıq Qərib» (1918), Vəzirov Yusif bəy «Litva tatarları tarixi» (1919), Qasımzadə Ağaəli (Raqib) «Hesab məsələləri» (1919), İsrafilbəyzadə Ağababa bəy «Təzə elmi hesab» (1919), Mahmudbəyov M. və Abbas Səhhət «Yeni məktəb» (1919), Nəriman Nərimanov «Biz Qafqaza nə şüar ilə gedirik» (1919), Səttar oğlu «Ordu marşları» (1919), «Türkcə-ingiliscə lüğət» (1919), Cavid Hüseyn və Şaiq Abdulla «Ədəbiyyat dərsləri» (1919), Hacı Əlizadə Səməd bəy «Rəhbəri cəbir» (1919), Cəbrayılbəyzadə Cəmo bəy «Tarixi-təbii» (1919), Şaiq Abdulla Talıbzadə «Milli qiraət kitabı» (1918) və s.[123]

Xalq Cümhuriyyəti dövründə Azərbaycan tarixinə, Azərbaycan dili və ədəbiyyatına, milli irsin öyrənilməsinə maraq olduqca artmışdı. Milli dərsliklər və dərs vəsaitlərinin nəşrinə böyük diqqət yetirilirdi. Görkəmli ziyalılarımız xaricdə Azərbaycanı təbliğ etmək üçün xarici dillərdə kitablar yazıb çap etdirirdilər. Belə əsərlərə misal olaraq Adilxan Ziyadxanlının «Azərbaycan» kitabını, Əkbərağa Şeyxülislamovun 1919-cu ildə Parisdə fransız dilində nəşr etdirdiyi «Qafqaz Azərbaycan Cümhuriyyəti» kitabçasını, C.Hacıbəyov tərəfindən Versal konfransı üçün hazırlanmış kitabçanı və s. göstərmək[124] olar. Azərbaycana dərin məhəbbətlə yazılmış bu kitablar unudulmaz vətən oğullarının öz xalqına böyük məhəbbətinin yadigarı idi.

§ 1.5.22. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Azərbaycanda kitabxana işi (1918-1920-ci illər)

Azərbaycan Demokratik Cümhuriyyətinin 1918-1920-ci illərdə mədəni quruculuq sahəsində həyata keçirdiyi tədbirlər içərisində kitabxana işi ilə bağlı tədbirlər mühüm yer tuturdu.

Keçmiş quruluşlardan müstəqil Azərbaycan hökumətinə kitabxana işi sahəsində olduqca pis bir miras qalmışdı. Əhaliyə xidmət edən mütəşəkkil kitabxana şəbəkəsi yox idi. Çar Rusiyasının müstəmləkəçilik siyasəti ucqarlarda yerli əhaliyə xidmət edən dövlət kitabxanaları yaratmağa və onları maliyyələşdirməyə imkan vermirdi. Yerli əhalinin dilində kitablar saxlayan milli kitabxanaların təşkilinə böyük çətinliklə icazə almaq mümkün idi. XX əsrin əvvəllərində Bakı şəhərində və Azərbaycanın rayonlarında qeyri-dövlət təşkilatları, cəmiyyətlər və ayrı-ayrı şəxslər tərəfindən təşkil edilmiş kitabxanaların bir çoxu 1917-1918-ci illər arasında baş verən hökumət dəyişiklikləri, vətəndaş müharibəsi və mövcud çətinliklər nəticəsində öz fəaliyyətlərini dayandırmışdılar. Belə çətin bir şəraitdə hakimiyyətə gələn Azərbaycan

hökuməti bütün maarif və mədəniyyət müəssisələrinə rəhbərliyi Xalq Maarif Nazirliyinə həvalə etdi. Nazirliyin həyata keçirdiyi tədbirlər içərisində kitabxanaların qeydinin aparılması, onların şəbəkələrinin bərpa edilməsi, kitablarla, avadanlıqlarla təmin edilməsi mühüm yer tuturdu. Hökumət məktəb şəbəkəsini qaydaya salarkən məktəb kitabxanalarının bərpa və inkişaf etdirilməsini, onların ilk növbədə dərsliklər, dərs vəsaitləri və digər kitablarla təmin edilməsini lazım bilmişdi. Bu vaxt respublikada 700-ə qədər məktəb var idi. Məktəblərin əksəriyyətində kitabxanaların olmasını nəzərə alsaq, Maarif Nazirliyinin böyük təhsil kitabxana şəbəkəsinə malik olması aydınlaşar. Bunu nəzərə alan nazirlik 1918-1920-ci illərdə Türkiyədən 20 min nüsxədən artıq dərslik, dərs vəsaiti və digər kitablar alıb məktəb kitabxanalarına vermişdi.[125]

Ölkədə olan maliyyə çətinliklərinə baxmayaraq, parlament 1919-cu il sentyabrın 18-də xalq məktəbləri kitabxanalarına türk dilində kitablar almaq üçün bir milyon manat pul buraxılması haqqında qanun qəbul etdi.[126] Bu pula Maarif Nazirliyi Türkiyədən və başqa ölkələrdən qiymətli tədris kitabları alıb məktəb kitabxanalarına göndərmişdi. Nazirlik kitaba olan böyük ehtiyacı nəzərə alaraq Türkiyə ilə yanaşı olaraq qonşu Rusiyadan, Gürcüstandan və Avropa dövlətlərindən xeyli kitab almağa müvəffəq olmuşdu.

Parlament 1919-cu ildə təhsil müəssisələri kitabxanalarını kitabla təchiz etmək haqqında hökumətin təqdimatına əsasən xüsusi qanun qəbul etmişdi.

Qanun bütün məktəb kitabxanalarının Azərbaycanda nəşr edilən kitab, jurnal, məcmuə və qəzetlərin məcburi nüsxələri ilə təchiz edilməsini; xarici ölkələrdən alınan kitabların ilk növbədə kitabxanalara verilməsini; öz fəaliyyətini dayandırmış məktəblərin, kitab mağazalarının anbarlarında saxlanılan ədəbiyyatın kitabxanalara paylanmasını; ayrı-ayrı şəxslərin, müəssisələrin və xeyriyyə cəmiyyətlərinin kitabxanalarının kitabla təchiz olunmasına cəlb edilməsini zə-

ruri hesab edirdi.[127] Bu qanun öz demokratik prinsiplərinə görə böyük mədəni əhəmiyyət kəsb edirdi. Hökumət məktəb kitabxanaları ilə yanaşı olaraq o dövrdə xalq kitabxanaları-qiraətxanaları adlandırılan və bilavasitə yaşlı əhaliyə xidmət edən kitabxanaların fəaliyyətini nəzarətə almaqla onlara hər cür kömək etməyə çalışırdı. Bu tipdən olan kitabxanaların əksəriyyəti qeyri-dövlət təşkilatlarına, cəmiyyətlərə və ayrı-ayrı şəxslərə mənsub idi. Maarif Nazirliyi kitabxanaları olan bütün təşkilatlara, cəmiyyətlərə və şəxslərə mətbuat vasitəsi ilə müraciət edib öz fəaliyyətlərini davam etdirməyi, onlara kömək göstərməyin vacibliyini bildirmişdi. Ölkənin mədəni inkişafında xalq kitabxana-qiraətxanalarının təşkilinə böyük əhəmiyyət verən Xalq Cümhuriyyəti yeni kitabxanalar təşkil etməklə, mövcud kitabxanaların fəaliyyətini davam etdirməsinə, onların maddi-texniki bazasının möhkəmlənməsinə, ilk növbədə kitablarla təmin edilməsinə xüsusi diqqət yetirirdi. 18 sentyabr 1919-cu ildə parlament xalq kitabxanaları üçün kitab almaq məqsədilə Xalq Maarif Nazirliyinə bir milyon rübl vəsait ayrılması haqqında qanun qəbul etdi.[128] Nazirlik bu pula Türkiyədən xeyli miqdarda kitab alıb kitabxanalar arasında bölüşdürdü.

Mən XX əsrin əvvəllərində kitabxana işinin tarixini öyrənərkən o dövrdə, əsasən sovet dövründə formalaşmış statistikanın düzgün olmadığı qərarına gəlmişəm. Ona görə də öz şəxsi mülahizələrimi şərh etməyi vacib sayıram.

Sovet dövründə formalaşmış və dövriyyəyə buraxılmış statistikaya görə, Azərbaycanda 1913-cü ildə 95 min kitabı olan 25 kitabxana və 1920-ci ildə isə 25 min kitabı olan 11 kitabxana olmuşdur. Mən bu dövr kitabxana işinin tarixini öyrənib ümumiləşdirərkən belə qənaətə gəlmişəm ki, bu rəqəmlərin hər ikisi səhv rəqəmlərdir. Bu statistikanı bu cür formalaşdırmaqda sovet tarixçilərinin əsas məqsədi maarif və mədəniyyətin mövcud durumunu əks etdirən düzgün bir statistika formalaşdırmaq yox, siyasi nəticələrə əsaslanan statistika formalaşdırmaq idi. Statistikanı saxtalaşdırmaqda

sovetoloqların əsas məqsədi xalqın keçmiş nailiyyətlərini inkar etmək, bütün müvəffəqiyyətləri sovet quruluşunun adına çıxmaq idi.

Sovet statistikası respublika əhalisinin də 97 faiz savadsız olduğunu iddia edirdi. Halbuki tarixçilərimizin son tədqiqatları göstərir ki, 1920-ci illərdə respublika əhalisinin 30 faizi savadlı olmuşdur.

Kitabxanalar haqqında Sovet statistikasında nə məktəb kitabxanaları, nə qeyri-hökumət təşkilatlarının kitabxanaları, nə xeyriyyə cəmiyyətlərinin kitabxanaları, nə də ictimai kitabxanalar nəzərə alınırdı. Halbuki 1917-ci ilə qədər respublikada göstərilən kitabxanaların böyük şəbəkəsi mövcud idi. Başa düşmək olmur bu kitabxanalar necə oldu? Hamısı bir-iki ilin içində məhv olmuşdumu?

Rəsmi statistikaya görə, 1920-ci ildə Azərbaycanda 700-dən artıq ümumtəhsil məktəbi olmuşdur. Məktəblərin nizamnaməsinə görə, bütün məktəblərdə kitabxanalar olmalı idi. Belə hesab edək ki, məktəblərin kiçikliyindən, böyüklüyündən, maddi imkanından asılı olaraq məktəblərin bir çoxunun kitabxanası olmayıb. Hər halda, 700 məktəbdən təxminən yarısının kitabxanasının olmasını ehtimal etsək, 1920-ci ildə respublikamızda 400-ə yaxın məktəb kitabxanası olmuşdu. Digər ictimai kitabxanalar haqqında da belə fikir yürütsək və XX əsrin əvvəllərində respublikada fəaliyyət göstərən kitabxanaları təxmini hesablasaq 100-ə yaxın xalq kitabxana-qiraətxanasının fəaliyyət göstərməsi aşkara çıxır. Belə hesab edək ki, 1917-1920-ci illərdəki çətin şərait üzündən bu kitabxanaların bir çoxu bağlanmışdı. Ancaq demək olmaz ki, hamısı bağlanmışdı. Təxmini hesablamalara görə, bu kitabxanaların yarıya qədəri öz fəaliyyətini davam etdirmiş, fəaliyyətini davam etdirə bilməyənlər də öz fondunu qoruyub saxlamışdı. Bütün bunları nəzərə alaraq biz belə hesab edirik ki, sover statistikası tərəfindən formalaşmış «1920-ci ildə Azərbaycanda 95 min kitab fondu olan 11 kitabxana vardır» fikri yanlışdır, mövcud şəraiti əks etdirmir.

Bizcə, 1920-ci ildə respublikada ən azı 400-ə yaxın məktəb, 50-yə qədər xalq kitabxana-qiraətxanası olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji fəaliyyətinin başlıca istiqamətlərindən biri milli özünüdərkin dirçəldilməsinə xidmət edən, dövlətçiliyin möhkəmləndirilməsinə çalışan, milli konsepsiyanın yaradılması və inkişaf etdirilməsi idi. Bu sahədə hökumət xeyriyyə cəmiyyətləri, milli mədəni-maarif qurumları, fəaliyyətini genişləndirən həmkarlar ittifaqı təşkilatları, kooperativ təşkilatları ilə əməkdaşlıq edirdi. Bu təşkilatların ətrafında toplanmış milli ziyalılarımız müstəqil dövlətin möhkəmləndirilməsi, mədəni-maarif müəssisələrinin təşkilində və faliyyətində iştirak edir, təbliğat və təşviqat işləri aparırdılar.

Müstəqillik illərində Azərbaycanın mədəni həyatında hələ əsrin əvvəllərində yaranmış "Nicat", "Nəşri-maarif", "Səfa" və s. cəmiyyətlər mühüm rol oynayırdılar. Bu cəmiyyətlər özlərinə məxsus mədəni-maarif müəssisələrinin, kitabxana-qiraətxanaların, klubların, dərnəklərin işini canlandırır, Azərbaycan dili kursları təşkil edir, yoxsul əhaliyə köməklik edirdilər. Bu cəmiyyətlərin hələ XX əsrin əvvəllərindən formalaşmış kitabxanaçılıq fəaliyyəti daha da genişlənmişdi. Özlərinə məxsus kitabxana və qiraətxanaları yeni ədəbiyyatla təkmilləşdirir, yeni qiraətxanalar təşkil edirdilər. Cəmiyyətlərin kitabxana-qiraətxanalarında milli ədəbiyyatın toplanmasına və təbliğinə, kütləvi tədbirlərin keçirilməsinə xüsusi diqqət yetirilirdi. Hökumət də öz tərəfindən cəmiyyət kitabxana-qiraətxanalarına kitab və dövri mətbuat almaqda kömək edir, onların işini əlaqələndirməyə çalışırdı. Belə cəmiyyətlər təkcə Bakıda deyil, Azərbaycanın rayonlarında da fəaliyyət göstərirdi. Hökumətin cəmiyyətlərə, ittifaqlara, ictimai birliklərə münasibətdə yürütdüyü liberal siyasət onların fəaliyyətinin daha da genişlənməsinə səbəb olurdu.

1919-cu ilin əvvəllərində Bakı və onun rayonlarında mədəni-maarif cəmiyyətlərini birləşdirmək təşəbbüsü göstərilmişdi. Bu cəmiyyətlərin konfransının çağırılması üçün təşkilat komissiyası yaradıldı. Komissiya "Bakı şəhəri mədəni-maarif müəssisələri ittifaqının nizamnaməsi"ni tərtib edib təsdiq olunmaq üçün hökumətə göndərdi. Nizamnamədə deyilirdi: "Mədəni-maarif cəmiyyətləri ittifaqının məqsədi Bakı əhalisinin mədəni səviyyəsini yüksəltmək məqsədi ilə şəhərin bütün mədəni qüvvələrini birləşdirməkdən ibarətdir."[129]

Bu cəmiyyətlərin fəaliyyətində əhaliyə kitabxana xidmətinin təşkili mühüm yer tuturdu. Bütün xeyriyyə cəmiyyətlərinin bir, nisbətən böyük cəmiyyətlərin isə bir və ya iki kitabxana-qiraətxanası var idi. Cəmiyyətlər öz mədəni-kütləvi işlərini kitabxana-qiraətxanalarda təşkil etdiklərindən burada oxucular həmişə çox olurdu. Kitabxana işinə xüsusi qayğı ilə yanaşan, cəmiyyətdə kitabxanaların fəaliyyətini yüksək qiymətləndirən Azərbaycan hökuməti ölkə ərazisində mövcud olan bütün dövlət və ictimai kitabxanaların fəaliyyətlərini davam etdirməsi haqqında göstəriş vermişdi. Şəhərdə mövcud olan bütün kitabxanalar, o cümlədən cəmiyyət kitabxanaları, ayrı-ayrı milli azlıqlara aid kitabxanalar, məsələn, yəhudi kitabxanası, "Erməni insansevənlər cəmiyyətinin" kitabxanası öz fəaliyyətlərini dayandırmamışdılar. Dövlət orqanlarına məxsus kitabxanalar isə yenidən qurularaq və dövlət qulluqçularına kitabxana xidməti göstərməyi davam etdirirdilər.

1919-cu ildə hökumət Balaxanı-Sabunçu, Bibiheybət və Ağşəhərdə fəhlələrə xidmət etmək üçün kitabxana açdı.[130] Bakıda ən böyük kitabxana şəbəkəsinə malik olan Neft Sənayeçiləri Quraltayı Şurasının kitabxanaları öz işlərini davam etdirirdilər. 1919-cu ildə Neft Sənayeçiləri Qurultayı kitabxanaları ilə yanaşı olaraq "İqla" cəmiyyət və kooperasiyaları əhaliyə xidmət göstərmək üçün açıq olurdu. Kooperasiyalar ittifaqının kitabxanası əhaliyə xidmət etmək üçün şəhərin müxtəlif rayonlarında filiallarını açmışdı.

Müstəqillik illərində respublikanın kitabxana işi hə-

yatında yeni bir təşəbbüs - ayrı-ayrı nazirliklərin kitabxana şəbəkələrinin yaranması başlanmışdı. Azərbaycan Ədliyyə Nazirliyi öz əməkdaşları üçün hüquqi ədəbiyyat kitabxanası təşkil etmək məqsədi ilə hökumətdən vəsait istəmişdi. Hökumət 19 iyun 1919-cu ildə Ədliyyə Nazirliyinə kitabxana açmaq üçün 50 min manat, Səhiyyə Nazirliyinə kitabxana açmaq üçün 10 min manat ayrılması haqqında qərar qəbul etmişdi.[131] Respublikanın digər nazirliklərinin də kitabxanalar açmağa təşəbbüs göstərməsi haqqında mətbuatda məlumatlara rast gəlmək olar.

Müstəqillik illərində hökumətin bilavasitə təşəbbüsü ilə ayrı-ayrı təşkilatların da kitabxanalar açması məlumdur. 1918-ci ilin dekabr ayında Azərbaycan İstehlak Cəmiyyətləri ittifaqının mədəni-maarif şöbəsi Bakı şəhərində azərbaycanlı əhaliyə xidmət etmək məqsədi ilə ictimai xalq kitabxanası açmağı lazım bildi. Cəmiyyətin bu təşəbbüsü Xalq Maarif Nazirliyi tərəfindən bəyənilmişdi. Nazirlik də kitabxananı təşkil etmək üçün öz fondundan xeyli kitab ayırmışdı.

Göstərilən təşəbbüsə və görülən işlərə baxmayaraq, kitabxananı açmaq üçün xeyli iş görmək lazım idi. XX əsrin əvvəllərində ölkədə Azərbaycan dilində böyük tirajlarla kitab çap edən nəşriyyat olmadığından Azərbaycanın kitab bazarı olduqca kasıb idi. Azərbaycan dilində kitab almaq demək olar ki, mümkün deyildi. Olub-qalan kitablar da ziyalıların şəxsi kitabxanalarında toplanmışdı. Ona görə də kitab üçün ziyalılara müraciət etmək lazım gəlirdi. Böyük çətinliklə də olsa xeyli miqdarda kitab toplamaq mümkün oldu. İkinci çətinlik kitabxana üçün münasib bina tapmaq idi. Bina tapıldıqdan sonra 1919-cu ilin mart ayında kitabxananın rəsmi açılışı oldu.[132] Kitabxananın açılışında xeyli adam iştirak edirdi. Açılışda görkəmli ziyalılar, Azərbaycan İstehlak Cəmiyyətinin rəhbər işçiləri, hökumət nümayəndələri də iştirak edirdi. Açılışda kitabxananın əhəmiyyəti, onun xalqın milli şüurunun formalaşmasındakı rolu haqqında çıxışlar oldu. İstehlak Cəmiyyəti İttifaqının İdarə

Heyəti oxucuların arzusu və tələbi ilə kitabxanaya xalqımızın görkəmli satirik şairi M.Ə.Sabirin adının verilməsini qərara almışdı. Kitabxana təşkil edilərkən Merkurevski küçəsində 18 nömrəli binada yerləşirdi. Sonradan Voroksov (indiki Əzizbəyov) küçəsindəki 5 №-li binaya, daha sonra isə kitabxananın indi fəaliyyət göstərdiyi binaya (Əzizbəyov küçəsi 19) köçürüldü.[133] Kitabxananın əvvəlki binaları olduqca darısqal olduğundan öz fəaliyyətini genişləndirə bilmirdi. Xüsusilə qiraətxanaya gələn oxucuları qəbul etmək böyük çətinlik törədirdi. Kitabxana şəhərin mərkəzində milli dildə kitab saxlayan ilk kitabxana olduğundan azərbaycanlı oxucuların kitabxanaya böyük marağı var idi. Kitabxananın oxucuları sırasında ziyalılarla yanaşı olaraq fəhlələrə, mütəxəssislərə, təqaüdçülərə, uşaqlara da rast gəlmək olurdu. Kitabxana az müddət içərisində milli ədəbiyyat kitabxanası kimi məşhurlaşmışdı. Kitabxanaya böyük oxucu axını əmələ gəlmişdi. Bu da İstehlak Cəmiyyətinin kitabxana işçilərinin qarşısında kitab fondunu ardıcıl olaraq zənginləşdirmək vəzifəsini qoymuşdu. Doğrudur, bu işdə kitabxananın oxucusu olan ziyalılar da yaxından iştirak edirdilər. Kitabxana kitab fondu ilə yanaşı olaraq qəzet və jurnal fondu da yaratmağa başlamışdı. Çünki oxucularda dövri mətbuata böyük maraq var idi. Əgər kitabxana açılarkən onun fondunda 1200 nüsxə kitab var idisə, bir ildən sonra, yəni 1920-ci ildə kitabxananın fondunda 10 min nüsxədən artıq kitab toplanmışdı. Kitabxananın fondunda Azərbaycan dilində kitablarla yanaşı, türk, ərəb, fars, rus və s. dillərdə də kitablar da var idi. Bu kitablar oxucular tərəfindən hədiyyə edilmişdi. Türkiyədən Azərbaycana gətirilən kitablardan kitabxanaya xeyli kitab verilmişdi. Kitabxana türkologiyaya dair kitablar əldə etməyə də xüsusi diqqət yetirirdi. Kitabxana 1500-dən artıq oxucuya xidmət edirdi.[134] Qısa bir müddət ərzində kitabxanaya 1500 oxucu cəlb etmək, onlara xidmət işini yüksək şəkildə təşkil etmək, onları kitabxananın daimi oxucusu etmək hər kitabxanaya müyəssər olmazdı. Belə ki-

tabxana ancaq Bakı ziyalılarının böyük hörmət etdiyi, onun inkişafı naminə əlindən gələni etdiyi M.Ə.Sabir adına milli kitabxana ola bilərdi.

Kitabxana yarandığı gündən respublikada milli kitabxana kimi tanınmış, bu statusu bütün fəaliyyəti boyu davam etdirmiş, Azərbaycan tarixinə, Azərbaycan dilinə, ədəbiyyatına, incəsənətinə, ümumiyyətlə, Azərbaycanşünaslığa dair ədəbiyyatın mərkəzi kimi formalaşmışdı. Kitabxana yarandığı ilk gündən görkəmli Azərbaycan ziyalılarından Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Abdulla Şaiq, Səmədağa Ağamalı oğlu, Cəfər Cabbarlı və başqaları bu kitabxananın oxucuları olmuş, kitabxananın həyata keçirdiyi kütləvi tədbirlərdə iştirak etmiş, kitabxananın təşkil etdiyi dərnəklərə rəhbərlik etmişlər.

Azərbaycanın müstəqilliyi dövründə yaranan və böyük vətəndaş şair M.Ə.Sabirin adını daşıyan bu kitabxana özünün bütün fəaliyyətini bilavasitə milli Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə, xalqımızın milli şüurunun oyanmasına həsr etmişdir.

Sovet dövründə də öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirən bu kitabxana özünün bütün fəaliyyətini Azərbaycan Xalq Cümhuriyyətinin ideallarına həsr etmişdir.

Müstəqillik illərində respublikamızda yaranan kitabxanalardan biri də Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universitetinin Elmi Kitabxanası olmuşdur. Bakı Dövlət Universitetinin Kitabxanasının yaranması respublikanın təhsil, elm və mədəni həyatında böyük hadisə idi. Kitabxana öz statusuna görə universal, elmi və tədris kitabxanası xarakteri daşıdığından respublika əhəmiyyətinə malik idi. Məhz buna görədir ki, hökumət bu kitabxananın yaradılmasına böyük əhəmiyyət verirdi.

1919-cu il may ayının əvvəllərində Bakı Dövlət Universitetinin təsisi ilə əlaqədar sənədləri və tədbirləri hazırlayan xüsusi komissiya yaradıldı. Komissiyanın sədri vəzifəsinə prof. V.İ.Razumovski təyin edilmişdi. Komissiya özü-

nün birinci iclasında universitetin açılması barədə aşağıdakı sənədləri hazırlayıb təqdim etmişdi:

1. Bakı Dövlət Universitetinin açılması haqqında universitet komissiyasının bəyannaməsi;
2. Bakı Dövlət Universitetinin təsisi haqqında parlamentə təqdim edilən qanun layihəsi;
3. Bakı Dövlət Universitetinin Nizamnaməsinin layihəsi;
4. Universitetin 1919-1920-ci tədris ilinin ştat və smeta layihəsi.

Komissiyanın hazırladığı sənədlərdə universitetdə tədris başlayana qədər Universitet Elmi Kitabxanasının yaradılması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, universitetdə yaradılacaq fakültələrə və ixtisaslara dair dərsliklərin, dərs vəsaitlərinin və elmi ədəbiyyatın əldə edilməsi kimi məsələlər özünə geniş yer tapmışdı.

1919-cu il sentyabrın 1-də parlament Bakı şəhərində universitetin təsis edilməsi haqqında qanun qəbul etdikdən sonra universiteti təşkil edən komissiya kitabxananın təşkili məsələsini ön plana çəkdi. Dünya təcrübəsindən məlum olduğu kimi, bütün ali məktəblərin birinci laboratoriyası hesab edilən kitabxana olmadan hər hansı bir universitet fəaliyyətə başlaya bilməz. Kitabxana universitetlərin fəaliyyətə başlamasının əsas şərtlərindən biri – birinci laboratoriyasıdır. Kitabxana həm universitetin hərəkətverici qüvvəsi olan, elmi biliklərin əsasını tələbələrə çatdıran professor-müəllim heyəti üçün, həm də elmi biliklərə, ixtisaslara yiyələnməyə can atan tələbələr üçün həlledici əhəmiyyət kəsb edir. Buna görədir ki, dünya ali təhsili tarixində təşkili nəzərdə tutulan universitetlərdən əvvəl onların kitabxanalarının yaradılması bir ənənəyə çevrilmişdi. Məhz bu ənənəyə sadiq qalaraq Bakı Dövlət Universitetini təşkil edən komissiya kitabxananı yaratmaq üçün əməli fəaliyyətə başladı. 1919-1920-ci illərdə Bakıda elmi kitabxana yaratmaq universiteti təşkil etmək qədər çətin və məsuliyyətli bir iş idi. Bakıda heç bir böyük

elmi kitabxana yox idi. Mövcud kitabxanalarda isə universitet kitabxanası üçün zəruri olan elmi və tədris ədəbiyyatı yox dərəcəsində idi. Bakıda ali məktəb dərslikləri və elmi əsərlər çap edən nəşriyyat olmadığından elmi ədəbiyyat Bakıya Rusiyadan, Türkiyədən və başqa xarici ölkələrdən gətirilirdi. Son zamanlar baş verən inqilablar, dövlət çevrilişləri, vətəndaş müharibəsi xaricdən kitab alınması işini olduqca çətinləşdirmişdi. Universiteti təsis edən komissiya bu çətinlikləri bilirdi. Ona görə də çıxış yolunu ölkə daxilindəki kitabxanalardan və vətəndaşlardan kitab toplamaqda görürdü. Parlament universitetin yaradılması haqqında 1 sentyabr 1918-ci il tarixli qanunda universiteti təşkil və təchiz etmək üçün 1919-1920-ci tədris ilində 5 milyon vəsait ayrılmasını qərara almışdı.[135] Bu vəsaitin müəyyən hissəsi kitabxananın təşkili üçün ayrılmışdı.

Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının əsası 1919-cu ilin sentyabr ayında qoyuldu. Kitab fondunun 1919-cu ildə Dubrovskidən alınan kitablar təşkil edirdi.[136] Bu kitablar tarixə və iqtisadiyyata aid idi. 1919-cu ildə kitabxana üçün Almaniyadan, əsasən tarix və filologiyaya aid 611 cild kitab gətirilmişdi.[137]

1920-ci ilin əvvəllərində universiteti təsis edən komissiya şəhər özünüidarəsinə və Neft Sənayeçiləri Qurultayı Şurasına müraciət edərək Mikayılovski və Sabunçu xəstəxanalarında olan tibb kitabxanalarının universitet kitabxanasına verilməsini xahiş etdi. Universitetin xahişi nəzərə alındı və bu kitabxanaların bazasında universitet kitabxanasının tibb şöbəsi təşkil edildi. Şöbə təşkil edilərkən tibbə dair cəmi 212 cild kitab var idi.

Komissiya, həmçinin əhalinin yardımına da böyük ümid bəsləyirdi. «Azərbaycan» qəzetində universitet komissiyasının müraciəti dərc edilmişdi. Müraciətdə deyilirdi: «Universitetin tarix-filologiya və tibb fakültəsi üçün... ayrı-ayrı şəxslərdə də müəyyən miqdarda kitab tapıla bilər, buna görə də kitabxana üzrə yardımçı komissiya kitab satmaq istəyənlərə yerli qəzetlər vasitəsi ilə təklif etmək niyyətindədir ki, təbabətə və tarix-filologiya elmlərinə dair bütün dillərdə olan kitablarının siyahısını təqdim etsinlər. Bundan əlavə, komissiya əmindir ki, universitetin xidmət etdiyi böyük mədəni məqsəd naminə digər mədəniyyət mərkəzlərində olduğu kimi, Bakıda da universitetə elmi kitablar bağışlamaq olar».[138]

Komissiyanın bu müraciətinə cavab olaraq 1920-ci ildə bakılılar kitabxanaya 120 min manatlıq kitab vermişdilər. Kitabxana, həmçinin Tiflis şəhərindən 18 milyon manatlıq dərslik almışdı.[139]

Kitabxana təşkil edilərkən universitetin professorlarından B.K.Finkelşteyn, O.A.Bayraşevski, P.Y. Rastovsev, A.İ.Okingevir, A.N.Popov, L.Q.Lopatinski, həkimlərdən Xodoroviç, İ.L.Ferman, A.M.Levin və başqaları şəxsi kitabxanalarını universitetin kitabxanasına vermişdilər.

Universitetin kitabxanasına öz kitablarını bağışlayan şəxslərin ixtisaslarına əsaslanaraq demək olar ki, həmin kitabların mühüm hissəsini tibbə aid kitablar təşkil etmişdir. Bununla belə, məlumdur ki, bütün şəxsi kitabxanalarda kitabxananın sahibinin ixtisasına dair kitablardan başqa bədii, ictimai-siyasi, tarixi, iqtisadi və s. ədəbiyyat da olur. Ona görə də adlarını çəkdiyimiz şəxslərin kitabxanalarında da qarışıq ədəbiyyatın olmasını güman etmək olar.

Beləliklə, Azərbaycan hökumətinin daimi qayğısı və universitet komissiyasının cidd-cəhdi sayəsində olduqca qısa müddətdə, böyük çətinliklə, quru bir yerdə universitet professor-müəllim və tələbələrinin minimum tələbatını ödəyə biləcək zəngin bir elmi kitabxana yaratmaq, onu tələbə və müəllimlərin istifadəsinə vermək mümkün oldu.

1920-ci ildə kitabxananın fondunda müxtəlif dillərdə (Azərbaycan, türk, rus, ərəb, fars, ingilis, fransız, alman, tatar və s.) 4660 kitab, 130 adda qəzet və jurnal komplektləri var idi. 1919-1920-ci illərdə kitabxananın fondunu komplektləşdirmək üçün aparılan təşkilati işlər, müxtəlif ölkələr-

lə və elmi və tədris müəssisələri ilə yaradılmış əlaqələr sonrakı illərdə öz bəhrəsini verməyə başladı. Artıq 1922-ci ilin yayında Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının fondunda 8923 adda 14434 nüsxə kitab var idi. Deməli, son illərdə kitabxananın fondu 3 dəfədən çox artmışdı.[140] Kitabxananın yanında tələbələrə və professor-müəllim heyətinə xidmət etmək üçün qiraət zalları təşkil edilmişdi. Belə zallarda əsasən məlumat ədəbiyyatı, qəzet və jurnallar və nadir ədəbiyyat saxlanılırdı. Əsas fondda dərsliklərin və dərs vəsaitlərinin azlığı nəzərə alınaraq qiraət zallarında tələbələrin istifadəsi üçün dərsliklər və dərs vəsaitləri də olurdu.[141]

Ölkədə əhaliyə kitabxana xidmətinin təşkili məsələlərinə xüsusi diqqət yetirən dövlət həm mövcud kitabxanaların, həm də yeni təşkil edilmiş kitabxanaların kitabla təchizini ardıcıl olaraq yerinə yetirmək məqsədi ilə 1918-ci ilin avqustunda «Kitabxana kollektoru» yaradılması haqqında qərar qəbul etdi.[142] Kitabxana kollektoru Xalq Maarif Nazirliyinin yanında fəaliyyət göstərirdi. Kollektorun qarşısında ayrı-ayrı kitab mağazalarından, təşkilatlardan, şəxslərdən kitabları alıb kitabxanalar arasında bölüşdürmək vəzifəsi qoyulmuşdu. Kollektorun Azərbaycan, rus və xarici dillər şöbəsi var idi. Həmçinin kollektorun yanında bu işləri idarə etmək üçün xüsusi komissiya fəaliyyət göstərirdi. Doğrudur, kitabxana kollektoru az bir müddət içərisində öz fəaliyyətini o qədər genişləndirə bilməsə də, məqsədin özü böyük əhəmiyyət kəsb edirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin sərəncamları ilə tanışlıqdan məlum olur ki, Respublika Dövlət Kitabxanasının yaradılması da diqqətdən kənar qalmamışdı. Dövlətin əsas atributlarından biri olan Respublika Kitabxanasının yaradılmasını zəruri hesab edən Azərbaycan hökuməti Bakı şəhərində Respublika Dövlət Ümumi Kitabxanasının yaradılması məsələsini müzakirə etməyi Xalq Maarif Komissarlığına tapşırmışdı. Kitabxananın yaradılması məsələsini hərtərəfli öyrəndikdən sonra Xalq Maarif Nazirliyi 1919-cu ilin

yanvar ayında Bakı Bələdiyyə İdarəsinə müraciət edərək kitabxana üçün bina ayrılmasını xahiş etmişdir.[143] Həmçinin Maarif Nazirliyi Respublika Dövlət Ümumi Kitabxanasının əsasnaməsini hazırlamaq məqsədi ilə xarici ölkələrin iş təcrübəsini öyrənmək üçün komissiya yaratmışdı. Lakin çox təəssüf ki, bu dövrdə ölkənin siyasi, iqtisadi və ictimai həyatında baş verən çətinliklər, xüsusilə maliyyə çətinlikləri hökumətin bu təklifinin həyata keçirilməsinə imkan vermədi.

Müstəqil Azərbaycan hökuməti qısa bir müddətdə, cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ölkədə xalq maarifi, mədəniyyət, o cümlədən kitabxana işi sahəsində böyük işlər görmüşdür. Xalq Cümhuriyyəti Parlamentinin və Azərbaycan hökumətinin qəbul etdiyi mədəni quruculuq haqqında sənədləri diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, bu sənədlərdə kitabxana işi məsələləri qırmızı xətt kimi keçir, əhaliyə kitabxana xidmətinin təşkilinə böyük qayğı ilə yanaşılır. Məhz bu sənədlərdə milli mədəniyyətimizin inkişaf konsepsiyası öz əksini tapmış və gələcək nəsillərə yadigar kimi istiqamətləndirilmişdir.

1920-ci ilin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti özünün ən ağır günlərini yaşayırdı. Ölkədə iqtisadi çətinliklərlə yanaşı, hökumətə qarşı mübarizə aparan bolşeviklər siyasi vəziyyəti də gərginləşdirirdilər. Daxildən hökuməti tətillərlə, xaricdən isə hərbi müdafilə ilə hədələyirdilər.

1920-ci il aprelin 27-də XI Qırmızı Ordu Azərbaycan ərazisinə soxulub Bakıya doğru irəliləməyə başladı. XI ordunun Azərbaycana hücumu ilə gündüz saati 12-də AK(b)P MK və RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu adından hakimiyyəti təhvil vermək haqqında Azərbaycan Parlamentinə ultimatum verildi. Azərbaycan Parlamenti axşam saat 11-də hakimiyyətin Azərbaycan Kommunist Partiyasına verilməsi haqqında qərar qəbul etdi. Beləliklə, 23 ay fəaliyyət göstərən Azərbaycan Milli Hökuməti 1920-ci il aprelin 27-də XI ordunun süngülərinin təzyiqi altında hakimiyyəti bolşeviklərə verdi. Müstəqil Azərbaycan Cümhu-

riyyəti devrildi.

Xalqımızın tarixində və taleyində mühüm hadisə olan Azərbaycan Xalq Cümhuriyyəti itirilmiş dövlətçilik ənənələrini qısa bir müddətdə bərpa etməklə öz hökuməti, parlamenti, milli ordusu, pul vahidi olan dünyəvi demokratik respublikaya çevrildi. Dünya dövlətlərinin əksəriyyəti tərəfindən tanınan Azərbaycan böyük beynəlxalq nüfuz qazanmışdı.

Milli dövlətçiliyimizin tarixi nailiyyəti olan Azərbaycan Xalq Cümhuriyyəti qısa bir ömür yaşasa da xalqımızın əzəli arzusu olan müstəqillik ideyalarının gələcəkdə gerçəkləşməsi üçün zəngin ənənələr formalaşdırdı, milli ideologiyanın, Azərbaycançılıq ideologiyasının inkişafının elmi əsaslarını yaradıb yadigar qoydu.

I fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı

[1] Azərbaycan tarixi. VII C.- V C.- B., 2001.- S. 183.
[2] Azərbaycan tarixi. III C.- III C.- B., 1964.- S. 839.
[3] Yenə orada.
[4] Yenə orada.
[5] Yenə orada.- S. 840.
[6] Azərbaycan tarixi. VII C.- V C.- B., 2001.- S. 222.
[7] Yenə orada, S. 228.
[8] Yenə orada, S. 230.
[9] Yenə orada, S. 228.
[10] Yenə orada, S. 228.
[11] Yenə orada, S. 228.
[12] Həsənov H. İnqilabdan əvvəl Azərbaycanda kitabxana işi.- B., 1965.- S. 66.
[13] Yenə orada.- S. 70.
[14] Məmmədquluzadə C. Seçilmiş əsərləri.-II C.- C. I.- Bakı, 1951.- S. 423.
[15] Azərbaycan ədəbiyyatı tarixi. III C.- C. II.- B., 1960.- S. 380.
[16] Həsənov H. İnqilabdan əvvəl Azərbaycanda kitabçılıq işi.- B., 1965.- S. 80.
[17] Azərbaycan kitabı (biblioqrafiya). III C.- C. 1, B., 1964.- S. 46.
[18] Həsənov H. İnqilabdan əvvəl Azərbaycanda kitabçılıq işi.- B., 1965.- S. 80.
[19] Инвентары типографии бр. Оруджевск.- Б., 1917.- С. 2.
[20] Книга, графика и плакат Азербайджана.- Б., 1958.- С. 19.
[21] Абрамов К.И. История библиотеки: Dərs vəsaiti.- M., 2000.- S. 96.
[22] Azərbaycan kitabı (biblioqrafiya). III C.- C. 1, B., 1964.- S. 59-146.
[23] Surə. Ümumi kitabxanalar // İrşad qəzeti.- 1906, 18 may.- № 116.- S. 2-3.
[24] «Kaspi qəzeti».- 1903, 9 dekabr.- № 263.- S. 3.
[25] «Tərəqqi qəzeti».- 1909, 14 yanvar.- № 11.- S. 3.
[26] Azərbaycan tarixi. VII C.- C. V.- B., 2001.- S. 87.
[27] Yenə orada.- S. 219.
[28] Yenə orada.- S. 213.
[29] Azərbaycan tarixi. C.II- B., 1964.- S. 852.
[30] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 58.
[31] Yenə orada.- S. 58.
[32] «Kaspi» qəzeti.- 1902.- 23 dekabr.- № 278.- S. 1-3.
[33] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 78.
[34] Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən.- B., 1969.- S. 82.
[35] Azərbaycan tarixi.- C. III.- B., 1964.- S. 845.
[36] «Bakı» qəzeti.- 1910.- 27 iyun.- № 143.- S. 3.
[37] Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən.- B., 1960.- S. 80.
[38] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 91.
[39] Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən (1870-1920).- B., 1960.- S. 65.

[40] «İrşad» qəzeti.- 1906.- 12 iyul.- № 3163
[41] «Bakı» qəzeti.- 1906.- 1 avqust.- № 165
[42] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 88.
[43] «İrşad» qəzeti.- 1906.- 12 iyul.- № 163.- S.2.
[44] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 89.
[45] «Səda» qəzeti.- 1911.- 22 fevral.- № 43
[46] Azərbaycan tarixi.- 7 cilddə, 5-ci cild.- B., 2001.- S. 94.
[47] Yenə orada.- S. 196.
[48] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 73.
[49] Yenə orada.- S. 68.
[50] Макаев А. Библиотекарь-большевик // «Библиотекарь» журн. 1958.- № 4.- С.42.
[51] «Bakı» qəzeti.- 1907.- 30 yanvar.- № 524.- S. 3.
[52] Из истории нелегалных библиотек революционных организаций в царской России: Сборник материалов.-М., 1955.- С. 155.
[53] Makaev N. Biblioteka –bolşevik // «Bibliotekar» jur.- 1958.- № 6.- S. 42.
[54] Народное образование.- Б., 1915
[55] Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən.- B., 1961
[56] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 77.
[57] Народное образование.- Б., 1912
[58] Народное образование. Народное просвещение.- Б., 1915
[59] Xələfov. A.A. Azərbaycanda kitabxana işinin tarixindən.- B., 1960.- S. 50.
[60] Yenə orada.- S. 50.
[61] Народное образование.- Bakı, 1910-1915-ci illər nəşrləri
[62] Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən.- B., 1960.- S. 52.
[63] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 73.
[64] «Нефтяное дело» jur., 1900.- № 4.- S. 198.
[65] Народное образование.- Bakı.- 1915
[66] Yenə orada.
[67] Azərbaycan tarixi.- B., 2001.- S. 205.
[68] Abdullayev A. Azərbaycanda ilk «cəmiyyəti xeyriyyə» təşkilatları // «Azərbaycan müəllimi» qəzeti.- 1958.- 10 aprel
[69] Yenə orada.
[70] Azərbaycan tarixi. C. V.- B., 2001.- S. 205.
[71] «İrşad» qəzeti.- 1906.- 11 mart.- № 5.- S.2.
[72] «Tərqqi» qəzeti.- 1908.- 5 noyabr.- № 34, S. 2
[73] «İqbal» qəzeti.- 1914.- 14 fevral.- № 580.- S. 2.
[74] Yenə orada.
[75] «Yeni iqbal» qəzeti.- 1915.- 16 noyabr.- № 167.
[76] Azərbaycan tarixi. C. V.- B., 2001.- S. 87.
[77] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 105.
[78] «Həyat» qəzeti.- 1906.- 9 aprel.- № 77.- S. 3.
[79] Yenə orada.

[80] Yenə orada.
[81] Azərbaycan Kommunist Partiyasının tarixi.- B., 1958.- S. 74.
[82] Yenə orada.- S. 137.
[83] Azərbaycan tarixi. C. V.- B., 2001.- S. 90.
[84] Численности, состав естественное и механическое движение населения Азерб. ССР.- Б., 1967.- С. 30.
[85] Ordubadi M.S. Həyatım və mühitim (əlyazması) səh. 49-52. Azərbaycan SSR Elmlər Akademiyası əlyazmalar fondu.- M.S.Ordubadi arxivi.- № 16.
[86] Yenə orada.
[87] Численность состав естественное и механическое движение населения Азерб. ССР.- Б., 1967, С. 30.
[88] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixindən.- B., 1960.- S. 72-73.
[89] «Vətən uğrunda» jurnalı.- 1945.- № 5.- S. 77-78.
[90] Azərbaycan tarixi. C. V- B., 2001.- S. 87.
[91] M.N.Tahirzadə «Qiraətxaneyi-islamiyyə» (Nuxada) // «İrşad» qəzeti.- 1906.- 8 avqust.- № 186.- S. 3.
[92] «Tərəqqi» qəzeti.- 1909.- 14 yanvar.- № 11.- S. 3.
[93] Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixindən.- B., 1960.- S. 70.
[94] «İrşad» qəzeti.- 1906.- 25 sentyabr.- № 225.- səh.3
[95] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B, 1964.- S. 98.
[96] Yenə orada.- S. 99.
[97] Zəkiyev İ. Əsrlərin əks sədası.- B., 1991.- S. 165.
[98] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B, 1964.- S. 106.
[99] «Bakinskiy raboçiy» qəzeti.- 1917.- 21 iyun.- № 16.- S. 3.
[100] Yenə orada.- № 11.- S. 7-9.
[101] Profsoyuznıy vestnik.- 1917.- № 11.- S. 7-9.
[102] Yenə orada.- S. 9-10.
[103] Xələfov. A.A. Azərbaycanda kitabxana işinin tarixindən.- B., 1960.- S. 91.
[104] «Вестник прикаспийской кооперасии».- 1918.- № 1-2. С. 155-156.
[105] Azərbaycan tarixi: Dərslik.- B., 2001.- S. 22.
[106] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti.- B., 2001.- S. 26-27.
[107] Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası).- B., 1990.- № 2.- S. 21.
[108] Народное образование в Азербайджане. 1920-1927 гг.- Б., 1928.- С. 14.
[109] Азербайджанская Демократическая Республика (1918-1920) законодателные акты.- Б., 1998.- С. 70.
[110] Azərbaycan tarixi. C.V.- B., 2001.- S. 483.
[111] Азербайджанскайа Демократическая Республика (1918-1920) законодателные акты.- Б., 1998.- С. 332.

[112] Yenə orada.- S. 215.
[113] Yenə orada.- S.100-101.
[114] Yenə orada.- S.101.
[115] Abel Məhərrəmov. Bakı Dövlət Universiteti.- B., 2000.- S. 1-2.
[116] Азербайджанская Демократическая Республика (1918-1920) законодательные акты.- Б., 1998.- С.102.
[117] Yenə orada.- S.194
[118] Azərbaycan tarixi. VII C.- C.V.–B., 2001.- S. 488.
[119] Азербайджанская Демократическая Республика (1918-1920) законодательные акты.- Б., 1998.- С.234.
[120] Yenə orada.- S.234.
[121] Yenə orada.- S.35.
[122] Azərbaycan kitabı (biblioqrafiya). III C.- C. I.- 1720-1920.- B., 1963.- 219 S.
[123] Yenə orada.- S. 169-179.
[124] Azərbaycan tarixi. VII C.- C. V.- –B., 2001.- S. 498.
[125] Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi.- Hissə I.-B., 1991.- S. 91.
[126] Азербайджанская Демократическая Республика (1918-1920) законодательные акты.- Б., 1998.- С. 103.
[127] İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin tarixi.- B.,2000.- S. 18.
[128] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament II.- B., 1998.- S. 51-98.
[129] Azərbaycan tarixi. VII C.- C. V –B., 2001.- S. 500.
[130] Yenə orada.- S. 500.
[131] Азербайджанская Демократическая Республика (1918-1920) законодательные акты.- Б., 1998.- С. 336.
[132] «Новый мир» qəzeti.- 1919.- 25 dekabr.- № 13.- S. 4.
[133] M.Ə.Sabir adına kitabxananın onilliyi.- B., 1929
[134] Tağıyev H. Azərbaycanda kitabxanaçılıq işi.- B., 1964.- S. 96.
[135] Азербайджанская Демократическая Республика (1918-1920) законодательные акты.- Б., 1998.- С. 102.
[136] Азербайджанский Государственный Университет имени Ленина, первое десятилетие.- 1919-1920.- Б., 1928.- С. 115.
[137] «Бакинский рабочий» qəzeti.- 1921.- 3 avqust.- № 174
[138] Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Hissə I.- B., 1991.- S. 92
[139] «Kommunist» qəzeti (rusca).- 1921.- 31 dekabr.- № 249
[140] Bakı Dövlət Universitetinin Sovet dövrü fəaliyyəti haqqında məlumat dərsliyin ikinci fəslində veriləcəkdir.
[141] Filologiya fakültəsinin əsərləri.- B, 1958.- S. 191.
[142] İsmayılov X. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin tarixi.- B., 2000.- S. 22.
[143] Yenə orada.

II FƏSİL
XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ AZƏRBAYCANDA KİTABXANA İŞİ (1920-1929-cu illər)

§ 2.1. Azərbaycanda Sovet hakimiyyətinin qurulması

1920-ci il aprel ayının 28-də xalqımızın müstəqilliyi tarixində böyük rol oynayan Azərbaycan milli hökuməti XI qırmızı ordunun təzyiqi altında süqut etdi. Hakimiyyət bolşeviklərin əlinə keçdi. XI ordu tərəfindən yaradılmış Müvəqqəti İnqilab Komitəsi Azərbaycanı müstəqil Sovet Sosialist Respublikası elan etdi. Elə həmin gün Müvəqqəti İnqilab Komitəsi yeni hökumətin – Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibini təsdiq etdi. Nəriman Nərimanovun başçılıq etdiyi bu ilk hökumətin tərkibinə 9 komissarlıq daxil idi. Qısa bir müddətdə XI ordu Azərbaycanın bütün bölgələrini öz nəzarəti altına almağa müvəffəq oldu.

Azərbaycan Müvəqqəti İnqilab Komitəsi aprelin 29-da respublika adından RSFSR hökumətinə müraciət edərək ittifaq bağlamağı təklif etdi. Öz işğalçılıq siyasətini pərdələməyə çalışan bolşeviklər ilk vaxtlar Azərbaycanı Müstəqil Sovet Respublikası kimi elan edirdilər. Bu ideya 1920-ci il mayın 5-də V.İ.Leninin Azərbaycan xalqına göndərdiyi təbrik teleqramında irəli sürülmüşdü. Teleqramda deyilirdi: «Xalq Komissarlar Soveti Müstəqil Azərbaycan Respublikası zəhmətkeş kütlələrinin azadlığa çıxmasını alqışlayır və möhkəm əmin olduğunu bildirir ki, Müstəqil Azərbaycan Respublikası öz Sovet hökumətinin rəhbərliyi altında, RSFSR ilə birgə öz azadlıq və istiqlaliyyətini Şərqin məzlum xalqlarının qəddar düşməni olan imperializmdən qoruyub saxlayacaqdır.

Yaşasın Müstəqil Azərbaycan Sovet Respublikası!

Yaşasın Azərbaycan fəhlə və kəndliləri!

Yaşasın Azərbaycan və Rusiya fəhlələrinin və kəndlilərinin ittifaqı!»[1]

V.İ.Lenin tərəfindən beynəlxalq aləmdən ehtiyatlanaraq irəli sürülmüş «Müstəqil Azərbaycan Respublikası» ideyasına 1921-ci ildə Zaqafqaziya Federasiyasının yaradılması və 1922-ci il dekabrın 30-da SSRİ-nin yaradılması ilə son qoyuldu. Azərbaycan yenidən Rusiyanın müstəmləkəsinə çevrildi. O, respublika adlandırılmasına baxmayaraq, bütün sahələrdə beynəlxalq hüquqi statusunu tamamilə itirmişdi.

Elə yarandığı ilk günlərdən Azərbaycan Sovet Sosialist Respublikasının müstəqilliyi formal xarakter daşıyırdı. Ali hakimiyyət orqanlarının - Müvəqqəti İnqilab Komitəsinin və Xalq Komissarları Şurasının ancaq azərbaycanlılardan ibarət təşkil edilməsinə baxmayaraq, real hakimiyyət RK(b)P-nın ayrılmaz tərkib hissəsi olan Azərbaycan K(b)P-nın əlində idi. Əsas özəyini qeyri-millətlər, əsasən rus və ermənilər təşkil edən AK(b)P Azərbaycanda Sovet Rusiyasının müstəmləkə siyasətini həyata keçirməyə çalışırdı. Azərbaycan hökumətinin faktiki olaraq öz müstəqilliyini itirməsinə baxmayaraq, «Azərbaycan Sovet Sosialist Respublikası» adını, habelə bir sıra dövlətçilik atributlarını - bayraq, gerb, himn və konstitusiyasını qoruyub saxlaya bilməsi nailiyyət hesab edilə bilərdi. Azərbaycanın Sovet Respublikası kimi fəaliyyəti onun gələcək inkişafı üçün şərait yaradırdı. Məhz bu şəraitdə əməksevər Azərbaycan xalqı Sovet dövrünün və sosializm quruculuğunun hər cür çətinliklərinə, həyata keçirilən tədbirlərin xalqımızın milli mentalitetinə uyğun gəlməməsinə, baş verən səhvlərə, ədalətsizliklərə sinə gərərək doğma Azərbaycanın yenidən qurulması naminə böyük əzm və fədakarlıqla çalışmış və qısa bir dövrdə iqtisadiyyat, siyasət və mədəni quruculuq sahəsində mühüm nailiyyətlər əldə etmişdir.

Azərbaycan Sovet Sosialist Respublikasının 70 illik fəaliyyəti haqqında danışarkən ulu öndər Heydər Əliyev olduqca dərin elmi təhlil əsasında ümumiləşdirmələr aparmış, bu dövrü tədqiq etməyin, öyrənməyin elmi əsaslarını hazırlamışdır. Heydər Əliyev yazır: «Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaranmışdır... 1920-1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Dünyəvi teatr, müasir məktəb və demokratik mətbuatın yaranmasının bünövrəsi XIX əsrdə qoyulsa da, məhz bu 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, qadınların hüquqlarının qorunması və sosial-iqtisadi həyatda fəal iştirakı təmin olunmuş, onlarca teatr açılmış, kino sənəti inkişaf etmiş, minlərlə qəzet və jurnal çap olunmağa başlamışdı.»[2]

Ulu öndərin bu müraciətində ölkəmizin həyatında baş verən hadisələr, əldə edilmiş nailiyyətlər xronoloji ardıcıllıqla, tarix elminə xas olan ciddi obyektivliklə dövrləşdirilmiş, hər dövrün öz nailiyyətləri aşkarlanmışdır. Müraciətdə 20-30-cu illər Böyük Vətən müharibəsi illəri, müharibədən sonrakı quruculuq illəri, müasir tariximizin 1970-1985-ci dönüş illəri ayrıca bölmələrdə təhlil edilib ümumiləşdirilmişdir.

Doğrudur, ölkəmizdə müstəqillik əldə edildikdən sonra bəzi tarixçilər Sovet dövrü tarixini şərh edərkən ciddi səhvlərə yol verir, bu dövrdə xalqımızın əldə etdiyi müvəffəqiyyətlərin üstündən qələm çəkmək, mədəni nailiyyətləri heçə endirmək istəyirdilər. Çox yaxşı ki, bu proses uzun sürmədi, Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra tarixi araşdırmalarda meydana çıxan bu konsepsiya iflasa uğradı. Xalqımızın tarixi düzgün işıqlandırılmağa başlandı. Hazırda Sovet dövrünün tədqiqatçıları ulu öndər Heydər Əliyev tərəfindən dərin elmi təhlil əsasında formalaşdırılmış tarixi konsepsiyaya söykənərək öz tədqiqatlarını aparmalı, tarixi hadisələri dövrlə, zamanla, cəmiyyətdə baş verən dəyişikliklərlə əlaqəli şəkildə öyrənməlidirlər. Belə tədqiqat zamanı tarixi həqiqət üzə çıxar, tarixi obyektivlik bərpa olunar. Tarixi hadisələrə bu cür yanaşma

metodu Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra 20-ci illərdə baş verən, xalqımızın milli mənafeyinə, milli ideologiyasına zidd olan qarışıq proseslərin, hökumətə başçılıq edən AK(b)P-nın sözdə bir, işdə başqa siyasətinin təhlili üçün əhəmiyyətlidir. Məhz bu konsepsiya baş verən hadisələrin mənfi və müsbət cəhətlərini aşkara çıxarmaq üçün olduqca zəruridir. Bu tarixi konsepsiya cəmiyyətdə baş verən bütün siyasi, iqtisadi, mədəni və ictimai proseslərin öyrənilməsinə tətbiq edilməlidir.

Ulu öndər özünün tarixi dəlillərə, obyektiv ümumiləşdirmələrə əsaslanan bu konsepsiyasında yazır: «Beləliklə, XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxardı, yeni mühitdə formalaşan görkəmli ictimai-siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması üçün münbit zəmin yarandı. Bu dövrü XX əsr Azərbaycan tarixinin ***birinci mərhələsi*** adlandırmaq olar.

Azərbaycan üçün ***ikinci mərhələ*** çar Rusiyası dağılandan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövrdür. Həmin dövrdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi.

... Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu.

... ***Üçüncü mərhələ*** 1920-ci ilin aprelindən başlanır. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra da, o öz müstəqilliyini saxlamış, aprelin 30-da Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilə imzalanmışdı. Azərbaycanda xarici ölkələrin nümayəndəlikləri, o cümlədən Rusiya konsulluğu da fəaliyyət göstərirdi. Azərbaycanın bu dövrdə yürütdüyü uğurlu siyasətin təzahürlərindən biri kimi Azər-

baycanın ərazi bütövlüyünün qorunması istiqamətində aparılan işlər, Moskva və Qars müqavilələri, Genuya konfransı sayıla bilər.»[3]

1920-ci ildə Bakıda Şərq xalqlarının birinci qurultayı keçirildi. Qurultayın gedişi və orada olan əhval-ruhiyyə bolşevikləri təmin etmədi. Onlar öz siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyi ideyasından əl çəkdilər. 1921-ci ildə Zaqafqaziya Federasiyasının təşkili və 1922-ci ilin dekabrında SSRİ-nin yaradılması Azərbaycanın müstəqilliyinə son qoydu. Azərbaycan yenidən asılı vəziyyətə düşdü. Azərbaycan Sovet Sosialist Respublikası 1922-1991-ci illərdə SSRİ-nin tərkibində fəaliyyət göstərdi.

Hər cür maneələrə, çətinliklərə, respublikanın müstəqil inkişafını təmin edən şəraitin olmamasına baxmayaraq, bu illərdə Azərbaycanda çox zəngin iqtisadi, mədəni, intellektual potensial yaranmış, iqtisadi və mədəni inkişaf sahəsində ciddi nailiyyətlər əldə edilmişdir.

Azərbaycan Sovet hökuməti fəaliyyətə başladığı ilk günlərdən RSFSR-in sosializm quruculuq təcrübəsindən geniş surətdə istifadə və bəzi hallarda orada gedən prosesləri Azərbaycana köçürmək, təqlid etmək yolu ilə quruculuq işlərinə başladı. Hər şey dəyişdirilir, yenidən qurulurdu. Əksər hallarda müsbət təcrübəyə, milli xüsusiyyətlərə əhəmiyyət verilmirdi.

Azərbaycan İnqilab Komitəsi ilk günlərdən Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəçilik strukturlarını dağıtmağa başladı. 1920-ci il 3 may tarixli dekretlə yerlərdə qəza, mahal və kənd inqilab komitələri yaradıldı. Artıq 1920-ci il avqust ayının axırlarında respublikada 16 qəza, 46 mahal və 435 kənd inqilab komitələri fəaliyyət göstərirdi. İnqilab komitələri seçki yolu ilə formalaşmadığından onların fəaliyyətində ciddi səhvlərə yol verilmişdi.

Ölkədə tezliklə sosializm quruculuğuna başlamaq tapşırığını alan Azərbaycan İnqilab Komitəsi Sovet Rusiyasının təcrübəsindən istifadə edərək sosialist iqtisadiyyatına

keçməyi nəzərdə tutan qanunlar qəbul etməyə, dekretlər verməyə başladı. İnqilab Komitəsi 1920-ci il mayın 5-də torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsi, mayın 12-də respublika ərazisində meşələr, sular və yeraltı sərvətlərin, mayın 27-də neft sənayesinin, 1920-ci il iyunun 1-də Xəzər ticarət donanmasının, iyunun 9-da bankların, iyunun 15-də balıq sənayesinin milliləşdirilməsi haqqında dekretlər verdi[4]. 1920-ci il iyunun 12-də isə zavodlar, fabriklər və digər sənaye müəssisələri dövlət mülkiyyəti elan edildi. Həmçinin balıq sənayesi, banklar da milliləşdirildi. Azərbaycan Respublikasının Xalq Bankı yaradıldı.

Azərbaycan İnqilab Komitəsi 1920-ci il mayın 29-da milliləşdirilmiş sənaye müəssisələrini idarə etmək məqsədilə Azərbaycan Xalq Təsərrüfatı Şurasını (AXTŞ) yaratdı. Bu vəzifəyə XI ordu ilə Bakıya gəlmiş N.İ.Solovyov təyin edildi.

Sovet hakimiyyətinin ilk günlərindən hiss edilirdi ki, Azərbaycan SSR-in həm siyasi, həm iqtisadi fəaliyyəti, xüsusilə çox gərəkli olan neft sənayesi Rusiyanın Bakıdakı nümayəndələri tərəfindən idarə olunur. Hələ 1920-ci il aprelin 15-də V.İ.Leninin göstərişi ilə A.P.Serevrovski müstəqil Azərbaycan Respublikasında Bakı Neft Komitəsinin sədri təyin edilmiş və ona Bakı neftinin Rusiyaya göndərilməsi haqqında göstəriş verilmişdi. Bakıda neft sənayesini müstəqil idarə edən, Azərbaycan hökumətinə tabe olmayan Serevrovski 1920-ci ilin sonunadək Rusiyaya 3 milyon pud neft və neft məhsulları göndərməyə müvəffəq olmuşdu ki, bu da Bakıda istehsal olunan neftin 20 faizinə bərabər idi[5].

§ 2.2. Xalq təhsili və maarif işi

Sovet hakimiyyətinin ilk illərində həyata keçirilən tədbirlər içərisində mədəniyyət, təhsil və mədəni-maarif işləri mühüm yer tuturdu. Sovet hökuməti mədəni quruculuq vəzifələrinə xüsusi diqqət yetirir, bunu sosializm quruculuğunun tərkib hissəsi, əhaliyə kommunist ideologiyasının

aşılanmasının mühüm vasitəsi hesab edirdi.

Mədəni quruculuq sahəsində Sovet hökumətinə çox pis miras qalmışdı. Ölkəmizdə çar Rusiyasının uzun sürən müstəmləkəçilik siyasəti Azərbaycan mədəniyyətinə və maarifinə olduqca böyük zərbə vurmuşdu. Əhalinin 70 faizə qədəri savadsız idi. Azərbaycan dilində məktəblər olduqca az idi. Məktəblərdə dərsliklər yox dərəcəsində idi. Müəllim kadrları çatışmırdı. Ölkənin təhsil sistemində böyük hərcmərclik hökm sürürdü. Azərbaycanın rayonlarında, xüsusilə ucqar kəndlərdə məktəblər yox idi.

Çar hökuməti maarif işlərinə olduqca az vəsait ayırdığından bütün məktəbyaşlı uşaqları əhatə edən məktəb sistemi yaratmaq qeyri-mümkün idi. Məktəbyaşlı uşaqların yarıdan çoxu məktəbdən kənarda qalmışdı. Mövcud məktəblərdə ana dilində dərslərin keçirilməsinə icazə verilmirdi. Çar hökuməti rus olmayan millətlərin mədəniyyəti və məişəti sahəsində ikibaşlı siyasət yürüdürdü: bir tərəfdən onları ruslaşdırmağa, digər tərəfdən isə onların mədəni geriliyini, adət və mədəniyyətlərində olan mürtəce qalıqları saxlamağa, ayrı-seçkilik salmağa, dini mövhumatı möhkəmləndirməyə çalışırdı. Qadınların təhsilinə mane olmaq, hər cür hüquqlarını pozmaq, onlara qarşı zorakılıq siyasəti yeritmək adi hala çevrilmişdi.

Mədəniyyətin digər sahələrində də diqqəti cəlb edəcək heç bir irəliləyiş yox idi. Mədəni-maarif müəssisələri yox dərəcəsində idi. Olanların da maddi-texniki bazası zəif olduğundan, bina, avadanlıq və ya bu müəssisələrdə işləyəcək kadrlar çatışmadığından onların işini genişləndirmək mümkün deyildi. Hökumət yeni mədəni-maarif müəssisələri açmaq, onların fəaliyyətini genişləndirmək üçün vəsait ayırmırdı. Ayrı-ayrı idarə və müəssisələrin yanında fəaliyyət göstərən və ianələr vasitəsilə təşkil edilmiş mədəni-maarif müəssisələri olduqca acınacaqlı vəziyyətdə idi. Mədəni quruculuğun digər sahələri: xüsusilə əhalinin savadsızlığının ləğvi, kitab nəşri, yeni sovet mətbuatının yaradılması, elm, ədə-

biyyat və incəsənətin inkişafı sahəsində də böyük gerilik hiss edilməkdə idi. Ölkədə mədəni quruculuq sahəsində mövcud olan bu geriliyi aradan qaldırmaq üçün Azərbaycan Sovet hökumətinin qarşısında iqtisadi, siyasi sahədə olduğu kimi, mədəni quruculuq sahəsində də ciddi tədbirlər görmək zərurəti meydana çıxmışdı. Sovet hakimiyyəti kommunist ideologiyasına sadiq, ölkənin iqtisadi və siyasi həyatında yaxından iştirak edən bilikli, savadlı mütəxəssis kadrlara böyük ehtiyac duyurdu.

Məhz buna görə, Xalq Cümhuriyyətinin süqutundan sonra bütün dövlət hakimiyyətini öz əlində toplayan Azərbaycan Müvəqqəti İnqilab Komitəsi aprelin 28-də Azərbaycan SSR Xalq Komissarları Sovetini təşkil etdi. Elə həmin gün Azərbaycan İnqilab Komitəsinin qərarı ilə Xalq Maarif Komissarlığı təşkil edildi. Azərbaycan Xalq Cumhuriyyətinin bütün maarif aparatı ləğv edildi. Yerlərdə inqilab komitələrinin yanında zəhmətkeşlərin təhsilinə, tərbiyəsinə və mədəni-maarif işinə rəhbərlik etmək üçün xüsusi şöbələr yaradıldı. Xalq Maarif Komissarı vəzifəsinə Dadaş Bünyadzadə təyin edildi.

Maarif Komissarlığının funksiyası olduqca böyük idi. Respublikada bütün incəsənət, elm, siyasi və mədəni-maarif işləri Maarif Komissarlığına tabe edilmişdi.

1920-ci il mayın 12-də Xalq Maarif Komissarlığı xalq maarifi sahəsində Sovet hökumətinin əsas prinsiplərini elan etdi. Bu prinsiplərdə hökumətin xalq maarifi sahəsində həyata keçirdiyi proqramın mahiyyəti öz əksini tapmışdı. Bu proqrama görə, bütün məktəbyaşlı uşaqlar ana dilində təhsil almaq hüququ əldə edir, hər cür təhsil haqqı ləğv edilir, qızlarla oğlanların bir yerdə oxuması üçün şərait yaradılırdı. 1920-ci il mayın 20-də Azərbaycan İnqilab Komitəsi dinin məktəbdən ayrılması haqqında dekret verdi. Məktəblərdə dini dərslərin keçirilməsi qadağan edildi.

Mədəniyyət və xalq təhsili sahəsində həyata keçirilən tədbirlər bilavasitə RSFSR-in təcrübəsinə əsaslanır, yerli

şərait, milli mentalitet, milli xüsusiyyətlər, adət-ənənələr nəzərə alınmırdı. Hökumət mədəni islahatları «kommunist ideologiyası»nı rəhbər tutaraq inqilabi metodlarla aparırdı. Cəmiyyət həyatının demokratikləşdirilməsi sahəsində aparılan tədbirlər partiyalı xarakter daşıyır, bilavasitə Kommunist Partiyasının rəhbərliyi altında həyata keçirilirdi. Əsas məqsəd mədəniyyəti partiya ideologiyası ruhunda xalqa aşılamaq, «kommunist ideologiyası», «proletar diktaturası» mübarizləri formalaşdırmaq idi. Sovet hökumətinin mədəni quruculuq və xalq maarifi sahəsində çox ciddi tədbirlər görməsinə baxmayaraq, bu iş böyük çətinliklərlə üzləşirdi. Yeni təhsil sistemi yaratmaq, geniş mədəni-maarif müəssisələri təşkil etmək, ədəbiyyatı, incəsənəti, elmi inkişaf etdirmək, ölkədə hökm sürən cəhaləti, mədəni geriliyi aradan qaldırmaq, qadınları patriarxal köləlikdən azad etmək, zəhmətkeşlərin mədəni səviyyəsini yüksəltmək vəzifələri olduqca çətin mübarizə şəraitində həyata keçirilirdi: yeniliklə köhnəlik, yeni kommunist ideologiyası ilə köhnə ideologiya arasında ciddi mübarizə gedirdi. Bu mübarizə bəzi hallarda qeyri-rus millətlərə yuxarıdan aşağı baxan şovinist dövlət məmurları tərəfindən zorakılıq metodları ilə, yerli şərait nəzərə alınmadan həyata keçirilirdi ki, bu da bir çox hallarda böyük siyasi və ideoloji təhriflərə, yenisini yaratmadan köhnənin ləğvinə, köhnəliklə yeniliyin əlaqəsinin pozulmasına, milli adət-ənənələrə qarşı biganəliyə gətirib çıxarırdı.

Yerli adət-ənənələri bilməyən, onlara çirkin münasibət bəsləyən XI ordu ilə Bakıya gələn xüsusi şöbənin məmurları mədəni quruculuq və xalq maarifi sahəsində hökumətin siyasətinin formalaşmasına yerli-yersiz müdaxilə edirdilər ki, bu da əhalinin, xüsusilə milli ziyalıların narazılığına səbəb olurdu. Bütün bu pozuntular respublika rəhbərliyində də ciddi qarşıdurmaya gətirib çıxarmışdı.

Nəriman Nərimanov başda olmaqla Azərbaycanın milli ziyalıları mədəni quruculuq və xalq maarifi sahəsində bolşevik ideyalarını, kommunist ideologiyasını həyata keçi-

rərkən yerli şəraiti, milli adət-ənənələri, milli mentaliteti, milli məişət xüsusiyyətlərini, vicdan azadlığını nəzərə almağı, köhnəliyə qarşı ehtiyatla mübarizə etməyi, Rusiya təcrübəsini kor-koranə yox, milli psixologiyanı nəzərə almaqla tətbiq etməyi təklif edirdilər. Onlar həmçinin Azərbaycanın rəsmən elan edilmiş suverenliyinə hörmət etməyi, Bakı ilə regionlar arasında qarşılıqlı əlaqələr yaratmağı, Azərbaycan dilindən dövlət dili kimi istifadə etməyi, milli kadrların hazırlanmasına, irəli çəkilməsinə diqqətlə yanaşmağı tələb edirdilər.

Ancaq Moskvadan göndərilərək, Azərbaycanın partiya və dövlət rəhbərliyində çalışan, yerli xalqlara həqarətlə baxan rus şovinistləri Lominadze, Yeqorov, Mikoyan, Kirov, Orconikidze, digərləri, həmçinin onlara qoşulan M.D.Hüseynov, R.A.Axundov kimi azərbaycanlılar özlərini «sollar», Nərimanovçuları isə «sağlar» adlandıraraq onların hərəkətinə qarşı çıxır, yerli kommunistləri millətçi adlandırırdılar. Əlbəttə, Moskvadan müdafiə edilən «sollar»ın hərəkəti Kommunist Partiyasının xətti kimi qiymətləndirilir, «sağlar»ın təkliflərinə «millətçi» damğası vurulub rədd edilirdi. SSRİ-nin təşkili «sollar»ın xətti-hərəkətinin daha da möhkəmlənməsinə səbəb oldu.

Bütün bunlara baxmayaraq, zaman öz hökmünü verirdi. Yerlərdə milli kadrların yetişməsi, onların sayının çoxalması Azərbaycan mədəniyyətinin düzgün istiqamətə yönəlməsinə müsbət təsir göstərməyə başlamışdı. Azərbaycan Sovet hökuməti 20-ci ilin ikinci yarısından başlayaraq mədəniyyət və xalq maarifi sahəsində əməli addımlar atırdı. Görülən tədbirlər içərisində mədəniyyət və maarif işçilərinin qurultaylarının, sovetlərin qurultaylarının keçirilməsi və onların qərarları xüsusi əhəmiyyət kəsb edirdi.

Azərbaycan mədəniyyət və maarif işçilərinin I qurultayı 1920-ci ildə, II qurultayı 1921-ci ildə keçirilmişdir. Hər iki qurultayda Azərbaycan hökumətinin başçısı Nəriman Nərimanov çıxış etmiş, Sovet hökumətinin mədəniyyət və

xalq maarifi sahəsində siyasətini şərh etmiş, respublikada mədəni quruculuq sahəsində aparılacaq işlərin proqramını vermişdir.

Nəriman Nərimanov öz çıxışında deyirdi: «Dünyada elə bir quruluş yoxdur ki, o, xalq maarifinin dərhal yayılmasını tələb etsin. Mütləqiyyət-demokratiya quruluşu bu sahədə elə bir gərginlik olmadan da uzun müddət yaşaya bilər. Lakin sovet quruluşu xalq maarifini genişləndirmədən uzun müddət yaşaya bilməz. Əgər mənə desələr ki, məsələn, hər hansı bir sovet ölkəsində bütün fabriklər, zavodlar yaxşı işləyir, komissarlıqların işi qaydaya salınmışdır, amma Xalq Maarif Komissarlığı axsayır, heç bir iş görmür, onda mən cavab verərdim ki, orada sovet quruluşu uzun müddət yaşaya bilməz.»[6]

Nəriman Nərimanov çıxışında köhnə quruluşun ləğvi ilə əlaqədar məktəbin həmçinin tədris və tərbiyə prosesinin də yeniləşməsini zəruri hesab edirdi.

1921-ci ilin mayında çağırılan Birinci Ümumazərbaycan Sovetlər qurultayı xalq maarifi və mədəniyyət sahəsində böyük müvəffəqiyyətlər əldə edildiyini qeyd etdi. Qurultay mədəniyyət və maarif işini çox mühüm dövlət əhəmiyyətinə malik bir iş kimi qiymətləndirərək, bütün dövlət orqanlarına xalq maarifinin və mədəni müəssisələrin ehtiyaclarını birinci növbədə ödəməyi zəruri saydı. Qurultayın qərarında deyilirdi: «Bütün Azərbaycan işçi və kəndlilərinin birinci qurultayı bütün hökumət orqanlarına mədəni quruculuğa ən artıq diqqət verməyi və ümumi bir qayda olmaq üzrə maarif orqanlarının ehtiyaclarını birinci növbədə təmin etmək lazım gəldiyini təklif edir.»[7]

Qurultayın qərarına müvafiq olaraq Azərbaycan Xalq Komissarları Soveti 1921-ci ilin 29 iyununda Xalq Maarif Komissarlığının ehtiyaclarını birinci növbədə ödəmək haqqında qərar qəbul etdi. Həmçinin hökumət 1922-ci ildə respublikada ərzaq vergisindən toplanan vəsaitin 10%-nin qəzalarda maarif xərcləri üçün qalması və kəndlilərin

mədəni səviyyəsinin yüksəldilməsi üçün xərclənməsi haqqında dekret verdi.[8]

Azərbaycan Sovet hökumətinin 20-ci illərdə xalq maarifi sahəsində apardığı siyasət tədricən öz müsbət nəticələrini vermiş, yeni sovet məktəb şəbəkəsi formalaşmağa başlamışdı.

Hökumət yerlərdə kütləvi surətdə mövcud məktəb şəbəkəsini bərpa etmək, yeni məktəblər açmaq, onların maddi-texniki bazasını möhkəmləndirmək xəttini ardıcıl olaraq davam etdirirdi. 1914-1915-ci illərdə Azərbaycanda 62780 şagirdi olan 942 məktəb fəaliyyət göstərmişdir. Sovet hökuməti qısa müddət içərisində məktəb şəbəkəsini bərpa etməyə müvəffəq oldu. Bir neçə ay ərzində məktəblərin sayı 937-yə, şagirdlərin sayı isə 75515-ə çatmışdı. 1921-1922-ci tədris ilində isə məktəblərin sayı 1176-ya, şagirdlərin sayı isə 84705 nəfərə çatdırıldı.[9]

Hökumətin ilbəil xalq maarifinə ayrılan vəsaiti artırması məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsinə olduqca müsbət təsir göstərirdi. 1926-1927-ci dərs ilində maarif ocaqlarının büdcəsi 1914-cü ildə maarifə sərf edilən məbləğdən demək olar ki, 10 dəfə artıq idi ki, bu da məktəb şəbəkəsinin genişləndirilməsi üçün münbit şərait yaradırdı.

1921-1928-ci illərdə respublikada 185 yeni məktəb binası tikilmişdi.[10] 1926-1927-ci dərs ilində məktəbyaşlı uşaqların 50 faizə qədəri təhsilə cəlb olunmuşdu. Təhsilin Azərbaycan dilində aparılması azərbaycanlı uşaqların təhsilə cəlb edilməsi işinin inkişafı üçün zəmin yaratmışdı. 1928-ci ilin mayında Azərbaycanın MİK-in III sessiyası respublika təhsil tarixində mühüm rol oynayan ümumi təhsilin həyata keçirilməsinə dair perspektiv plan təsdiq etdi. Bu plan ibtidai və yeddiillik məktəblər şəbəkəsinin genişlənməsini təmin etdi, ümumi icbari təhsilə keçmək üçün şərait yaratdı. 1930-1931-ci dərs ilindən başlayaraq bütün ölkədə 8-10 yaşında olan uşaqlar üçün ümumi icbari təhsilin, 1931-1932-ci dərs

ilində isə 11 yaşlı uşaqlar üçün icbari ibtidai təhsilin həyata keçirilməsinə başlandı. Bu işin həyata keçirilməsində böyük çətinliklər olsa da, maarif işçilərinin ciddi səyi nəticəsində onlar aradan qaldırıldı. Ümumi təhsil işi sürətlə həyata keçirilirdi. Artıq 1932-33-cü dərs ilində respublikada məktəblərin sayı 2907-yə, şagirdlərin sayı isə 439,9 min nəfərə çatmışdı.[11]

20-ci illərdə Azərbaycan Sovet hökumətinin xalq maarifi sahəsində həyata keçirdiyi tədbirlər içərisində ən mühümlərindən biri də yeni sovet məktəbləri üçün müəllim kadrların hazırlanması olmuşdur. Respublikada peşəkar müəllim kadrlarının olmaması və müəllimlər hazırlamaq üçün yeni ali və orta ixtisas təhsili məktəblərinin yaradılmasının çətinliyindən, hökumət köhnə müəllim kadrlarının yenidən hazırlanmasına, qısamüddətli kurslar açmağa üstünlük verirdi. Bütün ziyalılar məktəb quruculuğuna cəlb edilirdi.

1920-ci ildə müəllimlərin yalnız 3 faizi ali təhsilli, qalanları isə orta və natamam orta təhsilli idi[12]. Sovet hakimiyyətinin ilk illərində respublikada 2000 nəfər müəllim fəaliyyət göstərirdi. Halbuki bu dövrdə respublikanın 40 min nəfər müəllimə ehtiyacı var idi. Buna görə də 1920-ci ildən başlayaraq ardıcıl olaraq müəllim hazırlamaq üçün qısamüddətli kurslar təşkil edilməyə başlandı. Belə kurslar Bakıda və Azərbaycanın rayonlarında da təşkil edildi.

1921-1925-ci illərdə Azərbaycanda qısamüddətli kurslarda 4423 nəfər müəllim hazırlanmışdı. Kursları bitirən müəllimlər o zaman «Vahid əmək məktəbi» adlanan bir dərəcəli ibtidai məktəblərdə çalışırdılar[13]. Həmçinin hökumət müəllim hazırlamaq üçün orta ixtisas məktəbləri – texnikumlar da təşkil etməyə başlamışdı. 1920-1925-ci illərdə Azərbaycanda 2000 nəfər şagirdi olan 16 texnikum fəaliyyət göstərirdi.

Ali təhsilli müəllimlər isə əsasən 1919-cu ildə yaradılmış Bakı Dövlət Universitetində hazırlanırdı. Bakı Dövlət Universitetinin müəllimləri və tələbələri respublikanın təhsil quruculuğunda yaxından iştirak edirdilər.

Beləliklə, 20-ci illər yeni sovet məktəbinin təşəkkülü

və inkişafında böyük rol oynamış, xalq maarifinin gələcək inkişafı üçün yeni perspektivlər açmışdı.

§ 2.3. Savadsızlığın ləğvi

20-ci illərdə Azərbaycan xalq maarifinin qarşısında duran ən mühüm vəzifələrdən biri savadsızlığın ləğvi idi. Təxmini hesablamalara görə, 1920-ci ildə Azərbaycan əhalisinin 70 faizindən çoxu savadsız idi. Keçmişdən irs qalmış savadsızlığı və mədəni geriliyi aradan qaldırmaq üçün təkcə məktəblər kifayət deyildi, birinci növbədə savadsızlığı ləğv etmək zəruri idi. Sovet hökuməti bilirdi ki, savadsızlıq kimi mədəni və siyasi gerilik davam etdikcə geniş xalq kütlələrini sosializm quruculuğu işinə səfərbər etmək olduqca çətindir. Odur ki, respublikada savadsızlığın ləğvini ümumxalq, ümumdövlət işi elan etdi. Savadsızlığın ləğvi işlərinə rəhbərlik 20-ci ildə Xalq Maarif Komissarlığının məktəbdənkənar işlər şöbəsinə tapşırılmışdı. 1921-ci ildə Baş Siyasi-Maarif İdarəsi yarandıqdan sonra bu işə rəhbərlik ona həvalə edildi. Bu idarənin qarşısında 8 yaşından başlamış 50 yaşına qədər oxuyub-yazmağı bacarmayan bütün şəxslərin savadsızlığını ləğv etmək vəzifəsi qoyulmuşdu.

Respublikanın hər yerində: şəhərlərdə, qəzalarda, qəsəbələrdə, kəndlərdə kütləvi surətdə savadsızlığın ləğvi məntəqələri yaradıldı. Respublikamız bütün mədəni qüvvələri: müəllimlər, mühəndislər, həkimlər, aqronomlar, kitabxanaçılar, tələbələr, qulluqçular savadsızlığı ləğv işinə cəlb edilmişdi.

Yaşlı əhali içərisində savadsızlığın ləğvi partiyanın, dövlətin və bütün ictimaiyyətin işi idi. Bu işə bütün təşkilati qüvvələr: komsomol, həmkarlar təşkilatları və qadınlar arasında iş aparan komissiya cəlb edilmişdi. Onlara partiya təşkilatları rəhbərlik edirdi. Savadsızlığın ləğvi işində mədəni-maarif müəssisələri: klublar, kitabxanalar, səyyar məntəqələr, qiraətxanalar, qiraət komaları yaxından iştirak edir,

savadsızlığı ləğv məntəqələri təşkil edirdilər.

İkinci Sovetlər qurultayı respublikada mədəni geriliyin aradan qaldırılması işində savadsızlığın ləğv edilməsini mühüm bir amil kimi qiymətləndirmişdi. Qurultayını qərarında göstərilir: «Savadsızlığı ləğv etmək işi ən mühüm və ən birinci məsələ olduğu üçün lazım görüldüyü miqdarda sərvət buraxılmalıdır.»[14]

Azərbaycan Sovet hökumətinin həyata keçirdiyi bu mühüm tədbirlərin nəticəsi olaraq savadsızlığın ləğv edilməsi sahəsində böyük müvəffəqiyyət əldə edildi. 1921-ci ildə 2010, 1922-ci ildə 6441, 1923-cü ildə 13523, 1924-cü ildə 30215, 1925-ci ildə 33047 nəfər adam savadsızlığını və az savadlılığını ləğv etdi[15]. Beləliklə, beş il müddətində 85236 nəfər öz savadsızlığını ləğv etdi ki, bunun da 53132 nəfəri azərbaycanlı idi.

Savadsızlığın ləğvi işini dönmədən başa çatdırmağı öz qarşısına məqsəd qoyan Azərbaycan Kommunist Partiyası 1923-cü ilin 7 dekabrında «Azərbaycan SSR-də savadsızlıqla mübarizə haqqında» qərar qəbul etdi. Bu qərara əsasən Azərbaycan Xalq Komissarlar Sovetinin yanında «Savadsızlıqla mübarizə komitəsi» yaradıldı. Bu komitə sonralar yerlərdə öz şöbələrini yaratdı və savadsızlığın ləğvi sahəsində xeyli iş gördü.

1924-cü il iyulun 17-də Azərbaycanda «Rədd olsun savadsızlıq» Cəmiyyəti təsis edildi. Bakı və qəzalarda şöbələri təsis edilmiş cəmiyyətin işində partiya təşkilatları yaxından iştirak edirdilər. 1925-ci ildə «Rədd olsun savadsızlıq» Cəmiyyətinin 10 min üzvü olan 16 şöbəsi fəaliyyət göstərirdi. Savadsızlığın ləğvində, partiya, komsomol, həmkarlar təşkilatları yaxından iştirak edirdilər. Onlar birinci növbədə öz üzvləri ilə yanaşı, geniş xalq kütlələrinin savadsızlığının ləğvində, xüsusilə qadınların savadlanmasında yaxından iştirak edirdilər. Görülən işlər nəticəsində artıq 20-ci illərin axırlarında ölkədə əhalinin savadsızlığının və az savadlılığının ləğvi sahəsində böyük uğurlar əldə edilmişdi. Belə ki, 1927-ci

ilə qədər 102370 nəfər öz savadsızlığını ləğv etmişdi ki, bunlardan da 63607 nəfəri azərbaycanlı, o cümlədən 3466 nəfəri qadın idi.[16]

Birinci beşillik planın qəbul edilməsi Azərbaycanda savadsızlığın ləğv edilməsində olduqca mühüm rol oynadı. Beşillik planda göstərilirdi ki, «Beş il müddətində 18 yaşından 35 yaşınadək bütün əhali öz savadsızlığını ləğv etməlidir. 1928-ci ildə Azərbaycanda 1600 savadsızlığı ləğv məntəqəsi var idisə, beşilliyin axırında onların sayının 3650-yə çatdırılacağı nəzərdə tutulmuşdu. 1929-cu ildə qəzalarda savadsızlığı ləğv məntəqələrində 38000 adam öz savadsızlığını ləğv edirdisə, beşilliyin axırında onların sayı 305000 nəfərə çatdırılmalı idi. Birinci beşillikdə savadsızlığın ləğvinə Bakıdan başqa 5 milyon 644 min manat sərf ediləcəyi qərara alınmışdı. 1926-cı ildə respublikada əhalinin cəmi 18%-i savadlı idisə, beşilliyin axırında bu rəqəm 38%-ə çatdırılmalı idi.

Bu dövrdə savadsızlığın ləğvi sahəsində aparılan gərgin işlərin nəticəsi olaraq artıq 20-ci illərin axırlarında respublikamızda 980 mindən artıq adam öz savadsızlığını ləğv etmiş, ölkə miqyasında savadlıların miqdarı 18,5 faizdən 50,9 faizə qaldırılmışdı.

1930-cu ildə Azərbaycanda savadsızlığı ləğv etmə şəbəkəsində fasiləsiz dərs ili elan olundu ki, bu da savadsızlığın ləğvinin gələcək inkişafı üçün perspektivlər açdı.

§ 2.4. Yeni əlifbanın qəbulu

Azərbaycan Sovet hökumətinin həyata keçirdiyi mədəni tədbirlər içərisində yeni əlifbanın qəbulu xüsusi yer tuturdu. Doğrudur, respublikada əlifba islahatının keçirilməsi birmənalı qarşılanmadı. Bu tədbirə müxtəlif nöqteyi-nəzərlərdən yanaşılırdı. Ziyalılarımızın bir qrupu yeni əlifbanın qəbulunu Azərbaycan mədəniyyətinə böyük zərbə hesab edirdi. Onlar yeni əlifbanın qəbulunu milli mədəniyyətimizdən, milli kitabımızdan, milli irsimizdən uzaq düşmək kimi qiymətləndirirdilər. Yeni əlifbanın əleyhdarlarının dediklərində həqiqət olsa da, zaman öz hökmünü vermişdi. Moskva yeni əlifba islahatının aparılmasını bəyənmişdi. Əlifba islahatının aparılması böyük siyasətin əsas amillərindən birinə çevrilmişdi. Mərkəzin Sovet Şərq xalqlarını müsəlman dünyasından ayırmaq marağı bu amillərdən biri idi. Məhz buna görədir ki, Azərbaycan Sovet hökumətinin başçıları yeni əlifbanın qəbulu haqqında qəti qərar vermiş, bu əlifbanı zamanın hökmü, xalqın savadlanması üçün xüsusi vasitə kimi qiymətləndirir, ərəb əlifbasının çətinliklərini və nöqsanlarını geniş surətdə izah edirdilər. Yeni sovet kitabının nəşrində yeni əlifbanın üstünlükləri izah edilirdi. Respublika ziyalılarının əksəriyyəti də hökumətin əlifba siyasətini müdafiə etməyə başlamışdı.

Azərbaycanda savadsızlığın ləğvi və ümumiyyətlə, mədəni inqilabın başa çatdırılması işində yeni əlifbanın mühüm və həlledici rolu olmuşdur. Ərəb əlifbasının dəyişdirilməsi məsələsinin Azərbaycanın görkəmli yazıçısı və filosofu M.F.Axundov tərəfindən hələ XIX əsrin ikinci rübündən meydana atıldığına baxmayaraq, bu böyük mədəni iş ancaq Sovet hakimiyyəti illərində öz həllini tapdı. Ərəb əlifbasının latınlaşmış əlifba ilə əvəz edilməsi geniş zəhmətkeş kütlələrinin savad öyrənməsi işini xeyli asanlaşdırırdı.

Ərəb əlifbasının yeni əlifba ilə əvəz edilməsi işinə Azərbaycan hökuməti hələ öz fəaliyyətinin ilk illərindən başlamışdı. 1920-ci il noyabr ayının 11-də Xalq Maarif Komissarlığının yanında islahat komissiyası təşkil edilmişdi. 1922-ci ildə bu komissiyanın əvəzinə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında «Yeni türk» (Azərbaycan) əlifbası komitəsi yaradıldı.[17] Bu komitənin sədri görkəmli partiya və dövlət xadimi Səməd Ağamalıoğlu idi. Səməd Ağamalıoğlu yığıncaqlarda çıxış edir, yeni əlifbanın mədəni əhəmiyyətini, zəhmətkeşlərin savadlanmasında onun müsbət rolunu başa salırdı. 1922-ci il iyunun 21-də Azərbaycan Mərkəzi İcraiyyə

Komitəsi bütün idarələrə öz işçilərini yeni əlifba ilə tanış etmək üçün göstəriş verdi, iyunun 26-da isə bütün idarə və müəssisələrdə sənədlərin tərtibində yeni əlifbanın da işlədilməsini məsləhət gördü.

1923-cü il oktyabrın 20-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yeni əlifbanın dövlət əlifbası olması haqqında dekret verdi. Bu dekretə əsasən idarə və müəssisələrdə bütün işlər ərəb əlifbası ilə paralel olaraq yeni əlifba ilə də aparılmağa başladı. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi 1924-cü ilin iyun ayında işlərin yeni əlifba ilə aparılmasının (xüsusi ilə Bakıda) məcburi olması haqqında dekret verdi.[18]

1924-cü ildə keçirilən IV Ümumazərbaycan Sovetlər qurultayı yeni əlifbanın qəbul edilməsi sahəsində aparılan hazırlıq işlərini və Azərbaycan MİK dekretlərini bəyəndi və yeni əlifbanı Azərbaycan xalqının həyatında çox mühüm bir mədəni hadisə kimi qiymətləndirdi.

Qurultay 1924-25-ci tədris illərində bütün birinci siniflərdə dərslərin yeni əlifba ilə aparılmasını, yuxarı siniflərdə şagirdlərin yeni əlifba ilə tanış edilməsini, yaşlılar üçün təşkil edilən savadsızlığın ləğvi məntəqələrində yeni əlifbanın tətbiq edilməsini, kitabların müəyyən hissəsinin yeni əlifba ilə nəşr edilməsini, yeni əlifbanı öyrənmək üçün dövlət müəssisələrində kurslar təşkil edilməsini qərara aldı.[19]

Yeni əlifbanı geniş surətdə təbliğ etmək üçün Azərbaycan Kommunist Partiyasının göstərişi ilə «Yeni yol» qəzeti 1922-ci ilin sentyabr ayından yeni əlifba ilə nəşr edilməyə başladı. Bu qəzet yeni əlifbanın mədəni əhəmiyyətinin izah edilməsində xeyli iş gördü və öz ətrafında geniş oxucu kütləsini toplamağa müvəffəq oldu. «Yeni yol» qəzetinin tirajının ilbəil çoxalması buna parlaq sübutdur. Əgər 1922-ci ildə qəzet 1200 nüsxə tirajla buraxılırdısa, bu rəqəmin miqdarı 1925-ci ildə 4500-ə, 1926-cı ildə isə 6000-ə çatmışdı. «Yeni yol» qəzetinin oxucuları sırasında fəhlələrin və yoxsul kəndlilərin də miqdarı get-gedə çoxalırdı. Əgər 1925-ci ildə qəzetin 2165 fəhlə, 1675 yoxsul kəndli oxucusu var idisə,

1926-cı ildə fəhlələrin sayı 3170, kəndlilərin sayı isə 2070 nəfərə çatmışdı[20].

Göstərilən bu rəqəmlər zəhmətkeş kütlələri içərisində yeni əlifbanın qəbul edilməsinə olan böyük ruh yüksəkliyini bir daha sübut edir.

Yeni əlifbanın qəbul edilməsi Azərbaycan xalqının gələcək mədəni həyatında mühüm rol oynadı və respublikada mədəniyyətin inkişafına təkan verdi.

Beləliklə, yeni əlifbanın qəbulu respublikanın mədəni həyatında mühüm rol oynasa da, Azərbaycan kitab mədəniyyətinə ciddi zərbə vurdu. Əsrlərdən bəri ərəb əlifbası ilə yazılmış kitablarla bu əlifbanı bilməyən yeni nəsil arasında böyük uçurum yarandı. Həmçinin yeni əlifbanın qəbulu bir çox qiymətli nadir milli kitablarımızın dövriyyədən çıxmasına səbəb oldu. Ərəb əlifbası ilə yazılan, nəşr edilən kitabların «köhnəlmiş», «öz əhəmiyyətini itirmiş» kitablar adı ilə kitabxana fondlarından çıxarılması fondların azalmasına, yoxsullaşmasına səbəb oldu.

§ 2.5. Kitab nəşri

Sovet hakimiyyətinin ilk günlərindən başlayaraq Azərbaycan hökuməti tərəfindən həyata keçirilən bütün mədəni tədbirlər: yeni məktəblərin təşkil edilməsi, savadsızlığın ləğvi, yeni əlifbanın qəbulu, din əleyhinə mübarizə, mütəxəssis kadrların hazırlanması və s. məsələlər mədəni inkişafın ən mühüm silahı olan kitab nəşrinin genişlənməsini tələb edirdi. Kitabsız nə məktəblər, nə savadsızlığı ləğv məntəqələri, nə də yeni təşkil edilmiş sovet kitabxanaları məqsədyönlü fəaliyyət göstərə billərdi. Kitab eyni zamanda Sovet hökumətinin həyata keçirdiyi siyasətin əhəmiyyətini izah etmək, burjuaziya ideologiyasına qarşı mübarizə aparmaq, dinin mahiyyətini izah etmək üçün lazım idi.

20-ci ilin əvvəllərində Azərbaycanda kitab nəşri işi olduqca acınacaqlı vəziyyətdə idi. Kitab nəşri ilə məşğul olan

dövlət müəssisəsi yox idi. Kitab nəşri işi ayrı-ayrı burjua nümayəndələrinin əlində idi. Burjuaziya kitab nəşrindən təkcə gəlir mənbəyi kimi yox, həm də burjua-mülkədar ideologiyasını təbliğ etmək, xalqı aldatmaq vasitəsi kimi də istifadə edirdi. Kitab nəşri işi çap senzurasının nəzarəti altında idi. Ancaq mütləqiyyəti müdafiə edən, burjua-mülkədar quruluşunu tərifləyən meşşan əhval-ruhiyyəli kitabların nəşrinə icazə verilirdi. Xalqı maarifləndirə biləcək və həyati məsələlərdən bəhs edən kitabların nəşrinə icazə verilmir, təsadüfən icazə verildikdə isə sonradan belə kitabların yayılması və oxunması qadağan edilirdi. Çar Rusiyasının hökmranlığı dövründə kitab nəşrinin vəziyyəti belə idi.

Azərbaycanda elmi kitablar demək olar ki, nəşr edilmirdi. Buraya kitablar Rusiyadan və xaricdən gətirilirdi. Birinci Dünya müharibəsi və Vətəndaş müharibəsi illərində Rusiyadan və xaricdən kitab gətirilməsi işi təmamilə dayandırılmışdı. Təxminən altı ildən artıq müddətdə Bakının kitab bazarına Rusiyadan demək olar ki, kitab gətirilməmişdi. Daxildə mövcud olan kitablar müharibə vaxtı ya hərbi orqanlara verilmiş, ya da hərbi xəstəxanalara göndərilmişdi. Mövcud kitabxanalarda, ayrı-ayrı idarə və müəssisələrdə də lazımi kitablar yox idi. Respublikada kitab «aclığı» hiss edilirdi. Zəhmətkeş kütlələri şüurlandırmağı, xalq maarifini inkişaf etdirməyi, geniş siyasi-maarif müəssisələri yaratmağı və bununla da mədəni inqilabı həyata keçirməyi qarşısına məqsəd qoyan sovet hökuməti üçün kitab «aclığı» ərzaq aclığı qədər çətin və dəhşətli idi.

Məhz buna görədir ki, sovet hakimiyyətinin qurulmasının lap ilk günlərindən Azərbaycan İnqilab Komitəsi nəşriyyat işinin təşkilinə başladı. 1920-ci il mayın 11-də İnqilab Komitəsi mətbəələrin, litoqrafiyaların, kağız və karton anbarlarının, hər cür idarə ləvazimatının millileşdirilməsi haqqında dekret verdi[21].

Bütün mətbəələrin millileşdirilməsi və vahid dövlət nəşriyyatının yaradılması, mətbuat üzərində proletar diktaturası nəzarəti qoyulması çox mühüm dövlət əhəmiyyətinə malik bir məsələ hesab edilirdi. Bu dekret əsasında bütün nəşriyyatlar və mətbuat sovet dövlətinin əlində mərkəzləşdirildi.

Beləliklə, Azərbaycan İnqilab Komitəsi Rusiyada tətbiq edilən inqilabi üsul əsasında mətbuatı burjuaziyanın əlindən aldı. Millileşdirilmiş mətbəələrdə «Kommunist» və «Бакинский рабочий» qəzetləri çap edilməyə başladı. Azərbaycan Kommunist Partiyasının orqanı olan bu qəzetlər sovet hökumətinin həyata keçirdiyi inqilabi tədbirlərin izah edilməsində, burjua ideologiyasına qarşı geniş mübarizə aparılması və kütlələrin siyasi cəhətdən maariflənməsi işində partiyaya yaxından kömək edirdi.

1920-ci il mayın 20-də yeni təşkil edilən sovet məktəblərini və savadsızlığı ləğv məntəqələrini lazımi dərsliklərlə təmin etmək üçün Azərbaycan Xalq Maarif Komissarlığı məktəblər şöbəsinin yanında bir komissiya təşkil etdi. Buna baxmayaraq, kitab nəşr etmək işi olduqca çətin idi. Mətbəələrdə lazımi avadanlıq yox idi. Xalq təsərrüfatının dağınıq vəziyyətdə olması böyük çətinliklərə səbəb olmuş, fəhlələrin əmək haqqı məsələsi hələlik qaydaya salınmamışdı. Şəhərlə kənd arasında müntəzəm əlaqə yaradılmadığından şəhərdə ərzaq çatışmırdı. Bütün bu çətinliklər üzündən fəhlələrin bir çoxu öz sənətlərindən uzaqlaşmağa məcbur olmuşdu. Bu hal özünü mətbəə fəhlələri içərisində də göstərirdi. Mütəxəssis mətbəə mürəttiblərindən bir çoxu öz sənətlərindən uzaqlaşdıqları üçün respublikada nəşriyyat işini genişləndirmək mümkün deyildi. Bu çətinliyi aradan qaldırmaq, mütəxəssis mətbəə işçilərini öz sənətlərinə qaytarmaq məqsədilə Azərbaycan Xalq Maarif Komissarlığı bir sıra inqilabi tədbirlər görməli olmuşdu. 1920-ci il iyunun 9-da Xalq Maarif Komissarı aşağıdakı məzmunda bir əmr verdi: «Bəzi mürəttiblər öz vəzifələrindən boyun qaçırdıqlarından və əsas sənətləri ilə əlaqəsi olmayan işlərlə məşğul olduqlarından Xalq Maarif Komissarlığının bütün müsəlman şərqini kommunist

ədəbiyyatı ilə təchiz etməyi öz qarşısına məqsəd qoyan nəşriyyat şöbəsi əsas vəzifələrini lazımınca yerinə yetirə bilmir.

Başqa işlərlə məşğul olan bütün azərbaycanlı mürəttiblərə təklif edilir ki, 9 iyundan 16 iyuna qədər hər gün səhər saat 9-dan 12-yə kimi nəşriyyat şöbəsində təcili surətdə qeyd olunsunlar.

Qeyd edilməkdən boyun qaçıran şəxslər Hərbi İnqilab Məhkəməsinə veriləcəkdir».[22]

Bu əmrin həyata keçirilməsi nəticəsində bir çox mürəttiblər yendən öz sənətlərinə qayıtdılar. Həm də həmin vaxtdan başlayaraq nəşriyyat işçilərini maddi cəhətdən təmin etmək üçün də tədbirlər görüldü.

1920-ci ilin iyun ayında İnqilab Komitəsi bütün nəşriyyat işlərini Xalq Maarif Komissarlığının yanında mərkəzləşdirmək haqqında dekret verdi.

Nəriman Nərimanov tərəfindən imzalanan bu dekretin Azərbaycanda nəşriyyat işinin mərkəzləşdirilməsində və gələcək inkişafında çox mühüm rolu olmuşdur. Dekretdə göstərilir: «1. Bütün komissarların, partiya və sovet təşkilatlarının nəşriyyat fəaliyyətini mərkəzləşdirmək məqsədilə Maarif Komissarlığının yanında Mətbuat və Dövlət Nəşriyyatı şöbəsi (Azərmərkəzimətbuat) təsis edilir.»[23]

Azərbaycanda vahid mətbuat və dövlət nəşriyyat şöbəsinin yaranması və nəşriyyat işinin vahid rəhbərlikdə birləşdirilməsi respublikada kitab nəşrinin inkişafı üçün şərait yaratdı. Hər cür çətinliklərə baxmayaraq, Azərbaycan Dövlət Nəşriyyatı Şöbəsi 1920-ci ildə 63 min tirajla, 1921-ci ildə isə 14 adda 167 min nüsxə tirajla kitab nəşr etdi. Nəşr edilən kitablar Azərbaycan dilində dərsliklərdən və təbliğat ədəbiyyatından ibarət idi.

Təkcə 1924-cü ildə 753500 nüsxə tirajla 69 adda kitab buraxılmışdı.[24] Bakıda və onun rayonlarında kitabı yaymaq üçün üç şöbədən ibarət olan kitab və kağız mağazası və bir musiqi notları mağazası vardı.[25]

Azərbaycan Xalq Maarif Komissarlığı yanında olan

nəşriyyat şöbəsi 1924-cü ildə təsərrüfat hesabına keçərək Azərbaycan Dövlət Nəşriyyatına çevrildi. Nəşriyyat təsərrüfat hesabına keçənə qədər qəzalar kitabla pulsuz təchiz edilirdi, bundan sonra isə qəzalara da kitablar pulla verilməyə başladı. Ancaq qəzalara kitablar şəhərə nisbətən ucuz qiymətlə verilirdi. Qəzalarda kitabı yaymaq üçün 1924-cü ildə mərkəzi kitab mağazasının Gəncədə, Ağdamda, Nuxada və Qubada şöbələri təşkil edildi. Başqa qəzalar isə kitabla kooperativlər vasitəsilə təmin edilirdi. Nəşriyyat öz nəşrlərini fəhlə və kəndlilər arasında geniş surətdə yaymaq üçün kitabları 30 faiz ucuz qiymətə satırdı.

Öz nəşriyyat fəaliyyətini genişləndirmək, Sovet İttifaqının başqa nəşriyyatlarının iş təcrübələrini öyrənmək, onların nəşr etdiyi kitablardan vahid nüsxələr almaq məqsədilə Azərbaycan Dövlət Nəşriyyatı 1924-cü ildə RSFSR, Ukrayna, Gürcüstan, Ermənistan və s. respublikaların nəşriyyatları ilə əlaqə yaratmışdı.[26]

Azərbaycan Sovet hökumətinin köməyi nəticəsində Azərnəşrin fəaliyyəti ilbəil genişlənirdi. Bunu aşağıdakı cədvəldən görmək olar.

1920-1925-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatının fəaliyyəti[27]

İllər	Neçə adda	Ümumi miqdarı	
		Çap vərəqi	Tirajı
1920	8	27 1/2	63100
1921	14	140	167000
1922	17	174	152000
1923	36	329	89900
1924	69	338 1/2	753500
1925	50	558 1/8	451000
1926	149	255 1/2	147056
Cəmi:	338	2422	2523400

1923-cü ilin əvvəlində Bakı Partiya Komitəsi respub-

likada zəhmətkeşlərin kitaba olan böyük tələbatını nəzərə alaraq «Bakı fəhləsi» kooperativ nəşriyyatı təşkil etməyi qərara aldı.[28] Bu nəşriyyat siyasi kitabların nəşri ilə yanaşı, elm sahələrinə aid kitabların nəşrini də öz qarşısına qoymuşdu.

Respublikada təsərrüfat işlərinin bərpa edilməsi bütün bilik sahələrinə dair kitabların nəşrini və geniş yayılmasını tələb edirdi. «Bakı fəhləsi» nəşriyyatı sovet elminin və texnikasının öyrənilməsində, fəhlə sinfinin elm və texnikanın son nailiyyətlərinə yiyələnməsində, fəhlələrin təhsil və tərbiyəsində yaxından iştirak edirdi. «Bakı fəhləsi» nəşriyyatı təkcə kitablar nəşr etməklə kifayətlənmir, kitabın geniş zəhmətkeş kütlələri arasında təbliğ edilməsində də xüsusi rol oynayırdı. Nəşriyyat 1923-cü il avqustun 26-da Bakı və onun rayonlarında kitabı yaymaq üçün kitab mağazası təşkil etdi. O, mağazalarda satmaq üçün özünün nəşr etdiyi kitablardan başqa Moskvadan və Leninqraddan da kitab alıb gətirirdi. Nəşriyyat təkcə kitab nəşr etməklə kifayətlənmir, Sovet İttifaqının 7-8 nəşriyyatı ilə əlaqə saxlayır və onlarla kitab mübadiləsi edirdi. O, həm də Milli İşlər Komissarlığının Moskvada olan Şərq nəşriyyatı ilə əlaqə saxlayırdı. Nəşriyyatın ətrafında toplanan tərcüməçilər və müəlliflər qrupu respublikanın mədəni həyatında yaxından iştirak edirdilər.

Nəşriyyatın o dövrdə həyata keçirdiyi mühüm mədəni əhəmiyyətə malik olan tədbirlərdən biri də kitabxanaların komplektləşdirilməsi məsələsi idi. Nəşriyyat Bakı komitəsinin partiya kitabxanalarını, qəza kitabxanalarını və Bakı şəhərinin bir çox başqa kitabxanalarını müntəzəm olaraq komplektləşdirirdi.

Nəşriyyat 1924-cü il mayın 14-də V.İ.Lenin adına Bakı Şəhər Kitabxanasını Azərbaycan dilində kitablarla komplektləşdirmək haqqında qərar qəbul etmişdi.[29] Həmçinin nəşriyyat 1923-cü ilin axırlarında yeni mətbəə avadanlığı ilə təmin edildi.

1923-1926-ci illərdə Bakı Komitəsinin «Bakı fəhləsi»

kooperativ nəşriyyatının fəaliyyəti aşağıdakı cədvəldən aydın görünür.[30]

İllər	Neçə adda	Ümumi miqdarı	
		Çap vərəqi	Tirajı
1923	38	265	76350
1924	54	361	197200
1925	114	505 1/8	802700
1926	234	671	959850
Cəmi:	410	1802	2036100

Nəşriyyatın buraxdığı kitabların əksəriyyəti ictimai-siyasi ədəbiyyat idi. Həm Azərbaycan Dövlət Nəşriyyatı, həm də «Bakı fəhləsi» nəşriyyatı Azərbaycan dilində kitabların nəşr edilməsinə geniş yer verirdi. 1920-1926-cı illərdə «Bakı fəhləsi» nəşriyyatının buraxdığı kitabların cəmi 70-i, Azərbaycan Dövlət Nəşriyyatının buraxdığı kitablardan isə cəmi 21-i rus dilində idi.[31] 1919-cu ildə buraxılan kitablara nisbətən 1927-ci ildə buraxılan kitablar ad etibarilə 50 dəfə, tiraj etibarilə 20 dəfə artmışdı.

1923-cü ilə qədər Azərbaycan Dövlət Nəşriyyatı kitabları ancaq ərəb əlifbası ilə, 1923-cü ildən başlayaraq isə yeni əlifba ilə buraxmağa başladı. Yeni əlifba ilə buraxılan kitablar ilbəil artırdı. Əgər 1923-cü ildə yeni əlifba ilə bir adda kitab buraxılmışdısa, 1925-ci ildə 18 adda, 1926-cı ildə 97 adda kitab buraxılmışdı.[32]

20-ci illərin axırlarında respublikada yeni əlifba ilə çap edilmiş kitablara böyük tələbat əmələ gəlmişdi. Odur ki, hökumət kitab çapına ayrılan vəsaiti ilbəil artırırdı. Əgər 1927-1928-ci illərdə nəşriyyat işinə 29 milyon manat vəsait ayrılmışdısa, bu rəqəm 1929-1930-cu illərdə 42 milyon manata çatdırılmışdı.[33] Nəşriyyatlar böyük texniki çətinliyə baxmayaraq yeni əlifba ilə kitab çapına üstünlük verirdilər. 1927-ci ildə yeni əlifba ilə 126 adda 479250 nüsxə tirajla kitab çap edilmişdi.

Bu dövrdə Azərbaycan Dövlət Nəşriyyatının maddi-texniki bazasının möhkəmləndirilməsi, respublikada elmin və istehsalatın bütün sahələrinə dair əsərlər nəşr etməkdə onun rolunun artırılması üçün mühüm işlər görüldü. Azərbaycan Xalq Komissarları Soveti 1927-ci ilin yanvarında «Azərnəşr»lə «Bakı fəhləsi» kooperativ nəşriyyatının birləşdirilməsi haqqında qərar qəbul etdi. Birləşdirilmiş nəşriyyat «Azərbaycan Dövlət Nəşriyyatı» adlandırıldı. Azərbaycan Dövlət Nəşriyyatının yenidən təşkili respublikada kitab nəşri sahəsində mühüm hadisə oldu. Kitab nəşrinin vahid rəhbərlikdə birləşməsi respublika elminin və xalq təsərrüfatının bütün sahələri üçün kitab nəşr etmək imkanı yaratdı və kitab nəşrinin artmasına öz müsbət təsirini göstərdi. 1929-cu ildə respublikada 997 adda 2961700 nüsxə kitab çap olmuşdu. Bu da 1920-ci illə müqayisədə 30 dəfədən çox idi.[34]

Sovet hakimiyyətinin ilk günlərindən başlayaraq Azərbaycan hökuməti mətbuatın genişlənməsinə, yeni qəzet və jurnalların nəşr edilməsinə xüsusi diqqət yetirirdi. 1921-1925-ci illərdə «Kommunist», «Gənc işçi», «Yeni yol», «Kəndçi qəzeti», «Qızıl əsgər» və s. qəzetlər kütləvi tirajla nəşr edilirdi. Azərbaycanca bir sıra məcmüələr də çap edilirdi. Məsələn, Azərbaycan K(b) P MK-nın «Əxbari» (1922-ci il), «Əkinci» (1922), «Kooperativ işi» (1922), «Molla Nəsrəddin» (1923), «Şərq qadını» (1923), «Həmkarlar ittifaqı» (1924), «Qızıl Bakı» (1924), «Qızıl qələm» (1924), «Yeni kənd» (1925), «Maarif işçisi» (1925), «Kommunist yolu» (1925)[35] və s. nəşr edilirdi. Ümumiyyətlə, 1927-ci ildə Azərbaycanda 17 adda jurnal, 11 adda qəzet nəşr edilirdi.

Dövri mətbuatın ətrafında böyük fəhlə-kəndli müxbirləri qrupu yaranmışdı. Bu müxbirlər mətbuatla zəhmətkeşlər arasında əlaqə yaradır, onların istək və arzusundan yazmağa çalışırdılar. 1924-cü ildə keçirilən «Fəhlə-kəndli müxbirlərinin Ümumazərbaycan qurultayı» fəhlə-kəndli müxbirlərinin fəaliyyətini yüksək qiymətləndirməklə bu işin daha da genişlənməsini lazım bildi.[36] Azərbaycan mətbuatı

Sovet hakimiyyətinin ilk illərində kütlələrin siyasi cəhətdən tərbiyə edilməsində, xalq təsərrüfatının bərpa və inkişafında, mədəniyyət və xalq maarifinin inkişaf etdirilməsi sahəsində böyük təbliğat-təşviqat işi aparırdı.

§ 2.6. Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində kitabxana işinin təşəkkülü, əhaliyə kitabxana xidmətinin sovet sisteminin formalaşması (1920-1930-cu illər)

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra hökumət kitabxana işini inqilabi yolla yenidən qurmağa başladı. Kitabxana quruculuğu sahəsində RSFSR-in təcrübəsindən geniş surətdə istifadə edilirdi. Kitabxana işi məktəbdən kənar təhsil və tərbiyə işləri ilə əlaqələndirilir, zəhmətkeşlərin siyasi tərbiyə işinin əsas vasitəsi hesab edilirdi. Ona görə də kitabxana işi ümumtəhsil bazasında mədəniyyət, təhsil və milli siyasətin tərkib hissəsi kimi, yeni ideoloji əsaslarla – kommunist ideologiyası bazasında inkişaf etdirilirdi.

Ölkədə zəhmətkeşlərin kommunist tərbiyəsi işinə rəhbərlik edən respublika partiya təşkilatları kitabxana işinin təşəkkülü və formalaşmasında bilavasitə iştirak edir, onun ideya istiqamətini formalaşdırırdılar.

Partiya kitabxana işini ideoloji işin tərkib hissəsi hesab edir, kitabxana işində «sinfilik» və «partiyalılıq» prinsiplərinin tətbiq edilməsini zəruri hesab edirdi.

Dünya müstəvisində qəbul edilmiş, «kitabxana və demokratiya» prinsipinə qarşı qoyulmuş bu prinsip sovet kitabxana işinin dünya kitabxanaşünaslığından ayrı düşməsinin əsasını qoydu.

Kitabxana işinə dövlət rəhbərliyi Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən həyata keçirilirdi. Maarif Komissarlığı 1920-ci ilin mayında o dövrdə mühüm əhəmiyyət kəsb edən məktəbdən kənar təhsil işlərinə rəhbərlik

etmək üçün xüsusi bir şöbə «Məktəbdən Kənar İşlər Şöbəsi» yaratmışdı. Bu şöbənin qarşısında yaşlı əhali arasında təhsil və tərbiyə işləri aparmaq, siyasi-maarif işlərini təşkil etmək, əhalini mədəni işlərə cəlb etmək vəzifəsi qoyulmuşdu. Kitabxanalar da öz mahiyyəti etibarilə məktəbdən kənar təhsil işlərini təşkil edən müəssisələrə aid edildiyindən kitabxana işinə rəhbərlik də bu şöbəyə həvalə edilmişdi. Kitabxana işinə rəhbərlik spesifik xarakter daşıdığından şöbənin yanında ayrıca «Kitabxana yarımşöbəsi» yaradılmışdı. Nazirlik kitabxana işi təcrübəsi olan, onun xüsusiyyətlərini başa düşən yüksək ixtisaslı mütəxəssisləri bu şöbənin işinə cəlb etmişdi. Bakı Xalq Maarif şöbəsinin, həmçinin qəza və rayon Xalq Maarif şöbələrinin yanında «məktəbdənkənar işlər şöbəsi» və «kitabxana yarımşöbələri» yaradılmışdı.[37] Kitabxana yarımşöbələrinin qarşısında ölkə ərazisində olan kitabxanaları uçota almaq, yeni sovet kitabxanaları təşkil etmək, onları kitabla təmin etmək, kitabxanaçı kadrlar yetişdirmək, kitabxanalara metodik təminat işini təşkil etmək, kitabxana işinə dair rəhbər göstərişlərin hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmək, kitabxanaların, kitab anbarlarının milliləşdirilməsini təmin etmək, kitabxana işinə dair dövlət qərarlarının həyata keçirilməsini təmin etmək vəzifəsi qoyulmuşdu. Bu şöbə yaxın bir müddət içərisində respublikada kitabxana işinin vəziyyətini öyrənmiş, Bakı şəhərində və regionlarda mövcud kitabxanaların uçotunu aparmış, kitabxana işinin müasir mənzərəsini əks etdirən sənəd hazırlamışdı. Azərbaycan İnqilab Komitəsinin kitabxana işinə dair dekretlərinin hazırlanmasında bu sənədin mühüm əhəmiyyəti olmuşdur.

Sovet hakimiyyətinin ilk günlərindən başlayaraq Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov ölkədə xalq maarifinə və mədəni quruculuq işlərinə xüsusi fikir verirdi. Hələ XIX əsrin axırlarında Azərbaycanda ilk ümumaçıq kitabxana-qiraətxana təşkil etmiş, N.Nərimanov xalqın mədəni inkişafında kitabxana işinin böyük əhəmiyyətini də-

fələrlə qeyd etmiş və Sovet Azərbaycanında kitabxana işini inkişaf etdirmək üçün dövlət sənədləri imzalamışdır. N.Nərimanov tərəfindən imzalanmış bu mühüm dövlət sənədləri Sovet Azərbaycanında kitabxana işinin təşkili və inkişafında mühüm mərhələ təşkil etməklə öz mahiyyəti etibarilə çox böyük mədəni əhəmiyyət kəsb etmişdi.

N.Nərimanov 1920-ci ilin oktyabrın 31-də Azərbaycanda bütün kitabxanaların milliləşdirilib dövlət müəssisəsi elan edilməsi haqqında Azərbaycan İnqilab Komitəsinin dekretini imzaladı. Dekredə deyilirdi: «Xalq Maarif Komissarlığı ölkənin bütün mədəni-maarif işlərini mərkəzləşdirən ali orqan olduğu üçün qərara alınır:

Azərbaycan Sovet Sosialst Respublikasının ərazisində olan bütün kitabxanalar hansı müəssisənin olursa-olsun, istər inzibati, istərsə ideya cəhətdən Xalq Maarif Komissarlığının sərəncamına verilir[38].»

Bu dekretdə müvafiq olarq Bakı şəhərində və respublikanın qəza və rayonlarında olan bütün kitabxanalar Xalq Maarif Komissarlığının sərəncamına keçdi, onların dəqiq uçotu aparıldı, maddi-texniki bazasının möhkəmləndirilməsi və fondunun yeni ədəbiyyatla komplektləşdirilməsi üçün tədbirlər görüldü.

1920-ci ildə dövlət orqanlarının çap etdirdikləri statistik sənədlərə görə 1914-cü ildə Azərbaycanda 18 min kitab fonduna malik olan 25 kütləvi kitabxana olmuşdur, bu kitabxanalardan 70 min 600 kitab fonduna malik 4-ü şəhərlərdə və şəhər tipli qəsəbələrdə 10400 kitab fondu olan 21 kənd yerlərində olmuşdu. 1920-ci ildə isə 95 min kitab fonduna malik olan 11 kitabxana olmuşdu. Son zamanlar aparılan araşdırmalar və statistik materialların təhlili göstərir ki, bu rəqəmlər dəqiq rəqəmlər deyil və o zamankı gercəkliyi düzgün əks etdirmir. Bu rəqəmlərdə məktəb kitabxanaları, xeyriyyəçi insanların təşkil etdikləri ictimai kitabxanalar bir çox idarə və müəəssisələrin kitabxanaları, dini kitabxanalar və həmçinin Azərbaycanın əyalət şəhərlərində və kəndlərdə

olan ictimai kitabxanalar nəzərə alınmamış, statistik sənədlərə daxil edilməmişdir. Xalq Cümhuriyyəti dövrünə aid isə dəqiq statistik materiallar yoxdur. Təxmini hesablamalardan məlum olur ki, 1920-ci ilin əvvəllərində Azərbaycanda 11 yox, 50-dən artıq kitabxana olmuşdur.

Kitabxanalar haqqında dəqiq statistik məlumat olmadığından biz öz təhlillərimizi öyrənilən dövrə aid mövcud statistik materiallar əsasında aparmağı lazım bildik. Azərbaycan İnqialb Komitəsinin N.Nərimanov tərəfindən imzalanan Respublika ərazisində olan bütün kitabxanaların Xalq Maarif Komissarlığına verilməsi haqqında dekret böyük tarixi əhəmiyyətə malik idi. Bu dekret əsasında Azərbaycan ərazisində olan bütün kitabxanaların milliləşdirilməsi başa çatdırıldı və kitabxana işi vahid rəhbərlikdə birləşdirildi. Respublikada olan bütün kitabxana şəbəkələri: ayrı-ayrı nazirliklərin, idarə və müəssisələrin, ictimai təşkilatların kitabxanaları arasında əlaqə yaradıldı. Bütün kitabxanalara metodiki rəhbərlik işi Xalq Maarif Komissarlığının məktəbdənkənar işlər şöbəsinin kitabxana yarımşöbəsinə həvalə edildi.

Kitabxana yarımşöbəsinin qarşısında Respublika ərazisində fəaliyyət göstərən bütün kitabxanaları uçota almaq, kitabxanaların, kitab mağazalarının və kitab anbarlarının milliləşdirilməsini təşkil etmək, yeni kitabxanalar təşkil etmək, onları kitablarla təmin etmək, kitabxanaçı kadrlar hazırlamaq, kitabxana işinə metodik rəhbərlik işini təmin etmək, kitabxana işinə dair rəhbər materialların hazırlanmasında və həyata keçirilməsində yaxınadan iştirak etmək vəzifələri qoyulmuşdu.

Bu dekretə müvafiq olaraq Bakı şəhərində mövcud olan 11 ictimai kitabxana və respublikanın rayonlarında fəaliyyət göstərən 21 kitabxana Xalq Maarif Komissarlığının sərəncamına keçdi.[39]

Bakıda milliləşdirilən kitabxanalar içərisində M.Ə.Sabir adına, V.İ.Lenin adına kitabxanalar, xeyriyyə cəmiyyətlərinin kitabxanaları, Balaxanı, Sabuncu, Qaraşəhər, Bibiheybət kitabxanaları, dövlət idarələrinin kitabxanaları və s. var idi. Demək olar ki, 20-ci illərin axırlarında respublikada milliləşdirmə işi başa çatdı və yeni kitabxanaların təşkilinə başlandı. Həmçinin kitabxanaların fondu nəzərdən keçirildi, məzmunca köhnəlmiş, kommunist ideologiyasının tələblərinə cavab verməyən kitablar kitab fondlarından çıxarıldı. Kitabların təmizlənməsi işi bir çox hallarda kitabxana fondlarının kasıblaşmasına bəzən də qiymətli nadir kitabların səhv olaraq fonddan çıxarılması ilə nəticələnirdi.

Yeni kitabxanaların yaradılması işi Bakı və onun rayonlarında respublikanın kənd rayonlarına nisbətən daha surətlə gedirdi. Bakı Xalq Maarif şöbəsinin kitabxana bölməsi Bakının rayonlarında yeni kitabxanalar təşkil etmək işinə xüsusi diqqət yetirirdi. 1920-ci ilin may ayından başlayaraq Sabunçuda, Əmircanda, Bülbülədə, Mərdəkanda, Böyük Şorda, Balaxanıda, Ramanada, Zabratda, Keşlədə, Biləcəridə, Zığda, Qaraşəhərdə, Bayılda, Bibiheybətdə, Zavağzal rayonunda və s. cəmi 27 kitabxana təşkil edildi. 1920-ci iln axırlarında Bakı şəhərində 14, rayonlarında isə 27 kitabxana təşkil edilmişdi.[40] Yeni kitabxanaların təşkili ilə təkcə maarif komissarlığı deyil, ayrı-ayrı idarə və təşkilatlar da məşğul olurdu.

Bakı şəhərində ilk dəfə olaraq elmi və xüsusi kitabxanalar da yaranmağa başlamışdı. Neft komitəsi yanında texniki kitabxana, teatr kitabxanası, pedaqoji kitabxana və s. təşkil edildi.[41]

Səyyar kitabxanaların təşkilinə xüsusi fikir verilirdi. Bütün bunların yanında uşaq kitabxanaları da təşkil edilmişdi. Sonralar iş prosesində məlum oldu ki, uşaqlara xidmət etmək işi xüsusi cəhətlərə malik olduğundan onların ayrıca təşkil edilməsi, uşaqlara xidmət etmək üçün xüsusi kitabxanaçılar ayrılması daha məqsədəuyğundur. Buna görə də kitabxana yarımşöbəsi Bakı şəhərində uşaqlar üçün xüsusi rəhbəri olan kitabxana-klub təşkil etdi.

Kitabxanalardan başqa partiya və həmkarlar təşkilatları tərəfindən Bakıda və onun rayonlarında 56 qiraətxana təşkil edilmişdi. Kitabxanalar bunları da ədəbiyyatla təmin edirdilər. Beləliklə, 5 ay müddətində Bakı və onun rayonlarında 42 kitabxana və 56 qiratəxana təşkil edilib zəhmətkeşlərin istifadəsinə verilmişdi.

Azərbaycanın qəzalarında kitabxana işinin təşkili ilə Xalq Maarif Komissarlığı «məktəbdən kənar işlər» şöbəsinin kitabxana yarımşöbəsi, yerlərdə isə rayon maarif şöbələrinin yanında olan məktəbdən kənar işlər şöbəsi məşğul olurdu.

Bakı və onun rayonlarına nisbətən Azərbaycanın qəzalarında kitabxanalar təşkil etmək işi olduqca çətin idi. Azərbaycan dilində kitabların azlığı, mütəxəssis azərbaycanlı kadrların olmaması və savadlı əhalinin olduqca az olması, kitabxana şəbəkələrinin təşkili işinə mane olurdu. Bütün bu çətinliklərə baxmayaraq 1920-ci iln mayından sentyabrına qədər kitabxana yarımşöbəsi: Nuxa, Zaqatala, Cavad, Göyçay, Abşeron, Lənkəran, Kürdəmir, Şamaxı, Qazax, Tovuz, Cavanşir, Cəbrəyıl, Şuşa, Quba, Gəncə, Ağstafa, Zəngəzur qəza mərkəzlərində kitabxanalar təşkil etmiş, onlar azərbaycanca və rusca kitablarla komplektləşdirmişdi.[42]

Göstərilən müddət ərzində kitabxana yarımşöbəsi tərəfindən qəza və rayon kitabxanalarına 38.826 kitab göndərilmişdi. Bu kitabların 1727 nüsxəsi Azərbaycan, 20712 nüsxəsi rus, 227 nüsxəsi erməni, 616 nüsxəsi alman dilində idi.[43] Göndərilən kitablardan başqa qəza və rayon kitabxanalarının özlərində də kitab var idi. Həm də kitabxanalar yerlərdə ayrı-ayrı şəxslərdən toplanan kitablarla da zənginləşirdi. 1920-ci ilin avqustunda Gədəbəydə, Zəyəmdə və Göyçayda da kitabxanalar təşkil edilmişdi.[44]

Yerlərdə kitabxanalarla yanaşı olaraq kiçik qiraətxanalar, kəndlərdə isə qiraət komaları açılırdı. Məs.: 1920-ci ilin avqust ayına qədər Gəncə qəzasında 30 qiraət koması təşkil edilmişdir. Bunlardan 26-sı dağlıq hissədə, 4-ü isə

aşağı hissədə idi.[45] Gəncə qəzasında olduğu kimi Azərbaycanın başqa qəzalarında da qiraətxanlar və qiraət komalarının təşkili işinə xüsusi diqqət yetirilirdi.

Qəzalarda zəhmətkeşlərə xidmət etmək üçün təşkil edilmiş daimi kitabxanalardan başqa Xalq Maarif Komissarlığı tərfindən səyyar kitabxanalar da təşkil edilirdi.[46] Belə kitabxanalar yerlərdə xidmət göstərdikdən sonra əksər hallarda oradaca daimi kitabxanalara çevrilirdi.

Kitabxanalar təşkil edildikdən və daimi işçilərlə təmin edildikdən sonra qarşıya çox mühüm bir vəzifə kitabxanaların ardıcıl olaraq yeni kitablarla komplektləşdirilməsi vəzifəsi çıxırdı. Kitabxanalar yeni kitablarla təkmilləşməzsə, oxucuların ədəbiyyata olan sorğusunu ödəyə bilməzsə, o canlı mədəni qüvvədən cansız «orqanizmə» könhə kitablar toplusuna çevrilə bilər, hökumətin həyata keçirdiyi mədəni-siyasi tədbirlərdə iştirak edə bilməzdi. Məhz buna görədir ki, Azərbaycan Sovet Hökuməti kitabxanaların yeni kitablarla təkmilləşməsi işini dövrün mühüm siyasi və mədəni məsələlərindən biri hesab edir, kitab sərvətindən düzgün istifadə etməyi, ölkə ərazisində olan kitabları toplamağı, qoruyub saxlamağı, əhalidə olan kitabı toplayıb kitabxanalara verməyi əsas vəzifə kimi irəli sürürdü. Bu məqsədlə hökumət respublika partiya təşkilatı ilə birlikdə çox mühüm tədbirlər həyata keçirməyə başladı.

Bu tədbirlərin həyata keçirilməsində hökumətin başçısı N.Nərimanovun xüsusi rolu olmuşdur. Kitabı mədəniyyətin, mədəni inqilabın silahı hesab edən, təhsil sisteminin bünovrəsi kimi qiymətləndirən N.Nərimanov bilirdi ki, respublikada kitab olduqca azdır, olan kitab da ayrı-ayrı şəxslərin şəxsi kitabxanalarında, ləğv edilmiş dövlət müəssisələrində, bir sözlə, əhalidədir. Ona görə də bu kitablar dağılıb məhv edilməmiş onu əldə etmək, yeni yaradılan kitabxanalara vermək lazım idi. Bu məqsədlə İnqilab Komitəsi ölkədə olan bütün kitab mağazalarının, kitab anbarlarının milliləşdirilməsi haqqında dekret verdi. Milliləşdirilmiş ki-

tabları toplamaq və kitabxanalar arasında səmərəli bölüşdürmək məqsədi ilə Xalq Maarif Komissarlığı «nəşriyyat-texniki» şöbəsinin yanında 1920-ci ilin may ayında Mərkəzi kitab anbarı təşkil edildi.[47] Milliləşdirilmiş mağazalardan, anbarlardan, ləğv edilmiş kitabxanalardan dini müəssisələrdən, idarələrdən və ayrı-ayrı şəxslərdən alınmış kitablar mərkəzi kitab anbarına verilirdi. Anbarda kitabların siyahısı tutulub şöbələrə ayrılır, dərsliklər və dərs vəsaitləri Xalq Maarif Komissarlığına verilir, yerdə qalan kitablar kitabxanalar arasında bölüşdürülürdü. 1920-ci ilin iyun ayından başlayaraq Moskvadan təbliğat xarakterli kitablar göndərilməyə başladı. Həmin kitablarda Mərkəzi kitab anbarına toplanır və oradan qəza və şəhər kitabxana-qiraətxanalarına göndərilirdi.

1920-ci ilin mayın 15-dən oktyabrın 15-ə qədər Mərkəzi kitab anbarı kitabxanalar və müxtəlif müəssisələrə aşağıdakı miqdarda kitab vermişdi.

Siyasi xarakterli kitablar (rus dilində)	269306
Tibbə aid kitablar (rus dilində)	505
Siyasi xarakterli kitablar (erməni dilində)	10140
Siyasi xarakterli kitablar (Azərbaycan dilində)	160771
Dərsliklər (müxtəlif dillərdə)	59912
Siyasi xarakterli kitablar (fransız dilində)	491
Siyasi xarakterli kitablar (ingilis dilində)	23
Başqa nəşrlər	13
Dərs vəsaitləri və kartlar	4584
Cəmi	505749 [48]

1920-ci ilin may ayının 15-dən 1921-ci ilin sentyabr ayına qədər Mərkəzi kitab anbarından təxminən 3.000.000-a qədər müxtəlif kitablar verilmişdir.[49] Kitablar əvvəllər anbar müdirinin göstərişi ilə buraxılırdı. 1920-ci ilin iyul ayında Azərbaycan Mərkəzi Mətbuat idarəsi yaradıldıqdan sonra onun yanında «uçot bölgü şöbəsi» təşkil edildi. Kitabların müxtəlif kitabxanalar və müəssisələr arasında bölünməsi bu şöbəyə tapşırıldı.

Anbar təkcə kitabxanalara xidmət etmirdi. O, təbliğat işi ilə məşğul olan bütün idarə və müəssisələri, məktəbləri, savadsızlığı ləğv məntəqələrini, Qızıl Ordunu, qəza mərkəzlərini kitabla təmin edirdi. Mərkəzi anbar, həm də Ermənistana, Gürcüstana, Dağıstana və İrana da kitablar göndərirdi.[50]

İnqilabın ilk illərində respublikada yeni təşkil edilən kitabxanaların kitabla təmin edilməsi işində Mərkəzi kitab anbarının xüsusi rolu olmuşdur. O, milliləşdirilmiş kitabları planlı surətdə kitabxanalar arasında bölüşdürməyə imkan yaradırdı. Xalq Maarif Komissarlığının «məktəbdən kənar işlər şöbəsi» də mərkəzi kitab anbarının işi ilə maraqlanır, kitabların bölüşdürülməsi işində yaxından iştirak edirdi.

1920-ci ilin iyul ayında «məktəbdən kənar işlər şöbəsinin» kollegiyası Mərkəzi kitab anbarında olan azərbaycanca kitabların yeni açılan kitabxanalara verilməsi haqqında qərar çıxarmışdır.[51]

Bu dövrdə dövlətin xüsusi dekretinə müvafiq olaraq kitabların müsadirə edilməsi işi də həyata keçirilirdi. Kitabların müsadirə edilməsi işi bilavasitə maarif komissarlığı məktəbdən kənar işlər şöbəsi kitabxana yardım bölməsinin nəzarəti altında həyata keçirildi. Xüsusi fərmanı olmayan bütün şəxslərin kitabxanaları milliləşdirilirdi. Mərkəzi Rusiyada olduğu kimi, Azərbaycanda da inqilab komitəsinin göstərişi ilə alimlərə, yazıçılara, ictimai xadimlərə «Oxrata Qramota» fərmanı verilmişdi. Belə fərmanı olan şəxslərin kitabları müsadirə edilmirdi.

Rusiyadan fərqli olaraq Azərbaycanda kitabxanaların təşkili məsələsi olduqca çətin idi. Yeni kitabxanalar təşkil etmək üçün kitablar, xüsusi ilə elmi kitablar çatışmırdı. Buna görə də mövcud kitablardan səmərəli istifadə etmək, kitabların ayrı-ayrı şəxslərdən toplanmasını təmin etmək, illərdən bəri istifadəsiz qalmış kitabları sandıqlardan, zirzəmilərdən, məscidlərdən çıxarmaq üçün Azərbaycan Sovet hökuməti bir sıra inqilabi tədbirlər həyata keçirməli olmuşdu.

İnqilabın ilk aylarında Azərbaycandan gedən bəzi şəxslər özləri ilə bərabər bir çox qiymətli dərslikləri, sənətə, texnikaya aid kitabları aparırdılar. Kitab alveri ilə məşğul olan şəxslər meydana çıxmışdı. Get-gedə kitabların Azərbaycandan daşınıb aparılmasının daha da gücləndiyi hiss edilirdi. Azərbaycanda kitab «aclığının» hökm sürdüyü, yeni açılmış məktəblərə, kitabxanalara minlərlə kitab lazım olduğu bir dövrdə belə hala dözmək olmazdı.

1920-ci ilin oktyabr ayının 10-da Azərbaycan SSR İnqilab Komitəsi «Azərbaycan sərhəddindən kitabların və sənət-texniki vəsaitlərin aparılmasının qadağan edilməsi haqqında» dekret verdi. Nəriman Nərimanov tərəfindən imzalanmış bu dekretdə göstərilirdi: «1) Azərbaycan SSR-dən kənara peşə-texniki ədəbiyyat kitabları və dərs vəsaiti aparılması qadağan edilsin. 2) kitab və dərs vəsiti ixracına yol verilməməsi üzərində nəzarət fövqəladə komitənin mübarizə dəstələrnə həvalə edilsin. 3) Azərbaycan SSR-nin sərhədlərindən kənara aparmaq üçün kitab alveriilə məşğul olan şəxslər inqilabi dövr qanunlarına əsasən məsuliyyətə cəlb edilsinlər. 4) Həmin dekretin müddəalarını yerinə yetirməməkdə müqəssir olan hökumət orqanları hərbi tribunala verilsinlər.»[52]

İnqilabın ilk günlərindən kitaba böyük ehtiyac hiss edildiyi, sovet hökuməti tərəfindən böyük mədəni tədbirlər həyata keçirildiyi, yeni kitabların nəşr edilməsinin çətin olduğu bir dövrdə bu dekretin çox siyasi və mədəni əhəmiyyəti var idi. Dekret respublikanın hüdudları xaricinə kitabların aparılmasını tamamilə qanunla qadağan etdiyindən əldə olan kitabdan səmərəli istifadə etmək üçün şərait yaradır, kitabxanaların təkmilləşməsi işini asanlaşdırırdı.

1920-ci ildə həyata keçirilən tədbirlər içərisində N.Nərimanovun bilavasitə təşəbbüsü və rəhbərliyi ilə əhalidən kitabları toplamaq məqsədi ilə aparılan işlər öz dövrü üçün olduqca böyük mədəni və siyasi əhəmiyyət kəsb edirdi.

1920-ci il iyul ayının 5-də Xalq Maarif Komissarlığı

xalqa müraciət edərək öz şəxsi kitablarını yeni təşkil edilən kitabxanalara verməyə çağırdı. Bu müraciətnamə Azərbaycan Sovet hökumətinin mədəni quruculuq sahəsində həyata keçirdiyi işlərin ən bariz təzahürü və respublikada kitabxana quruculuğunun əsas proqramı idi. Müraciətnamədə deyilirdi: Yoldaşlar və vətəndaşlar! Azərbaycanın zəhmətkeş kütlələri, siyasi və iqtisadi zülmdən azad olanlar, bu vaxtadək yaşadıqları mənəvi əsarətdən, cəhalətdən və avamlıqdan da xilas olmalıdırlar.

Yeni yüksək həyat tərzi yaratmalı olan Sovet Azərbaycanı zəhmətkeşlərinin həqiqi kitabı və qəzeti olmalıdır. Proletariatı kapitalizm quruluşunun qayda-qanunlarının bütün zəncirlərindən öz fəaliyyəti ilə xilas etmək kimi əzəmətli bir vəzifəni öz qarşısına qoymuş olan inqilabi hökumət bütün qəzalarda və kəndlərdə kitabxanalar və qiraətxanalar təşkil edir. Kitab azdır, demək olar, heç yoxdur. Sovet Rusiyasından və Türkiyədən alınan kitablar Azərbaycana gec gəlib çıxır.

Yoldaşlar və namuslu vətəndaşlar, xalq maarif komissarlığı sizə müraciətlə deyir:

Türk (Azərbaycan – A.X.) rus dillərində kitablar, kitabçalar, jurnallar və məcmüələri bağışlayın.

Kitabı kilid altında saxlamağınız bəsdir.

İnqilab və proletariat qarşısında öz borcunuzu yerinə yetirərək, öz kitablarınızı zəhmətkeşlərə verin. Kitabların azlığından çoxluğundan utanmayın.

Hər bir lazımlı kitab böyük iş görər.

Kitablar hər gün (cümə günlərindən başqa) gündüz saat 2-dən 6-dək Xalq Maarif Komissarlığı kitabxana yarım şöbəsində qəbul olunur.»[53]

Müraciətnaməni xalq maarif komissarı Bünyadzadə imzalamışdı.

Xalq Maarif Komissarlığının bu müraciətinə cavab olaraq Azərbaycan zəhmətkeşləri özlərində olan kitabları komissarlığın kitabxana yarım şöbəsinə verməyə başladılar.

Kitabxana yarım şöbəsi zəhmətkeşlərdən toplanmış kitabları nəzərdən keçirir, lazımlılarını kitabxanalar arasında bölüşdürürdü.

Zəhmətkeşlərdən kitab toplamaq işi təkcə bununla bitmirdi. Azərbaycan KP göstərişi ilə Bakı şəhərində kitab toplamaq üçün başqa çox mühüm ictimai-siyasi tədbirlər həyata keçirilməyə başlandı.

Belə tədbirlərdən biri inqilabın ilk günlərindən həyata keçirilməyə başlayan «kitab günləri, «kitab həftələri» və s. idi. Azərbaycan KP və Azərbaycan İnqilab Komitəsi tərəfindən həyata keçirilən bu tədbirlər əsasən iki məqsəd güdürdü. 1) kitabı toplayıb geniş kitabxanalar şəbəkəsi yaratmaq, 2) məzmunca köhnəlmiş, ideoloji cəhətdən zərərli olan kitabları, dini xarakterli kitabları geniş xalq kütlələrindən almaq.

1920-ci il avqustun 11-də Bakı şəhərində geniş «kitab günü» keçirilmişdir. «Kitab gününü» keçirməkdə əsas məqsəd Orduda və Donanmada kitabxanalar təşkil etmək üçün kitab toplamaq olmuşdu. «Kitab gününü» keçirmək üçün əvvəlcədən böyük hazırlıq işləri aparılmış, komissiya təşkil edilmişdir.

Bu komissiya 1920-ci il avqustun 11-də kitab toplamaq haqqında müraciət elan etdi. Komisstya bu müraciətnamədə zəhmətkeşləri bir əlində tüfəng, fəhlə sinfinin düşmənlərinə qarşı mübarizə aparan, o biri əlində kitab öz savadsızlığını və geniş zəhmətkeş kütlələrinin savadsızlığını ləğv etməyə çalışan qızıl əsgərlərə kitab verməyə çağırırdı.[54] Avqustun 11-də şəhər başdan-başa şüarlar və plakatlarla bəzənmişdi. Kitab toplamaq üçün əvvəlcədən adamlar və plakatlarla bəzənmiş maşınlar ayrılmışdı. Həmin gün bütün kinolarda, teatrlarda, mədəniyyət evlərində, klublarda, kitabxanalarda kitabın əhəmiyyəti haqqında məruzələr oxunmuş, mitinqlər keçirilmişdi.

Şəhərin müxtəlif yerlərində keçirilən mitinqlərdə Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov,

maarif komissarı Dadaş Bünyadzadə, maarif komissarının müavini İ.Kolesnikova və b. partiya və dövlət rəhbərləri məruzə ilə çıxış etmişdilər.

Maraqlı cəhət burasıdır ki, həmin gün kinolara, teatrlara, parklara, dəniz gəzintilərinə və hər cür əyləncələrə buraxılış ancaq kitabla olmuşdu.

Belə «kitab günləri» təkcə Bakıda deyil, onun rayonlarında da təşkil edilirdi. 1920-ci ilin oktyabrın 22-də «Dəmir yolu rayonunda «Kitab günü» keçirilmişdir.»[55]

Kitab günlərinin keçirilməsinin çox mədəni və siyasi əhəmiyyəti var idi. Kitabın və kitabxanaların əhəmiyyəti haqqında təşkil edilən məruzələrdə həm də sovet hökumətinin həyata keçirdiyi mədəni tədbirlərdən danışılır, burjua ideologiyasının hər cür təzahürlərinə qarşı mübarizə aparılırdı. Belə tədbirlər zəhmətkeşləri geniş surətdə maariflənmə işinə cəlb etməyə kömək edirdi.

Partiya və hökumət tərəfindən həyata keçirilən tədbirlər respublikada kitabxana işini genişləndirməyə, geniş zəhmətkeş kütlələrinə xidmət edəcək yeni tipli ümumaçıq kitabxanalar yaratmağa imkan verirdi.

Kitabxanalar təşkil edildikdən və daimi işçilərlə təmin edildikdən sonra qarşıya çox mühüm bir vəzifə – onların müntəzəm olaraq komplektləşdirilməsi vəzifəsi çıxırdı. Kitabxana müntəzəm olaraq yeni kitablarla komplektləşdirilməzsə, kitab dövriyyəsinin müntəzəm olaraq artırılması qayğısına qalınmazsa, o, canlı mədəni qüvvədən cansız kitab yığınına çevrilə bilərdi. Sovet hökumətinin həyata keçirdiyi mədəni-siyasi tədbirlərdə iştirak edə bilməzdi.

Kitabxanaların müntəzəm olaraq, planlı surətdə məqsədəuyğun formada komplektləşdirilməsi bu işlə məşğul olan müəyyən bir müəssisənin yaradılmasını tələb edirdi. Odur ki, Azərbaycan SSR Xalq Maarif Komissarlığı 1920-ci ilin iyun ayında kitabxana yarım şöbəsinin yanında kitab məhsulatını respublika kitabxanaları arasında düzgün bölüşdürmək və kitabxanaların komplektləşdirilməsini mər-

kəzləşdirmək məqsədi ilə Mərkəzi Kitabxana Kollektoru təşkil etdi.[56] Kollektorun əsas vəzifəsi bütün kitabxanaları (həm Bakıda, həm də qəzalarda), səyyar məntəqələri komplektləşdirmək, kitab almaq və müsadirə edilən kitabların uçotunu aparmaq və s. idi. Göstərilən işlərlə məşğul olmaq üçün kollektorun yanında 6 təlimatçı işləyirdi.

1920-ci ilin iyun ayından sentyabr ayına qədər Mərkəzi kitabxana kollektoruna aşağıdakı miqdarda kitab daxil olmuşdur:

Alınmış	12336
Müsadirə edilmiş	22361
Müxtəlif müəssisələr tərəfindən verilmiş	3036
Mərkəzi mətbuat idarəsindən verilmiş	12976
Orucov qardaşlarının anbarından götürülmüş	16614
XI ordunun siyasi şöbəsindən alınmış	2918
Təşviqat qatarlarından alınmış	4820
Cəmi	75370
Kollektordan kitab verilmişdir	43642
Qalmışdır	31728[57]

Kitabxana kollektoru yeni kitabxanaların təşkili və mövcud kitabxanaların təkmilləşməsi işində kitabxana yarım şöbəsinə yaxından kömək edirdi. Kollektor 1920-ci il iyunun birindən dekabrın 31-nə qədər 6 ay müddətində 350 məntəqəyə kitablardan başqa 1963 nüsxə rus, Azərbaycan, erməni və s. dillərdə təbliğat xarakterli kitabça və jurnal vermişdir.[58] Kəndli həftəsi keçirilən zaman qəzalara 10070 təbliğat xarakterli kitabça göndərmişdir. Bunlardan 2906 nüsxəsi rus, 6370 nüsxəsi Azərbaycan, 794 nüsxəsi isə erməni dilində idi.

Kollektor göstərilən müddətdə 267 məntəqəyə (kitabxanaya, qiraətxanaya, qiraət komasına, kluba və s.) 53262 kitab göndərmişdir ki, bundan 21896-sı Azərbaycan, 2576-sı rus, 699-u erməni və 481-i xarici (fransız, alman) dillərində idi. Göstərilən 6 ay müddətində kitabxanalara gön-

dərilən 83576 kitab və kitabçadan 38985 nüsxəsi Bakı və onun rayonlarına, 44590 nüsxəsi isə Azərbaycanın qəzalarına göndərilmişdir. Göndərilən kitabların əksəriyyəti yəni 75% belletristika, yerdə qalan 25% ümumi xarakterli kitablar idi.[59]

Respublikada mədəniyyətin, o cümlədən kitabxana işinin inkişaf etdirilməsi də inqilabın ilk aylarından kitabxanaları siyasi-iqtisadi məzmunlu kütləvi ədəbiyyatla təkmilləşdirmək mühüm vəzifələrdən biri kimi qarşıda dururdu. Kitabxana yarım şöbəsi bu mühüm vəzifəni yerinə yetirmək üçün mərkəzi Rusiyadan elmi, siyasi və kütləvi xarakterli kitabların gətirilməsi işinə xüsusi diqqət yetirirdi.

Respublikada mədəniyyətin, o cümlədən kitabxana işinin inkişaf etdirilməsi işi də inqilabın ilk aylarında Bakı şəhərində və Azərbaycanın başqa qəza mərkəzlərində keçirilən maarif və mədəniyyət işçiləri qurultaylarının xüsusi rolu olmuşdur. Bu qurultaylar bilavasitə Azərbaycan Kommunist partiyasının rəhbərliyi altında hazırlanıb keçirilirdi. 1920-ci il sentyabrın 19-da Azərbaycan «I Azərbaycan maarif və mədəniyyət işçilərinin qurultayı» açıldı. Qurultayı giriş sözü ilə M.Maqomayev açdı.

Qurultayda hazırkı vəziyyət haqqında N.Nərimanov, Xalq Maarif Komissarlığının işi haqqında D.Bünyadzadə çıxış etdilər. Bünyadzadə qurultay nümayəndələrini ölkədə savadsızlığı ləğv etmək üçün and içməyə çağırmışdı. Qurultay nümayəndələri bu mühüm təklifi gurultulu alqışlarla qarşılamışdılar.

Qurultay respublikamızın mədəni həyatında çox mühüm hadisə oldu. O, mədəni geriliyi aradan qaldırmaq üçün məktəblərlə yanaşı olaraq, mədəni-maarif müəssisələrinin: kitabxanaların, qiraətxanaların, qiraət komalarının, klubların və s. təşkilinə mühüm əhəmiyyət verirdi. Qurultayın nümayəndələri içərisində qəzaların və Bakı şəhərinin qabaqcıl kitabxanaçıları da var idi. Xalq Maarif Komissarlığının kitabxana yarımşöbəsi qurultayda respublikada kitabxana

quruculuğu işinin vəziyyəti haqqında hesabat verdi.

Qurultayın keçirildiyi müddətdə nümayəndələrlə iş aparmaq üçün kitabxana bölməsi təşkil edilmişdi.[60] Bu bölmə qurultay nümayəndələri arasında kitabxana işinin nəzəri məsələlərinə dair mühazirələr və şəhər kitabxanalarında təcrübə işi təşkil etdi. Nümayəndələr kitabxana quruculuğu işinin düzgün qoyuluşu ilə tanış oldu və onlara müxtəlif elmlərin tədrisi məsələlərinə dair rəhbər ədəbiyyat verildi.

Qurultay respublikada sosialist mədəniyyəti quruculuğunun bütün məsələlərini müzakirə edərək gələcəkdə mədəniyyətin inkişaf perspektivlərini müəyyən etmiş və geniş qərar qəbul etmişdir.

Qurultay zəhmətkeşlərin şüurlanmasında, təhsil və tərbiyəsində məktəblərlə yanaşı, mədəni-maarif müəssisələrinin böyük rol oynadığını qeyd etmiş, zəhmətkeşlər arasında aparılan məktəbdənkənar işlərin müntəzəm olaraq genişləndirilməsini, məzmunca yaxşılaşdırılmasını, bütün mədəni-maarif işinə siyasi məzmun verilməsini tələb etmişdir. Qurultay məktəbdənkənar işlər üzrə xüsusi qərar qəbul etmişdir. Qərarda göstərilir: «Qurultay Azərbaycan fəhlələrinin və xüsusən kəndlilərinin mədəni səviyyəsinin aşağı olduğunu təsdiq edərək, maarif-sosialst mədəniyyəti işçiləri ittifaqına təklif edir ki, Xalq Maarif Komissarlığının məktəbdənkənar işlər şöbəsi ilə sıx əlaqəyə girib, zəhmətkeş kütlələrin mədəni səviyyəsini yüksəltmək və inkişaf etdirmək üçün maksimum səy göstərsin, öz qüvvə və vəsaitini əsirgəməsin. Qurultay hazırkı şəraitə uyğun olaraq qərara alır: «Savadsızlığa qarşı, fəhlə və kəndlilərin elmə yiyələnməsi və maariflənməsi uğrunda geniş miqyasda dərhal birgə mübarizəyə başlamalı. Qurultayın hər bir üzvü bu məqsədlərə çatmaq üçün var qüvvəsini sərf edib məktəbdənkənar maarif ocaqları şəbəkəsinin işini planlı surətdə təşkil etməlidir.

Məktəbdənkənar maarif ocaqlarının dərhal sıradan çıxmaması üçün məktəbdənkənar müəssisələrin hər bir işçisi məktəbdənkənar maarif prinsiplərinə ciddi əməl etməlidir.

Həmin prinsiplər bunlardır: kütlələrin özfəaliyyəti, kütləvilik və işin sistemliliyi.»[61]

Birinci Azərbaycan maarif və sosialist mədəniyyəti işçiləri qurultayının qərarı kitabxana işinin genişlənməsinə böyük təkan verdi. Kitabxanalar öz qapılarını geniş zəhmətkeş kütlələrinin üzünə açdı. Yeni sovet kitabxanalarının əsas prinsiplərindən biri onların ümumaçıq olmasında idi. Kitabxanalar qurultayın qarşıda qoyduğu savadsızlığın ləğvi, zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəlməsi və özfəaliyyətinin geniş sürətdə inkişaf etdirilməsi vəzifələrinə xidmət edirdilər.

Azərbaycan Sovet hökumətinin 20-ci illərin ilk günlərindən başlayaraq, kitabxana işinin təşkili sahəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq bir il müddətində kitabxana işi xeyli inkişaf etmişdi. İlk müvəffəqiyyətlər özünü həm kitabxanaların kəmiyyət artımında, həm də məzmunca, keyfiyyətcə inkişafında göstərirdi.

1921-ci ilin may ayında - Azərbaycan SSR-in yaradılmasının birinci ilində respublikada 45 kitabxana var idi (bu rəqəmə partiya və bir sıra idarə və təşkilatların kitabxanaları aid deyildir. – A.X.). Bunlardan 25-i qəzalarda, 20-si isə Bakı şəhərində yerləşirdi. Bütün kitabxanalarda 234210 kitab var idi.[62] Halbuki inqilabdan əvvəl cəmi 8 kitabxana və bu kitabxanalarda 141516 kitab var idi. Keçmişlə müqayisə edildikdə bir il müddətində kitabxanaların sayı beş dəfədən çox, kitabların sayı isə iki dəfəyə qədər artmışdı. Bu, çox mühüm mədəni nailiyyət idi.

Qəza şəhərlərində mərkəzi və rayon kitabxanaları təşkil edilmişdi. Kəndlərdə, qəsəbələrdə səyyar kitabxanalar və qiraət komaları açılırdı. Qəzalarda və rayon mərkəzlərində uşaq kitabxanalarının təşkil edilməsi sahəsində də təşəbbüs göstərilirdi. Bir sıra qəza şəhərlərində mərkəzi kitabxanaların yanında uşaq şöbələri təşkil edilmişdi. Bir də müstəqil rayon uşaq kitabxanası var idi. Birinci və ikinci dərəcəli məktəblərin yanında şagirdlər üçün məktəb kitabxa-

naları təşkil etməyin zəruriliyi haqqında səslər ucalmağa başlamışdı. Kitabxanalar əsasən kitabxana kollektoru tərəfindən pulsuz olaraq Azərbaycan və rus dillərində kitablarla komplektləşdirilirdi.

Bakı şəhər kitabxanalarının əksəriyyətində ümumi və Azərbaycan şöbələri var idi. Belə kitabxanalarda çoxmillətli Bakı zəhmətkeşlərinin ehtiyacını ödəmək üçün müxtəlif dillərdə, əsasən rus və Azərbaycan dillərində kitablar toplanırdı.

Bir il müddətində kitabxanalar geniş oxucu kütlələrinə xidmət etmək sahəsində də böyük müvəffəqiyyətlər əldə etmişdi. İnqilabdan əvvəl kitabxanalarda cəmi 9149 oxucu olduğu halda, 1921-ci ilin may ayında kitabxanaların (ayrı-ayrı idarə və müəssisə kitabxanalarının oxucularından başqa) 35100 nəfər oxucusu olmuşdu. Bu da inqilabdan əvvəlkindən 4 dəfə çox idi.

Oxucuların 57%-ni kişilər, 43%-ni qadınlar, 52%-ni yaşlılar, 48%-ni yeniyetmələr və uşaqlar təşkil edirdi.[63]

Kitabxanalarda mühazirələr, sərgilər, sual-cavab gecələri, ucadan oxular və s. təşkil edilirdi. Kitabxanalar mühazirələrin keçirilməsinə xüsusi əhəmiyyət verir, mühazirə oxumaq üçün görkəmli partiya və dövlət rəhbərlərindən istifadə edirdilər. Mühazirədən sonra kitablar təbliğ edilir, oxucuların suallarına cavab verilirdi. Azərbaycanda sovet hakimiyyətinin qalib gəlməsinin bir illiyi münasibətilə bütün kitabxanalarda bu tarixi günə həsr edilmiş sərgilər təşkil edilmişdi. Kitabxanaların yanında dərnəklərin təşkili işinə də xüsusi diqqət yetirilirdi. Pedaqoji kitabxananın yanında təşkil edilmiş dərnək öz üzvləri arasında geniş kütləvi tədbirlər həyata keçirir, mühazirələr, məruzələr təşkil edirdi.

Bu dövrdə həyata keçirilən kütləvi tədbirlərdən biri də kitabxana gecələri idi. Kitabxana gecələri keçirməkdə əsas məqsəd geniş zəhmətkeş kütlələri arasında kitabxananı təbliğ etmək, kitabı yaymaq idi. 1920-ci ilin avqust ayında III beynəlmiləl fəhlə klubunun və Sabunçu fəhlə klubunun kitabxanasında belə gecələr keçirilmişdi.

Azərbaycan Dövlət Universitetinin yanında fəhlə fakültəsinin açılması ilə əlaqədar olaraq Bakı şəhər kitabxanalarında həmin fakültənin dinləyicilərinə xidmət etmək üçün ayrıca şöbələr təşkil edilmişdi. Belə şöbələrdən universitetin və texnikumların tələbələri istifadə edirdilər. Fəhlə fakültəsinin dinləyicilərinə kitab seçməkdə, mütaliə vərdişlərinə yiyələnməkdə yaxından kömək edilirdi.

Kitabxanalarda biblioqrafiya işinin təşkilinə də başlanmışdı. Bu iş hələ rüşeym halında olsa da yavaş-yavaş inkişaf edirdi. Şəhər kitabxanalarında biblioqrafik kartotekaların, oxu planlarının, müxtəlif sahələrə dair biblioqrafik göstəricilərin tərtib edilməsinə təşəbbüs göstərilirdi.

Kitabxanalarda uşaqlarla aparılan işə də xüsusi diqqət yetirilirdi. Bütün şəhər və rayon kitabxanalarının uşaq şöbələrində uşaqlar arasında iş aparmaq üçün nağılçılar, mühazirəçilər dəvət edilirdi. Həm də kitabxanalarda uşaqlar üçün ucadan oxular təşkil olunurdu. Bakı və onun rayonlarında kitabxanalar bir neçə ay müddətində 85 ucadan oxu keçirmişdilər. Kitabxanaların idarə edilməsində zəhmətkeşlərin iştirakını təmin etmək, kitabxana işini ictimai-siyasi işlə əlaqələndirmək məqsədi ilə kitabxana şuralarının təşkili kitabxanaların ətrafında geniş oxucu kütlələrinin toplanmasına səbəb olur, kitabxana işinin məzmununu yaxşılaşdırırdı. Yerli partiya təşkilatları bilavasitə kitabxana şuralarının işində iştirak edir, kitabxanaların işini partiya təbliğatı ilə əlaqələndirməyə çalışırdılar. Kitabxana yarımşöbəsi kitabxana şuralarının əsasnaməsini təsdiq edib, bütün kitabxanalara göndərmişdi. Bu əsasnamə kitabxana şuralarına kitabxananın bütün işlərində və onun idarə edilməsində iştirak etmək imkanı verirdi.

Kitabxanalarda işlərin bu qaydada qurulması sovet kitabxanalarının prinsip və vəzifələrindən irəli gəlir və onun işinin əsas məzmununu təşkil edirdi.

Bu dövrdə kitabxana işi sahəsində həyata keçirilən ən mühüm tədbirlərdən biri də kitabxanaçı kadrların hazırlan-

ması məsələsi idi. Azərbaycanda təhsilli adamların azlığı, xüsusilə azərbaycanlı kadrların olmaması kitabxana işinin təşkilini və məzmunca yaxşılaşdırılmasını çətinləşdirirdi. Qarşıda mütəxəssis kitabxanaçı kadrların hazırlanması kimi çox mühüm bir vəzifə dururdu. Bu məqsədlə Azərbaycan SSR Xalq Maarif Komissarlığı məktəbdənkənar işlər şöbəsinin kitabxana yarımşöbəsi 1920-ci ilin avqust-sentyabr aylarında XI ordunun siyasi şöbəsi ilə birlikdə 90 nəfərlik kitabxanaçı kursu təşkil etdi. Bu kursu qurtaranların 60 nəfəri Maarif Komissarlığından, 15 nəfəri XI ordudan, 15 nəfəri Azərbaycan ordusundan idi.[64] Kursu bitirənlərin hamısı kitabxanalara işə göndərildi.

1920-ci ilin iyulunda məktəbdənkənar işlər şöbəsinin kollegiyası kitabxanaçı kadrları hazırlamaq barəsində kitabxana yarımşöbəsinin müdiri Okinşeviçin məruzəsini dinləyib müzakirə edərək yenidən kitabxanaçılıq kursu təşkil etməyi lazım bilmişdi[65].

Azərbaycan Kommunist Partiyasının II qurultayı respublikada mədəni-maarif işinin genişlənməsinə və kənd yerlərində geniş mədəni-maarif işi apara biləcək kadrların hazırlanmasına xüsusi diqqət yetirdi. Bu məsələ ilə əlaqədar olaraq qurultayın qərarında göstərilirdi: «Qurultay belə hesab edir ki, mədəni-maarif işini maksimum inkişaf etdirmək zəruridir. Türk (Azərbaycan – A.X.) dilində bu işi görə biləcək işçilər çatışmadığı üçün təhsil müddəti 6 həftəlik olan səyyar məktəblər təşkil edilsin, bu məktəblər kəndbəkənd gəzərək bir il müddətində bir kəndə deyil, 10 kəndə xidmət etməlidir. Qurultay Xalq Maarif Komissarlığına təklif edir ki, bu məktəblərin proqramının hazırlanması və məktəblərin mümkün qədər tez yaradılması üçün tədbir görsün.[66]»

Azərbaycan KP II qurultayının qərarlarına uyğun olaraq qəzalarda kitabxana işinə diqqət artırıldı. Yerli qəza komitələri və rayon komitələri kitabxanalar, qiraətxanalar, qiraət komaları təşkil etmək işinə bilavasitə özləri rəhbərlik edirdilər.

1920-ci ilin sentyabr ayında Zaqatala qəza komitəsi təbliğat şöbəsinin yanında bütün partiya üzvlərinə və zəhmətkeşlərə xidmət etmək üçün qiraət komaları təşkil etmək haqqında qərar qəbul etmişdi. 1920-ci ilin oktyabr ayında Quba qəzası Rustov rayon komitəsi fəhlə klubu və qiraətxana təşkil etməyi lazım bilmişdi[67].

Qəza və rayon partiya komitələri kitabxanaları təşkil etməklə yanaşı, onlara rəhbərlik etməyi, işə kommunist məzmunu verməyi də unutmurdular. Kitabxanalardan partiya təbliğatının genişlənməsi işində də istifadə edirdilər.

Zəhmətkeş deputatları sovetlərinin təşkilinə qədər (1921-ci ilin yayına qədər) qiraət komaları çox böyük mədəni tədbirlər həyata keçirdi, maarif və mədəniyyət sahəsində xeyli iş gördü. 1920-ci ilin payızından 1921-ci ilin yazına qədər kənd yerlərində kitabxanaların, qiraət komalarının, xalq evlərinin təşkili və fəaliyyəti bilavasitə yoxsul komitələrinin rəhbərliyi altında həyata keçirilirdi. Yoxsul komitələri göstərilən vəzifələri həyata keçirmək üçün kəndlilər arasında geniş təbliğat-təşviqat işi aparırdılar. Onlar öz təbliğatçılıq fəaliyyətini kənd mədəni-maarif müəssisələri ilə əlaqələndirir, onlardan partiya və hökumətin qərar və göstərişlərini izah və təbliğ etmək işində geniş surətdə istifadə edirdilər.

Bu dövrdə kənd kitabxanalarına və qiraət komalarına aşağıdakı məzmunda kitablar və kitabçalar göndərilmişdi: «Kəndin mədəni həyatında kənd ziyalılarının rolu və yeri», «Qarşılıqlı yardım kassası nədir və onu necə təşkil etmək olar?», «Kənddə qiraət komaları necə olmalıdır?», «Keçmiş və yeni məhkəmə», «Kənd şəraitində özünü xəstəlikdən necə qorumalı», «Yoxsul, ortabab və muzdur qolçomaqlara qarşı mübarizədə» və s.[68]

Azərbaycanın qəzalarında sovet hakimiyyətinin ilk günlərində Azərbaycan KP və Sovet hökuməti tərəfindən həyata keçirilən tədbirləri izah etmək, qəzalarda qiraət komaları, kitabxanalar təşkil etmək və ədəbiyyatı geniş zəhmətkeş kütlələri arasında yaymaq işində təbliğat qatarları-

nın böyük rolu olmuşdur.

Azərbaycan KP MK-nın təşkilat bürosu 1920-ci il sentyabrın 23-də təbliğat qatarlarının işi haqqında məsələni müzakirə etdi. Təşkilat bürosu Azərbaycanda iki təbliğat qatarının saxlanılmasını və onlardan birinin ancaq Azərbaycan əhalisinə, ikincisinin isə Azərbaycanla yanaşı, Şimali Qafqaz əhalisinin müsəlman hissəsinə xidmət etməsini məsləhət bilmişdi. Büro hər iki qatarın tezliklə fəaliyyətə başlaması haqqında göstəriş vermişdi.[69]

1920-ci ilin sentyabr ayında «Sovet Qafqazı» adına təbliğat qatarı, Oktyabr ayında isə «26 Bakı komissarı» adına təbliğat qatarı Bakı-Ağstafa və Poylu stansiyaları arasında səfərə çıxmış, geniş təbliğat işi aparmışdı.

O dövrdə Azərbaycanda mədəni-maarif işinə rəhbərlik vahid mərkəzdə birləşdirilməmişdi. Mədəni-maarif müəssisələrinə müxtəlif idarələr və təşkilatlar tərəfindən rəhbərlik edilirdi. Baş Siyasi-Maarif Komitəsi yarandıqdan sonra məktəbdənkənar işlər şöbəsinin bir hissəsi, Azərbaycan Teleqraf Agentliyi, Dövlət nəşriyyatı təbliğat-təlimat qatarları və gəmiləri onun ixtiyarına verildi. Azərbaycan Həmkarlar İttifaqı mərkəzi şurasının, komsomolun, ordu və donanmanın siyasi-maarif işlərinə rəhbərlik burada mərkəzləşdirilmiş və həmin təşkilat və idarələrin nümayəndəsi Baş Siyasi-Maarif İdarəsinin kollegiyasına daxil edilmişdi. Dekretə görə, yerlərdə siyasi-maarif işlərini mərkəzləşdirmək məqsədi ilə rayon xalq maarif şöbələrinin yanında siyasi maarif idarələri təşkil edilirdi. Baş Siyasi-Maarif İdarəsinin bir sədri və iki müavini Xalq Maarif Komissarlığının kollegiyasına daxil olurdu.[70] Baş Siyasi-Maarif İdarəsi təşkilat nöqteyi-nəzərindən Xalq Maarif Komissarlığına tabe idi. Onun illik planı və smetası Xalq Maarif Komissarlığının kollegiyasında müzakirə olunub təsdiq edilir və yerinə yetirilməsinə nəzarət edilirdi.

Baş Siyasi-Maarif İdarəsi bilavasitə geniş təbliğat-təşviqat işi ilə məşğul olduğundan Azərbaycan KP MK təb-

liğat-təşviqat şöbəsi ilə əlaqədar olaraq iş aparırdı. Bu məsələ ilə bağlı Baş Siyasi-Maarif İdarəsinin əsasnaməsində deyilir: Baş Siyasi-Maarif Komitəsi öz işinin məzmununa görə dövlətin kommunizm təbliğatı orqanıdır, buna görə də bilavasitə AK(b)P MK-ya tabedir, ondan tapşırıq və direktiv alır, icra haqqında ona hesabat verir.[71]

Baş Siyasi-Maarif İdarəsi öz fəaliyyətinin ilk aylarında (aprel-sentyabr) bir sıra çətinliklərlə qarşılaşmış, öz işini normal qaydada qura bilməmişdi. Bu çətinlik əsas etibarı ilə özünü kadrların yoxluğunda göstərirdi. Baş Siyasi-Maarif İdarəsində cəmi üç adam işlədiyindən yerlərlə müntəzəm əlaqə yaratmaq mümkün olmamışdı.[72] 1921-ci ilin sentyabrında Baş Siyasi-Maarif İdarəsinin yeni kollegiyası təsdiq edildi və idarə yeni kadrlarla təkmilləşdirildi. Yeni kollegiya idarənin tərkibində bir sıra dəyişikliklər edərək, demək olar ki, işi yenidən qurdu. Azərbaycan Maarif Komissarlığı Baş Siyasi-Maarif İdarəsinə öz fəaliyyətini genişləndirmək üçün lazımi vəsait ayırdı, onun ştatını artırdı. Yerlərlə əlaqə yaradılması işinə xüsusi diqqət yetirilməyə başlandı.

Respublikada Baş Siyasi-Maarif İdarəsinin yaranması siyasi-maarif işində yeni mərhələnin başlanması idi. Xalq Maarif Komissarlığının keçmiş məktəbdənkənar işlər şöbəsindən daha böyük ştata və səlahiyyətə malik olan Baş Siyasi-Maarif İdarəsi respublikada siyasi-maarif müəssisələrinin yenidən qurulmasını təmin etdi, onların işinin məzmunca yaxşılaşdırılmasına, öz işini partiya və hökumətin siyasəti ilə daha möhkəm əlaqələndirməyə nail oldu.

Baş Siyasi-Maarif İdarəsinin tərkibində olan kitabxanaçılıq şöbəsi əvvəllər, yəni aprel-sentyabr aylarında ayrıca fəaliyyət göstərirdi. Baş Siyasi-Maarif İdarəsi sentyabr ayında yenidən təşkil edildikdən sonra klub şöbəsi ilə birləşdirildi. Kitabxanaçılıq şöbəsi az bir müddət içində siyasi-maarif idarəsi kitabxanaçılıq şöbəsi ilə və bəzi qəza siyasi-maarif idarələri ilə əlaqə yaratdı. Bir sıra metodik məktublar, təlimatlar, əsasnamələr tərtib etdi. Tərtib edilmiş rəhbər

materiallar kitabxanaçılıq şöbələrinə göndərildi. Qəzalarda kitabxanalar və qiraət komalarının təşkilinə xüsusi diqqət yetirilməyə başlandı. Qəza siyasi-maarif idarələri bütün daxili imkanlardan istifadə edərək yerlərdə mədəni-maarif işini genişləndirməyə səy edirdilər.

Respublikada Baş Siyasi-Maarif İdarəsinin təşkilindən sonra da bir sıra təşkilatlar, o cümlədən həmkarlar və komsomol təşkilatları öz üzvləri arasında ayrılıqda mədəni iş aparmaqda davam edirdilər. Azərbaycan Həmkarlar İttifaqı Mərkəzi Şurasının Mədəniyyət şöbəsi yenə də fəaliyyət göstərirdi. Həmkarlar təşkilatları mədəniyyət şöbələrinin saxlanması uğrunda mübarizə aparırdılar. Mədəniyyət şöbələrində işləyən bəzi işçilər həmkarlar təşkilatının mədəni işini Baş Siyasi-Maarif İdarəsinin işindən ayırmağa çalışırdılar ki, bu da bəzən mədəni işi partiya siyasi işindən ayırmağa gətirib çıxarırdı. Komsomol təşkilatları belə hesab edirdilər ki, onlar gənclər arasında siyasi tərbiyə işini heç kəsdən asılı olmayaraq müstəqil aparmalıdırlar. Hərbi təşkilatlarda da siyasi-maarif işinə rəhbərlik sahəsində aydınlıq yox idi.

Beləliklə, Azərbaycanda Sovet hakimiyyətinin ilk ili müddətində (1920-ci il may – 1921-ci il may) kitabxana quruculuğu sahəsində görülən işlərin ümumiləşdirilməsi, ölkədə kitabxana işinin vəziyyəti və inkişaf istiqaməti haqqında müəyyən elmi fikirlər söyləmək, təhlillər aparmaq imkanı verir:

1. Kitabxana işinə dövlət rəhbərliyi qaydaya salınmış, respublika ərazisində olan bütün kitabxanalar millileşdirilmiş, ümumxalq mülkiyyəti elan edilmiş, bilavasitə Xalq Maarif Komissarlığına tabe olan, ölkə əhalisinin bütün təbəqələrinə xidmət edən kitabxana sistemi yaradılmasına təşəbbüs göstərilmişdi.

2. Bir il müddətində ölkədə olan hər cür çətinliyə, ilk növbədə iqtisadi çətinliyə baxmayaraq, kitabxana işi həm kəmiyyət, həm də keyfiyyət etibarı ilə inkişaf etmiş, ideya istiqaməti tamamilə yeni olan partiyalılıq və sinfilik ideologiyasını rəhbər tutan yeni sosialist kitabxanaları meydana gəlmişdi. Ölkədə keçmiş xalq kitabxanaları, xalq qiraətxanaları, ictimai kitabxanaların bazasında kütləvi kitabxanalar şəbəkəsi yaradılması və bütün ölkə daxilində onların şəbəkəsinin genişlənməsi ön plana çəkilmişdi. Özünü geniş xalq kütlələrinin dövləti hesab edən Sovet hökuməti bütün mədəniyyət müəssisələrini kütləviləşdirməyə xüsusi diqqət yetirdiyindən xalq kitabxanalarının da kütləvi kitabxanalar adlandırılmasını zəruri hesab edirdi. Bu, kitabxana işini siyasiləşdirməyin yeni forması idi. Kommunist Partiyası kütləvi kitabxanalara oxucuların ümumtəhsil biliklərinin genişləndirilməsinə, kitab təbliğinə, mütaliəyə rəhbərliyinə kömək edən, ahəngdar inkişaf etmiş, şəxsiyyət yetişdirilməsi işində iştirak edən, ideoloji işin dayaq bazası olan bir müəssisə kimi baxırdı. Məhz buna görədir ki, kitabxana işinə dövlət rəhbərliyi ilə paralel olaraq partiya rəhbərliyi də həyata keçirilirdi. Partiya təşkilatları kitabxana işinə təbliğat-təşviqat işinin bir hissəsi kimi baxırdı.

Məhz bu bir ildə ölkədə kütləvi kitabxana şəbəkəsi təşəkkül tapdı. Onun ilk tipləri və formaları olan şəhər, qəza, qəsəbə, rayon, kənd kütləvi kitabxana şəbəkələrinin bünövrəsi qoyuldu.

Şəhər kütləvi kitabxanalarına nisbətən kənd kütləvi kitabxana şəbəkəsini yaratmaq olduqca böyük maddi çətinliklərlə üzləşirdi. Kəndlərdə bina, kitabxana avadanlığı, xüsusilə kitablar çatışmırdı. Bu səbəbdən də hökumət kəndlərdə təşkil edilməsi daha asan başa gələn qiraət komalarının yaradılmasına üstünlük verirdi. Qiraət komaları kənddə siyasi maarif və təbliğat-təşviqat işinin mərkəzi olmaqla bərabər kənd əhalisinə kitabxana xidmətini də həyata keçirirdi. Qiraət komalarının kitab fondları və oxu zalları var idi. Məhz kitab təbliği də burada həyata keçirilirdi.

3. Hökumət əhaliyə kitabxana xidmətini hərtərəfli təşkil etmək, bütün əhalini kitabxana xidməti ilə əhatə etmək üçün kütləvi kitabxanalarla yanaşı, məktəb kitabxana-

larının geniş şəbəkəsini yaratmaq, yeni açılan bütün məktəblərdə kiçik məktəb kitabxanaları yaratmağı mühüm sayırdı. Məhz buna görədir ki, bir il müddətində onlarla kiçik məktəb kitabxanaları yaranmışdı. Orta ümumtəhsil məktəblərində bir qayda olaraq stasionar kitabxanalar fəaliyyət göstərirdilər.

Həmçinin hökumət ictimai təşkilatların kitabxana şəbəkəsinin yaradılmasına diqqət yetirirdi. Belə kitabxanalar içərisində partiya və həmkarlar təşkilatlarının kitabxana şəbəkəsinin təşkili daha kütləvi xarakter almışdı. Sovet hakimiyyətinin ilk illərində yeni yaranmış Azərbaycan ordusunda da kitabxanalar yaradılması, əsgərlərə kitabxana xidmətinin təşkili sahəsində xeyli iş görülmüşdü.

Respublikada mədəniyyətin, ali təhsilin, elmin inkişafı ilə əlaqədar yaranan müəssisələr kitabxanalar təşkil etməyə xüsusi qayğı göstərirdilər. Az da olsa elmi, elmi-texniki, ali məktəb kitabxanaları yaranıb formalaşmağa başlamışdı. Məhz ilk ali məktəb və elmi-tədqiqat institutlarının kitabxanalarının əsası 20-ci illərin əvvəllərində qoyulmuşdu.

Dövlətin xalq maarifi, savadsızlığın ləğvi, yeni əlifbanın qəbulu, kitab nəşri, mədəniyyət və elmi müəssisələrin təşkili sahəsində həyata keçirdiyi tədbirlər ölkədə kitabxana işinin inkişafı üçün əlverişli zəmin hazırlayırdı. Yeni formalaşan Azərbaycan ziyalılarının kitabxana quruculuğunda iştirak etməsi kitabxana işinin inkişafında əsaslı təminat idi.

Böyük çətinliklərə baxmayaraq kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, xüsusilə kitabla təchiz edilməsi işində də müəyyən inkişaf hiss edilirdi.

Bir il müddətində kitabxana quruculuğu sahəsində əldə edilmiş müvəffəqiyyətləri statistik rəqəmlər də təsdiq edir. 1921-ci ilin may ayında Azərbaycanda 390,3 min kitab fondu olan 69 kütləvi kitabxana fəaliyyət göstərirdi. Bunlardan 381,7 min kitab fondu olan 63 kütləvi kitabxana şəhərlərdə və şəhər tipli qəsəbələrdə və 8,6 min kitab fondu olan 6 kitabxana kəndlərdə yerləşirdi.[73] Halbuki 1920-ci ildə

Azərbaycanda 95000 kitab fonduna malik 11 kitabxana olmuşdur. Əhalinin əksəriyyətinin azərbaycanlı olmasına baxmayaraq kitab fondunda olan kitabların ancaq 1139 nüsxəsi Azərbaycan dilində idi və kitabxanaların daimi oxucularının miqdarı 9149 nəfər olmuşdu[74].

Beləliklə, bir il müddətində kitabxanaların sayı beş dəfədən çox, kitabların sayı isə üç dəfəyə qədər artmışdı. 1921-ci ilin may ayında kitabxanaların (ayrı-ayrı idarə və müəssisə kitabxanalarının oxucularından başqa) 35100 nəfər oxucusu olmuşdur. Bu da 1920-ci ildəkindən 4 dəfədən çox idi. Oxucuların 57%-ni kişilər, 43%-ni qadınlar, 52%-ni yaşlılar, 48%-ni yeniyetmələr və uşaqlar təşkil edirdi.[75]

§ 2.6.1. Yeni iqtisadi siyasət və xalq təsərrüfatının bərpası illərində Azərbaycanda kitabxana işi. Kütləvi kitabxanalar

Digər sovet respublikalarında olduğu kimi, Azərbaycanda da 1920-ci ilin payızından yeni iqtisadi siyasətə keçilməyə başlandı. Azərbaycanda dinc quruculuğa keçid ölkə iqtisadiyyatının çox ağır bir vəziyyətdə olduğu şəraitdə baş verirdi. Azərbaycanın iqtisadi həyatının bütün sahələri (sənaye, kənd təsərrüfatı və nəqliyyat) dərin böhran keçirirdi. 1921-ci ildə sənaye istehsalı 1913-cü il istehsal səviyyəsinin 43 faizini təşkil edirdi.[76] Maliyyə böhranı respublika büdcəsində ciddi çatışmazlığa gətirib çıxarmışdı.

Yeni iqtisadi siyasətin həyata keçirildiyi dövrdə ölkədə baş verən iqtisadi böhran xalq təsərrüfatının bütün sahələrinə ciddi mənfi təsir göstərdiyi kimi, mədəni quruculuq sahəsində çox böyük geriləməyə səbəb olmuşdu. Yeni iqtisadi siyasət ölkədə kütləvi kitabxanaların inkişafına mənfi təsir göstərmiş, bu sahənin maliyyələşdirilməsinə ayrılan vəsait ciddi surətdə azalmışdı.

Xalq Maarif Komissarlığı maliyyə çətinliyi üzündən dövlət büdcəsində olan kütləvi kitabxanaları yerli büdcələrə keçirməyə məcbur olmuşdu. Yerli büdcələrdə isə vəsaitin

olmaması kitabxanaların kütləvi surətdə bağlanmasına, ölkədə kütləvi kitabxanaların sayının azalmasına gətirib çıxarmışdı.

Sovet hakimiyyətinin ilk illərində verilən dekretlər, qərarlar, bu və ya digər ictimai təşkilatların qurultaylarının, konfranslarının qəbul etdiyi qətnamələr kağız üzərində qalmış, onların yerinə yetirilməsi təxirə salınmışdı. Kütləvi kitabxanalar böhran keçirirdilər. Bu işdən kənd mədəni-maarif müəssisələri daha çox ziyan çəkmiş, demək olar ki, yeni yaradılmış qiraət komaları, klublar, kitabxanalar bağlanmışdı. Dövlət yeni kitabxanalar açmaq haqqında düşünmürdü, əsas vəzifə mövcud kitabxanaları qoruyub saxlamaqdan ibarət idi. Kütləvi kitabxana şəbəkəsini qoruyub saxlamaq üçün dövlət kənd yerlərində dövlət kitabxana şəbəkəsi ilə digər idarə və müəssisələrin və ictimai təşkilatların kitabxanalarının birləşdirilməsini, kitabxanalardan istifadə işinə pul tətbiq edilməsini lazım sayırdı. Ancaq tez-tələsik, düşünülmədən həyata keçirilən bu tədbirlər də heç bir nəticə vermədi.

Bütün bunlar bərpa dövrünün ilk illərində respublikada kitabxanaların azalmasına, bir çox kitabxanaların bağlanmasına səbəb oldu. Xüsusilə yerlərdə yeni təşkil edilmiş kitabxanalar və qiraətxanalar kəndlilərin etimadını qazana bilmədiklərindən, onlarda kitab oxumaq işinə maraq yaratmadıqlarından bağlanmağa məcbur olmuşdular. Çünki kənd kitabxanalarına dövlət tərəfindən vəsait ayrılmırdı. Onlar yerli büdcəyə keçirildilər. Əgər 1921-ci ilin mayında Azərbaycanda 45 kitabxana var idisə, 1921-ci ilin noyabrında bunların sayı azalaraq 39-a enmişdi[77]. Qeyd etmək lazımdır ki, bu azalma özünü ancaq kitabxanaların sayında göstərmişdir. Kitabxanaların fondu və oxucular həmin dövrə nisbətən artmışdır. Əgər 1921-ci ilin may ayında 35100 oxucu olmuşdusa, onların sayı noyabrda 39600 nəfərə çataraq 4500 nəfər, kitabların sayı həmin müddətdə 234701-dən 270000-ə çataraq 35790 nüsxə artmışdı[78].

Təsadüfi deyil ki, N.K.Krupskaya 1921-1922-ci illəri siyasi-maarif müəssisələrinin yaşaması uğrunda mübarizə illəri adlandırmışdır. O, 1924-cü ildə RSFSR I kitabxanaçılar qurultayında kənddə iş haqqında məruzəsində deyirdi: «1921-ci ildən başlayaraq bizim siyasi-maarif müəssisələri düzəltmə evlər kimi ləğv olmağa başladılar.»[79]

Azərbaycan KP MK bərpa dövründə mədəni-maarif müəssisələrinin ləğv olunmasının qarşısını almaq, onları vəsaitlə təmin etmək və işlərini genişləndirmək üçün bir sıra tədbirlər görmüşdü. Bu tədbirlərdən biri 1921-ci il dekabr ayının 3-də siyasi-maarif işçilərini və təbliğat şöbələri I Ümumazərbaycan qurultayının çağırılması olmuşdur. Qurultay aşağıdakı məsələləri müzakirə etmişdir:[80]

1. Yeni iqtisadi siyasətin əsas vəzifələri;
2. Ümumrusiya siyasi-maarif işçilərinin qurultayı haqqında;
3. Sovet partiya və siyasi məktəblər haqqında;
4. Kitabxana işi haqqında;
5. Baş Siyasi-Maarif İdarəsinin hesabatı və siyasi-maarif işinin forma və üsullarının növbəti vəzifələri;
6. Klub işi haqqında;
7. Savadsızlığın ləğvi;
8. Qızıl orduda siyasi-maarif işləri və s.

Qurultayda siyasi-maarif işi təbliğat-təşviqat işi aparan bütün idarə və müəssisələrin nümayəndələri iştirak etdiyindən respublikada mədəni-maarif və təbliğat işinin vəzifələri geniş və hərtərəfli müzakirə edildi, yeni iqtisadi siyasətlə əlaqədar olaraq siyasi-maarif və təbliğat işinin vəzifələri forma və üsulları müəyyənləşdirildi və göstərilən məsələlərə dair geniş qərar qəbul edildi.

Qurultay təbliğat, təşviqat və kütləvi kitab təbliği işində kitabxanaların xüsusi rolunu qeyd edərək onu kommunist tərbiyəsi ocağı kimi qiymətləndirdi. Qurultayda kitabxana işinin vəziyyəti və gələcək perspektivləri haqqında Baş Siyasi-Maarif İdarəsi kitabxanaçılıq şöbəsinin rəisi Okinşeviç məruzə etdi. Məruzəçi qeyd etdi ki, kitabxana işi partiya,

komsomol, həmkarlar və hərbi təşkilatlarla əlaqədar olaraq aparılır. Respublikada olan 45 kitabxanadan hazırda 39-u geniş surətdə fəaliyyət göstərir. Bu kitabxanaların komplektləşdirilməsi bilavasitə Xalq Maarif Komissarlığının kitabxana kollektoru tərəfindən həyata keçirilir. Komplektləşmə əhalinin ictimai və milli tərkibi əsasında yerli şəraitə uyğun olaraq aparılır. Həm də zəhmətkeşlərə kommunist dünya görüşünü aşılayan kitabların əldə edilməsinə xüsusi diqqət yetirilir. Respublikada kitabxanaların təşkili prinsipləri hazırlanmış, bütün kitabxanalarda RSFSR Baş Siyasi-Maarif İdarəsi tərəfindən qəbul edilmiş onluq təsnifat sistemi tətbiq edilmişdir. Kitabxanalarda, xüsusilə şəhər kitabxanalarında kataloqların təşkilinə başlanmışdır. Sistemli kataloqların təşkilinə xüsusi diqqət yetirilirdi. Bütün idarə və müəssisələrdə, fabrik və zavodlarda, kiçik qəsəbələrdə sabit kitabxanaların təşkil edilməsi mümkün olmadığından kitabxanaçılıq şöbəsi AHİMŞ-ın mədəniyyət şöbəsi ilə birlikdə səyyar kitabxananın təşkilinə başlamışdır. Kitabxanalarda geniş xalq kütlələri arasında tərbiyə işini qüvvətləndirmək məqsədilə məzmunlu kütləvi işlər aparılır.[81] Bütün kitabxanalarda kitabxana şuralarının təşkil edilməsi mühüm sayılmış və bu iş qismən də olsa yerinə yetirilmişdir. Uşaqlarla geniş kütləvi iş aparmaq üçün hekayəçilər dərnəyi və uşaqların mütaliəsinə rəhbərlik edən komissiya təşkil edilmişdir.

Azərbaycanın qəzalarında və rayonlarında qəza və rayon kitabxanaları, kəndlərdə isə qiraət komaları təşkil edilmişdi. Qurultay qəzalarda kitabxana işini genişləndirmək üçün Azərbaycan dilində geniş surətdə ədəbiyyat nəşr etməyi, kitabxana işçiləri hazırlamaq üçün Azərbaycan və rus dillərində 6 aylıq kurs və xüsusi kitabxana təlimatçıları hazırlamaq üçün institut təşkil etməyi, savadsızlığa qarşı mübarizəni genişləndirməyi lazım bilmişdi[82]. Həm də qurultay gələcəkdə də kitabxana işinin təşkili məsələlərini müəyyənləşdirmiş, kitabxanalar təşkil etmək üçün müəyyən norma qəbul etmiş, səyyar kitabxanaların genişləndirilməsini vacib saymışdı. Qurultayın qərarında göstərilirdi: «Əhalisinin sayı 10.000 nəfərə qədər olan hər şəhər üçün azı bir kitabxana, hər 20.000 nəfər üçün azı bir rayon kitabxanası hesabı ilə şəhər və kəndlərdə mövcud rayon kitabxanalarını möhkəmlətməli, səyyar kitabxanalar sisteminə gələcəkdə xüsusi fikir verilməli. Bütün bunlar işin maddi bünövrəsini təmin edir»[83].

Qurultay qeyd edirdi ki, siyasi-maarif işinin düzgün və müvəffəqiyyətli təşkili kitabxana işinin genişləndirilməsini tələb edir və ondan asılıdır. Qurultay qəzalarda kitabxana işini yaxşılaşdırmaq və mərkəzlə onların əlaqəsini möhkəmlətmək üçün Baş Siyasi-Maarif İdarəsi kitabxana bölməsinin yanında təlimatçılar qrupu yaratmağı, qəza kitabxanalarını Azərbaycan dilində elmi-kütləvi, ictimai-siyasi kitablarla təkmilləşdirməyi lazım bildi. Qurultay kitabxana işinə dair geniş qərar qəbul etdi. Bu qərarda göstərilirdi:

«1) ... Kitabxana işi istər mərkəzdə, istərsə də qəzalarda siyasi-maarif işinin bütün növləri arasında əlaqə yaradan zəruri bir vasitədir. Kitabxanalar olmadan siyasi-maarif işləri genişləndirilə bilməz. 2) Yerlərdə düzgün başlanmış kitabxana işini müvəffəqiyyətlə davam etdirmək üçün qurultay belə hesab edir ki, Baş Siyasi-Maarif İdarəsinin kitabxana bölməsinə təlimatçılar aparatı vermək lazımdır; Təlimatçılar qəza kitabxanaları ilə canlı əlaqə yaratmalı və onların işini yaxşılaşdırmalıdırlar. 3) Qəza kitabxanalarını elmi, siyasi ədəbiyyatla və xüsusən türk (Azərbaycan - A.X.) dilində ən yeni təşviqat ədəbiyyatı ilə təmin etmək üçün təcili tədbirlər görməlidirlər»[84].

Qurultay öz işini qurtardıqdan sonra respublikanın bütün siyasi-maarif işçilərinə müraciətnamə qəbul edərək onları savadsızlığın ləğvinə, yeni iqtisadi siyasəti geniş zəhmətkeş kütlələri arasında izah etməyə, burjua ideologiyasının hər cür təzahürlərinə qarşı mübarizə aparmağa və Sovet hökumətini daha da möhkəmləndirməyə çağırdı. Qurultayın

bu müraciətnaməsi respublikamızda siyasi-maarif və təbliğat işinin hərəkat proqramı oldu. Bütün siyasi-maarif işçiləri, o cümlədən kitabxanaçılar qurultayın qərarlarını yerinə yetirmək üçün geniş tədbirlər hazırlamağa başladılar.

Yeni iqtisadi siyasətin həyata keçirildiyi illərdə Azərbaycan hökuməti kitabxana işini məzmunca yaxşılaşdırmaq uğrunda geniş mübarizə apardı. 1923-cü il aprelin 19-da Xalq Maarif Komissarlığının kollegiyası dövlət təchizatında qalan müəssisələrin siyahısını təsdiq etdi. Bu siyahıda Azərbaycan Dövlət Kitabxanasının, mərkəzi texniki kitabxananın, qəza və rayon kitabxanalarının da adı var idi. Komissarlıq göstərilən kitabxanaların dövlət hesabına təchiz edilməsini lazım bilirdi.

Bərpa illərində geniş zəhmətkeş kütlələri arasında kitab oxumaq və kitabxanalar təşkil etmək işinə böyük tələbat əmələ gəlmişdi. Zəhmətkeşlər yeni kitabxanaların təşkilində yaxından iştirak edir, onlara maddi cəhətdən kömək edirdilər.

Azərbaycanda kitabxanaların təşkil edilməsi işində böyük xalq səyi əmələ gəlmişdi. Geniş xalq kütlələri dəfələrlə dövlət orqanlarına müraciət edib kitabxanalar və qiraətxanalar təşkil etməkdə onlara kömək etməyi xahiş edirdilər.

1923-cü il aprel ayının 11-də Bakı şəhəri 5-ci Paralel və Yuxarı Dağlıq küçəsində yaşayan vətəndaşlardan bir qrupu həmin rayonda kitabxana-qiraətxana açmaq üçün ərizə ilə Bakı Xalq Maarif Şöbəsinə müraciət etmişdi. Bu ərizəni 50 nəfər imzalamışdı ki, bunlardan 10 nəfəri partiya üzvü idi. Ərizə iki nəfər evlər idarəsi müdiri tərəfindən də imza edilib möhürlənmişdi. Ərizədə göstərilirdi: «Bununla sizin nəzərinizə çatdırırıq ki, bir neçə canıyanan yoldaşlar bir yerə toplaşıb, məsləhətləşib belə qərara gəlmişlər ki, öz aralarında olan nalayiq hərəkətləri aradan qaldırmaq məqsədilə bir türk (Azərbaycan) kitabxanası açmağa icazə verməyi sizdən xahiş edək»[85].

Ərizədə həm də göstərilirdi ki, kitabxananı təşkil etmək üçün bina düzəldilmişdir.

1923-cü il fevral ayının 24-də bir qrup ana, Nəriman Nərimanov adına xəstəxananın yanında uşaq kitabxanası təşkil etmək haqqında Bakı Xalq Maarif Şöbəsinə ərizə vermişdi. Ərizədə göstərilirdi ki, uşaqların mədəni inkişafında kitabxanalar yaxından iştirak etməli, gənc nəslin tərbiyəsinə kömək göstərməlidir. Kitabxana təşkil etmək üçün kitablar və vəsait toplandığı ərizədə qeyd edilirdi.[86] Zəhmətkeşlərin kitabxanalar təşkil edilməsinə dair tələbatı get-gedə artıb bərpa illərinin axırında kütləvi xarakter almışdı. Zəhmətkeşlər yeni kitabxanaların təşkilini, kitabxana xidmətinin yaxşılaşdırılmasını tələb edirdilər.

1925-ci il may ayının 15-də Yuxarı Dağlıq küçəsi və 4-cü Paralel küçəsi sakinləri tərəfindən qeyri-adi bir iclas çağırılmışdı. İclas kitabxana təşkil etmək məsələsini müzakirə edirdi. Bu iclasın nümayəndələri kitabxana təşkil etmək üçün Bakı Xalq Maarif Şöbəsinin kitabxanaçılıq şöbəsinə ərizə verilməsini qərara aldılar. Ərizəyə 75 nəfər adam qol çəkmişdi[87]. Ərizədə göstərilirdi ki, kitabxana üçün bina tapılmışdır.

Zəhmətkeşlər kitabxanalar təşkil etmək üçün vəsait toplamaqda da yaxından iştirak edirdilər. Bu işdə «Kitabxana dostları cəmiyyəti» kitabxanalara daha yaxından kömək edirdi. 1922-ci il mart ayının 26-da Bakı şəhərində Əzizbəyov adına kitabxananı təşkil etmək üçün «Kitabxana dostları cəmiyyəti» Satir-aqit teatrında bir tamaşa göstərdi. Tamaşadan toplanan pul kitabxanaya sərf edildi. Kitabxana 1922-ci il may ayının 19-da təntənəli surətdə açıldı. Açılışda çoxlu adam iştirak edirdi. Açılışa toplaşanlar Məşədi Əzizbəyov haqqında məruzəyə qulaq asdılar və kitabxananın işi ilə tanış oldular[88]. Kitabxanada savadsızlar üçün ucadan oxu təşkil olunur, kitabı təbliğ etmək üçün geniş kütləvi işlər aparılırdı.

Göstərdiyimiz bu misallar Azərbaycan əhalisi içərisində kitab oxumağa, kitabxana təşkil etməyə böyük səy əmələ

gəldiyini bir daha təsdiq edir. Get-gedə həm Bakıda, həm də Azərbaycanın qəzalarında kitabxanalar xalqın məişətinə daxil olmağa başlayır, böyük xalq qayğısı ilə əhatə edilirdi.

Məhz buna görədir ki, yeni iqtisadi siyasətdən doğan çətin şəraitdə belə Bakıda kitabxana işi zəifləmədi. Əksinə, müntəzəm olaraq keyfiyyətcə yaxşılaşaraq öz fondlarını zənginləşdirdi.

§ 2.6.2. Bərpa illərində Bakı və onun rayonlarında kitabxana işi

Bərpa illərində yeni iqtisadi siyasətdən doğan hər cür çətinliklərə baxmayaraq, Bakıda və onun rayonlarında kitabxanalar öz işlərini müvəffəqiyyətlə davam etdirirdilər.

Yeni iqtisadi siyasət Bakı şəhər kitabxanaları qarşısında çox mühüm vəzifələr qoymuşdu. Kitabxanalar yeni iqtisadi siyasətin mahiyyətini izah etməli, bərpa dövrünün xarakterinə uyğun olaraq xalq təsərrüfatının bütün sahələri üzrə kitab təbliğ etməli idi. Bakıda və onun rayonlarında kitabxanaların fəaliyyət dairəsi qəzalara nisbətən daha geniş idi. Bakıda Xalq Maarif Şöbəsinin kitabxanaları ilə yanaşı, partiya və həmkarlar təşkilatlarının kitabxanaları və elmi kitabxanalar fəaliyyət göstərirdilər. Ayrı-ayrı idarə və müəssisələr mədəni-maarif müəssisələri təşkil etmək işinə geniş səy göstərirdi. Nəticədə mədəni-maarif müəssisələrinə vahid rəhbərlik işi olduqca çətinləşir, Maarif Komissarlığının və Bakı Xalq Maaarif Şöbəsinin uçotunda olmayan, yalnız ayrı-ayrı idarə müdirlərinə xidmət edən çox kiçik kitabxanalar meydana çıxırdı. Məhz buna görədir ki, Xalq Maarif Komissarlığı 1922-ci il martın 5-də Bakı şəhərində Bakı Xalq Maarif Şöbəsinin icazəsi olmadan mədəni-maarif müəssisələri təşkil etməyin qadağan edilməsi haqqında dekret verdi. Bu dekretdə göstərilirdi: «Xalq Maarif Komissarlığı xalq maarifi işində vahid rəhbərliyi və ümumi planı saxlamaq məqsədi ilə BXMŞ-nin icazəsi olmadan uşaq evləri, uşaq bağçaları, məktəblər, klublar və hər hansı bir mədəni-maarif

ocağı açılmasını qadağan etməyi qərara alır».[89]

Bu dekret mədəni-maarif müəssisələrinə rəhbərlik işinin BXMŞ-nin əlində mərkəzləşməsi üçün geniş imkan yaratdı.

1923-cü ilə qədər Bakı şəhərində və onun rayonlarında mövcud olan kitabxanaların mühüm hissəsi «Azərneft»in xalq maarif şöbəsinin və Bakı Xalq Maarif Şöbəsinin ixtiyarında idi. Onların hər ikisi eyni vəzifəni yerinə yetirirdilər. Ona görə də bu şöbələrin birləşdirilməsi zərurəti meydana çıxmışdı. 1923-cü ildə keçirilən Bakı şəhəri XII partiya konfransı bu şöbələrin birləşdirilməsini məqsədəuyğun hesab etdi[90]. Bakı Sovetinin 1923-cü il 17 iyun tarixli qərarı ilə Bakı Xalq Maarif Şöbəsi ilə «Azərneft» xalq maarif şöbəsi birləşdirildi. «Azərneft» xalq maarif şöbəsinin ixtiyarında olan savadsızlığı ləğv məntəqələri, klublar həmkarlar ittifaqına, kitabxanalar isə Bakı Xalq Maarif Şöbəsinə verildi.[91]

1923-cü ildən başlayaraq yeni kitabxanaların təşkil edilməsinə diqqət yetirilməyə başlandı. 1923-cü ildə Bakıda və onun rayonlarında 3 yeni kitabxana-qiraətxana açıldı.[92]

1923-cü ilin oktyabr ayında Bakı və onun rayonlarında 40 kitabxana var idi.[93] Bunlardan 3 kitabxana və 1 qiraətxananın kitabları ancaq Azərbaycan dilində, yerdə qalanlarının kitabları isə müxtəlif dillərdə idi. Kitabxanaların 15-i şəhərdə, 19-u Bakının rayonlarında, 6-sı isə Bakı qəzasında yerləşirdi. Bundan başqa, Bakının rayonlarında 6 qiraətxana var idi. Şəhər kitabxanalarında 196027, rayon kitabxanalarında 114566 kitab vardı. Bu kitablardan şəhər kitabxanalarında 14305-i, rayon kitabxanalarında 4949-u Azərbaycan dilində idi.

Kitabxanaların ətrafında oxucu kütlələrinin, xüsusilə fəhlə və kəndlilərin toplanması, oxucular içərisində onların faizinin müntəzəm olaraq artması o dövrün mühüm hadisələrindən biri kimi qiymətləndirilməlidir. Həm də kitabxana oxucuları sırasında qadınların müntəzəm olaraq çoxalması diqqəti cəlb edirdi. Şəhər kitabxanalarında 1923-cü ilin iyun

ayında olan 25721 oxucunun 10635 nəfərini, rayon kitabxanalarında isə 18519 nəfər oxucunun 8157 nəfərini qadınlar təşkil edirdi. Şəhər kitabxanalarının oxucularının 2830 nəfəri fəhlə idi.

1923-cü ilin iyul ayında şəhər kitabxanalarına 21834 oxucu, qiraətxanalara 13907 oxucu gəlmiş və onlara 38365 kitab verilmişdi. Rayon kitabxanalarına 23823, qiraətxanalara 12091 nəfər oxucu gəlmiş və onlara 37266 kitab verilmişdi.[94] Kitabxanalarda get-gedə ictimai-siyasi ədəbiyyata tələbat artırdı.[95]

Bu qərara müvafiq olaraq 1923-cü ilin aprelində Xalq Maarif Komissarlığının kollegiyası dövlət təchizatında qalan müəssisələrin siyahısını təsdiq etdi. Bu siyahıda Azərbaycan Dövlət Kitabxanasının və qəza, rayon kitabxanalarının adı saxlanmışdı.

Məhz buna görədir ki, yeni iqtisadi siyasətdən doğan çətin şəraitdə belə Bakıda kitabxana işi çox zəifləmədi, öz vəziyyətini qoruyub saxlaya bildi.

§ 2.6.3. Kənd kitabxanaları və qiraət komaları

1921-1925-ci illərdə kənd zəhmətkeşlərinə kitabxana xidməti bilavasitə kənd qiraət komaları tərəfindən həyata keçirilirdi. Hələ 20-ci illərin ilk günlərindən başlayaraq İnqilab Komitəsinin göstərişi ilə kəndlərdə qiraət komaları, kənd klubları, qiraətxanalar, bəzi hallarda isə müstəqil kitabxanalar təşkil edilmişdi. Yeni iqtisadi siyasət dövründə qəza və rayon mədəni-maarif müəssisələrinin yerli büdcələrə keçməsi ilə əlaqədar maddi çətinlik üzündən qiraət komaları kütləvi surətdə bağlanmağa başladı. 1920-ci ilin axırlarında hər rayonda bir neçə qiraət komaları olduğu halda[96] 1921-22-ci illərdə cəmi 2 qiraət komaları qalmışdı.[97]

Bərpa illərində kənd qiraət komalarına tələbat xeyli çoxalmışdı. Qiraət komaları kəndlərdə siyasi işin dayaq məntəqələri olmalı idilər.

1923-cü ildən başlayaraq Azərbaycanın kəndlərində

yeni qiraət komaları təşkil edilməyə başlandı. 1923-cü ildə respublikamızda dövlət tərəfindən təchiz edilən 7 qiraət komaları, həmçinin ayrı-ayrı idarə və müəssisələrin qiraət komaları fəaliyyət göstərirdi.

Yeni iqtisadi siyasətdən doğan çətinliklər üzündən 1922-ci ilin I rübündə bütün rayonlardakı kitabxanalar bağlanmağa məcbur oldu[98]. Bu iş 1922-ci ilin fevral ayında Baş Siyasi-Maarif İdarəsinin ləğv olunması ilə əlaqədar olaraq daha da sürətləndi. Baş Siyasi-Maarif İdarəsinin ləğvinin düzgün olmaması tezliklə hiss edildi. Bu, mədəni-maarif müəssisələrinin işinə mənfi təsir göstərdi. Xüsusilə qəzalarda mədəni-maarif müəssisələri kütləvi surətdə ləğv olmağa başladı. Bütün bunlar Baş Siyasi-Maarif İdarəsinin bərpasını zəruri edirdi.

Məhz buna görə, Azərbaycan KP MK 1922-ci ilin sentyabr ayında Baş Siyasi-Maarif İdarəsinin yenidən bərpa edilməsi haqqında göstəriş verdi. Baş Siyasi-Maarif İdarəsi bərpa edilərkən onun yanında kitabxanaçılıq şöbəsi də fəaliyyətə başladı. Kitabxanaçılıq şöbəsinin qarşısında respublikada, xüsusilə qəzalarda kitabxana işini genişləndirmək kimi mühüm bir vəzifə dururdu. 1922-1923-cü illərdə qəza kitabxanalarının tərkibində heç bir dəyişiklik baş vermədi. Bu dövrdə əsas vəzifə yeni kitabxanalar açmaq deyil, mövcud kitabxanaları saxlamaq idi. Yeni kitabxanaların təşkil edilməməsinə baxmayaraq qəzalara ədəbiyyat göndərilməsi davam edirdi. 1922-ci ilin sentyabrından 1923-cü ilin iyul ayına qədər 9 ay müddətində kitabxana şöbəsinin kitabxana kollektorundan qəza kitabxanalarına və başqa mədəni-maarif müəssisələrinə rus dilində 1090 adda 2070 kitab, Azərbaycan dilində 983 adda 1749 kitab, cəmisi 2078 adda 3819 kitab göndərilmişdir[99].

1922-ci ilin sentyabr ayından başlayaraq kitabxanaçılıq bölməsi bir sıra metodik məktublar tərtib edib qəza kitabxanalarına göndərməyə başladı. Tərtib edilmiş vəsaitlər içərisində «Qəza kitabxanalarının texniki cəhətdən təşkili və

statistik hesabatların tərtib edilib mərkəzə göndərilməsi qaydası», «Kitabxana dostları cəmiyyəti və kitabxana şurasını təşkil etmək haqqında əsasnamə», «Kitabxanaya kitabların qəbul edilməsi və istifadə qaydası», «Qəza, rayon və məktəb kitabxanaları üçün onluq təsnifat cədvəli», «Qəza kitabxanalarında iş aparmaq üçün nümunəvi siyahı», «Azərbaycan SSR-in qəza və rayon kitabxanalarının vəziyyəti haqqında anketin layihəsi», «Lazımi blankların və kitab kartoçkalarının forması» və s. kimi qiymətli vəsaitlər var idi.[100]

Bu vəsaitlər rus və Azərbaycan dillərində tərtib edilmişdi. Bundan başqa, A.Seyidovun «Kitabxana nədir və nə cür kitabxanalar olur?» adlı kitabı, «Xalq kitabxanalarında kitabları necə bölüşdürmək və təsvir etmək» və «Kiçik türk (Azərbaycan – A.X.) kitabxanasını necə açmaq» adlı kitablar və Pokrovskinin «Библиотечная техника» kitabı Azərbaycan dilində nəşr edilib qəza kitabxanalarına göndərilmişdi.[101] Kitabxana işinə dair Azərbaycan dilində metodik vəsaitlərin tərtib və nəşr edilməsi kitabxana işi tarixində çox mühüm bir hadisə idi.

Metodik əhəmiyyətə malik belə vəsaitlərin nəşr edilməsi kitabxana işinin məzmunca yaxşılaşmasına səbəb olur, onun elmi əsaslar üzərində inkişafını təmin edirdi. Kitabxana texnikasının və metodik işin yaxşılaşdırılması eyni zamanda oxuculara xidmət işini asanlaşdırdı ki, bu da kitabxana işinin daha da genişlənməsini və zəhmətkeşləri öz ətrafında toplayan ən yaxşı müəssisəyə çevrilməsini təmin edirdi.

Kitabxana bölməsi qəza kitabxanalarının fondunu ideyaca köhnəlmiş kitablardan təmizləmək məqsədi ilə bütün qəza kitabxanalarının fondunda olan kitabların siyahısını tələb etmiş və qəzalardan həmin siyahıları aldıqdan sonra ideyaca lazımsız kitabların kitabxana fondlarından çıxarılması haqqında göstəriş verilmişdi.[102]

Yeni iqtisadi siyasət dövründə dövlət tərəfindən kitabxana işinə ayrılan vəsaitin azalması ilə əlaqədar olaraq yerlərdə bəzi rəhbər işçilər kitabxanalardan istifadə etmək üçün

pul tətbiq edilməsini irəli sürdülər.

1921-1925-ci illərdə Azərbaycanda da bəzi kitabxanalardan istifadə etmək işinə pul tətbiq edilmişdi. Bu, Bakı şəhər kitabxanalarında daha çox yayılmışdı.[103] Baş Siyasi-Maarif İdarəsi kitabxana bölməsinin 1925-ci il hesabatında göstərilirdi ki, pullu kitabxanalardan əldə edilmiş vəsait hesabına 1245 kitab alınmışdır.

Qəzalarda da kitabxanalardan istifadə etmək işinə pul tətbiq edilməsinə təşəbbüs göstərilmişdir. Məsələn, 1923-cü ildə Şamaxı qəza kitabxanasından istifadə etmək pullu olmuşdur.[104]

1923-cü ildə Baş Siyasi-Maarif İdarəsi Şamaxı kitabxanasında istifadə pulunun ləğv edilməsi haqqında qərar qəbul etdi. Başqa qəzalarda da belə səhvlərin qarşısını almaq üçün Baş Siyasi-Maarif İdarəsi bütün qəzalara təlimat məktubu göndərmiş və tələb etmişdi ki, qəza kitabxanaları ümumaçıq olduğundan onlardan pulla istifadə etmək düzgün deyildir.[105]

1922-ci ilin dekabr ayında Baş Siyasi-Maarif İdarəsinin kollegiyası qəza kitabxanalarında, 1923-cü ilin may ayında Şuşa, Göyçay, Ağdam, Cavanşir, Lənkəran qəzalarında kitabxana işinin vəziyyəti haqqında kitabxanaçılıq bölməsinin müdiri Qiyasbəyovun məruzəsini dinləyib geniş qərar qəbul etmişdi[106].

1923-cü ildən başlayaraq qəzalarda yeni kitabxanalar təşkil edilməyə başladı. 1923-cü ildə Baş Siyasi-Maarif İdarəsi Ağdamda, Astarada, Gədəbəydə və s. kitabxanalar təşkil etməyi nəzərdə tutmasına baxmayaraq, təkcə Ağdamda kitabxana açmaq mümkün olmuşdu.[107] Ağdamda təxminən 1920-ci ilin axırlarında kitabxana vardı, lakin o, 1922-ci ildə ləğv edilmişdi.[108]

Bərpa illərində Azərbaycan qəzalarında olan kitabxanalar əsasən iki tipə bölünürdü: qəza və rayon kitabxanaları. 1925-ci ildə qəzalarda cəmi 25 kitabxana vardı. Bunlardan 16-sı qəza mərkəzi kitabxanası, 7-si rayon kitabxanası, ikisi

isə Naxçıvan və Gəncə qadın klublarının yanında idi.[109] Göstərilən kitabxanalardan qəza kitabxanaları və iki rayon kitabxanası 1923-cü ilə qədər mövcud olmuş, yerdə qalan 7 kitabxana 1923-1925-ci illərdə təşkil edilmişdi. Get-gedə qəzalarda kitabxana və qiraətxanaların sayı artırdı. Məsələn, Şəmkir qəzasında kitabxanaların və qiraətxanaların sayı 4-dən 10-a çatdırılmışdı[110]. Nuxa qəzasının kəndlərində 13 qiraətxana var idi ki, bunlardan 6-sı məscidlərdə yerləşdirilmişdi.[111] Quba qəzasında 43 qiraət komaşı var idi.[112]

Qəza və rayon kitabxanalarında kitabların və oxucuların sayı da müntəzəm olaraq artırdı. 1925-ci ildə qəza və rayon kitabxanalarında 85000 kitab və 25000-dən artıq oxucu vardı. Kitabların yarıdan çoxu azərbaycanca, oxucuların isə ¾-ü azərbaycanlı idi.[113]

Qəza kitabxanalarında və bəzi rayon kitabxanalarında (Qazax və s.) kataloqlar təşkil edilməyə başlamışdı. Bütün kitabxanalarda onluq təsnifat sistemi tətbiq edilmişdi. Kitabxanalar müntəzəm olaraq kitabxana texnikası ilə təmin edilirdi.

1921-1925-ci illərdə qəza və rayon kitabxanaları müntəzəm olaraq Baş Siyasi-Maarif İdarəsi kitabxana şöbəsinin kitabxana kollektoru tərəfindən komplektləşdirilmişdi. Hələ inqilabın ilk günlərindən təşkil edilmiş kitabxana kollektoru kitabların toplanmasında, qorunub saxlanmasında və kitabxanalar arasında düzgün bölüşdürülməsində mühüm rol oynayırdı. Kitabxana kollektoru kitabxanaları planlı surətdə hər birinin profilinə, yerli şəraitinə, oxucu tərkibinə uyğun olaraq komplektləşdirirdi ki, bu da mütəxəssis kitabxanaçılar olmadığı bir dövrdə çox mühüm əhəmiyyətə malik məsələ idi. Kollektor eyni zamanda kitabxanaları kitabxana texnikası ilə də təchiz etməyə çalışırdı.

Qeyd etdiyimiz kimi, kitabxana kollektoru 1920-ci ildən mövcuddur. 1922-ci ilin mart ayında kitabxana kollektoru düzgün olmayaraq ləğv edildi.[114] Bunun əsas səbəbi guya 1922-ci ildən başlayaraq kitabların azad surətdə satılması idi. Kollektorun ləğv edilməsi tezliklə respublikada kitabxana işinin inkişafına öz mənfi təsirini göstərdi. Mərkəzdən, kitab mağazalarından 100 kilometrlərlə uzaqda yerləşən qəza və rayon kitabxanaları yeni kitabları əldə etməkdən məhrum oldular. Odur ki, kollektorun yenidən bərpa edilməsinin zəruriliyi haqqında səslər ucalmağa başladı.

Kitabxanaları ardıcıl olaraq komplektləşdirmək məqsədi ilə Baş Siyasi-Maarif İdarəsinin kollegiyası 1922-ci il dekabrın 18-də qəza kitabxanalarının vəziyyəti haqqında məsələ müzakirə apardı və kollektorun yenidən bərpası haqqında qərar qəbul etdi.[115]

Kollektor 1922-ci ilin iyun ayında yenidən bərpa olundu. Kitabxana kollektoru Maarif Komissarlığının kitabxanaları ilə yanaşı, başqa idarə və müəssisələrin kitabxanalarını da kitabla təmin edirdi. 1921-ci ildə kollektor Azərbaycanın bütün kitabxanalarına 35.210 nüsxə kitab vermişdi ki, bundan 20674 nüsxəsi Xalq Maarif Komissarlığının kitabxanalarına, 14534 nüsxəsi isə başqa idarə və müəssisələrin kitabxanalarına göndərilmişdi. Kollektor kitabxanaları plakat və portretlərlə də təmin edirdi. 1921-ci ildə kitabxanalara 24000 plakat və portret göndərilmişdi. Bunlardan 692 nüsxəsi qəza kitabxanalarına çatmışdı[116].

Kitabxana kollektoru qəza və rayon kitabxanalarının komplektləşdirilməsini bilavasitə öz öhdəsinə götürmüşdü. 1925-ci ildə kollektor qəza və rayon kitabxanalarına 23692 nüsxə kitab göndərmişdi. Bu kitablardan 17514 nüsxəsi Azərbaycan dilində idi.[117]

Kitabxana kollektoru qəza kitabxanalarını dövri mətbuatla da təmin edirdi. 1923-1924-cü illərdə qəza kitabxanalarına «Kommunist», «Yeni yol», «Yeni fikir», «Заря Востока» qəzetləri, «Maarif və mədəniyyət», «Molla Nəsrəddin» jurnalları göndərilmişdi.[118]

1925-ci ildən başlayaraq kitabxanaların planlı surətdə komplektləşdirilməsi və yeni nəşrlərlə təkmilləşdirilməsi işində Azərbaycan Dövlət Kitab Palatasının xüsusi rolu olmuşdur.

Kitab Palatası 1925-ci ilin aprel ayından fəaliyyətə başlamışdı.[119] Kitab Palatasının yaranması respublikamızın mədəni həyatında mühüm hadisələrdən biri idi. O, qısa müddət içərisində Azərbaycanda bütün mətbəələrin qeydini apardı və onlardan çap məhsulunu almağa başladı. 1925-ci ildə Kitab Palatasına vərəqələrdən başqa 630 adda 17968 kitab daxil olmuşdu. Bunlardan 385 adda 11218-i azərbaycanca, 248 adda 6750-si rusca idi.[120] Kitab Palatası aldığı çap məhsullarından müəyyən nüsxələr ayırıb arxiv fondu yaradır, yerdə qalanlarını isə kitabxanalara göndərirdi.

1925-ci ilin dekabrında Azərbaycan Dövlət Kitab Palatası ilə RSFSR Kitab Palatası arasında bağlanmış müqaviləyə əsasən onların arasında kitab mübadiləsi başlanmışdı.[121] 1925-ci ildə Kitab Palatası SSRİ kitabsaxlayıcılarına 4713 kitab, Azərbaycanın qəza kitabxanalarına 9930 kitab göndərmişdi. Kitab Palatası göstərilən məntəqələrə kitab və jurnallarla yanaşı, bütün dövri mətbuatın aylıq komplektlərini də göndərirdi.[122] Kitab Palatası 1925-ci ildən Dövlət uçot qeyd biblioqrafiyası orqanı olan kitab salnaməsinin tərtibinə başladı. İlk kitab salnaməsi 1926-cı ildə nəşr edildi. Kitab salnaməsinin nəşri kitabxanalara yeni çap olunmuş kitablarla tanış olmaq imkanı verir və onların planlı surətdə komplektləşdirilməsinə yaxından kömək edirdi.

Azərbaycan Kommunist Partiyasının VI qurultayı (1924, may ayı) kənddə mədəni-maarif işinin inkişafına xüsusi diqqət yetirdi. Qurultay qeyd edirdi ki, kənddə sovet dövlətinin möhkəmlənməsi və yeni kənd təsərrüfatı formalarının inkişafı, kənddə mədəniyyətin genişlənməsini tələb edir.

Qurultayın qərarında deyilirdi: «Kənddə mədəniyyət ocağı olan qiraət komalarının əhəmiyyətini nəzərə alaraq qəzalarda onların möhkəm şəbəkəsini təşkil etmək üçün hər cür tədbirlər görməklə, kəndin bütün maarif işini qiraət komalarında mərkəzləşdirməli və dövlət hesabına onlara lazımi yardım göstərməli.»[123]

Mərkəzi Komitənin kənddə mədəni quruculuq məsə-

lələrinə dair qərar və göstərişlərini yerinə yetirmək üçün qəza və rayon partiya komitələri mühüm tədbirlər həyata keçirirdilər. Onlar mədəni-maarif müəssisələrinin təşkilinə, təchiz edilməsinə və həmin müəssisələrdə siyasi-təbliğat işi aparılmasına bilavasitə rəhbərlik edirdilər.

1924-cü ildə çağırılmış Zaqatala qəza partiya komitəsi konfransının hesabatında göstərilirdi ki, qəza komitəsi hesabat ilinin lap əvvəllərindən başlayaraq kitabxana və klub işinin genişlənməsinə xüsusi diqqət yetirmişdir. Qəza mərkəzində mərkəzi fəhlə-kəndli klubu, mərkəzi kitabxana və kəndlərdə qiraət komaları təşkil edilmişdir. Mərkəzi kitabxananın və qiraət komalarının yanında siyasi ədəbiyyata malik olan şöbələr yaradılmışdır. Konfrans bütün bunlarla yanaşı, kitabxana və qiraət komalarının yeni ədəbiyyatla təkmilləşməsi işində nöqsanlar olduğunu, mərkəzdən lazımi kitabların müntəzəm olaraq göndərilmədiyini qeyd edirdi. 1924-cü ildə Zaqatala qəzasında 9 qiraət komaası var idi. Bunların 6-sı Azərbaycan kəndlərində, 3-ü gürcü kəndlərində yerləşirdi.[124]

Azərbaycan Sovet hökuməti yarandığı ilk günlərdən Bakı proletariatının kəndə köməyini təşkil etməyə başlamışdı. Vaxtaşırı olaraq «kəndli həftələri» təşkil edilirdi. Belə həftələrdə kəndə həm iqtisadi, həm də mədəni cəhətdən yardım göstərilirdi. Bakı fəhlələri kəndlərdə məktəblər, qiraət komaları, kitabxanalar, savadsızlığı ləğv məntəqələri təşkil edir və kəndi lazımi ədəbiyyatla təchiz etməyə çalışırdılar. 1920-ci ilin sentyabrında təşkil edilmiş «kəndli həftəsi» zamanı kənddə kitabxanalar təşkil etmək və onları təbliğ etmək məqsədilə 8 nəfər işçi və çoxlu miqdarda kitab, kitabça, qəzet, jurnal, plakat, təqvim və s. göndərilmişdi.[125]

1922-1923-cü illərdə qəzalarda cəmi 17 kitabxana var idi. Bunlardan 15-i mərkəzi qəza kitabxanası, ikisi rayon kitabxanası idi.[126] Qəzalarda kitabxana işinin belə zəif inkişaf etməsinin əsas səbəbi kənddə kitabxanaların olmaması idi. Qəzalarda kitabxana işi tamamilə yeni iş olduğundan az

bir müddət içərisində yeni kitabxanalar təşkil etmək olduqca çətin idi. Çünki yeni kitabxanalar təşkil etmək üçün nə Azərbaycan dilində istənilən qədər kitab, nə də kitabxanalarda işləyə biləcək mütəxəssis kadrlar var idi.

Bərpa illərində hökumət tərəfindən kənddə siyasi-maarif işi sahəsində qarşıya qoyulan yeni vəzifələr kənd qiraət komalarının rolunu bir daha yüksəldirdi. Qiraət komaları partiya və hökumətin kəndlilər arasında siyasi işinin dayaq məntəqələri olmalı idilər.

1923-cü ildən başlayaraq Azərbaycanın kəndlərində yeni qiraət komaları təşkil edilməyə başlandı. 1923-cü ildə respublikamızda dövlət tərəfindən təchiz edilən 7 qiraət komasıdır[127], bundan başqa ayrı-ayrı idarə və müəssisələr tərəfindən təchiz edilən çoxlu miqdarda qiraət komaları var idi.

1923-cü ildən sonra şəhərin kəndə mədəni hamiliyi daha da genişləndi. Azərbaycan K(b)P V qurultayı (1923) kəndə hamilik işini yaxşılaşdırmaq haqqında qəti təklif irəli sürdü. 1923-cü ildə XII Ümumbakı partiya konfransının qərarı ilə Bakı partiya təşkilatının yanında xüsusi hamillik komissiyası yaradıldı. Bu komissiya kənddə mədəniyyətin inkişaf etdirilməsi, yeni qiraət komalarının və kitabxanaların təşkil edilməsi işində xüsusi rol oynayırdı. Bu komissiyanın 1925-1926-cı illər hesabatında göstərilirdi ki, Azərbaycan kəndlərinə mədəni hamiliyin ilk dövrlərində təcrübi kömək etməkdə siyasi maarif işi birinci yer tuturdu. Kəndə vaxtlı-vaxtında qəzet göndərilir, axşam kursları, məktəblər, savadsızlığı ləğv məntəqələri açılırdı. Hesabat müddətində hamillik komissiyası tərəfindən Azərbaycan kəndlərində 78 qirfət komaası təşkil edilmişdi.

Bütün bu tədbirlərin nəticəsi olaraq bərpa ilinin axırında respublikamızın kəndlərində mədəni-maarif işi genişlənmiş, qiraət komalarının geniş şəbəkəsi yaranıb sabitləşmişdi. 1925-ci ildə Azərbaycan SSR-də 227 qiraət komaası var idi.[128] Bu qiraət komalarından 32-də iş daha səmərəli təşkil edilmiş, qiraət komalarından istifadə etmək kəndlilərin məişətinə daxil olmağa başlamışdı. Qiraət komalarına Azərbaycan dilində nəşr edilən bütün qəzet və jurnallar göndərilirdi. 1925-ci ildə Baş Siyasi-Maarif İdarəsi hər bir qiraət komasına 350 nüsxə kitab göndərmişdi.[129]

Qiraət komalarının sürətlə artması burada işləyə biləcək mütəxəssis kadrların hazırlanmasını tələb edirdi. Bu məqsədlə 1925-ci ildə Baş Siyasi-Maarif İdarəsi qiraət komaası işçiləri hazırlamaq üçün bir ay yarımlıq kurs təşkil etmişdi. Bu kursu bitirən 95 nəfər kənd qiraət komalarına işə göndərilmişdi.

Bərpa illərində qiraət komaları kənd zəhmətkeşlərinin təhsil və tərbiyəsində, savadsızlığın ləğvində partiya və hökumətin qərar və göstərişlərinin izah və təbliğ edilməsində yaxından iştirak edirdi. Qiraət komaları siyasi-kütləvi işdə partiya təşkilatlarının dayaq məntəqələri idi. Qiraət komalarında kəndin bütün təbliğat-təşviqat, klub və kitabxana işi birləşdirilmişdi. Qiraət komaları təbliğat işində yaxından iştirak etməklə yanaşı, geniş özfəaliyyət dərnəkləri yaradır, kəndlilərə kitabla yaxından xidmət edirdi. Qiraət komalarının yanında təşkil edilmiş kitabxanalar müntəzəm olaraq komplektləşir və kəndlilərin ən çox toplaşdığı müəssisəyə çevrilirdi. Kitabxanalarda geniş kütləvi işlər – ucadan oxular, məruzələr, mühazirələr, müsahibələr təşkil edilirdi. Qiraət komaları yanında fəaliyyət göstərən kitabxanalar öz fondları və işlərinin məzmunu etibarı ilə hələ çox zəif olsalar belə, kəndlərdə kitabxana işinin gələcək inkişafı və geniş kənd kitabxanası şəbəkələrinin yaranması üçün əsaslı zəmin hazırlayırdı.

Bərpa illərində yeni iqtisadi siyasətdən doğan çətinliklərə baxmayaraq, Bakıda və onun rayonlarında kitabxanalar daha mütəşəkkil fəaliyyət göstərirdi.

§ 2.6.4. Şəhər kütləvi kitabxanaları

Yeni iqtisadi siyasət Bakı şəhər kitabxanaları qarşısında çox mühüm vəzifələr qoymuşdu. Kitabxanalar yeni iqtisadi siyasətin mahiyyətini izah etməli, bərpa dövrünün xa-

rakterinə uyğun olaraq xalq təsərrüfatının bütün sahələri üzrə kitab təbliğ etməli idi. Bakıda və onun rayonlarında kitabxanaların fəaliyyət dairəsi qəzalara nisbətən daha geniş idi.

1923-cü ildən Bakı və onun rayonlarında yeni kitabxanaların təşkil edilməsinə diqqət yetirilməyə başlandı, 3 yeni kitabxana-qiraətxana açıldı.[130]

1923-cü ilin oktyabr ayında Bakıda və onun rayonlarında 40 kitabxana var idi.[131] Bunlardan 3 kitabxana və bir qiraətxananın kitabları ancaq Azərbaycan dilində, yerdə qalanlarının kitabları isə müxtəlif dillərdə idi. Kitabxanaların 15-i şəhərdə, 19-u Bakının rayonlarında, 6-sı isə Bakı qəzasında yerləşirdi. Bunlardan başqa, Bakının rayonlarında 6 qiraətxana da var idi. Şəhər kitabxanalarında 196027, rayon kitabxanalarında 114566 kitab vardı. Bu kitablardan şəhər kitabxanalarında 14305-i, rayon kitabxanalarında 4949-u Azərbaycan dilində idi.

Kitabxanaların ətrafında oxucu kütlələrinin, xüsusilə fəhlə və kəndlilərin toplaşması, oxucular içərisində onların faizinin müntəzəm olaraq artması o dövrün mühüm hadisələrindən biri kimi qiymətləndirilməlidir. Kitabxana oxucuları sırasında qadınların müntəzəm olaraq çoxalması diqqəti cəlb edirdi. Şəhər kitabxanalarında 1923-cü ilin iyun ayında olan 25721 oxucunun 10635 nəfərini, rayon kitabxanalarında isə 18519 nəfər oxucunun 8157 nəfərini qadınlar təşkil edirdi. Şəhər kitabxanalarının oxucularının 2830 nəfəri fəhlə idi.

1923-cü ilin iyul ayında şəhər kitabxanalarına 21834 oxucu, qiraətxanalara isə 13907 oxucu gəlmiş və onlara 38365 kitab verilmişdi. Rayon kitabxanalarına 23823, qiraətxanalara 12091 oxucu gəlmiş və onlara 37266 kitab verilmişdi.[132]

1925-ci ildə Bakıda, onun rayonlarında və Bakı qəzasında 49 kitabxana və 2 qiraətxana fəaliyyət göstərirdi. Bunlardan 9 kitabxana və 2 qiraətxananın kitabları ancaq Azərbaycan dilində, qalan kitabxanaların kitabları isə rus, Azərbaycan və başqa dillərdə idi. Bu kitabxanalardan 4-ü partiya kitabxanaları idi.[133] 1923-cü ildə partiya kitabxanaları Bakı

Xalq Maarif Şöbəsinin ixtiyarına verilmişdi. Bu kitabxanalardan 17-si şəhərdə, 26-sı rayonlarda və 6-sı Bakı qəzasında yerləşmişdi.

Rayonlarda olan 26 kitabxanadan 10-u Balaxanı – Sabunçu rayonunda, 3-ü Suraxanıda, 4-ü Fabrik-zavod rayonunda, 1-i Bayıl Bibiheybət rayonunda, 1-i Binəqədidə, 1-i Şubanıda, 1-i Artyom adasında yerləşirdi.[134] Kitabxana fondlarının təkmilləşməsi işinə xüsusi diqqət yetirilirdi. 1924-cü ilin oktyabr ayında şəhər və rayon kitabxanalarında 382906 kitab vardı, bunlardan 22572-i Azərbaycan dilində idi. 1925-ci ilin aprel ayında kitabların sayı 425866-a çatmışdır ki, bundan 30752-i Azərbaycan dilində idi. Deməli, cəmi altı ay müddətində kitabların sayı 42960 nüsxə artmışdı.

1924-cü ilin oktyabr ayında bütün kitabxanalarda 49132 nəfər oxucu var idi ki, bunların 7325 nəfəri azərbaycanlı idi. 1925-ci ilin aprelində isə 53274 oxucu var idi. Bunların 7620 nəfəri azərbaycanlı idi. Altı ay müddətində oxucuların miqdarı 3142 nəfər, azərbaycanlı oxucuların miqdarı isə 295 nəfər artmışdı.[135] 1925-ci ilin mart ayında kitabxanalara 98493 oxucu gəlmiş və həmin oxuculara 140376 kitab verilmişdi. 1924-cü ilin oktyabrından 1925-ci ilin martına qədər altı ay müddətində oxuculara 714450 kitab verilmişdi ki, bunun 83833 nüsxəsi Azərbaycan dilində idi.[136]

Göstərdiyimiz rəqəmlər geniş zəhmətkeş kütlələri içərisində kitab oxumaq işinə böyük tələb əmələ gəldiyini və kitabxanaların get-gedə xalqın məişətinə daxil olduğunu sübut edir. Elmi və ictimai kitablara tələbatın müntəzəm olaraq artması oxucuların mədəni səviyyələrinin durmadan inkişaf etməsi ilə əlaqədar idi. Əgər 1924-cü ilin oktyabrında ictimai-siyasi elmlərə aid 9647 kitab, dəqiq elmlərə aid 3191 kitab, tətbiqi elmlərə aid 1666 kitab, tarix və coğrafiyaya aid 4807 kitab verilmişdisə, 1925-ci ilin mart ayında ictimai-siyasi elmlərə aid 17473 kitab, dəqiq elmlərə aid 5695 kitab, tətbiqi elmlərə aid 3094, tarix və coğrafiyaya aid 9116 kitab verilmişdi.

Bakı Baş Siyasi-Maarif İdarəsi kitabxana bölməsinin hesabatında elmi və ictimai-siyasi kitablara tələbatın artması belə izah edilir: «Elmi kitaba və ictimai ədəbiyyata dair kitablara tələbatın artması geniş kütlələrin ictimai-siyasi həyata cəlb edilməsi, siyasi təhsil səviyyəsinin yüksəlməsi ilə, kitabxanaların və səyyar kitabxanaların elmi və siyasi ədəbiyyatının təşviqat və təbliğat yolu ilə, oxucu kütlələri arasında daha geniş yayılması ilə izah edilir.»[137]

Zəhmətkeşlərin respublikanın ictimai-siyasi həyatında yaxından iştiraka cəlb edilməsi onların savadlanmasının və mədəni inkişafının əsas amili idi. İctimai mühit özü zəhmətkeşlərin hərtərəfli inkişafı üçün geniş imkanlar yaratmış, onları böyük mədəni vasitə olan kitab oxumaq işinə cəlb etmişdi.

1925-ci ildə Bakı Baş Siyasi-Maarif İdarəsi kitabxana yarımşöbəsi tərəfindən Bakı və onun rayonlarında 7 səyyar məntəqə təşkil edilmişdi. Bu məntəqələr 42 müəssisəyə xidmət edirdi. Məntəqələr öz ətraflarında geniş oxucu fəalları qrupu təşkil edir, kitabı birbaşa zavoda, fabrikə, mədənə aparırdılar. 1925-ci ilin mart ayında bu məntəqələrin 4114 nəfər oxucusu var idi ki, bu oxuculara 8692 kitab verilmişdi.[138] Səyyar məntəqələrin oxucularının əksəriyyəti fəhlələr idi.

Səyyar kitabxanaların təşkili kitab təbliğ etməyin yeganə forması deyildi. Kitabxanalar kitabı daha geniş yaymaq üçün kollektiv abonement yolu ilə müəssisələrə, həmkarlar ittifaqları mədəniyyət komissiyalarına, komsomol özəklərinə, qadın şöbələrinə, məktəblərə, uşaq bağçalarına və s. kitablar verirdi. 1925-ci ilin 6 ayı ərzində kollektiv abonement yolu ilə 28364 kitab verilmişdi.[139]

Bərpa illərində kitabxanaların yeni kitablarla təkmilləşməsi işinə xüsusi diqqət yetirilirdi. 1922-ci ilin iyun ayına qədər Bakı Xalq Maarif Şöbəsinin kitabxanaları Xalq Maarif Komissarlığının Kitabxana Kollektoru tərəfindən komplektləşdirilirdi. 1922-ci ilin iyun ayında Bakı, onun rayonları və Bakı qəzasındakı kitabxanaları komplektləşdirmək üçün Bakı Xalq Maarif Şöbəsinin nəzdində kollektor təşkil

edildi. Kollektorun təşkili Bakı kitabxanalarının kitabla vaxtında təchiz edilməsi işinə kömək etdi. Kollektor kitabxanaları komplektləşdirməklə yanaşı, kitabları işləyir, məsləhətlər təşkil edir, ayrı-ayrı idarə və müəssisələrdə səyyar məntəqələr açırdı. 1924-cü ildə Bakı Xalq Maarif Şöbəsinin Kitabxana Kollektoru «Qırmızı oktyabr» tütün fabrikində və Volodarski adına tikiş fabrikində səyyar məntəqələr təşkil etmişdi.[140] Kollektor SSRİ Dövlət Kitab Palatası ilə və yerli nəşriyyatlarla əlaqə saxlayır, müntəzəm olaraq yeni kitablar alıb kitabxanaları komplektləşdirirdi. Təkcə bunu demək kifayətdir ki, kollektor 1923-cü ilin iyun, iyul və avqust aylarında kitabxanalar üçün kitab almağa 10 milyard 895 milyon manat (Azərbaycan pulu ilə) pul xərcləmişdi.[141] Kollektor öz işini get-gedə yaxşılaşdırırdı. Bu da respublikada iqtisadi çətinliyin aradan qalxması ilə əlaqədar idi. Təkcə 1925-ci ilin oktyabr, noyabr və dekabr aylarında kollektor kitabxanalara 22749 kitab vermişdi.[142]

Bərpa illərində kitabxanalara yeni oxucular - fəhlə-kəndli oxucuları gəlmişdi. Belə oxucuların sorğu-sualları, tələbatları da tamamilə yeni idi. Onlar kitabda müasir dövrün bütün mühüm hadisələrinə aid, siyasi şəraitlə əlaqədar olan bütün məsələlərə dair cavab axtarırdılar. Yeni oxucular hər şeydən əvvəl kitabxana işinin məzmun və ideyasının dəyişdirilməsini, kitab təbliğinin sovet dövlətinin təsərrüfat, siyasi vəzifələri və onun əməli fəaliyyəti ilə sıx əlaqədar olmasını tələb edirdi. Yeni oxucular kitab təbliğində də yeni iş forması - kitabların mexaniki paylanmasını deyil, kitab təbliğində kitabxanaçıların fəal iştirakını və məsləhətini tələb edirdi.

Bu dövrdə kitabxanalar öz ətrafında geniş oxucu kütlələrinin xeyli hissəsini toplamasına baxmayaraq yenə də respublikanın mədəni inkişafından geri qalırdı.

1921-1925-ci illərdə sovet kitabxanalarının əsas şüarı kitabı fəhlə və kəndlilərə yaxınlaşdırmaqdan ibarət olmuşdu. Bu mühüm vəzifəni yerinə yetirmək üçün səyyar kitab gəzdirmə işinin müxtəlif formalarından, kollektiv abone-

mentlərdən istifadə edilmiş və kitabxanalarda geniş kütləvi iş aparılmışdı. Bu dövrdə kitabxanalarda aparılan kütləvi işlər həmişə siyasi xarakter daşımış, partiyanın həyata keçirdiyi mədəni və təsərrüfat vəzifələri ilə əlaqədar olmuşdu. Kitabxanalar kütləvi işlərin müxtəlif formalarından istifadə edərək təsərrüfat, siyasi və beynəlxalq siyasətə dair kitabları təbliğ edir, zəhmətkeşlərin şəxsi təhsili işinə, savadsızlığı ləğv məntəqələrinə kömək edir, məruzələr, mühazirələr, sual-cavab gecələri, ucadan oxular keçirir, ədəbi və təsərrüfat-texniki dərnəklər təşkil edirdi. Kitabxanaların həyata keçirdiyi bu kütləvi işlər onların işinə siyasi məzmun verir, cəmiyyətin inkişaf məsələlərilə əlaqələndirilirdi.

Bərpa dövründə qəza, rayon, kənd kitabxanalarında və qiraət komalarında kütləvi iş o qədər də genişlənməmişdi. Lazımi vəsaitin və ixtisaslı kitabxanaçıların olmaması kütləvi işin səmərəli təşkilinə mənfi təsir göstərirdi. Bütün bu çətinliklərə baxmayaraq, 1923-cü ildən başlayaraq mərkəzi qəza kitabxanalarında, xüsusilə Qazax, Göyçay, Gəncə və s. qəza və rayon kitabxanalarında kütləvi işlər müntəzəm xarakter almışdı.

Qəza və rayon kitabxanaları və kənd qiraət komaları savadsızlığını ləğv etmiş fəhlə və kəndliləri kitabxana oxucuları sırasına cəlb edirdi. Kitabxanalarda ucadan oxular, mühazirələr, məruzələr keçirilir, kitab sərgiləri təşkil edilirdi.

Bərpa illərində kitabxanaların fəaliyyətini genişləndirmək və onların işinə kömək etmək məqsədilə yaradılan kitabxana şuraları kütləvi işlərin təşkilinə kömək edirdilər. Kütləvi işlərə kəndin bütün mədəni qüvvələri cəlb edilmişdi. Kitabxanalarda kütləvi işlərin aparılmasında «Kitabxana dostları» dərnəkləri mühüm rol oynayırdı. 1924-cü il mayın 14-də Baş Siyasi-Maarif İdarəsinin kollegiyası «Kitabxana dostları» dərnəyinin əsasnaməsini təsdiq etdi.[143] Bu əsasnaməyə görə, fəal oxuculardan təşkil edilən «Kitabxana dostları» dərnəyi kitabxana işinin inkişafında yaxından iştirak etməli, onun həyata keçirdiyi bütün kütləvi işlərə kömək göstərməli idi.

Bərpa illərində qəza, rayon və kənd kitabxanalarına nisbətən Bakı şəhəri və onun rayonlarının kitabxanalarında daha geniş və hərtərəfli kütləvi və mədəni-maarif işləri aparılırdı. Kitabxanalar müəssisələrdə, zavodlarda, fəhlə, kəndli, partiya, mədəni-maarif qurultaylarında, yığıncaqlarda, bitərəf konfranslarda, ümumiyyətlə, zəhmətkeşlərin daha çox toplandığı yerlərdə kitabı yaymağa çalışırdılar. Kitabxanalar bayramların keçirilməsində yaxından iştirak edir, mühazirələr təşkil edir, kitab sərgiləri düzəldir, tövsiyə siyahıları və plakatlar tərtib edirdilər. Bayram günləri kitabxanaçılar nümayişdə iştirak edən zəhmətkeşlər arasında söhbətlər təşkil edərək, kitabı təbliğ etməyə çalışırdılar. O dövrdə kitabxanalarda keçirilən işlərin növlərini və üsullarını müəyyənləşdirmək üçün 1924-cü ilin dekabr ayında Bakı və onun rayonlarının kitabxanalarında keçirilmiş kütləvi işləri nəzərdən keçirək.[144]

№	Kütləvi tədbirlərin adı	Şəhər kitabxanalarında	Rayon kitabxanalarında
1.	Oxucularla söhbət	29	76
2.	Gecələr və səhərciklər	4	3
3.	Tamaşalar	1	4
4.	Bədii qiraət saatları	13	17
5.	Məruzə və mühazirələr	-	15
6.	İnqilabi günlərə aid gecələr	-	1
7.	Divar və canlı qəzetlər	9	7
8.	Sərgilər	20	39
9.	Sərgilər və albomlar	30	43
10.	Tövsiyə siyahıları	20	40
11.	Ekskursiyalar	-	1
12.	Kitabxanaları təbliğ etmək üçün gecələr	3	-
13.	Oxucuların ümumi iclası	3	7
14.	Dərnək üzvlərinin ümumi iclası	6	3
15.	Mövzu kataloqları	2	4
16.	Ucadan oxular	2	3

Kitabxanalarda uşaqlar üçün də geniş kütləvi işlər aparılırdı. Belə tədbirlər həm yaşlılara məxsus kitabxanaların uşaq şöbələrində, həm də müstəqil uşaq kitabxanalarında həyata keçirilirdi. Təkcə altı ay müddətində (1924-cü ilin oktyabrından 1925-ci ilin aprel ayınadək) uşaqlar üçün 550 oxu və söhbət, 40 gecə və səhərcik, 150 bədii nəqletmə həyata keçirilmiş, 125 divar qəzeti buraxılmış və 12 ekskursiya təşkil edilmişdi.[145] Bərpa illərində zəhmətkeşlərin ümumi və siyasi təhsilinin inkişafı üçün geniş şərait yaranmışdı. Bu işdə kitab və kitabxanalar fəhlə və kəndlilərin ən yaxın köməkçisi olmalı idi. Ancaq fəhlə və kəndlilərin əksəriyyətinin kitab və kitabxanalardan istifadə etmək üçün lazımi təcrübələri yox idi. Ona görə də kitabxanaların qarşısında zəhmətkeşlər arasında kitab və kitabxanaları təbliğ etmək, kitab fondunu açıb göstərmək, kitabxanadan istifadə qaydalarını öyrətmək kimi çox mühüm bir vəzifə dururdu. Kitabxanaların təbliğ edilməsində partiya, komsomol təşkilatları, ziyalılar və fəal oxucular kitabxanaçılara yaxından kömək edirdilər. Eyni zamanda, kitab həftələri, kitabxana günləri, kitab aylıqları keçirilir, geniş məruzələr və mühazirələr təşkil edilirdi. Bütün bu tədbirlərin həyata keçirilməsinin nəticəsi olaraq bərpa dövrünün axırında kitabxanalarda aparılan kütləvi işlər sabitləşmiş, mühüm mədəni və siyasi əhəmiyyət kəsb etmişdi.

Bərpa illərində Azərbaycanda kitabxana işi yeni iqtisadi siyasətin ilk illərinə nisbətən sabitləşmiş, şəhər, qəza və rayon kitabxana şəbəkələri meydana gəlmişdi. Yeni iqtisadi siyasətin ilk illərində meydana çıxmış çətinliklər, kitabxanaların və qiraət komalarının ləğv edilməsi təhlükəsi aradan qaldırılmış, 1924-cü ildən kitabxana işinə vəsait buraxılmasına və yeni kitabxanaların təşkilinə başlanmışdı. 1925-ci ildə kitabxanaların böyük bir hissəsi dövlət büdcəsinə keçirilmişdi.

Respublikada bərpa illəri müddətində dövlət kitabxana şəbəkəsi ilə yanaşı, ayrı-ayrı idarə və təşkilatların ki-

tabxana şəbəkəsi, kütləvi, elmi və texniki kitabxanalar şəbəkəsi yaranmışdı.

Sosializm quruculuğunun yeni vəzifələri və geniş zəhmətkeş kütlələrinin artan mədəni tələbləri ilə əlaqədar olaraq kitabxana işi daha da genişlənmiş, forma və məzmunca yeniləşmişdi.

Kitabxanalarda geniş kütləvi işlər aparılırdı ki, bu da onların ətrafında geniş oxucu kütlələrinin toplanmasına səbəb olmuşdu.

1926-cı ildə Azərbaycanda 91 kitabxana-qiraətxana və bu kitabxanaların fondunda 584147 kitab var idi.[146] Bu kitabxanalar 77578 oxucuya xidmət edirdi. Beləliklə, inqilabdan əvvəlkinə nisbətən 5 il müddətində kitabxanaların sayı 10 dəfədən çox, kitabların sayı isə 6 dəfəyə qədər artmışdı.

Bərpa illərində kitabxana işi sahəsində əldə edilən nailiyyətlər mədəni quruculuğun ayrılmaz hissəsini təşkil edirdi.

§ 2.7. Sənayeləşmə və I beşillik dövründə Azərbaycanda kitabxana işi (1926-1932-ci illər)

2.7.1. Kənd kitabxanaları və qiraət komaları

Bərpa illərində Azərbaycan iqtisadiyyatında baş verən irəliləyiş və 1925-ci ildə ölkənin Birinci Dünya müharibəsindən qabaqkı səviyyəyə gəlib çatması ölkənin sənayeləşdirilməsinin inkişaf etdirilməsi zərurətini meydana çıxarmışdı. Odur ki, 1926-cı ildə partiyanın mərkəzi komitəsi ölkədə sənayeləşdirməyə başlamaq haqqında qərar verdi. Bu dövrdə sənayedə çalışacaq insanların mədəni-texniki səviyyəsinin yüksəldilməsi ciddi problem kimi qarşıda dururdu. Məhz buna görə dövlət mədəni quruculuğa dair tədbirlərin həyata keçirilməsinə ciddi diqqət yetirirdi.

Bərpa illərində olduğu kimi yenə də savadsızlığın ləğv edilməsi, kitab nəşriyyatının genişlənməsi, ümumi icbari ib-

tidai təhsilə keçirilməsi, məktəb şəbəkələrinin və mədəni-maarif müəssisələrinin genişlənməsi, şəhərin kəndə mədəni hamiliyi dövrün mühüm məsələlərindən idi.

Xalq təsərrüfatını hərtərəfli inkişaf etdirmək, onun bütün sahələrini sənayeləşdirmək, əmək məhsuldarlığını yüksəltmək, sənayedə qabaqcıl texnikanı tətbiq etmək, beləliklə də ölkəni aqrar ölkəsindən sənaye ölkəsinə çevirmək, ağır sənayeni hərtərəfli inkişaf etdirmək və səmərəliləşdirmək, fəhlələrin mədəni səviyyəsinin yüksəldilməsini, texniki biliklərinin artırılmasını tələb edirdi. Həm də ölkənin sənayeləşdirilməsi haqqında partiyanın həyata keçirdiyi siyasət heç də hamı tərəfindən rəğbətlə qarşılanmamışdı. Sənayeləşmə ölkədə kəskin ideoloji və sinfi mübarizə şəraitində həyata keçirilirdi.

Ölkədə genişlənməkdə olan belə bir ideoloji mübarizə zamanı partiyanın baş xəttinin geniş zəhmətkeş kütlələrinə izah edilməsi, sənayeləşmənin əhəmiyyət və vəzifələrinin hərtərəfli təbliği dövrün mühüm vəzifələrindən biri kimi qarşıda dururdu ki, bu da siyasi-maarif işlərinin hərtərəfli inkişafını, təbliğat-təşviqat işinin genişləndirilməsini tələb edirdi. Geniş təbliğat-təşviqat işini, əhalinin mədəni səviyyəsinin yüksəldilməsi işini, texniki biliklərə yiyələnməsi işini kitabsız, mütaliəsiz həyata keçirmək mümkün deyildi. Kitab fəhlələrə və kəndlilərə, mütəxəssislərə işdə və ailədə yaxından kömək edən bir vasitəyə, onların sədaqətli dostuna çevrilmişdi. İnsanlar kitabdan ruhi qida, tərbiyə, təhsil almaqla yanaşı, öz ixtisaslarına yiyələnməkdə, təsərrüfat planlarını vaxtında ödəməkdə, elm və texnikanın son nailiyyətlərini mənimsəməkdə, əməyə qənaət etməkdə, iş prosesini səmərəliləşdirməkdə istifadə edirdi.

Cəmiyyətdə yaranan bu böyük tələbat kitabı toplayıb saxlayan və ondan geniş istifadə işini təşkil edən müəssisələrin genişləndirilməsini tələb edirdi.

Dövlət kitabxana şəbəkəsi ilə yanaşı, ayrı-ayrı təşkilatların, idarə və müəssisələrin kitabxana şəbəkələri də meydana gəlmişdi. Həmkarlar təşkilatları zavod və fabriklərdə kitabxanalar təşkil etməyə başlamışdı ki, bu da zəhmətkeşlərə kitabxana xidmətini xeyli yaxşılaşdırmışdı. Bütün bunlar respublikada kitabxana işinin inkişaf etdirilməsi üçün lazımi şərait yaratmışdı.

1926-cı ildə Azərbaycanda 905100 nüsxə kitab fonduna malik olan 108 kitabxana var idi.

Bu kitabxanalardan 25-i qəzalarda yerləşirdi ki, bunlardan 16-sı qəza mərkəzi kitabxanası, 7-si rayon kitabxanası, 2-si isə ancaq qadınlara xidmət edirdi.[147]

Qəza və rayon kitabxanalarına ayrılan vəsait xeyli artırılmış, onların yeni kitablarla təchiz edilməsi məsələsi qaydaya salınmışdı. Bütün bunlara baxmayaraq kitabxanaların əksəriyyətinin hələ də yerli büdcədə qalmaları onların işinin genişləndirilməsinə mənfi təsir göstərirdi. Yerlərdə bəzi rəhbər işçilər kitabxanaların vaxtlı-vaxtında vəsaitlə təmin edilməsinə laqeyd baxırdılar. Buna görə də 1926-cı ildə Baş Siyasi-Maarif İdarəsi qəza və rayon kitabxanalarının dövlət büdcəsinə keçirilməsi haqqında məsələ qaldırmışdı.[148]

1926-cı ildə qəza və rayon kitabxanalarının hər birində orta hesabla 6000 nüsxə kitab var idi. Bu kitablardan 2000 nüsxəsi Azərbaycan dilində idi. Kitabxanalardan hər ayda orta hesabla 847 kitab verilirdi ki, bunun 410 nüsxəsi Azərbaycan dilində idi. Hər bir kitabxanada davamiyyət orta hesabla 1127-yə çatmışdı.[149]

Baş Siyasi-Maarif İdarəsi qəza və rayon kitabxanalarının işini yaxşılaşdırmaq və onlara metodik cəhətdən kömək məqsədilə tez-tez yerlərə təlimatçılar göndərir, onların işini yoxlayır və yoxlama materiallarını kollegiyada müzakirə edirdi. 1926-cı ildə Baş Siyasi-Maarif İdarəsinin təlimatçıları: Şuşa, Ağdaş, Zaqatala, Qazax, Şəmkir, Tovuz, Göyçay, Gəncə və Dağlıq Qarabağ Muxtar Vilayəti kitabxanalarını yoxlamışdılar. Yoxlamalar kitabxanaların işində bir sıra nöqsanların olduğunu meydana çıxardı. Bu nöqsanlar əsasən özünü kitabxana binalarının abad olmamasında, ixtisaslı

kitabxanaçı kadrların yoxluğunda, kitabxanaların vaxtlı-vaxtında yeni kitablarla komplektləşdirilməməsində, Azərbaycan dilində kitabların azlığında və s. göstərirdi. Həm də bəzi qəzalarda rəhbər məsul işçilər kitabxana işinə lazımi diqqət yetirmirdilər. Baş Siyasi-Maarif İdarəsinin 1926-cı il hesabatında göstərilirdi: «Qəza məsul işçilərinin kitabxanalara soyuq münasibəti, daha doğrusu, kitabxana işini başa düşməmələri qəzalarda kitabxana işini inkişaf etdirmək və kitabı geniş zəhmətkeş kütlələri içərisində yaymaq işində böyük əngəl idi.»[150]

Ölkənin sosialistcəsinə sənayeləşdirilməsi illərində qəza mərkəzlərində sənaye müəssisələri genişlənir və ixtisaslı fəhlələrə, belə müəssisələri idarə edə biləcək kadrlara böyük ehtiyac hiss edilirdi. Fəhlələrə, xüsusilə sənaye müəssisələrinə yeni cəlb edilmiş az ixtisaslı, təcrübəsiz fəhlələrə xidmət etmək, onları sənət və texnikaya aid kitablarla təmin etmək bu dövrdə kitabxanaların qarşısında duran ən mühüm vəzifələrdən biri idi. Sənayeləşmə dövründə kitabxanalar əsasən Baş Siyasi-Maarif İdarəsinin Kitabxana Kollektoru və Azərbaycan Dövlət Kitab Palatası tərəfindən göndərilən kitablarla, həm də kitabxanaların özləri tərəfindən yerli mağazalardan alınan kitablarla komplektləşirdi.

1926-cı ilin yanvar, fevral, mart aylarında Kitab Palatası qəza və rayon kitabxanalarına 4426 kitab göndərmişdi ki, bunun da 2936 nüsxəsi Azərbaycan dilində idi. Kitabxana Kollektoru həmin müddətdə kitabxanalara 150596 nüsxə kitab göndərmişdi. Bu kitabların 2936 nüsxəsi Azərbaycan dilində idi.[151]

Kollektor 1927-ci ildə bilavasitə Baş Siyasi-Maarif İdarəsinin ixtiyarına verildi. Kollektorun işinə rəhbərlik qaydaya salındı və yeni ixtisaslı kadrlarla təmin edildi. Kollekorun qarşısında qəza, rayon və şəhər kitabxanalarını müntəzəm olaraq komplektləşdirmək vəzifəsi qoyuldu. O, 1927-ci ildə 118 kitabxananı, 127 qiraət komasını, 398 qırmızı guşəni və s. komplektləşdirirdi.

Kitabxana kollektoru 1927-1928-ci illərdə qəza kitabxanalarına və Bakının ayrı-ayrı təşkilatlarına 300 adda 17327 nüsxə kitab və kitabça göndərmişdi. Bundan başqa, qəzalara 20 komplekt coğrafi xəritələr, portretlər, plakatlar, 20 komplekt sehrli fanar, 20 komplekt səyyar radio, 11 dini kabinet çatdırılmışdı.[152]

1927-1928-ci illərdə kitabxanalara SSRİ xalqlarının dillərində kitablar və xarici dillərdə kitablar da göndərilirdi. 1928-ci ildə respublikanın kitabxanaları 50 adda xarici qəzet və jurnal alırdı.

Bu dövrdə qəza və rayon kitabxanaları üçün ixtisaslı kadrlar hazırlamaq işi mühüm məsələlərdən biri idi. Kitabxanaçı kadrları hazırlamaq üçün xüsusi ixtisas məktəbləri olmadığından kitabxanaçılar yenə də Baş Siyasi-Maarif İdarəsi tərəfindən təşkil edilən vaxtaşırı kurslarda hazırlanırdı. Belə kurslar qəza mərkəzlərində və Bakı şəhərində təşkil edilirdi. Baş Siyasi-Maarif İdarəsi 1927-ci ildə kitabxanaçılıq kursu təşkil etdi. Kursa cəmi 46 nəfər daxil edilmişdi ki, onların da 22 nəfəri Baş Siyasi-Maarif İdarəsi, 14 nəfəri Bakı Siyasi-Maarif Şöbəsi, 14 nəfəri isə Azərbaycan Həmkarlar İttifaqı Mərkəzi Şurası Mədəniyyət şöbəsindən göndərilmişdi. Kursantların 25 nəfəri kitabxana işçisi idi. Kursa daxil olan 46 nəfərdən 41 nəfəri kursu müvəffəqiyyətlə bitirmiş və kitabxanalara işə göndərilmişdi.[153]

Bu dövrdə kəndlərdə zəhmətkeşlərə kitabxana xidməti əsas etibarı ilə qiraət komaları tərəfindən həyata keçirilirdi. Qiraət komaları savadsızlığın ləğvində, partiya və hökumətin təşkil etdiyi bütün siyasi kampaniyalarda, kütləvi siyasi işlərdə yaxından iştirak edirdi. Qiraət komalarında aparılan iş öz forma və məzmun müxtəlifliyi ilə fərqlənir, zəhmətkeşlər arasında geniş kitabxana işi aparırdı.

Qiraət komalarının nəzdində olan kitabxanalar getdikcə genişlənir, zəhmətkeşlərin ən çox gəldiyi məntəqəyə çevrilirdi. Azərbaycan kəndlərindəki qiraət komalarının o dövr fəaliyyəti ilə tanış olduqda görürük ki, onlar başqa

kütləvi siyasi və təşkilati işlərə nisbətən zəhmətkeşlər arasında daha çox kitabxana xidməti işini həyata keçirmişlər. Yəni onların işinin ən mühüm hissəsi kitabxana işi olmuşdur.

1926-cı ildə Azərbaycan SSR-də olan 121 qiraət komasının 115-i Azərbaycan qəzalarında, 6-sı Bakı qəzasında yerləşmişdi. Bunlardan 32-si nümunəvi qiraət komaları, 3-ü kəndli guşələri idi.[154] Təxmini məlumata görə, bu qiraət komalarına hər gün 19 nəfər gəlirdi.

Ölkənin sosialistcəsinə sənayeləşməsi illərində hökumət kənddə mədəniyyətin yüksəldilməsi işinə xüsusi əhəmiyyət verirdi. Kəndlərdə məktəblər, savadsızlığı ləğv məntəqələri, klublar, kitabxanalar, qiraət komaları təşkil etmək, onların işinə müntəzəm olaraq nəzarət yetirmək hökumətin diqqət mərkəzində idi.

1926-cı ildə çağırılmış Azərbaycan Kommunist Partiyasının VII qurultayı kənd yerlərində maarif və mədəniyyətin inkişaf etdirilməsi işinə xüsusi diqqət yetirdi. Qurultay kənddə iş haqqında xüsusi qərar qəbul edərək burada mədəni müəssisələrin geniş şəbəkəsinin yaradılmasını bir vəzifə kimi qarşıya qoydu.

Qurultayın qərarında göstərilirdi: «Geniş zəhmətkeş kütlələri arasında əmələ gəlmiş böyük tələbatı nəzərə alaraq bütün qüvvələri kənddə mədəni quruculuğun genişlənməsinə sərf etmək, məktəblər, qiraət komaları, klublar, kəndli guşələri təşkil etmək və onların keyfiyyətini yüksəltmək lazımdır.»[155]

1926-cı ildə Azərbaycan K(b)P MK-nın bürosu «Kənddə mədəni iş haqqında» məsələ müzakirə etmiş[156] və geniş qərar qəbul etmişdi.

Qərarda göstərilən vəzifələri yerinə yetirmək və nöqsanları aradan qaldırmaq üçün Baş Siyasi-Maarif İdarəsi bir sıra qəzalarda siyasi-maarif işlərini yoxlamış və müşavirələr keçirmişdir. 1926-cı ildə Dağlıq Qarabağ Muxtar Vilayətində, Qaxazda, Şəmkirdə, Qaxda, Zaqatalada, Şamaxıda və s. siyasi-maarif idarələrinin işi yoxlanılmış, onları ixtisaslı

kadrlarla və lazımi vəsaitlə təmin etmək üçün yerli partiya və hökumət idarələrinin qarşısında məsələ qaldırılmışdı. Qazax, Şəmkir, Zaqatala və s. qəzalarda qiraət komaları işçilərinin təlimatı müşavirəsi keçirilmiş, metodik göstərişlər verilmişdi.[157] 1927-ci ilin aprel ayında Baş Siyasi-Maarif İdarəsinin kollegiyası qiraət komalarını ixtisaslı kadrlarla təmin etmək və qiraət komaları işçilərinin ixtisasını artırmaq məqsədilə Bakı və Gəncə şəhərlərində qiraət komaları işçilərinin bir aylıq kursunu təşkil etmişdi.[158] Kursu bitirən şəxslərin əksəriyyəti qiraət komalarında işə göndərilmişdi.

1928-ci ildə Bakıda yenidən qiraət komaları müdirlərinin 2 həftəlik kurs-konfransı keçirildi.[159] Kurs-konfransda bütün qəza mərkəzlərindən işçilər iştirak edirdi. Burada müasir şəraitdə kənddə mədəni quruculuğun və qiraət komalarının məqsəd və vəzifələri haqqında mühazirələr oxundu və təcrübə mübadiləsi edildi.

Ardıcıl həyata keçirilən bu mühüm tədbirlərin nəticəsi olaraq qiraət komalarının şəbəkəsi getdikcə genişlənir və işinin məzmunu yaxşılaşdırılırdı. Əgər 1927-ci ildə Azərbaycan SSR-də cəmi 141 qiraət komaları var idisə, 1928-ci ildə qiraət komalarının sayı 155-ə çatdırıldı, yəni 1928-ci ildə 13 yeni qiraət komaları təşkil edilmişdi. Bu qiraət komalarından cəmi 14-ü Baş Siyasi-Maarif İdarəsinin büdcəsində idi. 1928-ci ildə Baş Siyasi-Maarif İdarəsi tərəfindən 4 nümunəvi qiraət komaları binası tikilib istifadəyə verilmişdi. Hər binada 1 tamaşa zalı və 5 otaq vardı. Qiraət komaları ilə yanaşı, kəndli guşələrinin təşkili də genişlənirdi. 1928-ci ildə kəndli guşələrinin sayı 39-a çatdırılmışdı.[160]

Bu dövrdə qiraət komaları olmayan kəndlərdə «muzdur evləri» təşkil edilməyə başlamışdı. «Muzdur evləri» əsasən qiraət komalarının gördüyü işləri həyata keçirir, kəndlərdə zəhmətkeşlərə kitabla xidmət işində yaxından iştirak edirdi.

20-ci illərin ikinci yarısından başlayaraq mədəni-maarif müəssisələri üçün kadrların yerlərdə hazırlanması,

ixtisas kurslarının qəzalarda təşkil edilməsi diqqətəlayiq hadisə idi. Çünki mərkəzdə təşkil edilən ixtisas kurslarına kadrların seçilib göndərilməsi bəzən çətinlik törədirdi. Belə çətinliklərin qarşısını almaq üçün Baş Siyasi-Maarif İdarəsi 1928-ci ildə bir sıra qəzalarda mədəni-maarif müəssisələri üçün kadrlar hazırlayan kurslar təşkil etdi. Yerlərdə kursları keçirmək üçün Bakıdan xüsusi mütəxəssis təlimatçılar göndərilirdi. Maraqlı cəhət burasıdır ki, belə təlimatçılar kursu təşkil etməyə başlamazdan əvvəl qəzalarda mədəni-maarif müəssisələrinin işlərini yoxlayır, meydana çıxan nöqsanları aradan qaldırmağa çalışır və kursun məşğələləri zamanı belə nöqsanların meydana çıxmasının səbəbini izah edirdilər. Həm də kurslarda kənddə mədəni-maarif və siyasi tərbiyə işinin vəzifələri haqqında, mədəni-maarif müəssisələrinin işinin yenidən qurulması haqqında mühazirələr oxuyurdular.

1928-ci ilin mayında Gəncədə[161], 1929-cu ilin aprelində isə Nuxada Baş Siyasi-Maarif İdarəsi tərəfindən qəza siyasi-maarif işçilərinin kurs-konfransı keçirilmişdi.[162]

Kurs-konfransa bütün mədəni-maarif işçiləri dəvət edilmişdi. Kursda məşğələlər mühazirə və təcrübə şəklində aparılmış, dinləyicilər qabaqcıl mədəni-maarif müəssisələrinin işi ilə tanış edilmişdilər.

Kənd təsərrüfatının kollektivləşdirilməsi kənddə mədəniyyətin və mədəni-maarif işinin kökündən yaxşılaşdırılmasını tələb edirdi. Kəndli kütlələrinə kollektiv təsərrüfatın əhəmiyyətini başa salmaq və bu məsələ ilə əlaqədar olaraq geniş təbliğat işi aparmaq kənd mədəni-maarif müəssisələrinin qarşısında duran mühüm vəzifələrdən biri idi. Ölkənin siyasi və iqtisadi vəziyyəti geniş zəhmətkeş kütlələrinin, birinci növbədə isə kasıbların, muzdurların, kolxozçuların ümumi texniki, siyasi, mədəni səviyyəsini yüksəltməyi tələb edirdi. Siyasi-maarif işi əsas etibarı ilə qolçomaq-mülkədar ünsürlərinə qarşı mübarizəyə və sosializm quruculuğunun bütün sahələrində zəhmətkeşlərin yaradıcı təşəbbüsünü hərtərəfli genişləndirməyə həsr edilməli idi. Kitabxanalar, qiraət komaları, qırmızı guşələr öz işlərini kütləvi surətdə kollektivləşmə işinə həsr etməli, bütün kəndləri və kənd ziyalılarını bu işin müvəffəqiyyətli təşkili uğrunda mübarizəyə, səfərbərliyə almalı idi. Bu dövrdə qiraət komaları yeni təşkil edilmiş kolxozların işində yaxından iştirak edir, kolxoz təsərrüfatının genişləndirilməsi, məhsuldarlığın yüksəldilməsi işinə kömək etməyə çalışırdı. Qiraət komaları kənddə qolçomaqlardan artıq taxıl məhsulunun toplanması işinə kənd muzdurlarını səfərbər etdiklərindən və kənddə sosializm quruculuğu işinə kömək etdiklərindən bəzən kənd qolçomaqları tərəfindən dağılmağa, yandırılmağa məruz qalırdılar. Bütün bunlar kənddə bir daha mədəni-maarif işinin genişlənməsini tələb edirdi.

1928-ci ildə ölkədə həyata keçirilən mədəni hücum zamanı qiraət komaları geniş iş aparır, savadsızlığı ləğv məntəqələri təşkil edirdilər. Qiraət komaları bütün ziyalıları bu işə cəlb etməklə partiya təşkilatlarının ən yaxın köməkçisi kimi çıxış edirdi. Bu dövrdə bütün qiraət komalarında partiya tərəfindən irəli sürülən «Savadlılar, savadsızları öyrədin» şüarı asılır və bu məsələ ətrafında geniş təbliğat işi aparılırdı. Savadsızlığın ləğvi geniş mədəni-maarif tədbirləri ilə əlaqələndirilmişdi. Savadsızlığını ləğv edənlər içərisində aktual siyasi mövzulara dair söhbətlər, mühazirələr, ekskursiyalar təşkil edilir və onların arasında qəzet, jurnal, kitab təbliğ edilirdi. Bundan başqa, qiraət komalarında konsertlər, ədəbi-bədii gecələr, kollektiv kitab müzakirələri keçirilir və divar qəzetləri buraxılırdı.

1929-çu ildə Azərbaycanda 143 qiraət koması var idi.[163] Bu qiraət komalarından ancaq 4-ü qəza mərkəzlərində, yaxud şəhərlərdə yerləşdirilmişdi. Qalan 138 qiraət koması daha çox əhaliyə malik olan kəndlərdə idi.

O zaman Bakıda, Ağdaşda 8, Gəncədə 16, Göyçayda 7, Cəbrayılda 7, Zaqatalada 7, Qazaxda 11, Lənkəranda 11, Nuxada 6, Dağlıq Qarabağ Muxtar Vilayətində 9, Naxçıvan MSSR-də 7, Salyanda 9, Şəmkirdə 9 qiraət koması var idi.[164]

1930-cu ildə Azərbaycanda qiraət komalarının sayı 182-yə çatdırılmışdı. Bundan başqa, kəndlərdə 200-dən çox qırmızı guşə, muzdur otaqları var idi. Muzdur otaqları, yaxud guşələr Kənd Təsərrüfatı İşçiləri İttifaqı tərəfindən təşkil edilirdi.[165] Muzdur otaqlarında aparılan iş qiraət komalarının işi ilə əlaqələndirilir və bilavasitə qiraət komalarının köməyi ilə həyata keçirilirdi. Muzdur otaqlarının əsas vəzifəsi yoxsul, muzdur və ortababları partiyanın baş xətti ətrafında birləşdirməkdən ibarət idi. Muzdur otaqları xüsusilə kənd təsərrüfatına dair kitab təbliği işində yaxından iştirak edirdilər.

1930-cu ildən kənddə siyasi-maarif müəssisələri təşkil etmək üçün fond yaradılmağa və siyasi-maarif müəssisələri işçilərinin maddi və hüquqi vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər həyata keçirilməyə başlandı. Kolxozların, sovxozların, MTS-lərin inkişafı ilə əlaqədar olaraq kəndlərdə mədəni-maarif müəssisələri şəbəkəsi getdikcə genişlənir, kütləvi xarakter alırdı. Kənddə sosializm quruculuğunun genişlənməsi, kollektiv təsərrüfatın meydana gəlməsi və inkişafı zəhmətkeş kəndli kütlələri arasında geniş təbliğat, təşviqat və kütləvi iş aparılmasını, onların kollektiv təsərrüfata, ictimai mülkiyyətə ictimai münasibət ruhunda tərbiyəsini tələb edirdi. Bu da kəndin ən mühüm təbliğat, təşviqat, təhsil və tərbiyə müəssisələri olan mədəni-maarif müəssisələrinin geniş şəbəkəsinin yaradılması zərurətini qarşıya qoymuşdu. Kənddə sosialist təsərrüfatının yaradılması mövcud mədəni-maarif müəssisələrinin işinin yaxşılaşdırılması, onlara ayrılan vəsaitin müntəzəm olaraq artırılması üçün şərait yaratmışdı. Kolxozlar, sovxozlar, MTS-lər nəinki mədəni-maarif müəssisələrinin genişlənməsində yaxından iştirak edir, hətta özləri də mədəni-maarif müəssisələri təşkil edirdilər. Bu Azərbaycan kəndlilərinin həyatında yeni hadisə idi.

Beləliklə, kənddə sosialist təsərrüfatının meydana gəlməsi bir tərəfdən mədəni-maarif müəssisələri şəbəkəsinin genişlənməsini tələb edir, o biri tərəfdən isə kənddə mədə-

niyyətin əsaslı inkişafı üçün böyük imkan və şərait yaradırdı.

Kənd yerlərində mədəni-maarif müəssisələrinin genişləndirilməsi üçün dövlət tərəfindən ayrılan vəsait birinci beşillik dövründə xeyli artırılmışdı. Beşillik müddətində kənd mədəni-maarif müəssisələrinin miqdarı bir neçə dəfə, o cümlədən qiraət komalarının sayı 3 dəfədən çox artmış, onların zəhmətkeşlərə xidmət işi qat-qat yaxşılaşmışdı. 1932-ci ildə Azərbaycanda 621 qiraət koması var idi.[166] Əgər 1926-27-ci illərdə qiraət komaları ançaq böyük kəndlərdə və qəsəbələrdə təşkil edilirdisə, 1930-32-ci illərdə bütün yaşayış məntəqələrində, ən kiçik kəndlərdə belə qiraət komalarının təşkilinə başlanılmışdı. Kənd təsərrüfatının elliklə kollektivləşməsi illərində qiraət komaları zəhmətkeşlər arasında böyük siyasi-kütləvi iş aparmaqla, kəndin mədəni həyatında yaxından iştirak edirdilər. Qiraət komalarının yanında olan qiraətxanaların fondu daha da genişlənərək getdikcə müstəqil kitabxanalara çevrilirdi. Qiraət komalarında kitabı geniş surətdə təbliğ etmək və onların ətrafında oxucu kütləsi toplamaq məqsədi ilə kollektiv kitab müzakirələri, oxucu konfransları, ədəbi-bədii gecələr, söhbətlər, mühazirələr və s. keçirilirdi. Qiraət komaları tərəfindən həyata keçirilən bu tədbirlər kənddə kitabın geniş surətdə yayılması işində böyük rol oynayır, onun zəhmətkeş kəndli kütlələrinin məişətinə daxil olması üçün geniş imkanlar yaradırdı.

§ 2.7.2. Bakı və onun rayonlarında kitabxana işi

1926-cı ildə Bakı, onun rayonları və Bakı qəzasında cəmi 31 kitabxana və qiraətxana, 1 Kitabxana Kollektoru, 4 səyyar məntəqə var idi. Səyyar məntəqələri, Kitabxana Kollektoru, Lunaçarski adına kitabxana, Mərdəkan və Maştağa rayon kitabxanaları təşkil edilmişdi.

Kitabxana və qiraətxanalar ərazi prinsipinə görə bu cür bölünmüşdü: 15 kitabxana, 1 Kitabxana Kollektoru və 2 səyyar məntəqə Bakıda, 8 kitabxana rayonlarda, 8 kitabxana və 2 səyyar fond Bakı qəzasında yerləşirdi.[167] Bunlardan

12 kitabxana və 1 qiraətxananın kitabları ancaq azərbaycanca, qalanlarında isə müxtəlif dillərdə kitablar var idi. Müxtəlif dillərdə kitab fondu olan kitabxanalarda Azərbaycan və xarici ədəbiyyat şöbələri yaradılmışdı. Müstəqil uşaq kitabxanaları da xeyli genişlənmişdi. Kitabxanalar hələ də uşaqlarla yaşlılara bir yerdə xidmət etmələrinə baxmayaraq, məktəblərin yanında və bəzi rayonlarda müstəqil uşaq kitabxanaları yaradılmağa başlanılmışdı. 1926-cı ildə Bakıda və onun rayonlarında 8 müstəqil uşaq kitabxanası var idi. Bunlardan 4-ü şəhərdə, 4-ü də Bakının rayonlarında yerləşirdi. Bu kitabxanalardan Belinski adına kitabxana Mərkəzi Uşaq Kitabxanası hesab edilirdi.

Kitabxanaçı kadrların tərkibi də yaxşılaşmışdı. 1926-cı ildə bütün kitabxanalarda 137 nəfər kitabxana işçisi çalışırdı ki, bunların da yarıdan çoxunun orta təhsili var idi.

Bərpa illərinin axırlarında mədəniyyət sahəsinə ayrılan vəsaitin artırılması ilə əlaqədar olaraq yeni kitabxanaların təşkilinə xüsusi diqqət yetirilirdi. 1926-cı ilin ikinci yarısında təkcə Bakı və onun rayonlarında 4 kitabxana açılmışdı. Maraqlı burasıdır ki, bu kitabxanalardan ikisi Bakı qəzasının Buzovna və Zərgərli kəndlərində təşkil edilmişdi.[168] Kəndlərdə kitabxanaların təşkili məsələsinə Bakı Şəhər Partiya Komitəsi rəhbərlik edirdi.

1926-cı ildə Bakı Şəhər Partiya Komitəsinin göstərişi ilə Bakı Şəhər Soveti partiya kitabxanalarının Bakı Siyasi-Maarif İdarəsi kitabxana şəbəkəsinə daxil edilməsi haqqında qərar qəbul etdi. Partiya kitabxanalarının bir hissəsi 1926-cı ildə, qalan hissəsi isə 1927-ci ildə Bakı Siyasi-Maarif İdarəsinə verildi.[169]

Partiya kitabxanalarını kütləvi kitabxanalara çevirməkdə əsas məqsəd zəhmətkeşlərin kitaba olan tələbatını ödəməkdən ibarət idi. Bakıda olduğu kimi qəzalarda da qəza partiya komitələrinin yanında olan kitabxanalar qəza mərkəzi kitabxanalarına verildi. Partiya kitabxanalarının kütləvi kitabxanalara çevrilməsi, yaxud qəza və rayon mərkəzi kitabxanalarına qatılması kütləvi kitabxanaların sayını nisbətən artırdı və onların fondunun ictimai-siyasi elmlərə aid kitablarla zənginləşməsinə səbəb oldu.

1926-cı ildə Bakı, onun rayonları və Bakı qəzası kitabxanalarında 436413 kitab vardı.[170] Bundan 64487 nüsxəsi Azərbaycan dilində idi. Halbuki 1925-ci ildə kitabxanalar cəmi 280037 nüsxə kitaba malik idi. Bundan aydın olur ki, kitabxanalar təkcə 1925-ci ildə 176376 nüsxə kitab almışdı ki, bunun da 34715 nüsxəsi Azərbaycan dilində idi.

1926-cı ildə əsas diqqət kitabxanaya yeni oxucuların cəlb edilməsinə verildi. Kitabxanaların qarşısında öz savadsızlığını ləğv edən bütün zəhmətkeşləri, birinci növbədə isə fəhlələri oxucular sırasına cəlb etmək vəzifəsi qoyulmuşdu. Kitabxanalar 1926-cı ildə bu sahədə xeyli iş görmüşdü. 1926-cı ildə bütün kitabxanalar 36000 nəfərə xidmət edirdi ki, bu da 1925-ci ilə nisbətən 27,4% -dən artıq idi. Bu oxuculardan 24502 nəfəri şəhərdə, 9753 nəfəri rayonlarda, 2848 nəfəri Bakı qəzasında idi. 1925-ci ilə nisbətən oxucuların sayı Bakının rayonlarında daha çox artmışdı. Rayonlarda oxucular 1925-ci ilə nisbətən 46,3 % artmışdı ki, bu da yeni sənaye müəssisələrinin təşkili və fəhlələrin mədəni səviyyəsinin yüksəlməsi ilə əlaqədar idi.

Daimi kitabxanalarla yanaşı, səyyar məntəqələr də öz işini müntəzəm olaraq genişləndirir, bilavasitə zavod və fabriklərdə fəhlələrə dəzgah başında xidmət edirdi. 1925-ci ildə səyyar məntəqələrdə 1599 oxucu olduğu halda, 1926-cı ildə bunların sayı 2653 nəfərə çatdırılmışdı ki, bu da 1925-ci ildəkindən 65,8% artıq idi.[171] Səyyar kitabxanalara oxucuların davamiyyəti də 1925-ci ilə nisbətən xeyli artmış və kitab verilişi çoxalmışdı. 1925-ci ildə kitabxanalara 742346 nəfər, 1926-cı ildə 752222 nəfər, qiraətxanalara 1925-ci ildə 482316 nəfər, 1926-cı ildə 475040 nəfər oxucu gəlmişdi.

Orta hesabla hər kitabxanaya bir ildə: şəhər kitabxanalarında 63935 nəfər, rayon kitabxanalarında 32601 nəfər, qəza kitabxanalarında 11894 nəfər oxucu düşürdü.

Oxuculara 1925-ci ildə 1081636 kitab verildiyi halda, 1926-cı ildə 1209209 kitab verilmişdi ki, bunun da 181566 nüsxəsi Azərbaycan dilində idi. Azərbaycan dilində kitabların verilişi 1926-cı ildə 1925-ci ilə nisbətən 60,9% artmışdı. Fəhlə oxucularına kitab verilişinin genişləndirilməsi məsələsinə xüsusi diqqət yetirilirdi. 1926-cı ildə 42571 kitab səyyar məntəqələr tərəfindən fabrik və zavodlarda dəzgah arxasında fəhlələrə verilmişdi.

Orta hesabla bir ildə hər bir şəhər kitabxanası qiraətxanalarla birlikdə 64331 kitab, rayon kitabxanası 29160 kitab, qəza kitabxanası 9227 kitab vermişdi.[172] Ölkənin sənayeləşdirilməsi ilə əlaqədar olaraq yaranmış şərait kitab verilişinin məzmununa da öz təsirini göstərmişdi. 1925-ci ilə nisbətən 1926-27-ci illərdə bədii, ictimai, siyasi ədəbiyyatla yanaşı, texnikaya, peşələrə aid daha çox kitab oxunmuşdu.

Kitabxanalar yenə də kitabxana kollektoru tərəfindən komplektləşdirilirdi. Baş Siyasi-Maarif İdarəsinin kollektorundan başqa Bakı Siyasi-Maarif İdarəsinin kollektoru da fəaliyyət göstərirdi. Bakı Siyasi-Maarif İdarəsinin kollektoru ancaq Bakı, onun rayonları və Bakı qəzasının kitabxanalarını komplektləşdirirdi. 1926-cı ildə kollektor kitabxanalara 56545 kitab göndərmişdi.[173] Bu kitablardan 16358 nüsxəsi Azərbaycan dilində idi.[174]

Kitabxana işinə ayrılan vəsaitin müntəzəm olaraq artırılması kitabxana işini məzmunca yaxşılaşdırmaq üçün hərtərəfli şərait yaratmışdı. 1927-ci ildə BXMŞ büdcəsində siyasi-maarif işinə ayrılan vəsait 8,5%-dən 16%-ə qədər artmışdı.[175]

Kitabxana işinə ayrılan vəsaitin müntəzəm olaraq artdığını aşağıdakı rəqəmlərdən görmək olar:

1926-27-ci illər	200600 man. 100%
1927-28-ci illər	265123 man. 132%
1928-29-cu illər	381244 man. 159%[176]

Bu rəqəmlərdən aydın olur ki, 1927-ci ildə 1926-cı ilə nisbətən kitabxanaların büdcəsi 32%, 1928-ci ildə isə 1927-ci

ilə nisbətən 59% artırılmışdır.

Kitabxanaların büdcəsi Bakı, onun rayonları və Bakı qəzası üzrə belə bölünmüşdü.[177]

İllər	Şəhər və Bayıl Bibiheybət rayonu	Lenin və Suraxanı rayonları	Fabrik-zavod rayonu
1926-27	136761 man. 100%	35587 man. 100%	7584 man. 100%
1927-28	183880 man. 134%	46750 man. 131%	10596 man.140%
1928-29	215683 man. 15%	56494 man. 159%	21178 man.279%

İllər	Bakı qəzası üzrə
1926-27	20668 man. 100%
1927-28	23895 man. 116%
1928-29	24890 man. 120%

Rəqəmlərdən göründüyü kimi, kitabxanaların büdcəsi ən çox Fabrik-zavod rayonunda artmışdır. Bu rayonda büdcə 1927-ci ildə 40%, 1928-ci ildə 79% artırılmışdı.

Kitabxana işinə vəsaitin müntəzəm olaraq artırılmasına baxmayaraq, hələ də vəsaitin azlığı hiss edilirdi. Bu məsələ ilə əlaqədar Bakı Siyasi-Maarif İdarəsinin 1928-ci ilə aid hesabatında belə bir qeydə rast gəlirik: Bakı və onun rayonlarında kitabxanalara ayrılan vəsait hələlik kifayət qədər deyildir. Belə ki, oxucuların çoxmillətli tərkibi hər bir kitabxanada başqa millətlər və uşaqlar üçün bir-iki şöbənin təşkil edilməsini tələb edir. Halbuki bütün kitabxanaların yanında 31 şöbə vardır ki, bunun ancaq 11-i ümumi büdcə hesabına komplektləşir.[178]

Bakı Zəhmətkeş Deputatları Soveti kitabxana işinin inkişaf etdirilməsinə, onların yeni kitablarla təkmilləşməsinə xüsusi diqqət yetirirdi. 1927-ci ilin 22 noyabrında Bakı Şəhər Soveti İcraiyyə Komitəsi Bakı Xalq Maarif Şöbəsinin perspektiv planına dair hesabatını müzakirə edərək qərar qəbul etdi. İcraiyyə Komitəsi bu qərarda kitabxana şəbəkələrinin genişləndirilməsini, yeni uşaq kitabxanalarının təşkil edilməsini, uşaq kitabxanalarının işinin məktəb kitabxana-

ları ilə əlaqələndirilməsini, kitabxanaların yeni kitablarla təkmilləşdirilməsini lazım bilmişdi.[179]

Bu qərarın həyata keçirilməsi nəticəsində 1927-ci ildə mədən rayonlarında 3 uşaq kitabxanası təşkil edildi. 1927-ci ildə Bakı, onun rayonları və Bakı qəzasında 35 kitabxana-qiraətxana var idi. Bu kitabxanalardan 17-si şəhərdə, 10-u rayonlarda, 8-i isə qəzalarda idi. 1926-cı ildə kitabxanalarda 436413 nüsxə kitab olduğu halda, kitabların sayı 1927-ci ildə 454427 nüsxəyə çatdırılmışdı. Yəni bir il müddətində kitabxanalara 18000 nüsxə kitab alınmışdı. Kitabxanalarda olan kitablardan 76553 nüsxəsi Azərbaycan dilində idi.[180] Kitabxanaların Azərbaycan dilində kitablarla komplektləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Azərbaycan dilində nəşr edilən kitabların bütün nüsxələrindən kitabxanalara alınmasına baxmayaraq, yenə də Azərbaycan dilində kitablara olan böyük tələbatı ödəmək mümkün deyildi. Kitabxanalar müntəzəm olaraq oxuculara səyyar kitabxanalar yolu ilə xidmət etmək işini genişləndirirdi. 1927-ci ildə təkcə səyyar kitabxanalar oxuculara 53159 kitab vermişdi. Kitabxanaların ardıcıl olaraq yeni kitablarla təkmilləşməsi və geniş kütləvi işlər aparması nəticəsində ilbəil oxucuların sayı çoxalırdı. 1927-ci ildə kitabxanalar 41263 oxucuya xidmət edirdi ki, bunun da 8283 nəfəri azərbaycanlı idi.[181] Bir il müddətində kitabxanalara 4160 yeni oxucu cəlb edilmişdi. Yeni cəlb edilən oxucuların əksəriyyəti öz savadsızlığını təzəcə ləğv etmiş fəhlələr idi.

Bu dövrdə qarşıda duran mühüm vəzifələrdən biri də kitabxanaçı kadrların hazırlanması idi. Respublikada xüsusi kitabxanaçı kadrlar hazırlayan ayrıca ixtisas məktəbi olmadığından kitabxanaçı kadrlar əsas etibarilə respublika Baş Siyasi-Maarif İdarəsi və Bakı Siyasi-Maarif İdarəsi tərəfindən vaxtaşırı təşkil edilən qısamüddətli kurslarda hazırlanırdı.

1926-cı ilin aprelində Baş Siyasi-Maarif İdarəsi AHİMŞ mədəniyyət şöbəsi ilə birlikdə kitabxana işçiləri hazırlamaq üçün 2 aylıq kurs təşkil etmişdi. Kursa 46 nəfər

daxil olmuş və 44 nəfər bitirmişdi.[182]

Kitabxanaların ixtisaslı kadrlarla təmin edilməsi işi qəzalara nisbətən Bakı və onun rayonlarında daha yaxşı idi. Bakıda kitabxanaçı kadrları kurslarla yanaşı, kitabxana birləşməsinin rəyasət heyəti, seksiyaları, dərnəkləri və birləşmənin ümumi yığıncağı da hazırlayırdı.

Kitabxanaların metodik birləşmələri böyük kitabxanaların, yaxud ayrı-ayrı idarə və təşkilatların, kitabxana işinə rəhbərlik edən idarələrin yanında meydana gəlmişdi. Metodik birləşmələrin işində siyasi-maarif idarələrinin, həmkarlar, elmi, uşaq, məktəb və s. kitabxanaların işçiləri iştirak edirdi. Bu birləşmələrin əsas məqsədi kitabxanaların işinə metodik cəhətdən kömək etmək idi. Belə birləşmələrdə ədəbi-bədii, ictimai-siyasi, şəxsi təhsil, kitabxana işinin metodikası və s. məsələlərə dair mühazirələr dinlənilir, kitabxanaçılara kitabxana fondunu komplektləşdirmək, oxuculara xidmət qaydaları haqqında izahat işi aparılır, kitab icmalları keçirilir və yaxşı kitablar haqqında məlumat verilirdi. Həm də kitabxanaların metodik birləşmələrində kitabxana işinin müxtəlif sahələrinə dair dərnəklər, seksiyalar təşkil edilirdi. Belə dərnəklərdə qabaqcıl kitabxanaların təcrübələri öyrənilir, əldə edilən müsbət nəticələr birləşmənin ümumi iclasında müzakirə edilir, qabaqcıl iş təcrübələri kitabxanalar arasında yayılırdı. Beləliklə, kitabxanaların metodik birləşmələri kitabxanaçılar arasında təcrübə mübadiləsi etmək üçün də geniş imkan yaradırdı. Kitabxana birləşmələri metodik işlərlə yanaşı, kitabxanaçı kadrların hazırlanması və kitabxanaçıların öz ixtisaslarını təkmilləşdirmək işində də yaxından iştirak edirdi.

Kitabxanaların metodik birləşmələri ilk dəfə 1922-ci ildə Moskva və Leninqrad şəhərlərində meydana gəlmiş,[183] sonra isə Rusiyanın bütün kitabxanalarında geniş surətdə yayılmışdı. Azərbaycan SSR-də də 1923-cü ildən başlayaraq kitabxanaların metodik birləşmələri yaradılmağa başlandı. Belə birləşmələr əsasən Bakı və onun rayonlarında təşkil

edilmişdi. Azərbaycanın qəzalarında isə kitabxana işi o qədər də inkişaf etmədiyindən və kitabxanaların sayı az olduğundan belə birləşmələr yox idi. Doğrudur, Bakıda və onun rayonlarında təşkil edilən metodik birləşmələr ilk dövrlərdə geniş metodik iş aparmadıqlarından bütün kitabxanaları əhatə etməmiş və metodik işin mərkəzinə çevrilə bilməmişdi.

Bərpa illərinin axırlarında respublikada kitabxana şəbəkələrinin sabitləşməsi, yeni kitabxanaçı kadrların meydana gəlməsi, kitabxana işinin forma və məzmunca inkişaf edib təkmilləşməsi ilə əlaqədar olaraq Bakı şəhərində təşkil edilmiş kitabxana birləşmələri 1925-ci ildən başlayaraq kitabxana işinin təşkilati və metodik işinin mərkəzinə çevrilmişdi.[184] Bu metodik birləşmələr bilavasitə Bakı Siyasi-Maarif İdarəsinin rəhbərliyi altında fəaliyyət göstərirdi. Kitabxana birləşməsi öz işini ayrı- ayrı bölmələr vasitəsilə aparırdı. 1926-cı ildə birləşmənin 5 bölməsi var idi: 1. Metodik bölmə; 2. Kitab öyrənən bölmə; 3. Azərbaycan bölməsi (kitabxana işinin bütün məsələlərinə dair); 4. Uşaq işləri bölməsi; 5. Səyyar işləri bölməsi. Hər bir bölmənin ayda 2 iclası keçirilirdi. 1925-1926-cı illərdə bölmələrin cəmi 75 iclası keçirilmişdi.[185] Bölmələrin iclasında günün aktual məsələlərinə dair çox mühüm elmi və metodik məsələlər həll edilirdi.

Azərbaycan kitabxana işçiləri bölməsi bu bölmələr içərisində ən böyük bölmə idi. Çünki bu bölmə bütün Azərbaycan kitabxanaçılarını birləşdirir, həm də kitabxana işinin bütün forma və üsullarına dair iş aparırdı. Bölmədə kitablar öyrənilir, məruzələr dinlənilirdi.[186]

Birləşmənin 1926-cı ilə qədər bütün işləri rəyasət heyətində, yaxud birləşmənin ümumi iclasında aparılırdı. 1926-cı ildə kitabxana birləşməsi öz işini seksiyalar vasitəsilə aparmağa başladı ki, bu da kitabxana birləşməsinin ümumi metodik işinə müsbət təsir göstərdi. Kitabxana birləşməsi bölmələrin işinə rəyasət heyəti vasitəsilə rəhbərlik edirdi. Rəyasət heyətində bölmələrin işi, perspektiv planları, təşki-

lati məsələləri, ümumi metodik məsələlər və s. müzakirə olunur, kitabxanaçılar üçün ixtisasa aid, siyasi və beynəlxalq məsələlərə aid mühazirələr keçirilirdi.

Bərpa dövründə kitabxanalar kitabı zəhmətkeşlər arasında geniş surətdə təbliğ etmək məqsədi ilə bir sıra mühüm kütləvi işlər həyata keçirirdi. Kitabxanalarda oxucu konfransları, ədəbi-bədii gecələr, kitab sərgiləri, ucadan oxular təşkil edilir, müxtəlif mövzulara dair tövsiyə ədəbiyyat siyahıları tərtib edilirdi.

1926-ci illərdə Türkoloji qurultayın Bakıda keçirilməsi ərəfəsində və qurultaydan sonra kitabxanalarda türkologiyanın müxtəlif sahələrinə həsr edilmiş kütləvi işlər, kitab sərgiləri, mühazirələr, oxucu yığıncaqları təşkil edilmiş və qurultay iştirakçıları ilə görüş gecələri keçirilmişdi. Bundan başqa, günün aktual məsələlərinə, beynəlxalq və daxili siyasət məsələlərinə dair geniş kütləvi tədbirlər həyata keçirilir, partiya və hökumətin qərar və göstərişləri geniş surətdə izah və təbliğ edilirdi. Kitabxanalar həm də klassik ədəbiyyatı və sovet ədəbiyyatını təbliğ etmək məqsədi ilə ədəbi-bədii gecələr keçirirdilər. Belə gecələr bəzən müəyyən bir yazıçının həyat və fəaliyyətinə, bəzən də müəyyən bir ümumi, ictimai məsələyə həsr edilirdi. Ədəbi-bədii gecələr o dövrdə oxucuların köməyi ilə zavodlarda, fabriklərdə keçirilən səyyar tədbirlərdən biri kimi müntəzəm olaraq Azərbaycan, rus, SSRİ və xarici ölkə ədəbiyyatının görkəmli nümayəndələrinə həsr edilirdi. Ədəbi-bədii gecələr sovet ədəbiyyatının ən görkəmli nümayəndələrinin əsərlərini oxuculara çatdırmaq üçün çox mühüm vasitələrdən biri idi. Kütləvi işlər təkcə kitabxanalarda aparılırdı. Səyyar məntəqələrin köməyi ilə zavodlarda, fabriklərdə səyyar tədbirlər həyata keçirilir, fəhlələrin sənətinə dair kitablar geniş surətdə təbliğ edilirdi.[187]

Kitabxanalarda kütləvi işlərin genişlənməsi kitabxana işinin məzmununa da təsir göstərir, onu keyfiyyətcə yaxşılaşdırırdı. 1926-cı ildə Bakı və onun rayonlarının kitabxanaları aşağıdakı kütləvi tədbirləri həyata keçirmişdi:

Mühazirələr və məruzələr	108
Tarixi günlərə həsr edilmiş gecələr	53
Sərgilər	479
Tərtib edilmiş albomlar və plakatlar	686
Tövsiyə siyahıları	349
Həyata keçirilmiş ekskursiyalar	24
Oxucu dərnəklərinin ümumi iclasları	840
Kitabxana abunəçilərinin ümumi iclası	622

Kütləvi işlərlə yanaşı, kitabxanalarda müxtəlif dərnəklər var idi. Bu dərnəklər oxuculara müxtəlif sənətlərə yiyələnməkdə və müxtəlif elmləri öyrənməkdə yaxından kömək edirdi. O dövrdə kitabxanalarda aşağıdakı dərnəklər vardı: 1. Kitabxana dostları; 2. Ədəbiyyat; 3. Dram; 4.Bədii; 5. Kənd müxbiri; 6. Kitabı öyrənən; 7. Plakatçı; 8. Cildçi; 9. Təbiətşünaslıq; 10. Radio həvəskarları; 11. Uşaq dostları; 12. İncəsənəti sevənlər və s.[188] Bu dərnəklərə göstərilən ixtisas sahələri üzrə mütəxəssislər rəhbərlik etdiklərindən onlar oxucuların hərtərəfli inkişafına müsbət təsir göstərirdi.

Kitabxanalarda kütləvi işlərlə yanaşı, oxucu yığıncaqları və oxucu konfransları da keçirilirdi. Oxucu yığıncaqlarında kitabxana öz işi haqqında hesabat verir və həmin hesabat oxucular tərəfindən müzakirə edilirdi. Belə müzakirələrdə fəal oxucular yaxından iştirak edir, kitabxana işini yaxşılaşdırmaqda kitabxana işçilərinə hərtərəfli kömək edirdilər. Oxucu yığıncaqları kitabxana işini yaxşılaşdırmağa dair qərarlar qəbul edir və bu qərarların yerinə yetirilməsini kitabxana şuralarına tapşırırdı.[189]

O dövrdə yaşlılara məxsus kitabxanalarla birlikdə uşaq kitabxanaları da geniş fəaliyyət göstərirdi. Uşaq kitabxanaları öz işlərini əsasən məktəblərin işi və dərs proqramlarına müvafiq surətdə həyata keçirirdi. Uşaq kitabxanalarında kitab sərgiləri, kitabxana plakatları, ucadan oxular, bədii nəqletmələr, səhərciklər, söhbətlər təşkil edilir, müxtəlif gecələr keçirilirdi. Uşaqların məktəbdənkənar mütaliəsinə rəhbərlik etmək üçün yaş xüsusiyyəti və dərs proqramı ilə

əlaqədar olaraq məktəbdənkənar mütaliəyə görə tövsiyə siyahıları tərtib edilir və uşaqlara həmin siyahılar üzrə xidmət göstərilirdi.

Təkcə bunu qeyd etmək kifayətdir ki, 1926-cı ildə uşaq kitabxanalarında 488 oxu və söhbət, 48 gecə və səhərcik, tamaşa və konsert, 377 bədii nəqletmə həyata keçirilmiş, 166 divar qəzeti buraxılmışdı.[190] Uşaq kitabxanaları həm də müəllimlər üçün yeni nəşr edilmiş uşaq kitablarına həsr edilmiş gecələr keçirirdi.

1926-cı ildə Bakı şəhər kitabxanalarının metodik birləşməsinin rəyasət heyəti uşaq kitabxanalarına yay aylarında öz işlərini şəhərin mərkəzi park və bağlarında keçirməyi məsləhət bildi.[191] Bu iş Bakı şəhər uşaq kitabxanalarının işində ilk təcrübə idi. 1926-cı ilin yayında Bakı kitabxanalarının apardığı işlər bu tədbirlərin çox böyük əhəmiyyətə malik olduğunu, uşaq kitabxanalarının oxuculara xidmət işini bir neçə dəfə yaxşılaşdırdığını bir daha təsdiq etdi. Kitabxanalar o vaxta qədər kitabxanalara gəlməyən, öz gününü park və bağlarda boş-boşuna keçirən uşaqları kitabxana oxucuları sırasına cəlb etməyə başladı. Belə uşaqlar kitabxana işinə də kömək edir, abonementdə və qiraət salonunda növbə çəkirdilər. Kitabxanalarda "Kitabxana dostları" və "Qiraətxana dostları" dərnəkləri təşkil edilmişdir ki, sahibsiz uşaqların bir çoxu həmin dərnəklərin işində yaxından iştirak edirdilər.[192] Bu məsələ ilə əlaqədar olaraq 1926-cı ildə "Бакинский рабочий" qəzetində dərc edilmiş bir məqalədə göstərilirdi: "Qiraətxanalar çoxlu sahibsiz və xırdavat şeylər satan uşaqları, çəkməsilənləri, azyaşlı əyyaşları və başqalarını, habelə ömründə kitabxana görməmiş uşaqları oxucular sırasına cəlb etmişlər. Bütün bu müddət ərzində qiraətxanalar 8540 uşaq cəlb etmişlər, onlar 19912 dəfə qiraətxanaya gəlmiş və 46475 kitab almışlar."[193]

Uşaq kitabxanalarının 1926-cı ildə əldə etdiyi müsbət nəticələrə görədir ki, sonrakı illərdə də yay aylarında kitabxanalar öz işlərini park və bağlara köçürürdü.

1927-ci ilin axırında ölkənin sənayeləşməsi işində böyük müvəffəqiyyətlər əldə edilmişdi. Sosialist sənaye bölməsi xüsusi bölmənin hesabına inkişaf edir, xüsusi mülkiyyətçilər ticarətdən sıxışdırılıb çıxarılır, beləliklə də sənayedə sosialist sistemi vahid sistemə çevrilərək genişlənirdi. Ancaq hələlik kənd təsərrüfatının inkişafı sənayenin inkişafından geri qalırdı, xüsusilə taxılçılıq təsərrüfatının geri qalması və satlıq taxılın azalması ciddi qorxu törədirdi. Buna görə də durmadan inkişaf edən sosialist sənayesi ilə geridə qalan kənd təsərrüfatı arasındakı ziddiyyəti ləğv etmək üçün xırda fərdi kəndli təsərrüfatını iri sosialist təsərrüfatına çevirmək, kollektiv təsərrüfat yaratmaq lazım idi.

1927-ci ildə ÜİK (b) P XV qurultayı SSRİ-də sosializmin qələbəsi üçün mühüm əhəmiyyəti olan pərakəndə xırda kəndli təsərrüfatını tədriclə iri sosialist təsərrüfatı yoluna keçirmək haqqında – kənd təsərrüfatının kollektivləşməsi haqqında qərar qəbul etdi.

Ölkənin sosialistcəsinə sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi mədəni quruculuq işinin genişləndirilməsini tələb edirdi. Ancaq təəssüf ki, mədəni quruculuq işi ölkənin ümumi inkişafından geri qalırdı.

Məhz bu dövrdə ölkənin iqtisadi yüksəlişi, sosializm quruculuğu işinin genişlənməsi ilə əlaqədar olaraq zəhmətkeşlərin mədəni səviyyəsi də yüksəlməyə başladı.

Ölkənin sosialistcəsinə sənayeləşməsi sahəsində 1926-27-ci illərdə əldə edilmiş müvəffəqiyyətlər ilk illik planlardan daha geniş və uzun müddətli planlara keçmək imkanı verirdi. Odur ki, partiyanın XV qurultayı xalq təsərrüfatının inkişafına dair beşillik plan tərtib etmək haqqında qərar qəbul etdi. Bu plan XV partiya qurultayının direktivlərinə əsasən 1929-cu ilin aprelində partiyanın XVI konfransı tərəfindən qəbul edildi.

Beşillik planın qəbul edilməsi ölkədə sosializm quruculuğunun başa çatdırılması üçün çox mühüm şərait yaradırdı. Bu planda beş il müddətində ölkəmizdə xalq təsərrüfatının bütün sahələri ilə yanaşı, mədəniyyətin də geniş surətdə inkişaf etdirilməsi nəzərdə tutulmuşdu. Beşillik plan eyni zamanda mədəni quruculuq planı idi. Birinci beşillik plan haqqında qurultayın qərarında deyilir: "Kənddə siyasi-maarif işinin keyfiyyəti möhkəmləndirilsin və yüksəldilsin. Kənd radio qurğuları, kino işinin inkişafına, kitabxana şəbəkəsinin gücləndirilməsinə və s. xüsusi diqqət verilsin.[194]"

Birinci beşillikdə respublikamızın sənayesinə 74725 milyon manat pul qoyulurdu. Respublikanın beşillik maarif planının əsasını ümumi icbari təhsil təşkil edirdi. Bu plana görə bir nəfər də savadsız qalmamalı idi. Beşillik planın birinci ilində respublikanın məktəblərində 177 min şagird var idisə, beşilliyin axırında, yəni 1932-ci ildə onların sayı 271 min nəfərə çatdırılmalı idi. Mədəni quruculuq planının ikinci mühüm sahəsi yaşlı əhali içərisində savadsızlığın ləğv edilməsi idi. Beş il müddətində 18 yaşından 35 yaşınadək bütün əhalinin savadsızlığının ləğv edilməsi nəzərdə tutulmuş, savadsızlığı ləğv məntəqələrinin sayının artırılması qərara alınmışdı.[195]

1929-cu ildə Azərbaycanda 1600 savadsızlığı ləğv məntəqəsi var idisə, beşilliyin axırında onların sayının 3650-yə çatdırılacağı nəzərdə tutulmuşdu. 1929-cu ildə qəzalarda savadsızlığı ləğv məntəqələrində 38 min adam öz savadsızlığını ləğv edirdisə, beşilliyin axırında onların sayı 305 min nəfər olmalı idi. Birinci beşillikdə savadsızlığın ləğvinə Azərbaycanda (Bakıdan başqa) 5 milyon 644 min manat sərf ediləcəyi qərara alınmışdı. 1926-cı ildə respublikamızda cəmi əhalinin 18%-i savadlı idisə, birinci beşilliyin axırına qədər onların sayının ikiqat artırılacağı nəzərdə tutulmuşdu.

Birinci beşillikdə şəhərlə yanaşı, kəndlərdə də böyük mədəni tədbirlər həyata keçirilməli idi. Kəndlərdə zəhmətkeş kəndli kütlələrinin sovet aparatlarına geniş cəlb edilməsi və savadsızlığın kütləvi surətdə ləğv edilməsinə başlanılması kəndlilərdə mədəniyyət və biliyə böyük maraq oyatmışdı. Kəndlərdə əsas mədəniyyət ocaqları olan kitabxanalara, qi-

raət komalarına və köçərilər üçün olan qızıl yurdların təşkilinə və onların işinin yaxşılaşdırılmasına 2 milyondan artıq vəsait ayrılmışdı. Beşilliyin axırında Azərbaycanın kəndlərində ayrıca qiraətxanalara və kitabxanalara malik olan 608 mükəmməl qiraət komasının fəaliyyət göstərəcəyi nəzərdə tutulmuşdu.[196]

Bütün bu böyük tədbirləri həyata keçirmək üçün Azərbaycan Sovet hökuməti birinci beşillikdə respublikada maarif və mədəniyyət işinə 257 milyon manat pul ayrılmasını nəzərə almışdı. Bu pulun 208 milyon manatı qəzalara, 49 milyon manatı Bakı şəhərinə xərclənməli idi.[197]

Birinci beşillikdə respublikada kitabxana işinin inkişafına xüsusi diqqət yetirilirdi. Beşilliyin axırlarında Azərbaycanda kitabxanaların sayının 140-a çatdırılması planlaşdırılmışdı.[198] Bu kitabxanalardan 76-sı Bakı və onun rayonlarında, qalanları isə Azərbaycanın qəzalarında təşkil edilməli idi. 1926-cı ildə Azərbaycanda cəmi 108 kitabxana var idi. Deməli, birinci beşillikdə respublikamızda 32 müstəqil kitabxana təşkil edilməsi nəzərdə tutulmuşdu. Bu rəqəmə qiraət komalarının yanındakı kitabxanalar, həmkarlar təşkilatlarının kitabxanaları və ayrı-ayrı idarə və müəssisələrin kitabxanaları daxil edilməmişdir.

Birinci beşillik plana görə kitabxanalara ayrılan vəsaitin də müntəzəm olaraq artırılması nəzərdə tutulmuşdu. Bunu Bakı, onun rayonları və Bakı qəzasının kitabxana işinin inkişaf etdirilməsinə dair beşillik planından görmək olar.

Kitabxana işinin inkişaf etdirilməsinə dair beşillik plan:

Bakı rayonları və Bakı qəzası

İllər	Kitabxanalar olmalıdır	Kitabxanaların büdcəsi olmalıdır
1928-29	49	304194
1929-30	60	450900
1930-31	68	499300
1931-32	76	471700
1932-33	76	517700[199]

Bu rəqəmlərdən məlum olur ki, 1931-ci ili çıxmaqla yerdə qalan bütün illərdə kitabxana işinə ayrılan vəsait müntəzəm olaraq artırılmışdır. Birinci beşillik dövri kitabxanaların təkcə kəmiyyət cəhətdən inkişaf etdirilməsi illəri deyil, həm də kitabxanaların keyfiyyətcə, məzmunca inkişafı illəri idi. Beşillik müddətində kitabxanalar ölkədə həyata keçirilən bütün tədbirlərdə fəal iştirak etməklə yanaşı, xalqın məişətinə daxil olmağa başlamış, bir mədəni müəssisə kimi zəhmətkeşlərin sevimli mütaliə mərkəzi olmuşdu. Kitabxanaların genişlənməsinə böyük tələbat əmələ gəlmiş, kənd yerlərində kitabxanaların azlığı və yeni kənd kitabxanalarının təşkili haqqında səslər ucalmağa başlamışdı. Belə böyük tələbatın meydana gəlməsinin başlıca səbəbi respublikamızın hərtərəfli mədəni inkişafı və zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəlməsi idi.

Birinci beşillik planın həyata keçirildiyi və kənd təsərrüfatının kollektivləşdirildiyi dövrdə Azərbaycan Kommunist Partiyası və Azərbaycan Sovet hökuməti respublikada mədəni-maarif işinin, o cümlədən kitabxana işinin inkişafına xüsusi diqqət yetirirdi. 1928-ci il sentyabrın 24-də Azərbaycan K(b)P MK-nın Rəyasət Heyəti respublika «Baş Siyasi-Maarif İdarəsinin işi haqqında» məsələ müzakirə etdi. Rəyasət heyəti kənddə siyasi-maarif müəssisələrinin işində bir sıra ciddi nöqsanlar olduğunu qeyd etdi. Kənd siyasi-maarif müəssisələrinin əksəriyyəti (bu zaman kənd yerlərində 41 klub, 21 kitabxana, 128 qiraət koması var idi) yerli büdcələrdə olduğundan onlara lazımi vəsait buraxılmırdı, siyasi-maarif müəssisələri işçilərinin aylıq zəhmət haqqının olduqca az olması ümumi işin gedişinə və belə müəssisələrdə çalışmaq üçün bacarıqlı kadrların seçilməsinə mənfi təsir göstərirdi.[200]

Rəyasət heyəti bu nöqsanları aradan qaldırmaq və kənd mədəni-maarif müəssisələrinin işini yaxşılaşdırmaq üçün 1928-ci ildə kəndlərdə siyasi-maarif işinə milyon manat əlavə vəsait ayrılmasını və bu məbləğin Maarif Nazirliyinin

payına düşən neft fondu hesabına ödənilməsini, kooperasiyanın mədəni fonda ayırdığı vəsaitin Baş Siyasi-Maarif İdarəsinin ixtiyarına verilməsini lazım bilmişdi.[201]

1929-cu ildə tərtib edilmiş statistik məlumata görə, Azərbaycanda 114 kitabxana və 90291 oxucu var idi ki, bunun da 24643 nəfəri qadınlar idi.[202]

Bu dövrdə respublikada mədəni quruculuq işlərinə ayrılan vəsait müntəzəm olaraq artırılırdı. 1929-cu il aprelin 3-də VI Ümumazərbaycan Sovetlər Qurultayında Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin məruzəsində deyilirdi: «Bu il xalq maarifinə xərclənən məbləğ 27 milyon 400 min manata çatdırılmışdır. Beləliklə, əhalinin hər bir nəfərinə 11 manat 39 qəpik düşür. Halbuki, 1924-25-ci illərdə adambaşına 5 manat 46 qəpik düşürdü».

Daha sonra qeyd edilirdi ki, mədəni yürüş məsələsinə gəldikdə, biz bu sahədə ümümi icbari təhsil məsələsini həyata keçirməklə bərabər, yeni yaşayış uğrundakı işlərimizi, həyatımızın hər bir cəhətində mədəni inqilab yaratmaq uğrundakı mübarizəmizi aparmalıyıq.[203]

Respublikada mədəni quruculuq işinin həmişə hökumətin diqqət mərkəzində olması mədəniyyət və maarif işinə ayrılan vəsaitin müntəzəm olaraq artırılması, mədəni-maarif müəssisələrinin, o cümlədən kitabxanaların genişlənməsi və onların işinin məzmunca yaxşılaşdırılması üçün hərtərəfli şərait yaradırdı. Kitabxanalar getdikcə respublikanın mədəni həyatında yaxından iştirak etməyə, geniş zəhmətkeş kütlələrinin hərtərəfli mədəni inkişafına kömək etməyə başlamışdı.

§ 2.7.3. Mədəni yürüş

Ölkəmizin mədəni inkişafına, savadsızlığın ləğvinə və mədəni geriliyin aradan qaldırılmasına kömək edən mühüm amillərdən biri də 1928-ci ildən keçirilməyə başlayan mədəni yürüş olmuşdur. 1928-ci ilin iyul ayında Azərbaycan LKGİ Bakı Komitəsinin qərarı ilə Bakıda və onun rayonlarında Zaqafqaziyada ilk dəfə olaraq əvvəlcə mədəni hücum, sonra

mədəni yürüş həyata keçirilməyə başladı.[204]

1928-ci il noyabrın 6-da Azərbaycan K(b)P MK və BK komsomolçulara, partiya üzvlərinə və bütün zəhmətkeşlərə müraciət edib, onları komsomol tərəfindən başlamış mədəni hücumda iştirak etməyə çağırdı. Bu müraciətnamədə mədəni yürüşün vəzifələri izah edilir, bütün idarə və müəssisələrin yürüşdə iştirak etməsi tələb olunurdu.[205]

Beləliklə, respublikada mədəni yürüş ümumxalq işi elan edildi və bu sahədə bir sıra mühüm tədbirlər həyata keçirilməyə başladı. Sovet Azərbaycanının bütün savadlı vətəndaşları, təşkilat, idarə və müəssisələri mədəni yürüşə qoşuldu. Mədəni yürüş 1929-cu ildə daha da genişlənərək Azərbaycanın mərkəzi şəhərlərindən başlamış ucqar kəndlərinə qədər bütün yaşayış məntəqələrini əhatə etdi. 1929-cu il sentyabrın 25-də Azərbaycan LKGİ MK respublika gənclərinə müraciət edərək, oktyabrın 1-dən başlayaraq onları ölkədə genişlənməkdə olan mədəni yürüşdə iştirak etməyə çağırdı.[206]

Yenə 1929-cu il oktyabrın 1-də Azərbaycan K(b)P MK və BK, Bakı Şəhəri Zəhmətkeş Deputatları Soveti və Azərbaycan Həmkarlar İttifaqı Şurası Azərbaycanın bütün zəhmətkeşlərini mədəni yürüşdə iştirak etməyə çağıran müraciətnamə qəbul etdilər. Bu müraciətnamədə göstərilirdi ki, ölkəmizdə sosializm quruculuğunun müvəffəqiyyətli təşkili zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəlməsini, respublikamızda mədəni quruculuq işinin hərtərəfli inkişafını, savadsızlığın tamamilə ləğvini tələb edir. Bütün cəmiyyəti savadsızlıqla mübarizəyə qaldırmaq lazımdır.[207]

Respublikamızda mədəni yürüşün müvəffəqiyyətlə həyata keçirilməsində, zəhmətkeşlərin mədəni yürüşə cəlb edilməsi işində mədəni-maarif müəssisələri: klublar, kitabxanalar, qiraətxanalar, qiraət komaları, qırmızı guşələr mühüm rol oynayırdılar.

Kitabxanalar və qiraət komaları mədəni yürüşün hərtərəfli təşkilində, xüsusilə savadsızlığın ləğvində xeyli iş gör-

dülər. Kitabxanalarda mədəni yürüşün əhəmiyyət və vəzifələrini əks etdirən kitabxana plakatları, şüarlar, kitab sərgiləri təşkil edilir, mühazirələr, məruzələr və digər kütləvi işlər həyata keçirilirdi. Mədəni yürüş zamanı bütün kitabxanalarda «Savadlılar, savadsızları öyrədin!», «Ölkəmizdə bir nəfər də olsun savadsız qalmamalıdır», «Savadsızlığa qarşı mübarizə ümumxalq işidir» və s. mövzuda şüarlara və plakatlara rast gəlmək olurdu. Bu dövrdə nəşriyyatlar savadsızlığın ləğvi məqsədi ilə əlifba kitabları və azsavadlılar üçün iri şriftlərlə nəşr edilmiş kitablar buraxmışdı. Kitabxanalar öz fondlarını komplektləşdirərkən azsavadlı oxucular üçün nəşr edilmiş kitabların əldə edilməsinə xüsusi diqqət yetirirdilər. Mədəni yürüşün həyata keçirildiyi illərdə kitabxanaların qarşısında duran əsas vəzifə savadsızlığın ləğvində yaxından iştirak etmək və öz savadsızlığını ləğv etmiş bütün zəhmətkeşləri oxucular sırasına cəlb etmək idi.

Kitabxanalar zəhmətkeşlərin savadsızlığını ləğv etmək məqsədilə başqa kütləvi işlərlə yanaşı, savadsızlığı ləğv məntəqələri təşkil edirdilər. Belə məntəqələrdə fəal oxucuların və birinci növbədə kitabxanaçıların köməyi ilə zəhmətkeşlər savadsızlıqlarını ləğv edirdilər. Bu cəhətdən M.Ə.Sabir adına Bakı Şəhər Kitabxanası xeyli iş görmüşdü. Kitabxana 1929-cu ildə İçərişəhərdə qadınların savadsızlığını ləğv etmək üçün məntəqə təşkil etmişdi. Bu məntəqəyə qadınlar bəzən xəlvəti gəlib əlifba öyrənirdilər.[208] Savadsızlığı ləğv məntəqələri Bakı və onun rayonlarının kitabxanaları ilə yanaşı, qəza kitabxanalarında və kənd qiraət komalarında da təşkil edilirdi. Gəncə, Qazax, Salyan, Göyçay, Quba, Nuxa (Şəki) qəza kitabxanalarında təşkil edilən savadsızlığı ləğv məntəqələri əhalinin savadlanmasında xeyli iş görmüşdü.

Kitabxanalar məntəqələr təşkil etməklə yanaşı, azsavadlı oxucuların cəlb edilməsi və onların lazımi ədəbiyyatla təmin edilməsi işinə xüsusi diqqət yetirirdi. Təkcə 1930-cu ildə kitabxanalar Bakı və onun rayonlarında 8406 azsavadlı oxucuya xidmət etmişdi ki, bu oxuculardan həmin ildə 3469

nəfəri kitabxanaların oxucuları sırasına cəlb edilmişdi. Bunlardan 2844 nəfəri azərbaycanlı idi. Beləliklə, respublikamızda mədəni yürüşün həyata keçirildiyi dövrdə kitabxanaların işi xeyli genişlənmiş, məzmunca yaxşılaşmış, böyük mədəni və siyasi əhəmiyyət kəsb etmişdi. Mədəni yürüş respublikanın bütün mədəni həyatına müsbət təsir göstərdiyi kimi, kitabxana işinin yaxşılaşdırılmasında, kitabxanalar ətrafında oxucu kütlələrinin, xüsusilə fəhlə və kəndli oxucuların toplaşmasında da çox mühüm amillərdən biri olmuşdur.

§ 2.7.4. Şəhər kitabxanalarının kənd kitabxanalarına hamiliyi

Ölkənin sosialistcəsinə sənayeləşdirilməsi, birinci beşillik planın həyata keçirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi illərində şəhərin kəndə hərtərəfli hamiliyi mühüm məsələlərdən biri kimi müntəzəm olaraq genişləndirilirdi.

Yenə də hamilik təşkilatlarının əsas işi kəndlərdə təşkilat-təsərrüfat və mədəni-maarif fəaliyyəti göstərməkdən ibarət idi. Kəndlərə mədəni-maarif xidməti göstərmək məsələsi özünü əsas etibarı ilə kənd yerlərində qiraət komaları, qiraətxanalar, kitabxanalar və s. açmaqda göstərirdi. Təkcə 1926-cı ildə hamilik cəmiyyəti kəndə mədəni yardım sahəsində xeyli iş görmüşdü. 31 qiraət koması avadanlıqla təchiz edilərək hamilərin hesabına saxlanılırdı. Burada işləyən 30 nəfər qiraət koması müdiri hamilik cəmiyyətindən maaş alırdı. Bundan başqa, hamilik cəmiyyəti tərəfindən yerli vəsait hesabına 25 qiraət koması təşkil edilmişdi.[209]

1930-cu ildə Bakı okruqu mədəni hücum qərargahı yaz kənd təsərrüfat kampaniyası ilə əlaqədar olaraq kənddə siyasi-maarif işinin canlanmasına kömək üçün Bakı qəzası kəndlərinə əkinçilik savadsızlığı ilə əlaqədar mübarizə dəstələri göndərmişdi. Bu dəstənin əsas vəzifəsi kəndin mədəni inkişafına yaxından kömək etmək və kəndlərdə kənd təsərrüfatı biliklərini yaymaq, kitab təbliği işini genişləndirmək

idi. Hər dəstə 4 nəfərdən (bir aqronom, bir kitabxanaçı, bir radio təlimatçısı və təbliğatçıdan) ibarət idi. Hər dəstə özü ilə bərabər bir səyyar radio, bir işıqlı fanar, bir kitabxana, bir kənd təsərrüfatı sərgisi və s. aparmışdı. Kitabxanaçılar qiraət komaları, klublarda toplanan kəndli qrupları və tək-tək kəndlilər üçün kənd təsərrüfatına aid olan kitablardan, qəzet və jurnallardan maraqlı parçalar oxuyur, mövcud kitablar haqqında kəndlilərə izahat verirdilər. Kitabxanalar yerli qiraət komalarına və kitabxanalara hərtərəfli metodik yardım göstərir, geniş kütləvi işlər həyata keçirirdi.[210] Belə mədəni dəstələr tərəfindən həyata keçirilən tədbirlər kənddə mədəniyyətin hərtərəfli inkişafına kömək etməklə kitabxana işinin möhkəmlənməsinə səbəb olurdu.

Kənd mədəni-maarif müəssisələrinə, o cümlədən kənd kitabxanalarının təşkilində və onlara metodik yardım göstərilməsi işində hamilik cəmiyyətləri ilə yanaşı, şəhər və qəza mərkəzi kitabxanaları da yaxından iştirak edirdilər.

Bakı şəhər kitabxanalarından M.Ə.Sabir adına, V.İ.Lenin adına mərkəzi kitabxanalar, M.Qorki adına Səyyar Fond qəza və rayon kitabxanalarına kömək işində yaxından iştirak edirdi. M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanası bir neçə qəza və rayon kitabxanasına hərtərəfli yardım göstərirdi. Kitabxana Qazax, Əli Bayramlı, Tovuz, Şəmkir və Sabirabad rayon Mərkəzi kitabxanalarını hamiliyə götürmüşdü.[211] İndiki M.F.Axundov adına Respublika Kitabxanası qəza və rayon kitabxanalarına metodik kömək göstərmək məqsədilə bir sıra mühüm tədbirlər həyata keçirmiş, qəza və rayon kitabxanalarına metodiki məktublar göndərməyə başlamışdı. Qəza və rayon mərkəzi kitabxanaları da öz növbəsində kənd və qəsəbə mədəni-maarif müəssisələrini hamiliyə götürmüş və onlara metodik yardım edirdi.

§ 2.7.5. Kitabxana hərəkatı

Respublikamızda kitabxana işinin inkişafında və məzmunca yaxşılaşmasında kitabxana hərəkatının böyük rolu olmuşdur. Kitabxana işinin inkişafı sahəsində xeyli iş

görülməsinə baxmayaraq, o, 1928-1929-cu illərdə ölkənin ümumi inkişaf səviyyəsindən, xalq təsərrüfatının sosialistcəsinə sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi işindən xeyli geri qalırdı. Bu gerilik 20-ci illərin axırında daha çox hiss edilməyə başlamışdı. Respublikada savadsızlığın ləğvi işi böyük vüsət aldıqca, kitabxana işinin genişləndirilməsinə daha böyük ehtiyac hiss edilir, kitabxana işinin əsaslı surətdə yaxşılaşdırılması vəzifəsi qarşıya çıxırdı. Ölkədə kitabxana işini daha da yaxşılaşdırmaq məqsədi ilə 1929-cu ildə qabaqcıl kitabxanaçıların təşəbbüsü ilə kitabxana hərəkatı başlandı. 1929-cu ildə Azərbaycan SSR Maarif Komissarlığı ölkədə kitabxana işini yaxşılaşdırmaq məqsədilə kitabxana yürüşü keçirmək haqqında qərar qəbul etdi. Qərara müvafiq olaraq Azərbaycanda kitabxana yürüşü genişlənməyə başladı. Bu yürüş təkcə bir qrup mədəni-maarif işçisinin yürüşü deyildi. Kitabxana yürüşü genişlənərək ümumxalq, ümumdövlət işinə çevrilmişdi. Kitabxana yürüşündə komsomolçular yaxından iştirak edirdilər. 1929-cu ildə Baş Siyasi-Maarif İdarəsi, Komsomolun Mərkəzi Komitəsi, Həmkarlar İttifaqı Mərkəzi Şurası xalqa müraciət edərək, onları respublikada genişlənməkdə olan kitabxana yürüşündə yaxından iştirak etməyə çağırdı.

1929-cu il sentyabrın 22-də Azərbaycan K(b)P MK respublikada kitabxana işini kökündən yaxşılaşdırmaq, kitabxana şəbəkələrini genişləndirmək, kitabxana ətrafında geniş oxucu kütləsi toplamaq, beləliklə də kitabları geniş zəhmətkeş kütlələri arasında yaymaq məqsədilə Azərbaycanda kitabxana yürüşü elan etmək məsələsini müzakirə etdi və 1929-cu il dekabrın 1-dən kitabxana yürüşü keçirməyi qərara aldı[212].

Baş Siyasi-Maarif İdarəsi respublikada kitabxana hərəkatına rəhbərlik etmək üçün kitabxana yürüşü komissiyası təşkil etdi. Bu komissiyaya bütün mərkəzi idarə və müəssisələrin nümayəndələri daxil edilmişdi. Komissiya kitabxana yürüşünü həyata keçirmək üçün geniş plan tərtib etdi. 1929-

cu il oktyabrın 30-da kitabxana yürüşü komissiyasının I yığıncağı toplandı. Toplantıda 30 nəfər iştirak edirdi. Yığıncaqda kitabxana yürüşünün geniş perspektiv planı təsdiq edildi.[213]

Respublikamızda kitabxana yürüşünə Azərbaycan komsomol və həmkarlar təşkilatları və ayrı-ayrı idarə və müəssisələr, xüsusilə maarif idarələri, qəzalarda və rayonlarda isə kitabxana hərəkatına maarif şöbələri rəhbərlik edirdi.

Kitabxana hərəkatı ölkədə kitabxana işinin hərtərəfli inkişaf etdirilməsində çox mühüm rol oynadı. Kitabxana yürüşü haqqında qərarın yerinə yetirilməsi nəticəsi olaraq qabaqcıl kitabxanaçıların öz təşəbbüsü ilə başlanmış kitabxana hərəkatı daha geniş miqyas aldı. Respublikamızda kitabxana yürüşü həyata keçirildiyi zaman M.F.Axundov adına Respublika Kitabxanası, M.Ə.Sabir adına kitabxana, Lenin adına kitabxana, M.Qorki adına Səyyar Fond, Belinski adına Uşaq Kitabxanası və s. kitabxanalar qəza, rayon və yeni təşkil edilməyə başlamış kənd kitabxanalarına metodik kömək edir, kitabxanalara metodik vəsaitlər, kitablar, kitabxana avadanlığı və s. göndərirdi. Qəza və rayon kitabxanaları da öz növbəsində kənd kitabxanalarına metodik kömək göstərirdi. Respublikada keçirilən kitabxana yürüşü getdikcə genişlənib ümumxalq hərəkatına çevrilirdi. Bütün mədəni qüvvələr kitab və kitabxanaları geniş zəhmətkeş kütlələri arasında təbliğ etmək işində mübarizəyə qoşulmuşdu. Mədəniyyət saraylarında, klublarda və başqa mədəni-maarif müəssisələrində kitabxana işini yaxşılaşdırmaq tədbirlərinə həsr edilmiş gecələr, kitabxanalarda oxucu konfransları və s. kütləvi işlər həyata keçirilirdi.[214] Belə kütləvi tədbirlərdə bütün ziyalılar: müəllimlər, mühəndislər, aqronomlar, həkimlər və başqaları yaxından iştirak edir, mühazirə və məruzələrlə çıxış edirdilər.

Respublikamızda kitabxana yürüşünün müvəffəqiyyətli təşkili işinə mətbuat yaxından kömək edirdi. «Kommunist», «Bakinskiy raboçiy» və s. qəzetlərin səhifələrində kitabxana hərəkatına dair müntəzəm olaraq məqalələr dərc edilirdi. «Kommunist» qəzeti «Mədəni inqilab yolunda»[215], «Kitabxanalara mədəni hücum»[216], «Məscid lazım deyil, qoy mədəni-maarif ocağı olsun»[217], «Okruq kitabxanalarına yardım edəlim»[218], «Mədəni hücum nəfinə bir hektar artıq əkəlim»[219], «Azərbaycanda mədəni quruluş»[220] və kitabxanalar haqqında başqa məqalələr dərc edirdi. «Bakınskiy raboçiy» qəzetinin səhifələrində də tez-tez belə məqalələr dərc edilirdi. Bu məqalələrdə kitabxana işi sahəsində əldə edilmiş müvəffəqiyyətlər göstərilməklə nöqsanlar ciddi surətdə tənqid edilir və mədəni-maarif işinin əsas ideya istiqaməti müəyyənləşdirilirdi. «Kommunist» qəzeti 1930-cu ildə «Mədəni inqilab yolunda yeni qalibiyyətlərə doğru» adlı baş məqaləsində yazırdı: «Bütün mədəni-maarif işləri sosializm quruluşunun ümumi vəzifələri ilə uzlaşdırılmalıdır. Bütün bu işlər partiyanın baş xəttini həyata keçirməkdə proletar dövləti qüvvələrinin səfərbərliyə alınmasına tabe edilməlidir[221].

Kitabxana yürüşü zamanı həyata keçirilən bu mühüm tədbirlər nəticəsində kitabxana işi xeyli yaxşılaşmışdı. Birinci beşilliyin axırında respublikada 140 kitabxana var idi.[222] Bu kitabxanaların ancaq az bir hissəsi kəndlərdə yerləşmişdi və onların fondunda 1200 cild kitab var idi.[223] Bütün qəza və rayon mərkəzlərində daimi və səyyar kitabxanalar təşkil edilmişdi. Qəza və rayon kitabxanaları müntəzəm olaraq Baş Siyasi-Maarif İdarəsinin Kitabxana Kollektoru tərəfindən komplektləşdirilirdi. Komplektləşdirilmə zamanı kitabxanaları Azərbaycan dilində nəşr edilmiş bütün nüsxələrlə təmin etmək prinsipi əsas götürülmüşdü. Bu dövrdə komplektləşdirmə işində yerli şəraitə uyğun olaraq kitab seçilməyə başlanması prinsipi tətbiq edilirdi ki, bu da respublika kitab bazarının zənginləşməsi ilə əlaqədar idi. Qəza və rayon kitabxanalarında işin sabitləşməsi, onların kitab fondunun zənginləşməsi, kitabxanaların ətrafında geniş oxucu kütlələrinin toplanması nəticəsində kitabxana texnikasının tətbiqi işi xeyli yaxşılaşmışdı. Qazax, Gəncə, Salyan, Göyçay, Nuxa

və s. kimi qabaqcıl qəza kitabxanalarında kitabxana fondunu düzgün əks etdirə bilən kataloqlar meydana çıxmağa başlamışdı. Qəza və rayon kitabxanaları təkcə kitab alıb verməklə öz işlərini məhdudlaşdırmırdı. Burada geniş kütləvi işlər də aparılırdı. Ucadan oxular, kitab sərgiləri, oxucu konfransları, ədəbi-bədii gecələr və s. kütləvi işlərin əsas növləri hesab edilirdi.

§ 2.7.6. Birinci beşillik dövründə kənddə kitabxana işi

Bu dövrdə kənd təsərrüfatının kollektivləşməsi ilə əlaqədar olaraq kənd yerlərində mədəni-maarif işinin genişləndirilməsi böyük siyasi əhəmiyyət kəsb etmişdi.

1929-cu il martın 5-də Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiyası kolxozlara mədəni xidmət məsələlərinin təşkilinə dair qərar qəbul etdi. Qərarda qeyd edilirdi ki, XV partiya qurultayının kənd təsərrüfatının kollektivləşdirilməsi haqqında qərarını Azərbaycan şəraitində böyük mədəni çevriliş həyata keçirmədən yerinə yetirmək mümkün deyildir. Buna görə də əsas vəzifə kolxozlarda geniş iş aparmaqdan ibarətdir. Kolxoz üzvlərinin mədəni səviyyəsini yüksəltmək məqsədi ilə kənd yerlərində mədəni müəssisələrin sayını artırmaq, onların işini kolxozların işinə yaxınlaşdırmaq, heç olmasa, 24 kolxoza mədəni-maarif xidməti göstərmək, Azərbaycan Kolxozmərkəzlə birlikdə hər qəzada, məntəqədə bir kolxoz ayırıb ona mədəni-maarif xidməti göstərmək zəruridir.[224] Qərarda kolxozlara kitabxana xidmətinin təşkilinə xüsusi diqqət yetirilirdi. Qərarda göstərilirdi: «1. Bakı Siyasi-Maarif İdarəsinə tapşırılsın ki, Azərnəşrlə birlikdə kolxozlarda azı 24 nümunəvi daimi kitabxana, səyyar kitabxana yaradılmasını təmin etsin və səyyar kitabxanaların kolxozlara xidməti haqqında bütün kitabxanalara və səyyar bazalara təlimat məktubu tərtib etsin. 2. Kolxoz mərkəzi idarəsi ilə birlikdə kolxoz kitabxanaları üçün məsləhət görülən ədəbiyyatın kataloqlarını tərtib etsin. 3. Kolxozlara kitab göndərilməsini təşkil etmək işi Azərbaycan Dövlət Nəşriyyatına tapşırılsın»[225].

Maarif Komissarlığının bu qərarını həyata keçirmək üçün yerlərə təlimatçılar göndərildi. Təlimatçılar kitabxana işinin vəziyyəti ilə tanış olur, yeni mədəni-maarif müəssisələrinin təşkilində iştirak edir, mövcud kitabxanalara metodik yardım göstərirdilər. Onlar kənd qiraət komalarında olan kitabları nəzərdən keçirir, lazımsız kitabları qiraət komalarından çıxarırdılar. Kənddə kolxoz hərəkatının genişlənməsi ilə əlaqədar olaraq kənd sovetləri və yeni təşkil edilmiş kolxozlar da mədəniyyəti inkişaf etdirmək işində yaxından iştirak edirdilər.

Kolxozlar savadsızlığın ləğvinə, mədəni-maarif müəssisələrinin təşkilinə vəsait ayırırdı. 1931-ci ildə Azərbaycan SSR-in kolxozlarının büdcəsindən mədəni-məişət fonduna 823000 manat pul ayrılmışdı[226]. Kolxozlar kəndin mədəni inkişafına kömək etmək üçün başqa tədbirlər də həyata keçirirdi.

1931-ci ilin mayında Azərbaycan SSR Xalq Komissarları Soveti «Mədəni hücum naminə bir hektar artıq əkəlim» adlı qərar qəbul etdi. Bu qərarda Xalq Komissarları Soveti kənddə mədəniyyətin inkişaf etdirilməsi xeyrinə «bir hektar artıq əkəlim» kampaniyası keçirilməsini lazım bilirdi. Həm də bu qərarda mədəniyyətin inkişafı üçün respublikada ianə toplanması işinin təşkili zəruri hesab edilirdi[227].

Kənd kitabxanaları Baş Siyasi-Maarif İdarəsi tərəfindən komplektləşdirilirdi. 1931-1932-ci illərdə təkcə pambıq rayonlarına 23704 kitaba malik olan 73 kitabxana göndərilmişdi ki, bunlardan 11869 kitaba malik olan 43-ü MTS siyasi şöbələrinə çatdırılmışdı. Bundan başqa, kənd kitabxanaları müntəzəm olaraq qəzet və jurnallarla komplektləşdirilirdi[228].

Kənd mədəni-maarif müəssisələrinin təşkilində Azərbaycan Kolxozmərkəz yaxından iştirak edirdi. Kolxozmərkəz kolxozlara mədəni-maarif müəssisələri saxlamaq üçün vəsait ayırır və belə müəssisələr üçün bina tikilməsi işində yaxından iştirak edirdi.

1932-ci ildə Azərbaycan K(b)P MK qiraət komaların-

da olan kitabları toplayıb nəzərdən keçirmək və lazımsızları çıxardıqdan sonra yerdə qalan lazımlı kitablardan kitabxanalar təşkil edib kolxozlara göndərmək haqqında göstəriş verdi. Bu iş ALKGİ MK tərəfindən yaradılmış xüsusi komissiyaya tapşırılmışdı. Bu komissiyaya öz işini təşkil etmək üçün müəyyən miqdarda vəsait də ayrılmışdı.[229]

1932-ci ilin oktyabr-dekabr aylarında Azərbaycan K(b)P MK-nın xüsusi briqadası tərəfindən Salyan, Əli Bayramlı, Biləsuvar, Sabirabad, Şəmkir, Bərdə, Ağdaş, Astara, Astraxanbazar, Qazax və s. qəza və rayonlarında mədəni-maarif işinin vəziyyəti yoxlanmış, bir sıra ciddi nöqsanlar meydana çıxarılmışdı. Mərkəzi Komitə mədəni-maarif işi sahəsindəki nöqsanların tezliklə aradan qaldırılması haqqında göstəriş vermişdi.

Bütün bunlara baxmayaraq, kənd yerlərində mədəni-maarif işi hələ də durmadan artan mədəni tələbatı ödəyə bilmək səviyyəsinə çatdırılmamışdı. Kəndlərin bir çoxunda kitabxanalar, qiraət komaları və s. mədəni-maarif müəssisələri yox idi. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1932-ci ildə Qazax rayonunun 28 sovetliyindən yalnız 9-da qiraət komaları var idi ki, bundan da 7-si rayon maarif şöbəsinin büdcəsində idi.[230] Kitabxanalara və qiraət komalarına vəsait az buraxılırdı. Mədəni-maarif müəssisələri işçilərinin maaşı hələ də müəllimlərin maaşı ilə bərabərləşdirilməmişdi.[231]

Respublikada kolxoz və sovxoz təsərrüfatının genişlənməsi ilə əlaqədar olaraq yeni kitabxanalar, kolxoz, sovxoz, MTS texniki və aqrotexniki kitabxanaları meydana gəlmişdi. Sovxoz və MTS kitabxanaları həmkarlar təşkilatı tərəfindən təşkil edilirdi. Kolxoz kitabxanaları qabaqcıl kolxozlarda idarə heyətinin qərarı ilə təşkil edilir və kolxozun öz büdcəsi hesabına komplektləşirdi. Kolxoz kitabxana şəbəkəsinin meydana gəlməsi respublikamızın həyatında tamamilə yeni hadisə idi. Kolxoz kitabxanaları kəndin mədəni həyatında yaxından iştirak edir, kənddə aqrotexniki kitabların təbliğində geniş fəaliyyət göstərirdi.

§ 2.7.7. Birinci beşillik dövründə Bakı və onun rayonlarında kitabxana işi

Bakı və onun rayonlarında kitabxana işi daha sürətlə inkişaf edirdi. Birinci beşillik planın yerinə yetirilməsi nəticəsində kitabxanaların sayı müntəzəm çoxalır, kitabxana işi forma və məzmunca yaxşılaşırdı. Onlar respublikanın mədəni həyatında yaxından iştirak edirdilər. Kitabxanaların ətrafında oxucuların müntəzəm olaraq çoxalması dövrün mühüm hadisələrindən biri idi.

1929-cu ildə Bakı, onun rayonları və Bakı qəzasında 33 kitabxana, 2 qiraətxana, 1 mərkəzi səyyar baza, 1 rayon bazası, 3 kənd rayonları bazası var idi. Kitabxanaların yanında 30 milli və uşaq şöbəsi təşkil edilmişdi.[232] Bu kitabxanalardan 19-u Bakıda, 2-si Bayıl, Bibiheybət rayonunda, 2-si Fabrik-zavod rayonunda, 3-ü Lenin rayonunda, 6-sı Suraxanı rayonunda, 1-i Binəqədi rayonunda, 3-ü Xızı rayonunda, 4-ü Qala-Maştağa rayonunda yerləşmişdi.[233]

Bu kitabxanalardan 11-də, qiraətxanalardan isə 2-də kitablar ancaq Azərbaycan dilində idi. Bundan başqa mərkəzi bazanın yanında 1, kənd bazasının yanında 3, müxtəlif dillərdə kitablara malik olan kitabxanaların yanında 7, uşaq kitabxanalarının yanında 7 Azərbaycan şöbəsi fəaliyyət göstərirdi.[234] Bakı şəhərində müxtəlif millətlərin nümayəndələri yaşadıqlarından kitabxanaların qarşısında başqa millətlərdən olan oxucular arasında geniş iş aparmaq kimi çox mühüm vəzifə dururdu. Məhz buna görədir ki, kitabxanalarda milli şöbələr yaradılır, oxucuların tərkibindən asılı olaraq müxtəlif dillərdə kitablarla təkmilləşdirilirdi. Azlıqda qalan millətləri kitabxana oxucuları sırasına cəlb etmək üçün milli dillərdə geniş kütləvi tədbirlər həyata keçirilirdi.

Yəhudi oxuculara xidmət etmək üçün bir kitabxana fəaliyyət göstərirdi. Bu kitabxananın yəhudi dilində 6500 nüsxə kitabı və 4250 nəfər oxucusu var idi ki, bu da ümumi oxucuların 9%-ni təşkil edirdi.[235]

Bundan başqa, Bakı və onun rayonlarının kitabxana-

larında 213 nəfər gürcü, 79 nəfər ləzgi, 375 nəfər tatar oxucu var idi.[236]

Birinci beşillik planın həyata keçirildiyi illərdə Bakı və onun rayonlarında kitabxana işinə ayrılan vəsait müntəzəm olaraq artırılırdı. Bunu aşağıdakı rəqəmlərdən görmək olar:

İllər	Ayrılan vəsait
1926/27	200600
1927/28	265123
1928/29	318224
1929/30	378352[237]
1930/31	538201
1931/32	752442[238]

Kitabxana işinə ayrılan vəsaitin müntəzəm artırılması, kitabxana şəbəkəsinin genişlənməsi kitabxana fondunun zənginləşdirilməsi və kitabxana işinin hərtərəfli yaxşılaşdırılması üçün şərait yaradırdı. Ölkənin sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi, birinci beşilliyin həyata keçirilməsi illərində kitabxanaların sayı müntəzəm olaraq artır, kitab fondu zənginləşir, onların ətrafında geniş oxucu kütləsi toplanırdı. Bunu aşağıdakı cədvəldən görmək olar.

Cədvəldən məlum olur ki, 1926-cı ildən başlayaraq 1932-ci ilə qədər Bakı, onun rayonları və Bakı qəzasında kitabxanaların sayı, kitab fondu, oxucuları və kitab dövriyyəsi müntəzəm olaraq artmış, kitabxananın işi məzmunca yaxşılaşmışdır. Bütün bunlara baxmayaraq, kitabxana işi hələ də respublikanın ümumi inkişaf səviyyəsindən geri qalırdı. Kitabxanaların kitab fondunun və oxucularının artımı dövrün tələblərinə uyğun gəlmirdi. Azərbaycan dilində kitabların azlığı böyük çətinlik törədirdi. Kitabxanalar savadsız əhalinin əksəriyyətini öz oxucuları sırasına cəlb edə bilmirdi. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1929-cu ildə Bakı və onun qəzasında yaşayan 275 min nəfər savadlı əhalinin ancaq 110 min nəfəri kitabxanalardan istifadə edirdi ki, bunun da 60 min nəfəri Bakı Baş Siyasi-Maarif İdarəsinin kitabxanalarında, 50 min nəfəri isə həmkarlar ittifaqı kitabxanalarında idi.[239]

1928-1931-ci illərdə Bakı, onun rayonları və Bakı qəzasında kitabxana işinin vəziyyəti[1]

İllər	Kitabxanaların cəmi	Kitabxanalarda olan kitabların cəmi	Ondan			Kitabxanalarda olan oxucuların cəmi	Ondan			Kitabxana fondunun dövriyyəsi
			Azərb.	Rus və b. dil.	ermənicə		Azərb.	Rus və b. dil.	ermənicə	
1926	31	436413	64487	335400	27437	37103	8600	21600	5809	1209209
1927*	32	-	-	-	-	-	-	-	-	-
1928	35	530035	106880	365175	36980	50088	13485	27714	8889	1924900
1929	32	536878	110219	386804	39855	59923	18970	29780	11173	-
1930	34	597210	119861	437346	40003	74857	23533	36218	15106	2394000
1931	37	594906	126754	425151	43081	76751	24496	39339	12916	2518000

[1] Cədvəl Bakı Baş Siyasi-Maarif İdarəsinin 1926-1932-ci illərdə kitabxana işinə dair illik hesabatları əsasında tərtib edilmişdir. Həmin hesabatlar Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivində saxlanılır.

* 1927-1932-ci ilə və cədvəldə olan başqa boş qrafalara aid məlumatları əldə edə bilmədik.

1929-cu ildən başlayaraq ilbəil kitabxanalarda aparılan təmizlik nəticəsində məzmunca köhnəlmiş kitabların fonddan çıxarılması, kitabxana fondlarında kitabların, xüsusilə Azərbaycan dilində kitabların azalmasına səbəb olmuşdu. Təkcə 1929-cu ildə kitabxanalardan 100 min kitab çıxarılmışdır ki, bunun da əksəriyyəti Azərbaycan dilində idi.[240]

Azərbaycanlı oxucuların kitabxanaya cəlb edilməsi işində nöqsanlar var idi. 1929-cu ildə Bakı və onun rayonlarının kitabxanalarında cəmisi 18970 nəfər azərbaycanlı oxucu var idi.[241] Bunu da o dövr üçün o qədər də böyük rəqəm hesab etmək olmaz. Savadlı fəhlələrin əksəriyyəti kitabxana oxucuları sırasına cəlb edilməmişdi.

Bu dövrdə kitabxanalarda aparılan iş öz forma və məzmun müxtəlifliyi ilə xeyli genişlənmişdi. Kitabxanalar öz oxucularının sayını və tərkibini genişləndirmək üçün müxtəlif üsul və vasitələrdən, kütləvi tədbirlərdən istifadə edirdi. Kitabxanalar yalnız oxuculara kitab verməklə kifayətlənmir, səyyar məntəqələr, kollektiv abonementlər və kitabgəzdirmə işini genişləndirmək vasitəsilə evdar qadınlara, zavod və fabrik fəhlələrinə iş yerlərində, evlərində xidmət edirdi. Səyyar məntəqələrin təşkili getdikcə daha da genişlənir, kitabxanaya gəlmək imkanı olmayan oxuculara iş yerlərində və evlərində xidmət əsas məsələlərdən biri hesab edilirdi. Səyyar kitabgəzdirmə işində kitabxanaçılarla yanaşı, könüllü kitab gəzdirənlər, kitabxana fondları və ayrı-ayrı idarə və müəssisələr də yaxından iştirak edirdi.

Səyyar işlərin genişləndirilməsində Bakı şəhər kitabxanalarından M.Qorki adına Səyyar Fond, M.Ə.Sabir adına Kitabxana, V.İ.Lenin adına Kitabxana, Fioletov adına Sabunçu rayon kitabxanası yaxından iştirak edirdilər.

Səyyar məntəqələrin sayı və həmin məntəqələrdən istifadə edən oxucuların sayı müntəzəm olaraq artırdı. Əgər 1928-ci ildə kitabxanalar ayrı-ayrı müəssisələrdə, fabriklərdə, zavodlarda, yataqxanalarda, tikintilərdə və s. 30 səyyar

məntəqə təşkil etmişdisə, onların sayı 1929-cu ildə 76-ya[242], 1931-ci ildə isə 136-ya[243] çatdırılmışdı. Səyyar məntəqələrin sayı ilə yanaşı, oxucuların və kitab verilişinin miqdarı da artırdı. Əgər 1928-ci ildə səyyar məntəqələrdə 5655 oxucu var idisə, onların sayı 1929-cu ildə 6457 nəfərə çatmışdı. Kitab verilişi də ilbəil çoxalırdı. Əgər 1926-1927-ci illərdə səyyar məntəqələrdə 83769 kitab verilmişdisə, onların sayı 1927-1928-ci illərdə 135240[244], 1929-1930-cu illərdə 224100, 1930-1931-ci illərdə isə 227200[245] nüsxəyə çatmışdı.

Kitabxanalara ayrılan vəsaitin müntəzəm artırılması, fondların yeni kitablarla zənginləşməsi, onların ətrafında zəhmətkeş kütlələrinin və ziyalıların toplanmasına, kitabxana işinin məzmunca yaxşılaşmasına səbəb olmuşdu. Kitabxanalar öz təbliğatçılıq fəaliyyətini həyata keçirmək, kitabı geniş surətdə təbliğ etmək üçün kütləvi işlər həyata keçirirdilər. 1928-1932-ci illərdə kitabxanalar əsasən kitab sərgilərindən, ucadan oxulardan, kitab müzakirələrindən, ədəbi-bədii gecələrdən, ekskursiyalardan, görüş gecələrindən, mühazirə və məruzələrdən, kitabxana plakatlarından və s. istifadə edirdilər.

Bundan başqa, kitabxanalarda müxtəlif dərnəklər də təşkil edilirdi. Belə dərnəklər müntəzəm olaraq məşğələlər keçirir, oxucuların müxtəlif sənətlərə yiyələnməsinə və şəxsi təhsil işinə hərtəfli kömək edirdi. Şəxsi təhsilə rəhbərlik işinin genişlənməsi bü dövrün xarakterik xüsusiyyətlərindən biri idi. Şəxsi təhsilə rəhbərlik etmək işinin genişlənməsi kitabxana işinin məzmunca yaxşılaşdığını, onların bacarıqlı kadrlarla təmin edildiyini və adicə kitab alıb-verən bir müəssisədən kitabı təbliğ edən, tövsiyə edən, oxuculara geniş məlumat verən, oxucu marağının formalaşmasında yaxından iştirak edən bir müəssisəyə çevrildiyini göstərirdi.

Kitabxanalarda kütləvi işlərin hərtərəfli genişlənməsi onların ətrafında oxucu fəallarının toplanmasına səbəb olmuşdu. Kitabxana işi geniş ümumxalq işinə çevrilmişdi. Təkcə 1929-cu ildə Bakı, onun rayonları və Bakı qəzasında

kitabxana işinə 1453 nəfər oxucu fəalı cəlb edilmişdi.[246]

Kitabxanalarda kütləvi tədbirlər getdikcə artırdı. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1931-ci ildə Bakı kitabxanalarında 2249 məruzə, mühazirə, söhbət və ucadan oxu keçirilmişdi ki, bu da 1929-cu ildəkindən 5 dəfədən artıq idi.

§ 2.7.8. M.F.Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanası 20-ci illərdə

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra hökumətin kitabxana işi sahəsində həyata keçirdyi tədbirlər içərisində Milli Dövlət Kitabxanasının* yaradılması mühüm yer tutur.

Dünyanın qabaqcıl ölkələrində hələ XVIII əsrdə meydana gəlib formalaşan milli kitabxanalar sonrakı əsrlərdə daha da təkmilləşmiş, «dövlət kitabsaxlayıcısı», milli ədəbiyyatı qoruyub saxlayan, mədəniyyətin qızıl fondunu yaradan bir müəssisə kimi məşhurlaşmışdı.

Məhz buna görə qabaqcıl ziyalılar hələ XX əsrin əvvəllərindən Azərbaycan Milli Kitabxanasının yaradılması ideyasını irəli sürmüş, milli kitabxana yaratmağa təşəbbüs göstərmişlər. Təəssüf ki, çar Rusiyasının milli müstəmləkəçilik siyasəti bu təşəbbüsün yerinə yetirilməsinə imkan verməmişdi.

Həmçinin 1918-1920-ci illərdə fəaliyyət göstərən müstəqil Azərbaycan dövləti – Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın mədəni həyatında mühüm əhəmiyyət kəsb edən Milli Kitabxananın yaradılmasını zəruri saymış və bu barədə xüsusi qərar qəbul etmişdi. Lakin rus sovet imperiyası tərəfindən Azərbaycanın işğalı bu qərarın yerinə yetirilməsinə imkan vermədi. Məhz buna görədir ki, Azərbaycanda sovet hakimiyyətinin qurulmasının ilk günlərindən Azərbaycan İnqilab Komitəsi Milli Kitabxananın yaradılması məsələsini zəruri bir məsələ kimi irəli sürdü.

1920-ci il may ayının 24-ü Xalq Maarif Komissarlığının kollegiyası Milli Kitabxananın (Dövlət Ümumi Kitabxanasının) təşkili haqqında qərar qəbul etdi. Lakin kitabxananı təşkil etmək üçün bina, avadanlıq və vəsait olmadığından bu işi reallaşdırmaq mümkün olmadı. Kitabxananı təşkil etmək işi müvəqqəti olaraq dayandırıldı və Məktəbdənkənar İşlər İdarəsinə kitabxananı yaratmaq üçün geniş hazırlıq işi aparılması tapşırıldı. Lakin milli kitabxananın təşkili xeyli ləngidi. Təxminən üç ildən sonra, 1923-cü ilin may (bəzi mənbələrdə iyun) ayında kitabxananın əsası qoyuldu, Milli Kitabxananın təntənəli açılışı oldu.

Kitabxananın açılışında Azərbaycan Xalq Maarif Komissarı Mustafa Quliyev və digər natiqlər çıxış etmiş, kitabxananın mədəniyyətin inkişafında yüksək əhəmiyyətindən danışmışlar. Açılış demək olar ki, Azərbaycan mədəniyyətinin bayramına çevrilmiş, oxucuların böyük sevincinə səbəb olmuşdu. Təntənəli açılışda kitabxanaya Azərbaycan Mərkəzi Dövlət Kitabxanası adı verildi.

Azərbaycanın paytaxtı Bakı şəhərində milli ədəbiyyatımızın qızıl fondunun yaranması respublikamızın maarif, mədəniyyət və elmi həyatında böyük hadisə oldu, ümumxalq bayramına çevrildi.

Milli kitabxananın açılışının gecikməsinin, bizcə, obyektiv və subyektiv səbəbləri var idi. Ölkədə olan böyük iqtisadi çətinlik, binanın, texniki avadanlığın olmaması, vəsaitin azlığı obyektiv səbəb kimi qiymətləndirilə bilər. Lakin subyektiv səbəblər də yox deyildi. O dövrdə Azərbaycan Kommunist Partiyasına rəhbərlik edən rus şovinistləri Azərbaycan Milli Kitabxanasının təşkilini o qədər də önəmli məsələ hesab etmir, onun tezliklə yaradılmasına ciddi diqqət yetirmirdilər. Nədənsə bu şovinist rəhbərlər «milli» sözünü xoşlamırdılar.

Kitabxana açılarkən İmperator Texniki Cəmiyyətinin Bakı Şöbəsinin və Bakı İctimai Yığıncağının kitabxanalarının 5 minə qədər kitabı Milli Kitabxanaya verildi.

Xalq Maarif Komissarlığının göstərişi ilə hələ 1920-ci

* O dövrdə Milli Kitabxana Azərbaycan Dövlət Ümumi Kitabxanası adlanırdı.

ildən fəaliyyətə başlamış Kitabxana Kollektoru milli kitabxana üçün kitablar ayırmağa başlamışdı. Kollektor həmçinin ayrı-ayrı şəxsi kitabxanaları, kitab kolleksiyalarını, qiymətli nadir kitab fondlarını pulla alıb toplayırdı. O dövrdə kollektor Fərmanovun və Gülsüm xanım Sübhanquliyevanın qiymətli şəxsi kitabxanasını almışdı.

1921-ci ilin axırlarında Dövlət Kitabxanası üçün bina ayrılmış, toplanan kitablar bu binaya verilmişdi. 1922-ci ilin noyabr ayında keçmiş Ali İqtisad Şurasının binası Dövlət Kitabxanasına verilmiş və Kitabxana Kollektorunda, V.İ.Lenin adına Kitabxanada, kitab anbarlarında və Birjanın binasında saxlanılan kitablar buraya gətirilmişdi. Həmçinin ayrıca binası olduğundan kitabxanadaxili işləri qaydaya salınmış, açılışa hazırlıq işlərinə başlanmışdı. Xalq Maarif Komissarlığı 1922-ci ildə yenidən kitabxananın strukturunu, ştat cədvəlini təsdiq etmiş və M.İ.Səlimovu kitabxananın direktoru vəzifəsinə təyin etmişdi. Nazirlik kitabxananın açılışına hazırlıq işini Baş Siyasi-Maarif İdarəsinə tapşırmış və açılışın konkret tarixini müəyyənləşdirmişdi.

1923-cü il martın 31-də Baş Siyasi-Maarif İdarəsinin kollegiyası Dövlət Kitabxanasının müdiri Səlimovun hesabatını dinləyib, kataloqların tərtib edilməsini və kitabxananın tezliklə açılmasını lazım bilmişdi. Kollegiya kitabxanaya 32 milyard manat pul buraxılmasını qərara almışdı.[247] Kitabxana Baş Siyasi-Maarif İdarəsinin sərəncamına verildikdən sonra onun əsasnaməsi təsdiq edilmiş, kitabların saxlanması və oxucuya verilməsi haqqında təlimat tərtib edilmişdi. Bu əsasnaməyə görə, kitabxanaya direktor və kitabxana şurası rəhbərlik etməli idi. Kitabxana şurasına Azərbaycan K(b)MK və BK-nın nümayəndələri, Baş Siyasi-Maarif İdarəsinin və Maarif Komissarlığı elmi şuralarının nümayəndələri, universitetin, pedaqoji və politexnik institutlarının elmi şuralarının nümayəndələri, AHİMŞ və Bakı Xalq Maarif Şöbəsinin nümayəndələri, kitabxananın direktoru və şöbə müdirləri daxil edilməli idi. Kitabxana şurasının belə geniş

tərkibə malik olması kitabxananın işinə nə dərəcədə mühüm əhəmiyyət verildiyini bir daha nümayiş etdirir.

Kitabxananın açılışına geniş hazırlıq aparıldıqdan sonra 1923-cü ilin iyun ayının 5-də kitabxana rəsmiyyətə salınaraq oxucuların ixtiyarına verilmişdir.[248]

Kitabxana açılarkən onun iki şöbəsi (Avropa ədəbiyyatı şöbəsi və Şərq ədəbiyyatı şöbəsi) və fondunda 20.441 nüsxə kitab var idi. Kitabxanada cəmi 13 nəfər kitabxanaçı işləyirdi.[249]

Kitabxananın komplektləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Kitabxana Azərbaycanda nəşr edilən bütün çap məhsullarından məcburi nüsxə və SSRİ Dövlət Kitab Palatasından kitablar alırdı.

1923-cü ilin iyun ayında Bakı Xalq Maarif şöbəsi SSRİ Dövlət Kitab Palatasına məktub yazıb xahiş edirdi ki, SSRİ-də çıxan bütün ədəbiyyatdan digər ümumi kitabxanalara məcburi nüsxələr göndərildiyi kimi, Azərbaycan Dövlət Ümumi Kitabxanasına da göndərilsin. Məktubda qeyd edilirdi ki, kitabxana geniş iş aparır, hər gün kitabxanaya 250-300 nəfər oxucu gəlir.[250]

1924-cü ilin iyul ayında Azərbaycan K(b)MK-sı Azərbaycan K(b)P Polşa bölməsinin yanında polyak dilində kitablardan ibarət olan kitabxananı Azərbaycan Dövlət Kitabxanasına vermək haqqında göstəriş verdi.[251] Kitabxanada polyak dilində 4660 kitab və 25 ədəd inventar var idi.

1924-cü ilin əvvəllərində kitabxananın tarixində diqqətəlayiq bir hadisə baş verdi. Kitabxana daha münasib bir binaya - AMEA-nın indiki binasına (İstiqlal küçəsi, 10) köçürüldü. Doğrudur, bina tam yox, onun kiçik bir hissəsi kitabxanaya verilmişdi. 1928-ci ildə isə kitab fondunun və oxucuların çoxalması ilə əlaqədar kitabxanaya yeni otaqlar ayrıldı. Kitabxananın vəziyyəti xeyli yaxşılaşdı. Kitabxana öz fondunu yerləşdirmək və oxucuları abad qiraət zalı ilə təmin etmək imkanı qazandı. Bu da kitabxananın gələcək fəaliyyətində mühüm rol oynadı.

Beləliklə, kitabxana SSRİ Dövlət Kitab Palatası tərəfindən göndərilən kitablarla, Azərbaycan SSR nəşriyyatlarından alınan məcburi nüsxələrlə, Kitabxana Kollektorunun verdiyi kitablarla, həm də ayrı-ayrı idarə, müəssisə və şəxslərin bağışladığı hədiyyələr yolu ilə komplektləşirdi.

1925-ci ilin may ayında Baş Siyasi-Maarif İdarəsinin kollegiyası Dövlət kitabxanasının işini yoxlayıb müzakirə etmişdi. Kollegiya kitabxananın işində bəzi nöqsanlar olduğunu, kitabların müəyyən hissəsinin kitabxana qaydası ilə işlənmədiyini, kataloqların olmadığını, elmi müəssisələrlə əlaqəsinin zəif olduğunu qeyd etmiş və göstərilən nöqsanların düzəldilməsi haqqında qərar çıxarmışdı. Kollegiya kitabxanada onluq təsnifat sisteminin tətbiqini, əlifba və predmet kataloqlarının təşkilini məsləhət görmüşdü.[252]

Göstərilən nöqsanları aradan qaldırmaq üçün 1925-ci ilin iyul ayında kitabxana müvəqqəti olaraq bir neçə aylığa bağlandı.[253] Kitabxananın ştatı az olduğundan onlar oxuculara xidmət etməklə eyni vaxtda kitabxananın daxili işlərini həyata keçirə bilmirdilər. Kitabxana bağlı olduğu müddətdə Baş Siyasi-Maarif İdarəsi kitabxananı qaydaya salmaq üçün 15 min manat pul ayırdı.[254] Kitabxanada az müddət içərisində xeyli iş görüldü. Bütün kitablar kitabxana qaydası ilə işləndi, inventara yazıldı, fond qaydaya salındı və kataloqlar tərtib edildi. Artıq 1925-ci ildə kitabxananın fondunda 51 min kitab var idi. Bundan 47800 nüsxəsi Avropa şöbəsində, 4200 nüsxəsi isə Şərq şöbəsində saxlanılırdı. Altı ay müddətində kitabxanaya 2400 nəfər oxucu yazılmış, onlara 25805 kitab verilmişdi.[255] Bu rəqəmlər kitabxananın fəaliyyətinin genişlənməsinə əyani sübutdur. Bütün bunlara baxmayaraq, kitabxananın ştatının azlığı, ixtisaslı kitabxanaçı kadrların olmaması ona öz maarifçilik və elmi-metodik fəaliyyətinin genişləndirilməsinə imkan vermirdi.

Kitabxananın inkişafına mane olan amillərdən biri kitab fondunun ləng inkişaf etməsi idi. Respublikada kitab az nəşr edilirdi, xüsusilə elmi ədəbiyyat yox dərəcəsində idi.

Bu işin qaydaya salınmasında ittifaq hökumətinin qərarı ilə kitabxananın RSFSR-dən və digər müttəfiq respublikalardan məcburi nüsxələrin alınması müsbət rol oynadı.

Azərbaycan Dövlət Kitabxanası 1923-cü ildən RSFSR, Ukrayna SSR, Türkmənistan SSR, Gürcüstan SSR, Ermənistan SSR, 1925-ci ildən isə Özbəkistan SSR kitab palatalarından məcburi nüsxələr almağa başlamışdı. Beləliklə, kitabxana 1926-cı ildə SSRİ-də çıxan bütün kitab və jurnallardan məcburi nüsxələr alırdı.[256] Kitabxana 1923-1927-ci illər ərzində məcburi nüsxə yolu ilə 178975 kitab almışdı. O dövr üçün bu, çox böyük rəqəm idi. Kitabxananın SSRİ-də çıxan bütün kitab və jurnallardan məcburi nüsxələr alması onun fondunda elmi ədəbiyyatın toplanması üçün geniş imkan yaratmışdı. Kitabxana öz fondunu mövcud elmi əsərlərlə, jurnallarla təkmilləşdirmək üçün kitab mağazalarından, ayrı-ayrı idarə, müəssisə və şəxslərdən də kitablar alırdı. Kitabxana öz oxucularını elmi ədəbiyyatla təmin etmək, fondunu zənginləşdirmək məqsədi ilə 1928-ci ildə 50 adda xarici jurnal da alırdı. Həmçinin kitabxana SSRİ Elmlər Akademiyasının, xarici ölkələrlə mədəni əlaqə cəmiyyətinin və ayrı-ayrı elmi müəssisələrin xüsusi nəşrlərini də əldə edirdi.[257]

1925-ci ildə Azərbaycan Dövlət Kitab Palatasının yaranması ilə əlaqədar kitabxananın respublika miqyasında yeni ədəbiyyatla təkmilləşməsi xeyli qaydaya düşdü. Kitab Palatası ardıcıl olaraq kitabxananı respublikamızda yeni nəşr edilən ədəbiyyatın məcburi nüsxələri ilə təchiz etdi.

Bütün bunlar kitabxananın fondunun inkişafına səbəb olmuşdu. 1928-ci ildə kitabxananın fondunda 300 min nüsxə çap məhsulu toplanmışdı. Bu kitabların ancaq 5102 nüsxəsi Azərbaycan dilində idi. Kitabların əksəriyyəti rus dilində idi. Ümumiyyətlə, kitabxanada 38-dən çox SSRİ xalqları və xarici dillərdə kitablar toplanmışdı.[258] Bu, beynəlmiləl tərkibli Bakı zəhmətkeşlərinə hərtərəfli xidmət etmək imkanı verirdi.

Kitabxanaya ayrılan vəsait müntəzəm olaraq artırdı.

Əgər kitabxananın büdcəsi 1925-1926-cı illərdə 21.680 manat[259] olmuşdusa, 1926-1927-ci illərdə 25360 manata, 1927-1928-ci illərdə 35444 manata[260], 1930-cu ildə 56000 manata, 1931-ci ildə isə 89763 manata çatdırılmışdı.[261] Kitabxananın büdcəsinin müntəzəm olaraq artırılması kitabxana işinin hərtərəfli genişlənməsinə səbəb olmuşdu. Kitabxana getdikcə öz işini genişləndirərək respublikamızın elmi mərkəzlərindən birən çevrilirdi.

1931-ci ildə kitabxanada olan 6 şöbədə (şərq, rus, Qərbi Avropa, xüsusi, xidmət və biblioqrafiya) 343.111 nüsxə kitab var idi ki, bunun da 25 min nüsxəsi rusca, 20.435 nüsxəsi Azərbaycanca, 3246 nüsxəsi gürcücə, 69.670 nüsxəsi isə başqa dillərdə idi. Azərbaycan dilində kitabların sayı 1928-ci ilə nisbətən 3 dəfədən çox artmışdı ki, bu da o dövrdə Azərbaycan dilində olan ədəbiyyata böyük tələbatla əlaqədar idi.[262]

Kitabxana fondunun artması ilə əlaqədar olaraq oxucuların sayı və kitab verilişi də durmadan çoxalırdı. 1928-ci ildə kitabxananın 3.193[263] nəfər oxucusu olmuş və onlara 35.848 kitab verilmişdisə, 1931-ci ildə oxucuların sayı 5638-ə, kitab verilişi isə 88.727 nüsxəyə çatmışdı. Verilən kitabların ancaq 9917 nüsxəsi bədii ədəbiyyat, yerdə qalanı isə elmi ədəbiyyat idi.[264]

1926-cı ildən başlayaraq kitabxanada elmi-metodik və elmi-biblioqrafik işin genişlənməsinə xüsusi diqqət yetirilirdi. Kitabxanada elmi və kütləvi kitabxanalara kömək etmək məqsədilə metodik mərkəz yaradılmağa başlamışdı. Kitabxananın biblioqrafiya şöbəsi 1927-ci ildən başlayaraq biblioqrafik göstəricilər, tövsiyə siyahıları tərtib edir və metodik məktublar hazırlayırdı. 1927-ci ildə kitabxana Şərqə aid «Şərq incəsənəti», «Şərqdə qadın hərəkatı», «Qafqaz xalqları haqqında» və s. biblioqrafik göstəricilər tərtib etmiş və «1917-1927-ci illərdə jurnal ədəbiyyatı», «1927-ci ildə Şərqə dair SSRİ-də çap edilmiş kitablar» və s. kimi irihəcmli biblioqrafiyalar hazırlamışdı.

Kitabxana 1932-ci ilin may ayında Bakı elmi kitabxanalarının yığıncağını keçirdi. Yığıncaqda müasir dövrdə elmi kitabxanaların qarşısında duran mühüm məsələlərə dair fikir mübadiləsi edildi və əsas vəzifələr müəyyənləşdirildi. Yığıncaq elmi kitabxanaların spesifikləşdirilməsini, SSRİ kitabxanaları ilə kitabxanalararası abonementin genişləndirilməsini, elmi kitabxanaların təsərrüfat işinin həllində geniş işə cəlb edilməsini, elmi-texniki kitabların yayılması işinin genişləndirilməsini və biblioqrafiya işinin hərtərəfli inkişaf etdirilməsini lazım bildi. Bakı şəhərindəki mövcud elmi kitabxanalara metodik cəhətdən kömək etmək və yığıncağın qarşıya qoyduğu vəzifələri yerinə yetirmək məqsədi ilə Dövlət Kitabxanasının yanında tövsiyə biblioqrafiya bürosu təşkil edildi. Kitabxana elmi kitabxanalara rəhbərlik etmək üçün xüsusi təlimatçı ayırdı. Kitabxananın yanında yaranmış tövsiyə biblioqrafiya bürosu gələcəkdə elmi-metodik və biblioqrafik işlərin hərtərəfli təşkilində iştirak etmək üçün geniş şərait yaradırdı.

Beləliklə, 1923-cü ildə fəaliyyətə başlayan (Kitabxana fəaliyyətə başlayarkən fondunda cəmi 20.441 nüsxə kitab var idi ki, bunun da cəmi 900 nüsxəsi Azərbaycan dilində idi) Azərbaycan Dövlət Ümumi Kitabxanası (Milli Kitabxana) olduqca qısa zaman kəsiyində, yəni 1920-ci illərin axırında 400 mindən artıq kitaba və olduqca zəngin və çoxsaylı dövri mətbuat fondu olan, Zaqafqaziyanın ən böyük kitabsaxlayıcısına, elm məbədinə, Azərbaycan milli kitabının qızıl fonduna çevrilmişdi.

Kitabxana oxuculara xidmət sahəsində də müəyyən uğurlar qazanmışdı. O, orta hesabla hər il 4000-ə qədər oxucuya xidmət etmiş, onlara ildə 40 min nüsxəyə yaxın kitab verən kitabxana yüksək ixtisaslı oxucuların, alimlərin, müəllimlərin, tələbələrin, bütün yaradıcı ziyalıların sevimli kitabxanasına çevrilmişdi. Kitabxananın oxucuları içərisində əhalinin bütün təbəqələrinin nümayəndələri vardı.

Kitabxana xalq maarifinin, mədəniyyətin, elmin, inc-

əsənətin inkişafında yaxından iştirak edir, xalq təsərrüfatının, elm və texnikanın bütün sahələrində çalışan mütəxəssislərin informasiya tələbatının ödənilməsinə xidmət göstərir, onların sorğularını təmin edirdi. Kitabxana oxuculara xidmət işini yüksək səviyyədə təşkil etmək üçün kitab fondunun müntəzəm olaraq komplektləşdirilməsinə, kataloqların təşkilinə, biblioqrafik xidmətin yaxşılaşdırılmasına daimi diqqət yetirirdi. Kitabxana öz fondunu elmi prinsiplərə əsaslanaraq idarə etmək, oxuculara xidmət işini daha da yaxşılaşdırmaq, oxucu sorğularını ödəmək üçün beynəlxalq təsnifat cədvəllərindən, xüsusilə Beynəlxalq Biblioqrafiya İnstitutunun Onluq Təsnifatından, əlifba göstəricilərindən istifadə edirdi. Kitabxana fondu dünya kitabxana təcrübəsinə müvafiq yaradılırdı. Kitabxananın ixtisaslı kadrlar hazırlamaq sahəsindəki fəaliyyəti də təqdirəlayiq idi.

Kitabxana həmçinin respublika kitabxanalarına metodik xidmətin təşkilini müvəffəqiyyətlə həyata keçirmək üçün geniş elmi-metodik işlər aparır, kitabxana işinin elmi problemlərinin həllində, kitabxanaşünaslığın inkişaf etdirilməsində də geniş fəaliyyət göstərirdi. Kitabxanada SSRİ və dünya xalqlarının 38 dilində kitabların toplanması kitabxananın ümumi milli və dövlət xarakterini xeyli artırırdı. Kitabxananın oxucuları da öz tərkibi etibarı ilə çoxmillətli idi. Oxucular sırasında azərbaycanlılarla yanaşı, ruslar, yəhudilər, gürcülər, tatarlar, ukraynalılar, özbəklər, qazaxlar, türkmənlər, Dağıstan xalqlarının nümayəndələri və başqaları var idi. Məhz buna görədir ki, kitabxananın 20-ci illərdəki fəaliyyəti respublika ictimaiyyətinin diqqət mərkəzində olmuş, ziyalıların böyük rəğbətini qazanmışdı.

§ 2.7.9. Ayrı-ayrı idarə və müəssisələrin kitabxanaları. Ordu kitabxanaları 20-ci illərdə

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının ilk günlərində və xalq təsərrüfatının bərpası dövründə orduda kitabxana işinin təşkilinə xüsusi diqqət yetirilirdi. Hökumət

ordu hissələrində mədəni-maarif işinin təşkilini, savadsızlığın ləğv edilməsini siyasi tərbiyə işinin və ordunun döyüş hazırlığının mühüm amillərindən biri hesab edirdi. Orduda aparılan kitabxana işi partiya-siyasi və mədəni-maarif işinin ayrılmaz tərkib hissələrindən biri idi.

Hökumət yeni yaranmış Azərbaycan diviziyasının əsgər və zabitlərinin siyasi hazırlığını gücləndirmək məqsədilə orduda aparılan mədəni-maarif və siyasi tərbiyə işinə xüsusi əhəmiyyət verirdi. Bu məqsədlə diviziyada kitabxanaların təşkilinə və onların Azərbaycan dilində ədəbiyyatla təmin edilməsinə başlanmışdı.

Məhz buna görədir ki, 1920-ci ilin avqust ayında Azərbaycan KP MK ordu kitabxanaları üçün kitab toplamaq məqsədilə «Kitab günü» keçirdi.[265]

Həmin gün zəhmətkeşlərdən 50 min nüsxə kitab toplanmış, xarici dillərdə olan kitablar, uşaq kitabları və dərsliklər Xalq Maarif Komissarlığına verilmiş, yerdə qalanları isə Ordu Siyasi İdarəsinə göndərilmişdi.[266] Bundan başqa, ayrı-ayrı idarə və müəssisələr də ordu kitabxanaları üçün kitab toplanması işinə xüsusi diqqət yetirirdi.

Bütün bu tədbirlərin nəticəsi olaraq get-gedə ordu kitabxanalarının şəbəkəsi genişlənir və sabitləşirdi. Böyük hissələrin və alayların yanında stasionar kitabxanalar, kiçik hissələrdə və bölmələrdə səyyar məntəqələr təşkil edilirdi.

1920-ci ilin oktyabr ayında Azərbaycan ordusunda 22 kitabxana və səyyar məntəqə var idi.[267] Xəzər hərbi donanmasında da kitabxanalar təşkil edilməyə başlanmışdı. Dənizçilərə xidmət etmək üçün sahildə mərkəzi kitabxana, həm də ayrı-ayrı hərbi gəmilərdə kiçik kitabxanalar təşkil edilmişdi.[268] Bu kitabxanaların işinə ordu siyasi idarələri rəhbərlik edirdi. Ordu kitabxanalarında işləyə biləcək ixtisaslı kitabxanaçı kadrların olmaması işin səmərəli təşkilinə mane olurdu. Burada işləmək üçün kitabxanaçı kadrların hazırlanmasına böyük ehtiyac hiss edilirdi. Bu ehtiyacı ödəmək məqsədilə 1920-ci ildə Maarif Komissarlığının məktəb-

dənkənar işlər şöbəsinin kitabxana yarımşöbəsi XI ordunun siyasi şöbəsi ilə birlikdə kitabxanaçılıq kursu təşkil etdi. Bu kursu 90 nəfər kitabxana işçisi bitirdi. Bunlardan 30 nəfəri ordu kitabxanaçıları idi. 15 nəfəri XI ordudan, 15 nəfəri Azərbaycan ordusundan idi.[269]

1921-ci ilin aprel ayında Azərbaycan SSR Ordu Siyasi İdarəsinin yanında kitabxanaçı kadrlar hazırlamaq üçün təşkil edilmiş seminarı 25 nəfər təcrübəli kitabxanaçı bitirmiş və kitabxanalara işə göndərilmişdi.[270]

1921-ci ildə respublikamızda Baş Siyasi-Maarif İdarəsi təşkil edildikdən sonra respublikada siyasi-maarif işinə rəhbərlik həmin idarədə mərkəzləşdirildi. Baş Siyasi-Maarif İdarəsi ordu siyasi şöbəsi ilə birlikdə ordu kitabxanalarının işinə də rəhbərlik edirdi. Eyni zamanda ordu siyasi şöbəsinin nümayəndəsi Baş Siyasi-Maarif İdarəsi kollegiyasının üzvü idi.

Ordu kitabxanaları müntəzəm olaraq kitabxana kollektoru tərəfindən komplektləşdirilirdi. Kollektor ordu kitabxanalarını həm də kitabxana texnikası ilə təchiz edirdi. Təkcə onu qeyd etmək kifayətdir ki, 1923-cü ilin iyun ayında Gəncə ətrafında yerləşən 2-ci Azərbaycan diviziyasına Kitabxana Kollektorundan 3336 nüsxə kitab, 600 kataloq kartoçkası, 823 kitab formulyarı, 1800 oxucu formulyarı, 38 plakat, 98 portret, 814 açıqca, 3 inventar kitabı göndərilmişdi.[271] Get-gedə ordu kitabxanalarının işi genişlənir, səyyar məntəqələrin təşkilinə xüsusi diqqət yetirilirdi. Ordu kitabxanaları əsgərlərlə yanaşı, yerləşdiyi şəhər və qəsəbələrdə zəhmətkeşlərə də mədəni xidmət edir, onları maraqlandıran məsələlərə dair suallara cavab verirdilər. Gəncədə yerləşən atıcı diviziyanın siyasi şöbəsinin 1923-cü il hesabatında deyilir ki, diviziyada kitabxana işi yaxşı təşkil edilmiş, kitablar onluq təsnifat əsasında düzülmüşdür. Kitabxanalar əsgərlərlə yanaşı, geniş zəhmətkeş kütlələri arasında da mədəni iş aparırdılar. Manevr zamanı 2-ci polk əhali arasında 20 kitab, 1700 qəzet, 2 jurnal, 12 divar qəzeti, 500 şüar, 15 plakat, birinci polk isə 1000 şüar və müraciətnamə yaymışdı.[272] Ordu siyasi şöbələri qəsəbə və kəndlərə mədəni hamilik göstərərək kitabxanalar və qiraət komaları açmaq, onları kitabla təchiz etmək işində də yaxından iştirak edirdi.

1920-ci ilin iyun ayında Xəzər dənizçiləri Keşlə qələbəsində zəhmətkeşlərə xidmət etmək üçün bir kitabxana-qiraətxana təşkil etmiş və onu ədəbiyyatla təchiz etmişdi.[273] Ordu siyasi şöbələri zəhmətkeşlər üçün kitabxanalar və qiraətxanalar təşkil etmək işini sonralar da davam etdirirdi.

1923-cü ildə Gəncədə yerləşən 2-ci atıcı diviziyanın siyasi şöbəsi şəhər ətrafındakı kəndlərdə 8 qiraət komaası təşkil etmişdi.[274] Ordu kitabxanaları əsgər və zabitlərin təhsil və tərbiyəsində, əsgərlər içərisində savadsızlığın ləğvi işində də yaxından iştirak edir, geniş kütləvi işlər aparırdı. Ancaq Azərbaycan milli diviziyalarında aparılan kitabxana işləri uzun sürmədi. 1922-ci ilin martında Zaqafqaziya Sovet Respublikalarının Federativ İttifaqının (ZSRFİ) və 1922-ci ilin dekabrında SSRİ-nin yaradılması ilə əlaqədar Azərbaycan SSR formal müstəqilliyini də itirdi və milli diviziyalar ləğv edildi. Bununla da Azərbaycan ordu kitabxanaları öz fəaliyyətini dayandırdı.

§ 2.7.10. Partiya kitabxanaları 20-ci illərdə

Sovet hakimiyyətinin ilk günlərindən başlayaraq Azərbaycanda dövlət və ictimai təşkilatların kitabxanaları ilə yanaşı, partiya kitabxanaları da təşkil edilməyə başlamışdı. Partiya kitabxanalarını təşkil etməkdə əsas məqsəd geniş zəhmətkeş kütlələrini, birinci növbədə partiya üzvlərini, təbliğatçı və təşviqatçıları, partiya işçilərini marksist-leninçi ədəbiyyatla təmin etməkdən, geniş partiya təbliğatını təşkil etməkdən ibarət idi.

Partiya kitabxanaları Azərbaycan KP MK və BK göstərişi ilə yerlərdə qəza və rayon partiya komitələri tərəfindən təşkil edilirdi. Partiya kitabxanalarının təşkili dövrün tələbatından doğan mühüm hadisələrdən biri olduğundan

Mərkəzi Komitə partiya kitabxanalarının təşkilinə xüsusi diqqət yetirir, onu kommunist təbliğatının mühüm məntəqələrindən biri hesab edirdi. Partiya kitabxanaları qarşısında sovet sosialist ideologiyasının təbliği vəzifəsi qoyulmuşdu.

1921-ci ildə Azərbaycan KP MK «Azərbaycan KP təşkilatlarında kitabxana işinin təşkili haqqında əsasnaməni» təsdiq etdi.[275] Bu əsasnamə partiya kitabxanalarının təşkili üçün əsas proqram olmaqla bərabər, ümumiyyətlə, respublikada partiya kitabxanalarının inkişafına böyük təkan verdi.

Əsasnamədə göstərilirdi ki, Azərbaycan KP təşkilatları yanında olan kitabxanaları birləşdirmək, onlara rəhbərlik etmək, ədəbiyyatla təchiz etmək, həm də bütün başqa idarə və təşkilatların kitabxanaları üzərində partiya nəzarətini gücləndirmək üçün Azərbaycan KP MK təbliğat-təşviqat şöbəsi yanında kitabxana yarımşöbəsi təşkil edilir. Bu əsasnaməyə görə, Azərbaycan KP MK və BK yanında mərkəzi partiya kitabxanası, qəza və rayon partiya komitələri yanında qəza və rayon partiya kitabxanaları və partiya özəkləri yanında özək partiya kitabxanaları və yaxud səyyar kitabxanalar təşkil edilməyə başlandı. Qəza, rayon və özək kitabxanaları Azərbaycan KP MK təbliğat-təşviqat şöbəsinin kitabxana yarımşöbəsi tərəfindən təchiz edilirdi. Yerlərdə kitabxana işinə rəhbərlik bilavasitə təbliğat-təşviqat şöbələri tərəfindən həyata keçirilirdi. Təbliğat-təşviqat şöbələri yerlərdə kitabxana işi aparan sovet, həmkarlar, hərbi təşkilatlar və ayrı-ayrı idarə və müəssisələrlə əlaqə saxlayır və bu təşkilatların işini əlaqələndirirdi. Qəza və rayon təbliğat və təşviqat şöbələri partiya kitabxanalarının fəaliyyəti haqqında hər ay Azərbaycan KP MK təbliğat-təşviqat şöbəsinin kitabxana yarımşöbəsinə hesabat verirdi.

Azərbaycan KP təşkilatları yanında kitabxanalar hələ 1920-ci ildən təşkil edilməyə başlanmışdı. Ayrı-ayrı partiya komitələri və partiya təşkilatları öz üzvləri arasında savadsızlığı və azsavadlılığı ləğv etmək, partiya maarifi işini

genişləndirmək, geniş kütləvi siyasi işi aparmaq üçün partiya kitabxanaları yaradırdı.

Partiya kitabxanalarının təşkili 1921-ci ildə təbliğat-təşviqat şöbəsi yanında kitabxana yarımşöbəsinin yaranması ilə əlaqədar olaraq genişlənməyə başladı. Kitabxana yarımşöbəsi bütün qəza və rayon partiya komitələri yanında kitabxanalar təşkil etməyə və mövcud kitabxanaları ədəbiyyatla komplektləşdirməyə başladı.

Kitabxana yarımşöbəsi 1921-ci ilin fevral ayında qəzalara 4190 kitab, 36580 kitabça, 11947 jurnal, 48419 qəzet, 650 plakat (cəmi 101786) göndərmişdi ki, bunlardan 63290 nüsxəsi rus, 32633 nüsxəsi Azərbaycan və s. dillərdə idi. Aprel ayında 9662 kitab, 50984 kitabça, 13004 jurnal, 96127 qəzet, 32.100 vərəqə, 2313 plakat göndərilmişdi.[276]

1921-ci ildən başlayaraq həm qəzalarda, həm də Bakı və onun rayonlarında partiya kitabxanalarının şəbəkəsi genişlənmişdi. Bütün qəza və rayon mərkəzlərində mərkəzi partiya kitabxanaları və böyük partiya özəkləri yanında özək partiya kitabxanaları fəaliyyət göstərirdi.

Qəza və rayonlara nisbətən Bakı və onun rayonlarında özək kitabxanaları daha geniş yayılmışdı. Demək olar ki, bütün partiya özəklərində kitabxanalar var idi. 1923-cü ildə çağırılmış XII Ümumbakı partiya konfransı özək partiya kitabxanalarının xüsusi əhəmiyyətini qeyd etdi və bütün özəklərdə kitabxanaların təşkil edilməsini lazım bildi. Konfrans qeyd edirdi ki, hazırda bütün özəklərin yanında partiya üzvlərinin öz hesabına kiçik kitabxanalar təşkil olunur. Partiya təşkilatları belə kitabxanalara maddi və ideya cəhətdən kömək etməlidir.[277]

1923-cü ildə Azərbaycan KP BK-nın yanında 1 mərkəzi partiya kitabxanası, 6 rayon kitabxanası, 115 özək kitabxanası var idi.[278] Rayon kitabxanaları get-gedə öz fondlarını zənginləşdirir və fəaliyyət sahəsini genişləndirirdi. Rayon partiya kitabxanalarının fondlarının təkmilləşməsi onların ətrafında oxucuların çoxalmasına səbəb olmuşdu.

1924-cü ildə Bakı rayonlarının partiya kitabxanalarında aşağıdakı miqdarda kitab və oxucu olmuşdur.[279]

	Kitabların miqdarı	Oxucuların sayı
Lenin rayonu	3500	300
Fabrik-zavod rayonu	3927	240
Bayıl rayonu	1180	105
Zavağzal rayonu	1177	225
Suraxanı rayonu	1200	115
Binəqədi rayonu	948	60

Rayon partiya kitabxanaları partiya üzvləri ilə yanaşı, geniş zəhmətkeş kütlələrinə də xidmət edirdi. Kitabxanalar partiya özəklərinin yanında və bəzi böyük müəssisələrdə səyyar kitabxanalar təşkil edirdi. Rayon partiya kitabxanaları bilavasitə rayon partiya komitələrinin rəhbərliyi altında fəaliyyət göstərir, partiya komitəsinin həyata keçirdiyi kütləvi tədbirlərdə yaxından iştirak edirdi.

Rayon partiya kitabxanaları Azərbaycan KP MK təbliğat-təşviqat şöbəsinin kitabxana yarımşöbəsi tərəfindən komplektləşdirilirdi. Kitabxanalara həm də Mosvkadan müntəzəm olaraq ədəbiyyat göndərilirdi. Təkcə 1923-cü ildə partiya kitabxanaları Moskvadan əsasən ictimai-siyasi ədəbiyyatdan ibarət olan 25.000 nüsxə kitab almışdı.[280]

1923-cü ildə kitabxana yarımşöbəsi partiya kitabxanalarına kitab almaq üçün bir nəfər təlimatçını Moskvaya ezam etmişdi. Bu təlimatçı həm kitabxanalar üçün kitab gətirmiş, həm də kitabxanaları Moskvada nəşr edilən mərkəzi qəzetlərə və 19 adda jurnala abunə yazdırmışdı. Bu zaman qəzalarda 17 partiya kitabxanası var idi. Moskvadan hər bir qəza kitabxanasına müxtəlif bilik sahəsinə aid olan 250 kitab gətirilmişdi. Qəza partiya kitabxanaları «Новая деревня», «Сельскохозяйственная жизнь» və s. jurnalları da alırdılar.[281]

Kitabxana yarımşöbəsi müntəzəm olaraq partiya kitabxanalarını respublika nəşriyyatları tərəfindən buraxı-

tabxanalarını respublika nəşriyyatları tərəfindən buraxılan kitablarla da təkmilləşdirirdi. O dövrdə fəaliyyət göstərən partiya kitabxanalarının mühüm tiplərindən biri də özək kitabxanaları idi. Özək kitabxanaları yerli partiya təşkilatlarının öz təşəbbüsü ilə partiya üzvlərinin öz hesablarına təşkil edilirdi. Özək kitabxanalarına qəza və rayon partiya komitələri tərəfindən ədəbiyyat göndərilməsinə baxmayaraq onlar əsasən iməciliklər, pullu gecələr və başqa vəsaitlər hesabına təkmilləşirdi. Qəza və rayonların böyük partiya özəklərində, Bakı və onun rayonlarının isə demək olar ki, bütün partiya özəklərində kiçik kitabxanalar var idi.

1923-cü ildə Bakı və onun rayonlarında 115 (Balaxanıda 38, Binəqədidə 2, Suraxanıda 4, Fabrik-zavodda 8, Zavağzalda 5, Bayılda 8, şəhərdə 50) özək kitabxanası var idi.[282]

Özək kitabxanaları geniş ədəbiyyat fonduna malik olmasa belə, kütlələrin, xüsusilə partiya üzvlərinin təhsil və tərbiyəsində yaxından iştirak edirdi.

1923-cü ildə Azərbaycan KP BK-nın Rəyasət Heyəti partiya kitabxanalarının Bakı Xalq Maarif Şöbəsinin kitabxana şöbəsinə daxil edilməsi haqqında qərar çıxardı və BXMŞ-ə partiya kitabxanalarına texniki və maddi cəhətdən kömək etməyi tapşırdı.[283] Bu gündən etibarən partiya kitabxanaları öz işlərini genişləndirərək kütləvi kitabxanaların işi ilə əlaqələndirməyə başladılar.

Partiya kitabxanaları içərisində Azərbaycan KP MK və BK-nın Mərkəzi Partiya Kitabxanası xüsusi yer tuturdu. Bu kitabxana 1920-ci ildə təşkil edilmişdi. Kitabxana 1921-ci ilin axırlarına qədər ancaq KP MK tərəfindən göndərilən ədəbiyyatla komplektləşdirilirdi.[284] 1922-ci ildən isə müntəzəm olaraq yerli ədəbiyyatla da komplektləşdirilməyə başladı. O, həm də Moskvada çıxan mərkəzi qəzet və jurnalları alırdı. Kitabxana öz fondunu təkcə yeni ədəbiyyatla və dövri mətbuatla təkmilləşdirməklə kifayətlənmir, inqilabdan əvvəl nəşr edilmiş kitabları, qəzet və jurnal komplektlərini topla-

mağa çalışır, xüsusilə inqilabdan əvvəl nəşr edilmiş marksist-leninçi ədəbiyyatın toplanılmasına xüsusi diqqət yetirirdi.

Əvvəllər ancaq məsul partiya işçilərinə xidmət edən bu kitabxana 1921-ci ilin axırlarından bütün partiya üzvlərinə, kursantlara, fəhlə fakültəsinin və sovet, partiya məktəblərinin dinləyicilərinə xidmət etməyə başlamışdı. Kitabxanada marksist dərnəklərinin üzvləri və rəhbərləri üçün ayrıca fond ayrılmışdı və vaxtaşırı olaraq onlara məsləhətlər təşkil edilirdi. Kitabxana dərnək rəhbərləri, təbliğatçı və təşviqatçılar üçün tövsiyə siyahıları və ədəbiyyat göstəriciləri də tərtib edirdi. 1923-cü ildə kitabxana «Partiya üzvünün kitab rəfi» adlı tövsiyə siyahısı tərtib etmişdi. Kitabxana səyyar kitabxanalar təşkil etmək işinə də xüsusi diqqət yetirir, işi zəif olan rayon partiya kitabxanalarına səyyar kitabxanalar göndərirdi.

Kitabxanada əsasən iki şöbə - rus və Azərbaycan şöbələri var idi. Daha zəngin kitab fonduna malik olan rus şöbəsi 1920-ci ildə təşkil edilmişdi. Bu şöbədə 1923-cü ildə 22 min nüsxə kitab var idi.[285] Bu şöbə öz qarşısında marksizm-leninizmə aid bütün ədəbiyyatı toplamaq məqsədi qoymuşdu.

Azərbaycan şöbəsi 1921-ci ildən təşkil edilmişdi. 1924-cü ildə bu şöbədə 400-dən artıq kitab var idi.[286] Şöbənin kitablarından Bakı partiya fəallarının xeyli hissəsi istifadə edirdi. Şöbə öz qarşısına azərbaycanca nəşr edilən bütün kitabları və dövri mətbuatı toplamaq vəzifəsi qoymuşdu.

Kitabxana get-gedə öz işini genişləndirirdi. 1925-ci ildə kitabxanada 35 min kitab və 2545 oxucu var idi, oxuculardan 524-ü azərbaycanlı, 1938-i rus, qalanı başqa millətlərdən idi. Hər gün qiraətxanaya 150-dən artıq oxucu gəlirdi.[287] Kitabxana təkcə oxuculara kitab verməklə kifayətlənmir, geniş kütləvi işlər aparırdı. Kitabxanada kitabların müzakirəsi keçirilir, kitab sərgiləri təşkil edilir, dərnəklər aparılırdı. Bütün kütləvi işlər o dövrdə partiya və hökumətin həyata keçirdiyi tədbirlərlə əlaqələndirilirdi.

Sovet hakimiyyətinin ilk günlərindən partiya kitabxanaları geniş mədəni tədbirlər həyata keçirməyə başlamışdı. Partiya kitabxanaları partiya üzvlərinin savadsızlığını və azsavadlılığı ləğv etməkdə yaxından iştirak edir, partiya maarifinin genişlənməsinə, marksist-leninçi ədəbiyyatın yayılmasına kömək edirdi. Bərpa illərində partiya kitabxanaları partiya üzvləri ilə yanaşı, geniş zəhmətkeş kütlələrinə də xidmət edirdi. Partiya kitabxanaları yerlərdə partiya təbliğat məntəqələrindən birinə çevrilmişdi.

20-ci illərin ikinci yarısından başlayaraq partiya təşkilatlarının kitabxana şəbəkəsi sabitləşmişdi. Artıq bütün şəhər, qəza və rayon partiya komitələrinin yanında kiçik partiya kitabxanaları fəaliyyət göstərirdi. Partiya kitabxanalarına partiya komitələrinin təbliğat-təşviqat şöbələri rəhbərlik edirdi. O dövrdə partiya komitələrinin böyük təbliğatçılar və təşviqatçılar qrupu var idi. Bu qrupun üzvləri partiya kitabxanalarının daimi oxucuları olmaqla bərabər, həm də kitabxana işinin təşkilində, formalaşmasında, yeni ədəbiyyatla, təbliğat materialları ilə komplektləşdirilməsində yaxından iştirak edirdilər. Onlar partiya kitabxanalarında geniş kütləvi işlərin təşkilində və kitab sərgilərinin, siyasi mühazirələrin aparılmasında da təbliğatçı və təşviqatçılar kimi fəallıq göstərirdilər.

Partiya kitabxanaları sözün əsl mənasında partiya ədəbiyyatının, kommunist ideologiyasının təbliğat mərkəzinə çevrilmişdi. Diqqəti cəlb edən cəhətlərdən biri də partiya kitabxanalarının fondunun getdikcə zənginləşməsi idi. Partiya kitabxanalarında ictimai-siyasi və partiya ədəbiyyatının zəngin fondu yaranmışdı.

Beləliklə, 20-ci illərin axırlarında Azərbaycan partiya təşkilatının minlərlə kitab fonduna və təbliğat materiallarına malik olan 100-ə yaxın kitabxanası var idi. Bu kitabxanaların fəaliyyəti həmişə partiya təşkilatlarının diqqət mərkəzində idi. Partiya təşkilatları bu kitabxanalardan təbliğat və təşviqat işində ideoloji mərkəz kimi istifadə edirdi.

§ 2.7.11. Azərbaycan Həmkarlar İttifaqı kitabxanaları 20-ci illərdə

Sovet hakimiyyətinin ilk illərində hökumət dövlət kitabxana şəbəkəsi ilə yanaşı, nazirliklərin, ayrı-ayrı idarə və müəssisələrin, həmçinin ictimai təşkilatların kitabxana şəbəkələrinin təşkilinə də diqqət yetirirdi. Respublikamızda hələ XX əsrin əvvəllərində yaranmış Azərbaycan Həmkarlar İttifaqı təşkilatları Sovet hakimiyyətinin ilk günlərindən öz fəaliyyətini bərpa etmişdi. Artıq 1920-ci ilin iyun ayında 24 həmkarlar ittifaqı təşkilatı fəaliyyət göstərirdi. Həmkarlar təşkilatlarının əksəriyyəti şəhərlərdə olduğundan 1920-ci ilin ikinci yarısından respublikanın kənd rayonlarında da həmkarlar ittifaqı yaranmağa başladı. Gəncədə, Lənkəranda, Gədəbəydə, Ağdaşda, Göyçayda, Zaqatalada, Qazaxda, Nuxada (Şəkidə), Salyanda, Şəmkirdə və s. həmkarlar ittifaqı təşkilatları fəaliyyətə başladı. 1920-ci ilin noyabrında 24 həmkarlar təşkilatının 109 min üzvü var idi.

Yeni yaranmış həmkarlar ittifaqlarının fəaliyyətində əhalinin mədəni inkişafına kömək etmək, siyasi-maarif ocaqları, kitabxanalar təşkil etmək mühüm yer tuturdu.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində həmkarlar təşkilatı kitabxanalarının geniş şəbəkəsi yaranmağa başladı. Fəhlə sinfinin ən kütləvi təşkilatı olan Həmkarlar İttifaqı ölkənin ictimai-siyasi, təsərrüfat və mədəni həyatında yaxından iştirak edirdi. Bu dövrdə həmkarlar təşkilatlarının qarşısında Sovet dövlətini möhkəmlətmək, əməyə sosialist münasibəti tərbiyə etmək, ciddi əmək intizamı yaratmaq, zəhmətkeşləri sosializm quruculuğu işinə səfərbər etmək kimi çox mühüm vəzifələr dururdu. Bu vəzifələrin öhdəsindən gəlmək üçün hər şeydən əvvəl fəhlələrin yüksək şüurluluğu, partiya və hökumət tərəfindən həyata keçirilən inqilabi tədbirlərin ardıcıl izah edilməsi zəruri idi. Bütün bunlar həmkarlar təşkilatlarının qarşısında zəhmətkeşlərin təhsil və tərbiyəsinə xidmət edəcək mədəni-maarif müəssisələrinin geniş şəbəkəsini yaratmaq vəzifəsini qoyurdu.

Azərbaycan Həmkarlar Təşkilatı bütün zavod və fabriklərdə mədəni-maarif müəssisələri: klublar, kitabxanalar, qiraətxanalar, mədəniyyət evləri təşkil etməyə çalışır, savadsızlığı ləğv məntəqələri, ixtisas kursları təşkil edirdi.

1920-ci ilin sentyabr ayında çağırılan Azərbaycan Həmkarlar İttifaqının I qurultayı fəhlələr arasında mədəni-maarif işinin genişləndirilməsində həmkarlar təşkilatlarının yaxından iştirakını zəruri hesab etdi və yerlərdə bu işin səmərəli təşkili üçün hazırlıqlı kadrlar ezam edilməsini lazım bildi.[288]

1920-ci ildən başlayaraq həmkarlar təşkilatlarının kitabxana şəbəkəsi genişlənməyə başlamışdı. Həmkarlar təşkilatı kitabxanaları əsasən fabriklərin, zavodların, klubların və xalq evlərinin yanında təşkil edilirdi. Həmkarlar təşkilatları bütün fabrik və zavodların, idarə və müəssisələrin yanında kitabxanalar təşkil etməyə çalışdığından, çox az kitaba malik və geniş mədəni-kütləvi iş aparmağa qadir olmayan kiçik kitabxanalar meydana çıxmışdı. Respublikada kitabın azlığı və kitabxanalarda işləyə biləcək savadlı kadrların olmaması belə kitabxanalarda işi genişləndirməyə, geniş siyasi və mədəni iş aparmağa imkan vermirdi.

1921-ci ildə keçirilən Azərbaycan Həmkarlar İttifaqının II qurultayı həmkarlar ittifaqının mədəni fəaliyyətinə geniş diqqət yetirdi. Qurultay qeyd etdi ki, fəhlələrin mədəni cəhətdən inkişaf etdirilməsi, fəhlələr içərisində hökm sürən savadsızlığın ləğv edilməsi işində həmkarlar təşkilatları yaxından iştirak etməlidir.

Fəhlələrin təhsil və tərbiyəsində, onların texniki biliklərə yiyələnməsində xüsusi rol oynayan kitabxanaların yenidən təşkili məsələsini mühüm işlərdən biri kimi qiymətləndirən qurultay kitabxana işinə dair xüsusi qərar qəbul etdi.[289] Qərarda göstərilirdi ki, qurultay həmkarlar ittifaqlarının kitabxana işi sahəsindəki böyük müvəffəqiyyətini qeyd edərək, kitabxana və səyyar kitabxanalar şəbəkəsinin zəhmətkeşlərin tələbatı və maliyyə imkanı ilə əlaqədar genişləndirilməsi-

ni zəruri hesab edir, müəssisələrdə pərakəndə halda olan kiçik kitabxanaların saxlanmasını məqsədəuyğun saymır və onların səyyar kitabxanalarla əvəzlənməsini qərara alır. Qurultay eyni zamanda kitabxanaların qarşısında zəhmətkeşlərin təhsil və tərbiyəsində yaxından iştirak etmək, kitabı yaymaq, geniş kütləvi işlər aparmaq kimi mühüm vəzifələr qoymuşdu. Qurultay həm də azərbaycanlı fəhlələr içərisində geniş mədəni-kütləvi iş aparmaq üçün kitabxanaların azərbaycanca kitablarla və hazırlıqlı azərbaycanlı kadrlarla təmin edilməsini lazım bildi. Bu qərarların yerinə yetirilməsinin nəticəsi olaraq həmkarlar ittifaqının kitabxana şəbəkəsi xeyli sabitləşdi. Kitabxanaların sayının azalmasına baxmayaraq, kitabxana işi yaxşılaşdı, fəhlələr arasında kitab təbliği işi qaydaya düşdü.

1922-ci ildən həmkarlar ittifaqı kitabxanalarının şəbəkəsi genişlənməyə başladı. Balaxanıda, Zabratda, Bibiheybətdə, Ləkidə, Yalamada, Bakıda İaşəçilər Klubu yanında, Ramanada, Suraxanıda, Bakı Çapçılar İttifaqı yanında, Pirallahı adasında, Naxçıvanda və s. fəhlə klubları yanında kitabxanalar təşkil edilmişdi.

Yeni iqtisadi siyasət dövründə müəyyən çətinliklərə baxmayaraq, Azərbaycan Həmkarlar İttifaqı kitabxana işini genişləndirmək üçün müntəzəm olaraq vəsait ayırırdı. Kitabxanalar yeni iqtisadi siyasətin əsas müddəalarını və mahiyyətini fəhlələr arasında geniş surətdə izah edirdi. Yeni iqtisadi siyasət həmkarlar təşkilatlarının qarşısında fəhlələrə istehsalatın bütün sahələrini öyrətmək, onların texnikaya yiyələnməsini təmin etmək kimi çox mühüm vəzifə qoymuşdu. Bu vəzifənin yerinə yetirilməsində kitabxanalar yaxından iştirak edir, təsərrüfatın bütün sahələrinə dair ədəbiyyatı təbliğ edir, texniki dərnəklər təşkil edirdi.

Kitabxana işinə rəhbərlik etmək üçün Azərbaycan Həmkarlar İttifaqı Mərkəzi Şurası mədəniyyət komissiyasının yanında kitabxana komissiyası təşkil edilmişdi. Bu komissiya kitabxanalara həm təşkilati, həm də metodik cəhət-

dən rəhbərlik edirdi. Həmçinin kitabxanaların komplektləşdirilməsində, vəsaitlə təchiz edilməsində yaxından iştirak edir və kitabxanaçıların metodik müşavirəsini keçirirdi.

Bərpa illərinin sonlarından başlayaraq həmkarlar ittifaqının kitabxana şəbəkəsi sabitləşmiş və keyfiyyətcə yaxşılaşmışdı. 1925-ci il aprelin 30-da Bakı Soveti İcraiyyə Komitəsi Bakı şəhərinin Fabrik-zavod rayonunda və mədənlərdə olan 20 kitabxana və 8 səyyar məntəqənin dağ-mədən fəhlələrinin həmkarlar ittifaqına verilməsi haqqında əmr verdi. Bu əmrlə kitabxanalar bütün inventarı və vəsaitləri ilə ittifaqın ixtiyarına keçirdi. İttifaq kitabxanalardan istədiyi kimi istifadə edə bilərdi. Ancaq kitabxanaları başqa rayonlara aparmağa icazə verilmirdi. İttifaq kitabxanalara vəsait ayırmalı, müntəzəm olaraq komplektləşdirməli idi. Əks halda, Bakı Siyasi-Maarif İdarəsi kitabxanaları geri almaq hüququnu özündə saxlamışdı.

Göstərilən kitabxanaların həmkarlar təşkilatına verilməsi ilə əlaqədar olaraq həmkarlar ittifaqı kitabxanalarının sayı iki dəfə artdı. 1925-ci ilin axırında respublikanın 15 həmkarlar təşkilatında 40 kitabxana və bu kitabxanalarda 228721 kitab var idi. Bu kitabxanalar 24167 oxucuya xidmət edirdi.

Ölkənin sosialistcəsinə sənayeləşdirilməsi və birinci sosialist beşillik planın həyata keçirilməsi illərində respublikamızda dövlət kitabxana şəbəkəsi ilə yanaşı, ayrı-ayrı təşkilatların, idarə və müəssisələrin kitabxana şəbəkələri də fəaliyyət göstərməkdə idi. Belə kitabxanalar içərisində həmkarlar təşkilatlarının kitabxana şəbəkəsi çox mühüm rol oynayırdı. Ölkəmizdə ən kütləvi fəhlə təşkilatı olan həmkarlar təşkilatı respublikanın ictimai-siyasi və mədəni həyatında yaxından iştirak edirdi.

Həmkarlar təşkilatları fəhlə və qulluqçuların ideya-siyasi və mədəni səviyyəsinin yüksəldilməsinə kömək etməklə ölkəmizin daha da möhkəmlənməsinə, xalq təsərrüfatının və mədəniyyətin daha da inkişafına xidmət edirdi. Həmkarlar

təşkilatlarının həyata keçirdiyi mədəni və kütləvi tədbirlərdə həmkarlar ittifaqı kitabxanaları yaxından iştirak edirdi.

Ölkədə xalq təsərrüfatının sənayeləşməsi və birinci beşilliyin yerinə yetirilməsi Azərbaycan zəhmətkeşlərinin qarşısında çox mühüm vəzifə qoymuşdu. Xalq təsərrüfatının durmadan artan tələbatını ödəmək və ölkənin müdafiə işini möhkəmləndirmək üçün neft çıxarılması işini artırmaq lazım idi. Bütün bunlar Azərbaycan Həmkarlar İttifaqlarının qarşısında neft sənayesinin inkişafında yaxından iştirak etmək vəzifəsini qoymuşdur.

Bu dövrdə Həmkarlar İttifaqları respublikamızın ən güclü təşkilatlarından biri idi. 1926-cı ilin martında Azərbaycan Həmkarlar İttifaqlarının 185.758 nəfər üzvü vardı. Bunlardan 57 min nəfəri Azərbaycanın qəzalarında idi. Həmkarlar fəallarının sayı 20 min nəfərə çatmışdı.[290]

Bərpa illərinin axırlarında respublikamızda həmkarlar ittifaqlarının kitabxana şəbəkəsi xeyli genişlənmiş, kitabxana işi sabitləşmişdi. Azərbaycan Həmkarlar İttifaqları Mərkəzi Şurası birinci beşilliyin axırına bütün böyük fabriklərdə, zavodlarda və mədənlərdə daimi kitabxanalar və səyyar məntəqələr təşkil etməyi öz qarşısına bir vəzifə olaraq qoymuşdu. Həmkarlar ittifaqı kitabxanalarına rəhbərlik etmək üçün Həmkarlar İttifaqı Mərkəzi Şurası yanında Mədəni Komissiya yaradılmışdı. Bu komissiyanın əsas məqsədi həmkarlar ittifaqı üzvləri arasında mədəni-maarif işi aparmaqdan, zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəldilməsində yaxından iştirak etməkdən ibarət idi. Komissiyanın yanında geniş zəhmətkeş kütlələri arasında kitab təbliği işini təşkil etmək və kitabxana işinə rəhbərlik etmək üçün kitabxana bürosu yaradılmışdı. Kitabxana bürosu öz işlərini bilavasitə Bakı şəhər kitabxana birləşməsi ilə əlaqəli şəkildə həyata keçirirdi. Kitabxana bürosu vaxtaşırı büro iclasları keçirir, oxucu konfransları, oxucu yığıncaqları təşkil edir və geniş metodik iş aparırdı.[291]

1926-cı ildə həmkarlar ittifaqının 41 kitabxanası var-

dı. Kitabxanalarda 267005 kitab toplanmışdı. Bu kitabların 35661 nüsxəsi Azərbaycan, 2573 nüsxəsi tatar, yerdə qalanları isə rus və başqa dillərdə idi. Kitabxanalardan 27913 nəfər, səyyar məntəqələrdən isə 1207 nəfər oxucu istifadə edirdi. Bir ildə oxuculara abonementdən 215715 nüsxə, səyyar məntəqələrdən 18351 nüsxə, qiraətxanalardan 8355 nüsxə kitab verilmişdi.[292] Bundan başqa 1926-cı ildə həmkarlar ittifaqları zavodlarda, fabriklərdə və mədənlərdə oxuculara xidmət məqsədi ilə 11 kitab bazası təşkil etmişdi. Bu bazalardan 8-i dağ-mədən fəhlələri ittifaqına, 1-i metalçılar ittifaqına, 1-i nəqliyyatçılar ittifaqına, 1-i tibb-səhiyyə ittifaqına məxsus idi. Bu bazalarda 40765 nüsxə kitab var idi. Bazalar 163 səyyar məntəqə təşkil etmişdi və onlar 6094 oxucuya xidmət edirdilər.[293]

Həmkarlar ittifaqı kitabxanaları ittifaqının üzvləri ilə yanaşı onların ailələrinə də xidmət edirdi. Kitabxanaların yanında uşaq şöbələri də təşkil edilmişdi. Belə şöbələr bilavasitə uşaq kitabxanaları və məktəblərlə əlaqə saxlayır, uşaqlar arasında geniş kütləvi tədbirlər həyata keçirirdi.

Azərbaycan Həmkarlar İttifaqları kitabxana işinin təşkilinə xüsusi diqqət yetirirdi. 1926-cı ilin martında çağırılmış Azərbaycan Həmkarlar İttifaqlarının V qurultayı və 1928-ci ilin martında çağırılmış VI qurultayı həmkarlar ittifaqlarının mədəni-maarif işinə xüsusi diqqət yetirdi. Hər iki qurultay ittifaqların qarşısında mədəni-maarif müəssisələri şəbəkəsini genişləndirmək və onların işinə xüsusi diqqət yetirmək kimi çox mühüm vəzifə qoydu. VI qurultayın qərarında göstərilirdi ki, mədəni-tərbiyə işini və həmkarlar ittifaqı üzvlərinin beynəlmiləl tərbiyə işini yaxşılaşdırmaq üçün klub və kitabxana şəbəkələrini genişləndirmək lazımdır.[294]

Respublikamızda sənayeləşmə işinin müvəffəqiyyətli gedişi nəticəsində yeni sənaye müəssisələri, fabriklər, zavodlar və s. müəssisələr meydana gəlir, böyük tikinti işi aparılırdı. Bununla əlaqədar olaraq yeni tikintilərdə, fabrik və zavodlarda mədəni-maarif müəssisələri şəbəkəsi, o cümlədən

kitabxana şəbəkəsi genişlənirdi. Bu dövrdə həmkarlar ittifaqı yeni təşkil edilmiş müəssisələrdə və yeni tikintilərdə səyyar müəssisələrin təşkilinə xüsusi diqqət yetirirdi. Təkcə bunu qeyd etmək kifayətdir ki, həmkarlar ittifaqının 1929-cu ildə mövcud olan 41 kitabxanasından 30-nu səyyar məntəqələr təşkil etmiş, səyyar məntəqələrin və kitab gəzdirmə məntəqələrinin sayı 450-yə çatmışdı.[295]

1929-cu ildə Azərbaycan Həmkarlar İttifaqlarının 40 kitabxanası var idi. Bu kitabxanaların fondunda 470 min nüsxə kitab toplanmışdı. Bu kitablardan 98700 nüsxəsi Azərbaycan dilində idi və 56 min oxucuya xidmət edirdi. Oxucuların 12880 nəfəri azərbaycanlılar idi. Bir il müddətində oxuculara 1 milyon 217 min nüsxə kitab verilmişdi. Beləliklə, kitab fondu 2 dəfə yarıma qədər dövr etmiş, bir ildə hər oxucuya orta hesabla 20 kitab verilmişdi. Bu rəqəmlərdən məlum olur ki, 1926-cı ilə nisbətən kitabxanaların miqdarı sabit qaldığı halda kitabxana fondu və oxucuların sayı 2 dəfəyə qədər artmış, kitab dövriyyəsi bir neçə dəfə çoxalmışdı.[296] Azərbaycan dilində kitabların sayı 2 dəfə yarımdan çox artmışdı.[297] Təkcə 1929-cu ildə 1928-ci ilə nisbətən azərbaycanca kitabların sayı 20%, oxucuların sayı isə 28% artmışdı. Oxucuların sayı əsasən fəhlələrin hesabına artırdı. Ayrı-ayrı zavod və fabriklərdə və yeni tikintilərdə səyyar məntəqələrin, kitab gəzdirmə işinin təşkil edilməsi yeni fəhlə oxucuların cəlb edilməsi üçün hərtərəfli şərait yaradırdı.[298]

Bu dövrdə Həmkarlar İttifaqı Mərkəzi Şurası və ayrı-ayrı oxucular tərəfindən oxucu konfransları keçirilirdi. Azərbaycan Həmkarlar İttifaqları kitabxanalarının ittifaqlararası oxucu konfransları 1926-cı ildən çağırılmağa başlamışdı. Həmkarlar ittifaqı kitabxanaları oxucularının Ümumbakı konfransları Həmkarlar İttifaqı Mərkəzi Şurasının mədəni komissiyası yanında olan kitabxanaçılıq bölməsi tərəfindən keçirilirdi. Ümumbakı oxucu konfransları öz məqsəd və vəzifələrinə görə ayrı-ayrı kitabxanalarda keçirilən oxucu konfranslarından fərqlənirdi. Belə konfranslarda kitabxana quruculuğu məsələləri, kitabxana işinin prinsip və vəzifələri, metodikası, oxuculara xidmət qaydaları, kitabxanaların iş planları müzakirə edilirdi və kitabxana işinin perspektiv planları hazırlanırdı.

Həmkarlar ittifaqı kitabxanaları oxucularının birinci Ümumbakı konfransı 1926-cı, ikinci konfransı 1927-ci ildə keçirildi. Hər iki konfrans ölkənin sosialistcəsinə sənayeləşdirilməsi işində yaxından iştirak etmək üçün geniş tədbirlər hazırladı və bu işdə kitabxanaların vəzifələrini müəyyənləşdirdi. Həm də həmkarlar ittifaqı kitab nəşriyyatı işində bir sıra nöqsanın, xüsusilə Azərbaycan dilində kitabların, elmi populyar kitabların, fəhlə peşələrinə dair kənd təsərrüfatına aid kitabların az nəşr edilməsi qeyd edilir və gələcəkdə fəhlələrin oxuya biləcəyi elmi-kütləvi, təsərrüfat-texniki, müxtəlif sənət sahələrinə aid kitabların nəşrinə xüsusi diqqət yetirilməsi lazım bilinirdi.[299]

1929-cu ilin may ayında həmkarlar ittifaqı kitabxana oxucularının IV Ümumbakı konfransı keçirildi.[300] Konfransda həmkarlar təşkilatı tərəfindən həyata keçirilən işlərə yekun vuruldu və gələcəkdə kitabxana işinin hərtərəfli yaxşılaşdırılması tədbirləri müəyyənləşdirildi. Konfrans kitabxanaların qarşısında 1930-cu ildə oxucuların sayını 56 min nəfərdən 65 min nəfərə, kitab verilişini isə bir milyondan bir milyon yarım nüsxəyə çatdırmağı, ictimai-siyasi və sənətə dair kitab verilişini 20%-ə qədər, təsərrüfat texniki ədəbiyyata dair kitab verilişini 30%-ə qədər artırmağı mühüm bir vəzifə kimi qarşıya qoydu.[301]

Azərbaycan Həmkarlar İttifaqları Mərkəzi Şurası mədəni komissiyanın kitabxanaçılıq bölməsi Bakı həmkarlar ittifaqı kitabxana işçilərinin vaxtaşırı ümumi iclaslarını da keçirirdi. Kitabxana işçilərinin ümumi iclasında kitabxana işinin əsas vəzifələri, gələcək metodik işləri müzakirə edilir, kitabxanaların iş təcrübələri ümumiləşdirilir, qabaqcıl kitabxanaların iş təcrübələri geniş surətdə təbliğ edilirdi.[302]

Bu dövrdə həmkarlar ittifaqı kitabxanaları üçün mütəxəssis kitabxanaçı kadrlar hazırlanması məsələsi də dövrün mühüm məsələlərindən biri kimi qarşıda dururdu. Kitabxanaçı kadrlar bu dövrdə əsasən ÜİHİMŞ tərəfindən Moskvada və Leninqradda (Sankt-Peterburqda) təşkil edilən kurslarda hazırlanırdı. AHİMŞ mədəni komissiyanın kitabxana bölməsi də kitabxanaçı kadrlar hazırlanması işinə xüsusi diqqət yetirirdi. Kitabxana bürosu 1928-ci ilin dekabrında və 1929-cu ilin əvvəllərində həmkarlar ittifaqı kitabxanaçıları üçün Azərbaycan dilində kurs təşkil etməyi lazım bildi.[303] 1929-cu ildə AHİMŞ kitabxanaçılıq kursu təşkil etmək haqqında göstəriş verdi.

Həmkarlar ittifaqı kitabxanaları o dövrdə həyata keçirilən bütün tədbirlərdə yaxından iştirak edirdi. 1928-1930-cu illərdə həmkarlar ittifaqı kitabxanaları respublikada həyata keçirilən mədəni yürüşün məqsəd və vəzifələrini izah etmək üçün geniş təbliğat işi aparırdı. Kitabxanalar eyni zamanda savadsızlığı ləğv məntəqələri təşkil edir və savadsızlığını yenicə ləğv etmiş fəhlələri kitabxana oxucuları sırasına cəlb edirdi. Həm də kitabxanalar başqa müəssisələr tərəfindən təşkil edilmiş savadsızlığı ləğv məntəqələrinə hər cür vasitələrlə, xüsusilə savadsızlığını yenicə ləğv etmiş fəhlələr arasında kitabı yaymaq yolu ilə kömək edirdi. Kitab fondları təkmilləşdirilərkən savadsızlığını yenicə ləğv etmiş oxucular üçün kitab almaq işinə də xüsusi diqqət yetirilirdi.

1929-cu ildə respublikamızda həyata keçirilən kitabxana yürüşü həmkarlar ittifaqı kitabxanalarının işinə çox müsbət təsir göstərdi. «Kitabxana yürüşü»nü mütəşəkkil təşkil etmək geniş zəhmətkeş kütlələrini, xüsusilə ziyalıları həmkarlar ittifaqı kitabxanalarının işinə cəlb etmək məqsədi ilə AHİMŞ mədəni komissiyası bir sıra tədbirlər həyata keçirməyə başladı.[304]

Kitabxana yürüşünü mütəşəkkil təşkil etmək məqsədi ilə kitabxana bölməsinin yanında şəhər, okruq və rayon seksiyaları yaradıldı. Bu seksiyaların əsas məqsədi kitabxana

işini yaxşılaşdırmaq, kitabxanaların iş təcrübələrini ümumiləşdirmək və qabaqcıl kitabxanaların iş təcrübəsini yaymaq üçün tədbirlər hazırlamaqdan ibarət idi. 1928-ci ildə mədəni komissiyanın göstərişi ilə həmkarlar ittifaqı kitabxanaları yoxlamağa başladı. Bu yoxlamalarda əsas məqsəd kitabxanaların işində olan mövcud nöqsanları meydana çıxarıb aradan qaldırmaq idi.

1930-cu ilin mart ayında kitabxana hərəkatı okruq seksiyasının yığıncağı keçirildi. Bu yığıncaqda Bakı şəhəri və onun rayonlarının kitabxana işçiləri iştirak edirdi. Yığıncaq kitabxanalarda aparılan yoxlamaların nəticələrini müzakirə etdi və mövcud nöqsanların aradan qaldırılması haqqında göstəriş verdi.[305]

Ölkənin sənayeləşdirilməsi və birinci beşillik dövründə həmkarlar ittifaqı kitabxanaları geniş mədəni və kütləvi tədbirlər də həyata keçirirdi. Bu kütləvi tədbirlər ölkənin sənayeləşdirilməsi və birinci sosialist beşilliyi planının vəzifələri ilə bilavasitə əlaqədar idi. Kitabxanalar oxucu konfransları, ədəbi-bədii gecələr, mühazirələr, məruzələr, kitab sərgiləri, kitabxana plakatları, oxucu dərnəkləri və s. kimi kütləvi tədbirlər vasitəsi ilə sənayeləşmənin, birinci beşillik planın əsas vəzifələrini izah edir və zəhmətkeşləri bu mühüm vəzifələrin həyata keçrilməsi işində səfərbərliyə alırdı. Bu dövrdə həmkarlar ittifaqı kitabxanalarında aparılan iş bilavasitə partiya orqanlarının rəhbərliyi altında həyata keçirilirdi.

1932-ci ilin dekabrında Azərbaycan Həmkarlar İttifaqı Mərkəzi Şurası «Həmkarlar ittifaqı kitabxanalarının işi haqqında» geniş qərar qəbul etdi. Bu qərarda həmkarlar ittifaqı orqanlarının kitabxana işi sahəsində əldə etdiyi müvəffəqiyyətlər qeyd edilir və işdə olan nöqsanlar göstərilirdi. Qərarda qeyd edilirdi ki, fəhlə sinfinin kitaba olan tələbatının ödənilməsi həmkarlar ittifaqı mədəni-maarif işinin birinci növbəli və ən mühüm vəzifələrindən biri olmalıdır. 1930-cu illə müqayisə edildikdə, həmkarlar ittifaqı kitabxa-

nalarının bir sıra müvəffəqiyyətləri vardır:

a) Sosialist quruculuğunda, sənaye maliyyə planı uğrunda mübarizədə, fəhlələrin, kəndlilərin, kolxozçuların texnikaya yiyələnməsi işində kitabxanaların iştirakı əhəmiyyətli dərəcədə artmış, kitabxanaların yeni metodları (kitabxana estafeti), kitabla aparılan mühüm kütləvi işlər (konfranslar, texniki-siyasi yürüş, viktorinalar) – bütün bunlar daha artıq kitabxana işləri sisteminə daxil olmuşdur;

b) Kitab verilişinin ümumi miqdarına nisbətən texniki kitabların oxunması 15-20%-ə, ictimai-siyasi kitabların oxunması isə 25%-ə çatmışdır. Sənaye və nəqliyyatda işləyən fəhlələrin kitabxana işi ilə əhatə olunması 30%-dən 45%-dək artmışdır. Kitabxana oxucularının sayı 45000-dən 76863 nəfərə, səyyar kitabxanaların sayı isə 356-dan 1056-ya çatdırılmışdır.[306]

Azərbaycan Həmkarlar İttifaqı Mərkəzi Şurası həmkarlar ittifaqı kitabxanalarının işində olan mövcud nöqsanları aradan qaldırmaq, kitabxana işini dövrün tələblərinə uyğunlaşdırmaq üçün geniş tədbirlər görülməsini tələb edirdi. Bu məsələ ilə əlaqədar olaraq qərarda göstərilirdi:

1)Bütün Həmkarlar İttifaqları Mərkəzi Komitələrinə təklif olunur ki, bütün sənaye müəssisələrini kitabxanalarla (stasionar və səyyar) əhatə etsinlər, fəhlələrin 50%-ni, o cümlədən mühüm obyektlərin fəhlələrinin 75%-ni kitab oxumaq işinə cəlb etsinlər.

2)Bütün həmkarlar ittifaqları Mərkəzi Komitələrinə təklif olunur ki, 1933-cü il yanvarın 1-dən 600 nəfərdən az fəhləsi olmayan sənaye müəssisələrində bir qayda olaraq kitabxanalar, sexlərdə isə kitabxanaların filiallarını təşkil etsinlər, sex kitabxanalarında işləmək üçün fəallar ayırsınlar.

3)Bütün həmkarlar ittifaqları Mərkəzi Komitələrinə tapşırılsın ki, 1933-cü il yanvarın 1-dən gec olmayaraq müəssisələrdə olan kitabxanaların yanında azlıqda qalan millətlər üçün milli ədəbiyyat şöbələri təşkil etsinlər. Bu şöbələrdə işləmək üçün fəhlələrdən fəallar ayırsınlar.

Bundan sonra qərarda kitabxanaçı kadrlar hazırlanması üçün kurslar açılması, kitabxana işinə ayrılan vəsaitin çoxaldılması, kitabxanaçıların əmək haqqının artırılması, kitabxana işinə rəhbərliyin qaydaya salınması, kitabxanalar arasında sosializm yarışının genişləndirilməsi və s. məsələlərin həyata keçirilməsi tələb olunurdu.

Bu qərar həmkarlar ittifaqı kitabxanalarının işində olan bütün nöqsanları meydana çıxarmaqla ölkənin sosialistcəsinə sənayeləşdirilməsi və birinci beşillik dövründə aparılan kitabxana işinə yekun vurdu və kitabxana işinin gələcək vəzifələrini müəyyənləşdirdi.

§ 2.7.12. Elmi və xüsusi kitabxanalar

Azərbaycanda sovet hakimiyyətinin ilk illərindən xalq maarifinin, mədəniyyətin, elm və incəsənətin inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilməyə başladı. Yeni sovet məktəb sistemi formalaşdı, ali və orta ixtisas məktəbləri yarandı, elmi və elmi-texniki müəssisələr meydana gəldi. Ali məktəblərdə, elmi müəssisələrdə və xalq təsərrüfatının digər mühüm sahələrində çalışan yüksək ixtisaslı mütəxəssislərin sayı əhəmiyyətli dərəcədə çoxaldı. Bütün bunlar isə cəmiyyətdə yüksək intellektual səviyyəli, öz bilik dairəsini daim dərinləşdirən, hərtərəfli elmi marağa malik yeni oxucu qrupunun formalaşmasına səbəb oldu.

Beləliklə, xalq təsərrüfatının və mədəniyyətin inkişaf etdiyi, elmi-texniki irəliləyişin baş verdiyi, yüksək ixtisaslı mütəxəssislərin sayının durmadan artdığı, yeni oxucu qrupunun meydana gəldiyi bir şəraitdə cəmiyyətdə elmi və xüsusi kitabxanalara böyük tələbat yaranmışdı. Bu tələbatı ödəmək üçün dövlət bir sıra mühüm tədbirlər həyata keçirdi. Mövcud elmi və xüsusi kitabxanaların işi qaydaya salındı, yeni elmi və xüsusi kitabxanalar yaradılmağa başladı.

Azərbaycan kitabxana işi tarixində 20-ci illərdə həmçinin yeni kitabxana tipləri və növləri meydana gəlib formalaşmışdır. Respublikamızda geniş şəbəkəsi olan, əhalinin bü-

tün elmi və xüsusi sorğularına cavab verən, xalq təsərrüfatının və mədəniyyətin bütün sahələrinə, alimlərə, mütəxəssislərə, yaradıcı ziyalılara ixtisaslaşdırılmış kitabxana xidməti göstərən, cəmiyyətin informasiya tələbatının təmin edilməsində yaxından iştirak edən elmi və xüsusi kitabxanalar şəbəkəsi də məhz təşəkkül tapmışdır. Yeni təşkil edilən ali məktəblərdə, elmi-tədqiqat və elmi-istehsalat müəssisələrində kitabxanalar mütəxəssislərə xidmət göstərmiş, elm və texnikanın ən yeni nailiyyətlərini təbliğ etmişdir.

Əhalinin, ilk növbədə isə ziyalıların, mütəxəssislərin elmi-texniki ədəbiyyata olan böyük tələbatı respublikada elmi, texniki və xüsusi kitabxanalar şəbəkəsinin yaradılmasını tələb edirdi. Doğrudur, zamanın cəmiyyət qarşısında qoyduğu bu mühüm vəzifəni həyata keçirməyin çətinliyinə baxmayaraq, gözləmə mövqeyi tutmaq da düzgün olmazdı. Məhz buna görədir ki, 1920-ci illərin ilk günlərindən başlayaraq respublikada elmi və xüsusi kitabxanaların yaradılması və mövcud kitabxanaların işinin təkmilləşdirilməsi məqsədi ilə ilk addımlar atılmağa, yeni elmi, elmi-texniki və xüsusi kitabxanaların təşkilinə başlandı.

§ 2.7.13. Bakı Dövlət Universitetinin Kitabxanası

Azərbaycanda 20-ci illərin əvvəllərindən fəaliyyətə başlayan ilk elmi kitabxana Bakı Dövlət Universitetinin Kitabxanası olmuşdur. Bakı Dövlət Universitetinin yaradılması Azərbaycan Demokratik Respublikasının ən böyük xidmətlərindən biri idi. Məhz buna görədir ki, Bakı Dövlət Universitetini «Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı» kimi qiymətləndirən ulu öndər Heydər Əliyev yazır: «Bakı Dövlət Universitetinin yaradılmasında ilk Azərbaycan Demokratik Respublikasının böyük xidmətləri olmuşdur»[307].

Azərbaycan Demokratik Respublikasının universitetin yaradılması işində böyük xidmətini universitetin ilk rektoru, böyük rus alimi, professor V.Razumovski olduqca yüksək

qiymətləndirirdi. O, deyirdi: «Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşağında yeni məşəl yandı»[308]. Məhz bu məşəlin işığında Azərbaycanın xalq maarifi, mədəniyyəti və elmi geniş inkişaf yoluna qədəm qoydu.

1919-cu ilin noyabrında fəaliyyətə başlayan BDU-nun öz işini müvəffəqiyyətlə yerinə yetirməsinə 20-ci illərin abhavası ciddi təsir etdi. 1920-ci ilin aprelində XI ordu Azərbaycanı işğal etdi, xalqımız öz mütləqiyyətini itirdi. Demokratik Respublikanın süqutu, Azərbaycanda Sovet hakimiyyətinin qurulması universitetin fəaliyyətinə öz təsirini göstərdi. Universitet yeni tarixi şəraitdə, yeni siyasi quruluşda fəaliyyət göstərməli oldu.

Bakı Dövlət Universiteti təşkil edilərkən onun iki fakültəsi: tibb və tarix-filologiya fakültəsi var idi. Tarix-filologiya fakültəsinin tərkibində üç şöbə – tarix, filologiya və Şərq şöbələri fəaliyyət göstərirdi. Artıq 1919-cu ilin noyabrında təşkilati işlər qaydaya salınmış, Universitet Elmi Şurasının ilk iclasında onun professor-müəllim heyətinin tərkibi təsdiq edilmişdir. Yeni təsis edilmiş universitetin professor-müəllim heyəti 44 nəfərdən – 12 professor, 3 dosent və 29 müəllimdən ibarət idi.

15 noyabr 1919-cu ildən sistematik tədris fəaliyyətinə başlayan universitet birinci kurslara qəbul aparmaqla öz tələbə korpusunu yaratmağa müvəffəq oldu. Sevindirici hal idi ki, tələbələr sırasına qəbul edilən abituriyentlərdən 297 nəfəri azərbaycanlı idi.

1920/1921-ci tədris ilində universitet özünün üçüncü fakültəsini - fizika-riyaziyyat fakültəsini yaratdı. Fizika-riyaziyyat fakültəsinin yaranması universitetin tədris və elmi potensialını daha da artırdı, universitetə yeni elmi qüvvələrin gəlməsinə səbəb oldu, universitet öz fəaliyyətini gündən-günə genişləndirməyə başladı. 1922-ci ildə universitetin tərkibində daha yeni bir fakültə – şərqşünaslıq fakültəsi fəaliyyətə başladı. Bu fakültə tarix-filologiya fakültəsinin şərq şöbəsinin

bazasında yaradılmışdı, iki şöbəsi – tarix və dil şöbələri var idi. Dil şöbəsi sonralar iki şöbəyə – türk dili və İran dili şöbələrinə bölünmüşdü. Xalq Maarif Komissarlığının göstərişi ilə şərqşünaslüq fakültəsinin tərkibindən tarix şöbəsi götürüldü. 1928-ci ildə isə şərq fakültəsinin etnoqrafiya şöbəsi yaradıldı.

1923-cü ildə tarix-filologiya fakültəsi yenidən təşkil edildi. Bu fakültə üç şöbəsi olan ictimai elmlər fakültəsinə çevrildi. Fakültənin dil, ictimai-tarix və hüquq şöbələri xeyli genişlənmiş, tələbə qəbulu artırılmış, elmi potensialı möhkəmləndirilmişdi. Bu dövrdə respublikada xalq təhsilinin inkişafı ilə əlaqədar olaraq müəllim kadrlara böyük tələbat əmələ gəlmişdi. Pedaqoji kadrlara olan bu böyük tələbatı ödəmək məqsədilə 1924-cü ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat və ictimai fakültəsinin bazasında üç şöbədən – ictimai, riyaziyyat və təbiət şöbələrindən ibarət pedaqoji fakültə yaradıldı.

1926-cı ildə Azərbaycan Xalq Komissarları Soveti ölkədə pedaqoji kadrların hazırlanması işini daha da təkmilləşdirmək məqsədi ilə respublikada pedaqoji kadr hazırlayan Azərbaycan Kişi Pedaqoji İnstitutunu və Azərbaycan Qadın Tərbiyəsi İnstitutunu universitetin pedaqoji fakültəsinə birləşdirdi. Burada əsas məqsəd pedaqoji kadrların hazırlanması keyfiyyətini daha da yaxşılaşdırmaq idi. Bu mühüm işin öhdəsindən ancaq yüksək elmi potensiala və hərtərəfli professor-müəllim heyətinə malik Azərbaycan Dövlət Universiteti gələ bilərdi.

1929-cu ildə respublikada müəllim kadrlarına olan böyük tələbatla əlaqədar universitetdə iki bölməsi – Azərbaycan və rus bölməsi olan qiyabi-pedaqoji fakültə yaradıldı. Qiyabi-pedaqoji fakültənin 4 şöbəsi – məktəb, fiziki-texniki, Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı şöbəsi var idi.

1928/1929-cu tədris ilində universitetdə yeni bir fakültə - hüquq fakültəsi yaradıldı. Bütün bu fakültələrlə yanaşı, Ba-

kı Dövlət Universitetinin yanında 1920-ci ildə yaradılmış fəhlə fakültəsi fəaliyyət göstərirdi. Dövlət fəhlə fakültəsinin işinə xüsusi diqqət yetirirdi. Fəhlə fakültəsinin tələbə kontingenti ilbəil çoxalırdı. Fəhlə fakültəsinin tələbələri içərisində azərbaycanlılar əksəriyyət təşkil edirdi. Fəhlə fakültəsində dərslər əsasən Azərbaycan dilində aparılırdı.

1920-ci ildə universitetdə nəşriyyatın əsası qoyuldu və 1921-ci ildən «Bakı Universitetinin xəbərləri» nəşrə başladı. Bu, respublikada ilk elmi mətbu orqan idi. «Xəbərlər»in dörd şöbəsi - təbiətşünaslıq və tibb, ictimai elmlər, şərqşünaslıq və hüquq şöbələri var idi. Belə bir faktı qeyd etmək yerinə düşər ki, universitet özünün birinci onlliyində 500 çap vərəqi həcmində əsərlər, jurnallar, salnamələr və məcmuələr buraxmışdı. Elmi əsərlərdən başqa universitet 1923-1930-cu illərdə çox qiymətli kitablar nəşr etməyə müvəffəq olmuşdu. Məsələn, burada E.A.Paxomovun «Azərbaycan tarixinin qısa kursu» (Bakı, 1923); A.V.Baqrinin «Azərbaycan biblioqrafiyası üçün materiallar» I-III buraxılışlar; yenə də onun III buraxılışa aid «Predmet göstəriciləri» (Bakı, 1924); A.O.Makovelskinin «Demokrit: həyatı və təlimi» (Bakı, 1926) yenə də onun «V.İ.Lenin adına Azərbaycan Dövlət Universiteti: birinci onillik» (Bakı, 1930); «Elmi nəşrlər 1919-1930» (Bakı, 1930) və s. kitablar nəşr edilmişdi. Bakı Dövlət Universitetinin nəşriyyat fəaliyyəti ilə respublikamızda elmi ədəbiyyat nəşrinin əsası qoyulmuşdu.

Beləliklə, 20-ci illərin axırında Bakı Dövlət Universiteti böyük elmi potensiala malik yüksək ixtisaslı kadr hazırlayan təhsil və elm məbədgahına çevrilmiş, Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin inkişafında həlledici rol oynamağa başlamışdı.

Bakı Dövlət Universitetinin fəaliyyətinin ilk illərində əldə etdiyi elmi-mədəni nailiyyətlərdən biri onun zəngin və nadir kitab fonduna malik əsaslı kitabxanasının yaranması olmuşdur. Bəşəriyyətin elm və mədəniyyət tarixindən məlum olduğu kimi, heç bir təhsil və elmi müəssisə kitabxanasız

fəaliyyət göstərə bilməz. Kitabxana hər bir təhsil müəssisəsinin, xüsusilə ali məktəblərin və elmi müəssisələrin əsas atributlarından biridir. Təhsil müəssisəsi tələbə və müəllim olmadan mövcud olmadığı kimi, kitabxanasız da mövcud ola bilməz. Hər bir ali məktəbin bir nömrəli laboratoriyası kitabxanadır. Məhz buna görə 1919-cu ildə Bakı Dövlət Universitetini yaratmaq, onun nizamnaməsini hazırlamaq üçün təşkil edilmiş komissiya universitet kitabxanasının yaradılmasını təxirəsalınmaz vəzifə hesab edərək, kitabxana üçün bina ayrılmasını, maddi-texniki bazasının möhkəmləndirilməsini və kitabxananı təşkil etmək üçün vəsait ayrılmasını ön plana çəkmişdi. Universitet üçün ayrılan bina ingilislər tərəfindən boşaldıldıqdan sonra ticarət məktəbinin binasında kitabxanaya yer ayrıldı və onun təşkili üçün tədbirlər həyata keçirilməyə başlanıldı. Universiteti təşkil edən komissiya 2 iyun 1919-cu ildə Şəhər Özünüidarəsinə və Neft Sənayeçiləri Qurultayı Şurasına müraciət edərək Mixaylov şəhər xəstəxanası və Sabunçu xəstəxanası nəzdindəki tibb kitabxanalarının universitet kitabxanasına verilməsini xahiş etdi. Komissiya öz xahişini belə əsaslandırdı ki, Bakıda zəngin elmi kitabxanalar yoxdur və tezlikdə xarici ölkələrdən kitablar almaq olduqca çətindir. Ona görə də kitabxanası olan bütün idarə və müəssisələri Azərbaycan xalqının elm və mədəniyyətinin inkişafında böyük rol oynayacaq bu gənc tədris müəssisəsinə kömək etməyə səy və xeyirxahlıq göstərməlidirlər. Komissiyanın xahişinə cavab olaraq Bakı Şəhər Bələdiyyə İdarəsi Mixaylov xəstəxanası kitabxanasının universitetə verilməsinə razılıq verdi. Universitet kitabxanasının əsasını təşkil edən Mixaylov kitabxanasının fondu universitetə köçürüldü. Lakin universitetin təşkil edilməsini istəməyən neft sənayeçiləri Sabunçu xəstəxanası kitabxanasının universitetə verilməsinə rədd cavabı verdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra çox qiymətli tibbi ədəbiyyat fondu olan Sabunçu xəstəxanasının kitabxanası da universitet kitabxanasına verildi. 1920-ci ildə kitabxananın fondu 951 nüsxəyə çatmışdı.

Universitetdə tibb fakultəsi ilə yanaşı, tarix-filologiya fakültəsi də fəaliyyət göstərirdi. Bu fakültə üçün də kitabxana təşkil etmək zərurəti qarşıya çıxmışdı. Tarix və filologiyaya aid ədəbiyyat Azərbaycanda az olduğundan Rusiyadan, Avropa ölkələrinin mədəni mərkəzlərindən və qonşu Türkiyədən və Gürcüstandan ədəbiyyat almaq lazım gəlirdi. 1919-cu ildə Tiflisdən xeyli ədəbiyyat almaq mümkün oldu. Ancaq bu çox az olduğundan universiteti təşkil edən komissiya 1919-cu ilin axırlarında Bakı əhalisindən kitab toplamaq məqsədi ilə «Azərbaycan» qəzeti vasitəsilə xalqa müraciət etdi. Müraciətdə deyilirdi: «Həm tarix-filologiya fakültəsi, həm də tibb fakültəsi üçün ayrı-ayrı şəxslərdə də müəyyən miqdarda kitab tapıla bilər. Buna görə də kitabxana üzrə yardımçı komissiya kitab satmaq istəyənlərə yerli qəzetlər vasitəsilə təklif etmək niyyətindədir ki, təbabətə və tarix-filologiya elmlərinə dair bütün dillərdə olan kitabların siyahısını təqdim etsinlər. Bundan əlavə, komissiya əmindir ki, universitetin xidmət etdiyi böyük mədəni məqsəd naminə digər mədəniyyət mərkəzlərində olduğu kimi Bakıda da universitetə elmi kitablar bağışlanacağını gözləmək olar[309]».

Bu elandan sonra komissiya Bakı şəhərinin müxtəlif müəssisələrindən və ayrı-ayrı şəxslərdən 120 min manatlıq kitab almağa müvəffəq oldu. Həmçinin bu dövrdə kitabxanaya öz şəxsi kitablarını hədiyyə edən ziyalılar da tapıldı.

Universiteti təşkil edən komissiyanın fədakarlığı sayəsində az bir zaman ərzində universitetdə professor-müəllim və tələbələrin tələbatını ödəyə biləcək zəngin bir kitabxana təşkil etmək mümkün oldu.

1919-cu ildə ilk dəfə olaraq kitabxananın tibb şöbəsi fəaliyyətə başladı. Bu zaman tibbə aid cəmi 212 kitab var idi. Kitabxananın ilk kitabxanaçısı vəzifəsinə qabaqcıl ziyalılardan olan, kitabxana işini yaxşı bilən M.B.Zimina təyin edilmişdi.

1920-ci ilin sentyabrında Azərbaycan Xalq Maarif

Komissarlığı universitet kitabxanasını dərsliklər və digər ədəbiyyatla komplektləşdirmək məqsədilə Bakı şəhər 6 saylı məktəbin kitabxanasının universitet kitabxanasına verilməsi haqqında qərar qəbul etdi və kitabxanaya kitab və avadanlıq almaq üçün 3 milyon manat vəsait ayırdı. 1920-ci ildə isə Bakıda yerləşən XI Ordunun Siyasi İdarəsi universitet kitabxanasına 11 min cild kitab verdi. Bu kitabların ən lazımlıları seçilərək kitabxananın fonduna daxil edildi. Beləliklə, 1920-ci ilin əvvəllərində kitabxananın fondunda 4660 kitab var idi. Kitabxanada tələbələrə və professor-müəllim heyətinə xidmət etmək üçün hələ 1919-cu ilin noyabrında qiraətxana təşkil edilmişdi.

Qiraətxanada əsasən soraq məlumat ədəbiyyatı, ən çox tələb olunan dərsliklər və dərs vəsaitləri saxlanılırdı. Qiraətxana səhər saat 10-dan axşam saat 10-dək açıq olurdu. Universitetin rəhbərliyi professorların oxunmuş mühazirələrinin mətnlərinin qiraətxanada saxlanmasına icazə vermişdi. Bu da tələbələrin dərsləri mənimsəməsinə müsbət təsir göstərirdi. Universitetin rəhbərliyi tədris prosesinin keyfiyyətini yüksəltmək və geniş elmi tədqiqat işi aparmaq üçün universitet kitabxanasının fəaliyyətini daim diqqət mərkəzində saxlayır, onun müntəzəm olaraq təkmilləşməsinə çalışırdı. Məhz buna görə universitet kitabxanasının fondu bir il müddətində 3 dəfəyə qədər artmışdı. Əgər kitabxana fəaliyyətə başlayarkən onun fondunda 4660 kitab var idisə, 1922-ci ildə 8923 adda 14434 kitab var idi.

Kitabxananı yeni elmi ədəbiyyatla təkmilləşdirmək məqsədi ilə universitetin elmi şurası 1922-ci ilin sentyabrında ən hörmətli professorlardan ikisini: prof. F.N.İyini və prof. P.Y.Rostovsevi kitabxanaya elmi ədəbiyyat almaq üçün Leninqrada (Sankt-Peterburqa) ezam etdi. Professorlar bir müddət orada qalıb kitablar əldə etmək üçün ayrı-ayrı elmi müəssisələr, ali məktəblər və kitabxanalarla əlaqə yaratmış, xeyli elmi ədəbiyyat alıb gətirməyə müvəffəq olmuşdular. Onlar 200 puddan artıq (kitabların sayı məlum

olmadığından onu çəkisi ilə hesablamışlar) qiymətli elmi ədəbiyyat, o cümlədən Leninqrad Elmlər Akademiyasının bütün nəşrlərini gətirməyə nail olmuşdular ki, bu da kitabxana fondunu qiymətli nəşrlərlə zənginləşdirmişdi.

Hökumət Bakı Dövlət Universiteti Kitabxanasının yeni kitablarla komplektləşməsinə xüsusi diqqət yetirirdi. 1922-ci ildə hökumət universitetin rektoru Davidenkonu kitabxana üçün kitab almaq üçün Sankt-Peterburqa ezam etdi. Hökumətin başçısı Q.Musabəyov RSFSR-in müvafiq müəssisələrinə və Azərbaycanın Rusiyadakı nümayəndəliyinə xüsusi məktub yazıb xahiş edirdi ki, Bakı Dövlət Universitetinin Rusiyada nəşr edilən tədris ədəbiyyatı, kitablar, jurnallar, RSFSR Elmlər Akademiyasının və Rusiya universitetlərinin nəşrləri ilə təmin olunmasına köməklik göstərsinlər. RSFSR Elmlər Akademiyasının və Rusiya universitetləri Davidenkoya ədəbiyyat almaqda kömək etdi və Bakı Dövlət Universitetinin Kitabxanası qiymətli elmi nəşrlərlə zənginləşdi.

Azərbaycan hökuməti 1922-ci il iyulun 13-də BDU-nun tarix-filologiya fakültəsinin Şərq şöbəsinin ayrıca Şərq fakültəsinə çevrilməsi haqqında qərar qəbul etdi və Ali İqtisadiyyat Şurasına təklif etdi ki, Şərq fakültəsini və onun kitabxanasını təşkil etmək üçün Xalq Maarif Komissarlığına vəsait ayırsın. 1922-ci ilin sentyabrında hökumət büdcədən əlavə fakültə və onun kitabxanasını təşkil etmək üçün 25 milyard manat və 7 min manat qızıl pul ayırmağa qərar verdi.[310] Bu vəsait hesabına kitabxanaya 1922-ci ildə İstanbul şəhərindən 2000-dən artıq, əsasən şərqə aid olan kitablar alındı.

1923-cü ildə Xalq Maarif Komissarlığının Peşə Təhsili İdarəsi Şərq kitabxanasını komplektləşdirmək məqsədilə 3 min manatlıq qızıl pula xeyli qiymətli kitab almağa müvəffəq oldu.[311] Həmçinin bunu demək yerinə düşər ki, BDU Kitabxanası formalaşmağa başladığı 1919-cu ildən kitabxananın rəhbərliyi Şərqə aid ədəbiyyatın toplanmasına xüsusi

diqqət yetirirdi. Kitabxanada ayrıca Şərq şöbəsi yaradılmışdı. Bu şöbədə birinci olaraq Şərqə aid nadir kitablar, əlyazmaları, qəzetlər, jurnallar və digər çap əsərləri toplanırdı. Şərq şöbəsinin kitabxanaçıları sonralar təkcə Şərq dillərinə və ədəbiyyatına aid əsərlərin yox, ümumiyyətlə, Şərq tarixinə, elminə, mədəniyyətinə aid kitabların toplanmasını məqsədəuyğun hesab etdiklərindən Şərq şöbəsinin fondu olduqca genişlənmiş, demək olar ki, Zaqafqaziyada ən zəngin və ən nadir Şərq fonduna çevrilmişdi. Sonralar Azərbaycanşünaslığa dair ədəbiyyatın və dövri mətbuatın toplanmasına başlanması bu şöbənin əhəmiyyətini daha da artırmış, onu Azərbaycanşünaslığın elmi araşdırmalar mərkəzinə çevirmişdi. Şərq kitabxanası ilk növbədə universitetin Şərq fakültəsinin tələbə və müəllimlərinə xidmət edirdi. Fakültənin rəhbərliyi kitabxananın təşkilində yaxından iştirak edirdi. Kitabxananın Şərq şöbəsinin təşkilində Şərq fakültəsinin dekanı professor R.K.Juzenin böyük xidməti olmuşdur. İxtisasca şərqşünas olan professor R.K.Juzen ilk günlərdən bu şöbədə tədris olunan fənlərə aid zəngin Şərq kitabxanasının yaradılmasına çalışmış, universitetin alimlərindən, respublikanın ziyalılarından, ayrı-ayrı müəssisələrdən və kitabxanalardan xeyli nadir ədəbiyyat toplamağa müvəffəq olmuşdu.

Universitet kitabxanasının Şərq şöbəsi 1924-cü ildə yenidən bütün oxucuların üzünə açıldı. Bu şöbənin ilk kitabxanaçısı Şərq dillərini yaxşı bilən, kitabxanaçılıq sahəsində təcrübəsi olan İ.A.Yanar olmuşdu. Bu şöbədə Şərqə və Azərbaycanşünaslığa aid çox qiymətli nadir kitabların toplanması təkcə universitet əməkdaşlarının deyil, respublikanın bütün ziyalılarının, alimlərinin diqqətini cəlb etmişdi. Hesabatlardan məlum olur ki, bu kitabxanadan təkcə azərbaycanlı oxucular deyil, həmçinin Sovetlər İttifaqının görkəmli şərqşünasları da istifadə etmişlər.

1929-cu ildə BDU-nun Hüquq fakültəsinin yanında kitabxananın hüquq şöbəsi təşkil edildi. Kitabxananın hüquq şöbəsinin təşkilində görkəmli hüquqşünas alim, hüquq fakültəsinin dekanı professor A.O.Mişelin xüsusi xidmətləri olmuş, o respublikanın hüquq ictimaiyyətinə və universitetin alimlərinə müraciətlə hüquqa aid kitabları hüquq kitabxanasına bağışlamalarını xahiş etmiş, Rusiyadan da xeyli kitab gətirməyə müvəffəq olmuşdu. Çox təqdirəlayiq hadisə idi ki, BDU kitabxanasının hüquq şöbəsi təkcə fakültənin professor-müəllim və tələbə heyətinə yox, respublikanın başqa idarə və müəssisələrində çalışan hüquqşünaslara və hüquq ictimaiyyətinə də xidmət edirdi.

Beləliklə, 20-ci illərin əvvəllərində universiteti təşkil edən komissiya, universitetin rektorluğu, professorlar şurası və elmi şura kitabxananı ali məktəbin əsas atributlarından biri kimi qiymətləndirib, onu universitetin bir nömrəli laboratoriyası hesab etmişlər. Hələ əvvəlcə universiteti təsis edən komissiya kitabxananın yaradılmasının planını hazırlamış, kitab fondunu yaratmaq üçün ciddi tədbirlər görmüş, Azərbaycan hökuməti və rektorluq kitabxana fondunu komplektləşdirmək üçün lazım olan qədər vəsait ayırmağa çalışmışdı.

Kitabxananın təşkilinin ilk illərində kitab fondu əsasən aşağıdakı yollarla komplektləşdirilirdi:

1. Ayrı-ayrı müəssisə və idarələrdən kitab almaq yolu ilə. Bu iş üç xətlə həyata keçirilirdi:

a) dövlət ayrı-ayrı kitabxanaların kitab kolleksiyalarını xüsusi sərəncamla alıb universitet kitabxanasına verirdi;

b) kitabxana özü ayrı-ayrı idarə, müəssisə və kitabxanalarla əlaqə saxlayıb onlarda olan artıq kitabları alırdı;

c) kitabxana, həmçinin mətbuat vasitəsi ilə xalqa müraciət edib, yeni yaranan universitet kitabxanasına kömək etməyi, artıq kitablarını kitabxanaya satmağı xahiş edirdi.

2. Ayrı-ayrı xarici ölkələrdən, həm də SSRİ respublikalarından kitab almaq yolu ilə.

20-ci illərdə kitabxana Türkiyədən, Rusiyadan, Gürcüstandan, Ukraynadan və s. ölkələrdən, xüsusilə Moskva və

Leninqrad (Sankt-Peterburq) şəhərlərindən qiymətli elmi ədəbiyyat almağa müvəffəq olmuşdu.

3. Elmi əsərlərin mübadiləsi yolu ilə.

Kitabxana Bakı Dövlət Universitetinin elmi əsərlərini SSRİ-nin və xarici ölkələrin elmi müəssisələrinə göndərir, onun əvəzində həmin müəssisələrin elmi əsərlərini alırdı. Bu işə hələ 20-ci illərin əvvəllərindən başlayan kitabxana artıq 1929-cu ildə SSRİ-nin 172 elmi və tədris müəssisəsi və xarici ölkələrin 67 elmi və tədris müəssisəsi ilə əlaqə yaratmağa müvəffəq olmuşdu. Kitabxananın bu fəaliyyəti respublika alimlərinin yeni elmi nəşrlərlə, elmi dövri mətbuatla tanış olmasına səbəb olmuş və universitet elminin yüksəlməsinə şərait yaratmışdı.

4. Azərbaycan Dövlət Kitab Palatasının verdiyi kitablar yolu ilə.

1924-cü ildə dövlətin xüsusi sərəncamı ilə Bakıda Azərbaycan Dövlət Kitab Palatası yaradıldı. Kitab Palatasının yaranması respublikamızın mədəni həyatında mühüm hadisə idi.

Palata 1924-cü ildə yaradılmasına baxmayaraq, müəyyən təşkilati iş görüldükdən sonra 1925-ci ilin aprelindən fəaliyyətə başladı. Kitab Palatasının qarşısında Azərbaycan kitabının və mətbuatının arxiv fondunu yaratmaq, onun uçot və qeydini aparmaq vəzifəsi qoyulmuşdu. Kitab Palatası həmçinin 20-ci illərdə respublikada kitabxanaların yeni kitablarla təmin edilməsi işində yaxından iştirak edir, elmi, xüsusi və mərkəzi kitabxanaları məcburi nüsxələrlə komplektləşdirirdi.

Palatanın məcburi nüsxələrlə təmin etdiyi və komplektləşdirdiyi ilk kitabxanalardan biri də Bakı Dövlət Universitetinin kitabxanası olmuşdu. Kitabxananın palatadan aldığı nüsxələr onun yeni çıxan ədəbiyyatla fasiləsiz olaraq təkmilləşməsi üçün şərait yaradırdı. Kitab Palatası 1925-ci ildə RSFSR Kitab Palatası ilə kitab mübadiləsi haqqında müqavilə imzalamışdı. Bu müqaviləyə əsasən aldığı kitab-

lardan birinci növbədə universitet kitabxanasına verirdi ki, bu da kitabxananın elmi kitablarla komplektləşməsinə kömək edirdi.

5. Ayrı-ayrı şəxslərin kitabxanaya verdiyi hədiyyələr yolu ilə.

BDU kitabxanası ayrı-ayrı şəxslərin kitabxanasını almaqla öz fondunu əvvəllər nəşr edilən, hazırda nadir nüsxələrə çevrilən kitablarla təkmilləşdirmək imkanı əldə edirdi. BDU Kitabxanasının komplektləşdirilməsində universitetin görkəmli alimlərinin mühüm rolu olmuşdur. Böyük vətəndaş olan bu alimlər universitet kitabxanasının komplektləşməsində yaxından iştirak etməklə həm də şəxsi nümunə göstərərək, özlərinin qiymətli şəxsi kitabxanalarını universitet kitabxanasına hədiyyə edirdilər. Bununla da onlar respublikamızda xeyirxah bir hərəkatın əsasını qoydular. Şəxsi kitabxanalarını universitet kitabxanasına hədiyyə edən belə xeyirxah insanlara misal olaraq professor B.K.Finkelşteyni, O.A.Bayrayevskini, P.Y.Rostovtsevi, A.İ.Okinzeviçi, N.A.Popovu, L.Q.Lopatinskini, həkim Xodoroviçi, İ.L.Fayermanı və A.M.Levini göstərmək olar.[312]

Bu görkəmli insanların kitabxanalarında öz ixtisaslarına dair kitablarla yanaşı çox qiymətli elmi-texniki, ictimai-siyasi və bədii ədəbiyyat da var idi.

O dövrdə Azərbaycanın vətənpərvər ziyalıları da BDU kitabxanasının təşkilinə və onun fondunun zənginləşməsinə böyük qayğı və diqqətlə yanaşırdılar. Fikrimizi təsdiq etmək üçün professor A.M.Atakişiyevin araşdırmaları nəticəsində əldə edilmiş bir fakta diqqət yetirək. Hələ o dövrdə Kiyevdə yaşayan görkəmli Azərbaycan ziyalısı doktor M.S.Mirtağıyev Xalq Maarif Komissarlığına yazmışdı: «Mərhum professor Obraztsovun 1200-1300 kitabdan ibarət olan kitabxanasını Tiflis Universiteti üçün almaq qət edilmişdi. Professor Obraztsovun şəxsi assistenti kimi mən bu təklifi – kitabxananı ADU-ya vermək ümidi ilə rədd etdim. Bundan ötrü ən çoxu 60 milyon tələb olunacaqdır... Bunu nəzərinizə

çatdırmağı özümə borc bilirəm ki, on ildən çoxdur Kiyevdəyəm və professorlar arasında çoxlu tanışım var, gənc ADU-nun mənafeyi naminə universitetə həm elmi işçilər cəlb edilməsinə, həm də ... kitabxananın inkişaf etdirilməsinə kömək göstərmək vəzifəsini sevinclə öhdəmə götürürəm»[313].

Kiyevdən professor M.B.Dovnar Zapolski də özünün 15 min cilddən çox kitabı olan şəxsi kitabxanasının Bakıya köçürülməsini Xalq Maarif Komissarlığından xahiş etmişdi.

Beləliklə, 20-ci illərin əvvəllərində BDU-nun kitabxanası respublika hökumətinin, ziyalıların, universitet kollektivinin, görkəmli alimlərin ciddi səyi və qayğısı nəticəsində gündən-günə inkişaf edib zənginləşmiş, demək olar ki, Zaqafqaziyanın ən zəngin kitabxanalarından birinə çevrilmiş, Azərbaycan təhsilinin inkişafında, elm və mədəniyyətin informasiya təminatında bir mayak rolunu oynamışdır.

Əgər kitabxana təşkil ediləndə onun fondunda cəmi 4660 nüsxə kitab var idisə, cəmi dörd il sonra 24713 nüsxə kitab toplanmışdı. Deməli, üç ildə kitabxananın fondu 5 dəfəyə qədər artmışdı. Ölkənin ağır iqtisadi böhran keçirdiyi ciddi maddi çətinliklər şəraitində kitabxana fondunun belə sürətlə artmasını böyük mədəni nailiyyət hesab etmək olar. Respublikanın elmi və mədəni həyatında yaxından iştirak edən bu kitabxana başqa kitabxanalara metodik cəhətdən kömək edir, universitetin tələbə və müəllimləri ilə yanaşı olaraq, respublikanın başqa müəssisələrinin işçilərinə də xidmət edirdi. Universitetin müntəzəm olaraq genişlənməsi, yeni fakültələrin təşkili ilə əlaqədar kitabxana da genişlənirdi. 1926-cı ildən başlayaraq kitabxanaya alınan kitablar artmışdı. Bunu aşağıdakı rəqəmlərdən görmək olar:

İllər	Kitabxanaya daxil olan kitabların sayı
1925/26	6677
1926/27	7598
1927/28	8018
1928/29	17900[314]

1929-cu ildə keçmiş Bakı Fransız Cəmiyyətinin 10 min kitabdan ibarət kitabxanası və maarif işçiləri evindəki 2000 cild rus jurnalları komplekti kitabxanaya verildi. Bütün bunların nəticəsində kitabxana fondu zənginləşərək 100 min nüsxəyə çatmışdı. Kitabxana getdikcə SSRİ-nin və xarici ölkələrin elmi müəssisələri ilə əlaqələri genişləndirirdi. Təkcə bunu qeyd etmək kifayətdir ki, kitabxana 1929-cu ildə SSRİ-nin 172 və xarici ölkələrin 67 elmi müəssisəsi ilə əlaqə saxlayır, kitab, jurnallar mübadilə edirdi. Əgər kitabxana 1926-cı ildə xarici ölkələrdən 48 jurnal alırdısa, bunların sayı 1930-cu ildə 223-ə çatdırılmışdı.[315]

Kitabxanada oxuculara xidmət etmək üçün sistemli və əlifba kataloqu yaradılmış, məlumat-biblioqrafiya şöbəsi təşkil edilmiş, oxucuların sorğularına cavab vermək üçün ilk dəfə olaraq biblioqraf vəzifəsi təsis edilmişdi.

Kitabxana əsasən universitetin müəllim və tələbə heyətinə xidmət edirdi. İlbəil universitetə tələbə qəbulu artdıqca oxucuların sayı da çoxalırdı. Azərbaycan Xalq Maarif Komissarlığı universitet rəhbərliyinə müraciət edib, kitabxananın digər ali məktəblərin tələbə və müəllim heyətinə xidmət etməsini xahiş etmişdi.

1920-ci ildə kitabxananın 1000 nəfərə yaxın oxucusu var idisə, 1924-cü ildə onların sayı 2000 nəfərdən çox olmuşdu.

Cədvəldən məlum olur ki, kitabxana on il müddətində 19897 oxucuya xidmət etmişdir. Bundan başqa, kitabxana Azərbaycanın digər ali məktəblərinin və elmi-tədqiqat müəssisələrinin müəllimlərinə və elmi işçilərinə də xidmət edirdi. O dövr arxiv materialları saxlanmadığından bunlar haqqında dəqiq məlumat vermək çətindir*.

*Kitabxananın 20-ci illərə dair hesabatları saxlanmadığından biz oxucuların miqdarını universitetin tələbə və müəllim heyətinin illər üzrə hərəkətini göstərən cədvəllər əsasında tərtib etdik. Universitet kitabxanasının bizə gəlib çatan sənədlərində göstərilir ki, kitabxana universitetin bütün tələbə və müəllim heyətinə xidmət göstərmişdir.

1920-1929-cu illərdə oxucuların miqdarı və tərkibini göstərən cədvəl[316]

№	Tədris illəri	Tələbə oxucuların miqdarı	Müəllim oxucuların miqdarı			
			Profesor	Dosent, privat dosent	Müəllim, müəllim-həziraçi və s.	Cəmi:
1	1919/20	1094	12	3	29	44
2	1920/21	1766	25	-	131	156
3	1921/22	1830	36	6	133	175
4	1922/23	1560	41	10	169	220
5	1923/24	1955	12	12	173	197
6	1924/25	2097	40	19	123	182
7	1925/26	2046	43	20	186	249
8	1926/27	1608	43	30	246	319
9	1927/28	1859	50	25	229	304
10	1928/29	1925	52	30	229	311
Cəmi:		17740	354	155	1648	2157[317]

Kitabxana, həmçinin o dövrdə Xalq Maarif Komissarlığı sistemində olan təhsil kitabxanalarına metodik mərkəz kimi xidmət edir, kitabxanaların iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi və yayılmasına aid metodik tədbirlər həyata keçirirdi. Vaxtaşırı kitabxana işçilərinin müşavirələri keçirilir, təcrübə mübadiləsi aparılırdı. Artıq ali və orta ixtisas məktəblərinin kitabxana işçiləri üçün kitabxana işinin mühüm vəzifələrinə həsr edilmiş seminar-müşavirələrin keçirilməsinə də başlanmışdı.

Kitabxanada öz işini yaxşı bilən, oxucuların sorğularını vaxtlı-vaxtında ödəyən, kitabxana xidmətini daim yaxşılaşdırmağa çalışan, universitetin təhsil və elmi fəaliyyətində yaxından iştirak edən işgüzar kollektiv formalaşmışdı. Kitabxananın işi həmişə universitet rəhbərliyinin və ictimaiyyətin diqqət mərkəzində idi.

Beləliklə, onillik fəaliyyəti müddətində kitabxana respublikanın təhsil, elm və mədəni həyatında yaxından iştirak

edən qabaqcıl mədəniyyət mərkəzinə çevrilmişdi. Kitabxananın fondunda 100 min kitab toplanmış, 20 mindən artıq oxucuya xidmət etmişdi.

1929-cu ildə Azərbaycan hökuməti BDU-nun 10 illik yubileyini qeyd etmək haqqında qərar qəbul etdi. Yubiley 1930-cu il yanvarın 12-də Bakı Opera Balet Teatrında keçirildi. Təntənəli yığıncaqda Gürcüstandan, Ermənistandan və Dağıstandan nümayəndə heyətləri iştirak edirdi. Yubiley komissiyasının adına çoxlu təbrik teleqramları daxil olmuşdu. Təntənəli yubiley iclasında Bakı Dövlət Universitetinin on il müddətində respublikanın təhsil, elm və mədəni həyatında böyük xidmətləri olduğu qeyd edildi. Xüsusilə, ali təhsilli müəllim və yüksək ixtisaslı mütəxəssis kadrların hazırlanmasında əldə etdiyi nailiyyətlər haqqında məruzələr dinlənildi. Universitetin fəaliyyəti Azərbaycan ali məktəblərinin bayraqdarı kimi dövlət tərəfindən yüksək qiymətləndirildi, bir çox əməkdaşlar dövlət mükafatlarına layiq görüldü.

Ancaq çox təəssüflə qeyd etmək lazımdır ki, Avropa və Asiyanın qovuşağında məşəl kimi parlayan bu elm və təhsil məbədgahı fəaliyyətinin çiçəkləndiyi dövrdə bağlanmağa məruz qaldı.

Universitet birbaşa Moskvanın göstərişi ilə bağlanmışdı. O dövrdə rəsmi dairələr universitetin bağlanmasını ölkədə aparılan təhsil islahatı ilə izah edir və əsaslandırmağa çalışırdılar ki, ölkədə xalq təsərrüfatının ayrı-ayrı sahələrini ixtisaslı kadrlarla təmin etmək üçün yeni sahəvi institutlar yaratmaq zərurəti meydana çıxmışdır. Sahəvi institutları yaratmaq çətin olduğundan universitetin ayrı-ayrı fakültələrinin yeni müstəqil institutlara çevrilməsi məqsədəuyğun hesab edilmişdi.

1930-cu il iyunun 19-da Azərbaycan Xalq Komissarları Soveti Bakı Dövlət Universitetinin yenidən təşkili haqqında qərar verdi. Bu qərara görə, universitetin: 1) iqtisad fakültəsi bazasında Ticarət Kooperativ İnstitutu; 2) pedaqoji fakültənin bazasında Pedaqoji İnstitut; 3) hüquq fakültəsi

bazasında Sovet Quruculuğu və Hüquq İnstitutu; 4) tibb fakültəsi bazasında Tibb İnstitutu yaradıldı.

Ayrı-ayrı yeni institutların yaranması, respublikada ali məktəb şəbəkəsinin genişlənməsi belə on il müddətində böyük inkişaf yolu keçmiş, respublikada milli kadrların hazırlanmasında, elmi-tədqiqat işinin inkişafında böyük xidmətləri olan universitetin bağlanmasına haqq qazandıra bilməzdi. On il müddətində universitetdə Azərbaycan ziyalılarının ən qabaqcıl nümayəndələrinin, görkəmli alimlərin fəaliyyət göstərməsi ona Azərbaycanın elmi və milli mədəniyyəti sahəsində böyük nailiyyətlər əldə etməyə imkan vermişdi. Universitetdə dərslərin tədricən Azərbaycan dilində keçirilməsi, Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyat və incəsənətinin öyrənilməsinə ciddi təsir göstərmiş, göstərilən sahələrdə ciddi elmi araşdırmalar aparılmağa başlanılmışdı.

Universitet Azərbaycan milli elm və mədəniyyətinin, milli ideologiyasının mərkəzinə çevrilmiş, onların milli müstəqilliyi xeyli artmışdı. Görkəmli milli kadrların universitetlərdə toplanması heç də Moskvada oturan şovinist partiya və sovet rəhbərlərini təmin etmirdi. Məhz buna görədir ki, onlar milli şüurun formalaşmasına ciddi təsir göstərən universitetlərin fəaliyyətinin dayandırılmasında maraqlı idilər. 1930-cu ildə təhsil islahatı keçirilməsi adı ilə müttəfiq respublikalarda fəaliyyət göstərən universitetlərin fəaliyyətinin dayandırılması haqqında qərar verildi. Əgər doğrudan da müttəfiq respublikalarda fəaliyyət göstərən universitetlərin fəaliyyətinin dayandırılması təhsil islahatı ilə əlaqədar idisə, nə üçün Moskva, Sankt-Peterburq, Kiyev və s. universitetlər bağlanmamışdı.

Beləliklə, Bakı Dövlət Universiteti 1930-cu ildə öz fəaliyyətini dayandırdı. Onun bütün əmlakı, o cümlədən 100 mindən artıq kitab fondu olan kitabxanası, yeni yaradılan dörd institut arasında bölüşdürüldü. Kitabxana fondunun məzmununa görə yeni yaranan institutlar arasında bölüşdürülməsinə baxmayaraq kitabların başqa binalara köçürülməsi zamanı olduqca qiymətli kitablar itib batdı. On illik zəhmət sayəsində toplanmış respublikamızın zəngin və qiymətli kitab fondu öz bütövlüyünü itirdi.

Ölkədə yüksək ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirən Sovet hökuməti 20-ci illərdə respublikada BDU ilə yanaşı, bir neçə ali məktəbin təşkilinə nail olmuşdu. Azərbaycanda yeni yaranan ali məktəblərdə dərs deyə biləcək kadrların olmaması bu mühüm işin təşkilində böyük çətinliklər yaradırdı. Dövlət bu çətinlikləri aradan qaldırmaq üçün respublikada olan kadrlardan səmərəli istifadə etməklə yanaşı, SSRİ-nin digər mədəni mərkəzlərindən kadrlar dəvət etməklə bu çətinliyin öhdəsindən gələ bildi. Yeni ali məktəblərin yaranmasında Bakı Dövlət Universiteti alimlərinin mühüm xidməti olmuşdu. Bakı Dövlət Universiteti yeni yaranan ali məktəblər üçün müəllim kadrların hazırlanmasının əsas tədris və elmi bazası idi.

Azərbaycanda neft sənayesinin bərpa və inkişafı çoxlu miqdarda ali təhsilli mütəxəssislərə böyük tələbat əmələ gətirmişdi. Odur ki, Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov respublikada texniki ali məktəblərin yaradılmasını zəruri hesab edirdi. O, 1920-ci ilin dekabrında Bakı Texniki Məktəbinin ali məktəbə çevrilməsi haqqında dekret verdi. 1921-ci ilin yanvarında bu məktəbin, habelə RSFSR Xalq Maarif Komissarlığının qərarı ilə, Petroqraddan Bakıya köçürülmüş Politexnik Texnikumunun bazasında Azərbaycan Politexnik İnstitutu (APİ) yarandı. 1921-ci ilin yanvarında institutda dərslər başlandı. Əlbəttə, universitetin təşkili ilə məşğul olan Xalq Maarif Komissarlığı və Xalq Təsərrüfatı Şurası 20-ci ilin ikinci yarısından institutun maddi-texniki bazasını yaratmaq və birinci növbədə institut kitabxanasını təşkil etmək üçün tədbirlər görməyə başlamış, kitabxanaya bina ayırmış, texniki məktəbin kitabxanasının bazasında, kitabxanaya xeyli kitab toplamağa müvəffəq olmuşdu.

Beləliklə, 1920-ci ildə respublikamızda ikinci ali məktəb kitabxanası - Azərbaycan Politexnik İnstitutunun kitabxanası fəaliyyətə başladı. 1920-ci ildə kitabxananın fondunda 6500 kitab toplanmışdı. Kitabxana 300-dən artıq oxucuya xidmət edirdi. 1925-ci ildən kitabxana xarici dildə kitablarla komplektləşməyə başladı. Bu da institutun ittifaq və dünya miqyasında nüfuzunun artması, institut alimlərinin neftə dair geniş elmi-tədqiqat işlərinin genişlənməsi ilə əlaqədar idi. 20-ci illərin əvvəllərindən kitabxana patent, standart və texniki kataloqlarla da komplektləşməyə başlamışdı. Əsas kitabxana ilə yanaşı, institut kitabxanasına tabe olan fakültə kitabxanaları da fəaliyyət göstərirdi. Həmçinin kitabxananın texniki və nəzəri ədəbiyyat şöbəsi təşkil edilmişdi. 20-ci illərin axırlarında kitabxanada ictimai-siyasi və iqtisadi ədəbiyyat şöbəsi də yaradılmışdı. 1920-ci ildə kitabxananın fondu təxminən 50 min nüsxəyə çatmışdı və 1000 nəfərə qədər oxucuya xidmət edirdi.

1921-ci ilin payızında Azərbaycan hökuməti respublikada müəllim kadrlarına olan böyük tələbatı nəzərə alaraq Azərbaycan Pedaqoji İnstitutu, 1921-ci ildə türk (Azərbaycan) dilində müəllimlər hazırlayan Azərbaycan Dövlət Kişi İnstitutu, yenə 1921-ci ildə qadın Məktəbəqədər Tərbiyə İnstitutu yaratdı və 1921-ci ilin noyabrında sonuncu Ali Qadın Pedaqoji İnstitutuna çevrildi. Həmçinin 1921-ci ildə respublikada Ali Bədii Məktəb və Konservatoriya yaradıldı. Az müddət və çətin şəraitdə bu qədər institutun yaradılması respublikanın mədəni həyatında böyük nailiyyət idi. Bu nailiyyətlərin əldə edilməsində Azərbaycan İnqilab Komitəsinin sədri böyük vətənpərvər, görkəmli dövlət xadimi Nəriman Nərimanovun xüsusi xidmətləri olmuş, bu iş ancaq onun ciddi səyi və böyük qayğısı nəticəsində mümkün olmuşdu.

Beləliklə, 20-ci illərin axırlarında Bakıda 10 min tələbənin təhsil aldığı 15 ali tədris müəssisəsi fəaliyyət göstərirdi. [318] Bütün ali məktəblərin yanında zəngin elmi, elmi-texniki,

ictimai-siyasi və sosial-iqtisadi ədəbiyyat fonduna malik kitabxanalar fəaliyyət göstərirdi. Ali məktəb kitabxanaları 20-ci illərdə ali məktəblərin professor, müəllim və tələbələrinə xidmət etmək sahəsində böyük təcrübə qazanmış, ali məktəblərin əsas strukturuna çevrilmişdi.

Ali məktəblərin qayğısı ilə əhatə edilmiş kitabxanalar zəngin kitab fondları yaratmağa və böyük oxucu kontingentinə xidmət etməyə nail olmuşdular.

Doğrudur, son dövrlərdə fəaliyyətə başlayan bir çox institutların maddi-texniki bazasının zəifliyi kitabxanalar təşkil etmək, onun fondunu ədəbiyyatla komplektləşdirmək işini çətinləşdirirdi. Ancaq çox sevindirici hal idi ki, yeni təşkil edilən institutların professor-müəllim heyətinin köməyi sayəsində institut kitabxanalarını formalaşdırmaq mümkün oldu. Artıq 20-ci illərin axırında ali məktəb kitabxanalarının təşkili başa çatdırılmış, onlar professor-müəllim heyətinə və tələbə kontingentinə xidmət etməyə başlamışdılar. Təxmini hesablamalara görə, ali məktəb kitabxanalarında yarım milyon nüsxədən artıq ədəbiyyat toplanmışdı. Onlar 15 mindən çox oxucuya xidmət edirdilər. O dövr üçün çox böyük olan bu rəqəm ali məktəb kitabxanalarının təhsil, elm və mədəniyyətin inkişafında böyük əhəmiyyət kəsb etdiyini təsdiq edir.

§ 2.7.14. Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyətinin kitabxanası

20-ci illərdə Azərbaycanda elmi-tədqiqat müəssisələrinin, birliklərin, cəmiyyətlərin yaranması sahəsində də xeyli iş görülmüşdü. Təbiət, kənd təsərrüfatı, tibb, ictimai və humanitar elmlər sahəsində bir sıra elmi-tədqiqat müəssisələri yaradılmış və belə müəssisələr əməli işə başlamışdı.

Azərbaycanda ayrı-ayrı elm sahələrinin inkişafı bütün elmi qüvvələri birləşdirən və istiqamətləndirən vahid elmi mərkəzin yaradılması zərurətini irəli sürürdü. Hələ 1923-cü ilin əvvəllərində bir qrup alim Xalq Maarif Komissarlığının

kollegiyasına müraciətlə Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyətini yaratmağı xahiş etmiş və cəmiyyətin nizamnaməsini təsdiq üçün təqdim etmişdi. 1923-cü ildə kollegiya D.Urusov, Bakı Universitetinin professoru A.R.Zifeld və «Kommunist» qəzetinin redaktoru H.Cəbiyev tərəfindən tərtib olunmuş nizamnaməni təsdiq etdi.[319]

1923-cü il noyabrın 2-də 40 nəfərə qədər alimin və mütəxəssisin iştirakı ilə cəmiyyətin ilk təsis iclası keçirildi. Cəmiyyətin sədrliyinə Əbdürrəhim bəy Haqverdiyev seçildi. Nəriman Nərimanov və Səmədağa Ağamalıoğlu cəmiyyətin fəxri sədrləri seçildilər.

Bu cəmiyyət yarandığı ilk günlərdən Azərbaycan elminin məhək daşı olmuş, Azərbaycanı öyrənmək üçün geniş araşdırmalar aparmağa başlamışdı. Azərbaycan tarixinin, ədəbiyyatının, folklorunun, dilinin öyrənilməsi sahəsindəki xidmətləri xüsusilə təqdirəlayiq olmuşdur. Cəmiyyətin bu mühüm işə C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, H.Zeynallı, S.Mümtaz, Y.V.Çəmənzəminli, H.Əlizadə və A.Baqri kimi görkəmli ziyalıları cəlb etməsi Azərbaycan xalqının ədəbi irsinin öyrənilməsinə xüsusi təkan vermişdi. Cəmiyyətin fəaliyyətinə xüsusi diqqət yetirən hökumət onu 1926-cı ilin sentyabrında MİK-in tabeçiliyinə verdi. Cəmiyyət 1925-ci ildə rus dilində, 1928-ci ildən isə Azərbaycan dilində «Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyətinin xəbərləri»ni nəşr etməyə başladı.

Cəmiyyətin fəaliyyətində ən mühüm hadisələrdən biri öz elmi kitabxanasının yaradılması olmuşdur. Cəmiyyətin nizamnaməsində təşkili zəruri hesab edilən kitabxananın əsası elə 1923-cü ilin dekabrında qoyuldu. Cəmiyyət yarandığı gündən onun təşəbbüskarları cəmiyyətin kitabxanasını yaratmaq işini ön plana çəkmiş, kitabxana üçün kitablar toplamağa başlamışdılar. İlk vaxtlarda kitabxananın təşkili, xüsusilə kitabxana üçün kitab toplamaq çox çətin olsa da, cəmiyyətin üzvləri artdıqca, cəmiyyətin tərkibində yeni bölmələr yarandıqca, bu iş xeyli asanlaşmışdı. Bu kitabxananın

yaranmasında 1924-cü ildən cəmiyyətin tərkibində fəaliyyət göstərən Biblioqrafik büronun mühüm rolu olmuşdu. Bu büroya zəhmətkeş alim-biblioqraf A.B.Baqri başçılıq edirdi. Büro öz qarşısında Azərbaycanşünaslığa (ölkəşünaslığa) dair ədəbiyyatın repertuarını yaratmaq vəzifəsini qoymuşdu. Ona görə də şöbə bu repertuar üçün biblioqrafik məlumat toplayarkən mövcud ədəbiyyatı da toplamağa və zəngin məlumat-biblioqrafiya fondu yaratmağa müvəffəq olmuşdu. Tezliklə biblioqrafik büronun fəaliyyəti çox mühüm elmi tədqiqat əhəmiyyətli bir işə çevrilmiş, digər bölmələr də bu bölmənin işindən bəhrələnməyə başlamışdılar.

Biblioqrafik büro öz işini paytaxtın digər ideoloji və təbliğat müəssisələri ilə əlaqələndirməyə səy göstərirdi. 1924-cü ilin payızında büro öz işini Bakı Maarif Evi ilə əlaqələndirir, onların vəsaitlərindən, xüsusilə məlumat xarakterli materiallarından istifadə edirdi. Maarif Evində ölkəşünaslıq ədəbiyyatını və digər elmi ədəbiyyatı təbliğ etmək, əhali arasında kütləvi iş aparmaq üçün sərgilər, mühazirələr, dərnəklər təşkil edilirdi.

Biblioqrafik büro 1924-cü ildən başlayaraq cəmiyyətin ayrı-ayrı rayonlarda (Nuxada (Şəkidə), Salyanda, Zaqatalada, Gəncədə, Lənkəranda, Naxçıvan Muxtar Respublikasında və s.) fəaliyyət göstərən şöbələri ilə əlaqə saxlayır, biblioqrafik xarakterli elmi məlumat toplamaqda onların fəaliyyətindən istifadə edirdi.

1924-cü ilin sentyabrında Bakıda Azərbaycanı Tədqiq və Tətöbbö cəmiyyətinin təşəbbüsü ilə birinci Ümumazərbaycan ölkəşünaslıq qurultayı çağırıldı. Qurultayda cəmiyyətin bütün qəza bölmələrindən nümayəndələr iştirak edirdi. Qurultayda müzakirə edilən məruzələr və çıxışlar bilavasitə Azərbaycanın öyrənilməsi məsələlərinə həsr olunmuşdu. Qurultayın işində görkəmli alimlər də iştirak edirdilər.

Bu dövrdə cəmiyyət Azərbaycanın tədqiqi ilə bağlı çox mühüm işlər görməsinə baxmayaraq, böyük maliyyə çətinliyi ilə üzləşmişdi. Odur ki, 1925-ci ilin mayında Azərbaycanı

Tədqiq və Tətəbbö Cəmiyyəti Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin tərkibinə daxil edildi. Cəmiyyətin işində böyük canlanma baş verdi. 1925-ci ildə cəmiyyətin tərkibində 3 şöbə (pedaqoji, sosial-iqtisadi, tarixi-etnoqrafik) və 3 büro (atrometrik, biblioqrafik, məktəblərə kömək və Azərbaycan haqqında biliklərin yayılması) fəaliyyət göstərirdi. Biblioqrafik büroya professor A.B.Baqri rəhbərlik edirdi. Bu büronun Azərbaycana dair materialların toplanması, araşdırmalar aparılması, mövcud ədəbiyyatın və məlumat vasitələrinin toplanması sahəsində fəaliyyəti olduqca təqdirəlayiq idi. Büro cəmiyyətin kitabxanasının formalaşması sahəsində də ciddi iş aparırdı.

A.B.Baqrinin hazırlamaqda olduğu Azərbaycana aid biblioqrafik göstərici tezliklə cəmiyyət üzvlərinin diqqətini cəlb etdi. Bu işin aktuallığı nəzərə alınaraq biblioqrafik göstəricinin nəşr edilməsi və Azərbaycanın təbliği ilə məşğul olan bütün alim və tədqiqatçılara çatdırılması məqsədəmüvafiq hesab edildi. Gərgin iş aparan biblioqrafiya bürosu qısa müddətdə «Материалы для библиографии Азербайджана»nın birinci buraxılışını nəşrə hazırladı.[320]

Biblioqrafiya bürosu 1924-cü ildə bu biblioqrafiyanın birinci, 1925-ci ildə ikinci buraxılışını, 1926-cı ildə isə mövzu göstəricisini nəşr etdirdi. Biblioqrafiyanın hər üç buraxılışının tərtibçisi A.V.Baqri olmuşdur.

Azərbaycan biblioqrafiyasına aid materialların nəşri Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyətinin ən böyük nailiyyəti idi. Bu biblioqrafik göstərici bütün tədqiqatçıların stolüstü kitabına çevrilmiş, Azərbaycan elminin gələcək inkişafına böyük kömək göstərmişdir. Biblioqrafik vəsaitlərin hazırlanması üçün materiallar bilavasitə cəmiyyətin kitabxanasında toplandığından kitabxana ilə biblioqrafik büronun fəaliyyəti demək olar ki, birləşmişdi. Bunu nəzərə alan cəmiyyətin rəhbərliyi biblioqrafik büronun kitabxana ilə birləşdirilməsini lazım bildi. Bu çox doğru qərar idi. Çünki biblioqrafiya bürosunun həyata keçirdiyi olduqca böyük həcmli

işi kitabxanasız yerinə yetirmək mümkün deyildi. Bu birləşmə 1925-ci ilin avqustunda baş verdi.[321] Biblioqrafik büro kitabxanaya verildikdən sonra kitabxananın fondu büronun materialları və kitabları hesabına xeyli zənginləşdi. 1925-ci ildə cəmiyyət Moskva və Sankt-Peterburqun elmi idarələrindən xeyli ədəbiyyat aldı, həmçinin Qafqazşünas alim L.Q.Lopotinskinin şəxsi kitabxanasının tam kolleksiyası kitabxanaya daxil edildi.

Cəmiyyətin apardığı geniş elmi fəaliyyət nəticəsində 1923-1925-ci illərdə cəmiyyət 35 adda əsərlər və tərcümələr nəşr etdirmişdi. Cəmiyyət bu kitabların, materialların və əlyazmalarının hamısını cəmiyyətin kitabxanasına vermişdi.

Artıq 1925-ci ildə kitabxananın fondunda 20 mindən artıq kitab və çoxlu əlyazma var idi. Bu kitabların əksəriyyəti Azərbaycanşünaslığa, Qafqazşünaslığa, ölkəşünaslığa, türkologiyaya, şərqşünaslığa və s. elmlərə aid idi. Öz qarşısına bütün elm sahələrinə xidmət etməyi, məlumat xidməti təşkil etməyi məqsəd qoyan kitabxananın fondu ümumi elmi xarakter daşıyırdı. Burada qabaqcıl elm sahələrinə dair kitablara rast gəlmək olurdu. Ona görə də kitabxananın oxucularının sayı ilbəil çoxalır, demək olar ki, respublikanın bütün elmi müəssisələrini əhatə edirdi. Kitabxana respublikanın bütün alimlərinə və ali məktəb tələbələrinə xidmət göstərir, geniş sorğu məlumat işi aparırdı.

1929-cu ildə Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyətinin bazasında Azərbaycan Elmi-Tədqiqat İnstitutu yaradıldı. İnstitutun təbiət, biologiya, tarix və etnoqrafiya, dilçilik, ədəbiyyat və incəsənət, fəlsəfə, sovet Şərqi və xarici Şərq, dövlət və hüquq bölmələri var idi. İnstitutun yaranması və onun tərkibində bir çox elmi bölmələrin meydana gəlməsi respublikanın elmi həyatında böyük hadisəyə çevrildi. Məhz bu dövrdə cəmiyyətin kitabxanası xeyli zənginləşmiş və böyümüşdü. Kitabxananın ştat vahidi artırılmış, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün vəsait ayrılmışdı. Kitabxananın oxuculara xidmət sisteminin yenidən qurulması

oxucu kontingentinin artmasına, kitab dövriyyəsinin genişlənməsinə səbəb olmuşdu.

Gələcəkdə təşkil edilən Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının əsasını təşkil edən bu kitabxana 20-ci illərin axırında respublika elminə xidmət edən, elmin informasiya təminatını təmin edən ən böyük perspektivə malik olan kitabxanaya çevrilmişdi.

II fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı

[1] V.İ.Lenin. Əsərlərinin tam külliyatı. C. 41, s. 128.
[2] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. S. 26-51.
[3] Yenə orada.
[4] Декреты Азревкома (1920-1921 гг.) Сб. документов.- Б., 1988.
[5] Azərbaycan tarixi: 11-ci sinif üçün dərslik, B., 2001, s. 104.
[6] «Kommunist» qəzeti (rusca), 1921, 8 sentyabr.
[7] Народное образование в Азербайджане. 1920-1927. Баку, 1922, с. 189.
[8] Собрание изаконений и распоряжений за 1922 г., Т 1. Баку, 1922, с. 189.
[9] Народное образование в Азербайджане 1920-1927, Баку, 1928, с. 88.
[10] Azərbaycan tarixi. 3 cilddə, I hissə. Bakı, 1973, s. 436-439.
[11] Azərbaycan tarixi. 3 cilddə, I hissə. Bakı, 1973, s. 444.
[12] Azərbaycan tarixi. 7 cilddə, C. 6. Bakı, 2000, s. 203.
[13] Vəkilov M. Azərbaycan Kommunist Partiyasının mədəni quruculuq uğrunda mübarizəsi (1921-1925) Namizədlik dissertasiyası. B., 1954, s. 87.
[14] «Kommunist» qəzeti (rusca), 1922, 7 aprel, № 98.
[15] Народное образование в Азербайджане. 1920-1927. Баку, 1928, с. 87.
[16] Azərbaycan tarixi. 7 cilddə, C. 6. Bakı, 2000, s. 208
[17] Народное образование в Азербайджане. 1920-1927. Баку, 1928, с. 110.
[18] Народное образование в Азербайджане. 1920-1927. Баку, 1928, с. 111.
[19] Четвертый Всеазербайджанский сьезд Советов, Рабочих, Крестьянских, Красноармейских и Матросских Депутатов. Стенографический отчет. Баку, 1925, с. 208.
[20] Народное образование в Азербайджане. 1920-1927. Баку, 1928, стр. 113
[21] «Kommunist» qəzeti (rusca), 1920, 11 may, № 8.
[22] Собрание узаконений и распоряжений рабоче-крестьянского правительства Азербайджанской Советской Социалистической Республики. Bakı, 1920, s. 158.

[23] Сборник указонений Азербайджанской ССР. Bakı, 1920, s. 89.
[24] Народное образование в Азербайджане 1920-1927. Bakı, 1928, s. 99.
[25] Отчет о деятельности правительства IV Всеазербайджанскому сьезду Советов за 1924 г. Bakı, 1925, s. 108.
[26] Отчет о деятельности правительства IV Всеазербайджанскому сьезду Советов за 1924 г. Bakı, 1925, s. 108.
[27] Народное образование в Азербайджане 1920-1927. Bakı, 1928, s. 99.
[28] «Бакинский рабочий» qəzeti, 1923, 23 iyun, s. 137.
[29] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 13, iş 163, vərəq 1.
[30] Народное образование в Азербайджане. 1920-1927. Баку, 1928, с. 99.
[31] Народное образование в Азербайджане. 1920-1927. Баку, 1928, с. 102.
[32] Народное образование в Азербайджане. 1920-1927. Баку, 1928, с. 106.
[33] Həsənov H. Azərbaycan kitabının inkişaf mərhələləri. B., 1989, s. 98-100.
[34] Həsənov H. Azərbaycan kitabının inkişaf mərhələləri. B., 1989, s. 97.
[35] Vəkilov M.Y. Azərbaycan Kommunist Partiyasının mədəni quruculuq uğrunda mübarizəsi (1921-1925) namizədlik dissertasiyası. B., 1954, s. 181.
[36] Azərbaycan tarixi. 3 cilddə, I hissə, Bakı, 1973, s. 456.
[37] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 73.
[38] Azərbaycan Mərkəzi Dövlət Arxivi, fond 410, siyahı 1, iş 13, s. 72.
[39] Nəzər Paşayev. Azərbaycanda sosialist mədəniyyətinin inkişafı. B., 1957, s. 64.
[40] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 73.
[41] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 73.
[42] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 75.
[43] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 74.
[44] «Kommunist» qəzeti (rusca), 1920, 4 avqust, № 79.
[45] «Kommunist» qəzeti (rusca), 1920, 3 avqust, № 78.
[46] «Kommunist» qəzeti (rusca), 1920, 12 iyul, № 59.
[47] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 8, vərəq 100.
[48] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 8, vərəq 100.
[49] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 8, vərəq 101.
[50] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 8, vərəq 100.
[51] Azərb. Respublikası Mərkəzi Dövlət Arxivi, F. 57, siyahı 1, iş 72, vərəq 29.
[52] «Kommunist» qəzeti (rusca), 1920, 10 oktyabr, № 133.

[53] «Kommunist» qəzeti (rusca), 1920, 5 iyun, № 23.
[54] «Kommunist» qəzeti (rusca), 11 avqust, № 85.
[55] «Kommunist» qəzeti (rusca), 1920, 22 oktyabr, № 144.
[56] «Kommunist» qəzeti (rusca), 1920, 20 fevral, № 40.
[57] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 75.
[58] «Kommunist» qəzeti (rusca), 1920, 20 fevral, № 40.
[59] «Kommunist» qəzeti (rusca), 1920, 20 fevral, № 40.
[60] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 75.
[61] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 80.
[62] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 101.
[63] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 102.
[64] «Народное просвещение» jurnalı. B., 1920, № 2, s. 75.
[65] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 577, siyahı 1, iş 72, vərəq 20.
[66] Резолюция 2-го съезда АКП. Баку, 1920, с. 27.
[67] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 125, iş 17, vərəq 8.
[68] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 13, iş 162, vərəq 1.
[69] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 74, iş 120, vərəq 139.
[70] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 74, iş 123, vərəq 8.
[71] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 104.
[72] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 104.
[73] Azərb. SSR Xalq Təsərrüfatı statistika külliyatı. B., 1957, s.482.
[74] Sovet hakimiyyətinin ilk illərində keçmiş dövrə aid rəsmən elan edilmiş və statistik külliyatlarda əks etdirilmiş rəqəmləri o qədər də etibarlı rəqəmlər kimi qəbul etmək çətindir.
[75] Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər). B., 1960.
[76] Azərbaycan tarixi. 7 cilddə.- C. 7.- B., 2000, s. 82.
[77] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 101.
[78] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 101.
[79] Крупская Н.К. О библиотечном деле. Сборник.- М., 1957, s. 184.

[80] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 2, iş 30, vərəq 10.
[81] «Азербайджанские известия» qəzeti. 1921.- 14 декабр, № 286.
[82] «Азербайджанские известия» qəzeti. 1921.- 14 декабр, № 281.
[83] «Азербайджанские известия» qəzeti. 1921.- 13 декабр, № 285
[84] «Азербайджанские известия» qəzeti. 1921.- 15 декабр, № 287
[85] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 188, vərəq 137.
[86] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 188, vərəq 22.
[87] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 188, vərəq 79.
[88] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 188, vərəq 79.
[89] «Бакинский рабочий» qəzeti. 1922, 5 март, № 51.
[90] «Бакинский рабочий» qəzeti. 1923, 4 iyun, № 121.
[91] «Бакинский рабочий» qəzeti. 1923, 17 iyun.
[92] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 29.
[93] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 177, vərəq 12.
[94] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 29-31.
[95] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 30.
[96] Sov İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 103.
[97] Народное образование в Азербайджане 1920-1927, Bakı, 1928, s. 88, d. 38.
[98] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 63.
[99] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 68.
[100] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 14.
[101] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 14.
[102] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 14.
[103] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 191, vərəq 3.

[104] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 11.
[105] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 14.
[106] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 10, iş 134, vərəq 12-13.
[107] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 10, iş 134, vərəq 12-13.
[108] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 76.
[109] Отчетные материалы VII сезду АКП (б). Издание ЦК АКП (б). Bakı, 1925, səh 46.
[110] «Бакинский рабочий» qəzeti, 1925, 4 dekabr, № 276.
[111] «Бакинский рабочий» qəzeti, 1925, 15 dekabr, № 287.
[112] «Бакинский рабочий» qəzeti, 1925, 21 dekabr, № 232.
[113] Отчетные материалы VII сезду АКП (б). Издание ЦК АКП (б). Bakı, 1925, s. 46.
[114] «Бакинский рабочий» qəzeti, 1922, 6 fevral, № 28.
[115] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 179.
[116] Axaşyan M.X. Записки старого библиотекаря, maşında yazılmış, Bakı, 1955, s. 14-19.
[117] Отчетные материалы VII сезду АКП (б). Издание ЦК АКП (б). Bakı, 1925, s. 46.
[118] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 10, iş 134, vərəq 12-13.
[119] Sov İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 230, vərəq 76.
[120] Sov İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 230, vərəq 77.
[121] Qəhrəmanov Ə.H. Ümumi biblioqrafiyanın əsasları. Bakı, 1958, s.83-84.
[122] Sov İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 220, vərəq 76.
[123] Резолюция и постановления VI сезда АКП (б). Бакы, 1925, s. 20.
[124] Отчет президиума Загатальского укома АКП (б) за период с В по VII уезд. Парт. Конференции. (с марта 1923 г. по апрель 1924 г.) Загатала, 1924, s. 28.
[125] «Народное просвещение» jurnalı. B., 1920, № 2, səh. 75.
[126] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 62.

[127] Народное образование в Азербайджане 1920-1927, Bakı, 1928, səh 88, d. 38.
[128] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, iş 313, vərəq 350.
[129] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 220, vərəq 79.
[130] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 29.
[131] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 177, vərəq 12.
[132] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 87, vərəq 29-31.
[133] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1,1439, siyahı 2, iş 188, vərəq 150.
[134] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 190, vərəq 37.
[135] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 190, vərəq 37-38.
[136] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 190, vərəq 37-38.
[137] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 130, vərəq 38.
[138] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 130, vərəq 39.
[139] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 130, vərəq 39.
[140] Axaşyan M.X. Записки старого библиотекаря, maşında yazılmış, Bakı, 1955, s. 14-15.
[141] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 188, vərəq 93.
[142] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 131, vərəq 2.
[143] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1,, siyahı 235, bağlı 19, iş 221, vərəq 55.
[144] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1,, siyahı 235, bağlı 19, iş 219, vərəq 187.
[145] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 190, vərəq 33.
[146] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 220, vərəq 74.

[147] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 220, vərəq 104.
[148] Azərb. SSR Maarif Nazirliyinin arxivi, F. 1114, siyahı 14, iş 20.
[149] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 74, iş 194, vərəq 64.
[150] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 220, vərəq 335.
[151] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 220, vərəq 104.
[152] Обзор деятельности правительства за 1927/28 гг. Отчет VI-му всеазербайджанскому съезду советов. Баку, 1929, s. 335.
[153] Azərb. SSR Maarif Nazirliyinin arxivi, F. 114, siyahı 14, iş 20, vərəq 35
[154] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 74, iş 194, vərəq 63-64.
[155] Резолюция и постановления VI сезда АКП (б). Бакы, 1926, səh 8.
[156] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 74, iş 200, vərəq 4-10.
[157] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 19, iş 220, vərəq 184-209.
[158] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 25, iş 313, vərəq 121.
[159] Обзор деятельности правительства за 1927/28 гг. Отчет VI-му всеазербайджанскому съезду советов. Баку, 1929, s. 336.
[160] Обзор деятельности правительства за 1927/28 гг. Отчет VI-му всеазербайджанскому сезду советов. Баку, 1929, s. 337.
[161] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 200, vərəq 45.
[162] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 200, vərəq 52.
[163] Şura Azərbaycanı rəqəmlərdə. 1929-cu il üçün. Bakı. 1929, s. 34-41.
[164] «Kommunist» qəzeti, 1930, 25 aprel. № 95.
[165] «Kommunist» qəzeti, 1930, 15 dekabr. № 293.
[166] «Kommunist» qəzeti, 1932, 28 oktyabr. № 253.
[167] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 48.
[168] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 49.
[169] «Бакинский рабочий» qəzati. 1930, 19 август, № 193.
[170] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 49.

[171] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 50.
[172] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 51.
[173] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 51.
[174] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 54.
[175] «Бакинский рабочий» qəzeti. 1927, 6 noyabr, № 260.
[176] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 835, vərəq 50.
[177] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 52.
[178] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 51.
[179] Azərb. SSR Oktyabr İnqilabı Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 179, vərəq 60.
[180] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 829, vərəq 29.
[181] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 829, vərəq 30.
[182] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 835, vərəq 50.
[183] Горш Е.А. Советские библиотеки в годы восстановления народного хозяйства. 1921-1925 годы (содержание и формы массовой работы), кандидатская диссертация, 1959, с. 113.
[184] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 835, vərəq 53.
[185] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 835, vərəq 54.
[186] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 835, vərəq 54.
[187] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 835, vərəq 53.
[188] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 835, vərəq 54.
[189] «Бакинский рабочий» qəzeti. 1926, 1 декабр, № 279.
[190] «Бакинский рабочий» qəzeti. 1926, 8 oktyabr, № 234.
[191] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 53.

[192] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 830, vərəq 54.
[193] «Бакинский рабочий» qəzeti. 1926, 8 oktyabr, № 234.
[194] Sov. İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. II hissə, Bakı, 1954, s. 538.
[195] «Kommunist» qəzeti. 1929, 27 aprel, № 97.
[196] «Kommunist» qəzeti. 1929, 27 aprel, № 97.
[197] «Kommunist» qəzeti. 1929, 27 aprel, № 97.
[198] «Kommunist» qəzeti. 1932, 28 oktyabr, № 253.
[199] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 1, siyahı 1, iş 840, vərəq 107.
[200] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 74, iş 280, vərəq 76-77.
[201] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 74, iş 280, vərəq 69.
[202] Şura Azərbaycanı rəqəmlərdə. 1929-cu il üçün, Bakı, 1928, s. 37.
[203] «Kommunist» qəzeti. 1929, 3 aprel, № 76.
[204] Azərbaycan SSR-nin 40 illiyi. Bakı, 1960, s. 304.
[205] «Бакинский рабочий» qəzati. 1928, 6 noyabr, № 272.
[206] «Kommunist» qəzeti. 1929, 25 sentyabr, № 225.
[207] «Kommunist» qəzeti. 1929, 26 sentyabr, № 226.
[208] M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanasının 25 illiyi. Kitabxanasının arxivi, Bakı, 1944, (əl yazması).
[209] Azərbaycan SSR-nin 40 illiyi. Bakı, 1960, s. 221.
[210] «Kommunist» qəzeti. 1930, 18 mart, № 61.
[211] Rəhimzadə M.Ə.Sabir adına Mərkəzi Şəhər Kitabxanasının 25 illiyi. Bakı, 1944 (əlyazması).
[212] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 597, vərəq 6.
[213] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 597, vərəq 7.
[214] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 85-90.
[215] «Kommunist» qəzeti. 1929, 27 yanvar, № 21.
[216] «Kommunist» qəzeti. 1929, 25 noyabr, № 276.
[217] «Kommunist» qəzeti. 1929, 27 yanvar, № 21.
[218] «Kommunist» qəzeti. 1930, 22 iyun, № 140.
[219] «Kommunist» qəzeti. 1931, 1 may, № 97.
[220] «Kommunist» qəzeti. 1931, 19 aprel, № 95
[221] «Kommunist» qəzeti. 1930, 6 iyun, № 121.

[222] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 31, iş 391, vərəq 20.
[223] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 31, iş 391, vərəq 77.
[224] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 172, vərəq 24-25.
[225] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1439, siyahı 2, iş 172, vərəq 26-27.
[226] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 39, iş 524, vərəq 81.
[227] «Kommunist» qəzeti. 1931, 1 may, № 97.
[228] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 39, iş 524, vərəq 63.
[229] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 39, iş 524, vərəq 82.
[230] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 39, iş 524, vərəq 81.
[231] Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 39, iş 524, vərəq 64.
[232] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 85.
[233] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 96.
[234] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 86.
[235] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 829, vərəq 158.
[236] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 158.
[237] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 829, vərəq 85.
[238] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 855, vərəq 17.
[239] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 87.
[240] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 88.
[241] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 89.
[242] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 89.

[243] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 852, vərəq 168.
[244] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 835, vərəq 51.
[245] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 852, vərəq 168.
[246] Bakı Şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, F 41, siyahı 1, iş 837, vərəq 90.
[247] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı, 6, iş 87, vərəq 16.
[248] M.F.Axundov adına kitabxana, Bakı, 1947, s. 11.
[249] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı, 6, iş 87, vərəq 64.
[250] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi, f. 1439, siyahı 2, iş 196, vərəq 1.
[251] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı, 13, vərəq 16.
[252] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı, 19, iş 221, vərəq 62.
[253] Отчетные материалы VII сезду АКП (б). Издания ЦК АКП (б). Бакы, 1925, s. 47.
[254] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı, 19, iş 220, vərəq 76.
[255] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı, 19, iş 220 vərəq 77.
[256] Азербайджанская центральная Государственная Библиотека, издательство АЦГБ, 1928, s. 4.
[257] Азербайджанская центральная Государственная Библиотека, издательство АЦГБ, 1928, s. 6.
[258] Азербайджанская центральная Государственная Библиотека, издательство АЦГБ, 1928, s. 9.
[259] M.F.Axundov adına Azərbaycan Respublikası Ümumi kitabxanası, Bakı, 1947, s. 16.
[260] Азербайджанская центральная Государственная Библиотека, издательство АЦГБ, 1928, s. 21.
[261] M.F.Axundov adına Azərbaycan Respublikası Dövlət kitabxanasının arxivi, iş № 77, bağlı 12, vərəq 4.
[262] M.F.Axundov adına Azərbaycan Respublikası Dövlət kitabxanasının arxivi, iş № 77, bağlı 12, vərəq 5.
[263] Азербайджанская центральная Государственная Библиотека, издательство АЦГБ, 1928, s. 12.

[264] M.F.Axundov adına Azərbaycan Respublikası Dövlət kitabxanasının arxivi, iş № 77, bağlı 2, vərəq 5.
[265] «Kommunist qəzeti» (rusca). 11 avqust, № 85.
[266] «Народное просвещение» jurnalı. Bakı, 1920, № 2, s. 75.
[267] «Азербайджанская беднота» qəzeti, 1920, 13 sentyabr.
[268] «Азербайджанская беднота» qəzeti, 1920, 19 oktyabr.
[269] «Народное просвещение» jurnalı. Bakı, 1920, № 2, s. 75.
[270] «Kommunist qəzeti» (rusca). 1921, 19 aprel, № 89.
[271] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 80, vərəq 13-14.
[272] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 6, iş 86, vərəq 13-14.
[273] Журнал Военмор. 1920, № 29, s. 16.
[274] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı 10, iş 135, vərəq 32.
[275] Известия ЦК Азерб. КП (б). 1921, № 5, s. 16-17.
[276] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, iş 40, vərəq 3-4.
[277] Стенографический отчет XII общей Бакинской конференции АКП, Баку, 1923, s. 21.
[278] Материалы Бакинского комитета АКП к XII парт. Конференции. Bakı, 1923, s. 31.
[279] Отчетные материалы Бакинского Комитета АКП к XIII парт. Конференции. Баку, 1924, s. 125-126.
[280] Отчетные материалы Бакинского Комитета АКП к XIII парт. Конференции. Баку, 1924, s. 125.
[281] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi. F. 1, siyahı 235, bağlı, 7, iş 39, vərəq 1-4.
[282] Материалы Бакинского комитета АКП к XII парт. Конференции. Баку, 1923, s. 31.
[283] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi, f. 1439, siyahı 2, iş 188, vərəq 150.
[284] «Бакинский рабочий» qəzeti, 1923, 4 noyabr, № 249.
[285] «Бакинский рабочий» qəzeti, 1923, 4 noyabr, № 249.
[286] Бакинский рабочий» qəzeti, 1924, 12 avqust, № 181.
[287] Отчетные материалы Бакинского Комитета АКП к XIV парт. Конференции. Бакы, 1925, s. 46.
[288] «Азербайджанская беднота»qəzeti, 1920, 13 sentyabr.
[289] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 73, vərəq 41-42.

[290] Azərbaycan SSR-nin 40 illiyi. Bakı. 1960, s. 274.
[291] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 336, vərəq 1.
[292] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 540, vərəq 63.
[293] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 540, vərəq 63.
[294] Azərbaycan SSR-nin 40 illiyi. Bakı. 1960, s. 279.
[295] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 670, vərəq 2.
[296] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 670, vərəq 3.
[297] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 670, vərəq 3.
[298] «Бакинский рабочий» qəzeti. 1928, 30 may, № 132.
[299] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 648, vərəq 1-2.
[300] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 648, vərəq 2.
[301] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 546, vərəq 53.
[302] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 546, vərəq 55.
[303] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 651, vərəq 21.
[304] Azərb. Respublikası Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 546, vərəq 50.
[305] Azərb. Respublikası İnqilabı Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 546, vərəq 31.
[306] Azərb. Respublikası İnqilabı Mərkəzi Dövlət arxivi. F. 1114, siyahı 1, iş 649, vərəq 47.
[307] Məhərrəmov A.M. Bakı Dövlət Universiteti. B., 2000, s. 54.
[308] Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər). B., 1960.
[309] Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. B., 1991, s. 92.
[310] Маковелский А.О. Азербайджанский государственный университет имени Ленина. Б., 1930.- s. 50.
[311] Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. B., 1991, s. 127.
[312] Маковелский А.О. Азербайджанский Государственный Университет имени В.И.Ленина. В., 1930, s. 51.
[313] Atakişiyev A.M. Bakı Dövlət Universitetinin tarixi.- B., 1991.- s. 102.

[314] Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər). B., 1960.
[315] Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər). B., 1960.
[316] Kitabxananın 20-ci illərə dair hesabatları saxlanmadığından biz oxucuların miqdarını universitetin tələbə və müəllim heyətinin illər üzrə artımını göstərən cədvəllər əsasında tərtib etdik. Universitet kitabxanasının qalan hesabatlarında göstərilir ki, kitabxana universitetin bütün tələbə və müəllim heyətini öz oxucuları sırasına cəlb edə bilmişdir.
[317] Алимирзоев Х.О. Азербайджанский Государственный Университет за 50 лет. Б., 1969, s. 91.
[318] Azərbaycan tarixi: 7 cildddə, C. VI, B., 2000, s. 330.
[319] Azərbaycan tarixi: 7 cildddə, C. VI, B., 2000, s. 233.
[320] Багрий А.В.Материалы для библиографии Азербайджана Б., 1924.- Вып, 1.- 87 с.
[321] Azərbaycan SSR Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası: Bələdçi.- B., 1990, s.7 .

III FƏSİL
§3. XX ƏSRİN 30-40-CI İLLƏRİNDƏ AZƏRBAYCANDA KİTABXANA İŞİ

SSRİ-də sənayeləşmənin ilk illərində əldə edilmiş nailiyyətlər xalq təsərrüfatının bütün sahələrində ciddi dönüşə səbəb olmuşdu. Bu da hökumətin daha geniş, uzun bir dövrü əhatə edən inkişaf planları hazırlamasına imkan yaratmışdı. Odur ki, partiyanın XV qurultayı xalq təsərrüfatının inkişafına dair beşillik plan hazırlamaq haqqında qərar verdi. Beşillik plan XV qurultayın direktivlərinə əsasən 1929-cu ilin aprelində partiyanın XVI konfransı tərəfindən qəbul edildi.

Beşillik planın qəbulu ölkədə sosializm quruculuğunun başa çatdırılmasının əsas amili hesab edilirdi. Bu planda ölkəmizdə xalq təsərrüfatının bütün sahələri ilə yanaşı, xalq maarifinin və mədəniyyətinin də hərtərəfli inkişafına böyük yer verilmişdi. Bu, həm də mədəni quruculuq planı idi. Birinci beşillik plan haqqında qurultayın qərarında deyilirdi: «Sosializm quruculuğu vəzifələri ilə əlaqədar olaraq beşillik planda şəhər və kənd əhalisinin mədəni səviyyəsinin qəti surətdə yüksəldilməsi zərurəti, SSRİ xalqlarının milli mədəniyyətlərinin inkişaf etdirilməsi nəzərdə tutulmalı və SSRİ-nin sosializm quruculuğuna dair ümumi planının ayrılmaz bir hissəsi olan mədəni quruculuq planı ölkənin sənayeləşdirilməsi ilə əlaqələndirilməlidir».[1]

Qurultay ölkədə ümumi məcburi təhsilin həyata keçirilməsini, savadsızlığın ləğv edilməsini mühüm vəzifələrdən biri kimi irəli sürdü, kənddə mədəniyyətin hərtərəfli inkişaf etdirilməsi işinə də xüsusi diqqət yetirdi. Qurultayın qərarında göstərilirdi: «Kənddə siyasi-maarif işi möhkəmləndirilsin və keyfiyyəti yüksəldilsin. Kənd radio qurğularının, kino işinin inkişafına, kitabxanalar şəbəkəsinin gücləndirilməsinə və s. xüsusi diqqət verilsin».[2]

Azərbaycan SSR xalq təsərrüfatının birinci beşillik

planı SSRİ xalq təsərrüfatı planının tərkib hissələrindən biri idi. Birinci beşillik plan respublikanın hərtərəfli inkişafını: sənayenin, kənd təsərrüfatının və mədəniyyətin inkişafını nəzərdə tuturdu. Birinci beşillikdə Azərbaycan inkişaf etmiş sənaye respublikasına çevrilməli idi.

Birinci beşillikdə respublikamızın sənayesinə 747,25 milyon manat pul ayrılmışdı. Beşillikdə neft sənayesinin tamamilə yenidən qurulması nəzərdə tutulmuşdu. Birinci beşillik planda Azərbaycanda maarif və mədəniyyətin inkişafına xüsusi diqqət yetirilirdi. Respublikamızda bu beşillikdə mədəniyyət işinə ayrılan vəsaitin xeyli artırılması nəzərdə planlaşdırılmışdı.

Respublikanın beşillik maarif planının əsasını ümumi icbari təhsil təşkil edirdi. Bu plana görə, bir nəfər də olsun savadsız qalmamalı idi. Beşillik planın birinci ilində respublikanın məktəblərində 177 min şagird var idisə, beşilliyin axırında, yəni 1932-ci ildə onların sayı 271 min nəfərə çatdırılmalı idi.

Mədəni quruculuq planının ikinci mühüm sahəsi yaşlı əhali içərisində savadsızlığın ləğv edilməsi idi. Beş il müddətində 18 yaşından 35 yaşınadək bütün əhalinin savadsızlığının ləğv edilməsi nəzərdə tutulmuş, savadsızlığı ləğv məntəqələrinin sayının artırılması qərara alınmışdı.[3]

1929-cu ildə Azərbaycanda 1600 savadsızlığı ləğv məntəqəsi var idisə, beşilliyin axırında onların sayının 3650-yə çatdırılacağı nəzərdə tutulmuşdu. 1929-cu ildə qəzalarda savadsızlığı ləğv məntəqələrində 38 min adam öz savadsızlığını ləğv edirdisə, beşilliyin axırında onların sayı 305 min nəfər olmalı idi. Birinci beşillikdə savadsızlığın ləğvinə Bakıdan başqa bütün Azərbaycanda 5 milyon 644 min manat sərf ediləcəyi qərara alınmışdı. 1926-cı ildə respublikamızda cəmi 18% savadlı var idisə, birinci beşilliyin axırına qədər onların sayının ikiqat artırılacağı nəzərdə tutulmuşdu.

Birinci beşillikdə şəhərlə yanaşı, kəndlərdə də böyük mədəni tədbirlər həyata keçirilməli idi. Kəndlərdə zəhmət-

keş kəndli kütlələrinin sovet aparatlarına geniş cəlb edilməsi və savadsızlığın kütləvi surətdə ləğv edilməyə başlanması kəndlilərdə mədəniyyətə və biliyə böyük bir maraq oyatmışdı. Birinci beşillikdə kəndlərdə əsas mədəniyyət ocaqları olan kitabxanalara, qiraət komalarına və köçərilər üçün qızıl yurdların təşkilinə və onların işinin yaxşılaşdırılmasına 2 milyon manatdan artıq vəsait ayrılmışdı. Beşilliyin axırında Azərbaycanın kəndlərində ayrıca qiraətxanalara və kitabxanalara malik 608 mükəmməl qiraət komaası olacağı nəzərdə tutulmuşdu.[4]

Birinci beşillik müddətində bütün mədəniyyət vasitələrinin, o cümlədən klubların, radio qovşaqlarının, kitab nəşrlərinin geniş surətdə inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilirdi.

Bu böyük tədbirləri həyata keçirmək üçün Azərbaycan Sovet hökuməti birinci beşillikdə respublikada maarif və mədəniyyət işinə qəzalarda 267 milyon manat, Bakı şəhərində isə 49 milyon manat xərcləməli idi.[5]

Birinci beşillikdə respublikada kitabxana işinin inkişafına xüsusi diqqət yetirilirdi. Beşilliyin axırında Azərbaycanda kitabxanaların sayının 140-a çatdırılması planlaşdırılmışdı.[6] Bu kitabxanalardan 76-sı Bakı və onun rayonlarında, qalanları isə Azərbaycanın qəzalarında təşkil edilməli idi. 1926-cı ildə Azərbaycanda cəmi 108 kitabxana var idi. Deməli, birinci beşillikdə respublikamızda 21 müstəqil kitabxana təşkil edilməsi nəzərdə tutulmuşdu. Bu rəqəmə qiraət komalarının yanındakı kitabxanalar, həmkarlar təşkilatlarının kitabxanaları, ayrı-ayrı idarə və müəssisələrin kitabxanaları daxil edilməmişdi.

Birinci beşillik plana görə, kitabxanalara ayrılan vəsaitin də müntəzəm olaraq artırılması nəzərdə tutulmuşdu. Bunu Bakı, onun rayonları və Bakı qəzasının kitabxana işinin inkişaf etdirilməsinə dair beşillik plandan görmək olar:

Kitabxana işinin inkişaf etdirilməsinə dair beşillik plan

İllər	Kitabxanalar olmalıdır	Kitabxanaların büdcəsi olmalıdır
1928/29	49	304194
1929/30	60	450900
1930/31	68	499300
1931/32	76	471700
1932/33	76	517700[7]

Rəqəmlərdən məlum olur ki, göstərilən illərdə kitabxana işinə ayrılan vəsait müntəzəm olaraq artırılmışdır.

Birinci beşillik dövrü kitabxanaların təkcə kəmiyyət cəhətdən deyil, həm də keyfiyyətcə, məzmunca inkişaf etməsi illəri idi. Bu müddətdə kitabxanalar partiya, hökumət tərəfindən həyata keçirilən bütün tədbirlərdə fəal iştirak etməklə yanaşı, xalqın məişətinə daxil olmağa başlamış, bir mədəni müəssisə kimi zəhmətkeşlərin sevimli mütaliə mərkəzi olmuşdu. Kitabxanaların genişlənməsinə böyük tələbat əmələ gəlmiş, kənd yerlərində yeni kitabxanaların təşkili haqqında səslər ucalmağa başlamışdı. Belə bir ehtiyacın olmasının başlıca səbəbi respublikamızın hərtərəfli inkişafı və zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəlməsi ilə əlaqədar idi.

Birinci beşillik planın həyata keçirildiyi və kənd təsərrüfatının kollektivləşdirildiyi dövrdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi və Azərbaycan Sovet hökuməti respublika mədəni-maarif işinin, o cümlədən kitabxana işinin inkişafına xüsusi diqqət yetirirdi. 1928-ci il sentyabr ayının 24-də Azərbaycan K(b)P MK-nın rəyasət heyəti respublika Baş Siyasi-Maarif İdarəsinin işi haqqında məsələ müzakirə etdi. Rəyasət heyəti kənddə siyasi-maarif müəssisələrinin işində bir sıra ciddi nöqsanlar olduğunu qeyd etdi. Kənd siyasi-maarif müəssisələrinin əksəriyyəti (bu zaman kənd yerlərində 41 klub, 21 kitabxana, 238 qiraət

komaası var idi) yerli büdcələrdə olduğundan onlara lazımi vəsait buraxılmırdı, siyasi-maarif müəssisələri işçilərinin aylıq zəhmət haqqının çox az olması ümumi işin gedişinə və belə müəssisələrdə çalışmaq üçün bacarıqlı kadrların seçilməsinə mənfi təsir göstərirdi.[8]

Rəyasət heyəti bu nöqsanları aradan qaldırmaq və kənd mədəni-maarif müəssisələrini yerlərdə partiya təbliğatının mərkəzinə çevirmək üçün 1928-ci ildə kəndlərdə siyasi-maarif işinə 100.000 manat əlavə vəsait ayrılmasını və bu məbləğin Maarif Nazirliyinin payına düşən Neft Fondu hesabına ödənilməsini, kooperasiyanın mədəni fonda ayırdığı vəsaitin Baş Siyasi-Maarif İdarəsinin ixtiyarına verilməsini lazım bilmişdi.[9]

1929-cu ildə tərtib edilmiş statistik məlumata görə, Azərbaycanda 114 kitabxana və həmin kitabxanalarda 90.291 oxucu var idi ki, bunun da 24.643 nəfəri qadınlar idi.[10]

§ 3.1. Xalq təsərrüfatının yenidən qurulmasının başa çatdırılması illərində Azərbaycanda kitabxana işi. Mədəni quruculuq yeni mərhələdə

Sovetlər Birliyində sənayeləşdirilmənin ilk illərində əldə edilmiş mühüm nailiyyətlər bütün ölkə miqyasında xalq təsərrüfatının və mədəni quruculuğun daha geniş və uzun müddətli planlarının qəbul edilməsinə şərait yaratdı.

Birinci beşillik planın vaxtından əvvəl yerinə yetirilməsi Kommunist Partiyasına hələ 1932-ci ildə ikinci beşillik plan hazırlamaq imkanı verdi. 1934-cü ildə çağırılmış ÜİK (b) P-nin XVII qurultayı «1933-1937-ci illərdə SSRİ xalq təsərrüfatını inkişaf etdirməyə dair ikinci beşillik planı» qəbul etdi. Plan 1934-cü ilin noyabrında SSRİ MİK və XKS tərəfindən təsdiq edildi.

İkinci beşillik planda sosializm quruculuğunun tərkib hissəsi olan mədəni inqilabın müvəffəqiyyətlə inkişaf etdirilməsi üçün geniş perspektivlər nəzərdə tutulmuşdu. Mədə-

niyyətin iqtisadiyyat və siyasətlə sıx əlaqədə olduğunu qeyd edən N.K.Krupskaya göstərirdi ki, «Mədəniyyət elementdir - onsuz sosializmin binasını tikmək olmaz».[11]

Məhz buna görədir ki, ikinci beşillikdə bütün SSRİ-də olduğu kimi Azərbaycanda da mədəni inqilabın daha geniş miqyasda davam etdirilməsi üçün böyük tədbirlər nəzərdə tutulmuşdu. Bu tədbirlər içərisində savadsızlığın və azsavadlılığın ləğv edilməsi xüsusi yer tuturdu. Birinci beşillik dövründə bu sahədə mühüm işlər görülməsinə baxmayaraq, partiya və dövlət tərəfindən qarşıya qoyulan vəzifələr hələ də yerinə yetirilməmişdi. 1933-cü ilin axırında respublikada əhalinin ancaq 50,9 faizi savadlı idi.[12] Buna görə də savadsızlığın ləğv edilməsi uğrunda mübarizə ikinci beşilliyin mühüm vəzifələrindən biri idi.

1935-ci ildə keçirilən VIII Ümumazərbaycan Sovetlər qurultayı respublikada savadsızlığın ləğvi sahəsində aparılan işdə ciddi qüsurlar olduğunu göstərdi və savadsızlığın aradan qaldırılmasına dair geniş proqram hazırladı. Qurultayın qərarında deyilirdi: «Yaxın müddət ərzində savadsızlığın ləğvini başa çatdırmaq və ikinci beşilliyin axırınadək 50 yaşına qədər bütün əhalinin savadsızlığını aradan qaldırmaq» lazımdır.[13] Respublikada savadsızlığın ləğv edilməsi işi ümumxalq, ümumdövlət xarakteri almışdı.

İkinci beşillik Azərbaycanda savadsızlığın və azsavadlılığın aradan qaldırılmasında dönüş illəri olmalı idi.

1931-1934-cü illərdə savadsızlığın ləğv edilməsi məktəblərini 900 min nəfər bitirmişdi.[14] 1935-ci ildə savadsızlığı ləğv məntəqələrində və azsavadlılar üçün məktəblərdə 292 min nəfər, 1936-cı ildə isə 496 min nəfər oxumuşdu. 1937-ci ildə savadsızlığı ləğv məktəblərini 216 min nəfər qurtarmışdı.[15] Beləliklə, 1937-ci ildə Azərbaycan əhalisinin 73,3 faizi savadlanmışdı. Göründüyü kimi, respublikada savadsızlığın ləğv edilməsində ikinci beşillik dövrü xüsusi mərhələ təşkil edir.

Savadsızlığın ləğvi işi üçüncü beşillik dövründə daha da genişlənmişdi və bunun nəticəsində artıq 1941-ci ildə

Azərbaycan əhalisi arasında savadsızlıq tamamilə aradan qaldırıldı. Azərbaycan başdan-başa savadlılar ölkəsinə çevrildi. Bu, Azərbaycan xalqının əldə etdiyi çox böyük mədəni nailiyyət idi.

İkinci beşillik dövründə partiya və dövlət ölkədə xalq maarifinin inkişafına xüsusi diqqət və qayğı göstərmişdir. Bu diqqət və qayğının nəticəsi olaraq 1933-1934-cü dərs ilində Azərbaycanda ümumi icbari ibtidai təhsil əsasən başa çatdırıldı. 1934-1935-ci dərs ilində ümumi yeddiillik təhsilə keçildi.

Müharibədən əvvəlki beşilliklər dövründə respublikada yeddiillik və orta məktəblərin sayı xeyli artmaqla yanaşı, onların təlim-tərbiyə işi yaxşılaşdı və maddi-texniki bazaları əsaslı surətdə genişləndi.

1934-cü ildə respublikada olan 943 yeddiillik məktəbdə 76.099 şagird oxuduğu halda, 1940-cı ildə 1234 yeddiillik məktəbdə 189.114 şagird oxuyurdu. Orta məktəblərin sayı 12.5 dəfə artaraq 1934-cü ildəki 51-dən 642-yə, VIII-X siniflərdə oxuyan şagirdlərin miqdarı isə 15 dəfə artaraq 4.312 nəfərdən 59.944 nəfərə çatdı.[16]

Bu, rəqəmlərdən görünür ki, ikinci və üçüncü sosialist beşilliyi dövründə respublikamızda xalq maarifi misli görünməmiş inkişaf yolu keçmişdir. Xalq maarifi sahəsində əldə edilən nailiyyətlər respublikanın mədəni tərəqqisinə, zəhmətkeşlərin ümumi mədəni səviyyəsinin yükəlməsinə və mədəni quruculuğun bütün sahələrinin sürətli inkişafına olduqca müsbət təsir göstərirdi.

Azərbaycanda Sovet hakimiyyəti illərində əldə edilmiş ən böyük mədəni nailiyyətlərdən biri də kitab nəşrinin misilsiz inkişafı idi. Kitab nəşrini hərtərəfli inkişaf etdirmədən ölkədə mədəni inqilabı həyata keçirmək, sosializm quruculuğu şəraitində zəhmətkeşlərin elmi biliyə durmadan artan tələbatını ödəmək mümkün olmazdı.

Azərbaycanda ana dilində kitab nəşrinin genişlənməsi üçün hər şeydən əvvəl siyasi şərait yaranmış, xalqla kitab,

maarif və mədəniyyət arasında mövcud olan sədd birdəfəlik aradan qaldırılmış, kitab geniş kütlələrin malına çevrilmişdi.

Birinci beşilliyin axırında respublikada 4 nəşriyyat fəaliyyət göstərirdi. Bu nəşriyyatlar 1920-1956-cı illərdə 2778 adda 185.946, 2 nüsxə tirajla kitab nəşr etmişdi.[17]

Birinci və ikinci beşilliklər dövründə Azərbaycanda dörd nəşriyyat – Azərbaycan Dövlət Nəşriyyatı - Azərnəşr (1932)[18], SSRİ Elmlər Akademiyası Azərbaycan filialının nəşriyyatı (1932)[19], Azərfirqənəşr (1933)[20], Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı (1938)[21] təşkil edilmişdi. Bu dövrdə respublikada nəşriyyatların maddi və poliqrafiya bazasının möhkəmləndirilməsinə və genişləndirilməsinə xüsusi diqqət yetirilirdi. Sovet hakimiyyətinin ilk illərindən başlayaraq nəşriyyat işinə ayrılan vəsait müntəzəm olaraq artırılırdı. 1937-ci ildə 1933-cü ilə nisbətən kitab nəşrinə ayrılan vəsait 2 dəfə çoxalmışdı.[22]

İkinci və üçüncü beşillik dövründə kitab nəşri işi mədəni quruculuğun mühüm sahələrindən biri kimi müntəzəm olaraq inkişaf etdirilmiş, onun mövzusu, əhatə dairəsi genişlənmiş, maddi-texniki və poliqrafiya bazası daha da möhkəmləndirilmişdi.

Ümumiyyətlə, birinci beşillikdə respublikamızda 5.952 adda 24.052,6 nüsxə tirajla, 1933-1940-cı illərdə isə 8.353 adda 55.995,2 nüsxə tirajla kitab çap edilmişdi.[23] Bu dövrdə kitablar ad və tiraj etibarilə artdığı kimi həcm etibarilə də artmışdı. Belə ki, təkcə 1933-1940-cı illərdə 297.728,4 basma çap vərəqi həcmində kitab buraxılmışdı.[24]

İkinci və üçüncü beşilliklər dövründə respublikamızda kitab nəşri sahəsində əldə edilmiş bu müvəffəqiyyətlər respublikanın elmi və mədəni həyatında olduqca müsbət təsir göstərir, xalq maarifinin, ali təhsil sisteminin, elmin və nəhayət, kitabxana işinin inkişafı üçün əsaslı zəmin hazırlayırdı.

§3.2. Kitabxana işi sahəsində mühüm dövlət sənədləri

Kütlələr arasında ideya-tərbiyə və mədəni-maarif işinin təşkilində kitabxanaların rol və əhəmiyyətinin yüksəlməsi

Ölkəmizdə kitabxana işinin inkişafında ÜİK (b) P XVII qurultayı qərarlarının böyük əhəmiyyəti oldu.[25]

Qurultay xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulmasının başa çatdırılması mərhələsində kitabxana işinin əsas məzmununu və istiqamətini müəyyənləşdirdi. Qurultayın qərarında göstərilirdi ki, mədəni-maarif müəssisələrinin fəaliyyəti partiyanın zəhmətkeşlər arasındakı ideoloji işinin ayrılmaz hissəsidir. Ona görə də mədəni-maarif işinin geniş inkişafı beşilliyin vəzifələri ilə, siyasi-maarif işi ilə və zəhmətkeşlərin mədəni istirahətinin təşkili vəzifələri ilə sıx surətdə əlaqələndirilməlidir.

Partiyanın ideoloji işinin həyata keçirilməsində kitabxanalar mühüm rol oynamalı idilər. Qurultayın qərarında: «Məktəbdənkənar kütləvi işin geniş inkişaf etdirilməsi və zəhmətkeş kütlələrin mədəni istirahətinin təşkili ilə sıx əlaqələndirilməsi, şəhərdə və kənddə klub şəbəkəsinin 1932-ci ildəki 6,8 minə qarşı 10,9 minə çatdırılması (şəhərlərdə 10,5 faiz, kəndlərdə isə 30 faiz artırılması) və kütləvi kitabxanalar şəbəkəsinin 15 minə qarşı 25 minə çatdırılması»[26] qeyd edilirdi.

Savadsızlığın və azsavadlılığın aradan qalxması, sovet məktəblərinin möhkəmlənməsi, ümumi ibtidai təhsilin həyata keçirilməsi, əhali arasında mütaliəyə marağın artması şəxsi təhsilin əhəmiyyətini olduqca artırırdı. Şəxsi təhsilin zəhmətkeşlərin ümumi mədəni səviyyəsinin yüksəldilməsində, onların siyasi, politexnik, texniki və elmi-təbii biliklərə yiyələnməsində olduqca böyük rolu var idi.

Məhz şəxsi təhsilin bu böyük əhəmiyyətini nəzərə alan ÜİK (b) P MK 1933-cü il oktyabrın 8-də «Şəxsi təhsil işinin

yaxşılaşdırılması haqqında»[27] xüsusi qərar qəbul etdi. Zəhmətkeşlərin şəxsi təhsil işinin yaxşılaşdırılmasında çox böyük rol oynayan bu qərarda şəxsi təhsilin rol və əhəmiyyəti, təşkili, vəzifələri və məzmunu geniş şəkildə izah edilir və şəxsi təhsil işinə bilavasitə məsul olan müəssisələrin vəzifələri şərh edilirdi.

Bu qərarın əsas hissəsi kitabxanaların fəaliyyətinə həsr edilmişdi. Kitabxanalar əhalinin şəxsi təhsil işində mühüm müəssisə hesab edilməklə onların vəzifələri müəyyənləşdirilirdi. Zəhmətkeşlərə bilavasitə kitabla xidmət edən kitabxanalar, kitabı təbliğ və tövsiyə etməklə yanaşı, oxucuların mütaliəsinə rəhbərlik etməli, onu istiqamətləndirməyi bacarmalı, beləliklə də öz bilik və bacarığını, ixtisasını, sənətini şəxsi təhsil yolu ilə yüksəldən bütün zəhmətkeşlərə bu işdə yaxından kömək etməli idilər. Məhz buna görədir ki, qərarda kitabxanaların qarşısında çox mühüm şəxsi təhsil işinin müvəffəqiyyətli təşkili kitabxanaçı kadrların, onların ümumi mədəni səviyyəsindən, pedaqoji ustalığından və bu mühüm işə diqqətli münasibətindən olduqca çox asılı idi. Həmçinin şəxsi təhsilin müvəffəqiyyətlə təşkili oxuculara fərdi yanaşmağı, onların tələbatını hərtərəfli öyrənməyi, mütaliə vərdişi aşılamağı tələb edirdi. Odur ki, Mərkəzi Komitənin «Şəxsi təhsil işi haqqında» qərarında kitabxanaçı kadrların seçilməsinə, onların ixtisasının artırılmasına xüsusi diqqət yetirilirdi.

Mərkəzi Komitənin bu qərarı ölkədə şəxsi təhsil işinin qaydaya salınması və yaxşılaşdırılmasında çox mühüm rol oynadı. Qərar kitabxanaları adi texniki kitab alıb verən bir müəssisədən, kitabı tövsiyə edən, oxucuların şəxsi təhsilinə rəhbərlik edən, mütaliənin məzmununa təsir edən mədəni-maarif müəssisələrinə çevirirdi.

ÜİK(b)P-nin XVII qurultayının ölkədə kitabxana işinin inkişaf etdirilməsinə dair direktivləri öz konkret şərhini SSRİ Mərkəzi İcraiyyə Komitəsinin «SSRİ-də kitabxana işi haqqında»[28] (27 mart 1934-cü il) qərarında tapdı. Ölkəmizdə

sosializm quruculuğu şəraitində zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəldilməsində, mədəni inqilabın daha da genişləndirilməsində kitabxana işinin mühüm əhəmiyyətini qeyd edən bu qərarda kitabxana işi inkişafının gələcək perspektivləri müəyyənləşdirilmişdir.

Qərarda sovet hakimiyyəti illərində kitabxana işi sahəsində əldə edilmiş nailiyyətlər qeyd edilməklə bərabər, bu sahədə hələ ciddi nöqsan və çatışmazlıqlar da olduğu qeyd edilirdi. Həmçinin bütün müttəfiq respublikaların icariyyə komitələrinə təklif edilirdi ki, kitabxana işinə rəhbərlik etmək, kitabxana işinə dövlət nəzarətini həyata keçirmək, kitabxanaçı kadrlar hazırlamaq və s. üçün Xalq Maarif Komissarlığının yanında kitabxanaçılıq idarələri, muxtar respublikalarda, ölkə və vilayətlərdə, həmçinin böyük şəhər sovetlərinin mədəni-kütləvi şöbələrinin yanında kitabxanaçılıq bölmələri yaratsınlar. Eləcə də Mərkəzi həmkarlar ittifaqlarının mədəni-kütləvi şöbələrinin yanında da bölmələr, rayon və şəhər xalq maarif şöbələrinin yanında isə kitabxana işinə dövlət rəhbərliyini həyata keçirmək üçün müfəttişlər olması məqsədəuyğun hesab edilirdi.

Qərarda müxtəlif nazirliklərin, idarə və təşkilatların kitabxanalarının işini əlaqələndirmək, onların ümumi əsaslarını hazırlamaq üçün müttəfiq respublikaların xalq maarif komissarlıqlarının yanında idarələrarası kitabxana şuralarının yaradılması zərurəti irəli sürülürdü.

Qərarda kitabxanaçı kadrların işə qəbul edilməsi üçün müəyyən qayda yaradılması: ölkə, vilayət və rayon kitabxana işçilərinin ölkə və vilayət xalq maarif şöbələri tərəfindən təyin edilməsi müəyyənləşdirildi. Həmkarlar İttifaqı kitabxana işçiləri isə ölkə, vilayət və rayon həmkarlar təşkilatları tərəfindən təyin və təsdiq edilməli idilər.

Qərarda məktəb kitabxanalarının təşkilinə xüsusi diqqət yetirilirdi. Maarif Komissarlığından tələb edilirdi ki, bütün məktəblərdə uşaqlara xidmət etmək üçün məktəb kitabxanaları açsın.

Qərarda oxuculara xidmət işinin kökündən yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir, kitabxana fondlarının qorunmasına nəzarətin güclənməsi və 1974-cü ildə kitabxanaların Ümumittifaq siyahıyaalınmasının keçirilməsi məsləhət görülürdü. Kitabxanaların komplektləşdirilməsi və tənqid-biblioqrafiya işinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilirdi. Bu məqsədlə tənqid-biblioqrafiya institutunun kitab ticarəti birliyi sistemindən alınıb Maarif Komissarlığına verilməsi və müttəfiq respublikalarda oxuculara tənqid-biblioqrafiya xidməti göstərmək üçün müttəfiq respublikaların maarif komissarlığı sistemində belə şöbələr yaradılması məsləhət görülürdü.

Bu dövrdə kitabxana işinin hərtərəfli yaxşılaşdırılmasında kitabxanaçı kadrların rolu böyük idi. Mütəxəssis kitabxanaçı kadrlar hazırlamaq, mövcud kadrları təkmilləşdirmək, onları dövrün yüksək tələblərinə uyğunlaşdırmaq lazım idi.

Məhz buna görə də SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qərarında bu məsələyə xüsusi diqqət yetirilir, yaxın gələcəkdə kadr hazırlığı probleminin perspektivləri müəyyənləşdirilirdi. Maarif Komissarlığına, həmkarlar ittifaqlarına və SSRİ Plan Komitəsinə tapşırılırdı ki, ikinci beşilliyin axırına qədər ali və orta ixtisaslı mütəxəssis kitabxanaçı kadrlar hazırlamaq işini əhəmiyyətli dərəcədə genişləndirsinlər. Respublika, vilayət, ölkə, rayon, kənd və fabrik, zavod kitabxanalarını mütəxəssis kadrlarla təmin etmək, onların ixtisasını artırmaq üçün mühüm tədbirlər görsünlər. Bu məsələdə Moskva kitabxanaçılıq, Leninqrad və Xarkov siyasi-maarif institutlarına tələbə qəbulunun artırılması, onların maddi-texniki bazalarının genişləndirilməsi zəruri hesab edilirdi.

Qərar ölkədə kitabxana işinin yenidən qurulması, yeni kütləvi və elmi, xüsusi kitabxanalar şəbəkəsinin yaradılması, oxuculara xidmət işinin kökündən yaxşılaşdırılması, kitabxana fondlarının yeni ədəbiyyatla komplektləşdirilməsi kitabxanaların maddi-texniki bazasının möhkəmlənməsində

böyük canlanmaya səbəb oldu. Qərar bütün partiya, sovet orqanlarının və ictimai təşkilatların diqqətini kitabxana işinə cəlb etdi. Yerlərdə kitabxana işinə diqqət daha da artırılırdı.

Qərarı yerinə yetirmək məqsədi ilə müttəfiq respublikaların mərkəzi icraiyyə komitələri, xalq komissarları sovetləri, ölkə vilayət, rayon, partiya və sovet orqanları kitabxana işinə dair xüsusi qərarlar qəbul etdilər.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan SSR Xalq Komissarları Soveti 1935-ci il iyun ayının 4-də SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 27 mart 1934-cü il tarixli «SSRİ-də kitabxana işi haqqında» qərarına uyğun olaraq «Azərbaycan SSR-də kitabxana işi haqqında» geniş qərar qəbul etdi.[29] Bu qərarda respublikamızda ilk dəfə olaraq kitabxana işinin bütün sahələri kompleks halında götürülür, təhlil edilir və onun konkret olaraq necə yaxşılaşdırılması yolları müəyyənləşdirilirdi. Qərarda kitabxana işi mədəni inqilabın əsas sahələrindən biri kimi qiymətləndirilir, sosializm quruculuğunun yeni mərhələsində zəhmətkeşlərin kommunist tərbiyəsi, təhsili və ümumi mədəni səviyyəsinin yüksəldilməsində onların fəaliyyətinə xüsusi diqqət yetirilirdi.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarında respublikada kitabxana işinə rəhbərliyi yaxşılaşdırmaq üçün Xalq Maarif Komissarlığının yanında kitabxanaçılıq idarəsi yaradılması və tabe olduğu nazirliklərdən, idarə, müəssisə və təşkilatlardan asılı olmayaraq bütün kitabxanalara dövlət nəzarətinin ona həvalə edilməsi qeyd olunurdu. Naxçıvan MSSR Maarif Komissarlığının və Dağlıq Qarabağ Muxtar Vilayətinin xalq maarifi şöbəsində kitabxanalar üzrə inspektorlar ayrılması, həmçinin bütün rayonların xalq maarifi şöbələrində belə inspektor vəzifələrinin müəyyənləşdirilməsi nəzərdə tutulmuşdu. Azərbaycan SSR Həmkarlar İttifaqları Şurasında da kitabxana bölməsi yaradılmışdı.

Respublikada kitabxana işini əlaqələndirmək və onların iş təcrübəsini ümumiləşdirmək məqsədi ilə Azərbaycan Xalq Maarif Komissarlığı nəzdində Həmkarlar İttifaqları Şurası, Yerli Sənaye Komissarlığı, Nefçilər İttifaqı, Zaqafqaziya dəmiryolunun üçüncü sahəsi, Azərbaycan LKGİ MK, Azərnəşr, Bakı Xalq Maarif Şöbəsinin nümayəndələrindən və təcrübəli kitabxana işçilərindən ibarət kitabxana işi üzrə şura təşkil edildi.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarında kitabxanalara işçilərin qəbulu üçün də qaydalar müəyyənləşdirilirdi. Qərarda Xalq Komissarlığının yanında ixtisas komissiyalarının yaradılması və bütün kitabxana işçilərinin bu komissiyadan keçirilməsi məsləhət bilinirdi. Bütün nazirliklərə, idarə, müəssisə və təşkilatlara öz kitabxana işçilərini Maarif Komissarlığının ixtisas komissiyalarından keçirmələri həvalə edilmişdi.

Qərarda kənddə kitabxana işinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir. Xalq Maarif Komissarlığına, Xalq Torpaq Komissarlığına, AHİŞ-ə tapşırılırdı ki, sovxozlarda və hər 10 MTC-də bir dayaq kitabxanası təşkil etsinlər və kolxoz kitabxanalarına əməli kömək göstərsinlər.

Uşaqlara kitabxana xidmətinin yenidən qurulmasına və onun daha da yaxşılaşdırılmasına xüsusi diqqət yetirilirdi. Bütün məktəblərdə məktəb kitabxanalarının yaradılması və mövcud uşaq kitabxanalarının və kütləvi kitabxanaların uşaq şöbələrinin işinin daha da yaxşılaşdırılması zəruri hesab edilmişdir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin və Azərbaycan SSR Xalq Komissarları Sovetinin «Azərbaycanda kitabxana işi haqqında» qərarında SSRİ Mərkəzi İcraiyyə Komitəsinin «SSRİ-də kitabxana işi haqqında» qərarında irəli sürülən bütün müddəalar respublikanın şəraitinə uyğunlaşdırılmış şəkildə öz konkret əksini tapmışdır. Qərar respublikada kitabxana işinə bütün partiya, sovet və ictimai təşkilatların diqqətini cəlb etdi. Kitabxana işi respublikanın mədəni quruculuq planının tərkib hissəsi kimi inkişaf edib təkmil-

ləşməyə başladı.

Qərar ikinci beşillikdə respublikada kitabxana işinin inkişaf etdirilməsi sahəsində nəzərdə tutulmuş göstəriciləri yerinə yetirmək imkanı yaratdı. İkinci beşillikdə respublikada kütləvi kitabxanaların sayı 985-ə çatdırıldı ki, bu da birinci beşillikdə olduğundan 818 ədəd çox idi.[30]

Kitabxana fondlarının qorunmasına dövlət nəzarətinin güclənməsində və kitabxana fondlarının qorunmasına şəxsi məsuliyyətin artırılmasında Azərbaycan SSR Xalq Komissarları Şurasının «Kitabxana fondunun mühafizə olunması üçün məsuliyyət haqqında» 1935-ci il tarixli qərarının[31] çox mühüm əhəmiyyəti oldu. Qərarın respublikada kitabxana fondlarının dövlət əmlakı kimi qorunmasında, kitab saxlayıcılarının yaxşılaşdırılmasında, oxucular arasında kitabxana kitablarına qayğıkeş münasibətin tərbiyə edilməsində çox böyük rolu oldu. Azərbaycan Xalq Komissarları Şurasının bu qərarı kitabxana fondlarının qorunması sahəsində müəyyən qayda yaratmaqla, gələcəkdə kitabxana işinin inkişafı üçün çox geniş perspektivlər açdı. Kitabxanaların oxuculara xidməti sahəsində fəaliyyətinə olduqca müsbət təsir göstərdi.

§ 3.3. Əhaliyə kitabxana xidmətinin yeni forma və üsullarının təşəkkülü və formalaşması. Kütləvi kitabxana şəbəkəsinin inkişafı

Ölkənin sosialistcəsinə sənayeləşdirilməsi və kənd təsərrüfatının komplektləşdirilməsi illərində Azərbaycanda kitabxana quruculuğu sahəsində böyük müvəffəqiyyətlər əldə edilmiş, kitabxana şəbəkələri inkişaf etdirilib təkmilləşdirilmişdi. Kitabxanaların maddi-texniki bazası möhkəmlənmiş, oxuculara xidmət işi yaxşılaşmışdı.

Birinci beşillik müddətində respublikada kütləvi kitabxanaların sayı 87-dən 167-yə, onlardakı kitab fondu 938,2 min nüsxədən 1.757,1 min nüsxəyə çatdı.[32] Bu dövrdə kənd

kitabxanaları on dəfədən, onların kitab fondu isə üç dəfədən çox artmışdı. Bu, Azərbaycan kəndinin həyatında çox böyük nailiyyət idi. Əgər 1929-cu ildə kənd yerlərində 26,8 min[33] nüsxə kitab fonduna malik olan beş müstəqil kənd kitabxanası var idisə, 1933-cü ildə kitabxanaların sayı 57-yə, kitab fondu isə 80,1 minə çatmışdı. Bu dövrdə kənd yerlərində əhaliyə kitabxana xidməti əsasən kənd qiraət komaları tərəfindən həyata keçirilirdi. Qiraət komalarının inkişafına və onların maddi-texniki bazalarının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilirdi. Əgər 1929-cu ildə Azərbaycanda 190 qiraət koması var idisə, 1933-cü ildə onların sayı 394-ə çatmışdı.[34] Birinci beşillik müddətində kənd yerlərində 204 qiraət koması təşkil edilmişdi. Qiraət komalarında əhaliyə kitabla xidmət işinin məzmunu da xeyli yaxşılaşmışdı.

Bu dövrdə Azərbaycanın kənd yerlərində klub müəssisələrinin demək olar ki, əksəriyyətində, xüsusilə müstəqil kitabxanaları və qiraətxanaları olmayan kənd klublarında qiraətxanalar təşkil edilirdi. Belə klublar uzun müddət kəndlərdə müstəqil, yeni kənd kitabxanaları yaranana qədər əhaliyə kitabxana xidmətinin təşkilində mühüm rol oynamışlar. Birinci beşillik dövründə respublikamızda klub müəssisələrinin sayı əhəmiyyətli dərəcədə artmışdır. Əgər 1929-cu ildə Azərbaycanda 90 klub var idisə, 1933-cu ildə onların sayı 667-yə çatmışdı. Kənd yerlərində klubların sayı xüsusilə çoxalmışdı. 1929-cu ildəki 171 klub əvəzində 1933-cü ildə 515 klub fəaliyyət göstərirdi. Yəni birinci beşillik dövründə 344 klub açılmışdı.[35] Kənd yerlərində müstəqil kitabxanalar olmadığından kənd klubları əhaliyə kitabla xidmət işinə xüsusi diqqət yetirir, kitab təbliği işini kəndin siyasi təbliğat işi ilə əlaqələndirirdilər. Klub yanında olan kitabxanalarda və qiraətxanalarda kitabları təbliğ etmək üçün kütləvi işlər də aparılırdı. Kütləvi işlər sırasında o dövrün xarakterinə uyğun olan ucadan oxular və kitab sərgiləri mühüm yer tuturdu. Klub kitabxanaları fabriklərdə, zavodlarda, sexlərdə partiya qurultayının materiallarına, beşilliyin sənədlərinə

dair müntəzəm surətdə ucadan oxular təşkil edirdilər.

Klub kitabxanaları və qiraətxanaları fəhlə və kolxozçuların şəxsi təhsilinə kömək etmək məqsədi ilə şəxsi təhsil kabinələri təşkil edilirdi. Belə kabinələr Bakı, Gəncə və digər şəhər və rayon klubları yanında təşkil edilmişdi. Klub kitabxanaları, həmçinin bütün siyasi kampaniyalarda yaxından iştirak edir, zəhmətkeşlərin siyasi təhsilinə dair ədəbiyyatı təbliğ edirdilər.

Klub kitabxanalarında (qiraətxanalarda) zəhmətkeşlərin beynəlmiləl tərbiyəsinə dair tədbirlər keçirilir, qadınlar arasında geniş siyasi-tərbiyə işləri aparılırdı. Bu cəhətdən Əli Bayramov adına Qadınlar Klubunun kitabxanasının fəaliyyəti xüsusilə diqqətəlayiq olmuşdu. Bu klub qadınların ümumi mədəni səviyyəsinin yüksəldilməsinə yaxından kömək etməklə yanaşı, respublikada olan qadın klublarının işinə metodik rəhbərlik edir, onların işini istiqamətləndirirdi. Xüsusilə qadınlar klubu kitabxanalarının yeni ədəbiyyatla komplektləşdirilməsinə fəal yardım göstərirdi. 1933-cü ildə Azərbaycan K (b) P MK bu klubun qadınların ümumi mədəni səviyyəsinin yüksəldilməsində böyük fəaliyyətini nəzərə alaraq, onu zəhmətkeş Azərbaycan qadınlarının mərkəzi mədəniyyət sarayına çevirməyi qərara aldı.[36] Klubun mədəniyyət sarayına çevrilməsi onun qadınlar arasında apardığı mədəni-maarif işinin genişlənməsinə, qadınlara kitabla xidmət işinin daha da yaxşılaşdırılmasına səbəb oldu.

Kitabxana quruculuğuna dair birinci beşillik planın müvəffəqiyyətlə yerinə yetirilməsi, ikinci beşillikdə kitabxana işinin daha sürətlə inkişaf etdirilməsini nəzərdə tutmaq, şəhərlərlə yanaşı kənd yerlərində kitabxana şəbəkələrini genişləndirmək, mövcud kitabxanaların maddi-texniki bazasını daha da möhkəmləndirmək, əhaliyə kitabla xidmət işini əsaslı surətdə yaxşılaşdırmaq imkanı vermişdi.

Azərbaycan SSR xalq təsərrüfatının inkişaf etdirilməsinə dair ikinci beşillik planda təsərrüfat sahələrində olduğu kimi mədəni quruculuq sahəsində də böyük vəzifələr irəli

sürülmüşdü. Beşillik planda savadsızlığın, azsavadlılığın ləğvi, xalq maarifinin inkişaf etdirilməsi ilə yanaşı, kitab nəşrinin və kitabxana işinin genişləndirilməsinə xüsusi diqqət yetirilirdi. Azərbaycan SSR üzrə ikinci beşillik planın direktivlərində göstərilirdi ki, beşillikdə kitabxanalarda kənd yerlərində hər nəfərə 4 kitab, şəhər və rayon mərkəzlərində 6 kitab, Bakıda isə 10 kitab düşməsi nəzərə alınmalıdır.[37] Direktivlərdə, həmçinin bütün böyük yaşayış məntəqələrində kitabxanalar açılması, səyyar məntəqələrin genişlənməsi, Bakıda baza kitabxanaları, Gəncədə, Şəkidə, Naxçıvanda və Xankəndində dayaq kitabxanaları təşkil etmək nəzərdə tutulmuşdu.[38]

Azərbaycanda kitabxana quruculuğunun ikinci beşillik planı respublikanın bütün ərazisində kitabxana şəbəkəsinin məqsədəuyğun yerləşdirilməsini, şəhərlərlə yanaşı kənd əhalisinə də kitabxana xidməti göstərilməsinin əsaslı surətdə yenidən qurulmasını, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini, kitabxanaçı kadrların hazırlanmasının qaydaya salınmasını təmin edirdi. İkinci beşillikdə 1932-ci ildəki 154 klub, 140 kitabxana, 621 qiraət koması, 5 mədəniyyət sarayı əvəzində bütün şəhərlər, rayon mərkəzləri və böyük yaşayış məntəqələrində, yeni quruluşda mədəniyyət sarayları yaradılması, hər üç rayona orta hesabla bir baza klubu və 5000 nəfərdən yuxarı əhalisi olan bütün məntəqələrdə kənd klublarının təşkil edilməsi, 50-dən 500-ə qədər əhalisi olan bütün məntəqələrdə qiraətxanə-guşələr yaradılması, kəndlərdəki kitabxanalarda hər bir nəfərə 4 kitab və şəhər kitabxanalarında 6 kitab düşməsi nəzərdə tutulmuşdu. Beləliklə, 1937-ci ildə respublikada mədəni-maarif müəssisələri şəbəkəsi üzrə bu müvəffəqiyyətlər əldə edilməli idi: 40 mədəniyyət sarayı, 102 baza klubu, 4.057 qiraətxana-guşə, 1.382 stasionar kitabxana və 3.647 səyyar kitabxana olmalı, məktəb kitabxanaları nəzərə alınmadan kitabxanaların kitab fondu 19.820 minə çatdırılmalı idi.[39] İkinci beşillikdə Azərbaycanda təkcə Maarif Komissarlığı xətti ilə 1.142 ki-

tabxana açılması nəzərdə tutulmuşdu. Bundan başqa, səyyar kitabxana şəbəkəsinin genişləndirilib 3.647-ə çatdırılması əhaliyə kitabxana xidmətini əsaslı surətdə yaxşılaşdırmaq imkanı verirdi. Kitabxanalarla yanaşı, mədəniyyət evləri, klub və qiraət komaları da öz növbəsində kitabxanalar olmayan kəndlərdə və yaşayış məntəqələrində əhaliyə kitabla xidmət etməli idilər.[40]

İkinci beşillikdə dövlət kitabxana şəbəkəsinin inkişafı ilə yanaşı, ayrı-ayrı nazirlik, idarə və təşkilatların kitabxana şəbəkələrinin inkişaf etidirilməsinə də mühüm diqqət yetirilirdi. Bu dövrdə respublikada məktəb şəbəkəsinin inkişafı ilə əlaqədar məktəb kitabxanalarının, elmi-tədqiqat müəssisələrinin artması ilə əlaqədar elmi kitabxanaların artırılması da nəzərdə tutulmuşdu. Kitabxana işinə dair ikinci beşillik planın xarakterik xüsusiyyətlərindən biri də kənd əhalisinə kitabxana xidmətinin kökündən yaxşılaşdırılması idi. Kənddə kolxoz quruluşunun qələbəsi kənd əhalisinin ümumi mədəni səviyyəsinin yüksəldilməsində, kəndin mədəni tərəqqisində mühüm rol oynamış, kənd əhalisinin kitaba olan tələbatını qat-qat artırmışdı. Məhz buna görədir ki, ikinci beşillikdə kənddə kitabxana şəbəkəsinin əsaslı surətdə genişləndirilməsinə və onların kitab fondunun yeni ədəbiyyatla zənginləşdirilməsinə xüsusi diqqət yetirilirdi. İkinci beşillikdə kəndlərdə 559 kitabxana və 2.500-ə qədər qiraət komaları açılması nəzərdə tutulmuşdu.[41] Bundan başqa, kənd yerlərində qırmızı guşələrin təşkilinə də xeyli vəsait ayrılmışdı.

Qeyd etmək lazımdır ki, bu dövrdə kitabxana işinə dövlət rəhbərliyinin yaxşılaşdırılması sahəsində də mühüm işlər görülmüş, bu sahədə mövcud olan nöqsanlar aradan qaldırılmışdır.

1930-cu ildə SSRİ-nin hər yerində olduğu kimi Azərbaycanda da Baş Siyasi-Maarif İdarəsi ləğv edildi. Kitabxana işinə rəhbərlik Xalq Maarif Komissarlığının ayrı-ayrı şöbələrinə tapşırıldı. Kütləvi kitabxanalara rəhbərlik kütləvi, məktəb və siyasi maarif işləri bölməsinə tapşırılmışdı. 1933-

cü ildə Xalq Maarif Komissarlığının yanında kitabxana işinə rəhbərlik etmək, kitabxana işinə dövlət nəzarətini yerinə yetirmək üçün Siyasi-Maarif İşləri İdarəsi yarandı. Bu idarə respublikada kitabxana işinin yenidən qurulmasında, keyfiyyətcə yaxşılaşdırılmasında və təkmilləşdirilməsində çox böyük əhəmiyyətə malik oldu.

Azərbaycan K(b)P MK-nın 9 may 1933-cü il tarixli qərarına görə, Naxçıvan MSSR, Dağlıq Qarabağ Muxtar Vilayəti, pambıqçılıq rayonları və Gəncə, Nuxa, Zaqatala, Lənkəran, Quba xalq maarif şöbələri yanında siyasi maarif bölməsi müdiri, qalan rayonlarda isə siyasi maarif işləri üzrə təlimatçı vəzifələri verildi.[42] Kitabxana işinə rəhbərlik sisteminin təkmilləşdirilməsi yerlərində, xüsusilə kənd rayonlarında kitabxana işinin yenidən qurulmasında olduqca böyük rol oynadı.

Respublikada kitabxana işinə rəhbərlik sisteminin daha da təkmilləşdirilməsində SSRİ Mərkəzi İcraiyyə Komitəsinin «SSRİ-də kitabxana işi haqqında»[43] (1934) və bu qərarla əlaqədar olaraq Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan SSR Xalq Komissarları Sovetinin qəbul etdiyi «Azərbaycan SSR-də kitabxana işi haqqında» (1935) qərarlarının çox böyük rolu oldu. Bu qərarlar əsasında Azərbaycan SSR Xalq Komissarlığı yanında müstəqil kitabxanaçılıq idarəsi yarandı.

Azərbaycan Xalq Komissarlığı nəzdində kitabxanaçılıq idarəsi təşkil edildikdən sonra Naxçıvan MSSR Xalq Maarif Komissarlığı, Dağlıq Qarabağ Muxtar Vilayəti İcraiyyə Komitəsi xalq maarif şöbəsi və Bakı Soveti İcraiyyə Komitəsi yanında da kitabxanaçılıq bölmələri təşkil edildi. Yerlərdə kitabxana işinə rəhbərlik etmək üçün rayon soveti icraiyyə komitələri xalq maarif şöbələrinin yanında siyasi maarif işləri üzrə təlimatçı vəzifələri müəyyənləşdirildi. Respublikada Həmkarlar İttifaqı kitabxanalarının rəhbərlik işini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan SSR Həmkarlar İttifaqları Şurasının yanında kitabxana bölməsi təşkil edildi.

Kitabxanaçılıq idarəsi və onun yerlərdəki orqanları ikinci və üçüncü beşilliklər dövründə kitabxana işinə dair partiya və dövlət qərarlarının yerinə yetirilməsində, respublikada kitabxana işinə dövlət rəhbərliyinin həyata keçirilməsində, kitabxana işinin sosializm quruculuğunun və mədəni inqilabın vəzifələrinə tabe edilməsində mühüm rol oynadı.

Bu dövrdə kitabxana işinə rəhbərliyin təkmilləşdirilməsi bilavasitə mədəni inqilabın ümumi vəzifələrinə tabe edilmişdi. Həmçinin kitabxana işi təşkilinin forma və üsulları müntəzəm olaraq yaxşılaşdırılmış, bütün idarə və müəssisə kitabxanalarının fəaliyyəti əlaqələndirilmişdir ki, bu da respublikada kitabxana şəbəkələrinin daha da sabitləşməsinə, kitabxana işi prosesində dərin keyfiyyət dəyişikliklərinin baş verməsinə səbəb olmuşdur. Bu idarə 1940-cı ilə qədər fəaliyyət göstərdi və 1940-cı ildə Azərbaycan Xalq Maarif Komissarlığının yenidən təşkili ilə əlaqədar yeni yaranmış Siyasi Maarif İdarəsi ilə birləşdirildi. Siyasi Maarif İdarəsinin yaranması bütün siyasi maarif işlərini mərkəzləşdirmək, klub, kitabxana, mədəniyyət sarayları və s. siyasi maarif müəssisələrinin işini əlaqələndirmək məqsədi güdürdü.

Kitabxana işinə rəhbərlik sisteminin yaxşılaşdırılması və təkmilləşdirilməsi respublikada əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılmasına olduqca müsbət təsir etdi.

Kitabxana işinə dair ikinci beşillik planın müvəffəqiyyətlə yerinə yetirilməsində 1934-cü ilin oktyabr ayında keçirilmiş kitabxanaların Ümumittifaq siyahıyaalınmasının olduqca böyük əhəmiyyəti oldu. Siyahıyaalma bilavasitə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin «SSRİ-də kitabxana işi haqqında»[44] qərarına əsasən keçirilirdi. Siyahıyaalınmanı mütəşəkkil keçirmək üçün bir neçə ay hazırlıq işləri aparıldı. SSRİ Plan Komitəsinin Mərkəzi Xalq Təsərrüfatı Uçotu İdarəsi 1934-cü ilin iyun ayında siyahıyaalma aparmaq haqqında təlimat materialı[45] tərtib edib yerlərə göndərmişdi. Bu materiallarda siyahıyaalınmanın məqsəd və vəzifələri izah edilməklə, onun aparılması qaydaları ətraflı şərh edilir, siyahıyaalma blanklarının doldurulması formaları göstərilirdi.

Yerlərdə kitabxanaların siyahıyaalınmasının həyata keçirilməsinə hazırlıq işlərinə bilavasitə partiya orqanları rəhbərlik edirdilər. ÜİK(b)P Zaqafqaziya Ölkə Komitəsinin göstərişi ilə 1834-cü ilin avqust ayında Tbilisi şəhərində Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələrinin iştirakı ilə kitabxanaların siyahıyaalınmasına hazırlıqla əlaqədar olaraq Zaqafqaziya Müşavirəsi keçirilirdi.[46] Bu müşavirədə üç respublikanın xalq təsərrüfatı uçot idarələrinin bölmə müdirləri, xalq maarif komissarlığının nümayəndələri, Bakı, Tbilisi və Yerevan şəhərlərinin xalq maarif şöbələrinin müdirləri, Dövlət ümumi kitabxanalarının və həmkarlar ittifaqlarının nümayəndələri iştirak edirdilər. Müşavirədə kitabxanaların siyahıyaalınmasına hazırlıq işlərinin vəziyyəti ətraflı müzakirə edildi və qarşıda duran əsas vəzifələr müəyyənləşdirildi.

Bütün hazırlıq işləri başa çatdırıldıqdan sonra 1934-cü il oktyabrın 1-də respublikanın hər yerində kitabxanaların ümumittifaq siyahıyaalınması keçirildi. Kitabxanaların siyahıyaalınması öz qarşısında respublikanın bütün kitabxana şəbəkəsini meydana çıxarmaq, kitabxanaların binasını, kitab fondunu, işçilərini, büdcəsini, oxucuların miqdarını, kitab verilişini müəyyənləşdirmək, əhaliyə kitabxana xidmətinin vəziyyətini öyrənmək və təhlil etmək vəzifəsi qoymuşdu. Siyahıyaalmanın böyük siyasi və praktiki əhəmiyyəti var idi.

Siyahıyaalma bütün daimi kitabxanaları, xüsusi səyyar fondları və bütün müstəqil kitabxanaları əhatə etməli idi.

Siyahıyaalma çox böyük mütəşəkkilliklə keçirildi, əldə edilmiş nəticələr SSRİ Plan Komitəsinin Xalq Təsərrüfatının Mərkəzi Uçot İdarəsi tərəfindən iki il müddətində hərtərəfli təhlil edildikdən sonra iki cilddə nəşr edildi.[47]

Siyahıyaalma materiallarının nəşr edilməsi çox böyük elmi əhəmiyyətə malik idi. Çünki bu materiallarda ilk dəfə olaraq ölkədə olan kitabxanalar öz vəzifə əlamətlərinə görə elmi cəhətdən təsnifləşdirilmiş, tiplərə və növlərə ayrılmışdır.

Təsadüfi deyil ki, kitabxanaların bu şəkildə tiplərə və növlərə ayrılması uzun müddət öz elmi-metodik və təcrübi əhəmiyyətini itirməmişdir. Bundan başqa, RSFSR[48], ZSFSR xalq təsərrüfatı uçot idarələri[49] və Ümumittifaq Həmkarlar[50] Təşkilatı tərəfindən siyahıyaalmanın nəticəsi ayrıca nəşr edildi.

Siyahıyaalma nəticəsində çox zəngin material əldə edilmişdi ki, bu da respublikada kitabxana işinin vəziyyətini ətraflı təhlil etməyə, mövcud nöqsanları aradan qaldırmaq üçün müəyyən yollar axtarıb tapmaq imkanı verirdi. Kitabxana işinin dəqiq mənzərəsinin aşkara çıxarılması onun gələcək perspektivlərinin müəyyənləşdirilməsinə şərait yaradırdı.

1934-cü il oktyabrın 1-də Azərbaycanda 2.037 kitabxana var idi. Bunlardan 788-i şəhərlərdə, 1.249-u kəndlərdə yerləşirdi. Bütün kitabxanalarda 4.485.907 kitab var idi ki, bu da bütün Zaqafqaziya kitab fondunun 38,4 faizini təşkil edirdi. Kitab fondunun 1.644,405 nüsxəsi kütləvi kitabxanaların payına düşürdü ki, bu da Zaqafqaziya kütləvi kitabxanaları fondunun 50,2 faizini təşkil edirdi[51].

Respublikanın uşaq, gənclər və tədris kitabxanalarında 1. 777.930 kitab toplanmışdı ki, bu da Zaqafqaziyadakı eyni tipli kitabxana fondunun 42,5 faizi qədər idi.

Kitab fondunun yerləşdirilməsi sahəsində böyük uyğunsuzluqlar vardı. Respublikada olan kitab fondunun 90 faizə qədəri şəhər kitabxanalarında, cəmi 10-12 faizi kənd kitabxanalarında toplanmışdı. Belə bir uyğunsuzluğun aşkara çıxarılması gələcəkdə kənd kitabxanalarının yeni ədəbiyyatla təkmilləşdirilməsi işinin kökündən yaxşılaşdırılmasını tələb edirdi. Kitabxanaların siyahıyaalınması zamanı sabit kitabxanalarla yanaşı, səyyar kitabxanalar da qeydə alınmışdı. Zaqafqaziyada olan 975 səyyar kitabxanalardan 699-u Azərbaycanda yerləşirdi. Respublikamızda olan 699 səyyar kitabxanadan 683-ü şəhərlərdə, 16-sı isə kəndlərdə yerləşirdi. [52] Şəhərlərdə kitab fondunun 50 faizindən çoxu elmi və

xüsusi kitabxanaların, 50 faizindən azı isə kütləvi və uşaq kitabxanalarının payına düşürdü. Beləliklə, şəhər kütləvi kitabxanalarının fondunun yeni ədəbiyyatla komplektləşdirilməsi məsələsi də xüsusi diqqət tələb edirdi.

Müxtəlif kitabxana şəbəkələrinin kitab fondunun təhlili göstərir ki, Azərbaycanda kitab fondunun olduqca böyük hissəsi kitab fondu 1.000 kitabdan yuxarı olan kitabxanaların payına düşürdü. Azərbaycan üzrə kitab fondu haqqında məlumat verən 2.033 kitabxanadan 877 kitabxananın 200 nüsxəyə qədər, 704 kitabxananın 201-dən 1.000 nüsxəyə qədər və 452 kitabxananın 1.000 nüsxədən yuxarı kitab fondu olmuşdur.[53]

Böyük kitab fonduna malik olan kitabxanaların əksəriyyəti isə şəhərlərdə yerləşirdi.

Siyahıyaalma göstərirdi ki, respublikanın kitabxana fondlarında Azərbaycan dilində olan kitablar cəmi 20,8 faiz təşkil edirdi. Gürcüstan və Ermənistanla müqayisədə bu sahədə respublikamız axırıncı yeri tuturdu. Bunun əsas səbəbi bir tərəfdən nəşriyyatlarımızın istehsal gücünün azlığı, digər tərəfdən isə 1929-cu ildə yeni latın əlifbasına keçməklə əlaqədar olaraq kitabxanaların fondundan ərəb əlifbası ilə olan kitabların kütləvi surətdə çıxarılması idi. Respublika miqyasında müəyyən, vahid təlimat olmadığından bəzən yerlərdə ərəb əlifbası ilə olan kitabların məzmununu və əhəmiyyətini düzgün müəyyən etmədən kitab fondundan çıxarırdılar. Məhz bu da kitab fondlarında Azərbaycan dilində kitabların azalmasına səbəb olmuşdu.

Kitabxanaların Ümumittifaq siyahıyaalınması, kitabxanaların və kitab fondunun miqdarını meydana çıxarmaqla, bütün əhalini kitabxana xidməti ilə əhatə etməyin gələcək perspektivlərini və harada yeni kitabxanalar açmağın zəruri olmasını müəyyənləşdirməyə şərait yaratdı.

Azərbaycan SSR-də əhalinin kitabxanalarla və kitabla necə təmin edilməsini aşağıdakı cədvəldən görmək olar.[54]

	Bir kitabxanaya düşən əhalinin miqdarı			Hər 100 nəfərə düşən kitabların miqdarı		
	cəmi	şəhər	kənd	cəmi	şəhər	kənd
Respublika üzrə	1.419	1.231	1.538	155	410	26
O cümlədən, Naxçıvan MSSR	982	650	1.074	40	124	26
Dağlıq Qarabağ Muxtar Vilayəti	985	539	1.057	17	418	47

Cədvəldən göründüyü kimi, respublikamızda hər 1.419 nəfər əhaliyə bir kitabxana düşürdü ki, bunu da qənaətbəxş hesab etmək olmazdı. Halbuki bu dövrdə Ermənistan SSR-də 857 nəfər, Gürcüstan SSR-də 997 nəfərə bir kitabxana düşürdü. Azərbaycanın kənd yerlərində kitabxanaların azlığı ilə yanaşı hər 100 nəfər əhaliyə düşən kitabların miqdarı da çox az idi. Kənd kitabxanalarında hər 100 nəfər əhaliyə cəmisi 26 kitab düşürdü. O dövrdə kənddə kitab fondunun azlığı kəndin ümumi mədəni inkişafına mənfi təsir göstərirdi. Çünki kənd əhalisinin savadsızlığının və azsavadlılığının ləğv edilməsi kitaba böyük tələbat əmələ gətirmişdi. Kitabsız kəndin ümumi mədəni inkişafından danışmaq olmazdı. Siyahıyaalınma materiallarında respublikada kitabxana şəbəkəsinin yerləşdirilməsi və onların işi haqqında zəngin məlumat verilirdi ki, bu da kitabxananın şəbəkəsinin bir-birindən ayrılmasına və müəyyən bir prinsip əsasında fərqləndirilməsinə şərait yaradırdı. 1934-cü ildə respublikamızda 1.334 müstəqil kitabxana və 699 səyyar kitabxana var idi. Müstəqil kitabxanalardan 881-i kütləvi, 17-si müstəqil uşaq, 100-ü texniki peşə məktəbləri kitabxanası və 337-si elmi və xüsusi kitabxana idi.[55] Bu bölgünün özünün dəqiq olması bəzən bu və ya digər kitabxananın hansı şəbəkəyə aid edilməsində müəyyən çətinliyə səbəb olurdu.

Kitabxanaların Ümumittifaq siyahıyaalınması kitabxanaçı kadrların tərkibini müəyyənləşdirməyə, kitabxana şəbəkələri arasında kadrların bölünməsini və nəhayət şəhər və kənd yerlərində kadrların yerləşdirilməsini öyrənməyə, ümumiyyətlə, kitabxana işinin ümumi mənzərəsini müəyyənləşdirmək və mövcud nöqsanları aşkara çıxarmağa imkan verirdi.

Müharibədən əvvəlki beşilliklər dövründə respublikamızda kitabxana işinin inkişafına və onların maddi-texniki bazasının möhkəmləndirilməsinə təsir edən amillərdən biri dövlət tərəfindən kitabxana quruculuğu işinə ayrılan vəsaitin müntəzəm olaraq artırılması olmuşdur. Məsələn, 1931-ci ildə siyasi maarif işinə 1.150.000 manat vəsait ayrılmışdısa, 1932-ci ildə 1.664.300 manat, 1933-cü ildə 2.276.300 manat[56], 1937-ci ildə isə təkcə Xalq Maarif Komissarlığının kitabxanalarına 4 milyon manat vəsait ayrılmışdı.[57] Beləliklə, kitabxana işinə ayrılan vəsait beşillik müddətdə iki dəfəyə qədər artmışdı. 1940-cı ildə kitabxana işinə 14.642.100 manat vəsait ayrılmışdı ki, bu da 1937-ci ildəkindən 4 dəfəyə qədər artıq idi.[58] Bütün bunların nəticəsində respublikamızda kitabxanaların sayı ilbəil artmış və onların fəaliyyət dairəsi genişləndirilmişdir. Respublikada 1931-ci ildə 2.037, 1935-ci ildə 3,171, 1936-cı ildə 3,985, 1940-cı ildə 4.282 kitabxana olmuşdur.[59]

Kitabxanaların sayının artması ilə yanaşı onların kitab fondu və oxucularının sayı da artırdı. Əgər 1932-ci ildə kütləvi kitabxanaların fondunda 1.757,1 kitab var idisə, onların sayı 1937-ci ildə 2.226,3-ə, 1940-cı ildə isə 2,611,8-ə çatmışdı. Lakin kitab fondunun belə sürətlə çoxalmasına baxmayaraq, yenə də oxucuların durmadan artan tələbatından xeyli geri qalırdı.

Birinci və ikinci beşilliklər dövründə Azərbaycanda kənd əhalisinə kitabxana xidməti sahəsində ciddi irəliləyiş baş vermiş, bu illər müstəqil kənd kitabxanalarının yarandığı və onların kənd əhalisinə kitabxana xidmətini getdikcə təkmilləşdirdiyi illər olmuşdur. Məhz müstəqil kənd kitabxanaları əsasən bu dövrdə, yaranıb möhkəmlənməyə başlamışdır. 1929-cu ildə Azərbaycanda cəmi beş müstəqil kənd kitabxanası var idi.[60] Birinci beşilliyin axırında isə onların sayı 57-yə, 1937-ci ildə 774-ə, 1940-cı ildə isə 1.084-ə çatmışdı.

Ümumiyyətlə, kənd yerlərində ikinci və üçüncü beşilliklər dövründə kitabxanaların sayı 18 dəfə, kitab fondları isə 8 dəfəyə qədər artmışdır.

ÜİK(b)P XVIII qurultayı[61] (mart, 1939) SSRİ xalq təsərrüfatının yeni beşillik planını təsdiq etdi. Planda ölkənin iqtisadi inkişafı ilə yanaşı, onun mədəni inkişafına, əvvəlki beşilliklər dövründə əldə edilmiş mədəni nailiyyətləri daha da möhkəmləndirib inkişaf etdirməyə xüsusi diqqət yetirilirdi. SSRİ xalq təsərrüfatının inkişafına dair üçüncü beşillik plan (1938-1942-ci illər) haqqında XVIII qurultayın qətnamələrində göstərilirdi: «İndi vəzifə zəhmətkeşlərin vəziyyətini o qədər yaxşılaşdırmaq və mədəniyyətini o qədər yüksəltməkdir ki, bunlar sovet ölkələri üçün müyəssər olmayan bu yüksəliş sosializm qüvvələrinin əsl coşğun tərəqqisi üçün başlanğıc olsun».[62] Qurultay zəhmətkeşlərin mədəni səviyyəsinin yüksəldilməsinə, fəhlə sinfinin mədəni-texniki səviyyəsinin mühəndis-texniki əməyi işçilərinin səviyyəsinə qaldırmaq işinə xüsusi əhəmiyyət vermək, bu işdə mühüm rolu olan mədəni maarif müəssisələrinin: «Kinoteatrların, klubların, kitabxanaların, mədəniyyət evlərinin və qiraətxanaların şəbəkəsini genişləndirməyi»[63] lazım bildi.

Üçüncü beşillik plan dövründə Azərbaycan Sovet hakimiyyəti respublikada kitabxana işinin inkişafına xüsusi qayğı göstərirdi. Məhz bunun nəticəsidir ki, əhaliyə kitabxana xidmətinin təşkili xüsusi dövlət əhəmiyyətinə malik işlər sırasına yüksəldilmişdi. Nəticədə respublikamızda əhaliyə kitabxana xidməti xeyli yaxşılaşdırılmış, bilavasitə zəhmətkeşlərə xidmət edən kütləvi kitabxana şəbəkəsi misli görünməmiş dərəcədə inkişaf etmişdir. 1940-cı ildə respublikamızda 2.612 min kitab fonduna malik olan 1.383. kütləvi kitabxana,[64] 50 müstəqil uşaq[65] və 2.480 məktəb kitabxanası,[66] 845.918 nüsxə kitab fondu olan 127 Həmkarlar İttifaqı kitabxanası,[67] 263 elmi, elmi-texniki və xüsusi kitabxanalar fəaliyyət göstərirdi.[68]

Ümumiyyətlə, 1940-cı ildə respublikamızda 4.282 kitabxana fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində kitabxanaların sayı 171 dəfə artmışdı. Bütün bunların nəticəsində kitabxanaların cəmiyyətimizdə rol və əhəmiyyəti artmış, onlar zəhmətkeşlərin kommunist tərbiyəsində, ümumi mədəni səviyyəsinin yüksəldilməsində və texniki-peşə təhsilində mühüm mədəniyyət ocağına çevrilmişdilər. Kitabxanalar ideoloji işdə, siyasi-tərbiyə işində, marksizm-leninizm ideyalarının təbliğində yaxından iştirak edir, təlbiğat-təşviqat işini ideologiya silahı olan kitabla əlaqələndirirdilər.

§3.3.1. Bakı və onun rayonlarında kitabxana işi

Müharibədən əvvəlki beşilliklər dövründə SSRİ-nin hər yerində olduğu kimi Bakıda da kitabxana şəbəkəsi daha da genişlənməyə başladı. Bakı respublikamızın mərkəzi olmaq etibarilə respublikada kitabxana işinin ümumi inkişafına olduqca müsbət təsir göstərirdi.

1933-cü ildə Bakıda 43 elmi və ali məktəb kitabxanası, 40 texniki (Azneftin), 50 Həmkarlar İttifaqı kitabxanası fəaliyyət göstərirdi.[69] Bundan başqa, 1934-cü ildə Bakıda və onun rayonlarında BXMŞ-nin 500.475 kitab fonduna malik olan 32 kütləvi kitabxanası var idi.[70] Bu kitabxanalar 214 min oxucuya xidmət edirdi.[71] Bu dövrdə Bakı şəhər kütləvi kitabxanaları şəhər əhalisinə nümunəvi xidmət etmək, geniş zəhmətkeş kütlələrini kitabxana oxucuları sırasına cəlb etmək üçün səyyar kitabxanalardan geniş istifadə edirdilər.

Səyyar kitabxanalar vasitəsilə əsasən şəhərin ayrı-ayrı fabrik və zavodlarına, neft mədənlərinə xidmət təşkil edilirdi ki, bu da fəhlələrin kitabxana xidməti ilə təchiz edilməsinə olduqca müsbət təsir göstərirdi. 1934-cü ildə Bakı şəhər dövlət kütləvi kitabxanaları 578 səyyar məntəqə təşkil etmişdilər.[72]

Bakı şəhər kitabxanalarının bu dövrdəki fəaliyyəti bilavasitə SSRİ MİK-in «SSRİ-də kitabxana işi haqqında qərarının yerinə yetirilməsinə yönəldilmişdi. Aşağıdakı cədvəl o dövr Bakı kitabxanalarının 1934-cü ilə dair fəaliyyətini xarakterizə etmək imkanı verir.

Kitabxanaların sayı	Kitab fondu	Oxucuların miqdarı	Kitab verilişi	İctimai-siyasi ədəbiyyat			Təbiət elmlərinə dair ədəbiyyat		
				cəmi	Bun.marks.-lenimizm	Siyasi ədəbiyyat	cəmi	Tex.	K/t
1.V.İ. Lenin adına kitabxana	87155	8821	58071	29461	4995	10557	11572	8133	100[73]
2.M.Ə. Sabir adına kitabxana	19680	2178	59704	9142	2648	5019	6956	3406	103[74]
3.Qırmızı Oktyabr ad. kitabxana	9885	5001	76074	18646	2118	1261	3881	1914	131[75]
4.K.Marks adına kitabxana	25628	4899	87765	2597	571	4141	3037	1208	-[76]
5.M.Əzizbəyov adına kitabxana	19821	3073	102119	8347	388	4663	6613	1960	129[77]

Kitabxanalar, həmçinin fabrik, zavod və neft mədənlərində bilavasitə fəhlələrə xidmət etmək üçün 13 səyyar kitabxana təşkil etmiş və oxuculara 28.054 nüsxə kitab vermişlər. Bir il ərzində kitabxanalara 22.938 nüsxə kitab daxil olmuş və buna 71.313 manat vəsait xərclənmişdir.[78]

Siyahıyaalmanın yekunlarına görə, 1934-cü ildə Bakıda və onun rayonlarında 3.271.454 kitab fonduna malik olan 380 kitabxana var idi. Bu kitabxanalardan 1.173.199 kitab fonduna malik olan 109-u kütləvi kitabxanalar idi ki, bunun da 76-sı həmkarlar təşkilatı kitabxanaları idi. Bakı və onun rayonlarında 32 dövlət kütləvi kitabxanası fəaliyyət göstərirdi.[79] Bakı şəhər kütləvi kitabxanaları 683 səyyar kitabxana təşkil etmişdilər ki, bu da siyahıyaalmanın nəticələrinə görə, Zaqafqaziyada ən yüksək rəqəm idi.

İkinci beşillik dövrü Bakı şəhər kitabxanalarının daha da inkişaf edib təkmilləşdiyi illər olmuşdur.

Beşillik müddətdə Bakı şəhərində kitabxanalar, kitab fondları və onların oxucuları aşağıdakı şəkildə artmışdır.

İllər	Kitabxanaların sayı	Kitab fondu	Oxucuları	Kitabxana işinə ayrılan vəsait
1932	37	594.996	76.751	517.700[80]
1937	48	836.476	98.600[81]	

Cədvəldən göründüyü kimi, 1932-ci ilə nisbətən 1937-ci ildə kitabxanaların fondu nisbətən az, 261.680 nüsxə artmışdı. Bu hər şeydən əvvəl o dövrdə kitabxanaların fondunda aparılan təmizləmə işi ilə əlaqədar idi. Kitabxana fondlarını ideoloji cəhətdən sağlam saxlamaq, dövrün tələblərinə cavab verəcək səviyyəyə çatdırmaq üçün müntəzəm olaraq fondda təmizləmə işləri aparılır, ideoloji məzmunca köhnəlmiş, siyasi, elmi və təcrübi əhəmiyyətini itirmiş kitablar fonddan çıxarılırdı. Məsələn, 1935-ci ildə kitabxanalardan 94.335[82] nüsxə, 1936-cı ildə isə 114.639 nüsxə[83] kitab çıxarılmışdı.

1932-1937-ci illərdə Bakı kitabxanalarında oxucuların

sayı da əhəmiyyətli dərəcədə artmışdır. 1937-ci ildə Bakı kitabxanalarında 1932-ci ilə nisbətən 22 mindən artıq oxucu var idi. Kitabxanalara cəlb edilən oxucuların tərkibində də böyük dəyişiklik baş vermişdi. Getdikcə oxucular sırasında fəhlələrin və evdar qadınların sayı çoxalırdı.

1940-cı ildə Bakı Zəhmətkeş Deputatları Sovetinin Siyasi Maarif İdarəsi tabeliçilik prinsipindən asılı olmayaraq bütün kitabxanaların yenidən qeyddən keçirilməsini lazım bildi.[84] Kitabxanalar qeyddən keçirildikdən sonra onlara pasport və qeyddən keçirilməsi haqqında vəsiqə verildi. Bu qərar əsasında bütün kitabxanalar tabe olduğu idarə və müəssisədən asılı olmayaraq qeydə alındı. Bu qeydəalma nəticəsində məlum oldu ki, müharibədən əvvəlki beşilliklər dövründə Bakı şəhərinin ümumi mədəni inkişafı, şəhərdə xalq təsərrüfatının bütün sahələrinin böyük nailiyyəti və mədəni inqilab sahəsində əldə edilmiş böyük müvəffəqiyyətlərlə əlaqədar olaraq kitabxana işi də misli görünməmiş dərəcədə inkişaf etmişdi. Kütləvi kitabxanalarla yanaşı elmi, elmitexniki, məktəb və uşaq kitabxanalarının, xalq maarif orqanlarının habelə ayrı-ayrı idarə və müəssisələrin geniş kitabxana şəbəkəsi yaranmışdı.

1940-cı ildə Bakıda 4 milyon nüsxə fondu olan 450 kitabxana var idi. Təkcə 1940-cı ildə kitabxanalara kitab almaq üçün 428 min manat pul xərclənmişdir.[85] Bu kitabxanalardan 1,198 min kitab fonduna malik olan kütləvi kitabxanalar idi.[86] 1920-ci illə müqayisə etdikdə (1920-ci ildə Bakıda 95 min nüsxə kitab fonduna malik 11 kitabxana var idi) kitabxananın sayı 40 dəfədən çox, kitab fondu isə 42 dəfədən çox artmışdı. Bu rəqəmlər birinci və ikinci sosialist beşillikləri dövründə şəhər əhalisinə kitabxana xidməti sahəsində əldə edilmiş müvəffəqiyyətlərə parlaq sübutdur.

Müharibədən əvvəlki beşilliklər dövründə respublikamızın kitabxanaları Sovet hakimiyyəti illərində əldə edilmiş kitabxana işinin qabaqcıl təcrübəsinə əsaslanaraq, mövcud qabaqcıl iş forma və metodlarını daha da möhkəmləndirmiş,

məzmunu dərinləşdirmiş və mədəni inqilabın yeni mərhələsində, dövrün tələbləri ilə əlaqədar olaraq meydana gəlib formalaşan yeni iş forma və üsullarından müvəffəqiyyətlə istifadə etmişlər. Müharibədən əvvəlki beşilliklər dövründə kitabxanalarda kitab təbliğində mühüm amil olan kütləvi işlərin təşkilinə xüsusi diqqət yetirilirdi. Kitabxanaların təşkil etdiyi kütləvi işlər bilavasitə dövrün əsas tələbləri ilə əlaqələndirilirdi. Bu dövrdə aparılan kütləvi tədbirlər sırasında yenə də mühazirələr, söhbətlər, kitab sərgiləri, biblioqrafik icmalları, müxtəlif dərnəklər və s. mühüm yer tuturdu.

İkinci və üçüncü beşilliklər dövründə əhalinin çavadsızlığının ləğv edilməsi probleminin həlli kitabxanaların ən təxirəsalınmaz vəzifəsi hesab edildi. Bu mühüm siyasi kampaniyanın həyata keçirilməsində kitabxanalar yaxından iştirak edirdilər. Kitabxanalarda savadsızlığı ləğv məntəqələri təşkil edilmişdi. Bu dövrdə kitabxanaların qarşısında çox mühüm vəzifə-öz savadsızlığını və azsavadlılığını ləğv edən əhalini kitabxana oxucuları sırasına cəlb etmək, onları kitabxananın fəal oxucuları səviyyəsinə yüksəltmək vəzifəsi dururdu. Çünki savadsızlığı ləğv məntəqələrində alınmış bilikləri ancaq kitab oxumaq yolu ilə möhkəmləndirmək və inkişaf etdirmək olardı.

Bu dövrdə Bakı və onun rayonlarında kitabxanalar savadsızlığın ləğvində yaxından iştirak edirdilər. Bakı şəhər kütləvi kitabxanalarından V.İ.Lenin adına, M.Ə.Sabir adına, M.Əzizbəyov adına, İ.Fioletov adına, A.Səhhət adına kitabxanalar və b. savadsızlığı ləğv dərnəkləri təşkil etmişdilər. Kitabxanalarla Savadsızlığa Qarşı Mübarizə Cəmiyyəti arasında daimi əlaqə saxlanılır, savadsızlığı ləğv məktəblərində və məntəqələrində öz savadsızlığını ləğv etmiş şəxslər kitabxanaların oxucuları sırasına cəlb edilirdilər.

Kitabxanalar savadsızlığı ləğv məntəqələrində səyyar məntəqələr açır, öz əlifba savadsızlığını yenicə ləğv etmiş şəxslər üçün kitab seçib gətirirdilər. 30-cu illərdə şəhərin bir çox kitabxanalarında azsavadlılar üçün şöbələr təşkil edil-

mişdi ki, bu şöbələrdə olduqca sadə məzmunlu və böyük şriftlərlə nəşr edilmiş kitablar toplanmışdı.[87] 30-cu illərdə M.Ə.Sabir adına[88] və V.İ.Lenin adına[89] kitabxanalar və onların işçiləri savadsızlığın ləğv edilməsində yaxından iştirak etdiklərinə görə fəxri fərmanla təltif edilmişdilər.

İkinci beşilliyin ilk illərində Azərbaycan partiya təşkilatı yeni texnikaya yiyələnmək və əmək məhsuldarlığını artırmaq məsələsini irəli sürdü.

Kitabxanalar da partiyanın bu çağırışına qoşularaq texniki dərnəklərə kitabla xidmət etməyə başladılar. Kitabxanalar səyyar vasitəsi ilə mədəni və zavodlarda yaranan texniki dərəcələrin üzvlərinə kitabla xidmət edirdilər.

Texniki tərəqqi ilə əlaqədar olaraq bu dövrdə kitabxanalar texniki ədəbiyyatın təbliğini ön plana çəkmiş, ayrı-ayrı mədənlərdə, zavod və fabriklərdə bu işi genişləndirmişdilər. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1933-1934-cü illərdə Bakı şəhər kitabxanalarından oxuculara 984.600 nüsxə texniki ədəbiyyat verilmişdi ki, bu da ümumi kitab verilişinin 30 faizini təşkil edirdi.[90]

Həmçinin kitabxanalar özlərində texniki dərnəklər yaradaraq, kitabxananın gənc oxucularını belə dərnəklərə cəlb edirdilər. Texniki dərnəklərdə kitabxanaların fəal oxucuları mühəndislər, texniklər və s. məşğələlər aparırdılar. 30-cu illərdə belə dərnəklər M.Ə.Sabir adına,[91] V.İ.Lenin adına, İ.Fioletov adına[92] və b. kitabxanalarda təşkil edilmişdi. V.İ.Lenin adına kitabxana partiyanın «Yenidənqurma dövründə texnika hər şeyi həll edir» şüarına qoşularaq zəhmətkeşlər arasında, birinci növbədə böyük əmək xarüqələri yaradan Bakı neft fəhlələri içərisində texniki ədəbiyyatın təbliğinə geniş yer verirdilər. 1935-ci ildə kitabxanada «Elm və texnika şöbəsi» yaradıldı. Şöbə öz qarşısında elmi-texniki bilikləri yaymaq vəzifəsi qoymuşdu. Bu dövrdə Bakı şəhər kütləvi kitabxanaları texniki tərəqqiyə xidmət etmək, yenilikçilər hərəkatına kömək etmək, staxanovçuları kitabxana oxucuları sırasına cəlb etmək üçün kitabxanalarda ayrıca

şöbələr təşkil etmiş, bu şöbələri ən yaxşı texniki ədəbiyyatla təchiz etmişdilər. Kitabxanalar ayrı-ayrı mədən, zavod və fabriklərdə staxanovçulara xidmət etmək üçün xüsusi işçilər ayırmışdılar. Belə işçilər qabaqcıl müəssisələrə, gedir, istehsalat qabaqcılları ilə söhbət edir, onlara maraqlandığı kitabları verir və beləliklə də onları kitabxananın oxucuları sırasına cəlb edirdilər. 1935-ci ildə V.İ.Lenin adına Mədəniyyət Sarayının kitabxanası neft mədənlərindən mədəni köşklər açmış və köşklərdə neftçilərə xidmət etməyə başlamışdılar. Kitabxana 480 nömrəli qazma idarəsi ilə sosialist müqaviləsi bağlamışdı. Bu müqaviləyə görə, kitabxananın işçiləri mədəni köşkdə aydı üç dəfə fəhlələri maraqlandıran məsələlərə dair ucadan oxu, söhbət və yeni kitabların xülasəsini keçirməyi, fəhlə və mühəndis-texniki işçiləri bədii, texniki, ictimai-siyasi ədəbiyyatla təmin etməyi öz üzərinə götürürdülər. Bunun müqabilində 480 nömrəli qazma dəstəsinin fəhlələri əla işləməyi, heç bir qəzaya yol verməməyi öz üzərlərinə götürmüşdülər.[93] Bu dövrdə Bakı kitabxanaları arasında staxanovçulara, onların ailələrinə mədəni xidmət etmək uğrunda yarış buşlamışdı. Kitabxanaçılar staxanovçuların evlərinə gedir, onlara lazım olan kitabları aparır, ailə üzvlərinin arzusunu öyrənir, onlar üçün kitab oxuyur və izah edirdilər. SSRİ və Azərbaycan SSR konstitusiyalarının müzakirəsi zamanı kitabxana və qiraət komalarında böyük təbliğat-təşviqat və kütləvi işlər aparılırdı. Bütün kitabxanalarda konstitusiyaya dair kitab sərgiləri, söhbətlər, mühazirələr və müzakirələr keçirilirdi. Kitabxanalarda «Sovet Konstitusiyasının əhəmiyyət və vəzifələri haqqında», «Konstitusiyaların beynəlxalq əhəmiyyəti haqqında» məruzələr, müzakirələr, söhbətlər aparılır, SSRİ Konstitusiyasını və «Seçkilər haqqında Əsasnamə»ni öyrənmək üçün dərnəklər yaradılmış, Ali Sovetin seçkilərinə dair mühazirələr, söhbətlər, məsləhətlər keçirilmiş, kitab sərgiləri təşkil edilmişdi.

Beləliklə, ölkənin sosialistcəsinə sənayeləşdirilməsi, kənd təsərrüfatının kollektivləşdirilməsi, xalq təsərrüfatının

yenidən qurulması və sosializm cəmiyyəti quruculuğu illərində kitabxanalar əhaliyə kitabla xidmət sahəsində böyük təcrübə əldə etməklə yanaşı, kitabxana işini ölkənin siyasi, iqtisadi və təsərrüfat həyatı ilə əlaqələndirmək, xalq təsərrüfatının inkişafna kömək etmək sahəsində mühüm rol oynamışdılar.

§ 3.3.2. Həmkarlar İttifaqı kitabxanaları

Müharibədən əvvəlki beşilliklər dövründə Azərbaycan Həmkarlar İttifaqı zəhmətkeşlərin tərbiyəsində və ümumi mədəni inkişafında yaxından iştirak edirdi. Fəhlə sinfinin ümumi mədəni səviyyəsinin yüksəldilməsində və ixtisaslara yiyələnməsində yeni texnikanı mənimsəməsinə kömək işini öz qarşısında məqsəd qoyan Azərbaycan Həmkarlar İttifaqı Təşkilatları geniş mədəni iş aparırdılar. Həmkarlar İttifaqının mədəni fəaliyyətində siyasi-maarif işləri, o cümlədən əhaliyə kitabxana xidmətinin təşkili mühüm yer tuturdu.

Məhz buna görədir ki, Azərbaycan Həmkarlar İttifaqları Şurası bu dövrdə kitabxanaların fəaliyyətinə xüsusi diqqət yetirirdi. Azərbaycan Həmkarlar İttifaqları Şurası ayrı-ayrı həmkarlar ittifaqlarının mədəni-maarif fəaliyyətinə xüsusi əhəmiyyət verir, əhaliyə kitabxana xidmətinin vəziyyətini vaxtaşırı müzakirə edirdi. 1932-ci ilin dekabrında AHİŞ «Həmkarlar İttifaqı kitabxanalarının işi haqqında» qərar qəbul etdi.[94] Bu qərarda Həmkarlar İttifaqı kitabxanalarının işinin vəziyyəti təhlil edilir, mövcud nöqsanlar aşkara çıxarılır və bu nöqsanların aradan qaldırılması üçün konkret tədbirlər müəyyənləşdirilirdi. Bu qərar ikinci beşillik planın vəzifələrinin yerinə yetirilməsində çox mühüm rol oynadı. Ölkənin sosialistcəsinə sənayeləşdirilməsi və birinci beşillik dövründə həmkarlar ittifaqlarının mədəni-maarif fəaliyyətinə diqqətin artırılması, bu işə ayrılan vəsaitin müntəzəm surətdə çoxalması nəticəsində həmkarlar ittifaqları fəhlə sinfinə kitabxana xidmətini xeyli yaxşılaşdırmış, kitabxana şəbəkələri müntəzəm olaraq genişləndirilmişdir. Həm-

karlar ittifaqlarının kütləvi kitabxanaları ilə yanaşı, zavod, fabrik və digər böyük sənaye müəssisələrinin meydana gəlməsi ilə əlaqədar geniş texniki kitabxanalar şəbəkəsi yaranmışdı.

1933-cü ildə Azərbaycan Həmkarlar İttifaqlarının 956.971 nüsxə kitab fonduna malik olan 117 kitabxanası var idi.[95] Beşillik müddətində 47 yeni Həmkarlar İttifaqı kitabxanası təşkil edilmiş, kitab fondu 2 dəfəyə qədər artmışdı. Bu dövrdə əsas xüsusiyyətlərdən biri də Azərbaycanın kənd rayonlarında sənaye müəssisələrinin yaranması və MTS-lərin təşkil edilib möhkəmlənməsi ilə əlaqədar olaraq kənd yerlərində də Həmkarlar İttifaqı kitabxanalarının meydana gəlməsi olmuşdur. 1933-cü ildə kənd yerlərində Həmkarlar İttifaqının 59 kitabxanası fəaliyyət göstərirdi. 1932-ci ildə kitabxanalar 76.863[96] oxucuya xidmət etmişdilər ki, bu da 1928-ci ildəkindən 39.098[97] nəfər çox idi. Bu dövrdə Həmkarlar İttifaqı kitabxanaları kitabı kütləyə yaxınlaşdırmaq və fəhlələrə bilavasitə iş yerində xidmət etməyə xüsusi diqqət yetirirdi. O dövrdə Həmkarlar İttifaqının kitabxanalarının hesabatlarında qeyd edilirdi ki, səyyarlar vasitəsilə iş yerlərində fəhlələrə xidmət ən mütərəqqi üsul hesab edilməlidir. Məhz buna görədir ki, Həmkarlar İttifaqı kitabxanaları, xüsusilə Bakı şəhər Həmkarlar İttifaqı kitabxanaları səyyar kitabxanalar və kitab gəzdirmə işinin təşkilinə xüsusi diqqət yetirirdi. Təkcə 1933-cü ildə Həmkarlar İttifaqı kitabxanaları 396 səyyar məntəqə təşkil etmişdi ki, bunlar da 16.114 nəfər oxucuya xidmət etmiş və onlara 73.753 nüsxə kitab vermişdi.[98] Kitab verilişində başlıca yeri əsasən texniki kitablar tuturdu. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin «SSRİ-də kitabxana işi haqqında» (1934) qərarının Azərbaycan Həmkarlar İttifaqı kitabxanalarının işinə xeyli müsbət təsiri oldu. 1934-cü ildə AHİŞ mədəni kütləvi şöbəsinin yanında kitabxana bölməsi yarandı. Respublikada Həmkarlar İttifaqı kitabxanalarına rəhbərlik bu şöbəyə tapşırıldı. Şöbə uzun müddət ərzində respublika Həmkarlar İttifaqı kitabxanala-

rının işinin təşkilində çox mühüm rol oynadı. Şöbə kitabxanalara təşkilati rəhbərliklə yanaşı, metodiki rəhbərlik mərkəzinə çevrilmişdi.

1934-cü ilin oktyabrında Azərbaycanda 803,4 nüsxə kitab fonduna malik 190 Həmkarlar İttifaqı kitabxanası qeydə alınmışdı. Bu kitabxanalar 78,5 oxucuya xidmət edirdilər.[99]

İkinci beşillik dövründə Həmkarlar İttifaqı kitabxanaları öz işlərini bilavasitə xalq təsərrüfatının inkişafı vəzifələri ilə əlaqələndirir, təsərrüfatın konkret sahələrində çalışan fəhlələrin ümumi mədəni və sənət-texniki səviyyəsinin yüksəldilməsində yaxından iştirak edirdi.

İkinci beşillik dövründə Həmkarlar İttifaqı kitabxanaları Bakı nefçilərinə xidmət işinə xüsusi diqqət yetirirdilər. Bu cəhətdən neft fəhlələri Həmkarlar İttifaqının Şvarts adına Kitabxanasının fəaliyyəti daha diqqətəlayiq olmuşdur. 1924-cü ildən bu kitabxana bilavasitə neftçilərə xidmət etdiyindən onun fondunda neftə aid xeyli ədəbiyyat toplanmışdı. Kitabxanada neftçilərə xidmət üçün hər cür şərait yaradılmışdı. Məhz buna görədir ki, onun oxucuları arasında buruq işçisi, sürücü, qazmaçı, dəmirçi, elektrik-montyoru və ümumiyyətlə, neft sənayesinin başqa sahələrində çalışan digər sənət sahiblərinə rast gəlmək olurdu. Kitabxananın yanında oxucuların müxtəlif suallarına cavab vermək üçün riyaziyyata, fizikaya, kimyaya, rus dilinə, ictimai-siyasi məsələlərə və bütün texniki məsələlərə aid məsləhətlər təşkil edilirdi. Həmçinin ingilis və alman dillərini öyrənmək üçün dərnək təşkil edilmişdi.[100]

Şvarts kitabxanası ilə yanaşı, Həmkarlar İttifaqına aid olan 26 Bakı Komissarları rayonunun mədəniyyət sarayının kitabxanası o dövrdə bədii ədəbiyyatın təbliğinə xüsusi diqqət yetirirdi. Kitabxana 3.600 oxucuya xidmət edirdi ki, bunların da əksəriyyətini fəhlələr təşkil edirdi. Fəhlə oxucuları içərisində mütaliəyə böyük maraq əmələ gəlmişdi. Bir çox qabaqcıl fəhlələr yeni kitabları olduqcu diqqətlə izləyir

və onu sürətlə mütaliə edirdilər. Belə fəhlə oxuculardan birinci istismar qrupunun briqadiri İsmayıl Seyidov 1935-ci ildə 100 kitab oxumuşdu. Bu kitablar içərisində ictimai-siyasi ədəbiyyat, bədii ədəbiyyat çoxluq təşkil edirdi. Neft fəhləsi Ağadadaş Rzayev Azərbaycan və rus yazıçılarının əsərlərini böyük həvəslə oxuyurdu. Kitabxana fəhlələrin ailələrinə də nümunəvi xidmət göstərirdi.[101]

Bu dövrdə Həmkarlar İttifaqı kitabxanaları fəhlə sinfinin həyatında mühüm rol oynayan mədəni mərkəzə çevrilmişdir.

Azərbaycan Həmkarlar İttifaqı kitabxanaları 1935-ci ildə başlamış «Ən yaxşı rayon və kənd kitabxanası» uğrunda müsabiqəyə qoşulmuşdu. Müsabiqə 1935-ci il iyunun 1-dən 1936-cı il yanvarın 1-nə kimi davam etdi. Müsabiqədə bütün Həmkarlar İttifaqı kitabxanaları iştirak edirdi. Müsabiqənin şərtlərinə görə ayrı-ayrı həmkarlar təşilatları və kitabxanaları kitabxana işini günün tələbləri səviyyəsinə yüksəltmək, kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək, oxuculara xidmət işində dönüş yaratmaq, kitabxanalara yeni oxucular cəlb etmək, kitabxanaların kütləvi tədbirlərinin daha təsirli olmasını təmin etmək, kitabxanaçı kadrların tərkibini yaxşılaşdırmaq vəzifəsini öz qarşısında qoymuşdu. Müsabiqənin keçirilməsi Həmkarlar Təşkilatı kitabxanalarının işində böyük canlanmaya səbəb oldu. Yerli Həmkarlar İttifaqlarının bu müsabiqədə iştirakı kitabxana işinin daha da yaxşılaşmasına, xüsusilə kitabxanaların maddi-texniki bazasının möhkəmlənməsinə, kitabxanalara yeni binaların verilməsinə və avadanlıqlarla təmin edilməsinə müsbət təsir göstərdi.

Müsabiqə 1936-cı il aprelin 10-da yekunlaşdırıldı. Yekunlara görə, ən yaxşı göstəricilər əldə edən Qafqaz neft mədən Həmkarlar İttifaqı kitabxanaları müsabiqənin qalibi hesab edildi. İttifaqın kitabxanalarından Orconikidze adına, Lenin adına və Kirov adına mədəniyyət sarayları kitabxanalarına birinci dərəcəli mükafat, yerdə qalan kitabxanalara

isə ikinci dərəcəli mükafat verilmişdi.[102]

Müsabiqə keçirilən müddətdə Qafqaz neft-mədən Həmkarlar İttifaqı kitabxanaları oxuculara xidmət sahəsində böyük müvəffəqiyyətlər əldə etmişdilər. Bunu aşağıdakı rəqəmlərdən görmək olar. 1935-ci ilə nisbətən 1936-cı ilin əvvəllərində oxucuların sayı 31.000 nəfərdən 46.000 nəfərə, oxuculara kitab verilişi 594.000-dən 750.000-ə, səyyar məntəqələrin sayı 80-dən 300-ə, səyyar məntəqələrin oxucularının sayı 1.000 nəfərdən 10.000 nəfərə, kitabxana fəallarının sayı isə 150-dən 510 nəfərə çatdırılmışdı.[103] Müsabiqənin keçirilməsi kitabxanaların işinə olduqca müsbət təsir göstərmiş, onların fəhlələr arasında apardığı işi xeyli yaxşılaşdırmışdır.

İkinci beşillik illərində Azərbaycan Həmkarlar İttifaqı kitabxanaları fəhlə sinfinə kitabxana xidmətinin təşkili sahəsində xeyli iş görmüş, öz fəaliyyətini bilavasitə zəhmətkeşlərin ümumi mədəni və texniki-peşə səviyyəsinin yüksəldilməsinə yönəltmişdilər. Beşillik dövründə kitabxanaların kitab fondu müntəzəm olaraq artmış, onların zəhmətkeşlərə xidmət işinin səviyyəsini yüksəltmiş, yeni-yeni iş forma və üsulları meydana gəlib təkmilləşmişdi. Artıq 1937-ci ildə Azərbaycanda 792.736 kitab fonduna malik olan 90 Həmkarlar İttifaqı kitabxanası fəaliyyət göstərirdi.[104] Bu kitabxanalardan 662.414 kitab fonduna malik olan 47 kitabxana Bakı və onun rayonlarında yerləşmişdi.[105]

İkinci və üçüncü sosialist beşillikləri dövründə Azərbaycan Həmkarlar İttifaqlarının şəhər kitabxana şəbəkəsi ilə yanaşı, kənd kitabxana şəbəkəsi də meydana gəldi. Bu da kənddə kolxoz quruculuğunun qələbəsi ilə əlaqədar olaraq MTS-lər şəbəkəsinin genişlənməsi və kənd rayonlarında sənaye müəssisələrinin yaranması ilə əlaqədar idi. Bu kitabxanalar əsasən Naxçıvan MSSR-də, DQMV-də, Gəncədə, Göyçaydа, Kürdəmirdə, Şamaxıda, Salyanda, Xaçmazda, Əli Bayramlıda və s. rayonlarda yerləşdirilmişdi.[106]

Üçüncü beşillik dövrü Azərbaycan Həmkarlar İttifaqı

kitabxanalarının işində xüsusi mərhələni təşkil edir. Məhz bu illərdə Azərbaycan Həmkarlar İttifaqı kitabxanaları əvvəlki beşilliklər dövründə əldə etdiyi müvəffəqiyyətləri daha da möhkəmləndirmiş, kitabxana şəbəkələri inkişaf edib təkmilləşmiş, kitabxana fondları əsaslı şəkildə artmış, oxuculara xidmət işi xeyli yaxşılaşmışdı. Kitabxanaların oxucularla apardığı işin məzmununda böyük keyfiyyət dəyişiklikləri baş vermiş, yeni iş formaları və üsulları meydana gəlib təkmilləşmişdi. Kitabxanalar fəhlə sinfinin mədəni tələbatını ödəmək üçün geniş kütləvi tədbirlər həyata keçirirdilər. Kitabxanalar fəhlələr arasında marksizm-leninizm klassiklərinin əsərlərini; partiya və dövlət qərarlarını təbliğ etməkdə daha zəngin təcrübə əldə etmişdilər, zəhmətkeşlərin tərbiyəsində onların ideoloji tərbiyəsinə xidmət ön plana çəkilmişdi.

1940-cı ildə respublika Həmkarlar İttifaqının 845.918 kitab fonduna malik olan 127 kitabxanası var idi. Bu kitabxanalar 90 min oxucuya xidmət etdiyi müddətdə oxuculara 1 milyon 876 min kitab vermişdi. Üçüncü beşillikdə Həmkarlar İttifaqı kitabxanaları kənd əhalisinə kitabxana xidmətini xeyli genişləndirmişdi. 1940-cı ildə artıq Həmkarlar İttifaqının kənd yerlərində 60.995 kitab fonduna malik 44 kitabxanası fəaliyyət göstərirdi. Bu kitabxanalar 7.881 oxucuya xidmət edirdilər.[107]

Göründüyü kimi, müharibədən əvvəlki beşilliklər dövrü Həmkarlar İttifaqı kitabxana şəbəkəsinin inkişaf etdiyi, onun fəaliyyətinin genişlənib daha da təkmilləşdiyi, işinin təsir dairəsinin daha da artdığı, ümumiyyətlə, fəhlə sinfinə kitabxana xidmətinin daha da yaxşılaşdığı illər olmuşdur.

§3.3.3 Kənd kitabxanalarının inkişafı

Sovet hakimiyyəti illərində Azərbaycan kəndinin həyatında böyük mədəni inqilab baş vermişdi. Kəndin mədəni həyatında baş verən ən böyük nailiyyət savadsızlığın ləğvi sahəsindəki müvəffəqiyyətlər idi. Artıq 1933-cü ildə kənd əhalisinin 50,9 faizi savadlaşmışdı.[108] Kənd əhalisinin savad-

sızlığının ləğv edilməsi sahəsində əldə edilmiş müvəffəqiyyətlər mədəniyyətin bütün sahələrinin, o cümlədən mədəni-maarif müəssisələrinin inkişaf etdirilməsi üçün əlverişli şərait yaratmışdı.

Kənddə mədəni tərəqqi, kənd təsərrüfatının elliklə kollektivləşdirilməsi illərində daha böyük vüsət almışdı. Kollektivləşmə illərində partiyanın kənddə apardığı siyasi-tərbiyə işləri xeyli genişlənmiş, onun təsir dairəsi artmışdı. Çünki kolxoz quruculuğunun sürətlə artması, onların təşkilat-təsərrüfatca möhkəmlənməsi kəndin mədəni inkişafından xeyli asılı idi.

Kollektivləşmə illərində kəndin ümumi mədəni inkişafı ilə yanaşı, kənddə siyasi-maarif müəssisələrinin inkişafına xüsusi diqqət yetirilirdi. Kənd siyasi-maarif müəssisələri: klub, kitabxanalar, qiraət komaları, qırmızı çadırlar kənddə partiya siyasətinin təbliğ və izah edilməsində, kolxozçu kəndlilərin mədəni və aqrotexniki səviyyəsinin yüksəldilməsində mühüm rol oynayırlar. Kənddə mədəni-maarif işinin əsas tərkib hissəsini kolxozçu kəndlilərin mədəni-aqrotexniki səviyyəsinin yüksəldilməsi təşkil edirdi. Kollektiv təsərrüfatın möhkəmlənməsi kolxoz təsərrüfatında işləyə biləcək mütəxəssis kadrların yetişdirilməsini tələb etməklə bütün kolxozçuların aqrotexniki biliklərə yiyələnməsini, yeni texniki nailiyyətlərdən baş çıxara bilməsini tələb edir. Məhz buna görədir ki, kənd təsərrüfatı artelinin Nümunəvi Nizamnaməsində göstərilirdi ki, «kolxoz artel üzvlərinin mədəni-səviyyəsini yüksəltməli, klub, kitabxana, qiraətxana və s. təşkil etməlidir».[109]

Bu dövrdə kənd siyasi-maarif müəssisələrinin apardığı siyasi-kütləvi və təbliğat-təşviqat işi içərisində kitabla iş, kitabın təbliği, kitabın kolxozçu kəndlilər arasında yayılması mühüm yer tuturdu.

Odur ki, ikinci beşillikdə Azərbaycan kəndlərində 617 müstəqil kənd və rayon kitabxanasının açılması nəzərdə tutulmuşdu. Azərbaycanda müstəqil kənd kitabxanalarının

yaranması məhz bu dövrə təsadüf edir.

Azərbaycan kəndlərində müstəqil kitabxana şəbəkəsinin yaranıb möhkəmlənməsi qiraət komaları tərəfindən həyata keçirilmişdir. Ona görə də Azərbaycanda kənd əhalisinə kitabxana xidmətinin tarixini öyrənərkən qiraət komalarının bu sahədəki tarixi fəaliyyətini nəzərdən qaçırmaq düzgün olmazdı.

Kəndin siyasi-maarif müəssisələri içərisində qiraət komaları mühüm yer tuturdu. N.K. Krupskaya qiraət komalarını kəndin bütün həyatının fəal mərkəzi adlandıraraq qeyd edirdi ki, onlar inqilabdan sonra yaranan mədəni-maarif müəssisələrinin tamamilə yeni tipidir. Qiraət komaları kənddə bütün maarif işinin dayaq məntəqəsidir.[110] Qiraət komaları təkcə mədəni müəssisə deyil, eyni zamanda kəndlilərin siyasi-maarifinin əsas mərkəzi idi. Qiraət komalarında kəndlilər Sovet dövlətinin qərar və göstərişləri ilə tanış olur, bütün yenilikləri öyrənirdilər.

Azərbaycan K(b)P MK 1933-cü ilin mart ayında «Kənddə mədəni-maarif işinin yenidən qurulması haqqında» qərar qəbul etmişdi.[111] Bu qərarda Azərbaycan kəndlərində mədəni-maarif işinin, o cümlədən kitabxana işinin yenidən qurulması üçün çox mühüm tədbirlər müəyyənləşdirilirdi.[112] 1933-cü ildə Azərbaycanın kənd yerlərində 80.1 kitab fonduna malik 57 müstəqil kütləvi kitabxana və 305 klub, 394 qiraət koması kənd əhalisinə kitabxana xidməti göstərirdi.[113] Azərbaycan K(b)P MK-nın göstərişi ilə 1933-cü ildə 20 nümunəvi klub və 60 qiraət koması təşkil edilmişdi.[114] Nümunəvi klub və qiraət komaları digər kənd mədəni-maarif müəssisələrinin işinə də kömək göstərmək üçün öz iş təcrübəsi haqqında məlumat verirdilər. Bərdə rayonunun Xındırıstan kənd klubu, Alpout qiraət koması və Noraşen rayon klubu bu dövrdə nümunəvi mədəni-maarif müəssisəsi kimi pambıq uğrunda mübarizədə böyük siyasi təbliğat işləri aparmış, aqrotexniki dərnəklər təşkil etmiş, kənd əhalisi arasında kitab təbliğinə xüsusi diqqət yetirmişlər.[115]

1933-cü ildə Azərbaycan SSR Xalq Maarif Komisarlığı pambıqçılıq rayonlarına 23.704 kitabı olan 73 kiçik kitabxana göndərmişdi. Bunlardan 11.689 kitabı olan 43 kiçik kitabxana MTS-lərin siyasi şöbələrinə göndərilmişdi.[116]

Bu dövrdə Azərbaycan kəndində kitabxana işinin inkişaf etdirilməsində, kənd əhalisinin kitabla təmin edilməsində Azərbaycan LKGİ MK kənd mədəni-maarif müəssisələri üçün kitab toplamağın təşəbbüsçüsü oldu.

1932-ci ilin mayında komsomolun Mərkəzi Komitəsi «Proletar mərkəzindən artıq kitabları kütləvi təbliğat yolu ilə bütünlüklə toplayaraq sosializm kəndinə göndərmək və orada yaymaq kampaniyasına başlamağı qərara aldı».[117] Bütün şəhər və rayon komsomol təşkilatlarına müraciət edərək onları kənd mədəni-maarif müəssisələri üçün kitab toplamağa çağırdı. Bu işdə «Gənc işçi» qəzeti xüsusi rol oynadı. O, kənd üçün kitab toplamaq haqqında ayrı-ayrı komsomolçuların və komsomol təşkilatlarının fəaliyyəti haqqında məktublar dərc edir və bütün komsomolçuları bu mühüm tədbirlərin həyata keçirilməsində səfərbərliyə alırdı. «Gənc işçi» qəzetinin 1932-ci il 29 iyun tarixli nömrəsində oxuyuruq: «Voroşilov rayonunun 9-cu məktəbindəki komsomol özəyi öz ümumi iclasında «Gənc işçi» qəzetinin kəndə kitab yardımı xüsusundakı müraciətini müzakirə etdikdən sonra bu işə qoşulmuş və az zaman içərisində 500 kitab toplayaraq raykomun qəbuledici məntəqəsinə vermişdir. Toplanış davam etməkdədir. Komsomolçular kitab verilişində ilk sırada gedir».[118] Bakının bütün rayonları bu təşəbbüsə qoşulmuşdur. Oktyabr rayon Komsomol Komitəsi 1933-cü il martın 29-da rayonlara 2 bədii təbliğat briqadası, 2 kütləvi işçi və 25 kolxoz kitabxanası göndərmişdi. Bakı komsomol təşkilatı isə aprel ayında Azərbaycan rayonlarına 100 kolxoz kitabxanası, 10 bədii briqada və 15 kütləvi işçi göndərməyi nəzərdə tutmuşdur.[119]

Bakı şəhəri ilə yanaşı Azərbaycanın rayonları da bu təşəbbüsə qoşulmuş, rayon mərkəzlərindən kitab toplayaraq, kənd kitabxanalarına göndərmişlər. Rayon komsomol komitələri Azərbaycan LKGİ Mərkəzi Komitəsinin müraciətini bütün komsomol təşkilatlarında müzakirə etmiş və bütün kolxozçuları bu müraciətə qoşulmağa səfərbər etmişdilər. Bu təşəbbüsə qoşulan Salyan rayonu komsomolçuları 1932-ci ilin iyununda 1.000 kitab toplayıb kənd kitabxanalarına göndərmişdilər.[120]

Azərbaycan LKGİ MK tərəfindən həyata keçirilən bu tədbir ikinci beşilliyin ilk ilində Azərbaycan kəndində əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılmasında çox mühüm rol oynadı.

Azərbaycan LKGİ MK 1933-cü ildə «Kənddə mədəni yürüş keçirmək haqqında» qərar qəbul etdi. Qərarda göstərilirdi ki, kəndin mədəni inkişafında, kolxozçu kəndlilərin mədəni səviyyəsinin yüksəldilməsində komsomol təşkilatları mühüm rol oynamalıdırlar. Komsomolçular kənd mədəni-maarif müəssisələrinin işində yaxından iştirak etməli, kənd klubuna, kitabxanalarına, qiraət komalarına və qırmızı guşələrinə yaxından kömək etməlidirlər. Mərkəzi Komitə kənd mədəni ocaqlarına işləmək üçün 200 komsomolçunun səfərbər olunmasını lazım bilmişdir ki, bunların içərisində 20 nəfər kitabxana işçisi var idi.[121] Azərbaycan LKGİ Mərkəzi Komitəsinin bu qərarı ilə əlaqədar olaraq Azərbaycan Həmkarlar ittifaqları da kənd MTS-lərində və sovxozlarında olan mədəniyyət ocaqlarında işləmək üçün 1933-cü ildə 22 nəfərin göndərilməsini qərara almışdı.[122] Bu tədbirlər yerlərdə kitabxana işinin qaydaya salınmasına, xüsusilə nümunəvi mədəni-maarif ocaqlarında əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılmasına mühüm təsir göstərirdi.

Təkcə 1935-ci ildə Azərbaycanın kəndlərində 20 müstəqil kitabxana açılmış, rayon kitabxanalarına 71.178 manatlıq 55.540 nüsxə kitab və 7.018 manatlıq kitabxana texnikası göndərilmişdi.[123] 1935-ci ildə Xaçmaz[124], Zərdab[125], Masallı[126], Bərdə[127], Tovuz[128] və s. rayonlarda yeni kənd kitabxanaları təşkil edilmişdi.

1935-ci ildə Azərbaycan SSR Xalq Komissarlığı kənd və rayon kitabxanalarını yeni çıxan ədəbiyyatla vaxtında və mükəmməl komplektləşdirmək işini mərkəzləşdirmək məqsədi ilə kitab almaq üçün ayrılan vəsaitin kitabxana kollektorunun hesabına keçirilməsi haqqında əmr vermişdi.[129] Belə bir tədbirin həyata keçirilməsi o dövrdə kənd və rayon kitabxanalarının komlpektləşdirilməsi üçün olduqca böyük əhəmiyyətə malik idi. Çünki nəşriyyatlar və kitab ticarəti idarələri kitabxanaları yeni ədəbiyyatla lazımi səviyyədə təmin edə bilmirdilər. Əksər hallarda az tirajla nəşr edilən və kitab təcarəti orqanlarının böyük ehtiyacı olan kitablar kitabxanalara göndərilmirdi.

Kənddə kitabxana işinin inkişafında 1935-ci ilin iyul ayının 15-dən 1936-cı ilin yanvarına qədər keçirilən «Kənddə kitabxana işinin qoyuluşu üzrə ən yaxşı rayon» Ümumittifaq müsabiqəsi çox mühüm əhəmiyyətə malik oldu.[130]

Ölkənin başqa yerlərində olduğu kimi respublikamızda da kənd kitabxanaları arasında müsabiqənin təşkili sahəsində çox mühüm işlər həyata keçirilməyə başladı.

Ümumiyyətlə, yarış kənd əhalisinə kitabxana xidmətinin yaxşılaşdırılmasına, qiraət komalarının kitabxanaçılıq fəaliyyətinin qaydaya düşməsinə müsbət təsir etdi. 1935-ci ildə Azərbaycanda 626 kütləvi kitabxana, 402 qiraət koması, 108 qırmızı guşə fəaliyyət göstərirdi. Kənd yerlərində 69 qiraət koması nümunəvi qiraət koması adını almışdı. Kənd nümunəvi qiraət komalarına 36.639 manat vəsait ayrılmışdı ki, bunun da xeyli hissəsi qiraət komaları üçün kitab almağa sərf edilirdi. Yerlərdə qiraət komaları şəbəkəsinin genişləndirilməsi və onların fondunun yeni ədəbiyyatla komplektləşdirilməsi kənd əhalisinə kitabxana xidmətinin təşkilinə müsbət təsir göstərmişdi. Artıq 1935-ci ildə Naxçıvan MSSR-də 35, Dağlıq Qarabağ Muxtar Vilayətində 17, Ağdamda 31, Şəmkirdə 28, İsmayıllıda 23, Qaradonluda (İmişli) 21 qiraət koması fəaliyyət göstərirdi.[131] Bunlardan başqa, kolxozların 409 qiraət koması var idi ki, bunların da saxlanılmasına

409.000 manat vəsait xərclənmişdi.[132]

1935-ci ildə Azərbaycanda 402 qiraət koması var idi. Bunların sayı 1937-ci ildə 522-yə[133], 1939-cu ildə isə 629-a çatdırılmışdı.[134] Bundan başqa, 1937-ci ildə kolxozların 135 qiraət koması fəaliyyət göstərirdi.[135] Üçüncü beşillik dövründə qiraət komaları da inkişaf etmiş, onların sayı 1940-cı ildə 760-a çatdırılmışdı.[136]

Bu dövrdə kolxozçu kütlələrin mədəni tələbatı xeyli artmış, kolxozçularda və kolxozçu qadınlarda təhsilə, kitaba, qəzetə, elmi-texniki biliklərə və incəsənətə böyük həvəs əmələ gəlmişdi. Lakin Xalq Maarif Komissarlığının kənddə apardığı mədəni-maarif işləri hələ də kolxoz kəndinin durmadan artan tələbatından olduqca geri qalırdı. Kənd qiraət komaları və kitabxanaları tamamilə qeyri-qənaətbəxş vəziyyətdə idi. Kitabxanalarda ardıcıl mədəni-maarif işi aparılmamış, onların ətrafında fəallar qrupu yaradılmamışdı. Mədəni-maarif işini yüksətmək üçün kəndin mədəni qüvvələrindən lazımi dərəcədə istifadə edilmirdi. Kənd qiraət komaları və kitabxana işçilərinin ixtisası olduqca aşağı idi. Kadr hazırlığına lazımi diqqət yetirilmirdi. Kitabxana işinə rayon və kənd partiya və sovet təşkilatlarının rəhbərliyi hələ də zəif idi. Mədəni-maarif işi hətta bəzi rayonlarda başıbaşına buraxılmışdı. Mədəni-maarif müəssisələrinə ayrılmış vəsait vaxtında xərclənmir, bəzən də başqa məqsədlər üçün xərclənirdi. Məsələn, 1934-cü ildə mədəni-maarif işi üçün buraxılan vəsaitin 50 faizi, 1935-ci ildə isə ancaq 78 faizi həmin məqsəd üçün xərclənmişdi.

İkinci beşillik dövründə kənd mədəni-maarif müəssisələri içərisində kitabxanaların təsir dairəsi daha da genişləndi. Məhz bu illərdə respublikamızda rayon kitabxanaları şəbəkəsi sabitləşdi, onların əhaliyə xidmət işi qaydaya düşdü. Rayon kitabxanalarına ayrılan vəsaitin artırılması və onların bilavasitə müntəzəm olaraq dövlət büdcəsi əsasında təchizi, fondların yeni ədəbiyyatla komplektləşdirilməsi məsələlərinin qaydaya düşməsi, kitabxanaların fəaliyyət dairəsini

xeyli genişləndirmişdi. 1930-cü ildə SSRİ Xalq Komissarları Sovetinin qərarı əsasında kitabxana işçilərinin maaşının artırılması, onların maaşının kənd müəlliminin maaşı ilə bərabərləşdirilməsi kənd və rayon kitabxanalarında kadr məsələsinin həllinə olduqca müsbət təsir göstərdi. Kitabxanaları təhsilli və daha bacarıqlı kadrlarla təmin etmək imkanı verdi ki, bu da tez bir müddətdə kitabxana işinin məzmunca yaxşılaşdırılmasına və onun əhaliyə xidmət işinin təkmilləşməsinə səbəb oldu. Artıq bu dövrdə rayon kitabxanaları rayonun mədəni həyatına mühüm mədəni-maarif müəssisəsi kimi daxil olmuşdu. Rayon kitabxanalarında kitabxana işinin təşkili, məsələlərinə, kitabxana texnikası minimumundan istifadəyə, kitabxanalarda uçot və hesabat işinin tətbiqinə, kitabxana fondunun onluq təsnifat sistemi əsasında düzülməsinə və s. diqqət yetirməyə başlanmışdı.

Rayon kitabxanaları zəhmətkeşlərin mədəni inkişafına kömək etmək məqsədi ilə geniş kütləvi tədbirlər həyata keçirirdilər. Mühazirələr, məruzələr, söhbətlər, ucadan oxular, yeni kitabların icmalları, kitab müzakirələri, ədəbi-bədii gecələr əsas kütləvi iş formaları hesab edilirdi. Rayon kitabxanaları məhz ikinci beşillik dövründə kitab təbliğinin daha təsirli vasitəsi olan əyani təbliğatdan – kitab sərgilərindən, kitabxana plakatlarından da istifadə etməyə xüsusi diqqət yetirirdilər.

Kitabxanalarda aparılan kitab müzakirələri daha məzmunlu keçirilməyə başlamışdı. Bu da bilavasitə oxucuların ümumi mədəni səviyyəsinin yüksəldilməsi ilə əlaqədar idi. Ağdam, Quba, Şamaxı, Naxçıvan, Qazax, Şəmkir, Ağdaş, Nuxa (Şəki) və s. kitabxanalar nümunəvi kitabxanalar hesab edilirdilər. Rayon kitabxanalarının kitab fondu və oxucu kollektivi xeyli artmışdı. Şamaxı rayon kitabxanasının 1937-ci ildə 5.768 kitab fondu və 665 oxucusu, Qax rayon kitabxanasının 3.089 kitab fondu və 333 oxucusu, Zaqatala rayon kitabxanasının 13.589 kitab fondu və 435 oxucusu, Nuxa (Şəki) şəhər kitabxanasının 2.198 kitab fondu və 458

oxucusu, Nuxadakı «Nakam» adına kitabxananın 20.263 kitab fondu və 1.113 oxucusu vardı.[137]

İkinci beşillik dövründə Azərbaycanda müstəqil kənd kitabxanalarının meydana gəlib formalaşması və onların sabitləşməsində çox mühüm nailiyyət əldə edilirdi. Məhz bu dövrdə müstəqil kənd kitabxanaları kəndin mədəni-maarif müəssisələri sistemində öz mövqeyini möhkəmləndirməklə, kəndin mədəni həyatında daha təsirli tədbirləri ilə fərqlənməyə başlamışdı. Kitabxanalar kolxoz kəndinin mədəni inkişafında, kolxozçuların mədəni-siyasi səviyyəsinin yüksəldilməsində, kəndlilər arasında ictimai-siyasi aqrotexniki kitabxanaların təbliğində daha yaxından iştirak edirdi. Həmin illərdə kənd kitabxanalarının şəbəkəsi xeyli genişlənmiş, kənddə kolxoz quruluşunun qələbəsi və daha da möhkəmləndirilməsi ilə əlaqədar olaraq kolxoz kitabxanaları şəbəkəsi sabitləşmiş, həmçinin kənd yerlərində MTS-in çoxalması və onların təsir dairəsinin genişlənməsi ilə əlaqədar MTS mədəni bazaları və kitabxanaları yaradılmışdı.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı 1936-cı ildə rayonlarda 75 kitabxana açmış və bu kitabxanaları ədəbiyyatla komplektləşdirmək üçün 300.000 manat vəsait ayrılmışdı.[138] Beşilliyin axırıncı ilində Azərbaycanın kənd rayonlarında 41 kitabxana açılmışdı.[139]

Respublikamızda kitabxana işinə dair ikinci beşillik plan müvəffəqiyyətlə yerinə yetirilmiş, kənd kitabxana şəbəkəsi sabitləşmişdi. Belə ki, 1932-ci ildə Azərbaycanın kənd yerlərində 80,1 kitab fonduna malik olan 57 kitabxana var idisə, 1937-ci ildə 330,4 kitab fonduna malik olan 774 kitabxana olmuşdu. Beşillik müddətində kitabxanaların sayı 14 dəfəyə yaxın, kitab fondu isə dörd dəfə çoxalmışdı.[140] Kitabxana şəbəkəsinin və kitab fondunun sürətlə artımı əhaliyə xidmət işinin yaxşılaşmasına səbəb olmuşdu. Kitabxanaların fəaliyyət dairəsi genişləndikcə onların ətrafında daha geniş oxucu kütləsi meydana gəlib formalaşırdı. Kitabxanaların oxucuları sırasında kolxozçu kəndlilərin sayı get-

dikcə artırdı.

1938-ci ildə Azərbaycanın rayonlarında 58 kənd və uşaq kitabxanası təşkil edilmişdi.[141] Kənd kitabxanalarını komplektləşdirmək üçün 797.300 manat məbləğində vəsait ayrılmış və bu vəsait[142] kitabxana kollektorunun hesabına keçirilmişdi. Kollektor bu vəsait əsasında rayon və kənd kitabxanalarını mərkəzləşdirilmiş şəkildə komplektləşdirirdi.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı kənd və rayon kitabxanalarının maddi-texniki bazasını möhkəmləndirmək, onları yeni binalarla təmin etmək üçün də xeyli iş görürdü. 1938-ci ildə Naxçıvan mərkəzi, Kürdəmir, Quba, Zaqatala rayon mərkəzi və uşaq kitabxanaları yeni binalara köçürülmüş, Oğuz rayon kitabxanası üçün isə yeni bina tikilmişdi. Həmçinin komissarlıq mövcud kitabxana binalarını təmir etmək üçün Naxçıvan MSSR, Dağlıq Qarabağ Muxtar Vilayəti və 17 rayon üçün 31.000 manat vəsait ayırmışdı.[143]

Azərbaycan SSR Xalq Komissarlığının kitabxanaçılıq idarəsi bu dövrdə öz fəaliyyət dairəsini daha da genişləndirmiş, rayon və kənd kitabxanalarına rəhbərlik işini xeyli yaxşılaşdırmışdı. Kitabxanaçılıq idarəsinin yanında müxtəlif nazirliklərin və təşkilatların nümayəndələrindən və Bakı şəhərinin qabaqcıl kitabxanaçılarından ibarət kitabxana şurası yaradılmışdı. Bu şura kitabxana işinin müxtəlif metodiki müəssisələrinin həllində yaxından iştirak edirdi. Kitabxanaçılıq idarəsi kitabxanaların uçot-hesabat işlərini, kitabxana fondunun düzülüşü, kitabxana kataloqlarının tərtibi məsələlərini qaydaya salmaq üçün rayon mərkəzi kitabxanalarına metodik məktublar, kitabxana texnikası minimumuna aid materiallar göndərilirdi.

1938-ci ildə kitabxanaçılıq idarəsi, kitabxanaşünaslıq kabineti ilə birlikdə onluq təsnifat cədvəlini iki variantda: kiçik kitabxanalar üçün 1 çap vərəqi həcmində və böyük kitabxanalar üçün 9 çap vərəqi həcmində nəşr edib kitabxanalara göndərmişdi. Bu cədvəlin nəşr edilməsi çox böyük əhə-

miyyətə malik idi. Çünki rayon və kənd kitabxanalarının fondunun artması, onların müəyyən düzülüş qaydaları ilə təmin edilməsini tələb edirdi. Rayon və kənd kitabxanalarında təsnifat cədvəllərindən istifadə etmək fondun təşkilində hərcmərcliyə səbəb ola bilərdi. Bundan başqa, kitabxanaçılıq idarəsi bir çox vəsaitlər, proqramlar, tövsiyə ədəbiyyat siyahıları tərtib edib rayonlara göndərmişdi. Kitabxanaçılıq idarəsi 1938-ci ildə Kitabxana Kollektoru vasitəsilə rayon kitabxanalarına SSRİ Konstitusiyasına, yubileylərə, tarixi günlərə, inqilabi bayramlara, təsərrüfat və siyasi kampaniyalara aid 15 mövzuda tövsiyə ədəbiyyat siyahısı göndərmişdi.

Kitabxanaçılıq idarəsi bu dövrdə kənd və rayon kitabxanalarına öz təlimatçılarını və təcrübəli kitabxana işçilərini ezam etmək yolu ilə də metodik köməklik göstərirdi. 1938-ci ildə 34 rayonda kitabxana işi yoxlanılmış və rayonlara 50 dəfə təlimatçılar ezam edilmişdi.[144]

Partiya və dövlətin gördüyü tədbirlər nəticəsində yerlərdə kitabxana işi xeyli yaxşılaşmışdı. 1938-ci ildə Naxçıvan MSSR-də 16 kitabxana və 37 qiraət koması fəaliyyət göstərirdi.[145] Bundan başqa, təkcə 1937-1938-ci illərdə kəndlərdə kolxoz kitabxanalarının sayı 2 dəfə çoxalmışdı. Kolxoz kitabxanalarının fondu da sürətlə artırdı. Təkcə 1937-ci ildə kolxoz kitabxanaları 31.800 nüxsə bədii ədəbiyyat almışdılar. Bir sıra kolxoz kitabxanalarının fondu olduqca zəngin idi. Məsələn, Təzəkənd kolxoz kitabxanasında 12 min manatlıq, Nehrəm kolxoz kitabxanasında 11.000 manatlıq, Ulya-Noraşen kolxoz kitabxanasında 10.000 manatlıq kitab vardı.[146] Ordubad şəhər Mərkəzi Kitabxanası respublikada oxuculara xidmət sahəsində xüsusi təcrübə qazanmış, 1938-ci ildə 600 nəfər oxucuya xidmət etmişdi. Kitabxana tərəfindən zəhmətkeşlər arasında olduqca geniş və müxtəlif kütləvi işlər aparılırdı.[147]

Respublikanın digər rayonlarında da zəhmətkeşlərə nümunəvi xidmət göstərən kitabxanaların sayı xeyli çoxal-

mışdı. Quba rayon Puşkin adına Mərkəzi Kitabxanası və Ağdam rayon Mərkəzi Kitabxanası belə kitabxanalardan idi.

Azərbaycan LKGİ MK və Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən 1938-1939-cu illərdə kənddə kitabxanalar və qiraət komaları arasında üçüncü sosialist beşilliyi adına sosializm yarışının keçirilməsi olduqca böyük əhəmiyyətə malik idi.

Respublika komsomol təşkilatlarının bilavasitə bu işə qoşulması yerlərdə gənclərin kitabxana və qiraət komalarının işinə cəlb edilməsinə, onların ətrafında gənclərdən ibarət fəallar qrupunun yaranmasına kömək etdi. Yerlərdə komsomol təşkilatları kitabxanaların və qiraət komalarının maddi-texniki bazasının möhkəmləndirilməsində, kitabxanalara yeni binalar verilməsində, mövcud binaların təmir və avadanlıqla təchiz edilməsində yaxından iştirak edirdilər.

Respublikamızın Bərdə, Ağdam, Quba, Şamaxı, Tovuz, Şəmkir və s. rayonlarının komsomol təşkilatları bu sahədə fərqlənmişlər.

Artıq 1940-cı ildən respublikamızın kənd yerlərində 1,084 kütləvi kitabxana fəaliyyət göstərirdi. Bunların fondunda 614,9 kitab var idi. Göründüyü kimi, üçüncü beşilliyin təkcə üç ilində Azərbaycanın kənd yerlərində 310 yeni kütləvi kitabxana açılmışdı. Bu kitabxanaların fondu da əhəmiyyətli dərəcədə artmışdı. Üç il müddətində kitabxanaların fondunda 284,5 nüsxə kitab daxil olmuşdu ki, bu da o dövr üçün çox böyük müvəffəqiyyət idi.

Kitabxanalar miqdar etibarı ilə artmaqla yanaşı, onların işinin məzmunu da həm keyfiyyət, həm də ideoloji cəhətdən daha da yüksəlmiş, böyük siyasi əhəmiyyət kəsb etmişdi. Kitabxanalar zəhmətkeşlərin təhsil və tərbiyəsində yaxından iştirak etməklə, onların texniki-peşə səviyyələrinin yüksəlməsinə, aqrotexniki biliklərə yiyələnmələrinə yaxından kömək edirdilər. Beləliklə, kənd və rayon kitabxanaları respublikamızın təsərrüfat həyatında yaxından iştirak edir, öz işlərini bilavasitə xalq təsərrüfatı planlarının yerinə yetirilməsinə yönəldirdilər. Bu dövrdə partiya və dövlət tərəfindən həyata keçirilən elə bir tədbir, siyasi kampaniya yox idi ki, kitabxanalar orada fəal iştirak etməsinlər.

SSRİ və Azərbaycan SSR Ali Sovetlərinə və yerli Sovetlərə seçkilər dövründə rayon və kənd kitabxanaları çox böyük təbliğat-təşviqat işi aparmış, öz işlərini bilavasitə seçki kampaniyasının vəzifələrinə həsr etmişdi.[148]

Klub, kitabxana və qiraət komalarında «Seçkilər haqqında Əsasnamə»ni öyrənmək üçün dərnəklər təşkil edilmişdi. Ağdam rayonu mədəni-maarif müəssisələrində 26 dərnək təşkil edilmiş, 5 mühazirə oxunmuşdu. Əli Bayramlı rayonunda 26 dərnək təşkil edilmiş, 9 mühazirə oxunmuşdu. Salyanda 24 dərnək təşkil edilmiş, 21 mühazirə oxunmuş və 19 məsləhət keçirilmişdi. Bakının kənd rayonlarında 42 dərnək təşkil edilmiş, 43 məruzə oxunmuş və 38 məsləhət[149] keçirilmişdi. Dağlıq Qarabağ Muxtar Vilayətində 183 dərnək təşkil edilmiş, 469 mühazirə və söhbət keçirilmiş və bunlar 4,364 nəfəri əhatə etmişdi. Ümumiyyətlə, Azərbaycanın 22 rayonunda mədəni-maarif müəssisələri tərəfindən 896 dərnək təşkil edilmiş, 757 məruzə, mühazirə keçirilmiş, 123 məsləhət təşkil edilmiş, kitabxanalar və qiraət komaları 151 divar qəzeti buraxmışdılar.[150]

Bu dövrdə kənd və rayon kitabxanaları içərisində öz işini günün tələbləri səviyyəsində quran kitabxanaların sayı getdikcə artırdı. Nuxa (Şəki), Zaqatala, Şamaxı, Quba, Ağdam, Gəncə, Naxçıvan, Əli Bayramlı, Xaçmaz və s. rayon kitabxanaları öz qabaqcıl işləri ilə fərqlənirdilər.[151]

Bütün bu tədbirlərə baxmayaraq, Azərbaycanın kənd rayonlarında əhaliyə kitabxana xidmətinin təşkilində bir sıra ciddi nöqsanlar hələ də qalmaqda davam edirdi. Kitabxana şəbəkəsi bütün kənd yaşayış məntəqələrini əhatə etməmişdi. Heç olmasa hər bir böyük kənd yaşayış məntəqəsinə bir kitabxana da düşmürdü. Müstəqil kənd kitabxanalarının sayı olduqca az idi. Mövcud kənd kitabxanalarının maddi-texniki bazası, xüsusilə bina ilə təmin edilməsi lazımi

səviyyədə deyildi. Hələ də kənd kitabxanalarının əksəriyyəti şəraiti olduqca pis olan binalarda yerləşirdi.

Kitabxanaların komplektləşdirilməsi sahəsində də bəzi nöqsanlar qalmaqda idi. Kitabxanalar əsasən mərkəzləşdirilmiş şəkildə komplektləşdirilsə də, Kitabxana Kollektoru kitabxanaları vaxtında lazımi ədəbiyyatla təmin edə bilmirdi. Bəzən kitabxana fondlarının komplektləşdirilməsində profillik pozulurdu. Kənd kitabxanalarının kadrlarla təmin edilməsini də qənaətbəxş hesab etmək olmazdı. Bir çox rayonlarda kitabxanaçı vəzifəsinə savad və ixtisas dərəcəsi çox aşağı olan şəxslər təyin edilirdi ki, bunlar da zəhmətkeşlər arasında heç bir mədəni-kütləvi və siyasi-tərbiyə işi apara bilmirdilər.

Kitabxanalara ayrılan vəsait yerli təşkilatların təqsiri üzündən bəzən vaxtında xərclənmirdi. Bəzi hallarda isə başqa məqsədlər üçün istifadə edilirdi ki, bu da əhaliyə kitabxana xidmətinin təşkilinə mənfi təsir göstərirdi.

Bütün bunlara bazmayaraq məhz bu dövrdə rayon və kəndlərdə onlarca kitabxana daha abad binalara köçürülmüş, yüzlərlə kitabxana binası əsaslı təmir edilmiş və avadanlıqla təchiz olunmuşdu. Həmçinin rayon partiya komitələri xalq maarif şöbələri ilə birlikdə mədəni-maarif müəssisələri kadrlarının tərkibini nəzərdən keçirmiş, savad və ixtisas dərəcəsi aşağı olan kadrları yeniləri ilə əvəz etmişdilər.

Azərbaycan Xalq Maarif Komissarlığı rayon və kənd kitabxanalarını yeni ədəbiyyatla komplektləşdirmək işini yaxşılaşdırmaq üçün Kitabxana Kollektorunun fəaliyyətinə diqqəti artırmış və rayon kənd kitabxanalarına metodik xidmət işini xeyli yaxşılaşdırmışdı. Kitabxanalara metodik kömək göstərən metodkabinənin işinin yenidən qurulması üçün əməli tədbirlər görülmüşdü.[152]

§ 3.3.4. Uşaq və məktəb kitabxanaları

İkinci beşillikdə məktəb və məktəbdənkənar uşaq müəssisələri şəbəkəsinin daha da inkişaf etdirilməsi və onların işinin ideya-siyasi səviyyəsinin yüksəldilməsinə xüsusi

diqqət yetirilirdi. Məktəbdənkənar uşaq müəssisələri arasında uşaqların mənəvi tərbiyəsində, ümumi mədəni inkişafında dərs proqramlarının daha dolğun mənimsənilməsində uşaq və məktəb kitabxanaları mühüm rol oynayırdılar. N.K. Krupskaya bu dövrdə şagirdlərin tərbiyəsində sinifdənkənar mütaliənin təşkilində uşaq və məktəb kitabxanalarının işini çox yüksək qiymətləndirirdi. O yazırdı: «Mütaliə uşaqların həyatında yaşlılara nisbətən daha böyük rol oynayır, uşaqlıqda oxunan kitab az qala insanın ömrünün axırına qədər yadda qalır və uşağın gələcək inkişafına böyük təsir edir».[153]

Azərbaycanda ikinci beşillik dövründə uşaq və məktəb kitabxanaları dövlət planı və büdcəsi əsasında inkişaf etdirilməyə başladı. İkinci beşillik planında şəhərlə yanaşı rayon mərkəzlərində də müstəqil uşaq kitabxanalarının təşkili nəzərdə tutulmuşdu. Məlum olduğu kimi, Azərbaycanın kənd rayonlarında müstəqil uşaq kitabxanalarının və məktəb kitabxanalarının sayı olduqca az idi. Kənd yerlərində uşaqlara xidmət prosesi əsasən müstəqil kənd kitabxanaları və rayon mərkəzi kitabxanaları tərəfindən yerinə yetirilirdi.

20-ci illərin axırlarında respublikada uşaq və məktəb kitabxanalarının təşkili sahəsində ilk mühüm addımlar atılmağa başlamış, uşaqlara kitabxana xidmətinin təşkili, maarif və mədəniyyət ictimaiyyətinin diqqətini daha çox cəlb edirdi. Məktəb kitabxanalarının əhəmiyyət və vəzifələri, onun şagirdlərin təhsilində və tərbiyəsində böyük rolu haqqında maarif mətbuatında fikirlər irəli sürülürdü. «Maarif işçisi» jurnalı özünün 1927-ci il tarixli 2-ci nömrəsində «Məktəb və kitabxana» adlı məqaləsində yazırdı: «Məktəb və kitabxana - bu iki maarif müəssisələrinin, daha doğrusu, bu iki maarif mənbələrinin hər ikisini bir gözdə görməlidir. Bu müəssisələrin istər metodik, istər plan cəhətdən cəmi işləri sıx bir surətdə aparılmalıdır. Bu müəssisələr hər ikisi vahid və ümumi məqsədlə işləyirlər».[154] Daha sonra jurnal sinifdənxaric mütaliəni təhsilin inkişafında mühüm amil kimi qiymətləndirərək yazırdı: «Kitabxana məktəb xaricindəki

maarif işinin ibtidası və nəhayəti zənn olunur. Maarif işi binaya təşəbiə edilərsə, məktəb onun bünövrəsi, məktəb xaricindəki təhsil divarları, kəndi başına təhsil səqfi yerini alır. Bu binanın hər bir qismətini bir-birinə möhkəmləşdirən sement isə kitabdan ibarətdir».[155]

30-cu illərin əvvəllərindən başlayaraq uşaq və məktəb kitabxanalarının təşkil edilməsinə diqqət daha da artırıldı. Azərbaycan müstəqil uşaq kitabxanalarının və məktəb kitabxanalarının hərtərəfli inkişafı ikinci və üçüncü beşilliklər dövründə mümkün oldu. Məhz bu dövrdə Azərbaycanın kənd rayonlarında da müstəqil uşaq və məktəb kitabxanaları şəbəkəsi yaranıb genişləndi.

Müstəqil uşaq kitabxanaları yaranana qədər uşaqlara kitabxana xidməti kütləvi kitabxanalar tərəfindən aparılırdı. Uşaqlara xidmət işi kütləvi kitabxanaların fondunun komplektləşdirilməsində də kütləvi işlərində də öz əksini tapırdı. Kənd kitabxanaları uşaq ədəbiyyatının komplektləşdirilməsi işinə daha ciddi diqqət yetirirdilər. Çünki kənd kitabxanalarının oxucuları sırasında yuxarı sinif şagirdləri əksəriyyət təşkil edirdilər.

20-ci illərin axırında şəhərlərdə, xüsusilə Bakıda müstəqil uşaq kitabxanalarının sayının artması ilə əlaqədar olaraq düzgün olmayan belə bir fikir meydana gəlməyə başlamışdı ki, kütləvi kitabxanalarda uşaqlara xidmət dayandırılmalıdır. Çünki bu iş kitabxanaların ümumi işinə, şəhər əhalisinə nümunəvi kitabxana xidmətinin təşkilinə qismən də olsa mənfi təsir göstərir. Belə yanlış fikirlərə o dövrdə respublika qəzetlərinin səhifələrində də rast gəlmək olurdu.[156] Əlbəttə, hələ müstəqil uşaq kitabxanalarının şəhərlərdə olduqca az miqdarda olduğu, kənd yerlərində isə hələ bir dənə də olsun müstəqil uşaq kitabxanasının olmadığı bir zamanda belə bir yanlış fikri qəbul etmək minlərlə məktəbini kitabxana xidmətindən kənarda qalmağa, kənd yerlərində kütləvi kitabxanaların əhaliyə xidməti işinin keyfiyyətini və miqyasını aşağı salmağa gətirib çıxarardı.

1934-cü ildə kitabxanaların Ümumittifaq siyahıyaalınmasının yekunlarına görə, Azərbaycanda 252.703 nüsxə kitab fonduna malik olan 17 müstəqil uşaq kitabxanası olmuşdur.[157] Bu kitabxanaların əksəriyyəti Bakı şəhərində yerləşirdi. Kitabxanalar şəhərin bütün uşaqlarını kitabxana xidməti ilə əhatə etmək məqsədilə səyyar məntəqələr təşkil etməyə xüsusi diqqət yetirirdilər. 17 kitabxanadan 11-nin səyyar məntəqəsi var idi.[158] Səyyar məntəqələr əsasən böyük uşaq müəssisələrinin yanında və uşaq kitabxanası olmayan yaşayış sahələrində təşkil edilirdi.[159] Azərbaycanın kənd rayonlarında müstəqil uşaq kitabxanalarının yaranması və məktəb kitabxana şəbəkəsinin genişlənməsi ikinci və üçüncü beşillik dövründə mümkün oldu. Azərbaycanda uşaq və məktəb kitabxanalarının inkişafında Azərbaycan K(b)P MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 1934-cü il 7 iyul tarixli «Mədəni-maarif işi və Azərbaycanda uşaq müəssisələrinin tikintisi haqqında qərarının çox mühüm rolu oldu.[160] Qərarda gənc nəslin tərbiyəsinə xüsusi diqqət yetirilir, uşaq mətbuatının genişlənməsi və respublikada uşaq kitablarının nəşr edilməsi işinin kökündən yaxşılaşdırılması lazım bilinirdi. Qərarda uşaq kitabxanalarının fəaliyyətinə xüsusi əhəmiyyət verilir və Xalq Maarif Komissarlığına 1935-ci ildə Gəncədə, Salyanda, Nuxada (Şəkidə), Xankəndində, Naxçıvanda, Göyçayda, Xanlarda müstəqil uşaq kitabxanaları yaradılması tapşırılırdı.[161] 1935-ci ildə Qazaxda, Göyçayda, Naxçıvanda və s. rayonlarda müstəqil uşaq kitabxanaları təşkil edildi. Həmin ildə Azərbaycanda 66 məktəb və uşaq kitabxanası var idi ki, bunlardan 42-si Bakıda, 24-ü rayonlarda yerləşirdi. Bakı uşaq kitabxanaları bu dövrdə geniş fəaliyyət göstərirdilər. 1936-cı ildə Bakıda 20 müstəqil uşaq kitabxanası var idi. Kitabxanalarda 314.653 nüsxə ədəbiyyat toplanmışdı ki, bu da 1934-cü ildəkindən xeyli çox idi. Təkcə 1936-cı ildə uşaq kitabxanalarına 55.319 nüsxə kitab daxil olmuşdu. Kitabxanalar il müddətində 43.034 oxucuya xidmət etmiş və onlara 944.501 nüsxə kitab verilmişdi. Qira-

ətxanalar isə uşaqlara 297.050 nüsxə kitab vermişdi. Kitabxanalar səyyar məntəqələrin təşkilinə də xüsusi diqqət yetirirdilər. 1936-cı ildə Bakı şəhər uşaq kitabxanaları 9 səyyar məntəqə təşkil etmişdi.[162]

1937-ci ildə müstəqil uşaq kitabxanalarında kitab verilişi 1936-cı ilə nisbətən xeyli artmışdı. Kitabxanalar abonementdən 1.005.398 nüsxə, qiraətxanalardan isə 292.293 nüsxə kitab vermişdi. Bu o dövr üçün çox böyük rəqəm idi. Bu dövrə qədər heç zaman uşaq oxucuları bu qədər kitab oxumamışdılar. Bunu hər şeydən əvvəl uşaqlarda kitaba olan tələbatın artmasının nəticəsi, respublikamızın maarif ictimaiyyətinin fəaliyyəti kimi qiymətləndirmək olar.

Azərbaycan Xalq Maarif Komissarlığı Azərbaycan K(b)P MK-nın 1934-cü il 17 aprel tarixli qərarını yerinə yetirərək, rayon mərkəzlərində müstəqil uşaq kitabxanaları açdı. 1936-cı ildə Astraxanbazarda (Cəlilabadda), Ordubadda, Zaqatalada, Ağdaşda, Salyanda, Ağdamda, 1937-ci ildə Cəbrayılda, Astarada, Şuşada, Nuxada, Lənkəranda, Biləsuvarda, 1938-ci ildə Qusarda, Goranboyda, Xankəndində, Balakəndə və s. yerlərdə müstəqil uşaq kitabxanaları təşkil edildi. Artıq 1939-cu ildə Azərbaycanda 50 müstəqil uşaq kitabxanası fəaliyyət göstərirdi ki, bunun da 20-si Bakı şəhərində, 30-cu isə Azərbaycanın rayonlarında idi.[163]

1936-1940-cı illər arasında əsas diqqət uşaq kitabxanalarının fəaliyyət dairəsinin genişləndirilməsinə, uşaqlarla aparılan işin forma və məzmununda keyfiyyət dəyişikliklərinin yaranıb inkişaf etdirilməsinə, müstəqil uşaq kitabxanaları ilə məktəb kitabxanaları arasında əlaqələrin daha da genişlənməsinə, həmçinin müstəqil uşaq kitabxanaları ilə məktəblərin işinin əlaqələndirilməsinə yetirilmişdi.

Bəhs olunan dövrdə Azərbaycanda məktəb şəbəkələrinin geniş inkişafı, 7 illik və orta məktəb şəbəkələrinin genişlənməsi ilə əlaqədar olaraq məktəb kitabxanalarının təşkili olduqca geniş vüsət almışdı. Demək olar ki, məhz bu illər respublikamızda, sözün əsl mənasında, məktəb kitabxanala-

rının yaranıb inkişaf etdiyi illər olmuşdur. 1935-ci ildə ibtidai məktəblərin yanında 18.704 nüsxə kitab fonduna malik olan 291 məktəb kitabxanası var idi. Məktəbəqədər uşaq müəssisələrində isə 7.795 nüsxə kitab fondu olan 50 kiçik kitabxana fəaliyyət göstərirdi.[164] Bakıda 9.600 kitab fonduna malik olan 16 məktəb kitabxanası var idi.[165]

SSRİ Xalq Komissarları Sovetinin qəbul etdiyi «Məktəb kitabxanaları şəbəkəsinin genişləndirilməsi və onlar üçün ədəbiyyat nəşri haqqında»[166] 16 noyabr 1936-cı il tarixli qərarının ölkədə uşaq kitabxanalarının inkişafında və onlar üçün ədəbiyyat nəşrinin qaydaya salınmasında çox mühüm rolu oldu. Qərarda məktəb kitabxanaları üçün kitab nəşr edilməsinə xüsusi diqqət yetirilir və ibtidai məktəblər üçün 20 milyon nüsxə kitab, natamam orta və orta məktəblər üçün 22,5 milyon nüsxə kitab nəşr edilməsi və hər bir ibtidai məktəb kitabxanasına 150-200, natamam orta və orta məktəb kitabxanalarına 400-5000 kitab verilməsi lazım bilinirdi. Həmçinin qərarda xalq maarif komissarlıqlarının büdcəsində məktəb kitabxanaları üçün xüsusi maddə açılmasını və ibtidai məktəb kitabxanaları üçün 25 milyon manat, natamam orta və orta məktəb kitabxanaları üçün 45 milyon manat ayrılması nəzərdə tutulmuşdu.[167] Bu qərar gənc nəslin təhsil və tərbiyəsinə Sovet dövlətinin böyük qayğısının təzahürü idi. Qərar ölkəmizdə məktəb kitabxanalarının təşkilində və inkişaf etdirilməsində çox böyük rol oynadı, məktəb kitabxanası şəbəkəsinin yaranması və təkmilləşdirilməsi üçün olduqca böyük şərait yaratdı. Məhz bu qərarın yerinə yetirilməsi sayəsində bütün müttəfiq respublikalarda zəngin kitab fonduna malik olan məktəb kitabxana şəbəkəsi yaranıb inkişaf etdi.

Azərbaycan SSR XKS bu qərarın əsas müddəalarını həyata keçirmək üçün 1937-ci il mayın 17-də «Məktəb kitabxana şəbəkələrinin inkişaf etdirilməsi və onlar üçün kitab nəşri haqqında» xüsusi qərar qəbul etdi.[168] Bu qərarda SSRİ XKS-nin qərarında irəli sürülən əsas müddəaların respubli-

kanın şəraitinə uyğun şəkildə həyata keçirilməsi məsələləri öz əksini tapmışdı. Azərbaycan SSR XKS-nin bu qərarında göstərilirdi ki, Azərbaycan SSR XMK SSRİ XKS-nın «Məktəb kitabxana şəbəkələrinin inkişaf etdirilməsi və onlar üçün kitab nəşri haqqında» qərarını yerinə yetirmək üçün hələlik ciddi tədbir görməmişdir. Ona görə də tezliklə mövcud məktəb kitabxanalarını ədəbiyyatla təchiz etmək, kitabxanası olmayan məktəblərdə kitabxanalar açmaq və onları komplektləşdirmək XMK-dan tələb edilirdi.

Qərarda məktəb kitabxanalarının komplektləşdirilməsi Azərkitaba həvalə edilirdi. Rayon və Şəhər Zəhmətkeş Deputatları Sovetləri Azərkitabın hesabına məktəb kitabxanalarını yeni ədəbiyyatla komplektləşdirmək üçün vəsait keçirməli və müqavilə bağlamalı idi. Bu müqavilə Xalq Maarif Komissarlığı tərəfindən təsdiq edilirdi. Həmin müqavilə əsasında Azərkitab bütün il müddətində məktəb kitabxanalarını kitabla təchiz etməli idi.[169]

Üçüncü sosialist beşilliyi dövründə Bakı və onun rayonlarında məktəb kitabxana şəbəkələri və onların fondu müntəzəm olaraq artmışdır. Bunu aşağıdakı cədvəldən görmək olar.[170]

İllər	Məktəb kitabxanalarının miqdarı	Kitabxana fondunda olan kitabların miqdarı
1938	115	85.500
1939	193	306.8333
1940	195	356.918
1941	189	372.450

Cədvəldən göründüyü kimi, üçüncü beşillik dövründə 173 yeni məktəb kitabxanası açılmış və kitabxanaların fondu 362.850 nüsxə artmışdı. Məktəb kitabxana şəbəkəsinin belə sürətlə artması məktəblilərin tədris və tərbiyə prosesinə olduqca müsbət təsir etmiş, onların dərs mənimsəməsini və məktəbdənkənar mütaliə işini xeyli yaxşılaşdırmışdı. Bakı və onun rayonlarında məktəb kitabxanaları yavaş-yavaş şagirdlərin məişətinə daxil olurdu. Bunu aşağıdakı cədvəldən də görmək olar.

İllər	Oxucuların sayı	Kitab verilişinin miqdarı
1937/38	20.108	346.826
1938/39	85.000	901.210
1939/40	110.189	1.051.485
1940/41	119.230	1.102.800

Cədvəl üçüncü beşillik dövründə Bakı və onun rayonlarında məktəb kitabxanalarının oxucularla apardığı işi çox gözəl xarakterizə edir. Bəhs olunan dövrdə Bakı və onun rayonlarında məktəb kitabxanalarının apardığı kütləvi işlər və onun miqyası əsaslı surətdə artmışdı. Belə ki, 1937-1938-ci ilə nisbətən 1940-1941-ci illərdə kütləvi tədbirlərin sayı 4 dəfə, tədbirlərdə iştirak edən şagirdlərin sayı isə üç dəfədən çox artmışdır.

Azərbaycan SSR XKS-nin məktəb kitabxanaları haqqında qərarları ilə əlaqədar olaraq Azərbaycanın rayonlarında da məktəb kitabxanalarının təşkili sahəsində böyük işlər görülməyə başlamışdı. 1937-ci ildə rayonlarda 87 kitabxana təşkil edilmiş və onları yeni ədəbiyyatla təchiz etmək, mövcud məktəb kitabxanalarını komplektləşdirmək üçün 2 milyon manat pul buraxılmışdı.[171] 1937-ci ildə Kitabxana Kollektoru 43 rayonun məktəb kitabxanalarına 232.400 manatlıq, Bakı məktəb kitabxanalarına isə 147.100 manatlıq kitab göndərmişdi.[172] 1938-ci ildə Azərbaycan XMK respublika məktəb kitabxanalarının təchiz edilməsinə 3 milyon manat pul ayırmışdı.[173]

Artıq 1938-ci ildə Azərbaycanda 1.628 məktəb kitabxanası fəaliyyət göstərirdi ki, bunlardan 810-u ibtidai məktəblərdə, 646-sı natamam orta məktəblərdə, 172-si isə orta məktəblərdə yerləşirdi. Kitabxanaların fondunda 386.202 nüsxə kitab toplanmışdı. Bunlardan 43.596 nüsxəsi ibtidai məktəb, 188.860 nüsxəsi natamam orta məktəb, 153.746 nüsxəsi isə orta məktəb kitabxanalarında idi. Təkcə 1938-ci

ildə Azərkitab rayon məktəb kitabxanalarına 876.742 nüsxə kitab göndərmişdi. Göndərilən kitabların 719.200 nüsxəsi Azərbaycan, yerdə qalanı isə rus və erməni dilində idi.[174]

Üçüncü beşillik illəri Azərbaycanda məktəb kitabxanalarının yaranması, inkişafı və möhkəmləndirilməsində xüsusi mərhələ təşkil edir. Məhz bu illərdə Bakı ilə yanaşı Azərbaycanın rayonlarında və kəndlərində də kitabxana şəbəkəsi meydana gəlib genişlənmiş, onların maddi-texniki bazası möhkəmləndirilmişdi. Artıq 1940-cı ildə Azərbaycanda 1.367.321 nüsxə kitab fonduna malik olan 2.480 məktəb kitabxanası var idi.

Respublika maarif ictimaiyyətinin, məktəblərin pedaqoji kollektivinin məktəb kitabxanalarına hərtərəfli köməkliyi respublikamızda məktəb kitabxana şəbəkəsinin inkişafına, onun işinin məzmunca yaxşılaşmasına, fəaliyyət dairəsinin genişlənməsinə, səbəb olmuş, məktəb kitabxanaları, məktəblərin təlim-tərbiyə işinin əsas bazalarından birinə çevrilmişdi. Məktəb kitabxanaları şagirdlərin tərbiyəsində, təhsilində və xüsusilə sinifdənkənar mütaliəsinin təşkilində mühüm rol oynayırdılar.

§ 3.3.5. Elmi və xüsusi kitabxanaların inkişafı. Kitabxanaçılıq təhsili

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi elmi fikrin inkişafına, yeni-yeni elmi-tədqiqat müəssisələri, elmi mərkəzlər yaranmasına səbəb olmuş, elmi geniş xalq kütlələrinin malına çevirmişdi. Elmin tərəqqisi respublikamızı qabaqcıl respublikaya çevirmək üçün böyük rol oynamışdır.

SSRİ EA-nın Zaqafqaziya filiallarının Azərbaycan şöbəsinin təşkilinin (1933-cü il) respublikada elmin inkişafında mühüm rolu oldu. Artıq 1936-cı ildə Azərbaycanda 87 elmi-tədqiqat müəssisəsi,[175] 12 ali məktəb[176] və digər elmi müəssisələr fəaliyyət göstərirdi.

Respublikamızda elmin hərtərəfli inkişafı, elmi-texniki

müəssisələrin yaranması, ali məktəb şəbəkələrinin genişlənməsi elmi və xüsusi kitabxanalar şəbəkəsi yaranmasına və möhkəmlənməsinə geniş imkanlar yaratmışdı. Elmi və xüsusi kitabxanalar elmi-tədqiqata və ali məktəb tələbələrinə kitabxana xidmətinin təşkili sahəsində əhəmiyyətli təcrübə qazanmışdılar.

Bu dövrdə elmi kitabxanaların ayrı-ayrı idarə və müəssisələrə tabe olmasına baxmayaraq, onların işinə ümumdövlət nəzarəti Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən həyata keçirilirdi. Elmi kitabxanalara metodiki kömək və rəhbərlik isə Azərbaycan Mərkəzi Dövlət Ümumi Kitabxanasına tapşırılmışdı.

1932-ci ilin mayında Azərbaycan Dövlət Ümumi Kitabxanasında Bakı şəhəri elmi kitabxana işçilərinin müşavirəsi keçirildi.[177] Müşavirə elmi kitabxanaların işində olan mövcud nöqsanları qeyd etmiş və işi yaxşılaşdırmaq üçün tədbirlər müəyyənləşdirilmişdir. Bu müşavirədən sonra dövlət kitabxanası may və iyun aylarında 20 elmi kitabxananın vəziyyətini yoxladı. Məlum oldu ki, elmi kitabxanaların bəziləri hələ də qapalı xarakter daşıyır, geniş oxucu kütləsinə xidmət etmir, kitabxanaların ümumi işi aşağı səviyyədədir. Dövlət kitabxanası bütün yoxlanmış kitabxanalara mövcud nöqsanları aradan qaldırmaq üçün konkret göstərişlər vermiş, oxucuların kitabdan istifadəsini asanlaşdırmaq və s. haqqında əməli köməklik göstərmişdilər.[178]

1932-ci ilin 12 oktyabrında Dövlət Ümumi Kitabxanasında yenidən elmi kitabxana işçilərinin müşavirəsi keçirildi və bu müşavirədə elmi kitabxanaların may ayında keçirilmiş müşavirəsinin qərarlarının necə yerinə yetirilməsi müzakirə edildi. Müşavirə göstərilən nöqsanların hələ də yerinə yetirilməməsini qeyd etdi və 12 may 1932-ci il tarixli müşavirənin qərarlarını yerinə yetirməyi, elmi kitabxanaların işinin yenidən qurulması məsələlərini mətbuatda işıqlandırmağı, rayon kitabxanalarını hamiliyə götürüb onlara kömək etməyi, kitabxana işçilərinin ixtisasını artırmaq məqsədi ilə

Dövlət Ümumi Kitabxanasının və digər böyük elmi kitabxanaların yanında kitabxanaşünaslıq dərnəyi təşkil etməyi lazım bildi. Həmçinin elmi kitabxanaların öz işi haqqında Dövlət Ümumi Kitabxanasına vaxtaşırı hesabat verməsini zəruri hesab etdi.[179] Elmi kitabxana işçilərinin müşavirəsinin qərarı gələcəkdə respublikada elmi kitabxanaların işinin yenidən qurulmasına, xüsusilə elmi kitabxanaların elmi işçilər, tələbələrlə yanaşı, digər oxuculara da xidmət işinin yaxşılaşdırılmasında mühüm əhəmiyyətə malik oldu.

1934-cü ildə Azərbaycanda kitabxanaların Ümumittifaq siyahıyaalınmasının materiallarından məlum oldu ki, respublikamızda 1.663.572 kitab fonduna malik 537 elmi və xüsusi kitabxana var. Bunlardan 1.467.772 kitab fonduna malik olan 213 kitabxana Bakıda, 32,443 kitab fonduna malik olan 55 kitabxana isə kənd yerlərində fəaliyyət göstərirdi. Bu kitabxanalardan biri Dövlət Ümumi Kitabxanası, 66-sı elmi-tədqiqat müəssisələri kitabxanası, 13-ü ali məktəb kitabxanası, 51-i müəssisələrin texniki kitabxanası, 152-si müəssisələrin məlumat kitabxanaları, 24-ü sovet orqanları kitabxanaları, 17-si partiya və komsomol təşkilatı kitabxanaları, 4-ü kolxoz və sovxozların aqrotexniki kitabxanaları, 9-u isə həmkarlar, kooperativ və digər ictimai təşkilatların kitabxanaları idi.[180] Göründüyü kimi, bir çox idarə və təşkilatlara malik olan texniki və xüsusi kitabxanalar elmi kitabxanalar kateqoriyasına aid edilməmişdi. Bu kitabxanaların böyük əksəriyyəti sonrakı illərdə elmi kitabxanalar kateqoriyasına daxil edilmişdi. Xüsusilə partiya, komsomol və Həmkarlar İttifaqı kitabxanaları və müəssisələrin məlumat kitabxanaları ayrıca təsnif edilmişdi.

Beləliklə, respublikada bilavasitə elmi-tədqiqat işinə xidmət edən 80 kitabxana var idi. Halbuki belə kitabxanaların sayı 1933-cü ildə cəmi 43 idi. Elmi və xüsusi kitabxanalar öz qarşılarına bilavasitə ikinci beşilliyin qarşıda qoyduğu əsas elmi tərəqqi vəzifələrinə xidmət etmək, elmi işçilərin, tələbələrin, mühəndis-texniki kadrların və texniki tərəqqidə

iştirak edən qabaqcıl fəhlələrin tələbatına xidmət etmək, onları elm və texnikanın son nailiyyətləri ilə tanış etmək, elmlərə yiyələnmək üçün dərsliklər, dərs vəsaitləri və digər elmi əsərlərlə təmin etmək, elmi məlumatı yaymaq vəzifəsini qoymuşdu.

1935-ci ildə Azərbaycanda elmi-tədqiqat institutları və digər elmi müəssisələrin sayının artması və mövcud elmi müəssisələrdə yeni kitabxanaların yaranması ilə əlaqədar olaraq elmi və xüsusi kitabxanaların sayı xeyli çoxalmış, onların kitab fondu artmış, oxuculara xidmət işi yaxşılaşmışdı. 1935-ci ildə Xalq Maarif Komissarlığının Kitabxanaçılıq İdarəsi elmi kitabxanaların işinə kömək etmək məqsədilə bir neçə elmi kitabxananın: BDU-nun, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun, Azərbaycan Neft İnstitutunun (hazırda hər ikisi akademiya statusu almışdır – A.X.) kitabxanalarının fəaliyyətini yoxlayıb müzakirə etmişdi.[181]

İkinci və üçüncü sosialist beşillikləri dövrü Azərbaycanda elmi, elmi-texniki və xüsusi kitabxanaların şəbəkəsinin müntəzəm olaraq artıb inkişaf etdiyi illər olmuşdur. Bu illərdə kitabxanalar nəinki sayca inkişaf etmiş, həmçinin onların işinin məzmununda da böyük keyfiyyət dəyişiklikləri baş vermiş, oxuculara xidmət işinin keyfiyyəti xeyli yaxşılaşmış, miqyası genişlənmişdi. Kitabxanalar yeni elmi ədəbiyyatı oxucular arasında münətəzm surətdə təbliğ etməklə yanaşı, tədqiqatçılara, aspirantlara və tələbələrə hər cür elmi axtarışlarda yaxından kömək etmiş, tövsiyə siyahıları, biblioqrafik göstəricilər tərtib etmiş, biblioqrafik icmallar, kitab müzakirələri, yeni kitabların sərgisini təşkil etmiş və s. kütləvi tədbirlər həyata keçirmişdilər. Elmi kitabxanalarda biblioqrafik axtarışları müvəffəqiyyətlə həyata keçirmək üçün məlumat axtarış sisteminin təşkilinə başlanmışdı. Artıq kitabxanalarda əlifba kataloqları tərtib edilmiş, böyük elmi-tədqiqat institutları və ali məktəb kitabxanalarında məlumat fondu yaradılmışdı. Elmi kitabxanalar öz işlərini bilavasitə xidmət etdikləri kollektivlərin elmi tədqiqat planları

ilə əlaqələndirirdilər. Beləliklə, elmi-tədqiqat institutlarının kitabxanalarında ixtisaslaşma prosesi başlamışdı ki, bu da oxucuların müəyyən bir elm sahəsinə dair sorğularının öyrənilməsində və ödənilməsində ciddi əhəmiyyətə malik idi.

§ 3.3.6. M.F.Axundov adına Azərbaycan Dövlət Ümumi Kitabxanası

Bu dövrdə Azərbaycan Dövlət Ümumi Kitabxanasının fəaliyyəti xüsusilə diqqəti cəlb edirdi. Universal elmi kitabxana olmaq etibarı ilə Dövlət Ümumi Kitabxanası respublikamızda elmi fikrin inkişafında müstəsna rol oynamış, respublikamızın elmi kadrlarına kitabxana xidmətinin təşkilində xüsusi fəaliyyət göstərmişdi. O, həmçinin respublikamızda kitabxana işinin inkişafında, kitabxanalara metodiki rəhbərliyin təşkilində, kitabxanaçı kadrların ixtisasının artırılmasında da mühüm işlər görmüşdür.

1923-cü ildən fəaliyyətə başladığı qısa tarixi dövr ərzində ölkəmizin ən böyük kitabxanalarından birinə çevrilmiş, respublikada bütün çap məhsulunu toplayıb yayan mərkəz rolunu oynamışdır. Kitabxana SSRİ-də nəşr edilən bütün ədəbiyyatı öz fondunda toplamaq, respublikanın elmi ictimaiyyətinin sorğularını ödəmək, respublikada elmi-tədqiqat və texniki tərəqqiyə səmərəli xidmət etmək imkanını əldə etmişdi.

Kitabxana fondunun zənginləşməsində pulsuz məcburi nüsxələr müstəsna əhəmiyyətə malik idi. Sovet dövlətinin bilavasitə qayğısı sayəsində kitabxana 1923-cü ildən başlayaraq RSFSR Dövlət Kitab Palatasından, 1925/26-cı ildən isə digər müttəfiq respublikaların kitab palatalarından məcburi nüsxələr almağa başlamışdı.[182] Bundan başqa, kitabxana öz fondunu əlavə nüsxələr almaq, nadir nüsxələr toplamaq, bukinist mağazalarla əlaqə saxlamaq, bəxşişlər yolu ilə də zənginləşdirirdi.[183] Kitabxana, həmçinin SSRİ Elmlər Akademiyasından, xarici mədəni əlaqə cəmiyyətlərindən və ayrı-ayrı elmi müəssisələrdən kitablar alırdı. Kitabxana artıq

20-ci illərin axırlarında xarici əlaqələrini də genişləndirməyə başlamışdı. 1928-ci ildə kitabxana xarici ölkələrdən 50 adda jurnal alırdı.[184]

Kitabxana fondunun komplektləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər öz müsbət nəticəsini vermişdi. Artıq 30-cu illərdə kitabxana bütün elm və bilik sahələrini əhatə edə bilən zəngin ədəbiyyat və dövri mətbuat fonduna malik idi. Bu da kitabxanaya əhaliyə kitabxana xidmətini nümunəvi təşkil etmək imkanı vermişdi. 1930-cu ildə kitabxananın fondunda 64.700 nüsxə kitab var idi.

SSRİ MİK və SSRİ XKS 1933-cü ilin sentyabr tarixli qərarı ilə Azərbaycan Dövlət Kitabxanasını ölkənin mühüm kitabsaxlayıcıları sırasına daxil etdi və ona SSRİ xalqlarının dillərində bütün dövlət kitab palatalarından məcburi nüsxə almaq hüququ verdi. Bu mühüm dövlət tədbiri kitabxananın 30-cu illərindəki inkişafı üçün müstəsna əhəmiyyətə malik oldu. Bütün çap məhsulu ilə kitabxananın ardıcıl olaraq komplektləşdirilməsi onun gələcək inkişafını təmin etməklə onu respublikamızın dövlət kitab saxlayıcısına və elmi mərkəzinə çevirdi.

Məcburi nüsxə ilə yanaşı, kitabxana 30-cu illərdə öz fondunu zənginləşdirmək üçün geniş vəsaitə və imkana malik idi. Kitabxana 1935-ci ildə ərəb və fars dillərində 200 kitab almışdı. Böyük tarixi əhəmiyyəti olan bu əsərlər Tehran, Bombey və Kəlküttə kimi Şərq mərkəzlərində nəşr edilmişdi.[185]

Azərbaycan KP MK və Azərbaycan Sovet hökuməti Dövlət Ümumi Kitabxanasının inkişafına həmişə böyük qayğı ilə yanaşırdılar. Kitabxanaya ayrılan vəsaitin ilbəil artırılması, onun ştatının genişləndirilməsi buna parlaq sübutdur.

Kitabxanaya 1925-ci ildə 21.680 manat vəsait ayrılmışdısa, bu 1930-cu ildə 56.000 manata, 1935-ci ildə 218.500 manata[186], 1940-cı ildə isə 359.760 manata çatdırılmışdır.[187] Kitabxanada 1930-cu ildə 26 nəfər işçi var idisə, bunların sayı 1936-cı ildə 38 nəfərə, 1940-cı ildə isə 57 nəfərə çatmışdı. Kitabxananın ştatının belə sürətlə çoxalması, heç şübhə-

siz, oxuculara xidmət işinin təşkilinə müsbət təsir göstərir, kitabxana işinin yaxşılaşdırılmasına səbəb olurdu. Kitabxananın fondu müntəzəm olaraq artırdı. Artıq 1934-cü ildə kitabxananın fondunda 501,8 min nüsxə kitab və jurnal var idi. Kitabxana kitabla yanaşı, öz fondunu dövri nəşrlərlə də komplektləşdirməyə xüsusi əhəmiyyət verirdi. Təkcə 1934-cü ildə kitabxana 230 adda dövri nəşrlər alırdı.[188]

Kitabxana 1935-ci ildə dövlət kitab palatalarından və digər mənbələrdən 71.918 nüsxə kitab almışdı. Kitabxana Azərbaycanşünaslığa dair ədəbiyyatın toplanmasına xüsusi diqqət yetirirdi. Bu məqsəd üçün xüsusi adamlar ayrılmış, ayrı-ayrı şəxslər, kitabxanalar, elmi müəssisələr və s. ilə əlaqə yaradılmışdı. Artıq 1939-cu ildə kitabxanada Azərbaycan mətbuatının arxiv fondu yaradıldı. Bu fondun yaranması respublikamızın tarixinin öyrənilməsində çox böyük əhəmiyyətə malik olmaqla, bütün elmi-tədqiqatçılarımız üçün qiymətli hədiyyə idi.

Müharibədən əvvəlki beşilliklər dövründə kitabxananın fondu ölkəmizdə kitab nəşrinin inkişafı, məcburi nüsxələrin kitabxanaya vaxtında daxil olması və Azərbaycan Xalq Maarif Komissarlığının kitabxananın komplektləşdirilməsinə göstərdiyi xüsusi qayğı ilə əlaqədar olaraq xeyli genişləndirmişdi.

Artıq 1940-cı ildə kitabxananın fondunda 674.599 nüsxə kitab var idi. Bu kitabların 21.513 nüsxəsi Azərbaycan, 489,168 nüsxəsi rus, yerdə qalanları isə digər dillərdə idi. Təkcə 1940-cı ildə kitabxanaya 31.530 nüsxə kitab daxil olmuşdu ki, bunun da 1.237 nüsxəsi Azərbaycan dilində olmuşdur.[189] 1923-cü illə müqayisə etdikdə, kitabxananın fondu 135 dəfəyə qədər artmışdır (1923-cü ildə kitabxananın 5.000 nüsxə kitabı var idi).[190]

Azərbaycan Dövlət Ümumi Kitabxanası yarandığı ilk günlərdən başlayaraq öz fəaliyyətini bilavasitə respublikada əhaliyə kitabxana xidmətinin təşkilinin yaxşılaşdırılmasına, xüsusilə elmi ədəbiyyatın, ictimai-siyasi əsərlərin partiya,

dövlət qərarlarının təbliğinə həsr etmişdir. 20-ci illərin axırı, 30-cu illərin əvvəllərində kitabxananın fəaliyyətində elmi işçilərə xidmət etmək, bilavasitə respublikada elmi-tədqiqat işinə xidmət etmək başlıca yer tuturdu. Bu bir tərəfdən kitabxananın respublikada yeganə universal ümumi kitabxana olmasından irəli gəlirdisə, digər tərəfdən, kitabxanada elmi işçilərə, texniki ziyalılara kitabxana xidmətinin nümunəvi təşkili ilə əlaqədar idi.

Kitabxana oxuculara xidmət etmək, bilavasitə respublikada elmi-tədqiqat işini yaxşılaşdırmaq üçün məlumat-biblioqrafiya aparatının təşkilinə xüsusi diqqət yetirilmişdi. Hələ 1923-cü illərdən təşkil edilməyə başlamış əlifba və sistemli kataloq sonrakı illərdə daha da təkmilləşmiş, biblioqrafik kartoteka sistemi yaradılmış, 1930-cu ildən məlumat-biblioqrafiya şöbəsi fəaliyyətə başlamışdır.

Kitabxana 1927-ci ildən çap kartoçkaları almağa başlamış, sonrakı illərdə alınan çap kartoçkalarının nüsxələri xeyli artmışdı. Bu da kitabxanaya öz məlumat-biblioqrafiya aparatını lazımi şəkildə qaydaya salmaq imkanı verirdi.

Kitabxana 1932-ci ildən başlayaraq oxucular üçün müntəzəm məsləhətlər təşkil edirdi. 1932-ci ildə kitabxana məsləhət bürosu yaratmışdı. Bu büronun tərkibinə 16 nəfər elmi işçi daxil edilmişdi. Görkəmli professorlardan A.B.Baqri, Şahtaxtinski və Tixomirov bu büronun tərkibinə daxil edilmişdi.[191]

Kitabxanada yeni kitabların daimi sərgisi, kitab müzakirələri, oxucu konfransları, görkəmli yazıçılar və alimlərlə görüşlər keçirilir, tarixi günlərə, görkəmli şəxslərin, partiya və dövlət rəhbərliyinin yubileylərinə həsr edilmiş böyük miqyaslı kütləvi işlər aparılırdı.

Kitabxana 30-cu illərdə müntəzəm olaraq şəxsi təhsilə kömək etmək üçün geniş tədbirlər həyata keçirirdi. Bu tədbirlər içərisində oxu planları, söhbətlər, yeni kitabların icmalı, kitab sərgiləri mühüm yer tuturdu.

Məhz buna görədir ki, kitabxana fəaliyyətə başladığı

ilk günlərdən onun yanında təşkil edilmiş və oxu zalı bazar günləri də istisna olunmaqla oxuculara xidmət edirdi. Kitabxananın bütün fəaliyyəti oxuculara kitabxana xidmətinin yüksək səviyyədə təşkil edilməsinə, oxucu sorğularının vaxtında və qüsursuz ödənilməsinə həsr edilmişdi. Kitabxananın həyata keçirdiyi bu mühüm tədbirlərin nəticəsində oxucuların sayı, oxuculara kitab verilişi müntəzəm olaraq artmış, xidmət işinin səviyyəsi ilbəil yüksəlmişdi. 1928-ci ildə kitabxananın 3.183[192] nəfər oxucusu var idisə, 1930-cu ildə 3.323[193] nəfər, 1935-ci ildə 6.985 nəfər,[194] 1940-cı ildə isə 8.800[195] nəfər olmuşdu. Oxuculara kitab verilişi də müntəzəm surətdə artırdı. 1935-ci ildə oxuculara 73.097 nüsxə, 1939-cu ildə isə 91.897 nüsxə kitab verilmişdi ki, bunun da 11.346 nüsxəsi Azərbaycan dilində idi.[196]

Kitabxana oxucularının durmadan artan tələbatını ödəmək üçün 1936-cı ildən kitabxanalararası abonement şöbəsi təşkil etmişdi. Doğrudur, bu vaxta qədər də kitabxana öz oxucularının tələbatını ödəmək üçün ittifaqın başqa böyük kitabxanaları ilə əlaqə saxlayır və onlardan ədəbiyyat alırdı. Lakin bu iş mütəşəkkil xarakter daşımırdı. Kitabxanalararası abonement şöbəsi Sovet İttifaqının böyük kitabxanalarından 1938-ci ildə 396 kitab, 1940-cı ildə isə 2.104 kitab alıb öz oxucularının istifadəsinə vermişdir. Kitabxana zəhmətkeşlərə xidmət işini yaxşılaşdırmaq məqsədilə 1938-ci ildən başlayaraq Bakı şəhərinin ayrı-ayrı rayonlarında və respublikanın böyük tikintilərində filiallar təşkil etməyə başlamışdı. Belə filialların təşkili bilavasitə fəhlə sinfinə kitabxana xidmətini yaxşılaşdırırdı. Kitabxana 1938-ci ildə Xətai adına mədəniyyət və istirahat parkında bir filial təşkil etmişdi. Bu filial Bakının ən böyük fəhlə rayonu hesab edilən Xətai rayonunda neft fəhlələrinə, mühəndis və texniki işçilərə nümunəvi xidmət göstərirdi. Filialın fondunda 8.000-dən artıq kitab var idi.[197] Bu kitablar oxucuların sorğuları əsasında seçilmişdi. Filialda kataloq tərtib edilmiş və hər gün oxuculardan sifariş qəbul edilir və əsas fondun vasitəsi ilə

ödənilirdi. Filiala gündə 200-ə qədər oxucu gəlirdi. Kitabxana 1939-cu ildə «Rote fane» (indiki Nizami adına park) mədəniyyət və istirahət parkında da qiraətxana təşkil etmişdi. Burada kiçik kitab fondu yaradılmışdı. Oxucu qiraətxanada özünə lazım olan kitabı sifariş edir və səhəri günü alırdı.[198]

Kitabxana 1939-cu ildə Samur-Dəvəçi kanalı fəhlələrinə və mühəndis-texniki işçilərinə xidmət üçün Xaçmaz stansiyasında filial-baza açmışdı. Filialın fondunda Azərbaycan, rus və başqa dillərdə müxtəlif ədəbiyyat var idi. Filialın işçiləri kitabları kanalın bütün sahələrinə aparmaqla oxucular arasında geniş kütləvi tədbirlər keçirirdilər.[199]

1939-cu ilin 1 iyununda Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan Dövlət Ümumi Kitabxanasına görkəmli mütəfəkkir, filosof, dramaturq M.F.Axundovun adını verməyi qərara aldı. 1939-cu ilin iyulundan kitabxana M.F.Axundov adına Azərbaycan Dövlət Ümumi Kitabxanası adlandırılmağa başlandı.

Azərbaycan Dövlət Ümumi Kitabxanası 30-cu illərdə respublikamızda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslığın mərkəzi və həmçinin kitabxana işininin metodik mərkəzi kimi də fəaliyyət göstərirdi. Doğrudur, bu dövrdə kitabxana hələlik böyük həcmli biblioqrafiyalar və kitabxanaşünaslığa dair elmi nəzəri əsərlər çap edə bilməmişdi. Ancaq bununla belə, kitabxananın bu sahədə apardığı işlər ilk addımlar kimi olduqca qiymətli idi. Ölkəmizdə kitabxanaşünaslıq və biblioqrafiyanın inkişafında 1936-cı ildə Moskvada keçirilən kitabxanaşünaslıq və biblioqrafiyanın nəzəri məsələlərinə həsr edilmiş Ümumittifaq müşavirəsinin mühüm rolu oldu. Müşavirə əhaliyə kitabxana xidmətini daha yaxşı təşkil etmək və bu mühüm işi daha da təkmilləşdirməkdə kitabxanaşünaslıq və biblioqrafiyanın elmi-nəzəri inkişafına xüsusi diqqət yetirməyi lazım bildi. Müasir dövrdə oxuculara xidmət işinin elmi əsaslar üzərində qurulması ön plana çəkildi. Bu müşavirənin qərarı ilə əlaqədar olaraq respublika Dövlət Ümumi kitabxanası elmi-metodik işin təşkili sahəsində bir

sıra tədbirlər həyata keçirməyə başladı.

1936-cı ildə kitabxananın yanında kitabxanaşünaslıq kabinəsi təşkil edilmişdi. Bu kabinə respublikamızda kitabxanaşünaslığın ilk elmi mərkəzi idi. Kabinənin qarşısında respublika kitabxanalarının iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsi və qabaqcıl iş təcrübəsini yaymaq, kitabxanaşünaslıq və biblioqrafiyaya dair metodik məktublar tərtib etmək və onları respublikamızın kitabxanalarına göndərmək, respublikada kitabxana işinə metodik rəhbərlik etmək vəzifəsi qoyulmuşdu.

Kitabxanaşünaslıq kabinəsi öz işini üç istiqamətdə Azərbaycan Dövlət Kitabxanasının metodiki işinə rəhbərlik etmək, Bakı şəhər kitabxanalarına metodiki köməklik göstərmək və ümumiyyətlə respublikanın bütün kitabxana sisteminə metodik rəhbərlik etmək istiqamətində aparırdı. Bundan başqa, kitabxanaşünaslıq kabinəsi metodik kitabxana təşkil etmişdi. Kabinə metodiki vəsaitlərin tətbiqinə xüsusi diqqət yetirirdi. Kitabxanaşünaslıq kabinəsi dövlət kitabxanasında kitabxana işçilərinin ixtisasını artırmaq üçün söhbətlər aparmış, kataloqları və kartotekaları qaydaya salmış, ictimai-siyasi əsərlərin təbliğinə dair məsləhətlər keçirmişdir.

Kitabxanaşünaslıq kabinəsi Bakı şəhər kitabxana işçiləri üçün yeni kitabxanaların icmalını təşkil edir, müxtəlif mövzularda məruzələr və söhbətlər aparırdı.

Kitabxanaşünaslıq kabinəsi rayon və kənd kitabxanalarına metodiki kömək göstərmək üçün müasir vəzifələrə, tarixi günlərə aid metodik məktublar tərtib edib rayon mərkəzi kitabxanalarına göndərmişdi. Kitabxanaşünaslıq kabinəsinin bu fəaliyyəti o dövrdə respublikamızda kitabxana işinin dövrün tələbləri ilə ayaqlaşmasında, partiya və dövlət qərarlarının zəhmətkeşlər arasında təbliğ edilməsində, kitabxana işinin ölkənin təsərrüfat və mədəni quruculuq vəzifələri ilə əlaqələndirilməsində çox mühüm əhəmiyyətə malik idi. Kitabxanaşünaslıq kabinəsi Moskva, Tbilisi və Yerevan

şəhərlərinin kitabxana ictimaiyyəti ilə də əlaqə yaratmışdı. Kitabxanaşünaslıq kabinəsinin fəaliyyətində kitabxanaşünaslıq və biblioqrafiyaya dair metodik kitabxananın yaranması olduqca mühüm əhəmiyyətə malik idi. Çünki belə bir kitabxananın yaranması kitabxana işçilərini ixtisasa dair nəzəri və təcrübi əhəmiyyətə malik əsərlərlə tanış etmək, müxtəlif biblioqrafik vəsaitləri öyrənmək üçün şərait yaradırdı. Metodik kitabxanada Bakı kitabxanalarının tərtib etdiyi siyahılar və nəşr etdiyi materiallarda toplanırdı ki, bu da təcrübə mübadiləsi üçün olduqca əhəmiyyətli idi. Metodik kitabxanada kitabxanaşünaslıq və biblioqrafiyaya dair ədəbiyyatın kataloqu və kartotekası da yaradılmışdı ki, bu da kabinənin metodik fəaliyyətinə olduqca böyük kömək idi.

Kitabxanaşünaslıq kabinəsinin qarşısında duran ən mühüm vəzifə kitabxanaşünaslıq və biblioqrafiyaya dair vəsait nəşr etmək idi. Kabinə bu dövrdə kütləvi kitabxanalar üçün onluq təsnifat cədvəlini doqquz çap vərəqi həcmində çap etmiş, kitabxana texnikasına aid 9 adda hesabat formaları tərtib edib çapa hazırlamış, «Kənd kitabxanalarının işi», «Kütləvi kitabxanalarda oxuculara xidmət», «İctimai-siyasi ədəbiyyatla iş», «Kütləvi kitabxananın texnikası» və s. vəsaitlərin çapa hazırlanmasını nəzərdə tutmuşdu. Bundan başqa, Kitabxanaçılıq Texnikumu tələbələri və qısamüddətli kursların müdavimləri üçün rus dilində 58 çap vərəqi həcmində material seçilib Azərbaycan dilinə tərcümə üçün hazırlanmışdı.[200] Kabinə 1937-1938-ci illərdə bəzi işlər görməsinə baxmayaraq, demək olar ki, qarşısında duran vəzifənin öhdəsindən gələ bilmədi. 1938-ci ildə kitabxanaşünaslıq kabinəsinin Xalq Maarif Komissarlığının sərəncamına qayıtması və orada bu kabinəyə yeni sahələr üzrə işlərin aparılmasının tapşırılması bu işə qismən də olsa mane oldu.

Kabinə kitabxana işinin təşkilati məsələlərinə dair əsasnamələr, kitabxanaşünaslıq kursları üçün proqramlar tərtib edilməsi və kitabxana texnikası minimumunun hazır-

lanmasında da yaxından iştirak edirdi. Kitabxanaşünaslıq kabinəsi tərəfindən: «Kitabxanaçılıq idarəsi haqqında əsasnamə», «XMK kitabxanaçılıq idarəsinin təlimatçı aparatı haqqında əsasnamə», «Azərbaycan SSR rayon mərkəzi kitabxanaları haqqında müvəqqəti əsasnamə», «Azərbaycan SSR kənd kitabxanaları haqqında müvəqqəti əsasnamə», «Kütləvi kitabxanalardan istifadə qaydaları» və həmçinin kütləvi kitabxanaların işçilərinin üç-dörd aylıq ixtisasartırma kurslarının proqramı və kitabxana uçot və hesabatına, kitabxana texnikasına dair bir neçə sənəd hazırlamışdır.[201]

Kitabxanaşünaslıq kabinəsinin fəaliyyətində onun ilk müdirlərindən biri Mirzə Həsən Rzaquluzadənin mühüm xidməti var idi. Rzaquluzadə kitabxanaşünaslıq kabinəsi tərəfindən hazırlanmış vəsaitlərin və sənədlərin tərtibində yaxından iştirak edirdi.

Qeyd etdik ki, kitabxanaşünaslıq kabinəsi 1939-cu ildə Azərbaycan Dövlət Ümumi Kitabxanasından alınıb Azərbaycan XMK sərəncamına verildi. Burada o özfəaliyyətini genişləndirə bilmədi və 1940-cı ildə fəaliyyətini tamamilə dayandırdı. Kitabxanaşünaslıq kabinəsi qısa bir müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycanda kitabxanaçılığın ilk elmi mərkəzi kimi xeyli iş görmüş, kitabxanaşünaslığın elmi əsaslarının hazırlanmasında kitabxanaların iş təcrübəsinin ümumiləşdirilməsində və kitabxana işinin metodikasının inkişafında mühüm rol oynayan ilk elmi mərkəz olmuşdur.

§ 3.3.7. SSRİ EA Azərbaycan filiallarının kitabxanası

Bu dövrdə Azərbaycanda geniş fəaliyyət göstərən elmi kitabxanalardan biri də SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin kitabxanası idi. Bu kitabxananın əsası 1924-cü ildə Azərbaycanda ilk elmi-tədqiqat müəssisəsi olan «Azərbaycanı tədqiq və tətöbbə cəmiyyəti» yanında qoyulmuşdu. Kitabxananın 1925-ci ildə 20 mindən artıq kitabı

var idi. Kitabxana 1929-cu ildə cəmiyyətin Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna çevrilməsi ilə əlaqədar olaraq həmin institutun sərəcamına keçmişdi. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinə çevrilməsi kitabxananın fəaliyyətini xeyli genişləndirdi.

Artıq 1934-cü ildə kitabxananın fondunda 46,5 min nüsxə kitab və jurnal var idi. Kitabxana öz fondunu dövri mətbuatla komplektləşdirmək işinə xüsusi əhəmiyyət verirdi. 1934-cü ildə kitabxana 110 adda dövri mətbuat alırdı. SSRİ EA Azərbaycan şöbəsi kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi qayğı göstərir, kitabxanaya ayrılan vəsaiti ilbəil artırırdı. 1934-cü ildə kitabxanaya 62.085 manat vəsait ayrılmışdı ki, bu da əvvəlki illərdən xeyli çox idi. [202] Bu dövrdə kitabxananın qurşısında tez bir müddət içərisində öz fondunu respublikada yaranan yeni elmi-tədqiqat müəssisələrinin profilinə uyğun olaraq təkmilləşdirmək, elmi-tədqiqat işi aparan kollektivlərə və ayrı-ayrı tədqiqatçılara kitabxana xidmətini yaxşılaşdırmaq, kitabxananı elmin inkişaf perspektivləri ilə ayaqlaşan bir müəssisəyə çevirmək vəzifəsi qoymuşdu.

1935-1940-cı illərdə kitabxana SSRİ EA Kitabxanasından, müxtəlif elmi-tədqiqat institutlarından, xarici ölkələrdən və ayrı-ayrı şəxslərdən olduqca qiymətli kitablar əldə etməyə müvəffəq oldu. 1934-cü ildə kitabxana «Акты кавказкой археографической комиссии» (12 cild) «Сборник материалов для описания местностей и племен Кавказ» (46 cild) «Кавказкий вестник», «Записки коллеги востоковедов», «Известия кавказского музея», «Кавказкий сборник» və s. kitab və jurnalları almışdı.

Kitabxananın ən qiymətli şöbələrindən biri Şərq şöbəsi idi. Bu şöbə 1933-cü ildə təşkil edilmişdi. Həmin şöbədə Şərq xalqlarının dilində nadir tapılan 15.000-dən artıq çox qiymətli ədəbiyyat toplanmışdı. Bu kitabların içərisində XVIII-XIX əsrdə İstanbul, Tehran, Təbriz, Qahirə və s. şəhərlərdə

litoqrafiya üsulu ilə çap edilmiş kitablar, 100-dən artıq isə əksəriyyəti XV-XVI əsrlərə aid olan ən qiymətli əlyazmaları var idi.[203] Şöbə Azərbaycan klassiklərindən M.F.Axundovun, A.Bakıxanovun, Cəlil Məmmədquluzadənin şəxsi kitabxanalarını almış, Nizaminin, Füzulinin yeni əlyazmalarını əldə etmişdi.

Kitabxana 30-cu illərdə SSRİ-nin və dünyanın böyük kitabxanaları, xüsusilə elmi-tədqiqat müəssisələri ilə geniş əlaqə yaratmışdı. Kitabxana 1934-cü ildə Sovet İttifaqının 110[204] müəssisəsi və bir neçə xarici ölkə ilə, ancaq Şərq ölkələri ilə əlaqə yaratmışdısa, onun əlaqələri 1935-ci ildə xeyli genişləndirilmişdi. 1935-ci ildə SSRİ EA Azərbaycan filialı Ümumittifaq xarici ölkələrlə mədəni əlaqə cəmiyyətinin vasitəsilə xarici ölkələrdən: Türkiyənin, İranın, Fransanın, İngiltərənin, Danimarkanın, İsveçrənin, ABŞ-ın, Portuqaliyanın, Finlandiyanın və s. ölkələrin elmi müəssisələri, universitetləri, akademiyaları və kitabxanaları ilə əlaqə yaratmağa müvəffəq olmuşdur. Kitabxana bu ölkələrlə geniş kitab mübadiləsi edir, öz nəşrlərini göndərir, əvəzində elmi kitablar alırdı.[205] Kitabxana 1937-ci ildə Moskva və Sankt-Peterburq kitabsaxlayıcılarından 75.000 manatlıq 20.000 nüsxə kitab aldı. Kitabxana öz fondunu dövri nəşrlərlə də komplektləşdirməyə xüsusi diqqət yetirirdi. Bu da filialın elmi-tədqiqat vəzifələrindən irəli gəlirdi. Kitabxana 1936-cı ildə 102 adda xarici nəşrlər və 200-dən artıq sovet dövri nəşrləri alırdı.[206]

Artıq 1940-cı ildə SSRİ EA Azərbaycan filialı kitabxanasının fondunda 200.000-dən artıq kitab var idi ki, bu da 1934-cü ildəkindən 4 dəfə çox idi. 30-cu illərdə kitabxananın fondunun inkişafı ilə yanaşı onun oxucularının da sayı müntəzəm surətdə artmışdı. 1934-cü ildə kitabxana oxuculara cəmisi 2.400 nüsxə kitab vermişdi. Əlbəttə, bu, çox az idi. Kitabxananın 1934-cü il hesabatında kitabın belə az verilməsinin səbəbi kitabxananın yarımqapalı xarakter daşıması ilə izah edilir.[207] Sonrakı illərdə kitabxananın yarında qiraətxana təşkil edilmiş və kitabxana bütün oxuculara və elmi

işçilərə xidmət etməyə başlamışdı ki, bu da onun oxucularının çoxalmasına və kitab verilişinin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdu. 1936-cı ildə kitabxana 292 oxucuya xidmət etmiş və onlara 6.000 nüsxədən artıq kitab verilmişdir. 1938-ci ildə kitab verilişi xeyli artaraq 13.715 nüsxəyə çatmışdı.[208]

Kitabxanada ayrı-ayrı institutlara və elmi işçilərə məlumat-biblioqrafiya xidməti də göstərirdi. Eləcə də Azərbaycan biblioqrafiyasına dair materiallar, Azərbaycan dövri mətbuatına dair göstəricilər, Azərbaycan-türk teatrına dair biblioqrafiya, Xəzər dənizinə dair biblioqrafiya və s. biblioqrafik göstəricilər tərtib edilmişdi.[209] Kitabxananın məlumat-biblioqrafiya xidmətinin genişlənməsi, oxuculara verilən elmi məlumatın getdikcə daha əməli xarakter daşıması kitabxananın elmi-tədqiqat işinə xidmətinin miqyasını daha da artırmışdı. Kitabxana respublikada elmi tərəqqiyə xidmət edən əsas bazalardan birinə çevrilmişdi.

1935-ci ildə SSRİ EA Rəyasət Heyəti akademiyanın Azərbaycan filialının yaradılması haqqında qərar qəbul etdi. SSRİ EA Azərbaycan filialının yaradılması respublikamızda elmin inkişafına partiya və dövlət qayğısının təzahürü idi.

1935-ci ildən başlayaraq filialın mərkəzi kitabxanası ilə yanaşı, onun ayrı-ayrı institutları, bölmələri yanında da kitabxanalar təşkil edilməyə başlanıldı. Deməli, 30-cu illərdə respublikamızda akademiyanın kitabxana şəbəkəsi meydana gəlib formalaşdı. 1935-1940-cı illərdə SSRİ EA Azərbaycan filialı institutları və bölmələrində 18 sahəvi elmi kitabxana təşkil edilmişdi.[210]

§ 3.3.8. Elmi-texniki kitabxanalar

Müharibədən əvvəlki beşilliklər dövründə respublikamızda elmi və xüsusi kitabxana şəbəkəsi ilə yanaşı, elmi-texniki kitabxana şəbəkəsi də genişlənmiş və təkmilləşmişdi. Bu, hər şeydən əvvəl ikinci, üçüncü beşilliklər dövründə texniki ədəbiyyata artan böyük tələbatla əlaqədar idi. Respub-

likamızda ağır sənayenin, xüsusilə neft, maşınqayırma sənayelərinin inkişafı, yeni-yeni zavod və fabriklərin meydana gəlməsi, ikinci və üçüncü beşilliklər dövründə texniki tərəqqinin sürətlə genişlənməsi, fəhlələr arasında texniki biliyin təbliği, məsələsini ön plana çəkmişdi. Respublika partiya təşkilatı partiyanın «Texnikaya yiyələnmək» şüarını həyata keçirmək üçün böyük tədbirlər görürdü.

Bakı neftçiləri partiyanın «Texnikaya yiyələnmək» çağırışını böyük ruh yüksəkliyi ilə qarşıladılar. Bakı şəhər partiya təşkilatı yeni texnikanın mənimsənilməsinə həsr edilmiş Ümumbakı partiya günü keçirmiş, geniş texniki dərnəklər şəbəkəsi yaradılmasına və bu dərnəklərə fəhlə sinfinin cəlb edilməsinə xüsusi diqqət yetirmişdir. 1933-cü ildə texniki dərnəklər tərəfindən 8.000 nəfər əhatə edilmişdi.[211] Respublikamızda texniki biliklərin yayılmasında texniki kitabxanalar yaxından iştirak edir, zavod, fabrik və neft mədənlərində texniki bilikləri təbliğ etməkdə partiya təşkilatlarına kömək edir, bilavasitə fəhlələrin iş yerlərində texniki nailiyyətləri, yeni ixtiraları təbliğ edirdilər. Texniki kitabxanalar staxanovçulara, ixtiraçılara və səmərələşdiricilərə yaxından kömək edir, onlara birinci növbədə xidmət göstərirdilər.

Respublikamızda texniki kitabxana şəbəkəsinin daha da möhkəmlənməsi 30-cu illərdə mümkün olmuşdu. 30-cu illərdə elmi-texniki kitabxana şəbəkəsi həm kəmiyyət, həm də keyfiyyət etibarı ilə inkişaf edib möhkəmlənmişdi. Artıq 1934-cü ildə respublikamızda 57.026 nüsxə kitab fonduna malik olan 51 texniki kitabxana var idi. Bu kitabxanalardan 43-ü Bakıda, qalanı isə Azərbaycanın rayonlarında yerləşmişdi. Texniki kitabxanalar ayrı-ayrı müəssisələrdə, mədənlərdə, fabrik və zavodlarda 32 səyyar məntəqə təşkil etmişdilər.[212]

Bu dövrdə öz nümunəvi işi ilə fərqlənən və dayaq texniki kitabxanası kimi bütün texniki kitabxanalara mərkəz kimi metodik xidmət göstərən kitabxana Respublika Mərkəzi Texniki Kitabxanası olmuşdur. Kitabxananın əsas

1923-cü ildə Azərbaycanın mərkəzi idarəsinin «Neftçilər» klubu yanında qoyulmuşdu. İlk dövrdə kitabxana ancaq klubun üzvlərinə xidmət edirdi. Cəmi 300 nəfər oxucusu var idi.[213] 1931-ci ildən başlayaraq kitabxana klubun üzvləri ilə yanaşı, bütün neftçilərə və neft ali və orta ixtisas məktəblərinin tələbələrinə xidmət etməyə başlamışdır.[214]

Kitabxana neft fəhlələrinin texniki ədəbiyyata böyük tələbatını nəzərə alaraq 1932-ci ildən etibarən filiallar təşkil etməyə başladı. Filialların təşkili kitabı bilavasitə fəhlələrə yaxınlaşdırır, istehsalatla kitabxana arasında əlaqələri genişləndirir, beləliklə, bilavasitə fəhlələrin texniki biliklərinin yüksəlməsinə əməli kömək göstərirdi. 1931-ci ildə kitabxananın fondunda cəmi 9.000 kitab var idisə, artıq 1932-ci ildə 35.000 kitab var idi. Bunun da 17.754 nüsxəsi filiallarda yerləşdirilmişdi.[215]

Göründüyü kimi, kitabxananın fondu bir il müddətində 4 dəfəyə qədər artmışdı. Kitabxananın oxuculara xidmət işinin xarakterinin dəyişməsi ilə əlaqədar olaraq, oxucuların sayı da xeyli çoxalmışdı. Təkcə 1932-ci ildə kitabxana 4.257 nəfər oxucuya xidmət etmiş və onlara 35.000 cild kitab vermişdi. Kitabxananın 1932-ci ildə SSRİ Elmi Kitabxanasının filialı kimi dayaq kitabxanasına çevrilməsi[216] onun fəaliyyətinin daha da genişlənməsinə səbəb oldu.

1933-cü ildə neft sahələrində elmi məlumat işini yaxşılaşdırmaq məqsədilə Mərkəzi Neft-Texniki Məlumat Bürosu yarandı. Kitabxana Azərneftdən alınıb bu büronun sərəncamına verildi. Büronun özü texniki məlumat işi ilə məşğul olduğu üçün kitabxananın fəaliyyətini də bilavasitə bu məqsədə yönəltdi. Beləliklə də kitabxana yenidən yarımqapalı vəziyyətə düşdü ki, bu da oxuculara xidmət işinin təşkilinə mənfi təsir göstərdi.[217] Bu hal uzun sürmədi. Kitabxananın müdiriyyəti və geniş oxucu kütləsi kitabxananın bu dövr fəaliyyəti haqqında öz narazılıqlarını tezliklə yuxarı təşkilatlar qarşısında bildirdilər. Buna görə də 1934-cü ilin iyun ayında Ümumittifaq Neft-Texniki Stansiyası, kitabxananı Mərkəzi

Neft-Texniki Məlumat Bürosundan aldı və müstəqil dayaq elmi kitabxanası kimi fəaliyyət göstərməsini lazım bildi.[218]

Bu vaxtdan da kitabxana bilavasitə Ümumittifaq Neft-Texniki Stansiyasına tabe oldu. Bu tədbir kitabxananın gələcək inkişafı üçün çox böyük əhəmiyyətə malik idi. Kitabxana neft üzrə SSRİ-də dayaq kitabxanasına çevrildi. Kitabxana Azərbaycan neft sənayesi fəhlə və qulluqçularına xidmət etməklə yanaşı, ölkəmizin digər neft rayonlarında da xidmət etməyə başladı. O, Qroznı, Krasnodar, Kuybışev, Batumi və s. neft kitabxanaları ilə kitabxanalararası abonement vasitəsi ilə geniş əlaqə saxlayır, bunları lazımi ədəbiyyatla təmin edirdi. O, həmin kitabxanalara metodiki köməklik də göstərirdi. 1939-cu ildə kitabxana 45 kitabxanaya 697 elmi kitab göndərmişdi.[219]

Kitabxananın dayaq kitabxanasına çevrilməsi hər şeydən əvvəl kitab fondunun bütün neft ədəbiyyatı ilə komplektləşdirilməsini, oxuculara xidmət işinin yaxşılaşdırılmasını, məlumat-biblioqrafiya işinin genişləndirilməsini və metodik işin tamamilə yenidən qurulmasını tələb edirdi. Kitabxana, həmçinin bütün texniki kitabxana şəbəkəsinin fəaliyyətinə nəzarət etməli, kiçik elmi-texniki kitabxanaların işinə metodik kömək göstərməli idi.

Bu vəzifələrin yerinə yetirilməsi hər şeydən əvvəl kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsini və kitab fondunun zənginləşməsini tələb edirdi. Məhz buna görədir ki, müharibədən əvvəlki beşilliklər dövründə kitabxanaya ayrılan vəsait və kitabxananın fondu müntəzəm olaraq artmışdır. Əgər kitabxananın fondunda 1933-cü ildə 31.634 nüsxə ədəbiyyat var idisə, onların sayı 1938-ci ildə 49.481 nüsxəyə, 1940-cı ildə isə 56.240 nüsxəyə çatmışdı.[220]

Deməli, müharibədən əvvəlki beşilliklər dövründə kitabxananın fondu iki dəfəyə qədər artmışdı ki, bu da əsasən kitabxananın fəaliyyətinin genişlənməsi, geniş zəhmətkeş kütlələrinə, ilk növbədə isə neft fəhlələrinə kitabxana xidmətinin getdikcə təkmilləşdirilməsi və yaxşılaşdırılması ilə əlaqədar idi.

Onu da qeyd etmək lazımdır ki, hələ bu dövrdə kitabxananın fondunda Azərbaycan dilində ədəbiyyat olduqca az idi. Məsələn, 1937-ci ildə kitabxanada Azərbaycan dilində cəmi 429 nüsxə kitab var idi.[221] Bu bir tərəfdən o dövrdə Azərbaycan dilində texniki ədəbiyyatın az nəşr edilməsi ilə əlaqədar idisə, digər tərəfdən, kitabxananın bu işə lazımi diqqət yetirilməməsinin nəticəsi idi. Sonrakı illərdə Azərbaycan dilində ədəbiyyata yaranan böyük tələbatla əlaqədar olaraq bu sahədə xeyli irəliləyiş baş verdi.

Müharibədən əvvəlki beşilliklər dövründə kitabxana öz fəaliyyətini bilavasitə Azərbaycan neftçilərinin yüksək neft məhsulu əldə etmək uğrunda apardıqları mübarizəyə həsr etmiş, texniki tərəqqiyə, əmək məhsuldarlığının yüksəldilməsi prosesinə xidmət etmişdir. Bu dövrdə kitabxananın oxucuları və kitab verilişi müntəzəm olar artmışdır. Əgər kitabxana 1933-cü ildə 4.257 nəfər oxucuya xidmət etmiş və onlara 35.000 nüsxə kitab vermişdisə, 1940-cı ildə 4.519 nəfər oxucuya xidmət etmiş və onlara 89.305 nüsxə kitab vermişdir.

Göstərilən dövrdə kitabxananın fəaliyyətində başlıca yeri onun elmi-metodik və biblioqrafik işləri tutur. Kitabxana 1934-cü ildən məlumat-biblioqrafiya fəaliyyətinə başlamışdır.[222] Kitabxanada müstəqil məlumat-biblioqrafiya şöbəsinin yaranması onun oxucular arasında apardığı məlumat işini xeyli genişləndirməklə, oxucu sorğularının ödənilməsində, yeni texniki ədəbiyyatın təbliğində çox mühüm əhəmiyyətə malik idi. Kitabxanada zəngin məlumat-biblioqrafiya aparatı yaradılmışdır. Bu aparatın yaradılmasına 1934-cü ildən başlanmışdı. Artıq 40-cı ildə kitabxananın məlumat-biblioqrafiya aparatında sistemli əlifba və predmet kataloqları, biblioqrafik kartotekalar, geniş məlumat fondu var idi. 1934-cü ildə ayrı-ayrı müəssisələrə 374 ədəbiyyat göstəricisi və 1.722 ədəbiyyat siyahısı göndərilmişdi.[223]

Sonrakı illərdə kitabxananın məlumat-biblioqrafiya işi daha da genişlənmiş, biblioqrafiya işinin yeni forma və üsul-

larının tətbiq edilməsinə başlanmışdı. 1936-cı ildən başlayaraq kitabxanada Azərbaycan neft təsərrüfatına dair ölkəşünaslıq biblioqrafiyasının aparılmasına başlanmışdı ki, bu da respublikamızın neftçiləri üçün çox mühüm əhəmiyyətə malik idi.

Kitabxana SSRİ-nin neft kitabxanalarının dayaq kitabxanası olduğundan o geniş metodiki iş aparmalı idi. Kitabxananın bu sahədə mövcud təcrübəsi və elmi-texniki kitabxana şəbəkəsinə rəhbərlik edən təlimatçıları olmadığından bu sahədə aparılan işlər lazımi səviyyəyə yüksələ bilməmişdi. 1935-ci ildən başlayaraq kitabxanaya xüsusi metodistlər və təlimatçılar ştatı verilməsi və kitabxananın bu sahədə təcrübəsinin çoxalması getdikcə onun metodiki mərkəzə çevrilməsini təmin etmiş və kitabxanalarla apardığı metodiki işin səviyyəsinin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdu.

Respublikada ikinci və üçüncü beşillik dövründə elmi-texniki kitabxana şəbəkəsi xeyli inkişaf etmişdi. 1934-cü ildə respublikamızda cəmisi 51 texniki kitabxana fəaliyyət göstərirdi. 1940-cı ildə bunların sayı 77-yə çatmışdı. Müharibədən əvvəlki beşilliklər dövründə 30 yeni müstəqil texniki kitabxana yaranmışdı. Respublika Texniki Kitabxanası öz profilinə uyğun olaraq kitabxanalardan ancaq 39-na metodik rəhbərlik edirdi.

Müharibədən əvvəlki beşilliklər dövründə texniki, elmi-tədqiqat və tədris müəssisələri ilə yanaşı, zavodlarda, fabriklərdə, neft mədənlərində bilavasitə fəhlə sinfinə xidmət edən texniki kitabxanalar şəbəkəsi meydana gəlmiş, onların əhaliyə kitabla xidmət işi kökündən dəyişmiş, texniki kitabxanalar zəhmətkeşlər arasında texniki biliyi yayan, onların peşə-texniki inkişafına kömək edən, texniki tərəqqiyə xidmət edən, texniki kitabları təbliğ edən bir müəssisəyə çevrilmişdi.

§ 3.3.9. Ali məktəb kitabxanaları

Xalq təsərrüfatının yenidən qurulması və sosializm cəmiyyətinin möhkəmləndirilməsi illərində respublikamızda

əldə edilən mühüm mədəni nailiyyətlərdən biri də təhsilin inkişafı olmuşdur. Xalq təsərrüfatının və mədəniyyətin inkişaf etməkdə olan bütün sahələrində yüksək ixtisaslı kadrlara böyük ehtiyac hiss edilməkdə idi. Bu ehtiyacı ödəmək üçün Azərbaycan K(b)P MK və respublika hökuməti yeni institutların açılmasına, onların maddi-texniki bazalarının möhkəmləndirilməsinə və qəbulun artırılmasına xüsusi qayğı göstərirdi. Əgər 1927-1928-ci dərs ilində respublikada 3 ali məktəb var idisə, bunların sayı 1933-1934-cü tədris ilində 13-ə çatmışdı.[224]

1940-cı ildə isə artıq Azərbaycanda 14,6 min tələbəsi olan 16 ali məktəb fəaliyyət göstərirdi.[225]

Məhz 30-cu illərdə Azərbaycan ali məktəbləri elm və texnikanın son nailiyyətlərinə uyğun olaraq geniş laboratoriyalarla, kabinetlə, texniki emalatxanalarla və əsaslı təcrübə bazaları ilə təmin edilmişdilər. Bu illərdə ali məktəblərdə böyük və zəngin kitab fonduna malik kitabxanalar yaradılmışdı. Heç bir ali məktəbi kitabxanasız təsəvvür etmək olmaz. Kitabxana hər bir ali məktəbin ilk və mühüm laboratoriyası hesab olunur. Ali məktəb kitabxanaları tələbələrin təhsil və tərbiyəsində yaxından iştirak edən, tələbə, müəllim və professor heyətinin kitaba olan tələbatını ödəyən, geniş-məlumat biblioqrafiya işi aparan, elmin son nailiyyətlərini təbliğ edən bir elmi müəssisə kimi 30-cu illərdə respublikamızda ali təhsilin inkişafına, yüksək ixtisaslı kadrların yetişdirilməsinə xidmət etməklə, ali məktəblərin elmi-tədqiqat işinin inkişafına da əhəmiyyətli kömək göstərdi. Məhz buna görədir ki, böyük rus alimi D.İ.Mendeleyev yazırdı: «Ali məktəblər mütləq geniş kitabxanalarla təchiz edilməlidir».[226]

1928-ci ildə respublikamızda cəmi 3 ali məktəb kitabxanası var idi. 30-cu illərdə respublikamızda ali məktəb şəbəkəsinin genişlənməsi ilə əlaqədar olaraq onların sayı artaraq 1934-cü ildə 13-ə, kitab fondları isə 538,020 nüsxəyə çatmışdı.[227] 1940-cı ildə respublikamızda 16 ali məktəb kitabxanası var idi. Bu kitabxanalar 1928-ci ildə 4.5 min tələbəyə,

1934-cü ildə 9,7 min tələbəyə, 1940-cı ildə isə 14,6 min tələbəyə xidmət edirdi. 1940-cı ildə 1928-ci ilə nisbətən ali məktəb kitabxanalarının xidmət etdiyi tələbələrin sayı 4 dəfəyə qədər artmışdı.

30-cu illərdə respublikamızda ali məktəb kitabxanalarının şəbəkəsi getdikcə genişlənir, onların işinin forma və məzmunu yaxşılaşır, müəllim və tələbələrə xidmət işi getdikcə təkmilləşirdi. 1935-ci ildən başlayaraq kitabxanalarda aparılan məlumat-biblioqrafiya işi xeyli genişlənmişdi. Kitabxanalar bilavasitə tədris prosesinə xidmət etmək üçün geniş kütləvi tədbirlər də həyata keçirirdilər.

30-cu illərin əvvəllərindən başlayaraq respublikamızda böyük ali məktəb kitabxanaları, Mərkəzi Elmi Kitabxana Kollektorundan pullu məcburi nüsxələr almağa başlamışdılar ki, bu da onlara kitabxana fondlarını vaxtında və ardıcıl olaraq yeni kitablarla komplektləşdirmək imkanı verirdi. Bütün bu tədbirlər ali təhsil sistemində kitabxanaların əhəmiyyətini daha da artırmış, onu ali məktəblərin çox mühüm elmi mərkəzlərindən birinə çevirmişdir.

§ 3.3.10. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası

BDU-nun Elmi Kitabxanasının əsası 1919-cu ildə qoyulmuşdur. Kitabxana 1930-cu ilə qədər fəaliyyət göstərmiş, 1930-cu ildə SSRİ-də ali təhsil sisteminin yenidən qurulması ilə əlaqədar ADU-nun fakültələrinin ayrı-ayrı institutlara çevrilməsi ilə əlaqədar olaraq kitabxanada yeni təşkil edilən institutlar arasında bölüşdürülmüşdü. Beləliklə, yeni təşkil edilən: Pedaqoji İnstitutun, Tibb İnstitutunun, Ticarət-Kooperativ İnstitutunun, Sovet Quruculuğu və Hüquq İnstitutunun[228] kitabxanaları universitet kitabxanasının bazası əsasında yaradılmış, institutların profillərinə uyğun kitablar seçilib həmin institutların yeni təşkil edilmiş kitabxanalarına verilmişdi.

1933-1934-cü tədris ilində universitet yenidən fəaliyyətə başladı. Bununla əlaqədar olaraq universitetin əsaslı kitabxanası bərpa edildi. Kitabxana öz keçmiş fondunun müəyyən hissələrini adlarını çəkdiyimiz institut kitabxanalarından geri aldı. Tez bir zamanda öz fondunu qaydaya salıb universitet kollektivinə xidmət etməyə başladı.

Artıq 1935-ci ildə universitet kitabxanası öz təşkilati işlərini: fondun yenidən təşkilini, kataloqların qaydaya salınmasını, yeni kataloqlar tərtib edilməsini başa çatdıra bilmişdi. Kitabxananın yenidən bərpa edilməsinə universitetin rəhbərliyi və ayrı-ayrı fakültələrin kollektivləri yaxından kömək edirdilər. Universitetin kafedraları kitabxana fondunun ədəbiyyatla təkmilləşdirilməsi işinə xüsusi qayğı göstərirdilər.

Sonrakı illərdə universitetin ümumi inkişafı ilə əlaqədar olaraq universitetin kitabxanası da inkişaf edib təkmilləşmişdir. 1940-cı ildə respublikamızın ən böyük elmi kitabxanalarından birinə çevrilmiş universitet kitabxanası fondunun zənginliyinə görə M.F.Axundov adına Respublika Dövlət Kitabxanasından sonra ikinci yeri tuturdu. Kitabxana zəngin Azərbaycanşünaslıq fondu yaratmışdı ki, bu şöbə universitetin tələbə və müəllimləri ilə yanaşı, respublikamızın digər ali məktəblərinin işçilərinə və alimlərinə də xidmət edirdi. 1938-ci ildən kitabxana pullu məcburi nüsxələr almağa başlamışdı. Bu da kitabxanada fondun planlı və ardıcıl komplektləşdirilməsi üçün şərait yaratmışdı. 1938-ci ildə kitabxananın fondunda 64.909 nüsxə kitab var idi. Kitabxana öz oxucularına 114.499 nüsxə kitab vermişdi.

Kitabxana Sovet İttifaqının universitetləri və elmi-tədqiqat institutları ilə geniş əlaqə saxlayır, onlarla kitab mübadiləsi, həmçinin universitetin elmi əsərlərinin mübadiləsini təşkil edirdi. O, artıq 1940-cı ildə 29 universitet, 214 ali məktəb və elmi müəssisələrlə əlaqə yaratmağa müvəffəq olmuşdu. Kitabxananın bu dövrdəki fəaliyyətində oxuculara kitabxanalararası abonement yolu ilə xidmət etməkdə də xüsusi yer tutmuşdu. 1940-cı ildə kitabxanalararası abonement yolu ilə 108 kitab alınmışdı.[229]

30-cu illərin axırlarında kitabxanada oxuculara biblioqrafik xidmət işi də xeyli yaxşılaşmışdı. 1935-ci ildən müstəqil şöbə kimi fəaliyyət göstərən məlumat-biblioqrafiya şöbəsi tələbə və müəllim heyətinin tədris və elmi sorğularının ödənilməsində mühüm rol oynayırdı. 1940-cı ildə universitet kitabxanasının fondunda 204.613 nüsxə kitab var idi ki, bu da 1930-cu ildəkindən 2 dəfə çox idi.[230]

* * *

Bu dövrdə fəaliyyət göstərən ali məktəb kitabxanalarından biri də **M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun kitabxanası** idi.

Respublikamızda ilk elmi-texniki kitabxana sayılan bu kitabxana 1920-ci ildə təşkil edilmişdi. Kitabxana respublikamızda elmi-texniki fikrin inkişafında və mühəndis-texniki kadrların hazırlanmasında mühüm rol oynamışdı. O, təkcə institutun tələbələrinə və müəllimlərinə deyil, respublikamızın bütün texniki ziyalılarına xidmət edirdi.

20-ci illərdə kitabxananın fondu müntəzəm olaraq artmış, oxuculara xidmət işi yaxşılaşdırılmışdı. 1920-ci ildə kitabxananın fondundu 500 kitab var idi. Onun miqdarı 1935-ci ildə 82.000 nüsxəyə, 1940-cı ildə isə 112.000 nüsxəyə çatmışdı.[231] Kitabxana oxuculara xidmət işini yaxşılaşdırmaq məqsədilə kitabxana fondunu hərtərəfli əks etdirən kataloq sistemi yarada bilmişdi. 1940-cı ildən kitabxananın əlifba, sistemli, mövzu, predmet və topoqrafik kataloqları var idi. Oxucuların sorğu və tələbatlarını ödəmək, yeni ədəbiyyatı, elm və texnikanın son nailiyyətlərini təbliğ etmək üçün biblioqrafik kartoteka yaradılmışdı. Kitabxana 30-cu illərdə məlumat-biblioqrafiya işini xeyli genişləndirmiş, onu daha dolğun və məzmunlu təşkil etməyə başlamışdır.[232]

Şifahi biblioqrafik arayışlarla yanaşı, oxucular üçün ədəbiyyat siyahıları da tərtib edilmişdi. Bütün bunlar kitabxananın oxuculara xidmət sahəsindəki fəaliyyətini xeyli yax-

şılaşdırmışdı. 1940-cı ildə kitab vermişdi. İl müddətində kitabxanaya 103.552 oxucu gəlmiş, kitab verilişi 39.400-ə çatdırılmışdı.

* * *

Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun kitabxanası da tələbələrə kitabxana xidmətinin təşkilində mühüm rol oynayırdı. Azərbaycanın ikinci sənaye mərkəzi olan Gəncədə yerləşən bu kitabxana uzun illər respublikamızda kənd təsərrüfatına dair hərtərəfli elmi ədəbiyyata malik yeganə kitabxana kimi geniş fəaliyyət göstərmiş, yüksək ixtisaslı kənd təsərrüfatı mütəxəssislərinin yetişdirilməsində yaxından iştirak etmişdir. Kitabxananın kitab fondunun surətlə çoxalması, oxuculara xidmət işinin təşkilinə müsbət təsir göstərirdi. Əgər kitabxananın fondunda 1931-ci ildə 2.437 nüsxə kitab var idisə, olanların sayı 1941-ci ildə 163.375 nüsxəyə çatmışdır. Bunun da 22. ** nüsxəsi Azərbaycan dilində idi. On il müddətində kitabxananın fondu 67 dəfə artmışdı ki, bu da çox mühüm mədəni nailiyyət idi. Kitabxana 1940-cı ildə 3.858 nəfərə xidmət edirdi. Əgər 1933-cü ildə oxuculara 7.712 kitab verilmişdisə, bunların sayı 1940-cı ildə 140.614-ə çatmışdı.

Kitabxana Sovet İttifaqının ali məktəbləri və kənd təsərrüfat elmi-tədqiqat müəssisələri ilə geniş əlaqə saxlayır, kitab və elmi əsərlərin mübadiləsini edirdi. Kitabxanalararası abonement vasitəsilə kitabxana respublikamızın və SSRİ-nin böyük kitabxanalarının fondundan istifadə edirdi. Kitabxana oxucuların sorğularını ödəmək üçün məlumat-biblioqrafiya aparatı yaratmışdı. Bu aparat elmi-tədqiqat işi aparan oxuculara hərtərəfli kömək göstərirdi. Kitabxana xarici ölkələrlə də əlaqə saxlayırdı. 1940-cı ildə Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun alimlərinin bitkiçiliyə, heyvandarlığa, mexanizasiyaya dair 120 nüsxə elmi əsəri Almaniyaya, İngiltərəyə, ABŞ-a, Yaponiyaya və s. xarici ölkələrə göndərilmişdi.[233]

Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun ki-

tabxanası tələbə və müəllimlərlə yanaşı, respublikanın bütün kənd təsərrüfatı üzrə elmi-tədqiqat müəssisələrinin işçilərinə də xidmət edir.

***

Bu dövrdə **Azərbaycan Dövlət Tibb İnstitutunun kitabxanasının** fəaliyyəti də diqqəti cəlb edirdi. Kitabxana 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin kitabxanasının tibb ədəbiyyatı fondu bazasında yaradılmışdı. Kitabxana respublikada Tibb İnstitutunun müəllim və tələbə kollektivi ilə yanaşı, bütün elmi-tədqiqat institutlarına və respublikanın tibb ictimaiyyətinə də xidmət edirdi.

30-cu illərdə kitabxananın fondu müntəzəm olaraq artmışdır. Əgər kitabxana təşkil edilərkən onun fondunda 1.919 nüsxə kitab var idisə, artıq üç ildən sonra kitabxananın fondunda 34.107 nüsxə kitab olmuşdur. Kitabxana həm SSRİ, həm də Azərbaycan SSR-də çıxan kitablardan pullu məcburi nüsxə almış, ayrı-ayrı institutlar və elmi-tədqiqat müəssisələri ilə əlaqədar genişlənmiş, kitab və elmi əsərlər mübadiləsi etmiş və bir çox xarici ölkələrin elmi müəssisələri ilə əlaqə yaratmışdı. Bu da kitabxana fondunun sürətlə inkişafına səbəb olurdu. Artıq 1940-cı ildə kitabxananın fondunda 100.000 nüsxədən artıq kitab var idi.[234] Üçüncü beşilliкdə kitabxananın fondu 3 dəfəyə qədər artmışdı. 1935-ci ildə kitabxana SSRİ-nin 175 və xarici ölkələrin 62 tibb müəssisəsi ilə əlaqə saxlayır, kitab mübadiləsi edir, elmi jurnallar alırdı. Xarici ölkələrdən: İtaliya, Türkiyə, Yaponiya, Almaniya və s. ölkələrlə geniş əlaqə yaradılmışdı.[235]

Böyük Vətən müharibəsi ərəfəsində Azərbaycanda zəngin elmi ədəbiyyat fonduna malik olan ali məktəb kitabxana şəbəkəsi meydana gəlmiş, onların elmi-tədqiqata və tədrisə xidmət işi daha da təkmilləşmişdi ki, bu da respublikamızda kitabxana quruculuğunun çox mühüm nailiyyəti idi.

§ 3.3.11. Kitabxanaçılıq təhsili

Respublikada kitabxana şəbəkəsinin sürətlə artması minlərlə cild kitab fonduna malik olan böyük kitabxanaların meydana gəlməsi, əhalinin ümumi mədəni səviyyəsinin daha da yüksəldilməsi, kitabxana oxucularının sayının durmadan artması, yüksək ixtisaslı kitabxanaçı kadrlara böyük tələbat əmələ gətirmişdi. Azsavadlı, ümumi mədəni səviyyəsi olduqca aşağı olan, kitabxana işini bilməyən, dövrlə ayaqlaşmayan adamların kitabxanalarda işləməsi, kitabxana işinin dövrün tələbləri səviyyəsinə yüksəlməsinə, mədəni inqilabın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə mane olurdu. Kitabxanaların qarşısında sosializm quruculuğunun böyük vəzifələrinə xidmət etmək, əhalinin ümumi mədəni, peşə-texniki səviyyəsini yüksəltmək və ideya-siyasi tərbiyəsində yaxından iştirak etmək kimi çox mühüm vəzifələr qoymuşdu. Bu vəzifələrin yerinə yetirilməsi isə əhalini kütləvi surətdə kitabxana oxucuları sırasına cəlb etmək, onların mütaliəsinə rəhbərlik etmək, şəxsi təhsilə rəhbərlik edib onu istiqamətləndirmək kimi mühüm problemlərin əməli həllini tələb edirdi. Məhz buna görədir ki, kitabxanaçı kadrların hazırlanması məsələsi 30-cu illərdə tam kəskinliyi ilə qarşıda durmuşdu.

Məlum olduğu kimi, 30-cu illərin axırına qədər respublikada kitabxanaçı kadrlar hazırlayan heç bir təhsil müəssisəsi yox idi. Kitabxanaçı kadrlar vaxtaşırı təşkil edilən kurslarda hazırlanırdı. Kurslar aylıq, üçaylıq və bəzən nadir hallarda altı aylıq olurdu. Kitabxanaçılıq kursları Azərbaycan SSR Xalq Maarif Komissarlığı, Bakı Xalq Maarif Şöbəsi, Azərbaycan Həmkarlar İttifaqları, M.F.Axundov adına Azərbaycan Dövlət Ümumi Kitabxanası və bəzi hallarda kitabxana şəbəkəsi olan digər nazirliklər tərəfindən təşkil edilirdi. Belə kurslar 30-cu illərin axırından respublikanın digər böyük şəhərlərində, Naxıçıvan MSSR-də, Dağlıq Qarabağ Muxtar Vilayətində və rayon mərkəzlərində də təşkil edilirdi. Orta ixtisas və ali təhsilli kitabxanaçıların hazır-

lanmasında isə respublikamıza qardaş RSFSR kömək edirdi. 1936-cı ildən başlayaraq Moskva Kitabxanaçılıq İnstitutuna və Sankt-Peterburq Siyasi-Maarif İnstitutunda təhsil almaq üçün Azərbaycan SSR Xalq Maarif Komissarlığı tələbələr göndərirdi. Həmçinin bu institutların, Moskva və Sankt-Peterburq şəhərlərinin siyasi maarif texnikumlarının Bakı kitabxanalarında işləyən yetirmələri respublikada kitabxana işinin inkişafında olduqca mühüm rol oynayır, kitabxana işinin elmi-metodiki əsaslarının hazırlanmasında, kitabxanaçılıq kurslarında tədris proseslərinin təşkilində yaxından iştirak edirdilər.

1938-ci ilin martında Azərbaycan SSR XKS respublika kitabxanalarının ixtisaslı kitabxanaçı kadrlara böyük ehtiyacını nəzərə alıb Bakıda yeni dərs ilində kitabxanaçılıq texnikumunun təşkil edilməsi haqqında qərar qəbul etdi.[236]

Qərarda göstərilirdi ki, partiya xalqların mədəni inkişafına böyük qayğı göstərir. Xalq maarifinə milyard manatlarla vəsait xərclənir. İlbəil məktəblərin, ali məktəblərin, kitabxanaların və onların kitab fondlarının miqdarı artır. Bizim kitabxanalarımız yeni mərhələyə yüksəlmiş və oxuculara xidmət sahəsində xeyli müvəffəqiyyətlər qazanmışdır. Ancaq kütlələrin tələbat və sorğuları bu müvəffəqiyyətləri xeyli keçmişdir. Oxucu mədəni cəhətdən inkişaf etmiş, öz gücünü başa düşmüş, ixtisaslaşdırılmışdır. O, kitabxanadan hər cür xidmət mədəniyyətinin daha da yüksəlməsini və yaxşılaşdırılmasını tələb edir.

Azərbaycan SSR-də kitabxanaçı kadrların hazırlanması işində müəyyən sistem və plan olmadığından kadrlar müxtəlif qısamüddətli kurslarda hazırlanırdı ki, bu da yüksək ixtisaslı kadrlar hazırlamağa imkan vermirdi. Bütün bunları nəzərə alaraq Azərbaycan XKS respublikanın kütləvi, uşaq və məktəb kitabxanaları üçün ixtisaslı kadrların planauyğun və sistemli qaydada hazırlanmasını təmin etmək üçün 1938-ci ildə Bakı şəhərində xüsusi orta təhsil müəssisələrinin yaradılmasını məqsədəmüvafiq hesab edir.

Xalq Maarif Komissarlığına təklif edilirdi ki, 1938-1939-cu tədris ilində yeddiillik təhsil bazasında üçillik təhsil müddəti olan kitabxanaçılıq texnikumu təşkil etsin. Texnikum üç şöbədə: Azərbaycan, rus və erməni şöbələri üzrə kadr hazırlamalı və ildə bu şöbələrə 300 nəfər qəbul edilməli idi. Bundan başqa, texnikumda kitabxanaçı kadrların ixtisasını artırmaq üçün birillik ixtisasartırma şöbəsi təşkil edilməsi və bu şöbəyə ildə 60 nəfər kitabxanaçı qəbul edilməsi nəzərdə tutulmuşdu.

Bakı Kitabxanaçılıq Texnikumunun təşkili respublikamızın mədəni həyatında, xüsusilə mədəni cəbhənin ən mühüm sahələrindən biri olan kitabxanaların işinin yaxşılaşdırılmasında çox mühüm hadisə idi. Texnikumun təşkili kitabxanalarımızı ixtisaslı kadrlarla təmin etmək imkanı verirdi ki, bu da kitabxana işinin ümumdövlət işi səviyyəsinə qaldırılmasına, xalqın maarif və mədəniyyətində mühüm rol oynayan bir müəssisəyə çevrilməsinə səbəb olurdu.

Kitabxanaçılıq Texnikumu 1938-ci il sentyabrın 15-dən fəaliyyətə başladı. 1938-ci il iyulun 11-də "Бакинский рабочий" qəzetində texnikuma qəbul haqqında elan dərc edilmişdi. Elanda göstərilirdi ki, Kitabxanaçılıq Texnikumu kitabxana müdirləri, kitabxanaçılar, rayon XMŞ-də kitabxana işi üzrə təlimatçılar, kataloqçular və s. hazırlayır.

1938-1939-cu dərs ilində texnikuma 150 nəfər tələbə qəbul edildi. 1939-cu illərdə artıq texnikumda 177 nəfər tələbə təhsil alırdı.[237]

Azərbaycan XMK 1940-cı ildə texnikumda ixtisas fənlərindən dərs demək üçün rus bölməsində S.Yəhyazadəni, Azərbaycan bölməsində isə M.H.Rzaquliyevi təsdiq etmişdi.[238] S.Yəhyazadə 1924-cü ildən kitabxana işində işləyirdi. 1933-cü ildə Moskva Kitabxanaçılıq İnstitutunu bitirmişdi. Uzun müddət Azərbaycan Dövlət Ümumi Kitabxanasında, Xalq Maarif Komissarlığının Kitabxanaçılıq İdarəsində işləmişdi. M.H.Rzaquliyev isə respublikamızın görkəmli maarif xadimlərindən biri idi. O, tərcüməçi kimi də fəaliyyət gö-

stərirdi. Kitabxana işinin mahir bilicilərindən biri kimi şöhrət tapmışdı. Kitabxanaşünaslıq kabinəsinin ilk müdirlərindən biri olmuşdu.

Kitabxanaçılıq Texnikumunun ilk buraxılışı 1940-cı ildə oldu. Texnikumu 30 nəfər bitirdi.[239] Buraxılan tələbələr Bakı şəhərinin böyük elmi kitabxanalarına, kütləvi kitabxanalarına və rayon kitabxanalara işə göndərilmişdilər.

30-cu illərin axırında kitabxanalarla yanaşı, digər siyasi-maarif müəssisələri üçün kadr hazırlamaq məqsədi ilə 1934-1940-cı tədris ilində Nuxada (Şəkidə) ikiillik siyasi-maarif məktəbi təşkil edildi. Bu məktəb əsasən klublar, mədəniyyət sarayları, qiraət komaları, kitabxanalar və s. üçün kadr hazırlamalı idi. İkiillik siyasi-maarif məktəbinin təşkil edilməsi haqqında hələ 1936-cı ilin dekabrında Azərbaycan K(b)P MK bürosu məsələ müzakirə etmiş və siyasi-maarif məktəbinin 1937-ci ilin ikinci yarısında Bakıda açılması lazım bilinmişdi.[240] Lakin məktəbi Bakıda açmaq mümkün olmamış, bir il sonra 1939-1940-cı illərdə Nuxada açılmışdı. Məktəbə plana görə, 1939-1940-cı ildən 150 nəfər qəbul etməli olduğu halda, 98 nəfər qəbul edilmişdi. 1939-40-cı tədris ilinin axırından məktəbdə 56 nəfər tələbə təhsil alırdı. Bu tələbələrdən ancaq 39 nəfəri ikinci kursa keçmişdi. Məktəbin dərs planları və proqramları lazımi səviyyədə deyildi. İxtisas fənlərindən dərs deyəcək müəllimlər olmadığından dərslər ədəbiyyat müəllimləri tərəfindən keçirilirdi ki, bu da tədrisin keyfiyyətinə mənfi təsir göstərməyə bilməzdi.[241]

Məktəbin fəaliyyəti uzun sürmədi, müharibə dövrünün çətinlikləri ilə əlaqədar olaraq o öz fəaliyyətini dayandırdı.

III fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı

1 Sov. İKP qurultayları, konfranslar və MK plenumlarının qətnamə və qərarları. II hissə.- Bakı, 1954. s.513.
2 Yenə orada.s.538.
3 «Kommunist» qəzeti. 1929, 27 aprel, № 97.
4 Yenə orada.
5 Yenə orada.
6 «Kommunist» qəzeti. 1932, 28 oktyabr, № 253.
7 Bakı şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin arxivi, f.1. siyahı . iş 840, vərəq 107 .
8 Sov. İKP MK-sı yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. siyahı.74,iş 280, vərəq 76-77.
9 Yenə orada.
10 Şura Azərbaycanı rəqəmlərdə. 1929-cu il üçün Bakı, 1928, s.37.
11 Н.К.Крупская. Педагогические сочинения, т.9.с. 482.
12 История Азербайджана в трех томах. Т.3.часть 2.- Баку, 1963. с.37.
13 Резолюции и постановления сьездов Советов Азербайджанской ССР (1921-1937 гг.).- Баку, 1961.с.180.
14 История Азербайджана в трех томах, т.3. часть, II.- Баку, 1963. с.38.
15 Yenə orada.
16 Azərbaycan SSR-də xalq maarifinin nailiyyətləri.- Bakı, 1957. s.36.
17 Azərbaycan SSR-nin mətbuatı. Statistik materiallar məcmuəsi, (1920-1956).- Bakı, 1958. s.9.
18 Г.Б.Гасанов. Развитие книгоиздательского дела в советском Азербайджане (1920-1932 г.г.) Автореферат на соискание ученой степени кандидата исторических наук.- Баку, 1966.с.19.
19 Книга, графика и плакат Азербайджана.- Баку, 1950. с.22.
20 H.B. Həsənov. Xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulması sosializm cəmiyyətinin möhkəmləndirilməsi və inkişafı dövründə Azərbaycanda kitab nəşri (1933-1940). S.M. Kirov adına ADU-nun «Elmi əsərlər»i, «Kitabxanaşünaslıq və biblioqrafiya» seriyası.- Bakı, 1971, №2, s.40.
21 Н.А.Пашаев. Очерки истории культурного строительства советского Азербайджана.- Баку, 1965. с.108.
22 История Азербайджана в трех томах. Т.3.часть 2.- Баку, 1963. с.49.
23 Azərbaycan SSR-nin mətbuatı (1920-1956).- Bakı, 1958. s.9.
24 Yenə orada.
25 Sov. İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları, III hissə, Bakı, 1954. s.241.
26 Yenə orada.

[27] Материалы к истории библиотечного дела в СССР (1917-1959 г.г. Л. 1960. с.105.

[28] Материалы к истории библиотечного дела в СССР (1917-1959 гг.) Л. 1960. с.109-115.

[29] Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanları və Azərbaycan SSR hökumətinin qərarı, xronoloji külliyatı, I cild, 1920-c1935.- Bakı, 1960.s. 231-233.

[30] Культурное строительство Азербайджанской ССР. Статистический сборник.- Баку.- 1961.с.88

[31] Azərbaycan SSR qanunları, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin fərmanları və Azərbaycan SSR hökuməti qərarı, xronoloji külliyatı, I cild, 1920-c1935.- Bakı, 1960.s.

[32] Azərbaycan SSR xalq təsərrüfatı statistik külliyatı, Bakı, 1957, s. 482.

[33] Yenə orada.

[34] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1174, v 3.

[35] Azərbaycan SSR xalq təsərrüfatı statistik külliyatı, Bakı, 1957, s. 484.

[36] Azərbaycan Kommunist Partiyası sosializm quruculuğu uğrunda mübarizədə.- Bakı 1961. s.328.

[37] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1071, s.25.

[38] Yenə orada.

[39] «Kommunist» qəzeti, 1932, 28 oktyabr.

[40] Yenə orada.

[41] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1071, s.75.

[42] Yenə orada.f.1, s.235, iş 524, v. 64.

[43] Материалы к истории библитечного дела в СССР (1917-1959 г.г). Л. 1960. с.109.

[44] Материалы к истории библитечного дела в СССР (1917-1959 г.г). Л. 1960. с.112.

[45] Всесоюзная библиотечная перепись, на 1-е октября 1934 г. (инструктивные материалы, М., 1934, 36 с.

[46] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.235, iş 524, v. 93.

[47] Всесоюзная библиотечная перепись, на 1-е октября 1934 г. основные итоги, М., 1936, 319.

[48] Управление народнохозяйственного учета РСФСР. Библиотеки РСФСР в 1934 г.- М., 1935. 78 с.

[49] Закавказское управление народнохозяйственного учета Библиотеки РСФСР. Основные итоги библиотечной переписи на 1 октября 1934 г.

[50] Учетно-статистический сектор ВЦСПС статистический справочник, Выпуск III (V). М., 1936, 55 с.

[51] А.Шорр. С. культурного фронта, жур. «Социалистическое хозяйство Закавказии», 1935, № 3, с. 79-80.

[52] А.Шорр. С культорного фронта, жур. «Социалистическое хозяйство Закавказии», 1935, № 3, с. 79-80.

[53] Yenə orada. s.81.

[54] А.Шорр. С культорного фронта, жур. «Социалистическое хозяйство Закавказии», 1935, № 3, с.83.

[55] Всесоюзная библиотечная перепись 1 октября 1934 г., т.1, основные итоги, М., 1936.с.128.

[56] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1053, v 40-47.

[57] «Бакинский рабочий» qəzeti, 1937, 14 oktyabr.

[58] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.235, iş1143,v.14.

[59] M.Y.Vəkilov. Kommunist Partiyası Azərbaycanda mədəni inqilabın təşkilatçısıdır (1920-1945), Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya, Bakı, 1967.s.264.

[60] К.И.Абрамов. История библиотечного дела в СССР.- М., 1970, с.298.

[61] Sov. İKP qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları. III hissə.- Bakı, 1954. s.374.

[62] Yenə orada. s.403.

[63] Yenə orada. s.303

[64] Народное образование, наука и культура в СССР. Статистический сборник.- М., 1971.с.285.

[65] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1313, v 10.

[66] Yenə orada, MSİ, f. 2511, s.3, iş 92.v.135

[67] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.238, iş 86 v.1.

[68] Yenə orada.

[69] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1113, v 3

[70] Всесоюзная библиотечная перепись 1 октября 1934 г., т.1, статистический сборник. 1 часть.- М., 1936.с.128.

[71] «Бакинский рабочий» qəzeti, 1934, 29 dekabr.

[72] Всесоюзная библиотечная перепись 1 октября 1934 г., статистический сборник. 1 часть.- М., 1936.с.128.

[73] Azərbaycan SSR OİMDA, f. 41.s.3 iş 9, v 137.

[74] Yenə orada, v.136.

[75] Yenə orada, v.139.

[76] Yenə orada, v. 140.

[77] Всесоюзная библиотечная перепись 1 октября 1934 г., статистический сборник. 1 часть.- М., 1936.- с.128.

[78] Azərbaycan SSR OİMDA, Bakı filialı, f. 41.s.3 iş 9, v 135-140.

[79] Всесоюзная библиотечная перепись 1934, 1 октября М., 1936 с.129.
[80] «Бакинский рабочий» qəzeti, 1934, 29 dekabr.
[81] Bakı şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin Arxivi. f.41, s.1, iş 829, v.85
[82] Azərbaycan SSR OİMDA, Bakı filialı, f. 41.s.3 iş 9, v 122.
[83] Yenə orada.
[84] «Бакинский рабочий» qəzeti, 1940, 15 oktyabr.
[85] «Gənc işçi» qəzeti 1940, 9 sentyabr.
[86] Баку в цифрах. Статистический сборник.- Баку, 1967, с.87.
[87] Имени Владимира Ильича Ленина.- Баку, 1959 с.14.
[88] S.Ə.Rəhimzadə. Sabir adına Mərkəzi şəhər kitabxanasının 25 illiyi.- Bakı, 1944 (əlyazması).
[89] Имени Владимира Ильича Ленина. Баку 1959 с.15.
[90] Azərbaycan SSR OİMDA, f. 57. s.I, iş 1066, v 81.
[91] S.Ə.Rəhimzadə. Sabir adına Mərkəzi şəhər kitabxanasının 25 illiyi.- Bakı, 1944 (əlyazması).
[92] «Kommunist» qəzeti, 1935, 27 dekabr.
[93] «Бакинский рабочий» qəzeti, 1935, 28 may.
[94] T.F.Quliyev. Azərbaycan SSR Həmkarlar İttifaqı Kitabxanalarının tarixi (1920-1941-ci illər). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya.- Bakı, 1968, s.228.
[95] Azərbaycan SSR OİMDA, f. 1114.s.I iş 2088, v 96.
[96] AHİŞ Həmkarlar İttifaqının VII Qurultayına hesabat.- Bakı, 1932, s.83-84.
[97] Azərbaycan SSR OİMDA, f. 1114.s.I iş 370, v 15.
[98] Yenə orada, iş 2036, v.96.
[99] Статистический справочник, выпуск III (V).- М., Профиздат, 1936. с.34.
[100] «Бакинский рабочий» qəzeti, 1935, 6 fevral.
[101] Yenə orada, 21 dekabr.
[102] Azərbaycan SSR OİMDA, f. 1114.s.I iş 370, v 15.
[103] T.F.Quliyev. Azərbaycan SSR Həmkarlar İttifaqı Kitabxanalarının tarixi (1920-1940-cı illər). Tarix elmləri namizədi, alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya.- Bakı, 1968, s.269.
[104] Həmkarlar İttifaqı kitabxanalarının 1934-cü ilə nisbətən sayının azalması siyahıyaalınma zamanı Həmkarlar İttifaqı kitabxanalarına aid edilmiş bəzi kitabxanaların başqa idarə və müəssisələrə verilməsi və kiçik kitabxanaların birləşməsi ilə əlaqədardır.
[105] T.F.Quliyev. Azərbaycan SSR Həmkarlar İttifaqı Kitabxanalarının tarixi (1920-1940-cı illər). Tarix elmləri namizədi, alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya.- Bakı, 1968, s.281.

[106] Yenə orada.
[107] Т.Ф.Кулиев. История профсоюзных библиотек в Азербайджанской ССР, (1920-1941). Автореферат диссертации, представленной на соискание ученой степени кандидата исторических наук.- Баку, 1969. с. 34-35.
[108] X.O.Əlimirzəyev. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində, Bakı, 1963, s.118.
[109] Примерный устав сельскохозяйственной артели, принятый автором и Всесоюзным съездом колхозников-ударников.- М., 1935.
[110] Н.К.Крупская. Педагогические сочинения.- М., том. 7 с.53.
[111] Материалы к отчету правительства VIII Всеазербайджанскому съезду советов.- Баку. 1934 с. 275-277.
[112] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.235, iş 524. v.84.
[113] Yenə orada, v.63
[114] Материалы к отчету правительства VIII Всеазербайджанскому съезду советов.- Баку. 1934 с. 275-277.
[115] «Kommunist» qəzeti, 1934, 19 yanvar.
[116] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.235, iş 524. v.63-64.
[117] «Gənc işçi» qəzeti, 1932, 29 iyun.
[118] Yenə orada.
[119] Yenə orada, 1933, 18 mart.
[120] «Gənc işçi» qəzeti, 1932, 10 iyul.
[121] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.235, iş 445.v.10.
[122] Yenə orada.
[123] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş.1170.v.2.
[124] «Бакинский рабочий» qəzeti, 1935, 22 dekabr.
[125] «Kommunist» qəzeti, 1935, 3 iyun.
[126] Yenə orada, 1935, 21 dekabr.
[127] «Бакинский рабочий» qəzeti, 1935, 22 dekabr.
[128] Yenə orada, 15 dekabr.
[129] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş.1170.v.3.
[130] К.И.Абрамов. История библиотечного дела в СССР, М., 1970, с.328.
[131] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş.1174.v.1-2.
[132] Yenə orada, v.5.
[133] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.235, iş 794. v.7.
[134] Azərbaycan SSR OİMDA, f. 54.s.1 iş.1319.v.28.

[135] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.285, iş 794. v.3.
[136] Yenə orada, f.1. s.235, iş 1080, v.11.
[137] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1320, v 28.
[138] «Бакинский рабочий» qəzeti, 1936, 10 fevral.
[139] H.Tağıyev. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı.- Bakı, 1960. s. 41.
[140] Культурное строительство Азербайджанской ССР. Статистический сборник.- Баку, 1961.c.88
[141] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1313, v 9.
[142] Yenə orada, v.8.
[143] Yenə orada, v.9.
[144] Azərbaycan SSR OİMDA, f. 57.s.I iş 1313, v 8-11.
[145] Naxçıvan MSSR MDA, f.1, s.1. iş 476, v.6
[146] «Бакинский рабочий» qəzeti, 1938, 28 yanvar.
[147] «Müəllim qəzeti», 1938, 29 sentyabr.
[148] Azərbaycan SSR OİMDA, f. 54.s.I iş 1819, v 98.
[149] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.235, iş 1143. v.12.
[150] Yenə orada, v.19.
[151] Yenə orada, v.19.
[152] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.235, iş 1143. v.12.
[153] H.K.Крупская. О библиотечном деле. Сборник, M., 1975, c.631.
[154] «Maarif işçisi» jurnalı, 1927, № 2 (23). S.47-50.
[155] Yenə orada.
[156] «Бакинский рабочий» qəzeti, 1928, 21 fevral.
[157] Всесоюзная библиотечная перепись 1 октября, 1934, т. 1.- M., 1936. c.128.
[158] Yenə orada.
[159] Yenə orada.
[160] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1. s.74 iş 352. v.5-6.
[161] Yenə orada.
[162] Azərbaycan SSR OİMDA, f. 41.s.3 iş 9, v 12.
[163] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş 1313, v 8-11.
[164] Yenə orada.
[165] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1.s.283, iş 86, v 3.

[166] Материалы к истории библиотечного дела в СССР (1917-1959 гг) .- Л., 1960, c.124.
[167] Материалы к истории библиотечного дела в СССР (1917-1959 гг) .- Л., 1960, c.124-125.
[168] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1.s.238, iş 86, v 13.
[169] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş 1263, v 2-3.
[170] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1.s.238, iş 86, v 4.
[171] «Kommunist» qəzeti, 1937, 8 mart.
[172] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş 1263, v 2-3.
[173] Yenə orada, iş 1376, v.53-54
[174] Yenə orada.
[175] «За коммунистическое просвещение» 1936, 30 июль, № 104 c.2.
[176] Культурное строительство Азербайджанской ССР Статистический сборник.- Баку, 1961. c.66.
[177] «Kommunist» qəzeti, 1932, 27 oktyabr.
[178] Yenə orada.
[179] Azərbaycan SSR OİMDA, f. 57.s.7 iş 57, v 47.
[180] Всесоюзная библиотечная перепись 1 октября, 1934, т. 1, основные итоги. M., 1936, c.128..
[181] Azərbaycan SSR OİMDA, f. 57.s.7 iş 1170, v 1-4.
[182] Азербайджанская Центральная Государственная библиотека. Баку, 1928. c.4.
[183] Azərbaycan SSR OİMDA, f. 57.s.7 iş 50 v 28.
[184] Yenə orada.
[185] «Ədəbiyyat» qəzeti. 1935, 12 fevral.
[186] M.F.Axundov adına Azərbaycan Respublikası Ümumi Kitabxanası.- Bakı, 1947, s.16.
[187] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş 1471 v 61.
[188] Всесоюзная библиотечная перепись 1 октября, 1934 г., статистический сборник, т. 1, M., 1936, c.292.
[189] Bakı şəhər Zəhmətkeş Deputatları Sovet İcraiyyə Komitəsinin arxivi. F.295.s.1. iş.273. v.79-80.
[190] Azərbaycan Dövlət Mərkəzi Kitabxanası.- Bakı, 1928, s.24.
[191] «Kommunist» qəzeti, 1934, 5 aprel.
[192] Азербайджанская Центральная Государственная библиотека.- Баку, 1928. c.12.
[193] M.F.Axundov adına Azərbaycan Respublikası Dövlət Kitabxanası (yaradılmasının 40 illiyi münasibəti ilə).- Bakı, 1963. s.8.

[194] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş 1170 v.1.
[195] Bakı şəhər Zəhmətkeş Deputatları Sovetinin arxivi. F.295.s.1. iş 273. v.79-80.
[196] Yenə orada, v.80.
[197] М.Х.Самедова. Азербайджанская республиканская библиотека им. М.Ф.Ахундова.- Баку, 1959. с.23.
[198] «Бакинский рабочий» qəzeti, 1939. 15 iyun.
[199] «Gənc işçi» qəzeti, 1939, 23 oktyabr.
[200] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş 1313 v.5.
[201] Yenə orada.
[202] Всесоюзная библиотечная перепись 1 октября, 1934 г., Т.1.М., 1936, с.292-293.
[203] «Бакинский рабочий» qəzeti, 1935 12 dekabr.
[204] Azərbaycan SSR EA Mərkəzi Arxivi, f.5, s.2 iş 7, v.2
[205] «Бакинский рабочий» qəzeti, 1936, 21 aprel.
[206] Azərbaycan SSR EA Mərkəzi Arxivi, f.5, s.2 iş 7, v.2
[207] Azərbaycan SSR EA Mərkəzi Arxivi, f.5, s.2 iş 7, v.159.
[208] Yenə orada, v.181.
[209] Yenə orada, s.134.
[210] Yenə orada, s. 2.
[211] Очерки история Коммунистической Партии Азербайджана.- Баку, 1963. с.500.
[212] Всесоюзная библиотечная перепись 1 октября, 1934 г., Статистический сборник. 1.т. М., 1936, с. 128.
[213] Azərbaycan SSR MN arxivi f.10 s.4 iş 57, v.41.
[214] Respublika Mərkəzi Elmi-Texniki Kitabxanasının arxivi, kitabxanasının 1931-1934-cü illər hesabatı, iş 1. v.1-3.
[215] Respublika Mərkəzi Elmi-Texniki Kitabxanasının arxivi, kitabxanasının 1931-1934-cü illər hesabatı, iş 1. v.1-5.
[216] В.Е.Васильченко. История библитечного дела в СССР.- М., 1958.- с.120.
[217] Respublika Mərkəzi Elmi-Texniki Kitabxanasının arxivi, kitabxanasının 1931-1934-cü illər hesabatı, iş 1. v.1-5.
[218] Yenə orada.
[219] Azərbaycan SSR MN arxivi f.10 s.4 iş 57, v.41-42.
[220] Yenə orada, iş 55 v.41.
[221] Respublika Mərkəzi Elmi-Texniki Kitabxanasının arxivi, kitabxanasının 1937-ci ilə dair hesabatı, iş 3. v. 2.
[222] Azərbaycan SSR MN arxivi f.10 s.4 iş 55, v.41.

[223] Respublika Mərkəzi Elmi-Texniki Kitabxanasının arxivi, kitabxanasının 1931-1934-cü illər hesabatı, iş 1. v.1
[224] Культурное строительство Азербайджанской ССР Статистический сборник.- Баку, 1961. с.66.
[225] Yenə orada. s. 66-67.
[226] «Вестник высшей школы», 1951, №4 с.58.
[227] Всесоюзная библиотечная перепись 1 октября, 1934 г., Статистический сборник. 1.т.- М., 1936, с. 128.
[228] Х.О. Алимирзоев. Азербайджанский Государственный Университет за 50 лет.- Баку, 1969. с.118.
[229] S.M.Kirov adına ADU kitabxanasının 1934-1940-cı illərə dair hesabatları.
[230] Х.О. Алимирзоев. Азербайджанский Государственный Университет за 50 лет.- Баку, 1969. с.127.
[231] Azərbaycanda Neft və Kimya İnstitutu kitabxanasının 1935-1940-cı illərə dair hesabatı.
[232] 20 лет Азерб. ССР (1920-1940).- Баку, 1946. с.88.
[233] «Бакинский рабочий» qəzeti, 1941, 20 mart.
[234] N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu kitabxanasının 1930-1940-cı illərə dair hesabatı.
[235] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş 1220 v.7-8.
[236] Azərbaycan SSR OİMDA, f. 51.s.1 iş 1265 v.12-13.
[237] Azərbaycan SSR OİMDA, f. 57.s.1 iş 1404 v.266.
[238] Yenə orada, iş 1318. v.5.
[239] H.Tağıyev. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı.- Bakı, 1960, s.60.
[240] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f.1, s.74, iş 451, v 168.
[241] Yenə orada, s.235, iş 1143, v.71.

IV FƏSİL
BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ AZƏRBAYCANDA KİTABXANA İŞİ (1941-1945-ci illər)

§ 4.1. Müharibə şəraiti ilə əlaqədar olaraq kitabxana işinin yenidən qurulması. Azərbaycan kitabxanaları faşizm üzərində qələbənin xidmətində

Almaniya Sovet İttifaqı ilə hücum etməmək haqqında bağladığı müqaviləni 1941-ci il iyun ayının 22-də pozaraq qəfildən SSRİ üzərinə hücuma keçdi. Sovet İttifaqının almanfaşist işğalçılarına qarşı Böyük Vətən müharibəsi başladı.

1941-ci ilin iyun ayında ÜİK(b)P MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin və SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə Dövlət Müdafiə Komitəsi yaradıldı. Ölkədə bütün siyasi və hərbi hakimiyyət bu komitənin əlində toplandı. Partiya «Hər şey cəbhə üçün!» şüarını irəli sürdü.

Müharibənin ilk günlərindən başlayaraq bütün idarə, müəssisə və təşkilatlar öz işlərini hərbi şəraitə uyğunlaşdırdıqları kimi, bütün mətbuat, nəşriyyat və mədəni-maarif müəssisələri də öz işlərini müharibə vəziyyəti ilə əlaqədar qarşıya çıxan mühüm vəzifələrə tabe etdirdilər.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı kitabxana işini bilavasitə müharibə şəraitinin irəli sürdüyü vəzifələrə tabe etmək üçün mühüm tədbirlər həyata keçirirdi. 1941-ci ilin oktyabrından başlayaraq yerlərdə «Müharibə dövründə kitabxanaların vəzifələri» mövzusuna həsr edilmiş metodik müşavirələr keçirilməyə başladı. Metodik müşavirələrdə kitabxanaların qarşısında duran vəzifələr izah edilir, görüləcək işlər haqqında konkret göstərişlər verilir, kitabxana işinin yeni şəraitlə əlaqədar vəzifələri müəyyənləşdirilirdi. Müşavirələrdə kitabxana şəbəkəsinin sabit saxlanması, müvəqqəti çətinlik üzündən kitabxanaların bağlanması hallarının qarşısının alınması məsələlərinə də ciddi diqqət yetirilirdi.

Bu dövrdə kitabxanaların qarşısında: 1) zəhmətkeşlərə vətənpərvərlik hisslərini aşılamaq, xalqımızın qəhrəman keçmişinə: Ordunun hərbi müvəffəqiyyətlərinə, cəbhədə və arxada göstərilən qəhrəmanlıqlara dair ədəbiyyatı təbliğ etmək; 2) əhaliyə hərbi biliklərə yiyələnməkdə kömək etmək və hərbi müdafiə ədəbiyyatını geniş surətdə yaymaq; 3) xalq təsərrüfatının müdafiə sənayesinin inkişaf etdirilməsinə, əhaliyə yeni istehsalat ixtisaslarının öyrənilməsində hərtərəfli kömək etmək vəzifələri qoyulmuşdu[1].

Müharibə şəraiti ilə əlaqədar olaraq meydana çıxan bu mühüm vəzifələri həyata keçirmək üçün kitabxanalar öz işlərini yenidən qururdular. Doğrudur, müharibənin başlandığı ilk dövrdə kitabxanaların normal iş prosesi nisbətən pozulmuşdu. Bu, hər şeydən əvvəl özünü kadr çatışmazlığında göstərirdi. Kitabxanaçı kadrların bir qismi ordu sıralarına getmiş, bir qismi isə şəraitlə əlaqədar olaraq başqa işlərə keçirilmişdi[2]. Kitabxana işinə yenicə cəlb edilmiş kadrlar isə təcrübələrinin azlığından işi lazımi səviyyədə təşkil edə bilmirdilər. Bakı və respublikanın digər şəhərlərinə nisbətən kənd rayonlarında kadr çatışmazlığı özünü daha çox hiss etdirirdi. Bu çətinliyin aradan qaldırılmasında respublikanın partiya və dövlət təşkilatları mühüm tədbirlər görməyə başladılar. Kəndlərdə ən qabaqcıl ziyalılar təbliğat-təşviqat işinə cəlb edilmişdi. Kənd kitabxanaları təbliğat-təşviqat işində partiya təşkilatlarının dayaq məntəqəsinə çevrilmişdilər. Onlar kənddə aparılan bütün siyasi-kütləvi işlərdə yaxından iştirak edir, məlumat bürosunun xəbərlərini vaxtında zəhmətkeşlərə çatdırmaq işinə kömək göstərirdilər.

Azərbaycan KP MK 1941-ci il avqust ayının 6-da vilayət, şəhər və rayon partiya komitələrinə müharibə şəraitində partiya təşkilatlarının ideya-siyasi və kütləvi təşkilat işlərinə dair məktub göndərdi[3]. Bu məktubda müharibə dövründə ideya-siyasi və təbliğat-təşviqat işinin əhəmiyyəti qeyd edilirdi. Məktubun əsas müddəalarının yerinə yetirilməsində

bütün ideoloji müəssisələr, o cümlədən kitabxanalar yaxından iştirak edirdilər. Kitabxanalar geniş kütləvi-siyasi tədbirlər həyata keçirir, zavodlarda, fabriklərdə, neft mədənlərində, kolxoz və sovxozlarda zəhmətkeşlər arasında ideya-tərbiyə işləri aparır, müharibə, vətən, vətənpərvərlik haqqında ədəbiyyatı təbliğ edir, yeni şəraitlə əlaqədar partiya və dövlətin qarşıya qoyduğu mühüm vəzifələri geniş surətdə izah edirdilər. Kitabxanalar məruzələr, mühazirələr, söhbətlər, ucadan oxular keçirir, əsgər məktublarını müzakirə edir, arxa cəbhədə göstərilən qəhrəmanlıqlar haqqında ayrı-ayrı əsgərlərə məktublar yazırdılar. Əsgər ailələrinə xidmət etmək, onların uşaqlarına təhsildə kömək etmək də kitabxanaların iş üsulları sırasına daxil olmuşdu. Kitabxanalarda qəzetlə, dövri nəşrlərlə aparılan iş daha çox inkişaf etmişdi. Bu, bir tərəfdən yeni kitabların az nəşr edilməsi, digər tərəfdən isə dövri mətbuatın daha çevik, operativ şəkildə müharibə şəraitini əks etdirməsi ilə əlaqədar idi. Kitabxanalar şəhərlərdəki fabriklərdə, zavodlarda, neft mədənlərində, kənd yerlərində isə tarlalarda, fermalarda, ayrı-ayrı briqadalarda qəzetlərin ucadan oxunmasını təşkil edir, məlumat bürosunun xəbərlərini, Müdafiə Komitəsinin əmrlərini, Sovet Ordusunun əldə etdiyi müvəffəqiyyətləri, arxa cəbhədə göstərilən fədakarlıqları izah edirdilər. Bu dövrdə kitabxanalarda ən geniş yayılmış iş üsullarından biri oxucular üçün təşkil edilən mühazirələr idi. Mühazirələr bilavasitə qabaqcıl təbliğatçılar, müəllimlər, mühəndislər, aqronomlar və digər mütəxəssislər tərəfindən oxunduğundan olduqca maraqlı keçirdi. Belə mühazirələrə oxucularla yanaşı, evdar qadınlar, yaşlı əhali, böyük yaşlı uşaqlar cəlb edilirdi. Mühazirələrin mövzuları aktual olduğundan dinləyicilərin böyük marağına səbəb olurdu. Bu mövzulardan: «Sovet İttifaqının alman-faşist işğalçılarına qarşı Böyük Vətən müharibəsi», «İşğal edilmiş ölkələrdə Hitler Almaniyasının talanları», «Slavyan xalqlarının alman işğalçılarına qarşı mübarizəsi», «SSRİ vətəndaşlarının vətənpərvərliyi», «Bizim gücümüzün

artması və Almaniyanın gücünün tükənməsi», «Faşizmə qarşı mübarizədə Avropa və Amerika xalqlarının əmək qəhrəmanlıqları», «Babəkin rəhbərliyi altında Azərbaycan xalqının azadlıq mübarizəsi», «Azərbaycan gənclərinin Böyük Vətən müharibəsində iştirakı», «Faşizmə qarşı Böyük Vətən müharibəsində sovet qadınlarının iştirakı» və s. göstərmək olar.

Müharibə illərində kitabxanaların qarşısında duran ən mühüm vəzifələrdən biri vətənpərvərlik ideyalarının təbliği idi. Kitabxanalar vətənpərvərlik ideyalarını təbliğ etmək üçün ilk növbədə öz fondlarını xalqımızın qəhrəman keçmişinə, sovet xalqının cəbhədə və arxada göstərdiyi döyüş və əmək qəhrəmanlıqlarına, igid oğullara həsr edilmiş ədəbiyyatla komplektləşdirməli, bu məsələlərə həsr edilmiş ədəbiyyatın təbliğini ön plana çəkməli idi. Təbliğat xarakterli ədəbiyyatın, siyasi plakatların kitabxanalarda toplanması mühüm əhəmiyyət kəsb edirdi.

Müharibə illərində respublikamızda müəyyən iqtisadi çətinlik üzündən nəşriyyat işi xeyli zəifləmişdi. Bu çətinlik özünü hər şeydən əvvəl kağız çatışmazlığında göstərirdi. Nəşriyyatlarımız tərəfindən buraxılan kitabların tematikası da dəyişmişdi. Nəşriyyatlar əsasən ictimai-siyasi, təbliğat və vətənpərvərlik xarakterli əsərlər nəşr edirdi. Müharibə illərində xalqı faşist işğalçılarına qarşı mübarizəyə və «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» şüarının həyata keçirilməsinə səfərbər edən əsərlər nəşr edilirdi. Bu illərdə kiçik həcmli kitabçaların buraxılmasına daha çox diqqət yetirilirdi. Müharibə illərində nəşriyyatlarımız 1,5 milyon nüsxə tirajla 3178 adda kitab nəşr etmişdilər[4]. Bu dövrdə əsas çətinliklərdən biri də kitabxanaların yeni ədəbiyyatla komplektləşdirilməsi məsələsi idi. 1941-ci ildə Azərkitabın Kitabxana Kollektoru ləğv edilmişdi[5]. Onu ancaq 1943-cü ilin dekabrında bərpa etmək mümkün olmuşdu.

Azərbaycan K(b)P MK müharibə illərində respublikada ideoloji işin təşkilinə, zəhmətkeşlərin ideya-siyasi tərbiyə-

sinə olduqca mühüm əhəmiyyət verirdi. Azərbaycan K(b)P MK 1942-ci il aprel ayının 7-də respublikada təbliğat-təşviqat işi haqqında məsələ müzakirə etdi[6]. Mərkəzi Komitə müharibə illərində zəhmətkeşlər arasında təbliğat-təşviqat işinin böyük əhəmiyyətini qeyd edərək bu işin planlı və ardıcıl surətdə aparılması üçün görkəmli mütəxəssislərin, alimlərin, müəllimlərin, həkimlərin, mühəndislərin, aqronomların qüvvələrinin səfərbər edilməsini lazım bildi. Bu qərar kənd mədəni-maarif müəssisələri qarşısında mühüm vəzifələr qoydu. Kənd kitabxanaları və qiraət komaları özləri geniş təbliğat-təşviqat işləri aparmaqla yanaşı, təbliğatçı və təşviqatçılara məruzə və mühazirələr hazırlamaqda yaxından kömək göstərir, ədəbiyyat tövsiyə edirdilər. Kitabxanalarda təbliğatçı guşəsi ayrılmışdı ki, bu guşələr müntəzəm olaraq yeni ədəbiyyatla və siyasi plakatlarla təmin edilirdi. Müharibə illərində Azərbaycanda siyasi plakatların nəşr edilməsinə xüsusi diqqət yetirilir, mərkəzi nəşriyyatlardan respublikamıza külli miqdarda plakat göndərilirdi. Bu dövrdə Azərbaycan Birləşmiş Qəzet-jurnal Nəşriyyatı tərəfindən Azərbaycan dilində 350 min təbliğat vərəqəsi, 47 min kitabça, 116 min «Mübariz vərəq», rus dilində 8100 kitabça, 24500 vərəqə buraxılmışdı[7].

Müharibənin ilk illərində respublikamızda kənd mədəni-maarif şəbəkələrinin sayı ciddi surətdə azalmağa başladı. Bu, əsasən Azərbaycanın kənd rayonlarında daha çox hiss edilirdi. Bir sıra rayonlarda klublar, qiraət komaları və kitabxanalar kütləvi surətdə bağlanmış və onların binaları başqa məqsədlər üçün istifadəyə verilmişdi[8]. Bunun başlıca səbəbi bir tərəfdən müharibə şəraiti ilə əlaqədar olan çətinlik, iqtisadi bazanın zəifliyi və kadr çatışmazlıqları idisə, digər səbəbi bəzi ucqar rayonların partiya və sovet təşkilatlarının bu işi lazımınca qiymətləndirməməsi idi. Kütləvi surətdə bağlanmağa və fəaliyyətini dayandırmağa məruz qalan ən çox qiraət komaları olmuşdu. Bunun əsas səbəbi başqa respublikalardan fərqli olaraq 1940-cı ildə Azərbaycanda

qiraət komalarının maaşlı işçi ştatlarının ləğv edilməsi idi.

1940-cı ildə Azərbaycan LKGİ MK qiraət komalarını hamiliyə götürməyi qərara aldı. Qiraət komalarının maaşlı işçiləri azad edildi. Kəndlərdə komsomol təşkilatları qiraət komalarını idarə etmək üçün qabaqcıl komsomolçulardan ibarət şura yaratdı. Komsomolun Mərkəzi Komitəsinin çağırışına bütün rayonlar qoşuldu. Beləliklə, müharibə ərəfəsində bilavasitə komsomol təşkilatları tərəfindən idarə edilən qiraət komalarının işində böyük canlanma hiss edilməkdə idi. Gənclərin qiraət komalarına rəhbərlik etməsi onların işini xeyli yaxşılaşdırmış, qiraət komalarını kəndin mədəni mərkəzinə çevirmişdi. Qiraət komalarının kənd əhalisinə kitabxana xidməti sahəsindəki fəaliyyətində də böyük canlanma var idi. Onların yeni ədəbiyyatla təkmilləşdirilməsinin yaxşılaşması, şəhər komsomol təşkilatlarının 1941-ci ildə kənd kitabxanaları üçün xeyli miqdarda kitab toplayıb kəndlərə göndərməsi kampaniyasını keçirməsi nəticəsində kənd kitabxanalarının və qiraət komalarının fondu da xeyli təzələnmişdi. Müharibə başlandıqdan sonra qiraət komaları şuraları üzvlərinin orduya çağırılması, bu və ya digər işə göndərilməsi şuraların fəaliyyətinə mənfi təsir etdi. Bu da qiraət komalarının öz fəaliyyətini dayandırmasına gətirib çıxardı. Respublikamızda kütləvi kitabxanaların sayı 1940-cı ildəki 1383[9]-dən 1943-cü ildə 575[10]-ə, klubların sayı 1633[11]-dən 1134-ə enmişdi[12]. Göründüyü kimi, ən çox bağlanmağa məruz qalan kitabxanalar və qiraət komaları olmuşdu.

Respublikada kitabxanaların bağlanması prosesi uzun sürmədi. Artıq 1943-cü ildə bu proses tamamilə dayandı və kitabxana şəbəkəsinin bərpa olunması, müvəqqəti olaraq fəaliyyətini dayandırmış kitabxanaların yenidən öz işlərini davam etdirməsi dövrü başlandı.

Sov. İKP MK bu dövrdə ölkəmizdə mədəni-maarif işinin yaxşılaşdırılmasına, zəhmətkeşlərin ideya-siyasi tərbiyə işində onların fəaliyyətinin genişlənməsinə xüsusi əhəmiyyət verirdi. ÜİK(b)P MK-nın təbliğat-təşviqat şöbəsi 1942-ci

ilin payızında Tbilisidə «Müharibə dövründə təbliğat-təşviqat məsələsinə dair» müşavirə keçirdi[13]. Müşavirədə Zaqafqaziya respublikaları mərkəzi komitələrinin, vilayət komitələrinin, şəhər komitələrinin təbliğat-təşviqat şöbələrinin rəhbər işçiləri, fəal təbliğatçı və təşviqatçılar, mühazirəçilər və məsləhətçilər iştirak etmişdi. Müşavirə müharibə dövründə xalq kütlələrini səfərbər vəziyyətdə saxlamaqda, faşist işğalçılarına qarşı nifrət hissini qat-qat artırmaqda, xalqın bütün qüvvələrini səfərbərliyə almaqda, cəbhəyə yardımı yeni qüvvə ilə sürətləndirməkdə təbliğat-təşviqat işinin böyük əhəmiyyətə malik olduğunu qeyd etdi. Müşavirə rayon partiya təşkilatlarının diqqətini kənddə təbliğat-təşviqat işində dayaq bazaları olan qiraət komalarının işini tezliklə bərpa etməyin zəruri olmasına cəlb etdi[14].

ÜİK(b)P MK-nın mədəni-maarif müəssisələrinin bərpa edilməsi və onun işinin daha da yaxşılaşdırılması haqqında qərarının yerinə yetirilməsində Azərbaycan K(b)P MK-nın 1944-cü ildə keçirilmiş XII plenumunun qərarının çox mühüm rolu oldu. Plenum kənddə siyasi-maarif işləri haqqında xüsusi məsələ müzakirə edib, böyük siyasi, ideoloji əhəmiyyətə malik qərar qəbul etdi[15]. Plenumun qərarında müharibə illərində Azərbaycan kəndində siyasi-maarif işlərinin vəziyyəti ətraflı təhlil edilir, siyasi-maarif müəssisələrinin zəhmətkeşlər arasında təbliğat-təşviqat və siyasi-tərbiyə sahəsindəki fəaliyyəti yüksək qiymətləndirilirdi. Qərarda göstərilirdi ki, bütün mədəni-maarif ocaqlarını: ... qiraət komalarını, klubları, kitabxanaları, teatr və kinoları, qırmızı guşələri və s. qaydaya salmadan kənddə siyasi-maarif işləri genişləndirilə bilməz. Bunu nəzərə alaraq Azərbaycan K(b)P vilayət, şəhər və rayon komitələrinə bir vəzifə olaraq tapşırırdı ki, kənddə bağlanmış mədəni-maarif ocaqlarını ən qısa müddətdə bərpa etsinlər, yenilərini açsınlar, bunların rolunu və əhəmiyyətini müharibə dövrünün tələbləri səviyyəsinə qaldırsınlar[16]. Bu qərar hələ 1943-cü ilin əvvəllərindən bərpa edilməyə başlamış kitabxana şəbəkəsinin daha da möhkəmlənməsi üçün olduqca əlverişli şərait yaratdı.

1944-cü ilin avqustunda SSRİ Xalq Komissarları Soveti «Kütləvi və məktəb, ali və orta ixtisas müəssisələri kitabxanaları, dövlət, ümumi və elmi kitabxana işçilərinin əmək haqqının yüksəldilməsi haqqında» qərar qəbul etdi[17]. Bu qərar respublikamızda əhaliyə kitabxana xidmətinin daha da yaxşılaşdırılması üçün olduqca əlverişli şərait yaratdı. Kitabxanaçı kadrların tərkibində böyük dəyişiklik əmələ gəldi. Kitabxanalar daha savadlı və bacarıqlı kadrlarla təmin edildi ki, bu da onların fəaliyyətinin ideya məzmununun yaxşılaşmasına səbəb oldu. Azərbaycan SSR Xalq Maarif Komissarlığı bu qərarla əlaqədar olaraq kitabxana işini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər həyata keçirdi. 1944-cü ilin sentyabrında kitabxana işçilərinin Ümumbakı müşavirəsi keçirildi. Müşavirədə «SSRİ XKS-in «Kütləvi və məktəb, ali və orta təhsil müəssisələri kitabxanaları, dövlət, ümumi və elmi kitabxana işçilərinin əmək haqqının yüksəldilməsi haqqında» qərarı və bizim vəzifələrimiz» mövzusunda məruzə dinlənilib müzakirə edildi[18]. Çıxış edən kitabxana işçiləri dövlətin bu qərarını kitabxana işinə böyük qayğının təzahürü kimi qiymətləndirir və buna cavab olaraq əhaliyə kitabxana xidmətini daha da yaxşılaşdırmağa söz verirdilər.

Bakı ilə yanaşı oktyabr ayının 10-25 arasında respublikanın 12 rayon mərkəzində (Şəmkir, Ağdam, Lənkəran, Göyçay, Gəncə, Salyan, Nuxa (Şəki), Xaçmaz, Füzuli, Xankəndi, Naxçıvan) mədəni-maarif işçilərinin əmək haqqının artırılması barədə qərarı və kənd mədəni-maarif müəssisələrinin vəzifələrinə həsr edilmiş müşavirəsi keçirildi. Bu müşavirələrdə, demək olar ki, bütün rayonlardan nümayəndələr iştirak edirdi. Müşavirələrdə hökumətin bu mühüm qərarının əhəmiyyəti izah olundu, kənd mədəni-maarif müəssisələrinin qarşısında duran vəzifələr ətraflı təhlil edildi, mövcüd nöqsanlar aşkara çıxarılıb, onların aradan qaldırılması yolları göstərildi[19].

§ 4.2. Böyük Vətən müharibəsi illərində zəhmətkeşlərin ideya-siyasi tərbiyəsində kütləvi kitabxanaların fəaliyyəti

a) Bakı şəhər kütləvi kitabxanaları cəbhəyə və ölkəyə ümumxalq yardımının ön sırasında

Müharibə dövründə Bakı zəhmətkeşlərinin vətənpərvərlik hərəkatının genişlənməsində şəhərin mədəni-maarif müəssisələri də yaxından iştirak edirdi. Hələ müharibənin ilk günlərindən öz işlərini bilavasitə Kommunist Partiyasının «Hər şey cəbhə üçün» şüarı əsasında quran Bakı kitabxanaları geniş təbliğat məntəqələrinə çevrilmişdilər. Bakı kitabxanalarının işçiləri zəhmətkeşlərin böyük vətənpərvərlik hərəkatının ön sıralarında gedir, zəhmətkeşlərin mitinqlərində iştitak edir, Sovet Məlumat Bürosunun xəbərlərini zəhmətkeşlər arasında yayırdılar.

Müharibənin ilk günlərində şəhərimizin başqa müəssisələrində olduğu kimi, Bakı kitabxanalarında da mitinqlər keçirilirdi. Mitinqlərdə kitabxananın işçiləri ilə yanaşı, oxucular da iştirak edirdi. Məsələn, V.İ.Lenin adına, M.Ə.Sabir adına, M.Qorki adına, K.Marks adına, M.Əzizbəyov adına və s. kitabxanalarda belə mitinqlər keçirilmişdi. Bakı şəhər kitabxanaları dövrün tələbləri ilə əlaqələr olaraq kitab təbliğində əsas yeri müharibə mövzusuna verir, vətənpərvərlik əhval-ruhiyyəli kitabların təbliğini ön plana çəkirdilər. Kitabxanalarda bütün təbliğat-təşviqat işi, kitab təbliği və kütləvi işlər bilavasitə müharibəyə həsr edilmişdi.

Müharibə illərində Bakı kitabxanalarının fəaliyyətində təbliğat-təşviqat işi, xüsusilə yeni yaranmış təbliğat məntəqələrində siyasi-kütləvi işlər mühüm yer tuturdu. V.İ.Lenin adına, M.Ə.Sabir adına, M.Qorki adına, Əzizbəyov adına, Nekrasov adına kitabxanalar Bakı şəhər rayon hərbi komissarlıqlarında olan çağırış məntəqələrində səyyar kitabxanalar təşkil etmişdilər. Kitabxanalar səyyar məntəqələrə vətənpərvərlik ruhunda, xalqımızın keçmiş qəhrəmanlıqları haqqında kiçik həcmli şeir və hekayələrdən ibarət kitabçaları daha çox gətirirdilər. Bu məntəqələrdə dövri mətbuat, qəzetlər və jurnallar, Sovet Məlumat Bürosunun xəbərləri toplanır və çağırışçıların istifadəsinə verilirdi[20].

Müharibənin ilk illərində hərbi komissarlıqlar kitabxanalarda məlumat stolları təşkil etmişdilər. Bu vasitə ilə hərbi xidmətçilərin ailələrinə məsləhətlər verilirdi. 1941-ci ildə Voroşilov rayon Hərbi Komissarlığının Belinski adına kitabxanada təşkil etdiyi məlumat stolundan yüzlərlə hərbi xidmətçi ailəsi məsləhət almışdı. 1941-1943-cü illərdə müharibə gedən rayonların əhalisi ölkənin Şərq respublikalarına köçürülən zaman bir milyondan artıq əhali Azərbaycan ərazisindən keçib getmiş və on minlərlə əhali Azərbaycanda yerləşdirilmişdi[21]. Respublikamızın kitabxana işçiləri köçürülən əhali içərisində geniş təbliğat-təşviqat və kütləvi işlər aparırdılar. Bakı kitabxanaları dəmiryol stansiyasında və dəniz vağzalında səyyar məntəqələr təşkil etmiş, köçürülən əhaliyə xidmət etmək üçün ayrıca kitabxanaçı ayırmışdılar[22].

Müharibə illərində Bakı və onun rayonlarının kütləvi kitabxanaları geniş zəhmətkeş kütlələri ilə yanaşı, bilavasitə döyüşən orduya da xidmət edirdilər. Bakı şəhər kitabxanalarından V.İ.Lenin adına, M.Ə.Sabir adına, M.Qorki adına və s. kitabxanalar orduya çağırılmış keçmiş oxucuları ilə əlaqə saxlayır, onlara kitab göndərirdilər. Bakı kitabxana işçiləri cəbhəyə ümumxalq köməyində yaxından iştirak edir, isti paltar, əlcək, ərzaq məhsulları və s. ilə yanaşı, kitab bağlamaları da göndərirdilər. Təkcə 1942-ci ildə Bakı kitabxanaları cəbhəyə 43 hədiyyə bağlaması göndərmişdi. Göndərilən hədiyyələr içərisində S.Vurğunun, S.Rüstəmin, M.Rahimin, Ə.Cəmilin və başqalarının müharibəyə həsr edilmiş əsərləri də var idi[23]. Cəbhədə döyüşən azərbaycanlı əsgərlər üçün öz ana dillərində göndərilən yüksək vətənpərvərlik və qəhrəmanlıq ruhunda kitablar onların döyüş qabiliyyətini birə beş artırır, əhval-ruhiyyəsini yüksəldirdi.

Azərbaycan Kommunist Partiyası döyüşçülərin ideya-siyasi tərbiyəsinə xüsusi diqqət yetirir, onları ana dilində ki-

tab, qəzet və jurnallarla təmin etmək üçün ciddi tədbirlər görürdü. 1941-1942-ci illərdə Azərbaycan diviziyalarına hər birində 5000 nüsxə kitab olan beş kitabxana verildi. Bundan əlavə, hərbi hissələrə Azərbaycan, rus və başqa dillərdə 50 min nüsxə siyasi və 3 milyon nüsxə bədii kitab, 150 min təbliğat plakatı və 3 milyondan çox müxtəlif şüar göndərildi. Döyüşən ordu hissələrinə 32 min nüsxə «Kommunist» və «Бакинский рабочий» qəzetləri verildi. «Azərbaycan xalqının döyüşçülərə məktubu» 262 min nüsxə tirajla çap edilib ordu hissələrinə göndərildi[24]. Ümumiyyətlə, 1943-cü ilə qədər cəbhəyə Azərbaycan dilində 34 min nüsxədən artıq kitab göndərilmişdi[25].

Müharibə illərində Bakı şəhər kütləvi kitabxanaları hərbi xəstəxanalara və qospitallara xidmət etmək sahəsində xüsusi rol oynayırdılar. Böyük Vətən müharibəsinin ilk aylarında Azərbaycanda hərbi xəstəxanalar və qospitallar yaradılmış, ümumxalq qayğısı ilə əhatə edilmişdi. Azərbaycan K(b)P MK qospitallarda və hərbi kitabxanalarda ideya-siyasi işin təşkilinə xüsusi diqqət yetirirdi. Rayon partiya komitələri qospitallarda mədəni-məişət və siyasi-tərbiyə işlərinin təşkilinə xüsusi qayğı göstərirdilər.

Qospitallarda təbliğat-təşviqat və mədəni-kütləvi işlərin təşkilində Bakı kitabxanaları yaxından iştirak edirdilər. 1941-ci il iyul ayının 25-də Azərbaycan K(b)P Bakı Komitəsinin göstərişi ilə Bakı şəhərində M.Qorki adına səyyar kitabxana fondu yanında hərbi xəstəxanalara və qospitallara xidmət etmək məqsədilə xüsusi fond yaradıldı[26]. Bu fondun əsas məqsədi hərbi qospitallarda səyyarlar təşkil etmək və qospitallarda mövcud olan səyyarları kitabla təmin etmək idi. Bu fonda kitab toplamaq işində şəhərin bütün kitabxanaları yaxından iştirak edirdilər. Kitabxanalar öz fondlarından ən yaxşı elmi, kütləvi və bədii ədəbiyyatın əlavə nüsxələrini seçib səyyar fonda verirdilər. Səyyar kitabxana fonduna kitab toplanılmasına zəhmətkeşlər də kömək edirdilər. 1941-ci ilin oktyabrında Qubkin adına kitabxananın işçiləri «Бакинский рабочий» qəzeti vasitəsilə səyyar kitabxana fonduna kitab toplamaq məqsədi ilə zəhmətkeşlərə müraciət etdi[27]. Qısa müddət ərzində oxuculardan 25 min nüsxədən artıq kitab toplandı[28].

Bakı şəhərinin ayrı-ayrı kitabxanaları bilavasitə qospitallara təhkim edilmişdi. Onlar əsgərlərin xahişi ilə kitab seçib aparır, ayrı-ayrı palatalarda ucadan oxular keçirir, şikəst olmuş, gözlərini itirmiş əsgərlər üçün qəzetlərdən və kitab səhifələrindən maraqlı epizodlar oxuyurdular. 1943-cü il müddətində Bakı kitabxanaları hərbi qospitalların palatalarında rus, Azərbaycan və xarici ədəbiyyatlardan 3000 saata qədər bədii oxu keçirmişdilər[29].

Bakı kitabxanalarından V.İ.Lenin adına, M.Ə.Sabir adına, M.Qorki adına, M.Əzizbəyov adına kitabxanalar və başqaları qospitallara kitabxana xidməti təşkilində xüsusilə fərqlənirdilər.

Müharibə illərində ən mühüm vəzifələrdən biri şəhər kitabxanalarını yeni ədəbiyyatla təkmilləşdirmək, mövcud kitab fondunu qoruyub saxlamaq, kitab zənginliklərindən zəhmətkeşlərin səmərəli istifadəsini təmin etmək idi. Müharibə illərində kitabxana fondlarını qoruyub saxlamaq haqqında görülən ciddi tədbirlərə baxmayaraq obyektiv səbəblər üzündən kitabxana fondları ciddi surətdə azalmışdı. Kitabxanaların bəzilərində kitabsaxlayıcıların yaxşı vəziyyətdə olmaması və kitabların oxucular tərəfindən cırılıb xarab edilməsi üzündən xeyli kitab korlanmışdı. Məsələn, 1943-cü ildə Bakı Şəhər Maarif Şöbəsi uşaq kitabxanalarından 9908 kitab, Bakı Siyasi-Maarif İdarəsinin on böyük kitabxanasından 13995 kitab, Qubkin adına kitabxanadan 1235 kitab, M.Qorki adına kitabxanadan 5453 kitab çıxarmışdı.

Bakı kitabxanaları tərəfindən hərbi qospitallara və hərbi hissələrə əvəzsiz olaraq 22455 kitab verilmişdi. Həmçinin 40126 kitab faşist işğalçılarından azad edilmiş rayonlara göndərilmişdi[30].

Məlumdur ki, müharibə illərində respublikamızda ki-

tab nəşri xeyli azalmışdı. Ona görə də kitabxanaları yeni kitabla təkmilləşdirmək məsələsi çox ciddi xarakter almışdı. Vəzifə nəşr edilən hər bir kitabı istisnasız olaraq kitabxanaya almaqdan, onu qoruyub saxlamaqdan və oxucuların istifadəsinə verməkdən ibarət idi. Bakı partiya təşkilatının göstərişi ilə nəşr edilən kitabların birinci növbədə kitabxanalara verilməsi bu vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəlməyə imkan verdi. 1941-1945-ci illərdə Bakı şəhərinin 29 kitabxanasına 78246 nüsxə kitab daxil olmuşdu. Böyük Vətən müharibəsinin axırında kitabxanaların fondunda 480521 nüsxə kitab var idi[31]. Kitabxanaların yeni ədəbiyyatla müntəzəm təmin edilməsi onlara təbliğat-təşviqat və zəhmətkeşlərin ideya-siyasi tərbiyəsində yaxından iştirak etmək imkanı vermişdi.

Müharibə illərində kütləvi kitabxanaların fəaliyyətində qəzetlərlə iş olduqca mühüm yer tutmuşdu. Məlum olduğu kimi, bu dövrdə kağız çatışmazlığı üzündən qəzetlərin tirajı xeyli azalmışdı. Bununla əlaqədar olaraq ayrı-ayrı vətəndaşların qəzetə abunə yazılışı da minimuma endirilmişdi. Bu dövrdə əsasən qəzetlərin mədəni-maarif müəssisələrində təbliğ edilməsinə xüsusi diqqət yetirilirdi. Kitabxanaların qiraət salonlarında stolların üstünə bir neçə nüsxə qəzet qoyulurdu. Bura oxucuların ən çox toplaşdığı yer idi. Qəzetlər əldən-ələ gəzirdi. Kitabxanalarda qəzet oxumaq üçün növbə olurdu. Gündəlik qəzetlərlə yanaşı qəzet komplektlərinə də böyük tələbat əmələ gəlmişdi. M.Ə.Sabir adına şəhər kitabxanasında oxucular 1942-ci ildə 42810, 1943-cü ildə 38698, 1944-cü ildə 106146, 1945-ci ildə isə 72633 nüsxə qəzet alıb oxumuşdular[32]. V.İ.Lenin adına kitabxanada təkcə 1942-ci ilin birinci yarısında oxuculara 7389 qəzet, 10 min nüsxə qəzet komplekti verilmiş və 34792 oxucuya xidmət edilmişdi[33].

Müharibə illərində Bakı kitabxanalarının geniş zəhmətkeş kütlələrinə kitabxana xidməti sahəsindəki fəaliyyətində səyyar kitabxanaların təşkili mühüm yer tuturdu. Bu həmin dövrün xarakterindən irəli gəlirdi. Fabrik, zavod və

neft mədənlərində müharibə şəraiti ilə əlaqədar olaraq iş müddətinin artırılması, çoxnövbəli iş sisteminin tətbiqi fəhlələrin boş vaxt imkanlarını xeyli azaltmışdı. Ona görə də bəzən kitabxanalara getməyə vaxt qalmırdı. Məhz bunu nəzərə alan Bakı kitabxanaları fəhlə sinfinə elə iş yerindəcə xidmət etməyi, iş növbələrinin başlanması, qurtarması və nahar fasiləsi zamanı səyyarlar vasitəsi ilə kitablarla təmin etməyi qərara almışdı. Kitabxanalar fabriklərdə, zavodlarda, neft mədənlərində, xəstəxanalarda, evlər idarələrində səyyar məntəqələr təşkil etmişdilər. Bu sahədə M.Qorki adına Bakı şəhər səyyar fondu xüsusilə fərqlənmişdi. Bu fond müharibə başlamazdan əvvəl özünün ayrı-ayrı müəssisələrdə olan səyyar məntəqələrinin fəaliyyətini davam etdirməklə yanaşı, hərbi xəstəxanalarda, qospitallarda səyyarlar yaratmaq üçün ayrıca fond təşkil etmişdi. Müharibə illərində səyyar fond bir çox böyük fabrik, zavod və mədənlərdə yeni səyyarlar yaratmışdı. Səyyar kitabxanalarda xidmət işinin forma və məzmununda da yeniliklər baş vermişdi. Səyyarlar ayrı-ayrı briqadalarda və sexlərdə tez-tez ucadan oxular keçirirdilər. Xüsusilə nahar fasiləsində Sovet İttifaqı Məlumat Bürosunun xəbərlərinin oxunması və arxa cəbhədə sovet xalqının qəhrəmanlıqları haqqında materialların müzakirəsi adət halını almışdı. Oxucuların tələb və marağı da xeyli dəyişmişdi. Onlar vətənpərvərliyə, xalqlar dostluğuna, klassiklərin müharibəyə dair əsərlərinə daha çox maraq göstərirdilər.

İstehsal-texniki ədəbiyyata tələbat da xeyli artmışdı. Bu da adamların yeni ixtisaslara yiyələnmək arzusundan irəli gəlirdi. Səyyar məntəqələrin işçiləri məhz oxucu tələbatında baş verən dəyişikliklərə uyğun olaraq əsas fonda kitablar sifariş verirdilər. Səyyar fond hələ 1941-ci ilin iyununda Voroşilov rayon çağırış məntəqəsində, 1942-ci ilin avqustunda isə Rostovdan köçürülən əhaliyə xidmət etmək üçün dəmiryolu və dəniz vağzalında, bir neçə körpüdə səyyar məntəqələr yaratmışdı[34]. Bu məntəqələr başqa məntəqələr-

dən fərqlənirdi. Onlarda stasionar kitabxanalarda olduğu kimi qiraətxanalar təşkil edilmişdi. Qiraətxanalarda müvəqqəti olaraq vağzallarda qalan yüzlərlə adam mütaliə ilə məşğul olurdu. Hələ müəyyən bir mənzilə yerləşdirilənə və ya başqa yerə göndərilənə qədər müvəqqəti olaraq vağzallarda qalan əhali arasında kitabı təbliğ etməyin, onların diqqətini müharibənin qarşıya qoyduğu çətinliklərə cəlb etməyin böyük siyasi əhəmiyyəti var idi.

M.Qorki adına kitabxananın səyyar məntəqələrinin sayı 1940-1944-cü illərdə iki dəfədən çox artaraq 84-dən 173-ə çatdırılmışdı[35]. Bununla yanaşı, M.Ə.Sabir adına, V.İ.Lenin adına, Lunaçarski adına, M.Əzizbəyov adına və s. kitabxanalar da geniş səyyar məntəqələr təşkil etmişdilər.

Müharibə illərində Bakı kitabxanalarının fəaliyyətində rayon və kənd kitabxanalarına metodik kömək mühüm yerlərdən birini tutmuşdu. V.İ.lenin adına, M.Ə.Sabir adına, M.Əzizbəyov adına mərkəzi şəhər kitabxanaları bu cəhətdən xüsusilə fərqlənirdi.

M.Ə.Sabir adına Mərkəzi şəhər Kitabxanası Qazax, Şəmkir, Tovuz, Əli Bayramlı və Sabirabad rayon kitabxanalarını hamiliyə götürmüş[36], V.İ.Lenin adına Mərkəzi şəhər Kitabxanası Gəncə şəhər kitabxanasına, Quba və İsmayıllı rayon kitabxanalarına[37], M.Əzizbəyov adına Oktyabr rayon kitabxanası Bakının ətraf rayonlarının kitabxanalarına metodik yardım göstərirdilər.

SSRİ XKS və ÜİK(b)P MK 1943-cü il avqustun 21-də «Alman-faşist işğalçılarından azad edilmiş rayonların təsərrüfatının bərpa edilməsinin təxirəsalınmaz vəzifələri haqqında» qərar qəbul etdi. Bu qərarın çox böyük təsərrüfat-mədəni və siyasi əhəmiyyəti var idi. Qərarda faşist işğalından azad olunmuş rayonların təsərrüfatının, mədəni həyatının bərpa edilməsinin konkret yolları göstərilir və vəzifələri müəyyənləşdirilirdi.

Bu mühüm qərarın qarşıya qoyduğu vəzifələri yerinə yetirmək və faşist işğalından azad olunmuş rayonlara kömək etmək işini mütəşəkkil təşkil etmək məqsədi ilə Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS 1943-cü ilin noyabrında azad olunmuş rayonlara respublika yardım komitəsi, yerlərdə isə komissiyalar yaratdılar[38].

Faşist işğalçıları tərəfindən dağıdılıb ləğv edilmiş kitabxanaları bərpa etmək üçün 1943-cü ilin fevralında RSFSR Xalq Maarif Komissarlığının yanında dövlət ədəbiyyat fondu yaradıldı. Alman faşistləri tərəfindən kütləvi kitabxanaların 100 milyon nüsxə kitabı, hərəsi 2-2,5 minə qədər kitab fondu olan 82 min ibtidai və orta məktəb, 334 ali məktəb kitabxanası tamamilə darmadağın edilmişdi[39]. Buna görə də dövlət ədəbiyyat fondunun əsas vəzifəsi Sovet İttifaqının müharibə getməyən ərazisindən kitablar toplayıb məhv edilmiş kitabxanaları bərpa etməkdən ibarət idi.

Lazımi ədəbiyyat toplayıb RSFSR Dövlət Ədəbiyyat Fonduna göndərmək üçün Azərbaycan K(b)P MK-nın 20 fevral 1943-cü il tarixli qərarı ilə Xalq Maarif Komissarlığının yanında Respublika Ədəbiyyat Fondu yaradıldı[40]. Bu fondun əsas vəzifəsi vətəndaşlardan, ayrı-ayrı idarələrdən, təşkilatlardan və kitabxanalardan ədəbiyyat toplayıb Dövlət Ədəbiyyat Fonduna göndərmək idi. Fondun fəaliyyətinə bilavasitə Azərbaycan K(b)P MK-nın təbliğat-təşviqat şöbəsi rəhbərlik edirdi.

Dövlət Ədəbiyyat Fondunun Bakı filialına Krasnodar, Stavropol və Volqoqrad diyarlarının kitabxanalarını bərpa etmək, onların fondlarını komplektləşdirmək vəzifəsi tapşırılmışdı. İlk dövrdə Stavropol və Krasnodar diyarlarına, həmçinin Stalinqrad vilayətinə 150 min nüsxədən artıq kitab göndərilmişdi[41]. Filial həmin vlayətlərin 20-dən çox ən böyük rayonlarının – Primorye, Axtar, Vıselkov, Koronevsk, Kurqan, Storonominsk, Ust-Labinetsk, Zelonçuk, Libknext, Georgiyevsk və başqa mərkəzi şəhərlərinin kitabxanalarını komplektləşdirirdi. Hər bir kitabxanaya yerləşdiyi rayonun şəraiti, əhalisi nəzərə alınaraq 1000 nüsxədən 500 nüsxəyə qədər kitab göndərilirdi[42]. Kitab göndərmək işində

respublikamızın kitabxanaları ilə yanaşı bütün siyasi maarif ocaqları, ziyalıları və zəhmətkeşləri yaxından iştirak edirdilər. Bu dövrdə respublikamızın müəllimləri şəxsi kitabxanalarından 10 minlərlə bədii kitab toplayıb göndərmişdilər[43]. Dövlət Ədəbiyyat Fonduna kitab toplayıb göndərmək işində M.F.Axundov adına Respublika Dövlət Kitabxanası, V.İ.Lenin adına, M.Ə.Sabir adına, M.Qorki adına, M.Əzizbəyov adına, Qubkin adına və s. Bakı şəhər kitabxanaları və rayon mərkəzi kitabxanaları yaxından iştirak edirdilər. Kitabxanalar təkcə öz fondlarından kitab göndərməklə kifayətlənmir, həmçinin geniş xalq kütlələrindən kitab toplanması işini təşkil edirdilər. Bu işdə kitabxananın fəal oxucuları kitabxanalara yaxından kömək edirdilər. Ümumiyyətlə, respublikamızın kitabxanaları faşist işğalından azad olunmuş rayonların kitabxanalarını komplektləşdirmək üçün 200 min nüsxədən artıq kitab göndərmişdilər. Kitabxanalarımız kitablarla yanaşı kitabxana texnikası və avadanlığı da göndərirdilər.

Faşist işğalından azad olunmuş rayonları müəllim və kitabxanaçı kadrlarla təmin etmək işində də respublikamız çox mühüm rol oynamışdı. 1943-cü ildə respublikamızdan 50 nəfərdən çox təcrübəli müəllim, 100 nəfərdən çox kitabxana və klub işçisi könüllü surətdə Stavropol diyarına işləməyə getmişdilər[44]. Bu nəcib təşəbbüs sonrakı illərdə də davam etdirilmişdi.

Böyük Vətən müharibəsi dövründə Bakı kitabxanalarının fəaliyyətinin təhlili göstərir ki, kitabxanalar bu dövrdə zəhmətkeşlər arasında ideya-siyasi, təbliğat və təşviqat işinin aparılmasında partiya təşkilatlarının ən yaxın köməkçisi olmuş, onların dayaq bazalarına çevrilmişdilər. Kitabxanaların həyata keçirdiyi tədbirlərin ideya-siyasi məzmununu Kommunist Partiyasının ideoloji məsələlərə dair qərarları və göstərişləri təşkil edirdi.

Bakı partiya təşkilatının daimi köməyi sayəsində kitabxanaların işi heç zaman dayanmamış, oxuculara xidmət

işi bütün ictimaiyyətin diqqət mərkəzində olmuşdu. Məhz buna görədir ki, Bakı kitabxanaları müharibə illərində oxuculara 7162124 nüsxədən artıq kitab verməyə müvəffəq olmuşdu[45]. Təkcə V.İ.Lenin adına kitabxanaya müharibə illərində 860 min oxucu gəlmiş və onlara 1570749 nüsxə kitab verilmişdi[46]. Beynəlmiləlçilik və xalqlar dostluğu ideyalarına sadiq dalan kitabxanalar faşistlərdən azad olunmuş rayonlar üçün kitab toplayıb göndərmək işində də böyük fəaliyyət göstərirdilər. Bakı kütləvi kitabxanaları ilk dövrdə azad olunmuş rayonlara 25521 nüsxə kitab göndərmişdilər.

Partiya və dövlət Bakı kitabxanalarının bu gərgin əməyini yüksək qiymətləndirdi. Kitabxanaçılardan 8 nəfəri «Qafqazın müdafiəsi uğrunda» medalına layiq görüldü. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1942-ci ilin avqustunda bir qrup kitabxanaçını xalq maarifi sahəsindəki xidmətlərinə və fədakarlıqla işlədiklərinə görə «Azərbaycan SSR-in əməkdar müəllimi» fəxri adına layiq görmüşdü. Bunların arasında görkəmli kitabxana işçilərindən H.Tağıyev, R.Rəhimbəyova, B.Şulman, S.Rəhimzadə və başqaları var idi[47].

Böyük Vətən müharibəsi qələbə ilə qurtardıqdan sonra SSRİ Ali Soveti Rəyasət Heyəti Bakı kitabxanaçılarının böyük bir qrupunu «Böyük Vətən müharibəsində fədakar əməyə görə (1941-1945)» medalı ilə təltif etmişdi.

b) Həmkarlar İttifaqı kitabxanaları müharibə illərində

Böyük Vətən müharibəsi illərində Azərbaycan həmkarlar ittifaqları öz işini kütlələrin yaradıcılıq enerjisinin və əmək fəallığının yüksəldilməsi, cəbhəyə hərtərəfli kömək, arxa cəbhənin möhkəmləndirilməsi və Sovet Ordusu döyüşçülərinə, onların ailələrinə qayğı göstərmək vəzifəsinin yerinə yetirilməsinə həsr etmişdi. Bu mühüm vəzifənin həyata keçirilməsində həmkarlar ittifaqı kitabxanaları yaxından iştirak edirdilər.

ÜİHİMŞ müharibə illərində kitabxana işinin ideya-siyasi məzmununun yaxşılaşdırılmasına, fəhlələrə və onların

ailələrinə mədəni xidmət işinin diqqət mərkəzində saxlanmasına xüsusi əhəmiyyət verirdi. Zəhmətkeşlərə mədəni xidmətin təşkili yerli həmkarlar təşkilatlarının əsas vəzifələrinə daxil edilmiş və bu mühüm vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bir sıra əhəmiyyətli tədbirlər müəyyənləşdirilmişdi.

ÜİHİMŞ 1943-cü ilin aprelində «Həmkarlar ittifaqlarının mədəni-kütləvi işi haqqında» qərar qəbul etdi. Bu qərarda zəhmətkeşlərin siyasi tərbiyəsində mühüm rol oynayan mədəni-maarif işinə xüsusi diqqət yetirilirdi. Qərarda mövcud çətinlik üzündən müharibənin ilk illərində müvəqqəti olaraq başqa məqsədlər üçün istifadə edilmiş mədəniyyət sarayları, klublar və kitabxana binalarının geri qaytarılması lazım bilinirdi[48]. Bütün həmkarlar təşkilatlarından kitabxana işini tezliklə qaydaya salmaq və əhaliyə xidmət işini kökündən yaxşılaşdırmaq tələb edilirdi.

Bu qərarla əlaqədar olaraq Azərbaycan Həmkarlar İttifaqları kitabxana işini yaxşılaşdırmaq, xüsusilə onların bina şəraitini qaydaya salmaq üçün ciddi tədbirlər görmüşdü. Orconikidze və Lenin adına mədəniyyət saraylarının şəraiti xeyli yaxşılaşdırılmış, bir sıra kitabxanaların binaları təmir edilmiş, avadanlıqla təchiz edilmişdi. Qərarın qəbulundan bir qədər sonra qabaqcıl kitabxanaların arasında sosializm yarışı başladı. Bu yarışın ilk təşəbbüsçüsü Birinci Dövlət Podşipnik Zavodunun və Kuxmisterova adına Dəmiryolçular Klubunun kitabxanaları oldu. Bu təşəbbüs tezliklə ölkənin bütün kitabxanalarına yayıldı. Respublikamızda bu təşəbbüsə ilk dəfə qoşulan və bütün həmkarlar ittifaqı kitabxanalarını yarışa çağıran Şvarts adına kitabxana və Lenin adına mədəniyyət sarayının kitabxanası oldu.

Yarışda iştirak edən kitabxanalar beş qrupa bölünmüşdü: 1-ci qrup – fondunda 25 min nüsxədən artıq kitabı olan kitabxanalar; 2-ci qrup– fondunda 10 min nüsxədən 25 min nüsxəyə qədər kitabı olan kitabxanalar; 3-cü qrup – fondunda 10 min nüsxəyə qədər kitabı olan kitabxanalar; 4-

cü qrup – fondunda 3 min nüsxəyə qədər kitab olan kitabxanalar; 5-ci qrup – səyyar kitabxanalar.

Yarışın nəticələri rübdə bir dəfə yekunlaşdırılırdı. Yarışın iştirakçıları üçün ÜİHİMŞ beş keçici Qırmızı bayraq, fəxri fərman və pul mükafatı müəyyənləşdirmişdi. Kitabxanalar arasında yarışın təşkili böyük siyasi əhəmiyyətə malik bir hadisə olmaqla yanaşı, kitabxana işini xeyli yaxşılaşdırmaq, oxuculara xidmət işinin forma və məzmununu günün tələbləri səviyyəsinə yüksəltmək imkanı verirdi.

Respublikamızın Həmkarlar İttifaqı kitabxanaları bu yarışa ilk qoşulanlardan oldu. Respublika Həmkarlar İttifaqı yarışın şərtlərini müəyyənləşdirdi və bunu metodik müşavirələrdə bütün həmkarlar ittifaqı kitabxanaçılarının nəzərinə çatdırıldı. Yarış respublika kitabxanaçılarının böyük ruh yüksəkliyinə səbəb oldu. Yarışın müvəffəqiyyətlə keçirilməsində Qafqaz Neft Sənayeçiləri Həmkarlar İttifaqı kitabxanaları xüsusilə fərqlənirdi. İttifaqın 39 kitabxanası yarışda iştirak edirdi[49]. 1943-cü ilin ikinci rübündə birinci qrup kitabxanalar üzrə Qubkin adına kitabxana yarışın qalibi hesab edildi. Kitabxanaya ÜİHİMŞ fəxri fərmanı və ikinci pul mükafatı verildi[50]. Ölkəmizin ən yaxşı neft kitabxanalarından biri olan bu kitabxana 1943-cü ilin IV rübündə yarışın yekunlarına görə, yenidən qaliblər sırasına çıxdı və onun yaxşı işi bir daha qeyd edildi.

1943-cü ilin dördüncü rübündə V.İ.Lenin adına mədəniyyət sarayının kitabxanası yarışın qalibləri sırasında özünə yüksək yer tuta bildi. Kitabxanaya ÜİHİMŞ-in fəxri fərmanı və ikinci pul mükafatı verildi[51]. Kitabxana bu yüksək ada gənc neftçilərin şəxsi təhsilində və tərbiyəsində əldə etdiyi müvəffəqiyyətlərə görə layiq görülmüşdü.

1944-cü ilin ikinci rübündə respublikamızın qabaqcıl həmkarlar ittifaqı kitabxanalarından biri olan Qaraşəhər mədəniyyət sarayının səyyar kitabxana fondu neft mədənləri və zavodlarda səyyar məntəqələr vasitəsilə kitabı təbliğ etmək, neftçi fəhlələrə və mühəndis-texnik işçilərə nümunəvi

xidmət göstərmək sahəsində əldə etdiyi müvəffəqiyyətlərə görə yarışın qalibləri sırasına yüksəldi. Ona ÜİHİMŞ-in fəxri fərmanı və ikinci pul mükafatı verildi[52].

Bu səyyar kitabxana fondunun ayrı-ayrı müəssisələrdə 50 səyyar məntəqəsi var idi.1944-cü ildə səyyar fond 2000-dən artıq oxucuya xidmət edirdi. Səyyar məntəqələrdə iş bilavasitə fəal oxucular tərəfindən həyata keçirilirdi. Onlar kitab təbliğində yaxından iştirak etməklə, oxucular arasında geniş kütləvi tədbirlər də həyata keçirirdilər. Fəhlə yataqxanalarında söhbətlər, mühazirələr, görüşlər təşkilş edilirdi[53].

1944-1945-ci illərdə respublika həmkarlar ittifaqı kitabxanaları işinin yaxşılaşdırılmasında ÜİHİMŞ-in XIII və XIV plenumları qərarlarının çox böyük rolu oldu. Plenum həmkarlar ittifaqı qarşısında mədəni-kütləvi və siyasi-tərbiyə işlərinin ideya səviyyəsinin yüksəlməsi, mədəni-maarif müəssisələrinin işinin yaxşılaşdırılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, əhaliyə mədəni xidmət işinin təşkilinin qaydaya salınması vəzifələrini qoymuşdu.

Müharibə illərində həmkarlar ittifaqı kitabxanalarının kütləvi tədbirləri içərisində mühazirələr mühüm yer tuturdu. Həmkarlar ittifaqı kitabxanalarının bir çoxu mədəniyyət evlərinin və klubların binasında yerləşdiyindən əksər hallarda oxucular üçün təşkil edilən mühazirələri onlarla bir yerdə keçirirdilər. Əvvəlcə mühazirə keçiriləcək zalın qarşısında oxunacaq mövzulara dair kitab sərgisi təşkil edilirdi. Oxucular mühazirədən əvvəl və sonra bu sərgilərdə qoyulmuş ədəbiyyatla tanış olur və mütaliə üçün kitabxanadan kitab tələb edirdilər. Mühazirələrin və mühazirəyə gələnlərin sayı müntəzəm surətdə artırdı. 1944-cü ildə 1242 mühazirə təşkil edilmişdisə, onların sayı 1945-ci ildə 1613-ə çatdırılmış və həmin mühazirələrdə 250639 nəfər iştirak etmişdi[54].

Kitabxanaların müharibə illərində həyata keçirdiyi kütləvi tədbirlər içərisində ucadan oxu və söhbətlər mühüm yer tuturdu. Təkcə 1945-ci ildə kitabxanalar 4648 oxu və söhbət keçirmişdilər. V.İ.Lenin adına mədəniyyət sarayının

kitabxanası 1193, Qaraşəhər mədəniyyət sarayının səyyar kitabxana bazası 1167, Pirallahı mədəniyyət sarayının kitabxanası 682 ucadan oxu keçirmişdi[55].

ÜİHİMŞ-in XIII və XIV plenumlarının qərarlarında fəhlələrə və onların ailələrinə iş yerlərində xidmət edilməsinə xüsusi diqqət yetirilmişdi. Məhz buna görədir ki, müharibənin son illərində kitabxanalar ayrı-ayrı müəssisələrdə təşkil etdiyi səyyar məntəqələrin sayını çoxaltmış və onların işini xeyli yaxşılaşdırmışdı. Neftçilərin həmkarlar ittifaqı kitabxanaları 1944-cü ildəki 183 əvəzinə 1945-ci ildə 222 səyyar məntəqə təşkil etmişdilər. Kitabxanalar səyyar məntəqələrdə əhaliyə xidmət işini daha da yaxşılaşdırmaq məqsədi ilə səyyar məntəqələrin yarışını təşkil etmişdilər. Bu yarışda Pirallahı və s. mədəniyyət saraylarının kitabxanaları xüsusilə fərqlənmişdilər.

Müharibə illərində həmkarlar ittifaqı kitabxanaları pioner düşərgələrində gənc oxuculara xidmət işinə də xüsusi diqqət yetirirdilər. Azərbaycan Həmkarlar İttifaqı Mədəniyyət şöbəsinin bilavasitə iştirakı ilə bütün pioner düşərgələrində səyyar məntəqələr təşkil edilmişdi. Bu məntəqələr bir qayda olaraq 100-300 nüsxə kitabla təchiz edilir və mövsüm müddətində həmin kitablar bir neçə dəfə əvəz edilirdi. Böyük pioner düşərgələrində kitablar daha tez-tez dəyişdirilirdi[56].

Böyük Vətən müharibəsi illərində həmkarlar ittifaqı kitabxanalarının fəaliyyətinin təhlili göstərir ki, bu dövrdə kitabxanalar öz işini əsasən «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» çağırışının həyata keçirilməsinə həsr etmiş, fəhlələrin və onların ailələrinin mənəvi tərbiyəsində yaxından iştirak etmiş, partiya və dövlət qərarlarının təbliğində mühüm rol oynamışlar.

c) Müharibə illərində kənd zəhmətkeşlərinə kitabxana xidməti; məhsul uğrunda kənd zəhmətkeşlərinin mübarizəsində kitabxanaların iştirakı

Müharibə kənd zəhmətkeşlərinin qarşısında çox mühüm vəzifə – ön və arxa cəbhəni ərzaq məhsulları, sənayeni

xammalla təchiz etmək vəzifəsini qoymuşdu. Müharibənin ilk günlərindən Azərbaycanın kənd zəhmətkeşləri mühüm dövlət vəzifəsinin yerinə yetirilməsi uğrunda mübarizədə əmək qəhrəmanlıqları göstərirdilər. Müharibə ilə əlaqədar olaraq kənd zəhmətkeşləri qarşısında çox böyük çətinliklər meydana çıxmışdı. Kişilər cəbhəyə getmiş, onları qadınlar və yeniyetmələr əvəz etmişdi. Mexanizator kadrları çatışmırdı. Azərbaycanın kolxozçu kəndliləri bu çətinliklərin öhdəsindən müvəffəqiyyətlə gəldilər.

Kənd zəhmətkeşləri qarşısında duran bu şərəfli vəzifənin yerinə yetirilməsində, kolxozçuların ideya-siyasi tərbiyəsində kənd mədəni-maarif müəssisələri mühüm rol oynayırdılar. Müharibə kənd mədəni-maarif müəssisələrinin, xüsusilə kitabxanaların işinə böyük zərər vurdu. Kitabxanaların yeni ədəbiyyatla komplektləşdirilməsi işi xeyli pisləşdi. Müharibənin ilk illərində orduya səfərbərliklə əlaqədar olaraq mədəni-maarif müəssisələrinə cəlb edilən yeni kadrların təcrübəsizliyi işə mənfi təsir göstərirdi. Bir sıra rayonlarda mədəni-maarif işini düzgün qiymətləndirə bilməmək üzündən bir çox kitabxana, klub və qiraət komalarının binalarından başqa məqsədlər üçün istifadə edilməsi onları öz fəaliyyətini dayandırmağa məcbur etmişdi. Xüsusilə kolxoz kitabxanalarının əksəriyyəti bağlanmışdı.

Lakin bütün bu çətinliklər respublikamızın çoxsaylı mədəni-maarif işçilərinin mübariz vətənpərvərlik əzmini zəiflədə bilmədi. Kitabxanalarımız, klublarımız və qiraət komalarımız müharibə illərində kənd zəhmətkeşlərinin ideya-siyasi tərbiyəsində yaxından iştirak etməklə kolxozçu kəndliləri vətənpərvərlik, mübarizlik, beynəlmiləlçilik ruhunda tərbiyə etmək işində mühüm rol oynayırdılar.

Müharibə illərində kənd əhalisinə kitabxana xidmətinin təşkilində qiraət komaları yenə də əsas müəssisələrdən biri kimi qalmaqda idi. Qiraət komaları bütün siyasi-tərbiyə işlərini bilavasitə kitab təbliği ilə əlaqələndirirdilər. Xüsusilə müstəqil kitabxanaları olmayan kəndlərdə qiraət komaları

kitab təbliğini ön plana çəkirdilər. Müharibə illərində qiraət komalarının fəaliyyətinin ətraflı təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, əhaliyə kitabxana xidməti onların başlıca vəzifələrindən biri olaraq qalmışdı.

1941-ci ildə respublikamızda 1130 qiraət koması var idi. Bundan 779-u Xalq Maarif Komissarlığının, 342-si kolxozların idi[57]. 1941-ci ilin əvvəllərində Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının təşəbbüsü ilə qiraət komalarının ştatlı işçiləri ləğv edilmiş, onlar kənd komsomol təşkilatlarının yaratdığı şuralar tərəfindən idarə olunmağa başlamışdı. Müharibə başlandıqdan sonra qiraət komalarını idarə edən şura üzvlərinin ordu sıralarına səfərbər edilməsi ilə əlaqədar olaraq şuraların işi xeyli zəifləmişdi ki, bu da qiraət komalarının fəaliyyətinə mənfi təsir göstərmiş, bir çoxunun fəaliyyətinin dayandırılmasına səbəb olmuşdu. Belə hallara xüsusilə Kəlbəcər, Gədəbəy, Laçın, İmişli, Xızı, Zərdab, Yardımlı və s. rayonlarda daha tez-tez təsadüf etmək olurdu. Hər cür çətinliyə baxmayaraq müharibə illərində kənd zəhmətkeşlərinin ideya-siyasi tərbiyəsində, onların kolxozun təsərrüfat planlarının yerinə yetirilməsinə səfərbər edilməsində qiraət komalarının böyük rolu olmuşdur.

Bu dövrdə Tovuz rayonunda Aşağı Quşçu kənd qiraət koması, Bərdə rayonunun Güloğlular və Şirvanlı kənd sovetliklərində olan qiraət komaları, Lənkəran rayonu Baloğlan Abbasov adına kolxozun qiraət komaları və başqa qiraət komaları kənd zəhmətkeşlərinin siyasi tərbiyəsində mühüm rol oynamışlar.

Qiraət komaları müharibə illərində aqrotexniki ədəbiyyatın təbliğinə, aqrotexniki biliklərin yayılmasına xüsusi diqqət yetirirdilər. Təkcə 1943-cü ildə qiraət komalarının aqrotexniki mövzuda keçirdiyi söhbətlərdə və mühazirələrdə 62577 nəfər iştirak etmişdi[58]. Elə həmin müddət ərzində 3 milyon nüsxəyə qədər kitabça, vərəqə və yaddaş, 100 mindən artıq şüar, 75 min bədii şüar və 15 min plakat nəşr edilib mədəni-maarif müəssisələri vasitəsilə yayılmışdı[59]. Kənd ki-

tabxanaları bilavasitə müharibə dövrünün tələbatı ilə yazılmış kitabçaları oxucular arasında təbliğ etməyə xüsusi əhəmiyyət verirdilər. Belə kitabçalar oxucuları vətənpərvərlik və xalqlar dostluğu ruhunda tərbiyə etməkdə ən qiymətli vasitə idi.

Müharibə illərində əhaliyə kitabxana xidmətinin təşkilində müstəqil kənd və rayon kitabxanaları mühüm rol oynayırdılar. 1941-ci ilin əvvəllərində Azərbaycanın kənd rayonlarında 615 min nüsxə kitab fonduna malik olan 1084 kütləvi kitabxana fəaliyyət göstərirdi[60]. Bu kitabxanaların əksəriyyəti kəndlərdə yerləşmişdi. Bütün rayon mərkəzlərində mərkəzi rayon kitabxanaları fəaliyyət göstərirdi. Müharibənin ilk günlərində kənd kitabxanaları öz işini «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» şüarı əsasında qurmağa başlamışdı.

Rayon mərkəzi kitabxanaları rayon partiya komitələrinin təbliğat-təşviqat işinin mərkəzlərindən birinə çevrilmişdi. Rayon kitabxanalarının tərtibatına xüsusi diqqət yetirilirdi. Kitabxanaların binası xalqı alman-faşist işğalçılarının darmadağın edilməsinə çağıran şüarlar, plakatlar, fotovitrinlərlə bəzədilmişdi. Kitabxanada «Cəbhə xəbərləri» guşəsi yaradılmış, burada Sovet Məlumat Bürosunun xəbərləri, yeni qəzetlər, kitabçalar toplanmışdı. Kitabxanalarda müntəzəm olaraq rayonun adlı-sanlı adamlarının, əmək qəhrəmanlarının, kolxoz veteranlarının, rəhbər işçilərin oxucular üçün, xüsusilə kolxoz təsərrüfatının ağırlığını bilavasitə çiyinlərində daşıyan qadınlar və yeniyetmələr üçün söhbətlər, məruzələr, mühazirələr təşkil edilirdi. Kitabxanalar əsgər ailələri ilə geniş iş aparırdılar.

Bəhs olunan dövrdə Salyan, Ağcabədi, Ağdam, Göyçay, Şəki, Ağstafa, Şamaxı, Tovuz və başqa rayon kitabxanaları kənd zəhmətkeşlərinə kitabxana xidmətinin yaxşı təşkilində fərqlənmişdilər.

Müharibə illərində Naxçıvan MSSR kitabxanaları da əhaliyə kitabxana xidmətinin təşkilinə xüsusi qayğı ilə yanaşır, kitabxanalarda geniş kütləvi iş aparırdılar. 1940-cı ildə Naxçıvanda 64 min nüsxə kitab fonduna malik 73 kitabxana var idi[61]. Bu kitabxanalardan 15-i Muxtar Respublikanın Maarif Komissarlığına tabe idi[62]. 1942-ci ildə isə Naxçıvan MSSR-də 33 klub, 47 qiraət koması və 15 kitabxana əhaliyə xidmət edirdi. Kitabxanalardan 8-i kəndlərdə, 6-sı şəhərdə və rayon mərkəzlərində yerləşirdi. Bir uşaq kitabxanası da var idi. Klubların əksəriyyətinin yanında kiçik kitabxanalar fəaliyyət göstərirdi. Məhz kənd əhalisinə kitabxana xidməti bu kitabxanalar və qiraət komaları tərəfindən həyata keçirilirdi[63]. Naxçıvan, Culfa, Şahbuz, Şərur, Ordubad rayon kitabxanaları, Culfa rayonunun Yaycı, Naxçıvan rayonunun Keçməbasar, Nehrəm, Şərur rayonunun Mahmudlu, Alşar, Ordubad rayonunun Bənənyar kənd kitabxanaları oxuculara kitabla xidmət işini xeyli yaxşılaşdırmışdılar. 1942-ci ildə Ordubad rayon kitabxanası 1286, Culfa rayon kitabxanası 358, Naxçıvan şəhər kitabxanası 528, Ordubad uşaq kitabxanası 860, Naxçıvan rayonunun Keçməbasar kənd kitabxanası 69, Culfa rayonunun Yaycı kənd kitabxanası 95, Şərur rayonunun Mahmudlu kənd kitabxanası 170, Ordubad rayonunun Başkənd kənd kitabxanası 150, Naxçıvan rayonunun Nehrəm kənd kitabxanası 270 oxucuya xidmət etmişdi. Göstərilən kitabxanalardan bir çoxu kitab dövriyyəsini də xeyli genişləndirmişdi. Ordubad rayon kitabxanası oxuculara 3560, Culfa rayon kitabxanası 1376, Şərur rayonunun Mahmudlu kənd kitabxanası 1800, Naxçıvan rayonunun Nehrəm kənd kitabxanası 780 nüsxə kitab vermişdi[64].

1942-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətində 39 klub, 44 qiraət koması və 13 kitabxana fəaliyyət göstərirdi. Kitabxanalardan 8-i kəndlərdə, 5-i isə şəhərdə və rayon mərkəzində yerləşirdi. Vilayətdə bir mərkəzi uşaq kitabxanası fəaliyyət göstərirdi[65]. Vilayət Partiya Komitəsinin bilavasitə rəhbərliyi altında fəaliyyət göstərən respublikanın mədəni-maarif müəssisələri müharibə dövrünün çətinliklərinə baxmayaraq öz işini müharibənin qarşıya qoyduğu vəzi-

fələrə tamamilə uyğunlaşdıra bilmiş, mədəni-siyasi və təbliğat-təşviqat işində əsas məntəqələrdən birinə çevrilmişdilər.

Müharibə illərində Azərbaycan hökuməti mədəni-maarif müəssisələrinin maliyyələşdirilməsinə xüsusi diqqət yetirirdi. Təkcə 1942-ci ildə uşaq kitabxanalarının təmiri üçün 118 min manat vəsait ayrılmışdı[66]. 1943-cü ildə isə kənd kitabxanalarına 2 milyon yarım manatdan çox vəsait buraxılmışdı[67]. 1943-cü ildə qiraət komalarının saxlanılması üçün 566300 manat vəsait ayrılmışdı[68].

Müharibə illərində kolxoz təsərrüfatının möhkəmləndirilməsində, kənd təsərrüfatı planlarının müvəffəqiyyətlə yerinə yetirilməsində, həmçinin zəhmətkeşlərin ideya-siyasi tərbiyəsində ÜİK(b)P MK-nın 1941-ci il 17 noyabr tarixli qərarına əsasən MTS və sovxozlar yanında təşkil edilmiş siyasi şöbələrin böyük rolu oldu. Partiya siyasi işinin kənddə bilavasitə həyata keçirilməsinə rəhbərlik edən siyasi şöbələr MTS və sovxoz kitabxanalarının işinin canlanmasına, əhaliyə kitabxana xidmətinin daha da yaxşılaşmasına olduqca müsbət təsir göstərirdi. Siyasi şöbələr, ümumiyyətlə, kolxozçuların, sovxoz fəhlələrinin siyasi şüurunun və əmək fəallığının artmasında mühüm rol oynadı.

1943-cü ilin dekabrında ÜİK(b)P MK yanında siyasi-maarif işçilərinin Ümumittifaq müşavirəsi keçirildi. Bu müşavirə ölkədə siyasi-maarif işinin daha da yaxşılaşdırılmasında, siyasi-maarif işlərinə rəhbərlik sisteminin yenidən qurulmasında mühüm rol oynadı. Müşavirə rəhbər partiya orqanlarının diqqətini siyasi-maarif işlərinə cəlb etdi. Yerli sovetlər və xalq maarifi şöbələri mədəni-maarif ocaqlarına diqqəti daha da artırdılar. Kitabxanalara rəhbərlik işi xeyli yaxşılaşdı. Azərbaycan SSR Xalq Maarif Komissarlığının Siyasi-Maarif İdarəsi yanındakı kitabxanaçılıq bölməsinin fəaliyyəti xeyli genişləndi.

Azərbaycan K(b)P MK müharibə illərində kənd mədəni-maarif müəssisələrinin: kitabxanaların, klubların, qiraət komalarının fəaliyyətinə xüsusi diqqət yetirirdi. Mərkəzi

Komitə 1943-cü ildə Azərbaycanın kənd rayonlarında mədəni-maarif işini yoxlamaq və onların işinə əməli rəhbərlik etmək üçün xüsusi briqada ayırmışdı. Yoxlama işini mütəşəkkil aparmaq məqsədi ilə əvvəlcədən hazırlıq görülmüş, yoxlama sualları tərtib edilmişdi.

Kitabxana işinə dair yoxlama suallarında məsələlərə xüsusi diqqət yetirilirdi:

1. Siyasi-maarif işçilərinin Moskva müşavirəsi iştirakçılarının müraciətinə yerlərdə necə cavab verirlər?
2. Kitabxananın kitab fondunun vəziyyəti necədir və yeni kitablarla necə təchiz olunur?
3. Daimi oxucuların sayı nə qədərdir?
4. Səyyar məntəqələr varmı?
5. Əhali arasında ucadan qəzet oxunurmu?
6. Məruzələr, mühazirələr və Vətən müharibəsi iştirakçıları, staxanovçularla görüşlər keçirilirmi?
7. Kütləvi işlər, kitabxana fəalları varmı?
8. Əsgər ailələri və müharibə əlilləri ilə aparılan işlər?
9. İsti geyimlər, hədiyyələr toplanılmasında, lotoreyaların, istiqrazların yayılmasında və metal yığılmasında kitabxanaların iştirakı?
10. Dövlətə kənd təsərrüfatı məhsullarının vaxtında verilməsinə kömək etmək üçün təbliğat işlərində iştirakı?
11. Sərgilər, vitrinlər, divar qəzetləri, tövsiyə siyahıları vardırmı?[69].

Yoxlama suallarından göründüyü kimi, Mərkəzi Komitə müharibə illərində kitabxana işinin ideya-siyasi məzmununa, onun təsərrüfat işlərində iştirak etməsinə xüsusi diqqət yetirirdi. Yoxlama briqadası Azərbaycanın 38 rayonunda mədəni-maarif işinin, o cümlədən kitabxana işinin vəziyyətini yoxlamışdı. Yoxlama nəticəsində məlum olmuşdu ki, bir sıra rayonlarda rayon, partiya və dövlət təşkilatlarının diqqətsizliyi üzündən mədəni-maarif müəssisələri bağlanmış, yaxud işini zəiflətmişdi. Bir sıra rayonlarda, o cümlədən Salyanda, Ağcabədidə, Qazaxda, Astraxanbazarda

(indiki Cəlilabad), Masallıda, Əli Bayramlıda kitabxanalar klub və qiraətxanaların binasına köçürülmüşdü. Bu da kitabxana fondlarının saxlanmasına və oxuculara xidmət işinə mənfi təsir göstərmişdi. Salyan rayon mərkəzi kitabxanası öz binasından köçürüldükdən sonra fondda 23 min manatlıq kitab azalmış və kitabxanaya oxucuların gündəlik davamiyyəti 20-25 nəfərdən 5-6 nəfərə enmişdi. Bir sıra kənd kitabxanaları, o cümlədən Salyan rayonunun Şorsulu, İsmayıllı rayonunun Basqal kitabxanaları 1942-ci ildə bir dənə də olsun yeni ədəbiyyat almamışdı[70].

Yoxlama briqadası göstərilən nöqsanları aradan qaldırmaq və kitabxana işinə əməli kömək göstərmək üçün bir sıra mühüm tədbirlər görmüşdü. Bütün yoxlanılan rayonlarda rayon partiya komitələri katiblərinin, rəhbər işçilərinin, maarif şöbə müdirlərinin iştirakı ilə siyasi-maarif işçilərinin müşavirəsi keçirilmiş, bu müşavirədə müharibə illərində siyasi-maarif idarələrinin vəzifələri hərtərəfli təhlil edilmiş və mövcud nöqsanların aradan qaldırılması üçün konkret tədbirlər hazırlanmışdı.

Masallı, Həştərxanbazar, Füzuli, Xıllı və s. rayon partiya komitələrinin büro iclaslarında siyasi-maarif idarələrinin vəziyyəti müzakirə edilib müvafiq qərar qəbul edilmişdi. Yoxlama prosesində Masallı, Həştərxanbazar, Sabirabad, Şərur, Zaqatala və s. rayonlarda aşağı səviyyəli kitabxana işçiləri dəyişdirilərək, ixtisaslı kitabxanaçılarla əvəz edilmişdi. Kitabxanaların binalarının özünə qaytarılması, onların qızdırılması üçün yanacaq ayrılması, kitabxanalara kitab və dövri mətbuat almaq üçün vəsait ayrılması elə yerindəcə qaydaya salınmışdı. Yoxlama keçirilən 38 rayonun hamısında bütün mədəni-maarif müəssisələrinin bərpa edilməsi üçün tədbirlər görülmüş və yeni qiraət komaları açılmışdı[71]. Azərbaycan K(b)P MK bu yoxlamaların nəticələri əsasında bütün rayon partiya komitələrinə mədəni-maarif işini yaxşılaşdırmaq, onlara ayrılan vəsaiti artırmaq, kadrların tərkibini yaxşılaşdırmaq haqqında xüsusi göstəriş vermişdi.

Azərbaycan K(b)P MK və Azərbaycan XKS 1943-cü ildə yaxşı klub, kitabxana və qiraət komasına vermək üçün iki keçici Qırmızı bayraq təsis etmişdi[72]. Bu bayraqlar il ərzində əhaliyə mədəni xidmət sahəsində ən yaxşı göstəricilər əldə edən mədəni-maarif müəssisələrinə verilirdi. Bu tədbir hələ 1942-ci ildən kitabxanalar arasında başlanmış yarışın daha da genişlənməsi üçün şərait yaratdı. İlk illərdə yarış ayrı-ayrı kitabxanalar arasında keçirilirdi. Bayraq təsis edildikdən sonra yarış respublikanın bütün kitabxanaları arasında genişləndirilməyə başladı. Bayrağın təsis edilməsi rayonun bütün rəhbər orqanlarının kitabxana işinə diqqətinin artırılmasına səbəb oldu.

1944-cü ildə yarışın nəticələrinə görə, Azərbaycan K(b)P MK və XKS-nin keçici Qırmızı bayrağı Füzuli rayonuna verildi. Rayonda az müddət ərzində 8 yeni klub, 5 kitabxana, 18 qiraət komaası açılmış, mədəni-maarif müəssisələrinin əhaliyə xidmət işi xeyli yaxşılaşmışdı. Rayonun Seyidəhmədli kəndində klub və qiraət komaası binası tikilmişdi[73].

1944-cü ildə Azərbaycan K(b)P MK-nın XII plenumu «Kənddə siyasi-maarif işləri haqqında» məsələ müzakirə edərək, çox mühüm siyasi və mədəni əhəmiyyətə malik qərar qəbul etdi.

Plenum xüsusilə müharibə illərində müəyyən çətinlik nəticəsində bağlanmış mədəni-maarif müəssisələrinin dərhal bərpa edilməsini bir vəzifə olaraq partiya və dövlət təşkilatlarının qarşısında qoydu. Plenumun qərarında göstərilirdi: «Bütün mədəni-maarif ocaqlarını, qiraət komalarını, klubları, kitabxanaları, qırmızı guşələri və s. qaydaya salmadan kənddə siyasi-maarif işlərinin genişləndirilə bilməyəcəyini nəzərə alaraq Azərbaycan K(b)P MK vilayət, şəhər və rayon komitələrinə bir vəzifə olaraq tapşırır ki, kənddə bağlanmış mədəni-maarif ocaqlarını ən qısa müddətdə bərpa etsinlər və yenilərini açsınlar. Bunların işini yaxşılaşdırsınlar, rolunu və əhəmiyyətini müharibə zamanının tələbləri

səviyyəsinə qaldırsınlar»[74].

Qərarın yerinə yetirilməsi nəticəsində 1944-cü ildə respublikanın 40 rayonunda 605 siyasi-maarif müəssisəsi, 438 qiraət komasi, 124 kolxoz klubu və qırmızı guşə, 37 kitabxana açılmış və onların maddi-texniki bazası möhkəmlənmişdi. 1944-cü ildə Bərdədə 3, Ağdamda 4, İsmayıllıda 5, Gədəbəydə 1, Dəvəçidə 2 kitabxana açılmışdı.

Plenumun qərarı partiya və dövlət orqanları ilə yanaşı kolxoz, kooperativ təşkilatlarında, həmçinin respublikanın bütün zəhmətkeşləri arasında mədəni-maarif işinin yaxşılaşdırılması sahəsində böyük dönüş əmələ gətirmişdi. Respublikanın kolxozları, sovxozları, digər idarə və müəssisələri mədəni-maarif işini yaxşılaşdırmaq, yeni klub, kitabxana, qiraət komasi açmaq, onların maddi-texniki bazasını möhkəmləndirmək işinə qoşulmuşdular. Müharibənin törətdiyi çətinliklərə baxmayaraq kolxozlar kütləvi surətdə mədəni-maarif müəssisələri açır, mövcud mədəni-maarif müəssisələrinin fəaliyyətini yaxşılaşdırırdılar. Artıq 1944-cü ilin axırları və 1945-ci ilin əvvəllərində kolxozların 472 klubu, 342 qiraət komasi və 159 kitabxanası var idi[75].

1944-1945-ci illərdə Ağdam, Qazax, Xanlar, Göyçay, Qubadlı, Salyan, Şamaxı, İsmayıllı, Bərdə və s. rayonlarda, həmçinin Naxçıvan MSSR-də, Dağlıq Qarabağ Muxtar Vilayətində yeni kitabxanalar açıldı. Mövcud kitabxanaların işi xeyli yaxşılaşdırıldı. Mədəni-maarif müəssisələrinin müharibədən əvvəlki binaları özlərinə qaytarıldı. Bəzilərinə abad binalar verildi.

1944-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətində siyasi-maarif işlərinin səviyyəsi xeyli yüksəlmişdi. Vilayətdə 134 klub, 74 qiraət komasi və 34 kitabxana zəhmətkeşlərə xidmət edirdi[76].

1944-cü ildə Azərbaycanın rayonlarında kitabxana işçilərinin zona müşavirələri keçirildi. Bu müşavirələrdə plenumun qərarları ətraflı müzakirə edildi və kitabxanaların vəzifələri müəyyənləşdirildi. Plenumun qərarı respublikada

kitabxana işinin sürətlə inkişafı üçün güclü təkan verdi. Təkcə bunu qeyd etmək kifayətdir ki, 1945-ci ildə respublikamızda 213 yeni kitabxana açılmışdı ki, bunun da əksəriyyəti, demək olar ki, kənd yerlərində idi[77]. Azərbaycanın kənd yerlərində 1945-ci ildə 291 müstəqil kitabxana fəaliyyət göstərirdi. Onlardan bunun 132-si Xalq Maarif Komissarlığının, 159-u isə kolxozların və digər müəssisələrin kitabxanaları idi. Rayon mərkəzləri və böyük kənd yaşayış məntəqələrindən başqa, yerdə qalan kiçik kəndlərdə əhaliyə kitabxana xidməti klub kitabxanaları və əsasən qiraət komaları tərəfindən həyata keçirilirdi. 1945-ci ildə Azərbaycanın kənd yerlərində 472 klub və 1130 qiraət komasi fəaliyyət göstərirdi[78]. Demək olar ki, bütün kənd sovetliklərində mədəni-maarif müəssisələri təşkil edilmişdi. Kitabxana işi ümumdövlət işinin çox mühüm sahələrindən biri kimi qiymətləndirilmiş və həmişə diqqət mərkəzində olmuşdu. Azərbaycanın böyük kitabxanaçılar ordusu müharibə illərində fəhlə sinfinin, kolxozçu kəndlilərin ideya-siyasi tərbiyəsində mühüm rol oynamış, dövlət planlarının yerinə yetirilməsində, zəhmətkeşlərin səfərbərliyə alınmasında dövlət orqanlarına kömək etmiş, beynəlmiləlçilik və vətənpərvərlik ideyalarının carçısı kimi çıxış etmişdi. Böyük Vətən müharibəsi illərində respublikamızın kitabxanaçıları böyük dövlət vəzifəsini müvəffəqiyyətlə yerinə yetirmişlər. Onların əməyi gələcək nəsillər və kitabxanaçılar üçün həmişə ilham mənbəyi və vətənpərvərlik nümunəsi olacaqdır.

ç) Uşaq və məktəb kitabxanaları müharibə illərində

Müharibə uşaq kitabxanalarının fəaliyyətinə olduqca mənfi təsir göstərdi. 1940-cı ildə respublikamızda 50 müstəqil uşaq kitabxanası fəaliyyət göstərirdi. Bunlardan 20-si Bakı və onun rayonlarında, 30-u isə kənd rayonlarında yerləşirdi[79]. 1941-1942-ci illərdə kənd rayonlarında olan uşaq kitabxanalarının əksəriyyəti bağlanmış, yaxud rayon kitabxanalarında birləşdirilmişdi. Bakıda isə hər cür çətinliyə

baxmayaraq uşaq kitabxanalarını qoruyub saxlamaq mümkün olmuşdu.

Uşaq kitabxanaları öz işlərini bilavasitə balaca oxucuların və yeniyetmələrin şüurunda faşizmə qarşı nifrət yaratmaq, faşist cəlladlarının Vətənimiz üzərinə xaincəsinə basqınının mahiyyətini, xalqımızın faşizmə qarşı apardığı Böyük Vətən müharibəsinin ədalətli xarakterini açıb göstərmək vəzifəsini qoymuşdular. Uşaq kitabxanaları müharibəyə həsr edilmiş ədəbi-bədii gecələr, səhərciklər, ucadan oxular, bədii qiraətlər keçirirdilər. Kitabxanalar əsgər ailələrinə xüsusi qayğı ilə xidmət göstərir, ataları ordu sıralarına çağırılmış uşaqları kitabxanaların oxucuları sırasına cəlb edirdilər.

Hər cür çətinliyə baxmayaraq Bakı şəhər uşaq kitabxanaları müharibə illərində uşaqların tərbiyəsində yaxından iştirak edir, məktəb proqramlarının mənimsənilməsində, uşaqların ümumi dünyagörüşünün formalaşmasında yaxından iştirak edirdilər.

Bakı kitabxanaları ilə yanaşı Naxçıvan, Xankəndi, Gəncə, Şəki və s. şəhər uşaq kitabxanaları da uşaqlara kitabxana xidmətinin təşkilini dayandırmamışdılar. 1943-cü ildə Naxçıvanda 1, Xankəndində 2, Gəncədə 2, Şəkidə 1 uşaq kitabxanası fəaliyyət göstərirdi[80]. Bundan başqa, Azərbaycanın rayonlarında 5 müstəqil kitabxana uşaqlara xidmət edirdi.

1944-cü ildə Bakıda məktəb və uşaq kitabxana işçilərinin müşavirəsi oldu[81]. Müşavirə müharibə illərində məktəb kitabxanalarının qarşısında duran vəzifələri hərtərəfli müzakirə etdi. Müşavirə uşaq kitabxanalarının işini yaxşılaşdırmaq üçün böyük əhəmiyyətə malik oldu.

Müharibə illərində məktəb kitabxanaları daha böyük zərər çəkmişdi. 1940-cı ildə respublikamızda 2480 məktəb kitabxanası var idi[82]. 1941-1943-cü illərdə məktəb kitabxanalarının sayı 4 dəfədən çox azalmışdı. 1944-cü ildə respublikamızda 544 məktəb kitabxanası fəaliyyət göstərirdi[83]. Bundan 108-i Bakıda[84], yerdə qalanları isə rayonlarda idi.

Müharibə qurtardıqdan sonra məktəb kitabxanaları sürətlə bərpa olunmağa başladı. Artıq 1946-cı ildə respublikamızda 1580 məktəb kitabxanası fəaliyyət göstərirdi[85].

§ 4.3. Elmi və xüsusi kitabxanalar Böyük Vətən müharibəsi illərində

Müharibə dövründə alimlərimiz və mühəndislərimiz elm və texnikanın bütün sahələrində böyük fədakarlıqla işləyirdilər. Azərbaycan alimləri və mütəxəssisləri yeni-yeni ixtiralar edir, səmərələşdirici təkliflər irəli sürür, əmək məhsuldarlığının artırılmasında və dövlət planlarının yerinə yetirilməsində yaxından iştirak edirdilər. Müharibə elm, texnika və xalq təsərrüfatının müxtəlif sahələrində və müdafiə sənayesində çalışan alimlərin, mühəndis-texniki işçilərin və bütün mütəxəssislərin elmi ədəbiyyata olan tələbatını xeyli artırmışdı. Elmi kitabxanalar qarşısında məhz bu artan tələbatı ödəmək kimi çox şərəfli bir vəzifə dururdu.

a) M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası müharibə illərində

Respublikamızda elmi fikrin inkişaf etdirilməsində, elmi ədəbiyyatın təbliğində Azərbaycan Dövlət Ümumi Kitabxanasının xüsusi xidmətləri var. Kitabxana müharibənin ilk günlərindən öz işini qarşıya qoyulmuş vəzifələrə tabe etmişdi.

Müharibə ilə əlaqədar qarşıya çıxan bəzi çətinliklər müvəffəqiyyətlə aradan qaldırılmışdı. Kitabxana zəhmətkeşlərin vətənpərvərlik, xalqlar dostluğu ruhunda tərbiyəsi işinə xüsusi diqqət yetirir, elmi, istehsalat və texniki ədəbiyyatın təbliğini genişləndirir, müdafiə əhəmiyyətli ədəbiyyatı mütəxəssislər arasında yayır, ziyalıların, mühəndis və texniki işçilərin ümumi inkişafına, elm və texnikanın son nailiyyətlərinin təbliğinə xüsusi fikir verirdi. Kitabxana həmçinin oxucuların ideya-siyasi tərbiyəsinə, dövlət qərarlarının təbliğinə, Sovet Məlumat Bürosunun xəbərlərinin vaxtında oxuculara

çatdırılmasına, cəbhədə Ordunun döyüş qəhrəmanlıqları, arxa cəbhədə xalqımızın əmək fədakarlıqları haqqında xəbərlərin təbliğinə mühüm əhəmiyyət verirdi. Bütün bunlar müharibə dövründə kitabxananın həyata keçirdiyi işlərin əsas məzmununu təşkil edirdi.

Kitabxana müharibə illərində hər cür çətinliyə baxmayaraq kitab fondunu yeni ədəbiyyatla təkmilləşdirmək, yeni kitablar almaq, nadir kitabları əldə etmək sahəsində xeyli iş görmüşdü. Kitabxana 1942-ci ildə 8925 nüsxə[86], 1944-cü ildə 13761[87], 1945-ci ildə isə 83932[88] nüsxə yeni kitab almışdı. Bu dövrdə Moskvadan, Novosibirskdən, Daşkənddən, Penzadan, Sverdlovskdan, Ulan-Udedən, Tbilisidən, Yerevandan, Aşqabaddan və s. şəhərlərdən kitabxana hər gün kitab bağlamaları alırdı[89]. Müharibənin təkcə iki ili müddətində kitabxanaya 30 min nüsxədən artıq kitab daxil olmuşdu. Bundan əlavə, kitabxana müharibə illərində təqribən 400-dən artıq nadir kitab əldə etməyə müvəffəq olmuşdu[90].

Müharibə illərində kitabxananın fəaliyyətində əsas yeri oxuculara xidmət işinin təşkili tuturdu. Kitabxananın oxucularının tərkibində də böyük dəyişiklik baş vermiş, onların tələbatı müharibənin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq tamamilə dəyişmişdi. Kitabxana oxuculara xidmət işini əsasən qiraət salonunda, filiallarda, qospitallarda həyata keçirirdi. Kitabxanalararası abonement oxuculara xidmət işinin əsas formalarından biri olaraq qalmaqda idi.

1941-ci ildə kitabxana 2540[91] oxucuya xidmət etmiş və onlara 185570[92] kitab vermişdi. 1942-ci ildə 1941-ci ilə nisbətən oxucuların sayının nisbətən azalmasına baxmayaraq kitab verilişi azalmamış, əksinə, kitabxanaya oxucuların gəlişi artmışdı. 1942-ci ildə kitabxana 1426 oxucuya xidmət etmiş və onlara 178849 kitab vermişdi.

1943-cü ildən başlayaraq kitabxanada oxuculara xidmət işinin təşkilində dönüş əmələ gəldi. Kitabxana daha geniş oxucu kütləsinə xidmət etməklə yanaşı, xidmət işinin

keyfiyyətini də yaxşılaşdırmışdı. 1943-cü ildə kitabxana 1251 oxucuya xidmət etmiş, onlara 233650 kitab vermişdi ki, bu da 1942-ci ildəkindən 54801 nüsxə çox idi[93]. Kitab verilişi ilə yanaşı oxucuların kitabxanaya gəlişi də əhəmiyyətli dərəcədə artmışdı. 1942-ci ildə kitabxanaya 75518 oxucu, 1943-cü ildə isə 79034 oxucu gəlmişdi[94]. Kitabxana 1943-cü ildə oxuculara ictimai-siyasi ədəbiyyat üzrə 39673, təbiətşünaslıq, tibb, kənd təsərrüfatı şöbələri üzrə 280000, texnika şöbəsi üzrə 36150, ədəbiyyat və incəsənət üzrə 25861 nüsxə kitab verilmişdi. Rəqəmlərdən göründüyü kimi, ictimai-siyasi və texniki elmlərə maraq olduqca artmışdı. Bu dövrdə elmi-texniki ədəbiyyatın təbliği böyük dövlət əhəmiyyəti kəsb etmişdi. Bir sıra müdafiə əhəmiyyətinə malik olan zavodlar Bakıya köçürülmüş, mövcud zavodların bir çoxu hərbi əhəmiyyətli materiallar istehsal etməyə başlamışdı. İxtisaslı fəhlələrin, mühəndis-texniki işçilərin orduya səfərbərliyə alınması ilə əlaqədar olaraq belə müəssisələrdə qadınlar və yeniyetmələr işləməyirdilər. Ona görə də onların, xüsusilə mütəxəssislərin texniki biliyinin yüksəldilməsi siyasi əhəmiyyətə malik idi. Kitabxana texnikaya dair aldığı kitabı və kitabçanı dərhal yeni kitablar sərgisinə qoyurdu. Az bir müddətdə həmin kitab və kitabçalara onlarca oxucu sorğusu daxil olurdu. Əgər kitabça kiçik həcmli idisə, kitabxana işçiləri onların surətini yazı makinasında çoxaldıb oxuculara verirdi[95]. Bəhs olunan illərdə kitabxana oxuculara xidmət işini xeyli genişləndirmişdi. 1944-cü ildə kitabxana 4208 oxucuya[96], 1945-ci ildə isə 4268 oxucuya[97] xidmət etmişdi. Göründüyü kimi, oxucuların sayı 1941-ci ilə nisbətən 1944-cü ildə 1668, 1945-ci ildə isə 1728 nəfər artmışdı. Oxucuların kitabxanaya gəlişi və kitab verilişi də çoxalmışdı. 1945-ci ildə kitabxanaya 9129 oxucu gəlmiş və onlara 301739 kitab verilmişdi[98].

Müharibə illərində oxuculara kitabla xidmət işinin təşkilində kitabxanalararası abonementin rolu böyük idi. Kitabxana respublikanın bütün elmi kitabxanaları, mühüm

hərbi, müdafiə əhəmiyyətinə malik olan müəssisələr, böyük fabrik və zavodlarla əlaqə saxlayır, dövlət əhəmiyyətli işlərlə məşğul olan görkəmli mütəxəssisləri kitablarla təmin edirdi.

Çətin müharibə illərində bir gün də olsun kitabxanalararası abonement yolu ilə oxuculara xidmət işi dayandırılmışdı. Kitabxanalararası abonement həm respublikamızın kitabxanaları, həm də ittifaq miqyasında həyata keçirilirdi. Kitabxana 1941-ci ildə 89, 1943-cü ildə 100-dən artıq müəssisə ilə kitabxanalararası abonement yolu ilə əlaqə saxlamış, 1941-ci ildə 4185 nüsxə, 1944-cü ildə isə 7407 nüsxə kitab vermişdi.

Kitabxana dövri mətbuatla iş məsələsinə də xüsusi əhəmiyyət verirdi. Çünki oxucularda dövri mətbuata, qəzet və jurnal məqalələrinə, xüsusilə elmi-texniki və texniki jurnal məqalələrinə çox böyük tələbat əmələ gəlmişdi. Buna görə də kitabxana qəzet və jurnal fondunun qaydaya salınmasına və dövri mətbuatın məzmununun açılıb kartotekalarda əks etdirilməsinə xüsusi diqqət yetirirdi. Müharibə illərində «Böyük Vətən müharibəsi» adlı xüsusi kartoteka təşkil edilmiş və bu kartoteka müntəzəm olaraq təkmilləşdirilmişdi.

Müharibə illərində kitabxana hərbi qospitallara, ayrı-ayrı idarə və müəssisələrə səyyar məntəqələr və filiallar vasitəsi ilə xidmət edirdi. Hələ müharibənin ilk günlərindən kitabxana rayon hərbi komissarlıqlarının yanında təbliğat məntəqələri təşkil etmiş, orduya səfərbərliyə alınanlar arasında təbliğat işi aparmışdı. Kitabxana bir qospitalı hamiliyə götürmüşdü. Həmin qospitalda səyyar məntəqə təşkil edilmişdi. Kitabxanaçılar kitabları vaxtaşırı dəyişir, xəstələrin tələbi əsasında yeni kitablar gətirirdilər. Kitabxananın fondunda bütün SSRİ xalqlarının dilində kitablar var idi. Qospitalda müalicə olunan əsgərlərə öz ana dillərində - rus, Ukrayna, gürcü, türkmən, qazax, özbək və s. dillərdə kitablarla xidmət edilirdi[99]. 1942-ci ildə qospitallara 3858[100] kitab, 1943-cü ildə isə 4099[101] kitab verilmişdi.

1942-ci ildə 60, 1943-cü ildə isə 140-dan artıq kitab sə-

rgisi təşkil edilmişdi[102]. Kitabxananın olduqca maraqlı keçən kütləvi tədbirlərində geniş xalq kütlələri və yaralı əsgərlər iştirak edirdilər. Kitabxana həmçinin Ali Hərbi Dənizçilik Məktəbində, Xəzər hərbi gəmilərində, yod zavodunda, Partiyanın XVII qurultayı adına kolxozda və Lənkəran şəhər kitabxanasında səyyar məntəqələr təşkil etmişdi. Kitabxana bu müəssisələri bilavasitə hamiliyə götürdüyündən bütün müharibə dövründə həmin müəssisələrə kitabla xidmət etmişdi[103].

Kitabxana 1944-cü ildə müttəfiq respublikaların Dövlət Ümumi kitabxanaları ilə öhdəliklər haqqında müqavilə bağlamışdı[104]. Bu müqaviləyə görə, kitabxananın kollektivi 1944-cü ildə oxuculara 241 min nüsxə kitab, jurnal və qəzet verməyi, 74 sərgi təşkil etməyi, 2500 şifahi biblioqrafik, 12500 kataloq üzrə məlumat verməyi, müəssisələrin və oxucuların sifarişi üzrə 20 biblioqrafik, 50 tövsiyə siyahısı tərtib etməyi, «Sovet xalqının Böyük Vətən müharibəsi», «Azərbaycan Böyük Vətən müharibəsində», «Azərbaycanşünaslıq» kartotekalarını tamamlamaq üçün 12070 qəzet və jurnal təsvir etməyi, «M.F.Axundov» və «Səməd Vurğun» biblioqrafik göstəricilərini rus və Azərbaycan dillərində çapa hazırlamağı, hamiliyə götürülən kitabxanalara metodik kömək göstərməyi, alman-faşist işğalçılarından azad olunmuş rayonlar üçün kitab toplamağı, həmçinin kitabxana işçilərinin nəzəri və ixtisas səviyyəsini yüksəltməyi öhdəsinə götürmüşdü. Bu öhdəliklərin 1944-cü ilin axırında nəzərdə tutulan müddətdə kəsirsiz yerinə yetirilməsi müharibə dövründə kitabxana kollektivinin gərgin və fədakar əməyinin nəticəsi idi.

Kitabxana 1943-cü ildə 61, 1944-cü ildə 74[105], 1945-ci ildə isə 90-na yaxın sərgi təşkil etmişdi.

Müharibə illərində kitabxananın fəaliyyətində ən mühüm yeri onun məlumat-biblioqrafiya fəaliyyəti tutmuşdur. Hər cür çətinliyə – çap kartoçkalarının göndərilməsinin dayandırılmasına, kitabxana işçilərinin azalmasına, kitabxa-

nanın təcrübəli kadrlarından bəzilərinin başqa işə cəlb edilməsinə baxmayaraq, məlumat-biblioqrafiya aparatı həmişə diqqət mərkəzində olmuş, kataloq və kartotekalar müntəzəm yoxlanılmış, təkmilləşdirilmiş, həmişə mübariz vəziyyətdə saxlanılmışdır. Kataloq və kartotekalara müntəzəm olaraq yeni ədəbiyyat daxil edilir, onun ayrı-ayrı şöbələri redaktə edilirdi. Təkcə 1942-ci ildə 2483 kitab, 2542 jurnal, 4783 qəzet yenidən nəzərdən keçirilmiş, kartotekalarda olmayan 12251 məqalə aşkara çıxarılmış və bunlara 19161 kartoçka yazılıb kartotekalarda əks etdirilmişdi[106]. 1942-1945-ci illərdə kitabxananın baş oxucu kataloqu və xidmət kataloqları planlı şəkildə redaktə edilmişdi. Xüsusilə texniki elmlər və ictimai-siyasi ədəbiyyat şöbəsi yenidən işlənmişdi. Kitabxananın məlumat-biblioqrafiya aparatının işlənib, redaktə edilməsi, dövrün tələblərinə uyğun şəkildə yeniləşdirilməsi oxucuların müxtəlif sorğularına, xüsusilə alimlərin və mütəxəssislərin, hərbçilərin, yenilikçilərin və səmərələşdiricilərin tələblərinə və sorğularına cavab vermək imkanı yaradırdı.

1941-ci ildə kitabxanada «Böyük Vətən müharibəsi» adlı kataloq və kartoteka təşkil edildi. Bu kataloq və kartotekada rəhbər materiallar və qəzet-jurnal məqalələri əks etdirilmişdi. Kitabxana müxtəlif aktual məsələlərə dair tövsiyə biblioqrafiyası vəsaitləri tərtib etməyə xüsusi diqqət yetirirdi. 1942-ci ildə 29 tövsiyə biblioqrafiya vəsaiti tərtib edilmişdi. Yenə həmin ildə Azərbaycan K(b)P MK-nın göstərişi ilə təbliğatçı və təşviqatçılar üçün «Böyük Vətən müharibəsi - 1941» adlı 56 mövzudan ibarət tövsiyə göstəricisi tərtib edilmişdi. Bu göstəricilər o zaman Azərnəşr tərəfindən nəşr edilmişdi.

Məlumat-biblioqrafiya şöbəsi tövsiyə göstəriciləri tərtib etməklə yanaşı, oxuculara yazılı və şifahi biblioqrafik məlumat vermək işinə xüsusi diqqət yetirirdi. Oxucu sorğularının, xüsusilə mütəxəssislərin sorğularının ödənilməsi şöbənin gündəlik işinin əsas məzmununu təşkil edirdi. Kitab-

xana 1942-ci ildə 9055, 1943-cü ildə 1066 şifahi məlumat vermişdi. İdarə və müəssisələrin tələbi əsasında 1942-ci ildə 51, 1943-cü ildə isə 53 yazılı arayış verilmişdi. Biblioqraflar oxuculara 2780 məlumat kitabı vermiş, biblioqrafiyaya aid yenilikləri oxucular arasında təbliğ etmək üçün 13 sərgi təşkil edilmişdi[107].

Kitabxana müharibə illərində 40 min oxucuya xidmət etmiş və onlara 1 milyon nüsxədən artıq kitab, qəzet, jurnal vermişdir. Sadə görünən bu rəqəm, kollektivin gərgin və fədakar əməyi sayəsində əldə edilmiş bu nailiyyət, müharibənin dəhşətlərini yaşayan xalqına kollektivin kiçik hədiyyəsi idi. Böyük Vətən müharibəsi illərində kitabxana kollektivinin fədakar əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 20 nəfərdən artıq kitabxanaçı «Böyük Vətən müharibəsində fədakar əməyə görə» medalı ilə təltif edilmişdir[108].

b) SSRİ EA Azərbaycan filialının kitabxanaları müharibə illərində

Böyük Vətən müharibəsi illərində yeni elmi axtarışlar aparan alimlərin kitaba və məlumat materiallarına olan tələbatı xeyli artmışdı. Bu da elmi kitabxanalar qarşısında çox mühüm vəzifələr qoyurdu. Elmi kitabxanaların işçiləri elmi tədqiqatçıların sorğularını yerinə yetirmək üçün ciddi və səmərəli axtarışlar aparırdılar. Elmi kitabxanaların işçiləri ilə tədqiqatçılar arasında səmərəli əməkdaşlıq yaranmışdı.

1941-ci ildə SSRİ EA Azərbaycan filialının bir əsaslı kitabxanası, 8 institut, 3 muzey və 4 bölmə kitabxanası var idi. İnstitut, muzey və bölmə kitabxanaları müstəqil fəaliyyət göstərirdilər. Filialın əsaslı kitabxanası bunlara ancaq metodik rəhbərlik edirdi. İnstitut kitabxana şəbəkəsinin yeni ədəbiyyatla komplektləşdirilməsi, məlumat-biblioqrafiya işinin təşkili və s. məsələlərdə əsaslı kitabxana lazımi köməklik göstərirdi. Hər cür çətinliyə baxmayaraq kitabxana fondunun komplektləşdirilməsinə, yeni nadir kitabların əldə edilməsinə xüsusi diqqət yetirilirdi. Kitabxana Azərbaycan

Dövlət Kitab Palatasından məcburi nüsxələri müntəzəm almaqla yanaşı, Moskva, Sankt-Peterburq, Daşkənd, Tbilisi, Yerevan, Aşqabad və SSRİ-nin digər şəhərlərindən kitablar alırdı. SSRİ EA limiti hesabına kitabxanaya xarici jurnallar və kitablar da göndərilirdi. Həmçinin kitabxana elmi əsərlərin və jurnalların hələ müharibədən əvvəl başlanmış mübadiləsini müharibə illərində də davam etdirirdi. Bu yolla SSRİ-nin bütün elmi müəssisələrinin yeni nəşrlərini əldə etmək mümkün olurdu.

Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS müharibə illərində EA Azəpbaycan filialının fəaliyyətinə xüsusi diqqət yetirirdi. 1943-cü ilin noyabrında Mərkəzi Komitə EA Azəpbaycan filialının işi haqqında qərar qəbul etdi[109]. Bu qərarda EA Azəpbaycan filialının işini yaxşılaşdırmaq, onun yeni institutlarını və bölmələrini yaratmaq üçün geniş perspektivlər müəyyənləşdirilmişdi. Qərarda EA Azəpbaycan filialının kitabxanasının genişləndirilməsi, institut kitabxanalarının işinin yaxşılaşdırılması, kitabxanaların yeni ədəbiyyatla təkmilləşdirilməsinə diqqət yetirilməsi, əlyazmalar fondunun təşkili və s. məsələlər də öz konkret həllini tapmışdı.

1945-ci il mart ayının 7-də SSRİ EA Azərbaycan filialı və respublikanın bir sıra başqa elmi-tədqiqat idarələri əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Azərbaycan SSR Elmlər Akademiyasının yaranması respublikamızda Sovet hakimiyyəti illərində elm və mədəniyyətin misilsiz tərəqqisi Azəpbaycan elminin inkişafının nəticəsi idi.

Akademiyanın yaranması ilə əlaqədar olaraq onun kitabxana şəbəkəsi xeyli genişləndi. Artıq 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının 16 institut kitabxanası, 3 muzey kitabxanası və 4 baza (Gəncə, Xankəndi, Naxçıvan və Quba bazaları) kitabxanası var idi. Akademiyanın əsaslı kitabxanası yenidən təşkil edilmiş, onun ştatı və funksiyaları genişləndirilmiş, binası böyüdülmüşdü.

c) Respublika elmi-texniki kitabxanaları müharibə illərində

Böyük Vətən müharibəsi illərində respublikada əhaliyə kitabxana xidmətinin təşkilində elmi-texniki kitabxanalar da mühüm işlər görmüşdü. Müharibənin ilk günlərindən respublikanın digər kitabxana şəbəkələri kimi texniki kitabxana şəbəkəsi də (1941-ci ildə 41 texniki kitabxana fəaliyyət göstərirdi) bilavasitə öz işini müharibənin qarşıya qoyduğu vəzifələr əsasında yenidən qurmuşdu. Respublikada neft sənayesinə və digər fabrik, zafod və müəssisələrə xidmət etmək işində Azərbaycan neft kombinatının Mərkəzi Elmi-Texniki Kitabxanasının fəaliyyəti diqqətəlayiq olmuşdur. Bu kitabxana əhaliyə xidmətlə yanaşı bütün texniki kitabxanaların metodik mərkəzi kimi də fəaliyyət göstərir, texniki ədəbiyyatın hərtərəfli təbliğini təşkil edirdi. O, respublikada neft ədəbiyyatına malik olan ən böyük kitabxana idi. Müharibədən əvvəlki beşilliklər dövründə texniki biliklərin təbliği sahəsində kitabxana çox böyük təcrübə əldə etmişdi. Müharibə başlandıqdan sonra öz işinin müəyyən hissəsini ayrı-ayrı müəssisələrə keçirdi.

Müharibə respublikamızın neft sənayesi qarşısında ölkənin hərbi texnikasının yanacağa olan ehtiyacını ödəmək kimi mühüm vəzifə qoymuşdu. Bü mühüm vəzifənin həllində respublikamızın elmi-texniki kitabxana şəbəkəsi mühəndis-texniklərə və neft fəhlələrinə əməli yardım göstərir, texniki biliklərə yiyələnməkdə, yeni peşələri öyrənməkdə, istehsalı mənimsəməkdə kömək edirdi. Kitabxana neft mədənlərinə, neftayırma, maşınqayırma, həmçinin neft avadanlığını təmir edən zavodlara kitabla xidmət etməklə yanaşı, məlumat-biblioqrafiya xidməti göstərir, yeni texniki nailiyyətlər haqqında məlumat verirdi. Kitabxana zavodlarda səyyar məntəqə təşkil edir və öz fəaliyyətini bu məntəqələr vasitəsi ilə həyata keçirirdi.

Müharibə ilə əlaqədar olaraq kitabxananın qarşısında bir sıra çətinliklər meydana çıxmışdı. Kitabxananın büdcəsi

xeyli azalmış, yeni kitablar alınması, xüsusilə Mərkəzi Elmi Kitabxana Kollektorundan kitabların göndərilməsi işi zəifləmişdi. Həmçinin kitabxana işçilərindən bəzilərinin orduda səfərbərliyə alınması da ümumi işin təşkilinə mənfi təsir göstərirdi. Mövcud çətinliklər kitabxana işçilərinin böyük vətənpərvərlik səyi nəticəsində müvəffəqiyyətlə aradan qaldırılırdı.

Kitabxana mərkəzdə və respublikada nəşr edilən ədəbiyyatları müntəzəm olaraq əldə edə bilirdi. 1941-ci ildə 3871 nüsxə, 1942-ci ildə 2000 nüsxə, 1943-cü ildə 2000 nüsxə, 1944-cü ildə 3000 nüsxə və 1945-ci ildə isə 5000 nüsxə ədəbiyyat alınmışdı[110]. Kitabxana xarici dillərdə də ədəbiyyat alırdı. Doğrudur, müharibə illərində xarici dildə alınan ədəbiyyatın sayı xeyli azalmışdı. 1943-cü ildən başlayaraq kitabxanada neftə dair xarici kitabların sayı əhəmiyyətli dərəcədə çoxalmışdı.

Kitabxana ildə 19 adda texniki jurnal alırdı. Jurnallardan səmərəli istifadə etmək üçün kitabxana yeni jurnalların daimi sərgisini təşkil edir, onlar haqqında məlumat işi aparırdı. Staxanovçulara, səmərələşdiricilərə, ixtiraçılara, mühəndis və texniklərə müntəzəm olaraq yeni jurnallar haqqında məlumat verilirdi. Jurnallarla aparılan iş daimi xarakter daşıyırdı. Kitabxana aldığı jurnalları tezliklə təsvir edib biblioqrafik kartotekalarda əks etdirirdi. Kitabxana xarici jurnallar da alırdı. Xarici jurnalları oxucular arasında təbliğ etmək üçün jurnal sərgiyə qoyularkən məqalələrin sərlövhələri rus dilinə tərcümə edilirdi. Bəzən ixtiraçılar və səmərələşdiricilər üçün məqalələrin tərcümə edilməsi işinə də köməklik göstərilirdi.

Mütəxəssislərə və neftçi fəhlələrə verilən hər bir texniki kitab yeni ideyanın meydana gəlməsinə, əmək məhsuldarlığının yüksəldilməsinə, texniki qəzaların tez aradan qaldırılmasına böyük kömək idi. Məhz buna görədir ki, kitabxananın kollektivi müharibə illərində oxuculara xidmət işini ön plana çəkmiş, kitabxanaya yeni oxucular cəlb edilməsi,

yeni-yeni mütəxəssislərə xidmət edilməsi, oxucular arasında kitabın hərtərəfli təbliğ edilməsi işinin qaydaya salınmasına mühüm əhəmiyyət vermişdir. Müharibə illərində hər cür çətinliyə baxmayaraq, kitabxananın oxucuları və onlara verilən kitabların miqdarı müntəzəm olaraq artmışdır. Kitabxana müharibə illərində 9 minə qədər oxucuya xidmət etmiş və onlara 800 minə yaxın kitab vermişdi.

Müharibə illərində kitabxana mütəxəssislərə məlumat-biblioqrafiya xidmətini yaxşılaşdırmaq məqsədi ilə 1941-ci ildə «Azərneft»in yanında məlumat kitabxanası açmışdı[111]. Bu kitabxana müntəzəm olaraq dövri nəşrlərlə, yeni texniki kitablarla təchiz edilirdi. Burada yeni ədəbiyyatın daimi sərgisi və texniki məlumat kitablarının açıq rəfi təşkil edilirdi ki, bu da mütəxəssislərə soraq-məlumat xidməti göstərməyə böyük kömək idi. Kitabxana müharibə illərində Bakıda yerləşən hərbi qospitallara çağırış məntəqələrinə xidmət işinin təşkilinə də mühüm diqqət yetirirdi[112].

Müharibə dövründə kitabxananın fəaliyyətində kütləvi və məlumat-biblioqrafiya işləri çox mühüm yer tutmuşdu. Kitabxananın həyata keçirdyi kütləvi tədbirlər içərisində kitab sərgiləri, fotomontajlar böyük əhəmiyyətə malik idi.

Kitabxana 1941-ci ildə 173, 1942-ci ildə 116, 1943-cü ildə 123, 1944-cü ildə 117, 1945-ci ildə isə 124 sərgi təşkil etmişdi[113].

Kitabxana Böyük Vətən müharibəsi illərində 653 sərgi təşkil etmiş və bu sərgidə təqribən 40 minə qədər kitab, jurnal və s. materiallar nümayiş etdirilmişdi.

Kitabxana müharibə illərində oxucular arasında məlumat-biblioqrafiya işlərinin təşkilinə də xüsusi diqqət yetirirdi. Oxuculara kitabxana xidmətinin nümunəvi təşkili məlumat işlərinin keyfiyyətindən xeyli asılı idi. Kitabxana müharibənin ilk günlərindən məlumat-biblioqrafiya şöbəsinin işini yeni vəzifələrə uyğun şəkildə qururdu. Kitabxananın kataloq sistemi müntəzəm surətdə yoxlanılır, yeni kartoçkalarla təmin edilir, müharibə ilə əlaqədar olaraq kataloqlarda

yeni rubrikalar ayrılırdı. Kitabxanada «Müharibə və neft» adlı kataloq tərtib edilmişdir. Bu kataloq bütün müharibə boyu təkmilləşmiş, yeni kartoçkalarla təmin edilmişdi. Kitabxana 1941-1945-ci illərdə oxuculara 12894 şifahi və ya 216 yazılı biblioqrafik məlumat vermişdi.

Müharibə illərində texniki kitabxanaların işinə metodik rəhbərlik edilməsində, fondlarının komplektləşdirilməsində, kitabxanalar üçün kadr seçilməsində, məlumat-biblioqrafiya işinin təşkilində Mərkəzi Elmi-Texniki Kitabxana mühüm fəaliyyət göstərirdi. Kitabxanada texniki kitabxanalara metodik kömək göstərmək üçün xüsusi metodist ştatı var idi. Metodist kitabxanaların işini vaxtaşırı yoxlayır, onların ehtiyac və tələbatlarını öyrənir və kömək edirdi. Kitabxanada vaxtaşırı metodik müşavirələr, seminarlar keçirilir, təcrübəsiz kitabxana işçiləri üçün qısamüddətli kurslar açılırdı.

Respublika Mərkəzi Elmi-Texniki Kitabxanasının kollektivinin böyük əmək fədakarlığı dövlət tərəfindən yüksək qiymətləndirilmişdi. Kitabxana işçilərindən 4 nəfəri «Böyük Vətən müharibəsində fədakar əməyə görə» medalı ilə təltif edilmişdi[114].

ç) Ali məktəb kitabxanaları müharibə illərində

Müharibə illərində Azərbaycanda ali təhsil sistemi müharibə şəraitinə uyğun olaraq yenidən quruldu. Ali məktəblərin müəllim və tələbələrinin orduya səfərbər edilməsi ilə əlaqədar olaraq ali məktəblərdə təhsil müddəti qısaldıldı. Yeni keçici xarakter daşıyan tədris planları və ixtisar edilmiş proqram üzrə kadr hazırlanmağa başlandı. Müvəqqəti çətinlik üzündən bir sıra ali məktəblər öz fəaliyyətini dayandırdı. 1941-1945-ci illərdə respublikada ali məktəblərin və onlarda oxuyan tələbələrin sayı yarıbayarı azaldı[115]. 1941-ci ildə müharibənin çətinlikləri ilə əlaqədar olaraq Azərbaycan Dövlət Pedaqoji İnstitutu və Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu Bakı Dövlət Universiteti ilə birləşdirildi[116]. Bunun

nəticəsində həmin institutların kitabxanaları da universitetin kitabxanası ilə birləşdi.

1941-1942-ci dərs ilində universitet kitabxanasında 118895 nüsxə kitab var idi. İnstitutun kitabxanaları ilə birləşdirildikdən sonra universitet kitabxanasının fondu 400 min nüsxəyə çatdı və kitabxana öz fonduna görə respublikada ikinci yerə çıxdı. Müharibə illərində universitetin və institutların binalarının qospitallara çevrilməsi ilə əlaqədar həmin ali təhsil müəssisələrinin kitabxanaları da bir neçə dəfə müxtəlif binalara köçürülmüşdü. Köçürülmə işi heç bir hazırlıq görülmədən təcili aparıldığından kitab fonduna xeyli dağıntı üz vermiş, kitabların bir hissəsi xarab olmuşdu.

1943-cü ilin sentyabrında universitetin binası özünə qaytarıldı və 1944-cu ilin iyun ayında kitab fondu yenidən bu binaya köçürüldü[117]. Kitabxananın öz binasına köçürülməsi kitab fondunu yenidən təşkil etməyə, bütün kitabları fondda yerləşdirməyə, oxuculara xidməti yaxşılaşdırmağa geniş imkan yaratdı.

Kitabxanada oxuculara xidmət etmək üçün iki qiraət zalı (tələbələr və professor-müəllimlər üçün), məlumat-biblioqrafiya bürosu və Şərq şöbəsi fəaliyyət göstərirdi. Kitabxana kollektivi abonement yolu ilə qospitallara da kitab verirdi. Kitabxana Böyük Vətən müharibəsinə həsr edilmiş 38 daimi və səyyar kitab sərgisi təşkil etmiş, hamiliyə götürdüyü qospitallara 1943-cü ilin iyun ayına qədər 618 kitab vermişdi. Həmçinin kitabxana hərbi hissələrə 28826 manatlıq 6825 kitab göndərmişdi[118].

1943-cü ilin əvvəllərində Azərbaycan K(b)P MK-nın qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutu və Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu Bakı Dövlət Universitetindən ayrılaraq yenidən müstəqil fəaliyyət göstərməyə başladılar[119].

İnstitutların ayrılması ilə əlaqədar olaraq onların kitabxanaları da universitet kitabxanasından ayrılıb özlərinə qaytarıldı. Artıq respublikamızda müharibənin axırıncı ilin-

də 12 min 300 tələbəyə xidmət edən 17 ali məktəb kitabxanası fəaliyyət göstərirdi[120].

d) Respublika Elmi Tibb Kitabxanası müharibə illərində

Müharibə ərəfəsində respublikamızın xüsusi elmi kitabxanalar şəbəkəsinə yeni bir kitabxana – Respublika Mərkəzi Tibb Kitabxanası daxil olmuşdu. Respublika Tibb Kitabxanasının yaranması respublikamızın tibb ictimaiyyəti üçün olduqca əhəmiyyətli hadisə idi. Bu kitabxana öz qarşısında tibb elminin bütün sahələrinə dair ədəbiyyat toplamaq, onu təbliğ etmək və kitabxana şəbəkəsinə metodik rəhbərlik etmək vəzifəsi qoymuşdu. Kitabxana, həmçinin tibb elminə dair məlumat işinin mərkəzi kimi də fəaliyyət göstərməli idi.

Respublika Elmi Tibb Kitabxanası SSRİ XKS-nin qərarı əsasında 1940-cı ildə təşkil edildi. Kitabxana işinə rəhbərlik Azərbaycan SSR Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilirdi. Kitabxana açılarkən onun fondunda 16552 nüsxə kitab var idi.

Kitabxana öz fəaliyyətini müharibə illərində davam etdirdiyindən ilk dövrdə böyük çətinliklərlə rastlaşdı. Bu çətinlik əsasən binanın darısqal olmasında və ixtisaslı kitabxanaçı kadrların çatışmamasında özünü göstərirdi. Müharibə şəraiti, xüsusilə Bakıda böyük hərbi qospitalların yaradılması kitabxananın qarşısında öz işini tezliklə qaydaya salmağı, fondunu tibb ədəbiyyatı ilə təkmilləşdirməyi, respublikanın tibb ictimaiyyətini və hərbi qospitalların tibb heyətini ədəbiyyatla, dövri mətbuatla təmin etmək vəzifəsini qoymuşdu.

Respublika Səhiyyə Nazirliyi kitabxananın işinə xüsusi qayğı ilə yanaşırdı. 1943-cü ildə RETK-nın yeni bina ilə təmin edilməsi ona öz fəaliyyətini xeyli genişləndirmək imkanı verdi.

Müharibə şəraitindən doğan çətinliklərə baxmayaraq kitabxana öz fondunu müntəzəm surətdə yeni ədəbiyyatla komplektləşdirməyə müvəffəq oldu. Əgər kitabxananın fondunda 1940-cı ildə 16552 nüsxə kitab var idisə, 1943-cü ildə 28665 nüsxəyə, 1945-ci ildə isə 32427 nüsxəyə çatdırılmışdı. Göründüyü kimi, müharibə dövründə kitabxananın fondu iki dəfəyə qədər artmışdı[121].

Kitabxana təkcə 1942-ci ildə cənub cəbhəsinə bir neçə kitab və jurnal bağlaması göndərmişdi.

Kitabxana öz oxucularının tələbatını ödəmək üçün kitabxanalararası abonementdən də istifadə edir, Moskva, Tbilisi, Yerevan, Daşkənd və s. şəhərlərin tibb kitabxanaları ilə əlaqə saxlayırdı[122].

RETK-nın həyata keçirdiyi bütün tədbirlər bilavasitə oxucuların kitaba tələbatının ödənilməsinə yönəldilmişdi. Müharibə illərində kitabxananın oxucuları müntəzəm olaraq artmışdı. Əgər 1941-ci ildə kitabxananın 352 oxucusu var idisə, 1945-ci ildə onların sayı 860 nəfərə çatmışdı. Ümumiyyətlə, müharibə illərində kitabxana 2577 nəfər oxucuya xidmət etmiş və onlara 29400 nüsxə kitab vermişdir[123]. Kitabxana müharibə illərində Naxçıvan, Gəncə, Xankəndi kitabxanalarını hamiliyə götürmüşdü, onlara metodik köməklik göstərməklə yanaşı, vaxtaşırı kitablar da göndərirdi. O, respublikanın Mərkəzi Elmi Tibb Kitabxanası olduğundan Tibb İnstitutunun və 4 elmi-tədqiqat tibb institutunun kitabxanasına metodik köməklik göstərirdi.

Kitabxana müharibə dövründə respublikanın tibb ictimaiyyətinin hörmətini qazanmağa müvəffəq olmuş, tibb ədəbiyyatının təbliğinin əsas mərkəzinə çevrilmişdi. Hərbi qospitalların tibb heyətinə xidmət sahəsində kitabxananın fəaliyyəti qospitalların kollektivi tərəfindən yüksək qiymətləndirilmiş, və bu isə rəsmi sənədlərdə öz əksini tapmışdır.

IV fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı

[1] К.И.Абрамов. История библиотечного дела в СССР.- М., 1970, s. 365-366.
[2] «Kommunist» qəzeti, 1945, 20 noyabr.
[3] Q.Mədətov. Azərbaycan Böyük Vətən müharibəsində (1941-1945). Bakı, 1965, s. 343.
[4] История Азербайджана в трех томах, т. III часть II, Бакы, 1963, s.150.
[5] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 300, v. 8.
[6] Г.Г.Мехтиев. Деятельность Коммунистической партии Азербайджана в период Великой Отечественной войны. 1941-1945 г. Баку, 1967, s.100
[7] Yenə orada. səh 111-112.
[8] «Kommunist» qəzeti, 1945, 20 noyabr.
[9] ЦСУ СССР Народное образование, наука и культура в СССР, Статистический сборник. М., 1970, с. 285.
[10] История Азербайджана в трех томах, т. III часть II, Баку, 1963, s.149.
[11] ЦСУ СССР Народное образование, наука и культура в СССР, Статистический сборник.- М., 1970, с. 302.
[12] История Азербайджана в трех томах, т. III часть II, Бакы, 1963, с.149.
[13] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 162, v. 29.
[14] Yenə orada. v. 43.
[15] Пропагандист, 1944, № 2. с. 24-32.
[16] Yenə orada.
[17] Сборник руководящих материалов по библиотечной работе.- М., 1947, s.95.
[18] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 300, v. 61.
[19] Yenə orada. v. 62.
[20] Имени Владимир Ильича Ленина. Бакы, 1959, s. 23.
[21] Г.Г.Мехтиев. Деятельность Коммунистической партии Азербайджана в период Великой Отечественной войны. 1941-1945 г. Баку, 1967, s. 41.
[22] Имени Владимир Ильича Ленина. Бакы, 1959, s. 23.
[23] H.Tağıyev. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı. Bakı, 1960, s. 52.
[24] Q.Mədətov. Azərbaycan Böyük Vətən müharibəsində. 1941-1945. Bakı. 1965, s. 344-345.

[25] «Бакинский рабочий» qəzeti, 1943, 15 yanvar.
[26] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 300, v. 4.
[27] «Бакинский рабочий» qəzeti, 1941, 18 oktyabr.
[28] Yenə orada, 1942, 25 may.
[29] «Вышка» qəzeti, 1943, 23 noyabr.
[30] Azərbaycan SSR MN arxivi, f. 10, s. 4, iş 1, səh. 2-5
[31] М.Аббасов. Баку в годы Великой Отечественной войны. Bakı, 1967, s. 61.
[32] M.Ə.Sabir adına kitabxananın 1941-1945-ci illərə dair hesabatları.
[33] V.İ.Lenin adına Mərkəzi şəhər Kitabxanasının arxivi. F. 1, s. 1, iş 78, v. 25.
[34] H.Tağıyev. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı.- Bakı, 1960, s. 47.
[35] Bakı şəhər Sovetinin arxivi, f. 235, s. 3, iş 70, v. 6.
[36] H.Tağıyev. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı. Bakı, 1960, s. 53.
[37] V.İ.Lenin adına Mərkəzi şəhər Kitabxanasının arxivi. F. 1, s. 1, iş 30, v. 29.
[38] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 129, iş 1, v. 276-278.
[39] В.Е.Васильченко. История библиотечного дела в СССР, М., 1958, s. 194.
[40] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 129, iş 18 v. 6.
[41] Yenə orada, s. 238, iş 300 v. 4.
[42] H.Tağıyev. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı.- Bakı, 1960, s. 54-55.
[43] Q.Mədətov. Azərbaycan Böyük Vətən müharibəsində. 1941-1945. Bakı, 1965, s. 337.
[44] «Kommunist» qəzeti, 1943, 22 sentyabr.
[45] М.Аббасов. Баку в годы Великой Отечественной войны. Bakı, 1967, səh. 61.
[46] Имени Владимира Ильича Ленина. Баку, 1959, s. 27.
[47] «Kommunist» qəzeti, 1942, 28 avqust.
[48] В.Е.Васильченко. История библиотечного дела в СССР, М., 1958, s. 190.
[49] Azərbaycan SSR OİMDA. F. 1725, s. 2, iş 272, v. 77.
[50] К.Гусейнов., М.Наидель. Профсоюзы Советского Азербайджана. Бакы, 1962, s. 221.
[51] Azərbaycan SSR OİMDA. F. 1725, s. 2, iş 149, v. 92.

[52] «Vışka» qəzeti, 1944-cü il, 10 oktyabr.
[53] Yenə orada.
[54] Azərbaycan SSR OİMDA. F. 1725, s. 2, iş 272, v. 70.
[55] Yenə orada, v. 72.
[56] Azərbaycan SSR OİMDA. F. 1725, s. 2, iş 272, v. 73.
[57] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 308 v. 19.
[58] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 281 v. 35.
[59] Yenə orada.
[60] ЦСУ СССР Народное образование, наука и культура в СССР, Статистический сборник. М., 1971, с. 287.
[61] Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafı. Statistik məcmuə.- Bakı, 964, s. 119.
[62] Naxçıvan MSSR MDA, f. 1, s. 5, iş 19, v. 5.
[63] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 154 v. 63-64.
[64] Naxçıvan MSSR MDA, f. 1, s. 5, iş 11, bağlı 4, v. 9.
[65] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 154 v. 63-64.
[66] Yenə orada, v. 25.
[67] «Təşviqatçı», 1944, № 3, s. 51-60.
[68] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 281, v. 38.
[69] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 154, v. 7.
[70] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 226, v. 6.
[71] Yenə orada, v. 9.
[72] Yenə orada, iş 241, v. 17.
[73] «Kommunist» qəzeti, 1944, 11 iyun.
[74] Propaqandist, 1944, s. 25-26.
[75] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 308, v. 19.
[76] Yenə orada, iş 319, v. 5.
[77] H.Tağıyev. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı, Bakı, 1960, s. 55.
[78] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 308, v. 19.
[79] Azərbaycan SSR OİMDA. F. 57, s. 1, iş 1313, v. 8.
[80] Azərbaycan SSR MN arxivi, f. 1, s. 2, iş 45, v. 84.

[81] «Бакинский рабочий» qəzeti, 1944, 8 oktyabr.
[82] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 86, v. 1.
[83] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 41, v. 172.
[84] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 30, v. 38.
[85] Yenə orada, iş 680, v. 28.
[86] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 20, v 4-5.
[87] Azərbaycan SSR OİMDA. F. 54, s. 1, iş 1595, v. 13.
[88] M.F.Axundov adına Azərbaycan Respublika Ümumi Kitabxanası. Bakı, 1947, s. 29.
[89] «Вышка» qəzeti 1942, 17 may.
[90] [90] «Бакинский рабочий» qəzeti, 1943, 15 oktyabr.
[91] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 20, v 7.
[92] Yenə orada, iş 23, v. 54.
[93] Yenə orada, v. 3-10.
[94] Yenə orada, v. 52-53.
[95] «Вышка» qəzeti 1942, 17 may.
[96] M.F.Axundov adına Azərbaycan Respublika Kitabxanası 40 il. Bakı, 1963, s. 8.
[97] M.F.Axundov adına Azərbaycan Respublika Ümumi Kitabxanası. Bakı, 1947, s. 23.
[98] Azərbaycan SSR OİMDA. F. 3024, s. 1, iş 61, v. 48.
[99] Yenə orada, iş 20, v. 52-53.
[100] Yenə orada, iş 20, v. 54-57.
[101] Yenə orada, iş 20, v. 52-53.
[102] M.X.Самедов. Азербайджанская Республиканская библиотека им. М.Ф.Ахундова, Бакы, 1959, s. 20.
[103] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 23, v 1-2.
[104] Yenə orada, f. 1, iş 20, v. 40-41.
[105] Yenə orada, v. 52-53.
[106] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 20, v 3-10
[107] Yenə orada.
[108] X.M.Самедова. Азербайджанская Республиканская библиотека им. М.Ф.Ахундова, Бакы, 1959, s. 20.
[109] Ə.Bağırzadə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970, s. 356-357.
[110] Respublika Mərkəzi Elmi-Texniki Kitabxanasının arxivi, kitabxananın 1941-1945-ci illərə dair hesabatları.

[111] Respublika Mərkəzi Elmi-Texniki Kitabxanasının arxivi, kitabxananın 1941-ci ilə dair hesabatları, s. 3.
[112] Yenə orada, kitabxananın 1943-cü ilə dair hesabatı, s. 2.
[113] Yenə orada, kitabxananın 1943-cü ilə dair hesabatı, s. 4, 1944-cü ilin hesabatı, səh. 18, 1945-ci ilin hesabatı, s. 24.
[114] Azərbaycan SSR MN arxivi, f. 10, s. 4, iş 57, s. 41.
[115] Q.Mədətov. Azərbaycan Böyük Vətən müharibəsində. Bakı, 1965, s. 70.
[116] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 298, iş 300, v. 36.
[117] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 300, v. 37.
[118] Х.О.Алимирзоев. Азербайджанский Государственный Университет за 50 лет. Баку, 1969, с. 154.
[119] Ə.Bağırzadə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970, s. 352.
[120] Культурное строительство Азербайджанской ССР, статистический сборник, Баку, 1961, с. 66.
[121] Pespublika Mərkəzi Elmi Tibb Kitabxanasının arxivi, kitabxananın 1943-1945-ci illərə dair hesabatları.
[122] «Вышка» qəzeti, 1942, 21 iyun.
[123] Azərbaycan Dövlət elmi tibb kitabxanasının arxivi, kitabxananın 1941-1945-ci illərə dair hesabatları.

V FƏSİL
XALQ TƏSƏRRYFATININ BƏRPA VƏ İNKİŞAFI DÖVRÜNDƏ AZƏRBAYCANDA KİTABXANA İŞİ (1946-1952-ci illər)

§ 5.1. Kitabxana şəbəkələrinin bərpa və inkişaf etdirilməsi

Böyük Vətən müharibəsi qələbə ilə başa çatdırıldıqdan sonra sovet xalqı dinc quruculuq dövrünə qədəm qoydu. Müharibənin ölkəmizə vurduğu böyük zərərləri aradan qaldırmaq, xalq təsərrüfatının bütün sahələrini bərpa etmək, xalqımızın maddi və mədəni rifah halını daha da yaxşılaşdırmaq qarşıda mühüm və təxirəsalınmaz vəzifə kimi dururdu.

Məhz buna görə də 1946-cı ilin martında SSRİ Ali Sovetinin sessiyası xalq təsərrüfatının bərpa və inkişafına dair dördüncü beşillik plan haqqında qanun qəbul etdi[1]. Bu planda müttəfiq respublikalarda təsərrüfat və mədəniyyətin geniş inkişafına xüsusi diqqət yetirilirdi.

1946-cı ilin avqustunda Azərbaycan SSR Ali Soveti dördüncü beşillik plana müvafiq olaraq «1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında qanun» qəbul etdi. Bu plana əsasən respublikamızda xalq təsərrüfatı qısa müddətdə müharibədən əvvəlki səviyyəyə çatmalı və onu ötüb keçməli idi. Beşillik planda Azərbaycanda xalq maarifinin və elmin gələcək inkişafına xüsusi diqqət yetirilməklə yanaşı, mədəniyyətin bütün sahələrinin hərtərəfli inkişaf etdirilməsi, zəhmətkeşlərin mədəni səviyyəsinin daha da yüksəldilməsi, onların ideya-siyasi tərbiyə işinin yaxşılaşdırılması, insanların şüurunda köhnəliyin qalıqlarına qarşı mübarizə aparılması əsas vəzifələrdən biri kimi irəli sürülürdü.

Azərbaycan SSR Mədəni-Maarif Müəssisələri Komitəsi 1948-ci ilin iyun ayında kitabxana işçilərinin respublika müşavirəsini keçirdi[2]. Müşavirədə respublika sovet və par-

tiya aparatının işçiləri, vilayət, şəhər partiya komitələrinin, Azərbaycan LKGİ Mərkəzi Komitəsinin, Yazıçılar İttifaqının, həmkarlar təşkilatlarının nümayəndələri də iştirak edirdilər. Müşavirə Azərbaycanda kitabxana işinin vəziyyəti və vəzifələri; Respublika kitabxanalarının kitabla təchiz olunması haqqında məruzələri müzakirə etdi. Birinci məsələ haqqında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri Süleyman Rəhimov məruzə etdi. Məruzədə respublikada kitabxana işinin vəziyyəti, inkişaf perspektivləri və vəzifələri ətraflı təhlil edildi. Sovet hakimiyyəti illərində kitabxana işi sahəsində əldə edilmiş böyük nailiyyətlər Azərbaycan xalqının mədəni inkişafının əsas amillərindən biri kimi qiymətləndirildi. Məruzəçi qarşıda duran vəzifələri şərh edərkən kitabxana işi sahəsində mövcud olan nöqsanları, hələ də yerlərdə bəzi idarə rəhbərlərinin bu işi lazımınca qiymətləndirə bilmədiklərini, kitabxanaçı kadrların tərkibinin müasir tələbata cavab verə bilməməsini və s. nöqsanları da qeyd etdi.

Müşavirənin bölmə iclaslarında isə «Oxucularla, işdə tövsiyə biblioqrafiyasının əhəmiyyəti və Azərbaycanda biblioqrafiya işinin vəziyyəti»; «Kitabxana işinin təşkili və planlaşdırılması»; «Uşaq kitabxanalarında ideoloji tərbiyə işləri» və s. mövzularda məruzələr dinlənildi. Respublikamızın qabaqcıl kitabxana işçiləri və biblioqraflarından Ə.H.Qəhrəmanov, S.Rəhimzadə, A.N.Lerman, Ə.Y.Əliyev, T.A.Rudneva və başqaları çıxış etdilər.

Müşavirə məruzə və çıxışların təhlili əsasında respublikamızda kitabxana işinin bərpa və inkişafı üçün böyük əhəmiyyət daşıyan bir qərar qəbul etdi. Bu qərar respublikamızda kitabxana işinin inkişaf proqramı oldu. Müşavirənin qərarlarında irəli sürülən müddəaların həyata keçirilməsi bilavasitə kitabxana işinin məzmununa, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılmasına, kitabxana işində mövcud olan formalizm təzahürlərinin aradan qaldırılmasına, kitabxana işinin istehsalata, xalq təsərrüfatı planlarının yerinə yetirilməsi vəzifələrinin həllinə daha da yaxınlaşmasına səbəb oldu. Müşavirənin qərarları kitabxanaların metodik işini xüsusilə yaxşılaşdırdı, qabaqcıl kitabxanaların iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsini, RSFSR və digər müttəfiq respublikaların kitabxana işində meydana gəlib formalaşan qabaqcıl təcrübənin yayılmasını daha da mütəşəkkilləşdirdi.

Kitabxana işçilərinin respublika müşavirəsi öz qərarında belə hesab edirdi ki, sovet kitabxanalarının başlıca vəzifəsi ÜİK(b)P MK-nın ideoloji məsələlərə dair tarixi qərarlarını həyata keçirməkdən, kitabxana işinin ideya-siyasi səviyyəsini hər vasitə ilə yüksəltməkdən, Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik planın, ilk növbədə neft və kənd təsərrüfatı üzrə planın yerinə yetirilməsinə kömək etməkdən ibarətdir. Kitabxanalar SSRİ Konstitusiyasını, xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik planı geniş təbliğ etmək, ictimai-siyasi ədəbiyyatı, elmi-texniki və aqrotexniki kitabları yaymaq işinə əsas diqqət yetirməlidir. Müşavirə kitab təbliği işini yaxşılaşdırmaq üçün kitabxanaların ətrafında geniş fəallar qrupunun yaradılmasını, bu işə ziyalıların cəlb edilməsini, kütləvi kitab təbliğinin forma və üsullarından geniş surətdə istifadəyə xüsusi fikir verilməsini lazım bildi.

Müşavirə Mədəni-Maarif Müəssisələri Komitəsinə və onun bütün idarələrinə tapşırdı ki, əlaqədar nazirliklər, idarələr və ictimai təşkilatlarla birlikdə yaxın gələcəkdə Azərbaycan SSR-də kitabxana işi inkişafının perspektiv planını hazırlasın. Respublikanın şəhərlərində və rayonlarında bütün idarələrin kitabxana şəbəkələrinin səmərəli yerləşdirilməsini; kənd yerlərində kitabxana şəbəkələrinin planauyğun genişləndirilməsini və mövcud kitabxanaların daha da möhkəmləndirilməsini təmin etsin; oxuculara xidmət işini yaxşılaşdırmaq üçün «avtomobil-kitabxanalardan» istifadə etsin; kitabxanalararası abonementi və kitab mübadiləsi işini genişləndirsin; Bakı Mədəni-Maarif Müəssisəsi yanındakı kitab mübadilə fondunu respublika fonduna çevirsin; kitab-

xana fondunun komplektləşdirilməsi işinə diqqəti artırsın; Moskva nəşriyyatlarından Azərbaycana göndərilən rus dilli kitabların miqdarını artırmaq üçün yuxarı təşkilatlar qarşısında məsələ qaldırsın.

Müşavirə respublikada kitabxana işinə rəhbərliyi yaxşılaşdırmaq, kitabxana işini əlaqələndirmək, dövlət kitabxana şəbəkəsi ilə əlaqədar olaraq ayrı-ayrı idarə və müəssisələrin kitabxanalarına rəhbərlik etmək üçün Mədəni-Maarif Müəssisələri komitəsinin yanında İdarələrarası Kitabxana Şurasının yaradılmasını lazım bildi. Belə bir şuranın yaranması ona görə olduqca zəruri idi ki, uzun illərdən bəri respublikada ayrı-ayrı idarə və müəssisələrin kitabxana işinə dövlət rəhbərliyini yerinə yetirmək, onların işini əlaqələndirmək və metodik kömək göstərmək başlı-başına buraxılmışdı.

Müşavirə respublikada kitabxana işinin inkişafının təşkilati məsələləri ilə yanaşı, kitabxanaşünaslıq və biblioqrafiyanın gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsində, bu sahədə mövcud olan nöqsanların tezliklə aradan qaldırılmasında da mühüm rol oynadı. Həmçinin kitabxanaşünaslıq və biblioqrafiyanın inkişaf etdirilməsi və kitabxanalara elmi-metodik xidmət işini yaxşılaşdırmaq üçün təxirə salınmadan bir sıra tədbirlərin həyata keçirilməsini lazım bildi. Həmin tədbirlər bunlardan ibarət idi: M.F.Axundov adına Respublika Ümumi Kitabxanasının yanında bütün idarə və müəssisələrin kitabxanalarına xidmət etmək üçün metodkabinə yaradılması; komitənin kitabxanaçılıq şöbəsi yanında kitabxanaşünas və biblioqraf mütəxəssislərdən ibarət elmi-metodik şuranın təşkil edilməsi; kitabxana işinin nəzəriyyəsinə dair konfranslar, diskussiyalar, mühazirələr keçirilməsi və onların işinə kitabxana işçilərinin cəlb edilməsi; «Azərbaycan məktəbi» jurnalında və «Azərbaycan müəllimi» qəzetində kitabxana işinə dair məqalələr dərc edilməsi və s.

Göründüyü kimi, kitabxana işin elə bir sahəsi idi ki, müşavirənin qərarlarında öz əksini tapmaması mümkün deyildir. Ümumiyyətlə, müşavirə Azərbaycan kitabxana işinin

tarixində müzakirə etdiyi məsələlərin əhəmiyyətinə və qəbul etdiyi qərarların mühümlüyünə və həyatiliyinə görə mühüm yer tutur. Müşavirə respublikamızda kitabxana işinin inkişafında yeni mərhələnin başlanğıcı olmaqla, onun ideya-siyasi məzmununun yüksəldilməsində çox böyük rol oynadı.

§ 5.2. Kitabxana işinə rəhbərlik sisteminin yenidən qurulması. Kütləvi kitabxana şəbəkəsinin bərpa və inkişafı. Kitabxanaçılıq təhsili

Müharibənin axırıncı ili olan 1945-ci ildə ölkəmizdə mədəni-maarif müəssisələrinə rəhbərliyin yaxşılaşdırılması sahəsində çox mühüm dövlət tədbiri görüldü. SSRİ XKS-nin 6 fevral 1945-ci il tarixli qərarı ilə RSFSR XKS-nin yanında Mədəni-Maarif Müəssisələri Komitəsi yaradıldı və bütün mədəni-maarif işləri bu komitədə birləşdirildi[3].

Həmin qərarla əlaqədar olaraq Azərbaycan SSR XKS 1945-ci il iyulun 25-də Azərbaycan SSR XKS yanında Respublika Mədəni-Maarif Müəssisələri Komitəsi yaradılması haqqında qərar qəbul etdi.

Respublika Mədəni-Maarif Müəssisələri Komitəsinin təşkili mədəni-maarif işinin yaxşılaşdırılması sahəsində çox mühüm addım idi. Komitənin yanında bir neçə şöbə təşkil edilmişdi ki, bunların biri də kitabxanaçılıq şöbəsi idi. Həmin şöbənin qarşısında respublikanın kitabxana şəbəkələrinə rəhbərlik, kitabxanaların iş təcrübəsini öyrənmək, ümumiləşdirmək, qabaqcıl iş təcrübəsini yaymaq, kitabxanalara metodik rəhbərlik işini yaxşılaşdırmaq, kitabxanaçı kadrların hazırlanması işinə rəhbərlik etmək vəzifəsi qoyulmuşdu. Yerlərdə mədəni-maarif müəssisələrinə rəhbərlik etmək üçün Naxçıvan MSSR XKS yanında mədəni-maarif müəssisələri idarəsi, DQMV İcraiyyə Komitəsi yanında mədəni-maarif işləri şöbəsi, Bakı Soveti İcraiyyə Komitəsi yanında mədəni-maarif işləri şöbəsi, Gəncə şəhər Sovetinin mədəni-maarif işləri şöbəsi və bütün rayon sovetlərinin mədəni-maarif işləri

şöbələri yaradıldı[4].

Azərbaycan SSR XKS yanında Mədəni-Maarif İşləri Komitəsinin ilk sədri vəzifəsinə respublikamızın görkəmli yazıçısı və ictimai xadimi Süleyman Rəhimov təyin edilmişdi. Mədəni-Maarif Müəssisələri Komitəsinin yaranması kitabxana işinə rəhbərlik sahəsində yeni mərhələnin başlanğıcı oldu. Sovet hakimiyyəti illərində ilk dəfə idi ki, mədəni-maarif müəssisələrinə rəhbərlik işi belə yüksək rəhbərliyin səviyyəsinə qaldırılmış, ayrıca nazirlik hüququna malik komitə yaradılmışdı.

Azərbaycan SSR Nazirlər Soveti 1946-cı ilin avqustunda «Azərbaycan SSR-də mədəni-maarif müəssisələrinin pasportlaşdırılması haqqında» qərar qəbul etdi[5]. Qərarda bütün şəhər, rayon, kənd, klub kitabxanalarının, qiraət komalarının, həmkarlar ittifaqları və kolxoz kitabxanalarının, həmçinin digər idarə və müəssisə kitabxanalarının qeydə alınması məsləhət görülürdü. Pasportlaşmanın əsas məqsədi mədəni-maarif müəssisələri şəbəkəsini dəqiqləşdirmək və onların vəziyyəti haqqında məlumat əldə etmək idi.

Həmin qərarla əlaqədar olaraq Mədəni-Maarif Müəssisələri Komitəsi 1946-cı ildə kitabxanaların pasportlaşdırılmasını keçirdi. Qeydəalma nəticəsində məlum oldu ki, respublikada 4 milyon nüsxə kitab fonduna malik olan 1499 kitabxana vardır. Onlardan 2828499 nüsxə kitab fondu olan 765-i kütləvi kitabxana idi. Kütləvi kitabxanalardan 202-si ayrı-ayrı idarə və müəssisələrə, 563-ü isə Mədəni-Maarif Müəssisələri Komitəsinə məxsus idi. Mədəni-Maarif Müəssisələri Komitəsinin kitabxanalarından 116-sı şəhər və rayon mərkəzi kitabxanası, 128-i kənd kitabxanası, 319-u isə klub və qiraət komaları kitabxanası idi. Həmin kitabxanalardan 507-si bilavasitə kənd rayonlarında xidmət göstərirdi. Kütləvi kitabxanalarda 873 nəfər kitabxanaçı işləyirdi. Bu kitabxanalardan başqa, respublikada 200 elmi, elmi-texniki və xüsusi kitabxana, 534 məktəb kitabxanası fəaliyyət göstərirdi[6].

Kitabxanaların dövlət tərəfindən qeydə alınması mü-

haribədən sonra kitabxana şəbəkəsinin həqiqi vəziyyətini ortaya çıxarmağa imkan verdi. Məlum oldu ki, müharibə Azərbaycanda kitabxana işinə də ciddi zərər vurmuşdu. Kitabxana işi olduqca zəifləmiş, əhaliyə kitabxana xidmətinin təşkili pozulmuşdu. Bütün dövlət vəsaiti bilavasitə faşist işğalçılarının darmadağın edilməsinə yönəldilmişdi. Müharibə illərində yeni kitabxana açılmamışdı. Mövcud kitabxanaların maddi-texniki bazası zəifləmişdi. Bəzi yerlərdə şəraitlə əlaqədar olaraq kitabxana binaları başqa məqsədlər üçün istifadəyə verilmiş, kitabxanalar isə daha pis binalara köçürülmüşdü. Kitabxanaçı kadrların orduya və digər müdafiə əhəmiyyətinə malik işlərə səfərbər edilməsi ilə əlaqədar olaraq kitabxanalara təcrübəsiz kadrlar gəlmişdi. Bütün bunlar əhaliyə kitabxana xidmətinin təşkilini xeyli çətinləşdirmiş, onun keyfiyyətcə pisləşməsinə səbəb olmuşdu.

Mədəni-Maarif Müəssisələri Komitəsi qısa müddətdə bu nöqsanları aradan qaldırmaq, kitabxana şəbəkəsini bərpa etmək üçün mühüm tədbirlər müəyyənləşdirib həyata keçirməyə başladı. Bü tədbirlər içərisində kitabxana şəbəkəsinin bərpa edilməsi, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxanaçı kadrların tərkibinin yaxşılaşdırılması ön plana çəkilmişdi.

Kitabxana şəbəkələrinin planauyğun şəkildə bərpa edilməsində, yaxın gələcəkdə müharibədən əvvəlki səviyyəyə çatmaq və onu ötüb keçmək işində 1946-cı ildə xalq təsərrüfatının inkişaf etdirilməsinə dair dördüncü beşillik planın göstəriciləri əsasında tərtib edilmiş «1946-1950-ci illərdə Azərbaycan SSR-də mədəni-maarif müəssisələrinin bərpa və inkişafına dair beşillik plan»ın olduqca böyük əhəmiyyəti oldu. Bu planda respublikamızda kitabxana işinin inkişafına xüsusi yer verilmiş, kitabxana şəbəkələrini bərpa və inkişaf etdirmək üçün real imkanlar və perspektivlər, əhalinin kitaba və mütaliəyə tələbatı nəzərə alınmışdı. Planda kitabxana şəbəkələrinin bərpa edilib, 1947-ci ildə müharibədən əvvəlki səviyyəyə çatdırılması, hər bir kənd sovetliyində kitabxana-

lar yaradılması nəzərdə tutulmuşdu. Həmçinin planda əhaliyə kitabxana xidmətini yaxşılaşdırmaq üçün kitabxana fondlarının yeni ədəbiyyatla komplektləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Beşilliyin axırında hər bir rayon kitabxanasında kitabların sayının 5000-ə, kənd kitabxanalarında 2000-ə, şəhər kitabxanalarında isə (Bakı Gəncədən başqa) 6000-ə çatdırılması nəzərdə tutulmuşdu.

Beləliklə, 1945-ci ilin məlumatına görə, orta hesabla rayon kitabxanalarında 2000, kənd kitabxanalarında 850, şəhər kitabxanalarında (Bakı və Gəncədən başqa) 3500 kitab olduğunu nəzərə alsaq, beşillik planın yerinə yetirilməsi nəticəsində kitabxanalara 1946-cı ildə 412,2 min kitab, 1947-ci ildə 713,3 min kitab, 1948-ci ildə 1030,6 min kitab, 1949-cu ildə 1448,4 min kitab, 1950-ci ildə isə 1872,7 min kitab daxil olmalı idi[7].

Beşillik planda kitabxanaların artımını aşağıdakı cədvəldən görmək olar[8].

	1945	1946	1947	1948	1949	1950	1950-ci il, 1945-ci ilə görə, %-lə
kitabxanalar:							
dövlət şəbəkəsi							
respub. və vilayət	3	3	3	3	3	3	100,0
şəhər	73	75	78	81	85	90	123,3
rayon	35	39	41	44	47	50	142,9
kənd	128	144	200	264	327	400	312,5
uşaq	23	30	37	43	51	57	247,9
müstəqil kitabxanaların cəmi:	262	291	359	435	513	600	229,0
kənd kitabxanaları	318	324	400	470	534	594	184,6
dövlət kitabxana şəbəkəsinin cəmi:	580	615	759	905	1047	1194	204,7
kolxoz	118	118	172	240	354	491	416,2
həmkarlar ittifaqı	62	62	65	67	71	75	120,9
digər idarə və müəssisələr	5	5	8	10	12	15	300,0
kitabxanaların cəmi:	765	800	1004	1222	1484	1768	231,1

Kitabxana işinə dair dördüncü beşillik planın xarakterik xüsusiyyətlərindən biri kənddə kitabxana işinin inkişafına xüsusi diqqət yetirilməsi idi. Məsələn, dördüncü beşillikdə cəmi 17 şəhər kitabxanasının açılması nəzərdə tutulmuşdusa, kənd yerlərində 300-dən artıq kitabxana açılmalı idi.

Dördüncü beşillikdə dövlət kitabxana şəbəkəsi ilə yanaşı ayrı-ayrı idarə və müəssisələrin kitabxana şəbəkəsinin inkişafına da xüsusi diqqət yetirmişdi. Bu kitabxanalar içərisində isə həmkarlar ittifaqı və kolxoz kitabxanaları xüsusi yer tuturdu. Beşilliklə, 373 kolxoz və 13 həmkarlar ittifaqı kitabxanasının açılması nəzərdə tutulmuşdu.

1945-1950-ci illərdə Azərbaycanda kitabxana işinin bərpa və inkişafına dair beşillik planın yerinə yetirilməsində respublikanın bütün ictimai təşkilatları, xüsusən Mədəni-Maarif Müəssisələri Komitəsi olduqca mühüm rol oynadı. Komitə kitabxana işinin bərpa və inkişaf etdirilməsində respublikanın bütün ictimaiyyətinin köməyindən bacarıqla istifadə edirdi. Məhz bunun nəticəsidir ki, təkcə 1946-cı ildə Mədəni-Maarif Müəssisələri Komitəsi 30 yeni müstəqil kitabxana açmağa müvəffəq oldu. Bunlardan 17-si kənd, 7-si şəhər, 6-sı isə müstəqil uşaq kitabxanaları idi[9]. Kitabxanaların komplektləşdirilməsi sahəsində də mühüm işlər görülmüşdü. Müharibə illərində «Azərkitab» olduqca az miqdarda kitab almışdı. Alınan kitablar isə ancaq şəhər kitabxanaları arasında bölüşdürülmüş, rayon və kənd kitabxanalarına isə olduqca az miqdarda kitab göndərilmişdi. Müharibə illərində kitabxana fondlarında baxımsızlıq üzündən də xeyli kitab xarab olmuşdu. Məsələn, təkcə 1946-cı ildə kitabxanalardan 110923 kitab çıxarılmışdı. Halbuki komitənin müstəqil kütləvi kitabxanaları 1946-cı ildə 803480 nüsxə kitab almışdı[10]. Respublikada kitabxana fondlarının komplektləşdirilməsinə mane olan əsas səbəblərdən biri də nəşriyyatların olduqca az miqdarda kitab buraxması idi. Məsələn, 1947-ci ildə «Azərnəşr» cəmi 7 adda bədii ədəbiyyat nəşr etmişdi[11]. Komitə tərəfindən kitabxana fondlarının

komplektləşdirilməsi sahəsində görülən tədbirlər gələcəkdə komplektləşdirmə işinin qaydaya salınması üçün olduqca əlverişli şərait yaratdı.

Kitabxana işinin bərpa və inkişaf etdirilməsində 1946-cı ilin iyulunda keçirilmiş təbliğat-təşviqat və mədəni-maarif işlərinə dair respublika müşavirəsi olduqca böyük rol oynadı[12].

Müşavirədə rayon və şəhər partiya komitələrinin təbliğat-təşviqat üzrə katibləri, bütün ideoloji idarələrin rəhbərləri, qabaqcıl mədəni-maarif işçiləri iştirak edirdi[13]. Müşavirə Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri Süleyman Rəhimovun «Mədəni-maarif müəssisələrinin vəziyyəti və növbəti vəzifələri haqqında» məruzəsini müzakirə etdi[14]. Dinlənilən məruzədə və çıxışlarda respublikamızda mədəni-maarif müəssisələrinin bərpa və inkişaf etdirilməsi sahəsində qarşıda duran vəzifələr ətraflı təhlil edildi. Müşavirə respublikada mədəni-maarif müəssisələrinin işində mövcud olan nöqsanları aşkara çıxardı və onların aradan qaldırılması üçün tədbirlər planı və mədəni-maarif müəssisələrinin inkişaf perspektivlərini hazırladı.

Müşavirənin qərarında kitabxana fondlarının müntəzəm olaraq komplektləşdirilməsini yaxşılaşdırmaq, 1947-ci ilin axırında rayon kitabxanalarının fondunu ən azı 5000 nüsxəyə çatdırmaq, kitabxanaların dövri nəşrlərə olan tələbatının ödənilməsini təmin etmək, rayon kitabxanalarında uşaq şöbəsi və oxu zalı açmaq, kitabxanalararası abonementi genişləndirmək, kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək üçün tədbirlər görmək, kitabxanalara rəhbərlik işini yaxşılaşdırmaq üçün metodik vəsaitlər nəşr etmək, biblioqrafik göstəricilərin, tövsiyə siyahılarının hazırlanıb çap edilməsi işini qaydaya salmaq, kitab fondunu qorumaq və onun uçotunu qaydaya salmaq üçün ciddi tədbirlər görmək lazım bilinirdi[15].

Azərbaycan SSR Nazirlər Soveti 1946-cı ilin noyabrında «Azərbaycan SSR-də mədəni-maarif müəssisələrinin

işini yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etdi[16]. Bu qərar müharibədən sonrakı dövrdə respublikamızda mədəni-maarif işinin bərpa və inkişaf etdirilməsində böyük rol oynadı. Qərarda hələ də respublikamızda mədəni-maarif işinin günün tələbləri səviyyəsinə qaldırılmadığı, beşillik planda qarşıya qoyulan vəzifələrin ləng həyata keçirildiyi, mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının zəif olması, onların binasının hələ də başqa məqsədlər üçün istifadə edilməsi, kadrların səviyyəsinin aşağı olması qeyd edilirdi.

Qərarda göstərilirdi ki, respublikada olan 1641 mədəniyyət evi, klub, kitabxana və qiraət komasi müdirlərindən ancaq 18 nəfərinin ali, 628 nəfərinin orta, 995 nəfərinin isə ibtidai təhsili var. Rayon mərkəzi icraiyyə komitələri mədəni-maarif müəssisələrinin fəaliyyəti ilə lazımi dərəcədə məşğul olmur, Mədəni-Maarif Müəssisələri Komitəsi, onun yerlərdəki orqanları şəhər və kənd əhalisi arasında mədəni-maarif işini lazımi səviyyəyə qaldıra bilməmişlər.

Qərarda Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinə bir vəzifə olaraq tapşırılırdı ki:

a) kənd kitabxanalarının şəbəkəsi genişləndirilsin: kənd və kolxoz klublarına, qiraət komalarına, maşın-traktor stansiyalarına, sovxozlara xidmət etmək üçün rayon kitabxanaları yanında səyyar fondlar təşkil etsin;

b) Mövcud metodkabinəni kitabxanaşünaslıq və biblioqrafiyanın elmi-metodik kabinəsinə çevirsin[17].

Qərarda Naxçıvan MSSR Nazirlər Sovetinə, DQMV İcraiyyə Komitəsinə, şəhər, rayon icraiyyə komitələrinə və Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinə bir vəzifə olaraq tapşırılırdı ki;

a) mədəniyyət evlərinin, klubların, kitabxanaların və qirat komalarının şəhər və kənd zəhmətkeşlərinin nümunəvi mədəni-maarif və siyasi tərbiyə ocağına çevrilməsinə çalışsınlar;

b) başqa məqsədlər üçün tutulmuş mədəni-maarif müəs-

sisələri binalarının boşaldılması üçün lazımi tədbirlər görsünlər və onlardan başqa məqsədlər üçün istifadə olunması qəti qadağan edilsin.

Bakı şəhər İcraiyyə Komitəsinə, Gəncə şəhər İcraiyyə Komitəsinə və bütün icraiyyə komitələrinə bir vəzifə olaraq tapşırılırdı ki, 1946-cı il dekabr ayının 15-dək rayonda mədəni-maarif işlərini yaxşılaşdırmaq məsələsinə dair zəhmətkeş deputatları sovetlərinin sessiyalarını keçirsinlər. Bundan başqa, mədəni-maarif müəssisələrinin rəhbər işçilərini Mədəni-Maarif Müəssisələri Komitəsinin razılığı olmadan işdən götürmək və başqa işə köçürmək yerli Sovet orqanlarına qadağan edilsin[18].

Bu qərarın respublikamızda bütün mədəni-maarif müəssisələri ilə yanaşı kitabxana işinin yaxşılaşdırılmasında da çox böyük rolu oldu. Qərar sovet idarələrinin diqqətini bilavasitə kitabxana işinə cəlb etdi.

Qərarın yerinə yetirilməsi üçün Mədəni-Maarif Müəssisələri Komitəsi 1946-cı il dekabrın 12-də xüsusi əmr verdi. Bu əmrdə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı hərtərəfli təhlil edilir və onun həyata keçirilməsinin real yolları göstərilirdi.

Dördüncü beşillik dövründə Azərbaycanda kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də mühüm işlər görülmüş, kütləvi surətdə mədəni-maarif müəssisələrinin tikintisinə başlanılmışdı. Bu işdə respublikanın ayrı-ayrı nazirlikləri, xüsusilə kolxoz və sovxozlar yaxından iştirak edirdi. Kolxoz klublarının tikintisi böyük miqyas almışdı. Yeni mədəniyyət saraylarının, klubların tikintisi nəticəsində kitabxanaların vəziyyəti yaxşılaşırdı. Çünki layihəyə görə belə binaların yanında kitabxanalar üçün ayrıca otaqların tikintisi nəzərdə tutulmuşdu. 1947-ci ildə Ağdam və Tovuzda mədəniyyət sarayı, İsmayıllıda isə geniş katabsaxlayıcısı olan rayon kitabxanası tikilirdi. İsmayıllı rayon kitabxanası respublikanın rayonlarında müasir tələblərə cavab verən ilk kitabxana binası idi.

Naxçıvan MSSR kolxozları klub binaları tikmək sahəsində xüsusilə fərqlənirdi. 1946-1947-ci illərdə 25 kolxozda klub tikintisinə başlanmışdı ki, bunlardan 1947-ci ildə 12-si başa çatdırılmışdı. Ağsu, Quba, Kürdəmir, İsmayıllı, Ağdaş, Tovuz, Balakən, Zərdab, Ucar, Tərtər, Yevlax, Laçın, Lənkəran, Qonaqkənd, Qubadlı və s. rayonlarının kolxozlarında da klub tikintisi sahəsində geniş iş aparılırdı[19].

Yeni kitabxana binasının tikintisi ilə əlaqədar olaraq mövcud binaların yenidən qurulmasına və əsaslı təmir edilməsinə xüsusi diqqət yetirilirdi. Təkcə 1947-ci ildə 28 rayon və kənd kitabxanası əsaslı təmir edilmiş və onlara 385 min manat vəsait xərclənmişdi. 1948-ci ildə isə təmir işlərinə 590 min manat xərclənmişdi[20].

Müharibə qurtardıqdan sonra oxucuların durmadan artan tələbatını kitabxanaların ödəmək imkanı yox idi. Belə bir şəraitdə komitə tezliklə bu çətinliyi aradan qaldırmaq, kitabxanaları, birinci növbədə isə rayon və kənd kitabxanalarını yeni ədəbiyyatla komplektləşdirmək zərurəti qarşısında qalmışdı. Komitə bu çətinliyi aradan qaldırmaq üçün hər il kitabxana fondlarını təkmilləşdirmək üçün ayrılan vəsaiti artırmağa müvəffəq oldu. 1946-cı ildə bu məqsəd üçün 800 min, 1947-ci ildə 1300 min, 1948-ci ildə 1600 min manat vəsait ayrılmışdı. Bundan əlavə, komitə 1947-ci ildə Nazirlər Soveti tərəfindən ayrılan Neft Hasilatı Fondundan kitab almaq üçün əlavə 500 min manat ayırmışdı.

Kitab fondunun komplektləşdirilməsi üçün vəsaitin müntəzəm olaraq ayrılması kitabxana fondlarını dövrün tələbləri səviyyəsinə yüksəltmək, oxucuların tələbatını ödəmək üçün əlverişli şərait yaratdı.

Mədəni-maarif müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi sahəsində görülən tədbirlər respublikada kitabxana işinin daha da yaxşılaşdırılmasına, əhaliyə kitabxana xidmətinin təşkilində mühüm keyfiyyət dəyişikliklərinin baş verməsinə, kitabxana fondlarının yeni ədəbiyyatla müntəzəm və dolğun komplektləşdirilməsinə

səbəb oldu.

Xalq təsərrüfatının bərpa və inkişafı illərində ölkəmizin zəhmətkeşləri arasında yarış böyük vüsət almışdı. Respublikanın bütün zəhmətkeşləri kimi mədəni-maarif işçiləri də yarışa qoşulmuşdular. Mədəni-maarif işçiləri arasında yarış şərtlərini müəyyənləşdirmək, onun daha mütəşəkkil keçirilməsini təmin etmək üçün Azərbaycan SSR Nazirlər Soveti 1947-ci ildə yarışda qalib gəlmiş, əhaliyə xidmət işində yüksək göstəricilər əldə etmiş mədəni-maarif müəssisələrinə vermək üçün Mədəni-Maarif Müəssisələri Komitəsinin və Mədəni-Maarif İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin keçici Qırmızı bayrağını təsis etdi.

Yarışın şərtlərinə görə, kitabxanalar dörd qrupa bölünmüşdü: 1) şəhər kitabxanaları; 2) rayon kitabxanaları; 3) kənd kitabxanaları; 4) uşaq kitabxanaları. Yarışda birinci yeri tutan kitabxanalara bayraq və pul mükafatı, ikinci-üçüncü yeri tutan kitabxanalara isə tərifnamə və pul mükafatı verilirdi[21]. Yarış qabaqcılları üçün keçici bayrağın müəyyənləşdirilməsi respublikamızın kitabxana işçiləri arasında böyük əmək coşğunluğuna səbəb oldu. Əhaliyə kitabxana xidmətinin təşkili sahəsində mühüm nailiyyətlər əldə edildi.

1947-ci ilin payızında respublika kitabxanaları arasında aparılan yarışa yekun vuruldu. 22 rayon və 13 kənd kitabxanasının əhaliyə xidmət işində yüksək göstəricilər əldə etməsi qeyd edilirdi. Yarışın şərtlərinə görə, keçici Qırmızı bayraq və birinci pul mükafatı Salyan rayon kitabxanasına, komitənin tərifnaməsi və ikinci pul mükafatı Yevlax rayon kitabxanasına verildi. Dörd kənd kitabxanasının - Ağcabədi rayonunun Xəlfələdin, İsmayıllı rayonunun Lahıc, Samux rayonunun Yusifli və Dəvəçi rayonunun Piridli kənd kitabxanalarının yaxşı işi qeyd edilmişdi[22].

Sonrakı illərdə kitabxana işçiləri arasında yarışın keçirilməsi bir ənənə halını alıb daha da genişləndi. Respublikamızda əhaliyə kitabxana xidmətinin yaxşılaşmasına, kitab fondlarının zənginləşməsinə, kitabxanalara yeni oxucuların

cəlb edilməsinə, kitabxana işinin forma və məzmununda yeni keyfiyyət dəyişiklikləri baş verməsinə səbəb oldu. Kitabxanalar arasında yarışın genişlənməsi xüsusilə kənd yerlərində kitabxana işinin yenidən qurulması, kənd kitabxana şəbəkəsinin artması, onların əhaliyə xidmətinin yaxşılaşması üçün geniş şərait yaratdı. Mədəni-Maarif Müəssisələri Komitəsi respublikada kitabxana işini yenidən qurmağın ən mühüm şərtlərindən biri olan kadr probleminin həlli sahəsində mühüm tədbirlər gördü. İlk növbədə kitabxana kadrları nəzərdən keçirilmiş, bu sahədəki mövcud nöqsanların aşkara çıxarılıb, aradan qaldırılması yolları müəyyənləşdirilmişdi. Komitə rayon kitabxanalarına təsadüfi adamların göndərilməsinin qarşısını almaq üçün rayon kitabxana müdirlərini komitənin nomenklaturasına daxil etmiş, kənd kitabxana müdirlərinin təsdiqini isə rayon Sovetlərinə həvalə etmişdi.

Yerlərdə kitabxana işçilərinin əmək haqqının verilməsi sahəsində olan nöqsanlar aradan qaldırılmış, kitabxana işçilərinə maaşların verilməsi SSRİ XKS-nin 1944-cü il avqust tarixli qərarı əsasında qaydaya salınmışdı. Komitə tərəfindən kitabxana işçilərinə yerlərdə metodik yardım göstərməklə yanaşı, rayon kitabxana işçiləri Bakıya çağırılmış, şəhərin qabaqcıl kitabxanalarının təcrübəsi ilə tanış edilmişdilər.

Komitə kitabxana işinin ideya-siyasi səviyyəsini yüksəltmək, onun fəaliyyətini bilavasitə dövrün tələbləri səviyyəsinə qaldırmaq məqsədi ilə Bakıda Ziyalılar Evində şəhərin kitabxana işçiləri üçün vaxtaşırı məsləhətlər təşkil edirdi. Belə məsləhətlərin verilməsində respublikamızın qabaqcıl kitabxanaçıları ilə yanaşı, görkəmli alimlər, partiya və dövlət idarələrinin rəhbər işçiləri və mütəxəssislər iştirak edirdi. Komitənin həyata keçirdiyi tədbirlər içərisində kitabxana işini təşkilati cəhətdən möhkəmləndirmək problemi mühüm yer tuturdu. Komitə rayon və kənd kitabxanalarının «Əsasnamə»lərini təsdiq edib yerlərə göndərmişdi. Yerlərdə «Əsasnamə»lərin geniş müzakirəsi və izahı keçirilmişdi ki, bu da kitabxana işinin təşkilatca möhkəmləndirilməsinə bö-

yük kömək etmişdi.

Müharibədən sonrakı dövrdə qarşıda duran mühüm məsələlərdən biri də kitabxanalarda uçot və hesabat işlərinin yenidən qurulması məsələsi idi. Çünki uzun illərdən bəri bu iş başlı-başına buraxılmışdı. Müharibə illərində kitabxana müdirlərinin tez-tez dəyişdirilməsi bu işi olduqca bərbad vəziyyətə salmışdı. Bir çox rayonlarda dövlət mülkiyyəti olan kitab fondları ayrı-ayrı şəxslər tərəfindən mənimsənilmiş və baxımsızlıq üzündən dağıdılmışdı. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, Naxçıvan Muxtar Respublika Kitabxanası komitənin ixtiyarına verilənə qədər 20 min nüsxə kitab fondundan 3 min nüsxə kitab qalmışdı. Müharibə illərində Xaçmaz, Qonaqkənd, Gədəbəy və s. rayon kitabxanalarının fondu tamamilə dağıdılmışdı[23]. Rayon və kənd kitabxanalarının əksəriyyətində uçot və hesabat işləri aparılmırdı. Komitə uçot və hesabat formaları, o cümlədən inventar və ümumi uçot kitabları, digər uçot və hesabat materialları çap etdirib bütün kitabxanalara göndərmiş, kitabxana müdirlərinin kitab fondunun qorunması, kitab əmlakı uçotunun aparılması sahəsində məsuliyyətini artırmışdı. Bu tədbirlər qısa müddətdə respublikada kitabxana işinin qaydaya salınması üçün olduqca əlverişli şərait yaratdı. Vaxtaşırı uçot və hesabat formalarının komitəyə göndərilməsi, onun ətraflı və geniş təhlili respublikada kitabxana işinin mənzərəsini aşkara çıxarır, gələcək vəzifələri, perspektiv planları müəyyənləşdirməyə imkan yaradırdı.

Azərbaycan K(b)P MK respublikada kitabxana işinin bərpa və inkişafına böyük qayğı göstərirdi.

1948-ci ilin dekabrında Azərbaycan K(b)P MK-nın XXIII plenumu «Respublikada mədəni-maarif işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» məsələ müzakirə etdi. Bu məsələ barəsində Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin sədri Süleyman Rəhimovun məruzəsi dinlənilib müzakirə edildi. Respublikada mədəni-maarif işinin ayrıca məsələ ki-

mi plenumda müzakirə edilməsi mədəni-maarif işinə respublika rəhbərliyinin qayğısının təzahüri idi[24]. Plenumun qərarında deyilirdi: «Azərbaycan K(b)P MK plenumu Ağsu, Ağdaş, Lənkəran, Quba, Şamaxı, Naxçıvan, Tovuz, Füzuli, Balakən, Həştərxanbazar, Lerik, Maştağa və bir sıra rayonların kolxozçularının vətənpərvərlik təşəbbüsünü xüsusilə qeyd edir. Bu rayonlarda mədəni-maarif müəssisələrinin tikintisi çox genişləndirilmişdir. Respublikada son iki ildə 76 kolxoz klubu tikilib istifadəyə verilmiş və daha 150 klub binası tikilməkdədir»[25].

Plenum bu müvəffəqiyyətlərlə yanaşı, respublikada mədəni-maarif işinin hələ ÜİK(b)P MK-nın ideoloji məsələlərə dair qərarlarında qarşıya qoyulmuş vəzifələrin səviyyəsindən geri qaldığını, zəhmətkeşlərin durmadan artan mədəni tələblərini kifayət qədər ödəyə bilmədiklərini də qeyd etdi. Plenumun qərarında respublikada mədəni-maarif işinin, o cümlədən kitabxana işinin vəziyyəti hərtərəfli təhlil edildi. Əldə edilmiş müvəffəqiyyətləri və nöqsanları aşkara çıxardı və bu nöqsanların aradan qaldırılması yollarını göstərdi. Plenumun qərarlarında kitabxana işinin gələcək inkişaf perspektivləri, ideya-siyasi səviyyəsinin yüksəldilməsi, oxuculara xidmət işinin keyfiyyətcə yüksəldilməsi yolları müəyyənləşdirildi.

Plenumun qərarında göstərilirdi: «Bütün mədəni-maarif işlərinin əsasını ÜİK(b)P MK-nın məfkurə məsələləri haqqındakı tarixi qərarları təşkil etməlidir»[26].

Plenumun qərarında mədəni-maarif müəssisələri üçün kadr hazırlanması, mövcud kadrların ixtisasının artırılması məqsədinə də xüsusi diqqət yetirilmiş, bu problemin tezliklə həll edilməsi çox mühüm bir vəzifə kimi Mədəni-Maarif Müəssisələri Komitəsinin qarşısında qoyulmuşdu. Plenum yaxın müddətdə respublikanın böyük kitabxanalarında kitabxanaçı kadrların hazırlanmasını, bu kadrların bilik səviyyəsinin yüksəldilməsini, 1949-cu ildə kütləvi, uşaq, məktəb, elmi-texniki kitabxanaların və digər idarə kitabxanaları

işçilərinin attestasiyadan keçirilməsini təxirəsalınmaz bir məsələ kimi irəli sürürdü.

Plenumun qərarları respublikamızda mədəni-maarif işinin gələcək inkişafının uzun bir dövrü üçün inkişaf proqramı oldu. Plenumun qarşıya qoyduğu təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi respublikada mədəni-maarif işi sahəsində uzun illərdən bəri kök salmış çox ciddi nöqsanların aradan qaldırılmasına səbəb oldu.

Azərbaycan K(b)P XVII qurultayı (1949) respublikada mədəniyyətin inkişafına xüsusi diqqət yetirdi. Qurultay bütün partiya təşkilatlarının dördüncü beşillik planın qarşıya qoyduğu mədəni quruculuq planını müvəffəqiyyətlə yerinə yetirməyə çağırdı. Qurultayın qərarlarında kitabxana işinin inkişaf etdirilməsi məsələsinə zəhmətkeşlərin siyasi tərbiyəsində və ümumi mədəni səviyyəsinin yüksəldilməsində kitabxana işinə xüsusi əhəmiyyət verilirdi. Qərarda göstərilirdi: «Qurultay partiya təşkilatlarına bir vəzifə olaraq tapşırır ki, mədəni-maarif idarələrinin işinə rəhbərliyi qüvvətləndirsinlər, klub, kitabxana və qiraət komaları şəbəkəsini genişləndirsinlər, mədəni-maarif işinin keyfiyyətini yüksəltsinlər və ideya-siyasi məzmununu yaxşılaşdırsınlar, bütün mədəni-maarif idarələrini şəhər və kənd zəhmətkeşlərinin əsl siyasi-tərbiyə və mədəni istirahət ocaqlarına çevirməyə nail olsunlar»[27].

Mədəni-Maarif Müəssisələri Komitəsi partiya qərarlarını təhlil edib öyrənmək və onun mahiyyətini mədəni-maarif işçilərinə izah etmək məqsədi ilə 1949-cu ilin martında mədəni-maarif şöbə müdirlərinin respublika seminar-müşavirəsini keçirdi. Seminar-müşavirədə Dağlıq Qarabağ Muxtar Vilayəti, Tovuz, Şəmkir, Qazax, Qax və Qazımməmməd rayonları mədəni-maarif şöbə müdirlərinin rayonlarda «Mədəni-maarif müəssisələrinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» məruzələri dinlənilib müzakirə edildi[28]. Seminar-müşavirənin materialları əsasında komitə göstərilən rayonlarda mədəni-maarif müəssisələrinin gələcək vəzifələri haqqında xüsusi əmr verdi. Əmrdə plenumun qə-

rarlarının yerinə yetirilməsinin konkret yolları göstərilirdi.

Azərbaycan K(b)P XVIII plenumun «Respublikada mədəni-maarif işlərinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərarını yerinə yetirmək məqsədi ilə Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsi və Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi bütün kolxoz idarə heyəti sədrlərinə, rayon mədəni-maarif və kənd təsərrüfatı şöbə müdirlərinə, rayon partiya komitələrinə və icraiyyə komitələrinə xüsusi məktubla müraciət edib, onları mədəni-maarif müəssisələri tikintisini genişləndirməyə çağırdılar[29]. Bütün bunların nəticəsində qısa müddətdə respublikada 3 mədəniyyət sarayı, 13 kitabxana, 200 klub binası tikilib istifadəyə verildi[30]. Mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün çox mühüm əhəmiyyətə malik olan tədbirlər həyata keçirildi.

Dördüncü beşillikdə respublikanın kolxozları tərəfindən 500 mədəniyyət evi və klub tikintisinə başlanmış və bunlardan 1950-ci ildə 300-ü başa çatdırılmışdı. Onların hər birində kitabxanalar üçün xüsusi otaqlar ayrılmışdı[31]. 1949-cu ildə komitə kitabxana binalarının əsaslı təmiri üçün 1 milyon 537 min manat, avadanlıq üçün isə 365 min manat vəsait xərcləmişdi[32]. Bundan başqa, respublikanın ayrı-ayrı kolxozları kitabxana binalarını təmir etmək üçün xeyli miqdarda vəsait ayırmışdı. Yeni tikilən kitabxana binalarının avadanlıqla təchiz edilməsi işinə də xüsusi diqqət yetirilirdi. Məsələn, komitə 1949-cu ildə tikintisi başa çatmış Balakən kitabxanasını təchiz etmək üçün 66 min manat vəsait vermişdi[33].

1949-cu ildə respublikamızda 7 milyon nüsxəyə yaxın kitab fondu olan 2846 kütləvi, elmi, texniki, uşaq və məktəb kitabxanaları var idi[34]. Bu kitabxanalardan 2 milyon 285 min kitab fonduna malik olan 927-si Mədəni-Maarif Müəssisələri Komitəsinin kitabxanaları idi[35]. Komitənin kitabxanalarından ancaq 618426 nüsxə kitab fonduna malik olan 786 kitabxana kənd yerlərində fəaliyyət göstərirdi[36]. Göründüyü kimi, respublika əhalisinin əksəriyyətinin yaşadığı

kənd yerlərində əhaliyə kitabxana xidmətinin təşkili qənaətləndirici deyildi. Böyük yaşayış məntəqələrinin yarıdan çoxunda müstəqil kitabxanalar yox idi. Bu nöqsanları aradan qaldırmaq məqsədi ilə Mədəni-Maarif Müəssisələri Komitəsi 1949-cu ildə Azərbaycanda kənd əhalisinə kitabxana xidməti təşkilinin perspektiv planını tərtib etdi.

Kitabxanalarda elmi-metodik işin yaxşılaşmasında, qabaqcıl iş təcrübəsinin öyrənilib yayılmasında 1949-cu ildə komitənin kitabxanaçılıq idarəsinin yanında yaradılmış və elmi-metodik şuranın mühüm rolu oldu. Şura respublikanın bütün kitabxana şəbəkəsinin nümayəndələrindən təşkil edilmiş və bir neçə bölmədə fəaliyyət göstərirdi. Hər bir bölmənin öz sədri var idi. Şuranın ümumi iclaslarında kitabxana işinin elmi-metodik fəaliyyətini yaxşılaşdırmaq problemləri, kitabxana işinə dair rəsmi sənədlər, bu və ya digər iş üsulunun səmərəli olub-olmaması və s. məsələləri müzakirə edilirdi.

1949-cu ildə Azərbaycan SSR Nazirlər Soveti mədəni-maarif müəssisələrinin dövlət qeydəalınması haqqında qərar qəbul etdi[37]. Bu qərara uyğun olaraq Mədəni-Maarif Müəssisələri Komitəsi kitabxanaları qeydə almaq üçün qaydalar təsdiq etdi. Həmin qaydalara görə, respublika ərazisində olan bütün dövlət və ayrı-ayrı idarə və müəssisələrin, həmçinin ictimai təşkilatların daimi və səyyar kitabxanaları, kitabsaxlayıcıları və kitab verilişi məntəqələri qeydə alınmalı, bu haqda onlara sənəd verilməli idi[38]. Kitabxanaların dövlət qeydəalınmasının müvəffəqiyyətlə başa çatdırılması respublika kitabxana şəbəkələrini dəqiqləşdirmək, kitabxanaların miqdarını müəyyənləşdirmək və kitabxana işinin vəziyyətini öyrənmək üçün əlverişli şərait yaratdı.

1949-cu ilin əvvəllərində Azərbaycan SSR Nazirlər Soveti «Respublika kitabxanalarında kitab fondlarının tərkibini yaxşılaşdırmaq tədbirləri haqqında»[39] qərar qəbul etdi. Bu qərarın kitab fondlarının qorunub saxlanmasında, bu fondların tərkibinin yaxşılaşdırılmasında və yeni kitablarla komplektləşdirilməsi işinin qaydaya salınmasında çox mühüm rolu oldu. Qərarda göstərilirdi ki, müharibədən sonrakı illərdə kitabxana işinin inkişafı, xüsusilə kitabxana fondlarının tərkibinin yaxşılaşdırılması, yeni ədəbiyyatla komplektləşdirilməsi sahəsində olduqca mühüm nailiyyətlər əldə edilmişdir. 1947-1949-cu illər ərzində təkcə Respublika Mədəni-Maarif Müəssisələri Komitəsinin kitabxanaları 390 min nüsxə yeni ədəbiyyat almışdı. Bütün bunlarla yanaşı, kitabxanaların yeni ədəbiyyatla komplektləşdirilməsi işində hələ də böyük nöqsanlar olduğu, xüsusilə kitabxanalarda Azərbaycan dilində ədəbiyyatın azlığı nəzərə çarpırdı. Buna görə də qərarda göstərilirdi: «Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinə tapşırılsın ki, respublika kitabxanalarının kitab fondlarının komplektləşdirilməsini yaxşılaşdırmaq üçün tədbir görsün, kitabxana fondlarının Azərbaycan dilində olan ədəbiyyatla təkmilləşdirilməsinə xüsusi diqqət yetirsin».

Nazirlər Sovetinin həmin qərarına əsasən respublika kitabxanalarını yeni ədəbiyyatla komplektləşdirmək məqsədi ilə Mədəni-Maarif Müəssisələri Komitəsinə 2 milyon manat əlavə vəsait ayrıldı. Bu vəsait komitənin kitabxana şəbəkəsi arasında bölüşdürüldü. Qərar respublikada kitabxana fondlarının yeni ədəbiyyatla komplektləşdirilməsini, xüsusilə kitab fondlarının Azərbaycan dilində kitablarla təkmilləşdirilməsi işini kökündən yaxşılaşdırdı. Nazirlər Soveti Mədəni-Maarif Müəssisələri Komitəsi kitabxanalarına kitab almaq üçün əlavə olaraq neft hasilatı fondundan ildə 2 milyon manat pul buraxırdı. Komitə bu vəsait hesabına beşilliyin axırına qədər vilayət kitabxanalarının fondunu 25 min nüsxəyə, şəhər kitabxanalarının fondunu 15 min nüsxəyə, rayon kitabxanalarının fondunu 7 min nüsxəyə, uşaq kitabxanalarının fondunu 10 min nüsxəyə, kənd kitabxanalarının fondunu 1500 nüsxəyə çatdırmağı qərara almışdı. Təkcə 1949-cu ildə komitənin kitabxanaları Kitabxana Kollektorundan 281521 nüsxə kitab almışdı ki, onun 183253 nüsxəsi Azərbaycan dilində idi.

Bəhs olunan dövrdə kitabxana işinə ayrılan vəsaitin müntəzəm surətdə artırılması, xüsusilə neft fondundan kitab almaq üçün əlavə vəsait verilməsi kitabxana fondlarının təkmilləşdirilməsi işini əsaslı surətdə yaxşılaşdırdı. Mədəni-Maarif Müəssisələri Komitəsinin kitabxana sistemində 1946-cı ildə 996200 nüsxə kitab var idisə, bunların sayı 1951-ci ildə 2912200 nüsxəyə çatmışdı[40]. Beşillik müddətində kitabxanaların kitab fondu 3 dəfəyə qədər artmışdı[41].

Kitabxana işinə dair beşillik plan vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirilirdi. Zəhmətkeşlər mədəni-maarif ocaqlarının tikintisində, maddi-texniki bazanın möhkəmləndirilməsində, siyasi-kütləvi işlərin yaxşılaşdırılmasında yaxından iştirak edirdilər. Bu mədəni-maarif müəssisələrinin fəaliyyətinin daha da genişlənməsinə və işlərinin məzmunca yaxşılaşmasına səbəb olmuşdu.

Beşillik planın yerinə yetirilməsi nəticəsində respublikamızda kitabxana işi müharibədən əvvəlki səviyyəyə çatmış və əhəmiyyətli dərəcədə onu ötüb keçmişdi. Mədəni-Maarif Müəssisələri Komitəsi sistemində olan kitabxanaların sayı 1946-cı ildəki 764-dən 1951-ci ildə 2492-yə çatmış, beş il müddətində 1728 yeni kitabxana açılmışdı.

Müharibədən sonrakı beşillik dövründə Azərbaycanda kitabxana işinin inkişafı aşağıdakı qaydada olmuşdu:

Kitabxanalar	1946	1947	1948	1949	1950	1951	Beş il müd. artım.
Mədəni-Maarif Müəssisələri Komitəsinin kütləvi kitabxanaları, o cümlədən:	572	629	721	927	1205	1490	911
vilayət kitabxanaları	2	2	2	2	2	2	-
şəhər kitabxanaları	36	41	41	45	48	53	17
rayon kitabxanaları	72	70	72	72	71	71	1
kənd (müstəqil) kitabxanaları	128	147	151	204	233	350	222
uşaq kitabxanaları	23	28	30	41	45	54	31
klub kitabxanaları	318	341	425	563	806	960	642
kolxoz kitabxanaları	118	118	280	307	424	884	766
Həmkarlar İttifaqı kitabxanaları	67	68	69	79	111	118	81
Respublika üzrə kütləvi kitabxanaların cəmi:	764	815	1070	1313	1740	2492	1730[42]

Yuxarıdakı cədvəldən göründüyü kimi, beşillik müddətində kitabxanaların sayı iki dəfədən çox artmışdı. Bu artımın əsas hissəsi kənd kitabxanalarının payına düşür. Belə ki, kənd yerlərində 1645 kitabxana təşkil edilmişdi.

Bu dövrdə kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də çox mühüm tədbirlər görülmüş, kitabxana işinə ayrılan dövlət vəsaiti ilbəil artırılmışdı. Əgər 1946-cı ildə mədəni-maarif müəssisələrinə 24,6 milyon manat ayrılmışdısa, 1947-ci ildə 29,7 milyon manat, 1948-ci ildə 31,4 milyon manat,1949-cu ildə 34,6 milyon manat, 1950-ci ildə isə 34,1 milyon manat vəsait ayrılmışdı[43]. Bundan başqa, kolxozlar və həmkarlar ittifaqları tərəfindən də mədəni-maarif işinə xeyli vəsait ayrılmışdı.

Müharibədən sonrakı dövrdə kitabxanaların yeni binalarla təchiz edilməsi sahəsində çox mühüm tədbirlər görülmüşdü. Respublikamızın tarixində ilk dəfə olaraq İsmayıllı, Şamaxı, Balakən, Xudat, Ağsu, Cəbrayıl, Zaqatala, Ağcabədi, Şahbuz, Xocavənd və Goranboy rayonlarında 25 min kitab tutan ayrıca rayon kitabxanası binaları tikilib istifadəyə verilmiş və xüsusi avadanlıqla təchiz edilmişdi. Yüzlərlə rayon və kənd kitabxanalarının binaları təmir edilib yenidən qurulmuşdu. Xüsusi kitabxana binaları ilə yanaşı rayon mərkəzlərində və ayrı-ayrı kəndlərdə tikilən mədəniyyət sarayları və klublar yanında kitabxanalar üçün xüsusi otaqlar ayrılması yeni açılan kitabxanaların bina ilə təmin edilməsi işini xeyli asanlaşdırmışdı. Kəndlərdə mədəniyyət evləri və klubları tikmək sahəsində böyük xalq hərəkatı başlanmışdı. Beş il müddətində kolxozların təşəbbüsü ilə 200 kolxoz klubu və mədəniyyət sarayı tikilib istifadəyə verilmişdi.

Ümumiyyətlə, Mədəni-Maarif Müəssisələri Komitəsi dördüncü beşillikdə əsaslı tikinti üçün 4,5 milyon manat, əsaslı təmir üçün isə 17,8 milyon manat vəsait xərcləmişdi[44]. Bütün bunlarla yanaşı, bu dövrdə M.F.Axundov adını Respublika Kitabxanası üçün 3 milyon kitab tutumu olan binanın layihələşdirilməsi işi başa çatdırılmışdı. Akademik

M.Hüseynovun rəhbərliyi ilə hazırlanmış bu layihə ittifaqda ən yaxşı kitabxana binası layihələrindən biri idi.

Müharibədən sonrakı beşillik dövründə kütləvi kitabxanaların kitab fondunun komplektləşdirilməsi işi xeyli yaxşılaşmışdı. Əgər 1946-cı ildə kütləvi kitabxanaların fondunda (məktəb və idarə kitabxanalarından başqa) 2,9 milyon nüsxə kitab var idisə, onların sayı 1951-ci ildə 5,8 milyona çatmışdı[45]. Göründüyü kimi, kitab fondu beşillik müddətində iki dəfə artmışdı. 1951-ci ildə respublikanın bütün kütləvi, elmi, elmi-texniki və məktəb kitabxanalarının fondunda 10 milyon nüsxə kitab vardı[46].

Bəhs olunan dövrdə kitabxanaların yüksək ixtisaslı kadrlarla təmin edilməsi, onların ixtisas dərəcəsinin artırılması sahəsində ən mühüm işlər görülmüşdü.

Bu zaman respublikamızda orta ixtisaslı kitabxanaçı kadrlar hələ 1938-ci ildən fəaliyyətə başlayan Bakı Kitabxanaçılıq Texnikumunda (hazırda Bakı Mədəni-Maarif Texnikumu) hazırlanırdı. Texnikumun fəaliyyəti müharibə illərində xeyli zəifləmiş və bu dövrdə cəmi 57 nəfər mütəxəssis hazırlanmışdı[47].

Mədəni-Maarif Müəssisələri Komitəsi yarandıqdan sonra texnikum onun sərəncamına keçdi. Komitə texnikumun işini yaxşılaşdırmaq üçün bir sıra əməli tədbirlər gördü. Texnikumun yeni bina ilə təchiz edilməsi işinin yenidən qurulması, xüsusilə gündüz şöbəsinin daha da genişləndirilməsi üçün şərait yaratdı. Komitə texnikumda tədris işini yaxşılaşdırmaq, siyasi-tərbiyə işinin səviyyəsini yüksəltmək məqsədi ilə onu yüksək ixtisaslı kadrlarla təmin etdi. Görülən tədbirlər nəticəsində texnikumun işində canlanma əmələ gəldi. Tədris və tərbiyə işlərinin səviyyəsi xeyli yüksəldi və tələbə qəbulu ildən-ilə artırıldı. Texnikum müharibədən sonrakı beşillik dövründə 226 nəfər orta ixtisaslı mədəni-maarif işçisi hazırlamağa müvəffəq olmuşdu. Artıq 1950-ci ildə texnikumda 364 nəfər tələbə təhsil alırdı.

Yüksək ixtisaslı kitabxanaçı kadrlara böyük ehtiyacı

nəzərə alaraq, 1947-ci ildə Azərbaycan K(b)P MK «Respublikada mədəni-maarif müəssisələri üçün kadr hazırlanması haqqında» qərarı ilə Bakı Dövlət Universitetinin filologiya fakültəsi yanında ali təhsilli kitabxanaçı kadrlar hazırlamaq üçün 1947/1948-ci tədris ilində ayrıca kitabxanaçılıq şöbəsi açmağı lazım bildi.

Azərbaycan K(b)P MK-nın göstərişinə əsasən 1947-1948-ci tədris ilində BDU-nun filologiya fakültəsi nəzdində müstəqil tədris planı olan kitabxanaçılıq şöbəsi təşkil edildi və şöbəyə 25 nəfər tələbə qəbul olundu. Kitabxanaçılıq şöbəsində ixtisas fənlərinin tədrisini təşkil etmək üçün 1947-ci ildə Kitabxanaşünaslıq və biblioqrafiya kafedrası təşkil edildi. Bu kafedranın müdiri vəzifəsinə görkəmli biblioqraf–alim Əliheydər Qəhrəmanov seçildi. Kafedranın yaranması yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması, respublikada kitabxanaşünaslıq və biblioqrafiya elminin inkişafı üçün mühüm amil idi.

Həmin illərdə kitabxanaçı kadrların ixtisasını artırmaq üçün Bakıda, Gəncədə, Naxçıvanda, Xankəndində vaxtaşırı kurslar təşkil edilmişdi. Komitənin təşkil etdiyi bu kurslarda 1550 nəfər klub və kitabxana işçisi öz ixtisasını artırmışdı[48].

Müharibədən sonrakı beşillik dövründə dövlətin qayğısı və rəhbərliyi ilə kitabxana işinin bərpa və inkişafı sahəsində görülən tədbirlər: kitabxana şəbəkələrinin inkişaf etdirilməsi, yeni kitabxanaların yaradılması, kitabxana fondlarının ideoloji məzmunca yararlı hala salınması və artırılması, kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxanaçı kadrların tərkibinin yaxşılaşdırılması kitabxana işinin məzmununda böyük keyfiyyət dəyişikliklərinin baş verməsinə, əhaliyə xidmət işinin təşkilinin kökündən dəyişməsinə, kitabxana işinin ideya-siyasi məzmununun yüksək səviyyəyə qaldırılmasına, kitabxana oxucularının əhəmiyyətli dərəcədə artmasına və oxucuların tərbiyəsinə yönəldilmiş kütləvi-siyasi tədbirlərin genişləndirilməsinə səbəb olmuşdu.

Kitabxanaların fəaliyyət dairəsi genişləndikcə onların

ətrafında daimi oxucuların sayı çoxalırdı. Mədəni-Maarif Müəssisələri Komitəsinin kitabxana sisteminin 1945-1950-ci illərdəki fəaliyyəti bunu bir daha təsdiq edir. Əgər komitənin kütləvi kitabxanalarında 1946-cı ildə 127094 oxucuya xidmət edilmiş və onlara 1777,0 nüsxə kitab verilmişdisə, 1950-ci ildə 270529 nəfər oxucuya xidmət edilmiş və onlara 5498,0 nüsxə kitab verilmişdi. Beləliklə, 1946-cı ilə nisbətən 1950-ci ildə kitabxanalarda oxucuların sayı 143435 nəfər, kitab verilişi isə 3721,0 nüsxə artmışdı[49].

Bəhs olunan dövrdə kitabxana işində kəmiyyət və keyfiyyətcə əldə edilmiş mühüm nailiyyətlərdə respublika kitabxanalarının böyük xidmətləri olmuşdur.

a) Şəhər əhalisinə kitabxana xidmətinin təşkili

Müharibədən sonrakı beşillik dövründə şəhər əhalinin mədəni səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsi onların kitaba tələbatının artmasına səbəb olmuşdu. Şəhər kitabxanalarının qarşısında əhalinin ideya-siyasi tərbiyəsində yaxından iştirak etmək, beşillik planın əsas vəzifələrini geniş surətdə izah etmək kimi çox mühüm məqsədlər dururdu. Dördüncü beşillik dövründə respublikamızda sənayenin durmadan inkişafı, yeni-yeni sənaye mərkəzlərinin yaranması şəhər əhalisinin sayının artmasına səbəb olmuşdu.

Məhz buna görədir ki, kitabxana işinə dair dördüncü beşillik planda şəhər əhalisinə kitabxana xidmətinin kökündən yaxşılaşdırılmasına, onların bərpa və inkişaf etdirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni yaranan sənaye mərkəzlərində kitabxanalar təşkil edilməsinə xüsusi diqqət yetirilmişdi. Müharibədən sonrakı beşillik dövründə Bakıda, Gəncədə, Naxçıvanda, Xankəndində kitabxana işini yaxşılaşdırmaq üçün tədbirlər görülmüş, kitabxana fondları ciddi surətdə nəzərdən keçirilib yeniləşdirilmiş və yeni yaranan sənaye rayonlarında kitabxanalar açılmışdı.

Bu dövrdə respublikamızın şəhərlərində kitabxanalar bərpa edildi, onların maddi-texniki bazası möhkəmləndirildi

və 17 yeni kitabxana təşkil edildi[50]. Bu kitabxanalardan 5-i Bakıda, qalanları isə respublikamızın başqa şəhərlərində təşkil edilmişdi[51].

Əsas vəzifə Bakıda və respublikamızın digər böyük şəhərlərində mövcud kitabxanaların maddi-texniki bazasını möhkəmləndirməkdən, kitabxana fondlarını zənginləşdirməkdən, kitabxana işinin yeni, qabaqcıl forma və üsullarından istifadə edərək əhaliyə kitabxana xidmətini daha da yaxşılaşdırmaqdan, bilavasitə sənayenin müxtəlif sahələrində çalışan fəhlələri kitabxanaların oxucuları sırasına cəlb etməkdən ibarət idi. 1945-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsinin yaranması ilə əlaqədar olaraq Bakı şəhər Soveti yanında Mədəni-Maarif Müəssisələri Şöbəsi yaradılmışdır ki, Bakı və onun rayonlarında kitabxana işinə rəhbərlik də bu şöbədə mərkəzləşdirilmişdi. Şöbə qısa müddətdə kitabxanaların uçotunu aparmış, vəziyyətini müəyyənləşdirmiş, kitabxana işini yaxşılaşdırmaq üçün mühüm tədbirlər hazırlayıb həyata keçirmişdi. Şöbənin həyata keçirdiyi ilk tədbirlər içərisində kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana fondlarının zənginləşdirilməsi mühüm yer tuturdu.

Təkcə 1948-1950-ci illərdə Bakı kütləvi kitabxanalarının 23-ü əsaslı təmir olunmuş və yeni inventarla təmin edilmişdi. Təkcə 1950-ci ildə kütləvi kitabxanaların təmiri üçün 270,0 manat buraxılmış və 325,5 manatlıq 1800 ədəd inventar alınıb kitabxanalara verilmişdi[52].

Bəhs olunan dövrdə kitabxana işinə ayrılan vəsaitin müntəzəm surətdə artırılması kitabxana işini günün tələbləri səviyyəsinə yüksəltmək üçün olduqca əlverişli şərait yaradırdı. 1946-cı ildə Bakı və onun rayonlarının kitabxanalarına kitab almaq üçün 331,9 min manat, 1947-ci ildə 353,9 min manat, 1948-ci ildə 560,0 min manat[53], 1950-ci ildə isə 1120 min manat vəsait ayrılmışdı[54].

Bundan əlavə, 1949-cu ildə kitab almaq üçün əsas büdcəyə əlavə olaraq Neft Fondundan 450 min mavat vəsait

buraxılmışdı[55].

Kitabxana fondlarının komplektləşdirilməsi üçün ayrılan vəsaitin çoxaldılması kitabxana fondunun əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. 1946-cı ildə Bakı və onun rayonlarında 30 kütləvi kitabxana və bu kitabxanalarda 559,3 nüsxə kitab var idisə, 1947-ci ildə 31 kitabxanada 610 min nüsxə kitab fondu, 1948-ci ildə 33 kitabxanada 640 min kitab fondu[56], 1949-cu ildə 35 kitabxana 666.447 nüsxə kitab fondu olmuş, 1950-ci ildə kitabxanaların kitab fondu 816 min nüsxəyə çatmışdı. Bu da 1940-cı ildəkindən 143.740 nüsxə çox idi. 1951-ci ildə Bakı və onun rayonlarında şəhər mədəniyyət şöbəsinə tabe olan 54 kütləvi kitabxanada (uşaq kitabxanaları da daxil olmaqla) 1.180.532 nüsxə kitab var idi[57].

Şəhər kitabxanaları kütləvi işlərin bütün forma və üsullarından: ucadan oxu, söhbət, məruzə, mühazirə, oxucu konfransları, müzakirə, görkəmli şəxslərlə görüş, biblioqrafik icmallar, kitab sərgiləri, kitabxana plakatları, şifahi və yazılı biblioqrafik məlumatlar və s. vəsaitlərdən istifadə edərək əhalinin ideya-siyasi tərbiyəsində yaxından iştirak edirdilər. Azərbaycan klassiklərinin əsərləri, partiya və dövlət qərarları hərtərəfli təbliğ edilirdi. Kitabxanalar bütün kütləvi işləri həyata keçirərkən, kitabxana işi formaları ilə yanaşı, şəhər ziyalılarının, alimlərinin, mütəxəssislərinin gücündən də hərtərəfli istifadə edirdilər.

Respublikada kitabxana işinin forma və məzmunca yaxşı təşkil edilməsi nəticəsində bəhs olunan dövrdə oxucuların sayı və kitab dövriyyəsi əsaslı surətdə artmışdı. Həmin artımı aşağıdakı cədvəldən daha aydın görmək olar[58]:

İllər	Oxucuların miqdarı	Kitab verilişi
1940	60.159	1378,2
1946	49.700	1422,1
1947	79.600	1641,1
1948	80.000	2.300 min
1949	90.000	2.400 min
1950	100.354	4.018.980
1951	146.039	4.179.298[59]

Cədvəldən göründüyü kimi, 1946-cı ildə oxucuların sayı 1940-cı ilin səviyyəsinə çatmamış, kitab verilişi isə o vaxtkı səviyyəyə çatmışdır.

Bəhs olunan dövrdə kitabxanalarda təbii-elmi, hərbi, texniki ədəbiyyatın və qabaqcıl təcrübənin təbliğinə xüsusi diqqət yetirilirdi. Kitabxanaların fəaliyyətində beynəlxalq məsələlər və siyasətə dair ədəbiyyatın təbliği də mühüm yer tuturdu. Bakı kitabxanalarının fəaliyyətində neftçilər arasında aparılan işə də xüsusi diqqət yetirilirdi.

Fəhlələr arasında geniş kütləvi işlər təşkil olunur, yeni ədəbiyyatın sərgisi və icmalı təşkil edilir, neftə dair ədəbiyyatın tövsiyə siyahıları oxucuların diqqətinə çatdırılırdı. Bu işdə Lenin adına, Sabir adına, Nekrasov adına, Əzizbəyov adına, Fioletov adına Bakı şəhər kütləvi kitabxanaları və Qorki adına səyyar fond xüsusilə fərqlənirdilər. Kitabxanalar Bakının neft rayonlarında 1947-ci ildə 150, 1948-ci ildə isə 160 səyyar kitabxana təşkil etmişdilər.

Bakı şəhər kütləvi kitabxanalarının bu dövrdəki fəaliyyətinin təhlilindən aydın olur ki, onlar əhaliyə kitabxana xidməti göstərərkən neftçilərə xidmət etməyi ön plana çəkmişlər. Kitabxanalar neftçilər arasında geniş təbliğat-təşviqat işi aparır, beşillik planın vəzifələrini, dövlətimizin beynəlxalq və daxili siyasəti məsələlərini geniş surətdə təbliğ edirdilər.

Bakı şəhər kütləvi kitabxanalarının müharibədən sonrakı illərdəki fəaliyyətində qadınlar arasında iş xüsusi yer tuturdu. Qadınlar arasında kitabxanaların işi Azərbaycan K(b)P MK-nın 1951-ci ildə «Respublikada qadınlar arasında aparılan işin vəziyyəti və onu yaxşılaşdırmaq haqqında» göstərişindən sonra daha da yaxşılaşdı.

Bu qərarı yerinə yetirmək məqsədi ilə Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsi və Bakı Şəhər Mədəni-Maarif İdarəsi xüsusi tədbirlər hazırlayıb həyata keçirməyə başladı. Mərkəzi Komitənin qərarı ilə əlaqədar olaraq mədəniyyət saraylarının, klubla-

rın, kitabxanaların işinə həsr edilmiş Bakı şəhər mədəni-maarif müəssisələri işçilərinin müşavirəsi keçirildi[60]. Müşavirə qərarın qarşıya qoyduğu vəzifələri ətraflı müzakirə edərək, bu vəzifələri yerinə yetirmək, qadınlar arasında işi daha da canlandırmaq üçün perspektiv plan hazırladı. Müşavirə bir tərəfdən mədəni-maarif müəssisələrinin qadınlar arasında apardığı işi yaxşılaşdırmağı, onu daha rəngarəng, daha maraqlı təşkil etməyi, evdar qadınları kitabxana oxucuları sırasına cəlb etməyi lazım bildi, digər tərəfdən isə mədəni-maarif müəssisələrinin işində qadınların fəaliyyətinə diqqəti artırmağı, onları bu sahədə rəhbər işə irəli çəkməyi zəruri hesab etdi. V.İ.Lenin adına, M.Ə.Sabir adına, N.K.Krupskaya adına Bakı şəhər kütləvi kitabxanaları və M.Qorki adına səyyar fond Azərbaycan K(b)P MK-nın qərarının yerinə yetirilməsində öz yaxşı işləri ilə fərqlənirdilər.

Kitabxanalarda qadınlar arasında aparılan işin yaxşılaşdırılması ilə əlaqədar olaraq qadın oxucularının sayı artırdı. Təkcə bunu göstərmək kifayətdir ki, 1950-ci ildə Sabir adına kitabxananın 7207 oxucusundan 5015-ni, Nekrasov adına kitabxananın 7699 oxucusundan 4003-nü qadınlar təşkil edirdi.[61]

Müharibədən sonrakı beşillik dövründə Bakı ilə yanaşı Azərbaycanın digər şəhərlərində, xüsusən Sumqayıt, Gəncə və Mingəçevirdə əhaliyə kitabxana xidmətinin təşkili sahəsində mühüm tədbirlər həyata keçirilmiş, yeni kitabxanalar açılmış və kitab fondları əhəmiyyətli dərəcədə artmışdı.

Dördüncü beşillik müddətində Mədəni-Maarif Müəssisələri Komitəsi tərəfindən Sumqayıt və Mingəçevir şəhərlərində inşaatçı fəhlələrə xidmət etmək üçün yeni kitabxanalar təşkil edildi. Komitə bu kitabxanaların komplektləşdirilməsinə xüsusi diqqət yetirirdi.

Azərbaycan K(b)P MK-nın 19 may 1950-ci il tarixli göstərişinə uyğun olaraq Mədəni-Maarif Müəssisələri Komitəsi 1950-ci ilin iyulunda Mingəçevir Su Elektrik Stansiyası tikintisinin fəhlələrinə, mühəndis-texnik işçilərinə xid-

mət etmək üçün kütləvi şəhər kitabxanası təşkil etdi[62]. Kitabxana üçün ayrılmış 4 otaqlı bina qısa müddətdə yeni avadanlıqla təmin edildi. Kitabxananın işini qaydaya salmaq üçün komitə 1950-ci ildə 10 min manat vəsait ayırmış və kitabxana üçün 2500 nüsxə kitab alınmışdı[63].

Müharibədən sonrakı illərdə respublikanın ikinci sənaye mərkəzi olan Gəncədə əhalinin mədəni tələbatını ödəmək məqsədi ilə mühüm tədbirlər görüldü. Şəhərdə mövcud olan mədəni-maarif müəssisələri, mədəniyyət sarayları, klublar, kitabxanalar bərpa edildi, onların maddi-texniki bazası möhkəmləndirildi. Beşillik müddətində şəhərdə dörd yeni kitabxana açıldı. 1950-ci ildə Gəncədə 7 kütləvi kitabxana fəaliyyət göstərirdi. Şəhərdə əhaliyə kitabxana xidmətinin təşkili işində V.İ.Lenin adına mərkəzi şəhər kitabxanası mühüm yer tuturdu. Bu kitabxana həmçinin şəhərdə olan digər kitabxanalara metodik mərkəz kimi də xidmət edirdi. 1950-ci ildə kitabxananın fondunda 290140 nüsxə kitab var idi. Kitabxana 4 minə yaxın oxucuya xidmət edirdi. Bir il müddətində oxuculara 107 min kitab verilmişdi. Orta hesabla hər oxucuya 26 kitab düşürdü ki, bu da o dövr üçün böyük müvəffəqiyyət sayılmalıdır.

Dördüncü beşillik planın müvəffəqiyyətlə yerinə yetirilməsi sahəsində respublikamızda şəhər əhalisinə kitabxana xidmətinin təşkili sahəsində böyük tədbirlər həyata keçirildi. Kitabxanaların maddi-texniki bazası möhkəmlənmiş, xüsusilə kitabxanaların əksəriyyəti ya yeni binalarla təmin edilmiş, ya da əsaslı təmir edilmişdi. Kitabxana fondlarını komplektləşdirmək üçün vəsaitin müntəzəm surətdə artırılması, kitabxana fondlarının tərkibinin əsaslı şəkildə yerləşdirilməsinə gətirib çıxarmışdı.

Dördüncü beşilliyin sonunda Azərbaycanın şəhərlərində 281 kütləvi kitabxana fəaliyyət göstərirdi ki, bunların fondunda 2669800 nüsxə kitab var idi[64]. Onlardan 1947000 nüsxə kitab fonduna malik olan 137 kitabxana Bakı şəhərində yerləşirdi[65]. 1950-ci ildə kütləvi kitabxanaların sayının

1940-cı il səviyyəsinə çatmamasına (1940-cı ildə Azərbaycanın şəhər yerlərində 299 kitabxana var idi) baxmayaraq, onların kitab fondu 1940-cı ilə nisbətən 2 dəfəyə qədər artmış, əhaliyə kitabxana xidmətinin təşkili xeyli yaxşılaşdırılmışdı.

b) Kənd kitabxana şəbəkəsinin daha da inkişaf etdirilməsi

Kənd təsərrüfatının bərpa və inkişaf etdirilməsi uğrunda mübarizə dövrünün mühüm vəzifələrindən biri də kolxoz kəndinin mədəniyyətini və kolxozçuların ümumi mədəni səviyyəsini yüksəltməkdən ibarət idi. Bu mühüm vəzifə – kəndin iqtisadi həyatının bərpa və inkişaf etdirilməsi, kolxoz, MTS və sovxozların təşkilat-təsərrüfatca möhkəmləndirilməsi vəzifələri ilə əlaqədar şəkildə həyata keçirilirdi. Kəndin mədəni inkişafında mədəni-maarif müəssisələrinin rolu böyük idi. Kolxozçu kəndlilərin mənəvi həyatında mühüm rol oynayan mədəni-maarif müəssisələri kənd zəhmətkeşlərinin məişətində möhkəm yer tutmağa başlamışdı. Müasir kolxoz təsərrüfatını, kolxozçu kəndlilərin mədəniyyətini yüksəltmədən inkişaf etdirmək qeyri-mümkün idi. Çünki kolxoz tarlasında məhsuldarlığın artırılması kolxozçu kəndlilərin mədəni səviyyəsinin yüksəldilməsi ilə üzvi surətdə bağlı idi.

Məhz buna görədir ki, müharibədən sonrakı beşillik dövründə kənddə mədəni-maarif müəssisələrinin inkişafına xüsusi diqqət yetirilirdi. Bu dövr Azərbaycanda, xüsusilə kənd yerlərində kitabxana işinin əsaslı inkişafı dövrü kimi xarakterikdir. Məhz bu dövrdə respublikanın kənd rayonlarında kitabxanaların təşkili müvəffəqiyyətlə başa çatdırılmış, bütün rayonlarda mərkəzi kitabxanalar təşkil edilmiş, onların maddi-texniki bazası möhkəmləndirilmişdi. Rayon kitabxanalarının işində də böyük keyfiyyət dəyişiklikləri baş vermiş, oxuculara xidmət işi xeyli yaxşılaşmışdı. Rayon kitabxana işçilərinin xüsusilə rayon kitabxana müdirlərinin komitənin nomenklaturasına daxil edilməsi kitabxanaçı kadrların tərkibinin yaxşılaşdırılmasına, müharibə illərində

və sonrakı illərdə kitabxana işinə gələn təsadüfi adamların kitabxanalardan uzaqlaşdırılmasına səbəb olmuşdu. Artıq 50-ci illərdə rayon kitabxanaları rayonda kitabxana işinin ümumi inkişafına, xüsusilə kənd kitabxanalarına metodik kömək işində yaxından iştirak etməyə başlamışdı.

Rayon kitabxanalarında kitabxana işinin təşkili prosesi kitab fondunun uçotu, düzülüşü, kitabların kitabxana qaydası ilə işlənməsi və s. elmi əsaslar üzrə həyata keçirilməyə başlamış, qabaqcıl rayon kitabxanalarında kataloqların təşkili başa çatdırılmışdı. Kitabxana fondunun komplektləşdirilməsi probleminin həlli sahəsində də mühüm işlər görülmüşdü. Bu problemin qismən də olsa həlli rayon kitabxanalarında oxucuya xidmət işinin təşkilini xeyli yaxşılaşdırmağa səbəb oldu. 1945-ci ildə hər rayon kitabxanasının orta hesabla 2000 kitabı vardısa, 1950-ci ildə bu rəqəm 10 min nüsxəyə çatdırılmışdır[66].

Artıq 1950-ci ildə respublikamızda 4 milyon 889 min kitab fonduna malik olan 71 rayon mərkəzi kitabxanası var idi[67]. Müharibədən sonrakı beşillik dövründə kənd mədəni-maarif müəssisələri içərisində müstəqil kənd kitabxanaları mühüm yer tutmağa başladı. Dördüncü beşillik dövrü Azərbaycanda müstəqil kənd kitabxanalarının, sözün əsl mənasında, inkişaf dövrü olmuşdu. Çünki bu dövrə qədər Azərbaycan kəndlərinin əksəriyyətində müstəqil kənd kitabxanalarının vəzifələri qiraət komaları, yaxud klub kitabxanaları tərəfindən həyata keçirilirdi.

Əgər kənd yerlərində 1940-ci ildə 1084 kütləvi kitabxana var idisə, onların sayı 1950-ci ildə 2009-a çatmışdı. Yəni beş il müddətində 925 yeni kitabxana təşkil edilmişdi. Onlardan 382-si Mədəni-Maarif Müəssisələri Komitəsinin kitabxanası idi. Kənd yerlərində 71 rayon mərkəzi kitabxanası, 350 kənd kitabxanası, 919 klub kitabxanası, 706 kolxoz kitabxanası, 34 uşaq kitabxanası fəaliyyət göstərirdi[68]. Beşillik müddətində 222 müstəqil kənd kitabxanası təşkil edilmişdi[69] ki, bu da böyük mədəni nailiyyət idi.

Beşillik müddətində Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayətində də kitabxana işinin inkişaf etdirilməsi sahəsində mühüm işlər görülmüşdü. 1945-ci ildə Naxçıvan MSSR-də respublika Mədəni-Maarif Müəssisələri Komitəsinin və Dağlıq Qarabağ Muxtar Vilayətində mədəni-maarif müəssisələri idarəsinin yaranması kitabxana işinin inkişafında mühüm rol oynadı. Bunların köməyi ilə tezliklə mədəni-maarif müəssisələri yenidən qeydə alındı, mövcud vəziyyət aşkara çıxarıldı. Müharibə dövründə mövcud olan nöqsanların aşkara çıxarılması və onun təhlili müharibədən sonrakı beşillik dövründə kitabxana işinin inkişaf etdirilməsi üçün şərait yaratdı.

1946-cı ildə Naxçıvan MSSR-də 23 kitabxana və 31 qiraətxana var idi. Bu kitabxanaların əksəriyyətinin maddi-texniki bazası olduqca zəif idi. Kitabxana fondları müharibə dövründə xeyli zərər çəkmiş, yeni ədəbiyyatla təchiz edilməmişdi. Kitabxana işçilərinin tərkibi xeyli pisləşmişdi. Başlıca vəzifə tezliklə bu mühüm nöqsanları aradan qaldırmaq, kitabxana işini bərpa edib yenidən qurmaq idi. Bu vəzifələr beşillik planda öz əksini tapmışdı. Respublikanın dövlət orqanlarının qayğısı sayəsində kitabxana işinə dair beşillik plan göstəriciləri müvəffəqiyyətlə yerinə yetirildi, kitabxanaların maddi-texniki bazası möhkəmləndirildi, kitabxanaların kadr tərkibi xeyli yaxşılaşdırıldı. Müvəqqəti çətinlik üzündən kitabxanalara işləməyə gələn azsavadlı şəxslər kitabxanalardan uzaqlaşdırıldılar.

Müharibədən sonrakı beşillik planın müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində Naxçıvan MSSR-də kitabxana işi müvəffəqiyyətlə bərpa və inkişaf etdirilmiş, müstəqil kitabxana şəbəkəsi sabitləşmişdi. Artıq 1951-ci ildə Naxçıvan MSSR-də 1 respublika kitabxanası, 5 rayon kitabxanası, 5 uşaq kitabxanası, 33 kənd kitabxanası, 42 kənd qiraətxanası fəaliyyət göstərirdi. Dövlət kitabxana şəbəkəsindən əlavə kolxozlar da yeni mədəni-maarif müəssisələrinin təşkilində yaxından iştirak edirdilər.

1950-ci ildə Naxçıvan MSSR kitabxanalarının fondunda 80 min nüsxədən artıq kitab var idi. Bu kitabxanalar 14 mindən artıq oxucuya xidmət edirdi[70].

1952-ci ilin iyulunda Mədəni-Maarif Müəssisələri Komitəsinin kollegiyası «Naxçıvan MSSR-də mədəni-maarif işinin vəziyyəti haqqında» qərar qəbul etdi[71]. Qərarda müharibədən sonrakı illərdə muxtar respublikada mədəni-maarif işinin yaxşılaşdırılması sahəsində mühüm işlər görüldüyü, mədəni-maarif müəssisələrinin: klubların, kitabxanaların, qiraətxanaların, mədəniyyət saraylarının respublikanın mədəni həyatında yaxından iştirak etdiyi qeyd edilirdi.

Beşillik dövründə kənddə kitabxana işinin inkişafı sahəsində baş verən mühüm hadisələrdən biri də kənd kitabxanaları fondunun planauyğun şəkildə komplektləşdirilməsi idi. Müharibə illərində kənd kitabxanaları fondları çox zərər çəkmişdi. Bəzi rayonlarda və kəndlərdə baxımsızlıq və sahibsizlik üzündən kitabxana fondları tamamilə dağılmışdı.

Rayon və kənd kitabxanalarının komplektləşdirilməsində Kitabxana Kollektorunun rolu olduqca böyük idi. 1946-cı ildən başlayaraq Mədəni-Maarif Müəssisələri Komitəsi rayon və kənd kitabxanalarının bilavasitə Kitabxana Kollektoru tərəfindən komplektləşdirilməsi üçün bütün mədəni-maarif şöbələrinə göstəriş vermişdi ki, Kitabxana Kollektoru ilə müqavilə bağlasınlar. İlk illərdə kitabxanaların əksəriyyətini Kitabxana Kollektoru vasitəsilə komplektləşdirmək mümkün olmadı. Bu, bir tərəfdən kitabxanaların bu işə diqqət yetirməməsindən irəli gəlirdi. Bu nöqsanları aradan qaldırmaq üçün Mədəni-Maarif Müəssisələri Komitəsi mühüm tədbirlər həyata keçirdi. Kənd kitabxanaları yeni kadrlarla təmin edildi. Kitabxanalarda uçot və hesabat işləri qaydaya salındı. Kitabxanaların dəqiq uçotunun aparılması qaydaları müəyyənləşdirildi. Həmçinin komitə kitabxanaları yeni ədəbiyyatla komplektləşdirmək üçün mühüm tədbirlər gördü. 1946-cı ildən etibarən kənd kitabxanaları Kitabxana Kollektoru tərəfindən mərkəzləşdirilmiş şəkildə komplekt-

ləşdirilməyə başlanmışdı. Bu tədbirlər kənd kitabxanalarını təsadüfi komplektləşdirmədən qurtarmaqla yanaşı kitab fondunu profilə uyğun təkmilləşdirmək üçün şərait yaradırdı. Bütün bu tədbirlərin nəticəsində beşillik dövründə kitabxana fondları 1940-cı ilə nisbətən 3 dəfəyə qədər artmışdı. Əgər 1940-cı ildə kənd yerlərində yerləşən kitabxanaların fondunda 614,9 nüsxə kitab var idisə, 1950-ci ildə onların sayı 1533,3 nüsxəyə çatmışdı[72].

1948-ci ildə 74 rayon kitabxanasından ancaq 56-sı kollektorla müqavilə bağlamışdı[73]. Bu kollektorun özünün hələlik respublikanın bütün rayon kitabxanalarının komplektləşdirə bilmək imkanının olmamasından irəli gəlirdi.

Kollektor kənd və rayon kitabxanalarını komplektləşdirərkən kənd təsərrüfatı ədəbiyyatının göndərilməsinə xüsusi diqqət yetirirdi. 1949-cu ildə kollektor rayon və kənd kitabxanalarına 4936 nüsxə kitab göndərmişdi ki, bunun da 3941 nüsxəsi Azərbaycan dilində idi[74].

Dördüncü beşillik Azərbaycanın kənd zəhmətkeşləri üçün gərgin və yaradıcı əmək, kənd təsərrüfatının bərpa və inkişaf etdirilməsi uğrunda mübarizə və kəndin mədəni təraqqisi illəri oldu. Bu dövrdə respublikanın kənd yerlərində mədəniyyətin ümumi inkişafı və kənd zəhmətkeşlərinin ümumi mədəni səviyyəsinin yüksəlməsi ilə əlaqədar kitab Azərbaycan kəndinə daha geniş yol açmağa başlamış, kəndlilərin məişətində mühüm yer tutmuşdu. Kitabın kənddə yayılması bilavasitə kitabxanaların fəaliyyəti ilə əlaqədar idi. Rayon mərkəzi kitabxana şəbəkəsinin sabitləşməsi və bütün kitabxana şəbəkəsinin daha da genişlənməsi, dövlət kənd kitabxanaları ilə yanaşı, kolxoz və sovxoz kitabxanalarının sayının durmadan artması və fəaliyyət dairəsinin genişlənməsi kənd əhalisinə kitabxana xidmətini xeyli yaxşılaşdırmaq, əhalinin böyük əksəriyyətini kitabxanaların oxucuları sırasına cəlb etmək imkanını xeyli artırmışdı. Bütün bunlar rayon və kənd kitabxanalarının qarşısında kitabxana işinin məzmununu yaxşılaşdırmaq, əhaliyə xidmət işinin yeni forma və metodlarını təbliğ etmək, oxucular arasında aparılan fərdi və kütləvi işi daha da genişləndirmək, kitabxana işinin ideya-siyasi səviyyəsini daha da yüksəltmək vəzifələri qoyurdu. Bu mühüm vəzifələri yerinə yetirmək üçün kənd kitabxanaları geniş kütləvi tədbirlər həyata keçirir, siyasi kampaniyalarda daha fəal iştirak edir, dövlət qərarlarını zəhmətkeş kütlələri arasında geniş yayırdılar.

c) Həmkarlar İttifaqı kitabxanaları

Müharibədən sonrakı beşillik planın müvəffəqiyyətlə yerinə yetirilməsində Azərbaycan Həmkarlar İttifaqı təşkilatları da yaxından iştirak edirdi. Həmkarlar ittifaqları bu dövrdə fəhlə və qulluqçuların siyasi tərbiyəsində və mədəni inkişafında xüsusi rol oynayırdı. Həmkarlar ittifaqının mədəni fəaliyyətində kitabxanaların xüsusi mövqeyi var idi. Məhz buna görədir ki, Azərbaycan Həmkarlar ittifaqları kitabxanaların fəaliyyətinə xüsusi diqqət yetirirdi. Müharibə qurtardıqdan sonra respublika həmkarlar ittifaqları kitabxana şəbəkəsinin bərpa və inkişafı üçün xüsusi tədbirlər görməyə başladı. İlk növbədə müharibə illərində müvəqqəti olaraq öz fəaliyyətini dayandıran kitabxanalar bərpa edildi. Xüsusilə neft mədənləri, neftayırma zavodları, həmçinin böyük fabrik və zavodlarda olan kitabxanalar yenidən qurulmağa başladı. Kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək, kadr tərkibini yaxşılaşdırmaq üçün tədbirlər görüldü. Respublikada neft sənayesinin bərpa və daha da inkişaf etdirilməsi ilə əlaqədar olaraq neft rayonlarında yeni kitabxanalar açıldı. 1948-ci ildə ÜİHİMŞ XIX plenumunun qərarı ilə əlaqədar olaraq Azərbaycan Həmkarlar İttifaqları Şurası bərpa edildi. AHİŞ-in bərpası respublikada həmkarlar ittifaqlarının işinin daha da canlanmasına səbəb oldu.

AHİŞ tərkibində ittifaqların mədəni fəaliyyətinə rəhbərlik etmək üçün ayrıca şöbənin təşkili həmkarlar ittifaqlarının mədəni işinin mərkəzləşdirilməsi və daha da canlandırılması üçün əlverişli şərait yaratdı.

Beşillik müddətində mövcud kitabxana şəbəkəsinin bərpası ilə əlaqədar olaraq yeni kitabxanaların açılmasına xüsusi diqqət yetirildi. Beşillik müddətində həmkarlar ittifaqları 50-dən artıq[75] yeni kitabxana açmışdı. 1950-ci ildə həmkarlar ittifaqlarının 872,5 min kitab fonduna malik olan 105 kitabxanası var idi[76].

Bundan başqa, həmkarlar ittifaqı kitabxanaları geniş səyyar kitabxanalar şəbəkəsinə malik idi. Bilavastiə ayrı-ayrı fabrik, zavod və mədənlərdə təşkil edilən bu kitabxanalar fəhlə və qulluqçulara xidmət etmək işində mühüm rol oynayır, istehsalat-texniki ədəbiyyatı, elm və texnikanın son nailiyyətlərini geniş surətdə təbliğ edirdilər. 1950-ci ildə həmkarlar ittifaqı kitabxanalarının 120 səyyar məntəqəsi var idi. Kitabxanaların belə geniş şəbəkəsinin yaranması həmkarlar ittifaqı təşkilatlarına mədəni-kütləvi və siyasi tərbiyə işlərinin miqyasını genişləndirmək və səviyyəsini xeyli yüksəltmək imkanı vermişdir. Kitabxanaların işi, kitab təbliği bilavasitə beşillik planın qarşıya qoyduğu vəzifələrlə - istehsalatın yüksəldilməsi vəzifələri ilə əlaqələndirilirdi. Müharibədən sonrakı beşillik dövründə həmkarlar ittifaqı kitabxanaları kitab təbliğinin bütün mütərəqqi forma və üsullarından geniş surətdə istifadə edərək zəhmətkeşlərin ideya-siyasi və kommunist tərbiyəsində yaxından iştirak edirdilər. Həmkarlar ittifaqı kitabxanalarında təşkil edilmiş texniki dərnəklər daha mütəşəkkil fəaliyyət göstərirdi. Belə dərnəklərdə yaxından iştirak edən əməkçilər öz nəzəri və texniki biliklərini yüksəldirdilər.

Bu dövrdə həmkarlar ittifaqı kitabxanalarının işinin daha mütəşəkkil təşkil edilməsində, texniki ədəbiyyatın təbliğinin yaxşılaşdırılmasında və yeni oxucular cəlb edilməsində kitabxanaların Ümumittifaq baxışının mühüm əhəmiyyəti oldu. Baxışın şərtlərinin yerinə yetirilməsi uğrunda mübarizəyə qoşulan həmkarlar ittifaqı kitabxanaları, kitabxanaların maddi-texniki bazasını möhkəmləndirmək və oxuculara xidmət işini daha da yaxşılaşdırmaq sahəsində mühüm nailiyyətlər əldə etmişdi.

Ümumittifaq baxışında iştirak edən V.İ.Lenin adına, 1 may adına, Orconikidze adına, Kirov adına, Xətai adına mədəniyyət sarayları kitabxanaları və Qubkin adına Mərkəzi Kitabxana baxışın bütün şərtlərini yerinə yetirdiklərinə görə ÜİHİMŞ-in mükafatını aldılar[77]. Baxışın müddətində neft sənayesi işçiləri həmkarlar ittifaqı kitabxanaları daha da fərqləndilər. 1949-cu ildə həmin kitabxanaların fondunda 359064 nüsxə kitab var idisə, 1950-ci ildə onların sayı 432112 nüsxəyə, oxucuların sayı isə 30620 nəfərdən 41774 nəfərə çatmışdı. Bir il müddətində oxucuların sayı 11154 nəfər artmışdı ki, onların da əksəriyyəti fəhlələr idi. Göstərilən dövr ərzində 992 məruzə, 214 ədəbi-bədii gecə və oxucu konfransı, 3677 ucadan oxu, 1234 kitab sərgisi təşkil edilmişdi[78]. Azərbaycan Neft Sənayesi Həmkarlar İttifaqı kitabxanaları içərisində Qubkin adına kitabxananın xüsusi mövqeyi var idi. Uzun illərdən bəri Azərbaycan neft sənayesi fəhlələrinə və mühəndis-texnik işçilərinə xidmət sahəsində böyük təcrübə qazanmış bu kitabxana müharibədən sonrakı beşillik dövründə oxuculara xidmət etməklə yanaşı, Neft Sənayesi Həmkarlar İttifaqı kitabxanalarının bərpa və inkişafında yaxından iştirak etmiş, onlara metodik rəhbərliyin əsl mərkəzinə çevrilmişdi.

1950-ci ildə bu kitabxananın fondunda 64576 nüsxə kitab var idi. Kitabxana 3703 oxucuya xidmət edirdi. Oxucuların 44 faizini qadınlar təşkil edirdi. Təkcə son 6 ay müddətində kitabxana oxuculara 67761 nüsxə kitab vermişdi. Kitabxana hər gün 240 nəfər oxucuya xidmət edirdi[79].

1951-ci ildə respublika həmkarlar ittifaqı kitabxanalarının sayı 150-yə, kitab fondu isə 1470093-ə çatmışdı[80]. Bu kitabxanalar 96296 nəfər oxucuya xidmət edirdilər ki, onların əksəriyyətini bilavasitə istehsalatda çalışan fəhlələr təşkil edirdi. Kitabxanalar zəhmətkeşlər arasında geniş kütləvi siyasi iş aparırdı. Kütləvi-siyasi tədbirlərin əsas məzmununu dövlətin qarşıya qoyduğu vəzifələr, beşillik planın əsas gös-

təriciləri, tarixi və əlamətdar günlər və s. təşkil edirdi. Təkcə 1951-ci ildə respublika həmkarlar ittifaqı kitabxanaları 283 məruzə və mühazirə, 267 oxucu konfransı, 95 ədəbi-bədii gecə, 1478 ucadan oxu, 487 sərgi və s. kütləvi tədbirlər təşkil etmişdi[81].

ç) Uşaq və məktəb kitabxanaları

Müharibədən sonrakı beşillik dövründə uşaqlara kitabxana xidmətinin təşkilinə xüsusi diqqət yetirilməyə başlandı. Müharibə illərində uşaq kitabxanaları ciddi zərər çəkmişdi. Azərbaycan rayonlarının əksəriyyətində müstəqil uşaq kitabxanaları öz fəaliyyətini dayandırmışdı. Beş il müddətində uşaq ədəbiyyatının çox az miqdarda nəşr etdirilməsi, nəşr edilən kitabların tirajının azlığı uşaq kitabxanalarının fondunun yoxsullaşmasına səbəb olmuşdu. Kitabxanalar kadr cəhətdən də korluq çəkirdilər. Şəraitlə əlaqədar olaraq təcrübəli kadrların kitabxanalardan getməsi onların işinə mənfi təsir göstərirdi. Qarşıda çox mühüm vəzifə – qısa zamanda uşaq kitabxana şəbəkəsini bərpa etmək, onu gənc nəslin mənəvi tərbiyəsində mühüm məntəqəyə çevirmək vəzifəsi dururdu. Məhz buna görə beşillik planda müstəqil uşaq kitabxanaları şəbəkəsini 1940-cı ilə nisbətən 2 dəfədən çox artırmaq nəzərdə tutulmuşdu. Bu dövrdə respublikamızda uşaqlara kitabxana xidməti müstəqil uşaq, məktəb və kütləvi kitabxanaların uşaq şöbələri tərəfindən həyata keçirilirdi.

Bəhs olunan dövrdə uşaq kitabxanalarına rəhbərlik məsələsi də qaydaya salındı. 1948-ci ilə qədər kənd rayonlarında mövcud olan uşaq kitabxanalarına Mədəni-Maarif Müəssisələri Komitəsi rəhbərlik edirdi. Amma Bakı şəhər müstəqil uşaq kitabxanaları hələ də Bakı Xalq Maarif Şöbəsinin ixtiyarında idi. Uşaq kitabxanalarının işinin daha da yaxşılaşdırılması isə onlara rəhbərlik işinin vahid bir orqanda mərkəzləşdirilməsini tələb edirdi. Odur ki, 1948-ci ildə Bakı şəhər müstəqil uşaq kitabxanaları Mədəni-Maarif

Müəssisələri Komitəsinin sərəncamına verildi[82].

Mədəni-Maarif Müəssisələri Komitəsi qısa müddətdə uşaqlara kitabxana xidmətini yaxşılaşdırmaq məqsədi ilə yeni kitabxanalar açmağa başladı. Komitə təkcə 1946-1947-ci illərdə 12 müstəqil uşaq kitabxanası açmış, onları bina ilə təmin etmiş və kitab fondunu komplektləşdirmişdi[83]. 1948-ci ildə isə Naxçıvan Muxtar Respublikasında, Dağlıq Qarabağ Muxtar Vilayətində, Ağdamda, Bərdədə, Qubada, Kürdəmirdə, Lənkəranda, Salyanda, Tovuzda, Ucarda və Şamaxıda 11 yeni müstəqil uşaq kitabxanası açmağı nəzərdə tutmuşdu[84].

1948-ci ildə respublikamızda 308200 nüsxə kitab fonduna malik olan 30 uşaq kitabxanası var idi. Onların sayı 1951-ci ildə 70-ə, kitab fondu isə 430700 nüsxəyə çatdırıldı. Təkcə 1951-ci ild 16 yeni uşaq kitabxanası açılmışdı ki, bunların əksəriyyəti rayon mərkəzlərində yerləşirdi. Mədəni-Maarif Müəssisələri Komitəsi 1953-cü ilin axırında bütün rayon mərkəzlərində müstəqil uşaq kitabxanaları açmağı nəzərdə tutmuşdu[85]. Kitabxana şəbəkəsinin inkişafı ilə əlaqədar olaraq kitabxanaların fondu və oxucuları da artırdı. Uşaq kitabxanalarının işinin məzmununda böyük keyfiyyət dəyişiklikləri baş vermiş, onlar uşaqların təhsil və tərbiyəsində ən mühüm müəssisələrdən birinə çevrilmişdi. Kitabxanalar uşaqların təhsil və tərbiyəsində yaxından iştirak edir, uşaqların sinifdənkənar mütaliəsinə rəhbərlik edir, dərs proqramlarının yerinə yetirilməsinə köməklik edirdilər. Uşaq kitabxanaları ilə məktəblər arasında geniş əlaqə üsulları meydana gəlib formalaşmağa başlamışdı ki, bu da dərs prosesinin gedişinə, uşaqların dünyagörüşünün daha da inkişaf etdirilməsinə kömək etmək imkanı verirdi. Bütün bu tədbirlər kitabxana oxucularının və kitab verilişinin artmasına da müsbət təsir göstərirdi. Əgər 1947-ci ildə uşaq kitabxanalarının 26700 oxucusu olmuş və onlara 968600 nüsxə kitab verilmişdisə, 1951-ci ildə oxucuların sayı 72800-ə, kitab verilişi isə 1598100-nüsxəyə çatmışdı[86]. Kitabxanalar həmçinin

geniş kütləvi işlər aparırdılar. Təkcə 1950-ci ildə 1948 kitab sərgisi, 4843 ucadan oxu, 227 oxucu konfransı və ədəbi-bədii gecələr təşkil edilmişdi.

Müstəqil uşaq kitabxanaları ilə yanaşı kütləvi kitabxanalar da uşaqlara xidmət işində yaxından iştirak edirdi. 1950-ci ildə Bakı şəhərində 18 müstəqil uşaq kitabxanası ilə yanaşı 11 kütləvi kitabxananın uşaq şöbəsi var idi. Müstəqil uşaq şöbəsi olmayan kitabxanalar da uşaqlara xidmət işini unutmamışdılar. Bütün qəsəbə, rayon kitabxanalarında uşaqlara xidmət üçün şöbələr yaradılmışdı. Uşaq kitabları müstəqil kənd kitabxanalarının, klub kitabxanalarının fondunda əhəmiyyətli yerlərdən birini tuturdu. Komitə uşaq kitabxanalarının kadr tərkibinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirirdi. Bu məqsədlə 1950-ci ildə uşaq kitabxanaları işçilərinin attestasiyası keçirildi. Bilik səviyyəsi aşağı olan, kitabxanaların qarşısında duran müasir tələblərlə ayaqlaşa bilməyən işçilər bacarıqlı və savadlı kadrlarla əvəz edildilər. Kitabxana işçilərinin bir qismi isə ixtisasartırma kurslarına cəlb edildi.

Müstəqil uşaq kitabxanaları ilə yanaşı uşaqlara kitabxana xidmətinin təşkilində məktəb kitabxanaları da yaxından iştirak edirdilər. Müharibə illərində məktəb kitabxanalarının əksəriyyəti müvəqqəti çətinlik üzündən öz fəaliyyətini dayandırmağa məcbur olmuşdu. Müharibə qurtardıqdan sonra məktəb kitabxanalarının, ilk növbədə isə orta məktəb kitabxanalarının bərpa edilməsinə başlanıldı. 1948/1949-cu tədris ilində Bakı və onun rayonlarında 153 məktəb kitabxanası fəaliyyət göstərirdi. Doğrudur, bu kitabxanaların maddi bazası hələ də zəif idi. Ancaq orta məktəb kitabxanaları əsasən öz işlərini məktəblərin qarşısında duran vəzifələr əsasında qurmağa müvəffəq olmuşdular. 1948-ci ildə Bakı və onun rayonlarında 19 yeni məktəb kitabxanası təşkil edilmişdi. Məktəb kitabxanalarında 1950-ci ilin əvvəllərində 257380 nüsxə kitab var idi. Bu kitabxanalar bir il müddətində 81816 oxucuya xidmət etmiş və onlara 1100792 nüsxə kitab vermişdi[87].

Respublikanın rayonlarında isə məktəb kitabxanaları əsasən orta məktəblərin yanında, 50-ci illərdən isə 8 illik məktəblərin yanında da təşkil edilməyə başlanmışdı.

§ 5.3. Elmi və xüsusi kitabxanalar

Müharibədən sonrakı beşillik elmi və xüsusi kitabxanaların inkişafında xüsusilə əlamətdar illər olmuşdur. Bu, bilavasitə respublikada elmin inkişafı ilə əlaqədar idi. Bu dövrdə Azərbaycanda Elmlər Akademiyası yaranmış, onun ayrı-ayrı institutları meydana gəlmiş, yeni-yeni elmi tədqiqat müəssisələri fəaliyyətə başlamış, yeni ali məktəblər təşkil edilmişdi. Respublikada elmi müəssisələrin sürətlə artması yeni elmi kitabxana şəbəkəsinin meydana gəlib formalaşmasına səbəb oldu. Universal xarakterli elmi kitabxanalarla yanaşı, xüsusi elmi kitabxanalar şəbəkəsi meydana gəlib formalaşdı. Bu dövrdə elmi kitabxanaların oxucu tərkibində mühüm dəyişiklik baş vermiş, oxucular arasında elmi işçilərin və xalq təsərrüfatının müxtəlif sahələrində fəaliyyət göstərən mütəxəssislərin sayı xeyli artmış, oxuculara xidmət işinin məzmunu yaxşılaşmışdı. Elmi kitabxanalar mütəxəssislərin daha konkret suallarına cavab verməyə başlamışdı. Kitabxanalarda elmi məlumat işi xeyli yaxşılaşmış, məlumat-biblioqrafiya aparatı tamamilə yenidən qurulmuşdu. Məlumat işinin yaxşılaşması elmi kitabxanalara ayrı-ayrı mütəxəssislərlə yanaşı, elmi kollektivlərə, elmi-tədqiqat problemlərinə xidmət etmək imkanı vermişdi. kitabxanalarda bu və ya digər elm sahələrinə aid xüsusi fondlar, məlumat fondları və digər məlumat vasitələrinin təşkili elmi işçilərə və mütəxəssislərə fərdi xidmət etməyə imkan yaratmışdı.

a) M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanası

Müharibədən sonrakı illərdə respublikamızda elmi fikrin inkişafında elmi ədəbiyyatın geniş təbliğində M.F.Axun-

dov adına Azərbaycan Dövlət Kitabxanasının xüsusi mövqeyi var idi. Müharibə qurtardıqdan sonra kitabxana öz işini dövrün tələblərinə uyğun olaraq beşillik planın vəzifələri əsasında qurmağa başladı. Bu dövrdə kitabxana hər şeydən əvvəl elmi ədəbiyyata böyük tələbatı ödəməyə, ayrı-ayrı elmi işçilərin, mütəxəssislərin, kollektivlərin sifarişini vaxtında yerinə yetirməyə çalışırdı. Kitabxananın qarşısında qısa müddətdə kitabxana fondunu müasir tələblər, oxucu sorğuları əsasında komplektləşdirmək, məcburi nüsxələrdən başqa yeni nəşr edilmiş ədəbiyyatın əlavə nüsxələrini almaq, oxuculara xidmət işini yaxşılaşdırmaq, məlumat-biblioqrafiya işini yenidən qurmaq, kitabxananın kataloq və kartotekalarını təkmilləşdirmək, onu köhnəlmiş ədəbiyyatdan təmizləmək, yeni biblioqrafik vəsaitlər yaratmaq, elmi-metodik işi gücləndirmək, rayon və kənd kitabxanaları üçün metodik məktublar tərtib etmək və s. kimi çox mühüm vəzifələr dururdu. Kitabxananın binasının darısqallığı üzündən alınmış ədəbiyyatın böyük hissəsi işlənib fonda verilməmişdi. Oxucuların böyük ehtiyac hiss etdiyi qiymətli kitabların bir qismi anbarlarda yığılıb qalmışdı. Bunların tezliklə fonda daxil olması da təxirəsalınmaz vəzifə kimi qarşıda dururdu.

Bu dövrdə kitabxana respublikada kitabxana işini daha da yaxşılaşdırmaq üçün metodik işi lazımi səviyyədə həyata keçirmək, elmi ədəbiyyatın təbliğini daha da yaxşılaşdırmaq üçün mühüm tədbirlər gördü.

Hər şeydən əvvəl kitabxana fondunun komplektləşdirilməsi, fondun köhnəlmiş ədəbiyyatdan təmizlənməsi işi qaydaya salındı. Kitabxana 1948-ci ilə qədər SSRİ ərazisində nəşr edilən bütün kitablardan pulsuz məcburi nüsxələr alırdı. 1948-ci ildə SSRİ xalqlarının dillərində çıxan ədəbiyyatın pulsuz məcburi nüsxələrinin alınması dayandırıldı. Kitabxana ancaq rus dilində nəşr edilən və respublikada nəşr olunan bütün ədəbiyyatdan pulsuz məcburi nüsxə almağa başladı[88]. Kitabxana məcburi nüsxədən əlavə yeni ədəbiyyatın əlavə nüsxələrini almaqla yanaşı, nadir nüsxələrin əldə

edilməsinə də xüsusi diqqət yetirirdi. Kitabxana 6 il müddətində 980 min nüsxəyə qədər ədəbiyyat almışdı[89]. Təkcə 1949-1950-ci illərdə kitabxanaya 370 min[90] nüsxə, 1951-ci ildə isə 176996 nüsxə ədəbiyyat daxil olmuşdu[91]. Kitabxananın fondu 1950-ci ildə 1 milyon 900 min nüsxəyə[92] çatmışdı ki, bu da 1945-ci ildəkindən xeyli çox idi. Kitabxana öz fondunu Azərbaycan dilində ədəbiyyatla təkmilləşdirməyə xüsusi diqqət yetirirdi ki, bu da müharibədən sonrakı dövrdə Azərbaycan dilində elmi ədəbiyyata əmələ gələn böyük tələbatla əlaqədar idi.

1946-1951-ci illərdə kitabxananın kataloq sistemi yenidən qurulmağa başlandı Köhnəlmiş kitablar kitabxanadan çıxarılmaqla yanaşı, kataloqlar ciddi surətdə redaktə edilib təkmilləşdi. Xüsusilə sistemli kataloqun ictimai-siyasi, tarix, fəlsəfə, dilçilik, ədəbiyyatşünaslıq, incəsənət və s. şöbələri tamamilə yenidən quruldu[93].

Bu dövrdə kitabxana oxuculara xidmət işini keyfiyyətcə yaxşılaşdırmağa, xüsusilə oxucu tərkibində əsaslı dəyişikliklər etməyə müvəffəq oldu. Oxucular arasında elmi işçilərin, mütəxəssislərin, yenilikçi fəhlələrin sayı xeyli artmışdı. Respublikada elmi-tədqiqat müəssisələrinin yaranması, elmi kadrların sürətlə artması nəticəsində elmi ədəbiyyata əmələ gələn böyük tələbatı ödəmək üçün kitabxana oxuculara xidmət işini daima yaxşılaşdırırdı. Xidmət şöbəsi yüksək ixtisaslı mütəxəssis kadrlarla təkmilləşdirildi. Oxucu tələblərinin vaxtında və kəsirsiz ödənilməsi, ayrı-ayrı elmi kollektivlərin, idarələrin sifarişlərinin yerinə yetirilməsi, yeni ədəbiyyatın oxuculara çatdırılması üçün kitab təbliğinin mütərəqqi forma və üsullarından hərtərəfli istifadə edilməsi yeni oxucuların kitabxanaya cəlb edilməsinə kömək edir, onun daimi oxucularının sayının artmasına səbəb olurdu. Kitabxananın müharibədən sonrakı illərdəki fəaliyyətinin təhlili göstərir ki, bu illər kitabxananın oxucularının müntəzəm şəkildə artdığı, onun tərkibinin keyfiyyətcə təkmilləşdiyi illər olmuşdur. Həmçinin bu illərdə kitabxana fondunun dövriyyəsi

əsaslı surətdə yaxşılaşmış, kitab verilişində ictimai-siyasi ədəbiyyat mühüm yer tutmuşdur. Kitabxana 6 il müddətində 40[94] minə yaxın oxucuya xidmət etmiş, hər il oxuculara orta hesabla 300 mindən artıq ədəbiyyat vermişdi. 1950-ci ildə 320000[95], 1951-ci ildə isə 360387 nüsxə kitab verilmişdi[96]. Kitabxanada daimi oxucuların artması ilə yanaşı, elmi işçilərin sayı da artmışdı. Əgər 1948-ci ilə qədər kitabxananın oxucularının əksəriyyəti ali və orta ixtisas məktəblərinin tələbələri idisə, artıq 1949-cu ildə bilavasitə elmi-tədqiqat işi ilə məşğul olan oxucular ümumi oxucuların 35 faizindən çoxunu təşkil edirdi[97].

Kitab verilişinin tərkibində böyük dəyişiklik əmələ gəlmişdi. Keçmiş illərdən fərqli olaraq dərsliklərdən, dərs vəsaitlərindən, bədii və tarixi ədəbiyyatdan başqa bütün elm sahələrinə dair elmi-tədqiqat əsərləri daha çox oxunmuşdu.

Bu dövrdə klassiklərin əsərlərinə olan böyük tələbatla əlaqədar kitabxana bu sahədəki işini xeyli yaxşılaşdırmış və bu əsərlərin təbliğini genişləndirməyə müvəffəq olmuşdu.

Müharibədən sonrakı illərdə kitabxananın fəaliyyətində kütləvi işlərin təşkili mühüm yer tutmağa başlamış, onların məzmunu yaxşılaşmış, əhatə dairəsi daha da genişlənmişdi. Kitabxana yeni kitabları təbliğ etmək üçün oxucu konfransları keçirir, yeni kitabların müzakirəsini təşkil edir, şifahi və əyani təbliğatın bütün formalarından hərtərəfli istifadə edirdi. Kitabxanada müxtəlif elm sahələrinə dair məruzə və mühazirələrin daha müntəzəm keçirilməsinə başlanması, bu məruzə və mühazirələrin bilavasitə yeni kitabların təbliği ilə əlaqələndirilməsi kütləvi işlərin mütəşəkkilliyini və effektliliyini xeyli artırmış, onun əhatə dairəsini genişləndirmişdi. Kitabxanada kütləvi işlərin genişlənməsi oxucu fəalları qrupunun, xüsusilə mütəxəssis oxucuların kitabxananın kütləvi işlərində fəal iştirak etməsini təmin etmişdi. Kitabxanada kütləvi işin yeni forma və üsullarından: bu və ya digər elm sahəsinə, ayrı-ayrı problemlərə aid kollektiv kitab müzakirələrindən, sərgilərdən, müzakirələrdən, biblioqrafik

icmallardan və s. bacarıqla istifadə edilirdi. Kitabxana 1949-1950-ci illərdə 150 mövzu sərgisi, 100 yeni kitabların sərgisini təşkil etmiş, 50 kütləvi tədbir, biblioqrafik icmal, nəzəri və oxucu konfransı keçirmişdi[98]. Kitabxana bu sahədəki fəaliyyətini sonrakı illərdə daha da genişləndirmişdi. 1951-ci ildə kitabxana 63 mövzu sərgisi, 51 yeni kitablar sərgisi, 12 mühazirə, 2 məruzə, 20 biblioqrafik icmal, 4 oxucu konfransı və yazıçılarla görüş keçirmişdi. Kitabxananın kütləvi işləri bilavasitə Azərbaycan elminin, dövlət qərarlarının təbliğinə və beynəlxalq vəziyyətə həsr edilmişdi. Kitabxananın kütləvi işlərində 25 min nəfərdən artıq oxucu iştirak etmişdi[99].

Müharibədən sonrakı beşillik dövründə elmi ədəbiyyata durmadan artan böyük tələbat, oxuculara fərqli xidmət prosesi hər şeydən əvvəl məlumat-biblioqrafiya və elmi-metodik işin yenidən qurulmasını tələb edirdi. Müharibə qurtardıqdan sonra kitabxananın məlumat-biblioqrafiya şöbəsi öz işini yaxşılaşdırmaq məqsədi ilə məlumat-biblioqrafiya aparatını yenidən qurdu, yeni biblioqrafik kartotekalar təşkil etdi, mövcud kartotekalar yenidən redaktə edilib təkmilləşdirildi.

Kitabxana 1949-1950-ci illərdə 80 min şifahi və 150 yazılı məlumat vermiş, 180 tövsiyə siyahısı tərtib etmiş, yeni ədəbiyyatın məlumat bülletenini buraxmağa başlamışdı. Bu bülleten yeni ədəbiyyatın təbliği sahəsində olduqca mühüm addım idi. Təkcə 1951-ci ildə kitabxana məlumat bülletenının 11 nömrəsini buraxmışdı.

Kitabxana 1950-ci ildən etibarən keçmiş illərə aid jurnal və qəzetlərin analitik təsvirinə başlamışdı. 1951-ci ildə respublikada 1920-1925-ci illərdə nəşr edilmiş jurnallar və 1920-1940-cı illərdə çap olunmuş qəzetlər nəzərdən keçirilmiş və kartotekalara 2714 kartoçka əlavə edilmişdi[100].

1951-ci ildə şöbə öz təcrübəsində ilk dəfə olaraq iki yeni üsuldan: idarə və təşkilatlara yeni ədəbiyyat haqqında qrup halında məlumat vermək və elmi işçilərə fərdi xidmət etmək üsulundan istifadə etməyə başladı. Bu iş üsulları ki-

tabxananın təcrübəsində hələ geniş yayılmasa da, kitabxanaya dövrün tələbləri ilə ayaqlaşmaq, elmi-texniki inkişafa kömək etmək imkanı verirdi.

1948-ci ildə kitabxanaşünaslıq və tövsiyə biblioqrafiyası kabinetinin yaranması kitabxananın elmi-metodik və nəşriyyat fəaliyyətinin yaxşılaşdırılmasına, xüsusilə respublikada tövsiyə biblioqrafiyasının əhəmiyyətli dərəcədə inkişaf etdirilməsinə səbəb oldu. Bu kabinetin atdığı ilk addımlar sonrakı illərdə kitabxanaşünaslıq və biblioqrafiyanın əsaslı şəkildə inkişaf etdirilməsi, onların elmi-nəzəri və metodik inkişafı üçün zəmin oldu. Bu dövrdə kitabxananın metodik fəaliyyətində başlıca yeri respublikanın kütləvi kitabxanalarının iş təcrübəsini öyrənib ümumiləşdirmək, qabaqcıl iş təcrübəsini yaymaq təşkil edirdi. Bu məqsədlə kitabxana metodik müşavirələr keçirir, metodik məktublar tərtib edib rayon kitabxanalarına göndərirdi. Təkcə 1949-1950-ci illərdə rayon və şəhər kütləvi kitabxanalarına 35 metodik məktub göndərilmişdi[101].

Bu dövrdə kitabxananın elmi fəaliyyəti də xeyli genişlənmiş, kitabxana sanballı biblioqrafiyalar, tövsiyə ədəbiyyat göstəriciləri, tövsiyə siyahıları, yaddaşlar və s. nəşr etməyə başlamışdı. Son illərdə kitabxana «M.F.Axundovun biblioqrafiyası», «Səməd Vurğun», «Cəfər Cabbarlı», «Kolxoz quruculuğunun qələbəsi», «Oxucular üçün yaddaş», «Kolxoz kitabxanası üçün yaddaş», «Xalqlar dostluğu haqqında nə oxumalı?» və s. adlı vəsaitlər nəşr etmişdir[102]. Həmçinin kitabxana onluq təsnifatı çapa hazırlamışdı. Kitabxana kitabxanaşünaslıq və biblioqrafiyanın nəzəri və metodik məsələlərinə dair elmi məruzələr təşkil edirdi ki, bu da kitabxana işçilərinin nəzəri hazırlığına, ixtisas biliklərinin artırılmasına müsbət təsir göstərirdi.

b) Azərbaycan SSR EA kitabxanaları

Müharibədən sonrakı illərdə respublikamızda elmi-tədqiqat müəssisələrinin inkişafı ilə əlaqədar olaraq elmi-

tədqiqat müəssisələrinin kitabxana şəbəkəsi genişlənməyə başlamışdı. 1945-1952-ci illərdə respublikada elmi-tədqiqat institutları kitabxanalarının sayı 66-dan 82-yə[103] çatdırılmışdı ki, bu kitabxanaların əksəriyyəti Azərbaycan SSR EA-nın tərkibində idi.

Azərbaycan SSR EA-nın elmi-tədqiqat institutlarının kitabxanalarına akademiyanın əsaslı kitabxanası başçılıq edirdi. İnstitut kitabxanaları təşkilat cəhətdən ayrı-ayrı elmi-tədqiqat müəssisələrinə tabe olmalarına baxmayaraq, onlara metodik rəhbərlik əsaslı kitabxanaya həvalə edilmişdi. Əsaslı kitabxana institut kitabxanalarının yeni ədəbiyyatla komplektləşdirilməsinə, məlumat işinin təşkilinə yaxından kömək göstərirdi. Həmçinin yeri gəldikcə onları profillərinə uyğun olaraq ədəbiyyatla təchiz edirdi. 1947-ci ildə akademiyanın quruluşunda bəzi dəyişikliklər edildi. Onun kiçik şöbə və bölmələri birləşdirilərək, daha böyük şöbələr və bölmələr yaradıldı. Bu dəyişikliklər əsasında kiçik elmi kitabxanalar daha böyük kitabxanalara çevrildi ki, bu da onların elmi işçilərə xidmət imkanını daha da artırırdı.

Bu dövrdə akademiyanın əsaslı kitabxanasının qarşısında ayrı-ayrı institutların elmi-tədqiqat planlarının yerinə yetirilməsində yaxından iştirak etmək, elm və texnikanın son nailiyyətlərini yaymaq, ayrı-ayrı problemlərə, kollektivlərə kompleks halında və ayrı-ayrı elmi işçilərə fərdi xidmət etmək vəzifəsi dururdu. Bu mühüm vəzifələr hər şeydən əvvəl kitabxana fondunun yeni ədəbiyyatla komplektləşdirilməsini, nadir elmi ədəbiyyatın əldə edilməsini, məlumat işinin əsaslı şəkildə canlanmasını tələb edirdi.

Kitabxananın fondunda 1945-ci ildə 134478 nüsxə ədəbiyyat var idi. 1946-cı ildə onların sayı 172000-ə çatdırıldı. Təkcə 1946-cı ildə kitabların sayı 25000 nüsxə artmışdı ki, bunun da əksəriyyətini elmi ədəbiyyat təşkil edirdi[104]. Kitabxana nadir kitabların əldə edilməsinə xüsusi diqqət yetirirdi. Təkcə 1946-cı ildə qədim Şərq ədəbiyyatına aid 38 nadir kitab əldə edilmişdi. Kitabxana öz fondunu nadir kitab-

larla zənginləşdirmək işini sonrakı illərdə də müntəzəm surətdə davam etdirmişdi. Müharibədən sonrakı illərdə kitabxananın ölkəmizin zəngin elmi kitabxanaları ilə əlaqəsi xeyli genişlənmiş, kitab mübadiləsi işi yaxşılaşmışdı. Kitabxana SSRİ EA Əsaslı Kitabxanası, SSRİ Dövlət Kitabxanası və digər kitabxanalarla kitab mübadiləsi edirdi. Kitabxananın beynəlxalq əlaqələri genişlənmiş, xarici dillərdə alınan kitabların və jurnalların sayı xeyli artmışdı. 1946-cı ildə kitabxana xarici dillərdə 813 nüsxə kitab və 297 adda jurnal almışdı[105].

Sonrakı illərdə kitabxananın fondunun komplektləşdirilməsi daha da yaxşılaşdırılmışdı. Kitabxana demək olar ki, mərkəzi elmi nəşriyyatlar və respublika nəşriyyatları tərəfindən nəşr edilən bütün elmi ədəbiyyatı əldə edə bilirdi. Artıq 1950-ci ildə kitabxananın fondunda 231199 nüsxə kitab toplanmışdı. Kitabxana oxucuların durmadan artan sorğularına cavab vermək, elmi-tədqiqat planlarının yerinə yetirilməsində iştirak etmək məqsədi ilə məlumat-biblioqrafiya işini xeyli canlandırmağa müvəffəq oldu. Kitabxananın kataloq sistemi qaydaya salındı, yeni biblioqrafik kartotekalar yaradıldı. Müxtəlif aktual problemlərə həsr edilmiş kartotekaların tərtibi elmi işçilərin sorğularını daha dolğun ödəmək imkanı vermişdi.

1947-ci ildən başlayaraq kitabxana yeni ədəbiyyatın aylıq bülletenini tərtib etməyə başladı. Belə bülletenlər görkəmli alimlərə və institut kitabxanalarına göndərilirdi. İnstitut kitabxanaları bu bülletenləri elmi işçilərin nəzərinə çatdırırdı. Kitabxana həmçinin 1947-ci ildən etibarən yeni xarici ədəbiyyatın kartotekasını tərtib etməyə başlamışdı. Eləcə də kitabxana akademiya sistemində təşkil edilən yeni elmi kitabxanaları müntəzəm surətdə ədəbiyyatla təmin edirdi. Kitabxana 1946-cı ildə təşkil edilən fizika, riyaziyyat, neft və təcrübi tibb institutları kitabxanalarına kitab vermişdi. Kitabxana akademiyanın Gəncədə, Naxçıvanda, Xankəndində, Lənkəranda, Zaqatalada olan bazalarını müntəzəm surətdə kənd təsərrüfatı ədəbiyyatı ilə təkmilləşdirirdi.

Kitabxana akademiya sistemində olan bütün kitabxanaların metodik mərkəzi olduğundan, burada müntəzəm olaraq metodik müşavirələr, seminarlar, biblioqrafik icmallar, söhbətlər keçirilir, metodik məktublar tərtib edilirdi.

Azərbaycan SSR EA Kitabxanası artıq 50-ci illərin əvvəllərində respublikamızda elmi ədəbiyyatı yayan əsas mərkəzlərdən birinə çevrilmişdi.

c) Elmi-texniki kitabxanalar

Müharibədən sonrakı beşillik dövründə respublikamızda başqa elmi kitabxanalarla yanaşı, elmi-texniki kitabxana şəbəkəsi də xeyli genişləndi. Mərkəzi elmi-texniki kitabxanalarla yanaşı, sahəvi və zavod, fabrik texniki kitabxana şəbəkəsi daha da təkmilləşmişdi. Respublikamızda «Azərneft» Birliyi ən böyük texniki kitabxana şəbəkəsinə malik idi. Bu şəbəkəyə Respublika Elmi-Texniki Kitabxanası rəhbərlik edirdi. Bu kitabxana bilavasitə «Azərneft» Birliyinə tabe olmasına baxmayaraq, öz fondunun xarakterinə görə universal mərkəzi elmi-texniki kitabxana hesab olunurdu. Müharibə qurtardıqdan sonra Respublika Texniki Kitabxanası öz qarşısına bilavasitə beşillik planın əsas vəzifələrinin yerinə yetirilməsinə xidmət etmək, texniki bilikləri təbliğ etmək, xalq təsərrüfatının bu və ya digər sahəsində çalışan mühəndis-texniki işçilərin, yenilikçi fəhlələrin texniki biliklərinin daha da yüksəlməsinə kömək etmək, məlumat-biblioqrafiya xidmətini daha da yaxşılaşdırmaq vəzifəsini qoymuşdu. Bu vəzifələri yerinə yetirmək üçün kitabxana müntəzəm olaraq kitab fondunu yeni ədəbiyyatla komplektləşdirir, rus və Azərbaycan dillərində nəşr edilən bütün qiymətli texniki ədəbiyyatı əldə edir, texniki jurnalların vaxtında oxuculara çatdırılmasını təmin edir, kitabxanalararası abonementdən hərtərəfli istifadə edirdi. Kitabxanaya yeni oxucular cəlb edilməsinə, onlara xidmət işinin səmərəli təşkilinə xüsusi diqqət yetirilir, geniş kütləvi və məlumat-bib-

lioqrafiya işləri aparılırdı. Kitabxanada texniki dərnəklər, kitab müzakirələri, yeni kitabların sərgisi, konfranslar təşkil edilirdi.

Müharibədən sonrakı illərdə texniki ədəbiyyat nəşrinin genişlənməsi kitabxanaya öz fondunu sürətlə zənginləşdirmək imkanı vermişdi. Kitabxana 1946-1951-ci illər arasında 41798 nüsxə yeni ədəbiyyat almağa müvəffəq olmuşdu. Kitabxananın fondu 1946-cı ildəki 76525 nüsxədən 1952-ci ildə 117401 nüsxəyə çatmışdı[106].

Məlum olduğu kimi, ölkəmizdə texnikanın inkişafında texniki jurnalların xüsusi rolu vardır. Müasir texniki tərəqqi, texniki kəşflər, səmərələşdirici təkliflər ilk növbədə öz əksini texniki jurnallarda tapır. Məhz buna görə kitabxana texniki jurnalların əldə edilməsinə, onlarla səmərəli iş aparılmasına, hər bir jurnalın məzmununun oxucular qarşısında açılmasına xüsusi diqqət yetirirdi. 1946-1951-ci illərdə kitabxanaya 7614 nüsxə texniki jurnal daxil olmuşdu[107].

Kitabxana müharibədən sonrakı illərdə oxuculara texniki xidmət işini yaxşılaşdırmaq, xüsusilə neft sənayesinin görkəmli mütəxəssislərini, mühəndis-texniki işçilərini, səmərələşdiricilərini, qabaqcıl fəhlələri oxucular sırasına cəlb etmək, onları elm və texnikanın son nailiyyətləri, yeni elmi kəşflər, texniki yeniliklərlə tanış etmək sahəsində xeyli iş görə bilmişdi. Kitabxananın məlumat-bblioqrafiya aparatı yenidən qurulmuş, yeni sahəvi kartotekalar yaranmış, müntəzəm olaraq yeni ədəbiyyatın sərgisi təşkil edilmiş, yeni kitabların aylıq məlumat bülleteni buraxılıb mütəxəssislərə göndərilmişdi. Kitabxana xarici texniki ədəbiyyatı yaymaq üçün xüsusi iş aparırdı. Mütəxəssislərə vaxtaşırı xarici ədəbiyyat haqqında məlumat verilirdi, lazım gəldikdə ədəbiyyatın tərcümə edilməsi işi təşkil edilirdi.

Kitabxana «Azərneft» Birliyinə tabe olan bütün texniki kitabxanalarda metodik mərkəz rolunu oynayır, texniki kitabxanaların kitabxanaçıları üçün vaxtaşırı seminarlar, metodik müşavirələr keçirir, kurslar təşkil edir, məsləhətlər

verirdi. Həmçinin kitabxanalararası abonement yolu ilə texniki kitabxanalar kitabla da təmin edilirdi.

Kitabxananın gördüyü tədbirlər nəticəsiz qalmırdı. Onun oxucuları ildən-ilə artır, kitab verilişi çoxalırdı. Kitabxananın daimi oxucularının sayının artması kitab dövriyyəsinin çoxalmasına, texniki tərəqqidə iştirak edən mühəndis-texniki işçilərin və yenilikçi fəhlələrin ümumi səviyyəsinin yüksəldilməsinə səbəb olurdu.

Kitabxana 6 il müddətində 8802 oxucuya xidmət etmiş,onlara 700 min nüsxəyə qədər ədəbiyyat vermişdi[108]. Bu o dövr üçün çox böyük rəqəm idi.

ç) Ali məktəb kitabxanaları

Müharibədən sonrakı illərdə respublikamızda yüksək ixtisaslı mütəxəssis kadrlara əmələ gələn böyük ehtiyacla əlaqədar olaraq ali təhsil sistemi sürətlə inkişaf etməyə başladı. Yüksək ixtisaslı kadrların hazırlanmasında ali məktəb kitabxanalarının əhəmiyyəti olduqca böyükdür. Məhz buna görə bu dövrdə ali məktəb kitabxanalarının inkişaf etdirilməsinə, onun maddi-texiki bazasının möhkəmləndirilməsinə, kadr tərkibinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirildi. Müharibədən sonrakı illərdə 3 yeni ali məktəb kitabxanası təşkil edilərək, onların sayı 1952-ci ildə 20-yə çatdırıldı. Əgər ali məktəb kitabxanaları 1946-cı ildə 19,6 min tələbəyə xidmət edirdisə, 1952-ci ildə oxucuların sayı 31,2 min nəfərə çatmışdı[109].

Müharibə illərində ali məktəb kitabxanaları çox zərər çəkmişdi. Bir sıra ali məktəblərin birləşdirilməsi, kitabxanaların başqa binalara köçürülməsi kitab fondlarına böyük zərər vurmuşdu. Qarşıda qısa müddətdə kitabxana fondlarını bərpa etmək, onu yeni ədəbiyyatla komplektləşdirmək vəzifəsi dururdu.

Ali məktəbin professor-müəllim və tələbə heyətinin durmadan artan tələbatını ödəmək üçün ali məktəb kitabxanaları öz fondlarını sürətlə bərpa etməyə başladılar. Ali

məktəblər fondun təkmilləşməsi, dərsliklərin, dərs vəsaitlərinin, nadir nüsxələrin əldə edilməsi üçün lazımi miqdarda vəsait ayırır, kitabxana binalarını yaxşılaşdırır, oxu zalları təşkil edirdilər.

Ali məktəb kitabxanalarının fondunun sürətli inkişafını Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət Neft Akademiyasının timsalında görmək olar. Əgər 1946-cı ildə universitet kitabxanasının fondunda 250 min nüsxə kitab var idisə, onların sayı 1952-ci ildə 450 minə, Neft Akademiyası kitabxanasının isə həmin illərdə fondu müvafiq şəkildə 104695 nüsxədən 180420 nüsxəyə çatmışdı.

Kitab fondu ilə yanaşı, oxucuların sayı da 2 dəfəyə qədər armışdı. 1946-cı ildə universitet kitabxanası 2326 oxucuya xidmət etmiş və onlara 257141 nüsxə kitab vermişdisə, 1952-ci ildə oxucuların sayı 4301 nəfərə, kitab verilişi isə 276378 nüsxəyə çatmışdı[110].

Neft Akademiyasının kitabxanası 1946-cı ildə 4140 oxucuya xidmət etmiş və onlara 177306 nüsxə kitab vermişdisə, 1952-ci ildə 4554 oxucuya 221990 nüsxə kitab vermişdi[111].

Göründüyü kimi, müharibədən sonrakı illər ali məktəb kitabxanalarının durmadan inkişaf edib təkmilləşdiyi illər olmuşdur. Məhz bu illərdə ali məktəb kitabxanalarının fondu zənginləşmiş, maddi-texniki bazası möhkəmlənmiş, oxuculara xidmət işi keyfiyyətcə yaxşılaşmışdı.

d) Tibb kitabxanaları

Müharibədən sonrakı illərdə respublikamızın elmi kitabxana şəbəkəsi içərisində tibb kitabxanalarının da xüsusi mövqeyi var idi. Bu, hər şeydən əvvəl respublikamızda yeni tibb elmi müəssisələrinin yaranması, tibb elminin geniş inkişafı, həmçinin geniş zəhmətkeş kütlələri arasında tibb ədəbiyyatına əmələ gələn böyük tələbatla əlaqədar idi. Bu dövrdə tibb kitabxanalarının sayı surətlə çoxalmağa başladı. Əgər 1945-ci ildə respublikada 83837 nüsxə kitab fonduna

malik olan cəmi 13 tibb kitabxanası var idisə, artıq 1953-cü ildə 753966 nüsxə kitab fondu olan 77 tibb kitabxanası fəaliyyət göstərirdi. Yəni müharibədən sonrakı illərdə 64 yeni kitabxana yaranmış və onların fondu 9 dəfədən çox artmışdı[112].

Naxçıvan MSSR-də, Dağlıq Qarabağ Muxtar Vilayətində, Gəncədə mərkəzi tibb kitabxanalarının təşkili, bir çox böyük rayon xəstəxanalarının yanında tibb kitabxanalarının yaranması respublikamızın həyatında böyük mədəni əhəmiyyət kəsb edir. Bakıda bir sıra böyük elmi-tədqiqat institutlarının yanında tibb kitabxanaları fəaliyyətə başlamışdı ki, bu da elmi tibb ədəbiyyatının toplanması və mütəxəssislər arasında yayılması üçün əlverişli şərait yaradır.

Məhz buna görə müharibədən sonrakı illərdə tibb kitabxanalarında oxucuların sayı və kitab verilişi əhəmiyyətli dərəcədə artmışdı. Əgər tibb kitabxanaları 1945-ci ildə 1543 oxucuya xidmət etmiş və onlara 25162 nüsxə kitab vermişdisə, 1952-ci ildə oxucuların sayı 18272 nəfərə, kitab verilişi isə 401429-a çatmışdı. Deməli, 1945-1952-ci illərdə oxucuların sayı 12, kitab verilişi isə 16 dəfəyə qədər artmışdı. Bu rəqəmlər müharibədən sonrakı illərdə respublikamızda tibb ədəbiyyatına böyük tələbat yarandığını bir daha təsdiq edir.

Bütün tibb kitabxanaları: mərkəzi, elmi-tədqiqat institutu, xəstəxana, ali və orta ixtisas məktəblərinin kitabxanaları Azərbaycan SSR Səhiyyə Nazirliyinə tabe edilmişdi. Səhiyyə Nazirliyinin kitabxana şəbəkəsinə metodik rəhbərlik Bakı Mərkəzi Tibb Kitabxanasına həvalə edilmişdi. Bakı Mərkəzi Tibb Kitabxanası respublikamızda tibb kitabxana şəbəkəsinin təşkili, inkişafı və formalaşmasında yaxından iştirak edirdi. Bu kitabxana oxuculara xidmət işini yaxşılaşdırmaqla yanaşı, yeni kitabxanaların təşkilində böyük rol oynayır, lazım gəldikdə onları kitabxana texnikası ilə təmin edir, metodik göstərişlər verir, Səhiyyə Nazirliyi üzrə kitabxana işinə dair hazırlanan sərəncam və təlimatların tərtibin-

də yaxından iştirak edirdi. Kitabxana vaxtaşırı kurslar, seminarlar, söhbətlər təşkil etmək və metodik məktublar tərtib etmək vasitəsi ilə tibb kitabxana işçilərinin ixtisasının təkmilləşməsinə kömək göstərirdi. Müharibədən sonrakı illərdə kitabxananın fondu, oxucularının sayı sürətlə inkişaf etmiş, geniş məlumat-biblioqrafiya və kütləvi işlər təşkil edilmişdi.

V fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı

[1] 1946-1950-ci illərdə SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik plan haqqında Qanun.- Bakı, 1946.
[2] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 41.
[3] Материалы к истории библиотечного дела в СССР (1917-1959 гг.).- Л., 1960, с. 154-155.
[4] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 1, s. 172.
[5] Yenə orada, v. 115.
[6] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 394, v. 2.
[7] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 54, v. 7.
[8] Yenə orada, v. 1.
[9] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 41, v. 11.
[10] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 102, v. 25.
[11] Yenə orada, v. 26.
[12] Yenə orada, iş 45, v. 44-45.
[13] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 383, v. 51.
[14] Yenə orada.
[15] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 40, v. 66-71.
[16] Yenə orada, iş 106, v. 74-77.
[17] Yenə orada, iş 28, v. 74.
[18] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 28, v. 74.
[19] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 102, v. 74-75.
[20] Yenə orada, v. 75.
[21] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 104, v. 14.
[22] Yenə orada, iş 78, v. 39-42.

[23] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 394, v. 9.
[24] Təbliğat və təşviqat məsələlərinə dair Azərbaycan K(b)P MK-nın qərarları, (1948-1950).- Bakı, 1950, s. 54.
[25] Yenə orada, s. 55.
[26] Təbliğat və təşviqat məsələlərinə dair Azərbaycan K(b)P MK-nın qərarları, (1948-1950).- Bakı, 1950, s. 59.
[27] Təbliğat və təşviqat məsələlərinə dair Azərbaycan K(b)P MK-nın qərarları, (1948-1950).- Bakı, 1950, s. 5.
[28] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 67, v. 3.
[29] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 796, v. 2.
[30] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 67, v. 7.
[31] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 240, iş 66, v. 9.
[32] Azərbaycan SSR MN arxivi, f. 10, s. 4, iş 60, v. 43.
[33] Yenə orada, v. 43-44.
[34] Yenə orada, v. 42.
[35] Yenə orada.
[36] Yenə orada.
[37] Azərbaycan SSR MN arxivi, f. 10, s. 4, iş 67, v. 3.
[38] Azərbaycan SSR MN arxivi, f. 10, s. 4, iş 67, v. 3.
[39] Yenə orada, v. 6-7.
[40] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 88, v. 70.
[41] Yenə orada.
[42] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 85, v. 72.
[43] Yenə orada, v. 73.
[44] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 85, v. 73.
[45] Yenə orada, v. 76.
[46] Yenə orada, v. 39.
[47] Sov. İKP MK yanında MLİ Azərbaycan filialının partiya arxivi, f. 1. s. 238, iş 299, v. 24.
[48] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 85, v. 77.
[49] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 85, v. 76.
[50] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 54, v. 1.
[51] Azərbaycan SSR OİMDA, Bakı filialı, F. 95, s. 1, iş 51,v. 4.
[52] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 119, v. 1-2.
[53] Azərbaycan SSR OİMDA, Bakı filialı, F. 95, s. 1, iş 43, v. 1-4.
[54] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 65, v. 90.
[55] Azərbaycan SSR OİMDA, Bakı filialı, F. 95, s. 1, iş 43, v. 4-9.

[56] Yenə orada, v. 1-4.
[57] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 119, v. 1-3.
[58] Azərbaycan SSR OİMDA, Bakı filialı, F. 95, s. 1, iş 43, v. 2-9.
[59] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 119, v. 2-3.
[60] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 103, v. 98.
[61] Yenə orada, s. 4, iş 54, v. 70.
[62] Yenə orada, v. 48.
[63] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 88, v. 5-7.
[64] Культурное строительство Азербайджанской ССР. Статистический сборник. Bakı, 1961, s. 88.
[65] Баку в цифрах. Статистический сборник. Бакы, 1967, s. 87.
[66] «Təbliğatçı» jurnalı, 1948, № 12, s. 53-54.
[67] Культурное строительство Азербайджанской ССР. Статистический сборник. Bakı, 1961, s. 92.
[68] Yenə orada.
[69] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 54, v. 1.
[70] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 95, v. 27.
[71] Yenə orada, v. 6-12.
[72] Культурное строительство Азербайджанской ССР. Статистический сборник. Bakı, 1961, s. 88.
[73] Azərbaycan SSR MN arxivi, f. 10, s. 4, iş 54, v. 84-85.
[74] Yenə orada, s. 4, iş 192, v. 31.
[75] Azərb. SSR OİMDA, f. 1114, s. 5, iş 174, v. 177.
[76] Культурное строительство Азербайджанской ССР. Статистический сборник. Bakı, 1961, s. 92.
[77] Azərb. SSR OİMDA, f. 1114, s. 5, iş 1110, v. 34-38.
[78] Yenə orada, v. 36-38.
[79] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 65, v. 52-53.
[80] Azərb. SSR OİMDA, f. 1114, s. 5, iş 1165, v. 79.
[81] Yenə orada, iş 129, v. 27.
[82] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 175, v. 17.
[83] Yenə orada, f. 10, s. 2, iş 72, v. 1.
[84] Yenə orada, iş 115, v. 25.
[85] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 88, v. 140.
[86] Yenə orada, v. 141.
[87] Azərbaycan SSR MN arxivi, f. 10, s. 4, iş 48, v. 69-70.
[88] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 65, v. 37.
[89] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 28, 30, 31, 32.
[90] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 87, v. 9.
[91] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 36, v 8-10

[92] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 65, v. 37.
[93] Yenə orada, iş 87, v. 8-13.
[94] Bu rəqəmlər M.F.Axundov adına Respublika Kitabxanasının illik hesabatları əsasında ümumiləşdirilmişdir.
[95] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 32, v 15-17.
[96] Yenə orada, f. 1, iş 36, v. 9-10.
[97] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 66, v. 37-40.
[98] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 87, v. 8-13.
[99] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 36, v. 1-27.
[100] M.F.Axundov adına Respublika Kitabxanasının arxivi, f. 1, iş 36, v. 1-27.
[101] Azərbaycan SSR MN arxivi, f. 10, s. 2, iş 87, v. 8-13.
[102] Yenə orada, iş 65, v. 37-42.
[103] История Азербайджана в трех томах, т. III часть II, Бакы, 1963, səh. 232.
[104] «Вышка» qəzeti, 1946, 19 dekabr.
[105] Azərbaycan SSR EA Elmi Kitabxanasının arxivi, 1945-1950-ci illərə dair kitabxananın hesabatları.
[106] Respublika Elmi-Texniki Kitabxanasının arxivi. Kitabxananın 1946-1952-ci illərə dair hesabatları.
[107] Yenə orada.
[108] Respublika Elmi-Texniki Kitabxanasının arxivi. Kitabxananın 1946-1952-ci illərə dair hesabatları.
[109] История Азербайджана в трех томах, т. III часть II, Бакы, 1963, səh. 223.
[110] Bakı Dövlət Universiteti kitabxanasının 1946-1952-ci illərə dair hesabatları.
[111] M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu kitabxanasının 1946-1952-ci illərə dair hesabatları.
[112] Azərbaycan Dövlət Tibb Kitabxanasının arxivi. 1946-1953-cü illərə dair hesabatları.

MÜNDƏRİCAT

I fəsil. XX əsrin əvvəllərində Azərbaycanda kitabxana işi (1901-1920-ci illər) 3
§1.1. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və iqtisadi hərəkatın kitabxana işinə təsiri 3
§1.2. XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi, mətbuat və kitab nəşri 5
§1.2.1. Xalq maarifi 5
§1.3. Mətbuat 10
§1.4. Kitab nəşri 14
§1.5.1901-1918-ci illərdə Azərbaycanda kitabxana işi 22
§1.5.1. Bakı və onun rayonlarında kitabxana işi 29
§1.5.2. Bakı Bələdiyyə idarəsinin kitabxanası 38
§1.5.3. Bakı şəhər idarəsinin kitabxanası 42
§1.5.4.XX əsrin əvvəllərində Bakı kəndlərində kitabxana işi 42
§1.5.5. XX əsrin əvvəllərində Bakı və onun rayonlarında fəaliyyət göstərən qeyri-dövlət təşkilatlarının və cəmiyyətlərin kitabxanaları 47
§1.5.6. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Kitabxanaları 49
§1.5.7. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Ağşəhər kitabxanası 54
§1.5.8. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Bayıl (Bibiheybət) kitabxanası 56
§1.5.9. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Balaxanı kitabxana-qiraətxanası 59
§1.5.10. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Sabunçu kitabxanası 64
§1.5.11. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Şəhər idarəsi xüsusi kitabxanası 68
§1.5.12. XX əsrin əvvəllərində Bakı və onun rayonlarında yaranmış xeyriyyə cəmiyyətlərinin kitabxanaçılıq fəaliyyəti 77
§1.5.13. Azərbaycanın qəza şəhərlərində və kənd rayonlarında kitabxana işi 88
§1.5.14. Gəncədə kitabxana-qiraətxanalar 88
§1.5.15. Ordubad qiraətxanası 91
§1.5.16. Şamaxı kitabxanası 94
§1.5.17. Şəki (Nuxa) kitabxana-qiraətxanası 99
§1.5.18. Salyan kitabxanası 103
§1.5.19. Şuşa qiraətxanası 105
§1.5.20. Azərbaycanda 1910-1918-ci illərdə fəaliyyət göstərən digər qiraətxana və kitabxanalar 107
§1.5.21.Azərbaycan Xalq Cümhuriyyətinin yaranması 116
§1.5.22.Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Azərbaycanda kitabxana işi (1918-1920-ci illər) 132
I fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı 147

II fəsil. XX əsrin 20-ci illərində Azərbaycanda kitabxana işi (1920-1929-cu illər) 151
§ 2.1. Azərbaycanda Sovet hakimiyyətinin qurulması 151
§ 2.2. Xalq təhsili və maarif işi 156
§ 2.3. Savadsızlığın ləğvi 164
§ 2.4. Yeni əlifbanın qəbulu 166
§ 2.5. Kitab nəşri 169
§ 2.6. Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində kitabxana

işinin təşəkkülü, əhaliyə kitabxana xidmətinin sovet sisteminin formalaşması (1920-1930-cu illər) 177
§ 2.6.1. Yeni iqtisadi siyasət və xalq təsərrüfatının bərpası illərində Azərbaycanda kitabxana işi. Kütləvi kitabxanalar 203
§ 2.6.2. Bərpa illərində Bakı və onun rayonlarında kitabxana işi 210
§ 2.6.3. Kənd kitabxanaları və qiraət komaları 212
§ 2.6.4. Şəhər kütləvi kitabxanaları 224
§ 2.7. Sənayeləşmə və I beşillik dövründə Azərbaycanda kitabxana işi (1926-1932-ci illər) 229
§ 2.7.1. Kənd kitabxanaları və qiraət komaları 229
§ 2.7.2. Bakı və onun rayonlarında kitabxana işi 239
§ 2.7.3. Mədəni yürüş 254
§ 2.7.4. Şəhər kitabxanalarının kənd kitabxanalarına hamiliyi 257
§ 2.7.5. Kitabxana hərəkatı 258
§ 2.7.6. Birinci beşillik dövründə kənddə kitabxana işi 262
§ 2.7.7. Birinci beşillik dövründə Bakı və onun rayonlarında kitabxana işi 265
§ 2.7.8. M.F.Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanası 20-ci illərdə 270
§ 2.7.9. Ayrı-ayrı idarə və müəssisələrin kitabxanaları. Ordu kitabxanaları 20-ci illərdə 278
§ 2.7.10. Partiya kitabxanaları 20-ci illərdə 281
§ 2.7.11. Azərbaycan Həmkarlar İttifaqı Kitabxanaları 20-ci illərdə 288
§ 2.7.12. Elmi və xüsusi kitabxanalar 299
§ 2.7.13. Bakı Dövlət Universitetinin kitabxanası 300
§ 2.7.14. Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyətinin kitabxanası 319
II fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı 324

III fəsil XX əsrin 30-40-cı illərində Azərbaycanda kitabxana işi 338
§ 3.1. Xalq təsərrüfatının yenidən qurulmasının başa çatdırılması illərində Azərbaycanda kitabxana işi Mədəni quruculuq yeni mərhələdə 342
§3.2. Kitabxana işi sahəsində mühüm dövlət sənədləri. Kütlələr arasında ideya-tərbiyə və mədəni-maarif işinin təşkilində kitabxanaların rol və əhəmiyyətinin yüksəlməsi 346
§ 3.3. Əhaliyə kitabxana xidmətinin yeni forma və üsullarının təşəkkülü və formalaşması. Kütləvi kitabxana şəbəkəsinin inkişafı 352
§ 3.3.1. Bakı və onun rayonlarında kitabxana işi 365
§ 3.3.2. Həmkarlar İttifaqı kitabxanaları 372
§3.3.3 Kənd kitabxanalarının inkişafı 377
§ 3.3.4. Uşaq və məktəb kitabxanaları 390
§ 3.3.5. Elmi və xüsusi kitabxanaların inkişafı Kitabxanaçılıq təhsili 398
§ 3.3.6. M.F.Axundov adına Azərbaycan Dövlət Ümumi Kitabxanası 402
§ 3.3.7.SSRİ EA Azərbaycan filiallarının kitabxanası 410
§ 3.3.8. Elmi-texniki kitabxanalar 413
§ 3.3.9. Ali məktəb kitabxanaları 418
§ 3.3.10. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası 420
§ 3.3.11. Kitabxanaçılıq təhsili 425
III fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı 429

IV fəsil. Böyük Vətən müharibəsi illərində Azərbaycanda kitabxana işi (1941-1945-ci illər) 438
§ 4.1. Müharibə şəraiti ilə əlaqədar olaraq kitabxana işinin yenidən qurulması. Azərbaycan kitabxanaları faşizm üzərində qələbənin xidmətində 438
§ 4.2. Böyük Vətən müharibəsi illərində zəhmətkeşlərin ideya-siyasi tərbiyəsində kütləvi kitabxanaların fəaliyyəti 446
a) Bakı şəhər kütləvi kitabxanaları cəbhəyə və ölkəyə ümumxalq yardımının ön sırasında 446
b) Həmkarlar İttifaqı kitabxanaları müharibə illərində 455
c) Müharibə illərində kənd zəhmətkeşlərinə kitabxana xidməti; məhsul uğrunda kənd zəhmətkeşlərinin mübarizəsində kitabxanaların iştirakı 459
ç) Uşaq və məktəb kitabxanaları müharibə illərində 469
§ 4.3.Elmi və xüsusi kitabxanalar Böyük Vətən müharibəsi illərində 471
a) M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası müharibə illərində 471
b) SSRİ EA Azərbaycan filialının kitabxanaları müharibə illərində 477
c) Respublika elmi-texniki kitabxanaları müharibə illərində 479
ç) Ali məktəb kitabxanaları müharibə illərində 482
d) Respublika Elmi Tibb Kitabxanası müharibə illərində 484
IV fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı 486

V fəsil. Xalq təsərrüfatının bərpa və inkişafı dövründə Azərbaycanda kitabxana işi (1946-1952-ci illər) 491
§ 5.1. Kitabxana şəbəkələrinin bərpa və inkişaf etdirilməsi 491
§ 5.2. Kitabxana işinə rəhbərlik sisteminin yenidən qurulması. Kütləvi kitabxana şəbəkəsinin bərpa və inkişafı. Kitabxanaçılıq təhsili 495
a) Şəhər əhalisinə kitabxana xidmətinin təşkili 516
b) Kənd kitabxana şəbəkəsinin daha da inkişaf etdirilməsi 522
c) Həmkarlar İttifaqı kitabxanaları 527
ç) Uşaq və məktəb kitabxanaları 530
§ 5.3. Elmi və xüsusi kitabxanalar 533
a) M.F.Axundov adına Azərbaycan Dövlət kitabxanası 533
b) Azərbaycan SSR EA kitabxanaları 538
c) Elmi-texniki kitabxanalar 541
ç) Ali məktəb kitabxanaları 543
d) Tibb kitabxanaları 544
V fəslə aid istifadə olunmuş ədəbiyyatın siyahısı 546

Mündəricat 550

Çapa imzalanmışdır: 13.11.2007.
Formatı 60x84 1/16. Sifariş №162
Həcmi 34,5 ç.v. Sayı 350.

«Bakı Universiteti» nəşriyyatı,
Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23.

4.73
X-48



Əməkdar elm xadimi, Əmə
dəniyyət işçisi, BMT yanında Be
İnformasiyalaşdırma Akademiyasının akademiki, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov 50 ildir ki, Bakı Dövlət Universitetində səmərəli elmi-pedaqoji fəaliyyət göstərir. Milli kitabxanaşünaslıq elminin banisi, Azərbaycanda kitabxana işi tarixinin ilk tədqiqatçısı, respublikamızda ali təhsilli kitabxanaşünas-biblioqraf və kitabşünaslar hazırlayan fakültənin ilk yaradıcısı kimi professor A.Xələfovun adı vətənimizin sərhədlərindən çox-çox uzaqlarda da məşhurdur.

Professor Abuzər Xələfov Kitabxanaçılıq-informasiya fakültəsinin ilk dekanı olmuş, 25 il fasiləsiz olaraq bu vəzifədə çalışmışdır. 1963-cü ildən bu günə kimi 45 ildir ki, "Kitabxanaşünaslıq" kafedrasının müdiri vəzifəsində işləyir. Öz fəaliyyəti dövründə 15 nəfər elmlər namizədi və elmlər doktoru yetişdirmiş, 20-dən artıq namizədlik və doktorluq dissertasiyasının opponenti kimi çıxış etmişdir.

Professor A.Xələfov 250-dən artıq elmi əsərin, 25-dən artıq monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir.

2000-ci ildə professor A.A.Xələfov Azərbaycanda kitabxanaşünaslıq elminin və ali kitabxanaçılıq təhsilinin inkişafındakı xidmətlərinə görə Prezident Heydər Əliyevin fərmanı ilə "Şöhrət ordeni" ilə təltif edilmişdir.

Professor A.A.Xələfovun geniş oxucu auditoriyasına təqdim olunan "Azərbaycanda kitabxana işinin tarixi" adlı fundamental dərsliyinin ikinci hissəsi müəllifin gərgin əməyinin nəticəsi olub, milli tariximizin əsas tərkib hissələrindən olan elm və mədəniyyət ocaqlarının - XX əsr Azərbaycan kitabxanalarının tarixinə və inkişaf problemlərinə həsr olunmuşdur.